NOVRUZ MƏMMƏDOV



XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

Novruz Məmmədov

XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

Məqalələrdən seçmələr (1997-2011)

10270

ÇAŞIOĞLU
2012

Novruz Məmmədov. Xarici siyasətin Azərbaycan modeli.
Məqalələrdən seçmələr (1997-2011). Bakı, Çaşıoğlu, 2012.– 464 s.

M $\frac{0803010100-635}{082-12}$

© **N. Məmmədov**, 2012

MÜƏLLİFDƏN

Bu kitabda Azərbaycan Respublikasının müstəqillik illərində xarici siyasət məsələlərinə dair müxtəlif dövrlərdə nəşr olunan məqalələrimin bir hissəsi toplanmışdır. Siyasi düşüncələrimi əks etdirən bu əsərlərin sistemləşdirilməsinin Azərbaycanın xarici siyasətinin müxtəlif istiqamətlərinin təzahürü baxımından faydalı olacağını düşünürəm. Eyni zamanda oxucuların ölkəmizin müstəqilliyinin bərpasından keçən dövrün hər ilinin çağırışlarını və Azərbaycanın inkişafının bu gününə gətirən tarixi proses və məqamları daha yaxından tanış olmaq və yada salmaq imkanı olacaqdır.

Tale elə gətirmişdir ki, seçdiyim fransız dili ixtisası məni xarici siyasətə hər zaman yaxın etmişdir. Hələ Fransız dili və ədəbiyyatını öyrənərkən belə ölkələrarası siyasi məqamları nəzərə almalı olmuşuq. Sovet dövründə Afrika ölkələrində tərcüməçi işləməklə diplomat peşəsi ilə yaxından tanış olmaq imkanımız yaranmışdı. Müstəqil Azərbaycanın xarici siyasət sahəsinə qoşulmağım isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün böyük fərəh hissi ilə qeyd edirəm ki, əsrimizin dahi şəxsiyyəti, dünya miqyaslı siyasətçi Heydər Əliyevin yanında işləmək xoşbəxtliyi mənə də nəsib olmuşdur. Bütün tarixi epoxa üçün fenomenal bir şəxsiyyət olan Heydər Əliyevlə bağlı düşüncələrim zaman-zaman dövrü mətbuatda əks olunmuşdur. Ulu Öndər Zirvədə dayanan lider, Böyük yolun yolçusu, Əfsanəni reallığa çevirən şəxsiyyət, Hər bir millətə şərəf gətirəcək insandır. Heydər Əliyev xarici siyasətin Azərbaycan modelinin yaradıcısıdır. Balanslaşdırılmış xarici siyasət, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu tərəfdaşlıq və müstəqil xarici siyasət prinsiplərinə söykənən praqmatik siyasi kurs Heydər Əliyev dühasının müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyasına gətirdiyi amillərdir ki, bu gün də həmin ənənələrin davam etdirilməsi hesabına Azərbaycan yeni bir mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xarici siyasi kursu davam etdirərək ölkəmizin mövqeyini beynəlxalq müstəvidə daha da möhkəmləndirir. Azərbaycan 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir və bu ölkəmizin taleyində yeni mərhələdir. Tarix göstərdi ki, Heydər Əliyevin xarici siyasət kursunun davam etdirilməsi Azərbaycanın uğurlu inkişafına təminatdır.

Azərbaycanın coğrafi, eləcə də geosiyasi mövqeyi onun xarici siyasətinin müəyyənləşdirilməsində başlıca rol oynayır. Respublikamız Şərqlə Qərbi birləşdirən, Avrasiya məkanında yeni kommunikasiyaların, nəqliyyat və enerji dəhlizlərinin üzərində qovşaq ölkə kimi regionda böyük nüfuz sahibinə çevrilmişdir. Milli maraqların müdafiəsi, dövlətin beynəlxalq

nüfuzunun möhkəmləndirilməsi, ölkənin dünya birliyinə, Avropa və Avratlantik məkana inteqrasiyasının gücləndirilməsi, İslam dünyası və türkdilli ölkələrlə əməkdaşlıq, strateji tərəfdaş, dost və qonşu ölkələrlə münasibətlər, dünya azərbaycanlılarının təşkilatlanıb mütəşəkkil fəaliyyət göstərməsi, Ermənistanın hərbi təcavüzü ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, işğalın nəticələrinin aradan qaldırılması və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi naminə diplomatik səylər xarici siyasətimizin əsas istiqamətlərini təşkil edir. Kitabın növbəti hissəsində bu istiqamətlər üzrə düşüncələrim əks olunmuşdur.

Azərbaycanın beynəlxalq aləmdə imicini formalaşdıran və onun iqtisadi inkişafının özəyi uğurlu neft strategiyasıdır. Ölkəmizin zəngin təbii resurslara, habelə əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də balanslaşdırılmış xarici siyasət yeritməsi onun beynəlxalq mövqelərinin möhkəmlənməsinə yeni imkanlar açır. Heydər Əliyevin memarı olduğu "Əsrin Müqaviləsi"si ilə başlayan yol bu gün Azərbaycanı təkcə neft ölkəsi deyil, həm də region əhəmiyyətli enerji və nəqliyyat qovşağına çevirmişdir. Respublikamız etibarlı tərəfdaşdır, bütün ölkələrlə uğurla əməkdaşlıq edir, öz müttəfiqləri ilə bərabər regional təşəbbüslərlə çıxış edir və qlobal miqyasda dünya ictimaiyyətini narahat edən təhdid və çağırışlara fəal qoşulur. Azərbaycanın Qərbin enerji təhlükəsizliyinin təmin edilməsində iştirakı dövlətimizin regionda və dünyada çəkisini artırır və inteqrasiya prosesinin intensivləşməsinə təkan verir. Azərbaycan həm də yeni mərhələdə Xəzərdə enerji layihələrinin ilk carçısıdır və Xəzərin ədalətli hüquqi statusu bizim xarici siyasətimizdə aparıcı yer tutur. Buna görə də Xəzərin statusu, Xəzəryanı hövzədə əməkdaşlıq və enerji siyasəti mövzuları da bizim tədqiqatımızdan kənar qalmamışdır.

Kitabda xüsusi bir bölmə də Azərbaycanın xarici siyasətinin ən vacib vəzifəsi olan Dağlıq Qarabağ problemi ilə bağlı məsələlərə həsr olunmuşdur. Dağlıq Qarabağ problemi son yüz ildə Azərbaycanı dəfələrlə narahat edən və sınaq qarşısında qoyan və eyni zamanda ölkəmizin gələcək taleyini müəyyənləşdirəcək bir çağırışdır. Buna görə də mənim tədqiqatlarımda bu mövzu gələcək həll imkanları ilə bərabər, tarixi müstəvidə də konseptual baxış prizması olmuşdur.

Kitab Azərbaycanın dövlətçilik tarixi və xarici siyasəti ilə bağlı aktual mövzularla maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Eyni zamanda müstəqillik tariximizin xarici siyasətinin mühüm məqamları bu sahə ilə məşğul olan mütəxəssislər, elmi və akademik dairələrin nümayəndələri, eləcə də diplomatlar üçün maraqlı ola bilər.

XARİCİ SİYASƏTDƏ LİDERLƏR

Zirvədə dayanan Lider

XX əsr liderlər əsridir. Əsrin lideri isə Heydər Əliyevdir.
Eduard Şevardnadze
Gürcüstanın keçmiş Prezidenti.

Hər bir xalqın tarixdəki yeri və rolu hansısa mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri formalaşdırmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Bugünün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur magistralından kənarda təsəvvür etmirlər.

Ruslar üçün bu şəxsiyyət Rusiya dövlətinin müasir dövlətçilik ənənələrini təmin etmiş I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün, şübhəsiz, Heydər Əliyevdir! Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixində və taleyində parlaq, silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəkası, fitri istedadı, dövlətçilik təfəkkürü ilə seçilən nəhəng dövlət xadimidir. O, ümummilli lider kimi Azərbaycan dövlətinin, xalqımızın tərəqqi və inkişaf yolunu dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib-hazırlamış, cəmiyyətimizdə köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir. Yuxarıda Heydər Əliyevi digər xalqların dahi nümayəndələri ilə müqayisə edərək onların sırasında görsək də, etiraf etmək lazımdır ki, bu müqayisələrin müxtəlif parametrlərini araşdırsaq Ümummilli liderimizin missiyasının qat-qat çətin, mürəkkəb olduğu şübhəsizdir.

Azərbaycan xalqı Heydər Əliyevin şəxsində öz milli liderini, xilaskarını tapdı. Heydər Əliyevin hələ 1969-cu ildə respublikamızın rəhbəri seçilməsi Azərbaycanın həyatında tarixi tərəqqiyə doğru dönüş mərhələsi oldu. Ulu öndər sərt sovet qadağalarının tüğyan etdiyi bir dövrdə cəsarətli addımlar ataraq milli düşüncənin formalaşmasını əngəlləyən maneələri məharətlə aradan qaldırdı, xalqı yeni tarixi mərhələdə qarşıda duran siyasi, iqtisadi, milli-mənəvi vəzifələrin yerinə yetirilməsinə səfərbər etdi.

Heydər Əliyev yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi çıxış edən rəhbər, böyük dövlət xadimi, islahatçı təfəkkürə malik nəhəng siyasi xadim idi. Böyük öndər Azərbaycanın gələcəkdə müstəqillik qazanacağını irəlicədən müdrikliklə gördüyündən respublikanın iqtisadi, sosial, mədəni potensialını səfərbər edir, müstəqil Azərbaycanın inkişafı və tərəqqisi üçün əlverişli zəmin hazırlayırdı.

1993-cü ilin iyununda xalqın təkidli tələbləri ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə baş verən ictimai-siyasi prosesləri təhlil edərək respublikanın tarixi taleyinin xilası yolunda sarsılmaz siyasi iradə nümayiş etdirdi, qəti addımlar atdı. Bütün tarixi boyunca sərt sınaqlara məruz qalmış Azərbaycanın həyatında Qurtuluş epopeyası başlandı. Həmin dövrdə ölkə daxilində separatizmin cilovlanması, dövlət çevrilişi cəhdlərinin qarşısının alınması, ictimai-siyasi sabitliyin təmin olunması, cəbhədə atəşkəsə nail olunması hesabına əldə edilən siyasi sabitliyin davamı olaraq yeni iqtisadi münasibətlərə keçid, əsaslı islahatların həyata keçirilməsi, milli ordu quruculuğunun əsasının yaradılması, qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması, eləcə də "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni mahiyyət kəsb edən uğurlu xarici strategiyanın formalaşdırılması ümummilli liderin Qurtuluş epopeyasının qürur doğuran səhifələridir. Məhz Azərbaycan xalqının dahi strateqinin hakimiyyətə qayıdışından sonra dövlətimizin müstəqilliyini, xalqımızın əmin-amanlığını qorumağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə qadir olan silahlı qüvvələr yaradıldı. Güclü milli ordumuz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə nizama salınmasının etibarlı təminatçısına çevrildi.

Həmin dövrün ağır və mürəkkəb şərtlərinə baxmayaraq Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət strategiyası müstəqil Azərbaycanın qurtuluşuna, gələcək inkişafının nicat yollarının müəyyənləşdirilməsinə yönəlmişdi. İlkin mərhələdə Azərbaycanın beynəlxalq aləmdə təcrid olunma vəziyyətindən çıxarılmasına, beynəlxalq birliyin fəal iştirakçısı olmağa, tarazlaşdırılmış xarici siyasət, dünya iqtisadiyyatına və Avroatlantik məkana inteqrasiya, Azərbaycanın iqtisadi potensialının ölkənin xarici siyasət mövqelərinin gücləndirilməsinə yönəldilməsi, dünya azərbaycanlılarının təşkilatlanıb mütəşəkkil fəaliyyət göstərməsi, sonrakı mərhələdə isə ölkəmizin regionun iqtisadi mərkəzlərindən birinə çevrilməsi bu strategiyanın fundamental əsaslarını təşkil edərək Azərbaycan xalqının işıqlı gələcəyinə doğru yönəlmişdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etmiş, ölkəmiz dünyanın

nəhəng dövlətləri ilə sıx münasibətlər qurmuş, bir sıra beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul olunmuşdur. Ümummilli liderimizin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarılmış, respublikamız ətrafındakı informasiya blokadası yarılmış, bir sıra ölkələrlə münasibətlərdə yaradılmış əsassız gərginlik aradan qaldırılmışdır.

Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq ideyaları müstəvisində dilimizin, mənəvi dəyərlərimizin qorunması, dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımızın tarixi vətənlə əlaqələrinin gücləndirilməsi məqsədi ilə düşünülmüş tədbirlər görüldü. Dünya azərbaycanlılarının təşkilatlanması və təşkilati strukturların yaradılması, xaricdə Azərbaycan diaspor və icmalarının fəaliyyətinin əlaqələndirilməsi hesabına tarixdə ilk dəfə olaraq bütün dünya üzrə səpələnən soydaşlarımız Heydər Əliyev zirvəsinin ətrafında bir yumruq tək birləşdi.

Azərbaycan beynəlxalq birliyin fəal və dəyərli üzvünə çevrildi. Dövlətimiz Cənubi Qafqaz regionunda sabitləşdirici rol oynayan, demokratik inkişaf yolu ilə qətiyyətlə irəliləyən, Avropa ilə Asiyanı daha sıx bağlayan nəhəng iqtisadi layihələrin təşəbbüsçüsü və təşkilatçısı kimi çox böyük nüfuz və etibar qazandı. Tarixi İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsinə başlanması Azərbaycanın regionda lider mövqelərini daha da möhkəmləndirdi.

Ümummilli liderimizin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verdi. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirildi. Ümummilli liderimizin gərgin fəaliyyəti sayəsində beynəlxalq aləmdə sabit və böyük potensiala malik ölkə kimi tanına Azərbaycana xarici sərmayə axını başlandı. Bu gün ölkəmizin adambaşına düşən xarici investisiya göstəricisinə görə Mərkəzi və Şərqi Avropada lider ölkələrdən bir olması da bu uzaqgörən məqsədyönlü siyasətin nəticəsidir. Neft sektorundan başlayaraq respublikamızın iqtisadiyyatına daxil olan xarici sərmayənin digər sahələrə metallurgiya, maşınqayırma, kimya sənayesinə doğru genişlənməsi isə başlanan uğurlu strategiyanın respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhə-

ləyə qaldırılmasına doğru aparan əməli davamı kimi səciyyələndirilə bilər.

İkitərəfli münasibətlərdə tarazlaşdırılmış xarici siyasətə üstünlük verilməsi Azərbaycanın mövqelərinin gücləndirilməsinə şərait yaratdı. 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Rusiya, İran və Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edilmiş, MDB ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə xüsusi önəm verilmiş, Gürcüstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini vermişdir. Heydər Əliyevin uzaqgörən diplomat xüsusiyyətləri Azərbaycanın keçmiş Sovetlər Birliyi məkanında artıq adi iştirakçı deyil, həm də regional ideyaların təşəbbüskarı olmasının şərtləndirmişdir. Bu xüsusiyyət artıq ümummilli liderin ideya müəlliflərindən olduğu GUAM-ın yaradılmasında və bugünkü fəaliyyətində özünü göstərir.

1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edilmiş və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlanmışdır. Dahi öndərin səsləndirdiyi "bir millət iki dövlət" prinsipi iki qardaş dövlətin strateji tərəfdaşlığının əsası oldu. Beynəlxalq aləmdə bir-birinə daim dəstək verməklə Azərbaycan Respublikasının ümumtürk məfkurəsinin yeni bir havadarı olması da Heydər Əliyevin xidmətidir.

Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olmuşdur. Qərb dövlətlərinin də iştirak etdiyi ikinci neft konsorsiumunda İrana yer ayrılmış, "Şahdəniz" yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə pay verilmişdir.

Azərbaycanın ümumilikdə İslam Ümməti dövlətləri ilə münasibətləri Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində sıx əməkdaşlıq və müsəlman dünyasının yüksək etimadının qazanılmasına səbəb olmuşdur. Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan ölkələrlə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur. İKT tərəfindən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün aradan qaldırılması, işğal olunmuş ərazilərin azad edilməsi və qaçqınların öz doğma torpaqlarına qaytarılmasını tələb edən qətnamələrin qəbul edilməsi də ulu öndərin xarici siyasətinin bəhrələridir.

ABŞ, Britaniya, Fransa, Almaniya, İtaliya, Çin, Yaponiya kimi iri dövlətlərlə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlər qurulmuşdur. Bu, planetin ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən qlobal

məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq aparılmış ardıcıl işin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

Xəzər dənizinin karbohidrogen ehtiyatlarının hasilatı və nəqlində amerikan neft şirkətlərinin Beynəlxalq Neft Konsorsiumunda geniş iştirakı Azərbaycan-ABŞ əlaqələrinin inkişaf etməsinə təkan vermişdir. Artıq Azərbaycan Qərbin, xüsusilə Avropanın enerji təhlükəsizliyində təminatçı olacaq əsas dövlətlərdən birinə çevrilmişdir. ABŞ və onun Avropalı tərəfdaşlarının Cənubi Qafqaz, Xəzər hövzəsi, Mərkəzi Asiya ilə bağlı bütün layihələrində Azərbaycana əsas etibarlı tərəfdaş olaraq baxılır. Bütün bunlar isə Heydər Əliyevin "Əsrin müqaviləsi" ilə əsasını qoyduğu neft strategiyasının təntənəsidir. Onun memarı olduğu yeni neft strategiyası Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirmiş, beynəlxalq nüfuzunu yüksəltmişdir.

Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənmişdir. Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması prosesinə yaxından cəlb edilmiş, dünyanın müxtəlif nöqtələrində olan münaqişələrin aradan qaldırılması istiqamətində sülhməramlı proqramlara qoşulmuş, beynəlxalq terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməmişdir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir. Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənmiş, xarici ölkələrlə, beynəlxalq təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlıq əlaqələri dərinləşmişdir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkana inteqrasiyası Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar o, NATO-nun sammitlərində iştirak etmiş və Şimali Atlantika İttifaqının Azərbaycanla tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar

prosesinin sürətləndirilməsinə, çoxlu sayda layihələrin həyata keçirilməsinə yönəldilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır.

BMT və Azərbaycan hökuməti arasında imzalanmış İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında memorandum Azərbaycanın Avratlantik məkana inteqrasiya sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik inkişaf üçün zəruri olan təsisatlar və möhkəm hüquqi baza yaradılmışdır. Respublikada müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, yüzlərlə mətbuat orqanının senzurasız sərbəst nəşr edilməsi, özəl televiziya və radio kanallarının öz verilişlərini maneəsiz efirə çıxarması siyasi plüralizmin, fikir azadlığı və demokratiya ab-havasının konkret əyani nəticələri kimi qiymətləndirilir.

Bu gün Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Çünki Heydər Əliyev şəxsiyyəti fərdi-subyektiv standartlara, bütövlükdə tarixə, zamana sığmır. Bu tarixi şəxsiyyətin siyasi fəaliyyətinin hər səhifəsi yeni Azərbaycan tarixinin quruculuq mərhələləri ilə üst-üstə düşür, bəzən arxada qalmış o tarixin dərkini şərtləndirir.

Heydər Əliyev siyasi liderliklə milli liderlik keyfiyyətlərini özündə birləşdirən unikal şəxsiyyətlərdən biri kimi dünya siyasi elitasının xüsusi diqqət mərkəzində olmuşdur. Bu fikri Eduard Şevardnadze olduqca orijinal bir formada ifadə etmişdir: "XX əsr liderlər əsridir. Əsrin lideri isə Heydər Əliyevdir."

Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə dünyanın ən nəhəng siyasətçiləri ilə bir sırada özünə əbədi yer almışdır. Onun adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmışdır. Heydər Əliyev kimi dahilər hər əsrin və hər xalqın bəxtinə düşmür!

Heydər Əliyev böyük uzaqgörənliklə: "Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır" demişdir və xalqımız qarşısında göstərdiyi möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazanmışdır.

"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi inkişafına xidmət olmuşdur" - deyən ulu öndər Heydər Əliyevin böyük ideyaları, amalları bu gün də bizim yolumuza nur saçır, xoşbəxt gələcəyə səsləyir.

Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyevin qurub-yaratdığı dövlətə bu gün onun layiqli davamçısı İlham Əliyev rəhbərlik edir, ümummilli liderimizin başladığı taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə həyata keçirir. Heydər Əliyevin qüdrətli zəkasından güc almış inkişaf strategiyası Azərbaycanın müstəqillik yollarında ardıcıl surətdə irəliləməsini təmin edir.

O, sözün əsl mənasında, Vətəninin böyük oğlu, liderlər lideri, bənzərsiz dövlət xadimi idi. O, sağlığında Azərbaycan atası olmağı bacardı, bu zirvəyə ucaldı, xalqın sevgisini qazandı. O, müstəqil Azərbaycanın yaradıcısı, qurucusu, dövlətçiliyimizin qarantı oldu. O, respublikamızı hərtərəfli inkişafa, tərəqqiyə çatdırdı, onun siyasətini, iqtisadiyyatını, elmini, təhsilini, mədəniyyətini dünya standartları səviyyəsinə qaldırdı. 34 illik rəhbərliyi dövründə Vətənimizin ən ağır vaxtlarında, ən çətin məqamlarında belə onu təklənməyə, dağılmağa, parçalanmağa qoymadı. İndi bütün dünyadan səsi eşidilən, böyük dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

Xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əliyevin müasiri olmaq səadəti mənə də nəsib olub. Ağlım kəsəndən onun nümunəsi məni özünə çəkib. Bu qüdrətli insanın ömür yolundan çox təsirlənmişəm. Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb-götürməliyik, hər birimiz onun ibrətamiz həyat yolundan öyrənməliyik. Olbəttə, onun müasiri olub, ondan öyrənməmək qeyri-mümkündür. Ondan öyrənməyin özü böyük xoşbəxtlikdir! Təbii ki, o zirvəyə çatmaq, o zirvəni fəth etmək olduqca çətindir, amma ondan öyrənmək, ondan bəhrələnmək olar...

Mən bu gün fəxrlə deyirəm ki, Heydər Əliyev dövrünün yetirməsiyəm, onun zəmanəsinin övladıyam, onun liderlik məktəbindən dərs almışam. Əslində, o, hər kəlməsi, hər sözü, hər çıxışı, hər hərəkəti ilə insanlara dərs keçirdi. O, bitib-tükənməyən bir xəzinə, bir örnək, Allah tərəfindən Yer üzünə göndərilmiş müqəddəs bir varlıq, xarizmatik bir qüvvə idi. Onun çox

zəngin həyatını, ömür yolunu, titanik fəaliyyətini, Azərbaycan və azərbaycanlılar üçün, bütövlükdə türk dünyası üçün gördüyü misilsiz işləri ifadə etməkdə az qala söz də acizdir. Əslində, bunun üçün qalaq-qalaq, cild-cild kitablar yazılmalıdır və mütləq yazılacaqdır.

Bu gün ümummilli liderimizin fiziki yoxluğunu mən də böyük ürək ağrısı və yanğı ilə yaşayıram. Çünki o, Azərbaycanın itkisidir, bütün türk dünyasının itkisidir. Amma bu cismani yoxluqdur, o, ölməzdir, bizimlədir, nə qədər ki, Azərbaycan adlı məmləkət var, yenə də var olacaq və hər zaman insanlara doğru yol göstərəcək!

Unutmayaq ki, yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə qismət olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman doğulub-böyüdüyü torpaq üçün, xalqı, milləti üçün, Azərbaycan üçün müqəddəslər müqəddəsi olaraq qalacaq! Bu sevgi onun halal haqqıdır!

İllər keçəcək, əsrlər dəyişəcək, amma bir fakt faktlığında qalacaq: dünyanın Atilla, Atatürk, Vaşinqton, Şarl de Qol, Bismark, Ruzvelt, Çörçill kimi siyasi liderləri sırasına Azərbaycan XX əsrdə Heydər Əliyev kimi dahini bəxş etdi! Bu, xalqımızın xoşbəxtliyidir!

Heydər Əliyev hər zaman zirvədə dayandı və indi də zirvədədir. Onun zəngin irsi, ideyaları, xalqına sədaqəti, doğma torpağına bağlılığı Azərbaycan xalqına əbədi mayak olaraq onu həmişə irəli, işıqlı gələcəyə aparacaqdır.

"Heydər Əliyev və Azərbaycan", Bakı, 2008-ci il, s. 116-126

Hər bir millətə şərəf gətirə biləcək insan

"Heydər Əliyev sovet rəhbərliyində o qədər parlaq simа idi ki, onun Sovet İttifaqı rəhbərliyindən kənarlaşdırılması, mən əminəm, SSRİ-nin dağılmasının əsas səbəblərindən biri oldu. Sonralar... onunla artıq Azərbaycanın Prezidenti kimi görüşdük və mən inandım ki, o, hər bir millətə şərəf gətirə biləcək insandır".

Zbiqnev Bjezinski

"Vaxt gələcək, türklərin Şumer dövründən tutmuş zəmanəmizədək tarixi – böyük hadisələrə və Bilgamıs ("Müdrik qəhrəman"), Bilgə xaqan ("Müdrik xaqan"), İltəriş ("Torpaqları birləşdirən"), Atatürk... kimi dahi adlara söykənən tarixi yazılacaqdır.
Bizim zəmanəmiz Ustad titullu layiqli adlarla təmsil ediləcəkdir.
Heydər Əlirza oğlu Əliyev belə Ustadların ən birincilərindəndir".

Oljas Süleymenov

Dünya şöhrətli siyasətçi, dahi dövlət xadimi, bütün varlığını doğma xalqına xidmətə həsr etmiş ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyəti barədə düşüncələrə dalarkən məşhur ingilis tarixçisi və filosofu Tomas Karleylin "Həyat etikası" əsərindən belə bir fikir yada düşür: "Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdir. Onların əməllərinin və əsərlərinin sayəsində dünyanın nuru artır". Tarix bu şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur. Onlar tarixin çağırışına millətin cavab nidası kimi meydana çıxır və tələb olunan zaman özlərini hadisələrin gərgin məqamına çatdırırlar; mövcud vəziyyəti hərtərəfli qiymətləndirib düzgün həll yolunu tapır, bədbinləşmiş, ümidləri boşa çıxmış, məyus həmvətənlərini çox qısa bir zamanda sosial həyata qaytara bilirlər. Xalq öz taleyini onlara etibar edir, bütün məsuliyyət və vəzifələri onların çiyinlərinə qoyur. Heydər Əliyev Azərbaycan xalqı üçün məhz belə bir şəxsiyyətdir. Xalqımız haqlı olaraq öz azadlıq idealının təsdiqini Heydər Əliyevin siyasi əzəmətində görür.

Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Onun qeyri-adi şəxsiyyəti, idarəçilik istedadı, tükənməz enerjisi, misilsiz işgüzarlığı, siyasətçi və dövlət xadiminə xas böyük istedadı müasirlərinə dərin təsir bağışlamış, siyasətçilərin və tədqiqatçıların diqqətini ona cəlb etmişdi. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox kitablarda,

monoqrafiyalarda, tədqiqatçıların əsərlərində Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni səhifələri öz əksini tapır.

Bir çox tədqiqatçılar onu hakimiyyət ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət magiyası ona otuz ildən artıq bir dövrdə, sadəcə, hakimiyyətin zirvəsində qalmağa deyil, həm də milyonlarla insanın sevimlisi, idealı kimi qalmağa imkan vermişdir.

Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə iki əsrin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır. Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyer haqlı olaraq qeyd edirdi ki, "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər".

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən çox vaxt elə bədahətən söylədiyi fikirlərdə parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycn Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi. Görkəmli siyasi xadim, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri Zbiqnev Bjezinski Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən deyirdi: "Heydər Əliyev sovet rəhbərliyində o qədər parlaq sima idi ki, onun Sovet İttifaqı rəhbərliyindən kənarlaşdırılması, mən

əminəm, SSRİ-nin dağılmasının əsas səbəblərindən biri oldu. O, sonralar yenidən böyük siyasətə qayıdanda onunla artıq Azərbaycanın Prezidenti kimi görüşdük və mən inandım ki, o, hər bir millətə şərəf gətirə biləcək insandır. Əminəm ki, biz onun həm Azərbaycanın inkişafına verdiyi töhfəni, həm də Sovet İttifaqında gördüyü bütün diqqətəlayiq işlərin əhəmiyyətini tam dolğunluğu ilə yalnız gələcəkdə qiymətləndirə biləcəyik".

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində – milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyli üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir. Mirzə Fətəli Axundovdan başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs cəhətlər haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görümündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyaları başa düşmək lazımdır.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyv dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxamından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən – məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu məkanada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində və bu ideologiyaya, əlbəttə, aşkarda daban-dabana

zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan, Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heylər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün zəmin yaratmışdı.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxışdırılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından, 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyllərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-posixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Respublikada, xüsusilə də paytaxt Bakıda rus dili üzərində köklənmiş kosmopolit bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə bir halda, heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılma-

lı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1970-1980-ci illər baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səviyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir.

İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiya prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin strateji dövlətçilik proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatda, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir.

70-ci illərdən başlayaraq iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80-ci illərin sonu 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı. Millətçi mövqeyi ilə tanınan Bəxtiyar Vahabzadə xatırlayır ki, 60-cı illərdə hansısa gözəgörünməz güclü bir əl onu həbs olunmaqdan, təqiblərdən müdafiə edirdi. Eyni fikrə Ziya Bünyadovun, Anarın, Xəlil Rza Ulutürkün, Nəriman Həsənzadənin xatirələrində də rast gəlmək mümkündür. Əbülfəz Elçibəy qeyd edir ki, onun vaxtından əvvəl həbsdən azad olunması,

Atatürklə müqayisə etdiyi və uzun illər iş otağında portretini asdığı Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

Moskvanın verdiyi imkanlar daxilində (bəzən qoyulmuş məhdudiyyəti belə, aşaraq) yenilikçi düşüncəni nəinki müdafiə edən, eyni zamanda, onun respublikaya axınının təşəbbüskarı olan Heydər Əliyev elə bir ictimai-siyasi, mənəvi mühit yaratmışdı ki, Azərbaycanda dissident, yaxud "sandıq ədəbiyyatı" problemi olmamışdı. Alimlərin, yazıçıların, incəsənət xadimlərinin "antisovet" və ya "millətçi" əsərləri nəinki təqib, hətta çox hallarda təqdir edilir, gənc nəslin eksperimentlərinə qayğı ilə yanaşılırdı. "Qobustan", "Ulduz", "Azərbaycan" jurnalları, bir sıra elmi toplular, Azərbaycan xalqının etnogenezisinin müzakirə olunduğu konfranslar, cəmiyyətə açıq elmi-ideoloji lektoriyalar və s. yeni fikri yayır, yeni nəsil yetişdirirdi. Moskvanın respublikadakı xəfiyyələri, peşəkar donosçuları nə qədər canfəşanlıq etsələr də, respublika rəhbəri bütün təzyiqləri öz üzərinə götürərək, yaratdığı ictimai ovqatı – azadlıq əhval-ruhiyyəsini təkidlə qoruyur, inkişaf etdirirdi. Xalqın mənən, ruhən yüksəlişi üçün onun milli mədəniyyətini, mənəvi dəyərlərini yaradan şəxsiyyətləri qorumaq lazım gəldiyini yaxşı bilən Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk illərdən Azərbaycanda yaradıcı ziyalıların – alimlərin, yazıçıların, incəsənət xadimlərinin, müəllimlərin nüfuzunu o zamana qədər görünməmiş bir miqyasda artırmışdı.

Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük hadisə olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Məhz o dövrdə Kirovabadda şəhərin təzə yaşayış massivlərindən birinə "Yeni Gəncə" adı verilmiş və bununla da dolayısı ilə bildirilmişdir ki, bu şəhərin tarixi və əsl adı Gəncədir.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovet

İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969-1982-ci illərdə Azərbaycanlakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Bu prosesin inkişaf etdirilməsi məqsədi ilə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verilmiş, ali məktəblərin şəbəkəsi genişləndirilmişdi. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi. O, deyirdi ki, müasir milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında, milli dirçəlişə ümid bəsləmək mümkün deyildir. 1969-cu ildə rəhbərliyə gəldiyi elə ilk aylardan o, milli hərbçi kadrlar hazırlanması sahəsində bir sıra addımlar atdı. Heydər Əliyev özünün yaratdığı hərbi liseyin 30 illik yubileyində iftixarla demişdir: "Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm". Heydər Əliyev ona görə xoşbəxt idi ki, onun öncədən gördükləri həyata keçdi: Azərbaycan müstəqillik əldə etdi, bu hərbçi kadrlar isə müstəqilliyin qorunması üçün çox gərəkli oldular.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmdə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda İttifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bu həmin dövr idi ki, hətta Moskvada, Sankt-Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi dövrün Bakı mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bugünümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada

bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqədidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycaq mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidərin planı tədqiqi və nəşri – bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri var. Nərimanov 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti devrildikdən sonra son dərəcə mürəkkəb bir dövrdə Azərbaycan dövlətçiliyini qoruyub saxlayan qeyri-adi siyasi şəxsiyyət kimi Heydər Əliyevi cəlb etmişdi. Əlamətdar haldır ki, taleyin hökmü ilə Heydər Əliyev də 1993-cü ildə dağılıb parçalanmaq təhlükəsi qarşısında qalmış Azərbaycanı xilas etmək missiyasını öz üzərinə götürməli olacaqdı.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğ prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmız tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategityasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdur ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prisiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demkoratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə

dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm bir hissəsi yaradıcısı və Sədri olduğu Yeni Azərbaycan Partiyası ilə sıx şəkildə bağlıdır. Yeni Azərbaycan Partiyasının təsis konfransı 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində keçirilmişdir. Konfransda Azərbaycanın müxtəlif regionlarından təşəbbüs qruplarının 550-dən artıq nümayəndəsi iştirak etmişdir. Konfrans Yeni Azərbaycan Partiyasının təsis edilməsi haqqında qərar qəbul etmişdir. Heydər Əlirza oğlu Əliyev konfrans nümayəndələri tərəfindən açıq səsvermə yolu ilə Yeni Azərbaycan Partiyasının Sədri seçilmişdir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında xalqın tələbi nəticəsində siyasi hakimiyyətə gəlməsi ilə YAP-ın inkişafında yeni mərhələ başlamışdır. Həmin dövrdə YAP-ın qarşısında bir tərəfdən iqtidar partiyası kimi cəmiyyətin siyasi sistemində özünün aparıcı mövqeyini təsdiq etmək, digər tərəfdən isə müstəqil dövlət quruculuğu proseslərində yaxından iştirak etmək vəzifəsi dayanırdı.

Heydər Əliyev 1993-cü ildən başlayaraq türkdilli dövlətlər arasında iqtsiadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır. Görkəmli qazax yazıçısı Oljas Süleymenov yazır: "Vaxt gələcək, türklərin Şumer dövründən tutmuş zəmanəmizədək tarixi – böyük hadisələrə və Bilgamıs ("Müdrik qəhrəman"), Bilgə xaqan ("Müdrik xaqan"), İltəriş ("Torpaqları birləşdirən"), Atatürk... kimi dahi adlara söykənən tarixi yazılacaqdır. Bizim zəmanəmiz Ustad titullu layiqli adlarla təmsil ediləcəkdir. Heydər Əlirza oğlu Əliyev belə Ustadların ən birincilərindəndir".

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun böyük siyasi iradəsi və müdrik

uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi layihələrin həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azrbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə say göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir.

Heydər Əliyev elə bir zirvədir ki, xalqımız, bütövlükdə bəşəriyyət onun əzəmətini, böyüklüyünü illər bir-birini əvəz etdikcə daha yaxından dərk edir. Bu baxımdan, ABŞ Dövlət katibinin sabiq birinci müavini Riçard Armitac "Heydər Əliyevin ölümü ilə dünya bir qədər də kiçildi" deməkdə tamamilə haqlıdır. Ümummilli liderimizin vəfatı ilə əlaqədar deyilən bu sözlər bu itkinin bəşəriyyət üçün nə qədər böyük olduğunu göstərir. Reallığı əks etdirən güclü fikirdir. Nə qədər ağır və çətin olsa da, razılaşmaq istəməsək də, həyatın bu qanununun – insanların cismən dünyasını dəyişməsinin – qarşısını almaq mümkün deyil. Lakin əbədiyyət – cəmiyyət, millət və xalq yaşadıqca insanların qəlbində və yaddaşında özünə yer tutmaq, ideya və əməlləri ilə yaşamaq və yaratmaq, bir-birini əvəzləyən nəsilləri zənginləşdirərək onların mayakına çevrilməkdir. Heydər Əliyev məhz bu zirvəyə ucaldı. Həm özü ucaldı, həm ölkəsini və xalqını ucaltdı. Onun yandırdığı alov – Zevs haqqında deyilənlər əfsanədir, ulu öndər Heydər Əliyev isə zəmanəmizin reallığıdır – Günəş kimi Azərbaycanın yolunu daim

işıqlandıracaqdır.

...İllər, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bütün zamanlarda, bütün dövrlərdə insanlar, yeniləşən nəsillər Heydər Əliyevin ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, təhlil edəcək, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Və hər dəfə də bu dahinin zamana belə qalib gələn ideyaları və əməlləri qarşısında heyrətlərini gizlədə bilməyəcəklər. Onun haqqında söz deməkdən böyük fəxarət duyacaqlar...

...O, Tanrı elçisi idi. İnsanlığa xidmət etmək üçün yerə göndərilmiş xarizmatik bir qüvvə idi. Azərbaycana isə xilaskar kimi gəlmişdi. Azərbaycanı bütün təhlükələrdən qorumağa, qurub-yaratmağa, xalqımızın səsini bütün dünyaya yaymağa gəlmişdi. Gəldi və öz xilaskarlıq missiyasını ləyaqətlə, şərəflə, böyük qətiyyətlə, heyrət ediləcək məharətlə yerinə yetirdi, xalqın sabaha inamını bərpa etdi, milləti öz taleyüklü problemlərinin həlli yönündə fədakarlığa ruhlandırdı, dövlət qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsinə möhkəm zəmin yaratdı və yenidən göylərə ucaldı. Ucaldı və indi sönməz Günəş kimi öz parlaq şüalarını, nurunu Azərbaycana səpələyir...

"Respublika" qəzeti, 10 may 2008-ci il

Böyük yolun yolçusu

Azərbaycanda son prezident seçkilərindən iki il ötür. 2003-cü ilin oktyabr ayının 15-də İlham Əliyev Azərbaycan seçicilərinin böyük əksəriyyətinin səslərini qazanaraq bütün rəqiblərinə qalib gəldi və ölkə prezidenti seçildi. Bu seçkilərdə ümummilli lider Heydər Əliyev İlham Əliyevin xeyrinə öz namizədliyini geri götürdü. Ulu öndər prezident seçkiləri öncəsi onun sağlıq durumundan narahatlıq keçirən xalqına tarixi müraciətində deyirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Bu tarixi sözlər, əslində, bütün xalqın ürək sözü, bütün Azərbaycanın mövqeyi idi. Azərbaycan xalqı bu seçimi qəbul etməklə, öz müdrik liderinin keçdiyi yola və ideyalarına sədaqətini nümayiş etdirdi və yekdilliklə Heydər Əliyevin siyasətinə səs verdi. Azərbaycan bu seçimi ilə demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğunun yeni mərhələsinə qədəm qoydu. İlham Əliyevin ölkənin yeni prezidenti seçilməsi Azərbaycanda ictimai şüurun yetkinliyini, xalqın demokratiya və tərəqqiyə sadiqliyini, respublikamızın əldə etdiyi nailiyyətləri qorumaq və artırmaq əzmini bütün dünyaya göstərdi.

Seçkilərdə xalqın yüksək etimadını qazanan İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başlaması ilə əlaqədar andiçmə mərasimində ümummilli liderin ölməz əməllərini davam etdirməyi başlıca fəaliyyət prinsipi kimi irəli sürərək, ölkənin milli inkişafı üçün son dərəcə önəmli olan problemlər üzərində dayandı, yeni şəraitdə həlli vacib olan məsələlərin aktuallığını vurğuladı.

Çox qısa bir müddətdə Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti bütün cəmiyyətin etimadını qazandı. İlham Əliyevin Prezident vəzifəsində fəaliyyəti Azərbaycanda on illik tarixə malik ictimai-siyasi sabitlik faktorunun qorunub saxlanılmasında ən etibarlı təminat oldu və bunu indi bütün dünya təsdiq və qəbul edir. Az bir zaman kəsiyində hamı əmin oldu ki, məhz o, yeni siyasi şəraitdə və yeni siyasi şərtlər daxilində Heydər Əliyev siyasi kursunun fundamental prinsiplərini həyata keçirərək ölkəni irəli

aparmaq iqtidarında olan və onun gələcək təhlükələrdən sığortalanmasını təmin etməyə qadir siyasi liderdir.

İlham Əliyev praqmatik siyasətçidir. Onun siyasi avantürizmdən, siyasi populizmdən uzaq olması, problemlərə milli və dövlətçilik maraqları çərçivəsində arqumentləşdirilmiş mövqedən və real situasiyadan yanaşması, mövcud real proseslərdən çıxış etməsi artıq kamil siyasi və dövlət xadimi kimi formalaşdığını bir daha təsdiq edir.

İlham Əliyev bir siyasi lider kimi öz dünyagörüşü, intellektual potensialı, beynəlxalq aləmdə gedən prosesləri dərindən bilməsi, güclü arqumentləri, natiqlik məharəti ilə ətrafındakıları, qarşısındakıları, bir sözlə, istənilən auditoriyanı inandırmağa və idarə etməyə qadirdir. O, siyasi lider üçün son dərəcə vacib olan başlıca xüsusiyyətlərə - öz hərəkətlərində prinsipial və qətiyyətli olmaq, ayrı-ayrı insan qruplarına, bütövlükdə ictimaiyyətə öz iradəsini qəbul etdirmək, siyasi mübarizədə çeviklik göstərərək üstünlüyü ələ almaq və sair bu kimi keyfiyyətlərə malikdir. O, həqiqətin sübuta yetirilməsi yollarını yaxşı bilir, məntiqi olduqca güclüdür, ən kəskin fikirləri belə incə, korrekt şəkildə qarşısındakına çatdırmaqda mahirdir. Həmçinin siyasi lider üçün son dərəcə zəruri olan xüsusiyyətlər - yumor hissi, mürəkkəb situasiyalarda məsuliyyəti öz üzərinə götürmək bacarığı, özünün məntiqi və xarizması ilə ictimai rəyi formalaşdırmaq, lazımi məqamda iti ağıl, dəmir iradə, tükənməz enerji nümayiş etdirmək bacarığı İlham Əliyevin şəxsində öz əksini tapmışdır.

Prezidentin siyasi baxışlarında iki başlıca xətt - liberalizm və islahatçılıq kimi demokratik dəyərlər paralellik təşkil edir. Siyasi dəyərləri qiymətləndirmə səviyyəsi onun liberal dünyagörüşlü siyasətçi olması gerçəkliyini üzə çıxaran amillərdəndir. Sivil, hüquqi dövlət quruculuğu və inkişaf etmiş bazar iqtisadiyyatına aparan demokratik prinsiplərin önə çəkilməsi İlham Əliyevin liberal dəyərlərə üstünlük verən xarakterini ortaya qoyur. Cəmiyyətdə demokratik prinsiplərin geniş yayılmasının tərəfdarı kimi çıxış edən İlham Əliyevin insanların siyasi və iqtisadi azadlığını irəli sürməsi onun müasir siyasətçi olduğunu göstərən parametrlərdəndir. İlham Əliyevin "Biz indi əldə etdiyimiz nailiyyətləri iqtisadiyyatda, siyasətdə, xarici siyasətdə davam etdirsək, o zaman Azərbaycan xalqı üçün "dəmir əl" lazım olmayacaq" fikri onun dövlət idarəetməsində sərt metodların əleyhinə olduğunu və tənzimləyici prinsiplərə üstünlük verdiyini təsdiqləyir. İlham Əliyevin azad sahibkarlar ordusu yaratmaqla şüurlardakı tabeçilik stereotiplərini məhv etməyin mümkünlüyü barədə söylədiyi fikir politoloji baxımdan olduqca maraqlıdır. Təhlillər də göstərir ki, "Azad sahibkar - azad cəmiyyət" ideyası hakimiyyət komandasının əsas devizlərindən birinə çevrilmişdir. Bu baxımdan İlham Əliyevin islahatçı mövqeyinin trayektoriyası "azad

sahibkarlığı gücləndirməklə cəmiyyətin demokratikləşdirilməsini sürətləndirmək" siyasi formulu ilə şərtlənir.

Hazırda Azərbaycan siyasətində islahatçılığın mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür, müxalif siyasi qüvvələr bu terminə ehtiva olunan siyasi mənadan möhtəkirlik məqsədilə istifadə etməyə çalışırlar. Amma etiraf etmək lazımdır ki, müasir Azərbaycan siyasətinin ən böyük reformatoru məhz Prezident İlham Əliyevdir. Siyasi həyatın bütün sahələrində olduğu kimi, bu məsələdə də onun alternativi yoxdur. Aydın məsələdir ki, siyasi ədəbiyyatlarda klassik mənada islahatçılıq köklü dəyişikliklər kompleksi kimi nəzərdə tutulur. İslahatçılıq yenilikçiliyi, sosial dəyərlərin, sosial institutların və digər sosial strukturların müəyyən tərəflərinin tədrici dəyişdirilməsini nəzərdə tutur. Dünya təcrübəsi göstərir ki, istənilən siyasi sistemdə islahata meylli qüvvələr həm müxalifətdə, həm də iqtidarda formalaşa bilir, lakin iqtidarda təmsil olunan islahatçıların qarşıya qoyulan məqsədləri həyata keçirmək imkanları daha genişdir. Bu gün müxalifəti ən çox qıcıqlandıran amillərdən biri də Heydər Əliyevin 1993-cü ildə başladığı islahatçı kursun önündə məhz İlham Əliyevin dayanmasıdır. Radikal müxalifət qüvvələrinin özünün bütün arsenalını İlham Əliyevin ətrafında formalaşan ictimai rəyi zəiflətməyə yönəltməsi də onu göstərir ki, müxalifət İlham Əliyev faktorunu özü üçün əsas təhlükə hesab edir, çünki bu faktor onların siyasi iddialarını birdəfəlik puça çıxarır. İlham Əliyevin siyasi uğurlarına qarşı ilkin reaksiyanın məhz müxalifət cəbhəsindən gəlməsi də göstərir ki, bu qüvvələr köklü dəyişikliyə hazır deyil. Səbəb isə, onların siyasi təfəkküründə hələ də 1988 - 1990-cı illərin siyasi şüarçılığı, bulanıq suda balıq tutmaq təfəkkürü səviyyəsindən yuxarıya qalxa bilməməsindədir. Şübhə yoxdur ki, İlham Əliyevin Azərbaycan siyasətində ön plana çıxmasının bu qüvvələrin birdəfəlik iflası ilə nəticələnəcəyini onların özləri də tezliklə dərk etdilər.

İlham Əliyev Heydər Əliyevin dövlət idarəçilik məktəbinin çox talantlı və sədaqətli yetirməsidir. Azərbaycan xalqı ölkəmizin bu gün müxtəlif səbəblərdən müəyyən problemlərlə qarşılaşdığı bir zamanda, müstəqilliyimizin belə məsuliyyətli, dünyanın isə çox narahat bir vaxtında İlham Əliyev kimi siyasi xadimin varlığından iftixar duyur. Cəmiyyətdə belə bir rəy mövcuddur ki, İlham Əliyev Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, mühüm uğurlar qazandıran atasının - dahi dövlət və siyasət xadimi Heydər Əliyevin daxili və xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçidir. Onun siyasi və diplomatik fəaliyyətinin bəzi aspektləri də bu mülahizələrin üstündə israrla dayanmağa əsas verir. Amerika və Avropanın paytaxt şəhərlərinə Azərbaycan nümayəndə heyətinin rəhbəri və ölkə başçısı kimi çoxsaylı səfərləri, rəsmi və qeyri-

rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, dövlət xadimlərinin diqqətini cəlb edən İlham Əliyev artıq müasir dünya siyasətinin danılmaz nümayəndəsi, perspektivli aparıcı qüvvələrindən biridir.

Son iki il ərzində Azərbaycan dövlətinin daxili və xarici siyasəti dünyada gedən geosiyasi və iqtisadi proseslər və bu sahədəki beynəlxalq təcrübə nəzərə alınaraq həyata keçirilmişdir. Qloballaşma, sivilizasiyalararası dialoq, ümumbəşəri dəyərlərin tərkib hissəsi olan demokratik prinsiplər, habelə cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələn məsələlər Prezident İlham Əliyevin apardığı siyasətin nəzəri bazasını və konseptual əsaslarını təşkil etmişdir. Ötən müddətdə ölkəmizdə əldə edilmiş nailiyyətlər bu əsasların yalnız nəzəri səviyyədə qaldığını deyil, ictimai praktikada uğurlu və səmərəli şəkildə reallaşdığını göstərir.

Bu müddətdə ölkəmizin beynəlxalq aləmə inteqrasiyası prosesi davam etmiş, Azərbaycan beynəlxalq hüquq normaları ilə tənzimlənən sivil dünya siyasətinin daşıyıcılarından biri kimi çıxış etmiş, ölkə iqtisadiyyatının onurğa sütununu təşkil edən və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası səmərəli şəkildə həyata keçirilmiş və sosial-iqtisadi inkişaf prosesi yüksələn xətt üzrə getmişdir. Prezident, İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl iqtisadi siyasət ölkə iqtisadiyyatının dinamik inkişafını sürətləndirmişdir. Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası müəyyənləşdirilərkən dünyada gedən makro və mikroiqtisadi proseslərin inkişaf meylləri və onun mahiyyəti, həmçinin xalqımızın ümummilli məqsəd və mənafeləri nəzərə alınmışdır. Son 10 il ərzində iqtisadi idarəetmədə əldə olunmuş nailiyyətlər və təcrübələrdən İlham Əliyevin ölkə Prezidenti seçilməsindən keçən müddətdə səmərəli və məqsədyönlü şəkildə istifadə edilmişdir.

Uğurlu iqtisadi siyasətin davamı olaraq ötən ilin 10 ayı ərzində ölkədə 46,4 trilyon manatlıq ÜDM istehsal olunmuş, əhalinin pul gəlirlərinin artımı 26,8 faiz təşkil etmişdir. Orta aylıq əməkhaqqı 21,7 faiz yüksəlmişdir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi yolu ilə 340 minə yaxın yeni iş yerləri açılmışdır. Minimum əməkhaqqlarının, təqaüdlərin, pensiyaların məbləği də artırılmışdır. Dövlət büdcəsindən 2006-cı ildə sosial sahəyə xərclərin artırılacağı da gözlənilir. 2006-cı ildə ÜDM-in real artımının 30,5 faiz, orta aylıq əməkhaqqının 25 faiz yüksələcəyi proqnozlaşdırılır. Bu ildən aztəminatlı əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün ilk dəfə olaraq ünvanlı dövlət sosial yardımının tətbiqinə önəm veriləcəkdir. Bu məqsədlə dövlət büdcəsində 361,0 milyard manat, əmək pensiyalarının orta hesabla 25 faiz artırılması üçün 835,0 milyard manat vəsait nəzərdə tutulmuşdur. Əhalinin keçmiş SSRİ-nin əmanət banklarına qoyduğu əmanətlərin qaytarılması prosesinə başlanılması nəzərdə tutulmuşdur.

Gənc nəslin sosial-mənzil şəraitinin yaxşılaşdırılmasına yönəlmiş «İpoteka haqqında» qanunun tətbiqi ilə əlaqədar 2006-cı ilin büdcəsində 100,0 milyard manat, minimum əməkhaqqının 30 faizdən çox artırılması üçün 157,0 milyard manat, əhalinin səbirsizliklə gözlədiyi əmanətlərin indeksləşdirilməsi üçün 250,0 milyard manat vəsait nəzərdə tutulmuşdur. Sahibkarlığın inkişafı üçün 2005-ci illə müqayisədə 2 dəfə çox, investisiya xərcləri üçün 3,8 dəfə artıq vəsait ayrılmışdır.

Büdcəmiz artıq ciddi inkişaf büdcəsinə çevrilmişdir.

2006-cı ilin dövlət büdcəsində regionların inkişafına - infrastruktur yaradılmasına, elektrik stansiyaları, mədəniyyət, təhsil, səhiyyə obyektləri tikilməsinə böyük diqqət yetirilmiş, cari illə müqayisədə abadlıq işlərinə 52,4 faiz, yolların əsaslı təmiri və tikintisinə 65,2 faiz çox vəsait ayrılacaqdır. Bütün bunlar səmərəli mexanizmlərə malik olan sosialyönlü iqtisadi sistemin inkişafının və bunun nəticəsində ölkə vətəndaşlarının rifahının, sosial müdafiəsinin etibarlı şəkildə təmin olunduğunun təzahürüdür.

Keçən müddətdə əhalinin sosial rifah halının, xüsusilə dövlət qayğısına daha çox ehtiyacı olan müxtəlif sosial qrupların maddi vəziyyətinin daha da yaxşılaşdırılması üçun dövlət başçısı tərəfindən mühüm əhəmiyyət daşıyan fərman və sərəncamlar verilmişdir. Prezident İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı sosial-iqtisadi sahədə əldə olunmuş dinamik inkişafın ardıcıl və sistemli şəkildə davam etdirilməsini nəzərdə tutaraq, bununla bağlı hökumətin qarşısında mühüm vəzifələr qoymuşdur. Fərmanın hər bir müddəasında müvafiq sahənin inkişafı ilə bağlı dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi qərara alınmışdır. Bu fərman ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara yeni təkan verərək, işsizliyin aradan qaldırılması, Ermənistanın təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın güzəranın yaxşılaşdırılması, əhalinin rifahının, o cümlədən əmək haqlarının yüksəldilməsi, pensiya təminatının yaxşılaşdırılması istiqamətlərində və s. tədbirlərin həyata keçirilməsinə yönəlmişdir. Aparılan məqsədyönlü tədbirlər nəticəsində qısa zaman kəsiyində iqtisadiyyatımızda nəzərəçarpacaq irəliləyişlər müşahidə olunmuşdur.

Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərmanında regionların sosial-iqtisadi inkişafının təmin edilməsi ilə əlaqədar həlli vacib olan konkret məsələlər müəyyənləşdirilərək regional tarazlığın əldə olunması, həmçinin onların iqtisadi gücünün artırılacağı təqdirdə sosial problemlərin aradan qaldırılmasının sürətləndirilməsi nəzərdə tutulmuşdur. Regionların

iqtisadi inkişafındakı ləngliyi aradan qaldırmaq məqsədi daşıyan bu fərmanda regionlarda iş adamlarının fəaliyyətinə mane olan amillərin aradan qaldırılması əsas vəzifə kimi qeyd edilmişdir. Dövlət Proqramının icrasından keçən müddət ərzində regionlarda ixrac qabiliyyətli istehsal müəssisələri yaradılmış, bu müəssisələrdə çalışan vətəndaşlarımız yüksək maaşlı işlə təmin edilmiş, əhalinin sosial rifah halı daha da yaxşılaşmışdır. Dövlət Proqramının icra vəziyyəti ilə tanış olmaq üçün ölkə başçısı bölgələrə səfər etmiş, bununla yerindəcə maraqlanmışdır. Ölkə başçısının bu səfərləri əhali tərəfindən əlamətdar hadisə kimi qəbul edilmişdir.

Dövlət başçısının regionların inkişafı ilə bağlı həyata keçirdiyi siyasət Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) kimi nüfuzlu beynəlxalq maliyyə qurumu tərəfindən dəstəklənmişdir. Bu qurumun rəhbəri Jan Lemyer Prezident İlham Əliyevlə görüşü zamanı AYİB tərəfindən regionların inkişafında və yeni iş yerlərinin yaradılması sahəsində Azərbaycan hökumətinə yardım göstəriləcəyini, orta sahibkarlığın inkişafı üçün bank tərəfindən 200 milyard manat vəsait ayrılacağını bildirmişdir.

Azərbaycan Prezidenti özəl sektorun və sahibkarlığın inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik bazası daha da təkmilləşdirilmişdir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Sahibkarlığa kömək Milli Fondunun vəsaitinin istifadə mexanizminin təkmilləşdirilməsi haqqında" 4 may 2004-cü il tarixli fərmanında ölkədə sahibkarlığın inkişafı üçün dövlət büdcəsindən fonda ayrılan vəsaitdən istifadənin səmərəliliyini artırmaq əsas məqsədlərdən biri kimi vurğulanmışdır.

Ölkə əhalisinin sosial təminat hüquqlarından səmərəli şəkildə istifadə etmələri üçün mühüm işlər görülmüşdür. Bu məqsədlə Prezident İlham Əliyevin fərman və sərəncamları ilə minimum əmək haqqı, alimlik dərəcəsinə görə vəzifə maaşlarına əlavələr, aspirant və tələbələrə verilən təqaüdlər, daxili işlər orqanları əməkdaşlarının, Müdafiə Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçuları və mülki işçilərinin, dövlət qulluqçularının və digər sosial kateqoriyadan olan vətəndaşların vəzifə maaşları artırılmışdır. Ölkə başçısının 16 sentyabr 2005-ci il tarixli sərəncamı ilə Azərbaycanda minimum əməkhaqqının səviyyəsi 150 min manata qaldırılmışdır. İki il ərzində tələbə və aspirantların təqaüdləri təxminən on dəfə artırılmışdır. Antiinflyasiya tədbirləri haqqında müvafiq Prezident sərəncamından sonra inflyasiyanın səviyyəsi 2 faiz aşağı düşmüşdür. Bu tədbirlər ölkənin orta müddətli maliyyə siyasətinin tərkib hissəsi olmaqla Azərbaycanın sosial-iqtisadi inkişaf konsepsiyasına və proqnoz göstəricilərinə, "Azərbaycan Respublikasında 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması və iqtisadi inkişafı üzrə Dövlət Proqramına uyğun olaraq həyata

keçirilmişdir.

"Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icrası nəticəsində ölkəmizdə yoxsulluğun səviyyəsinin azalması meyli davam etmişdir. Dünya Bankının verdiyi məlumata görə, Azərbaycanda ilyarım ərzində yoxsulluq səviyyəsi 49 faizdən təxminən 40 faiz həddinə enmişdir. Minimum əməkhaqqının qaldırılması nəticəsində bu göstərici daha da aşağı düşəcəkdir.

Azərbaycan Prezidentinin apardığı sosial siyasətin əsas istiqamətlərindən biri də Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin sosial müdafiə sisteminin daha da təkmilləşməsinə yönəlmişdir. Bu məqsədlə məcburi köçkünlərin sosial, mənzil- məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi ilə bağlı mühüm tədbirlər müəyyənləşdirilmişdir. Azərbaycan Prezidentinin 1 iyul 2004-cü il tarixli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamı qaçqın və məcburi köçkün soydaşlarımızın həyatında mühüm hadisəyə çevrilmişdir.

Ölkə başçısı fəaliyyətinin ilk vaxtlarından dövlətin sosial-iqtisadi inkişafını əngəlləyən korrupsiyaya qarşı tədbirlərə başlamış, 13 yanvar 2004-cü il tarixdə onun tərəfindən "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun imzalanaraq, bu sosial bəla ilə mübarizə sahəsində dövlətin strateji kursunun əsaslan müəyyənləşdirilmişdir. Bu qanunun qəbul olunması korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə xüsusi təkan vermiş, korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafının sürətləndirilməsinə, dövlət və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanunilliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə əsaslı zəmin yaratmışdır. Korrupsiyaya qarşı mübarizə haqqında qanunun tətbiqi barədə dövlət başçısının 3 mart 2004-cü il tarixli sərəncamının həyata keçirilməsi ilə bağlı Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər) layihəsi hazırlanmış və təsdiq edilmişdir. Dövlət Proqramı korrupsiyaya qarşı mübarizənin səmərəli surətdə həyata keçirilməsi üçün vahid sistemi təmin etməklə bu sahədə müvafiq dövlət orqanları qarşısında konkret vəzifələr müəyyənləşdirmişdir.

Son dövr həm də Azərbaycanda demokratikləşmə prosesinin dinamik xarakter daşıması, əsas insan hüquq və azadlıqlarının lazımi şəkildə təmin olunması ilə səciyyələnir. Siyasi hakimiyyət Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi yönündə mühüm addımlar atmışdır. Bu istiqamətdə atılan addımlar ölkəmizdə demokratik

düşüncə tərzinin formalaşmasına, cəmiyyətdə gedən proseslərə plüralist yanaşmanın güclənməsinə əsaslı şəkildə təsir göstərmişdir. Prezident İlham Əliyev öz çıxışlarında müasir Azərbaycan cəmiyyətinin demokratikləşməsində maraqlı olduğunu bəyan edərək bu sahədə aparılan siyasətin ictimai inkişafın rəhni olduğunu bildirmişdir.

İlham Əliyevin prezidentlik fəaliyyətinin ikinci ilində növbəti parlament seçkilərinə hazırlıq istiqamətində atdığı addımlar da mühüm əhəmiyyət kəsb etmişdir. «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair, habelə «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» Prezidenti İlham Əliyevin 2005-ci il mayın 11-də və oktyabrın 25-də imzaladığı sərəncamlar parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə hazırlanması və keçirilməsi üçün lazımi şəraitin yaradılmasına sanballı töhfə olmuşdur. Ölkəmizin tarixində görünməmiş sayda, yəni iki mindən artıq şəxsin parlament üzvlüyünə namizədliyi qeydə alınmışdır. Namizədlər arasında Azərbaycanın bütün siyasi qüvvələri təmsil olunmuşlar. Kütləvi informasiya vasitələri, o cümlədən televiziya kanalları ilə seçkiqabağı təbliğat-təşviqat kampaniyasının aparılması üçün siyasi əqidəsindən, partiya mənsubiyyətindən asılı olmayaraq bütün namizədlərə bərabər şərait yaradılmışdır. Eyni zamanda, hər bir siyasi partiyanın, siyasi partiyalar blokunun və namizədin seçicilərlə görüşlər və digər seçkiqabağı təbliğat tədbirləri keçirməsi üçün müvafiq yerlər ayrılmışdır. Bütün bunlar Azərbaycan dövlətinin səyləri nəticəsində ölkəmizdə demokratik seçki mühitinin formalaşdığını göstərmişdir.

Seçkilərdə «exit-poll»un tətbiqi, barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi, müşahidəçilər dairəsinin genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsi üzərində məhdudiyyətlərin götürülməsi, dövlət hakimiyyəti orqanlarının seçkilərdə bitərəf mövqe tutmasının təmin edilməsi, seçki hüquqlarının pozulması ilə bağlı prokurorluğa daxil olan məlumatların operativ və hərtərəfli araşdırılması, seçki komissiyalarının normal fəaliyyətinə bütün lazımi şəraitin yaradılması üçün müəyyənləşdirilən tədbirləri seçki iştirakçılarının tam əksəriyyəti razılıqla qarşılamış, eləcə də beynəlxalq təşkilatların rəhbərləri və aparıcı xarici dövlətlərin siyasi liderləri yüksək qiymətləndirmişlər. Bununla da, seçkilərin ədalətli və şəffaf keçirilməsini yersiz şübhə altına almağa imkan verə biləcək bütün ehtimallara son qoyulmuşdur.

Azərbaycan Prezidentinin müasir demokratik standartlara cavab verən seçkilərin keçirilməsinə yönəlmiş siyasi iradəsi istər ölkə daxilində, istərsə də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Təsadüfi deyil ki, Azərbaycanda parlament seçkilərinə hazırlıq prosesini böyük

həssaslıqla izləyən ABŞ hökuməti seçki ərəfəsində bu istiqamətdə həyata keçirilmiş tədbirlərdən razılığını ifadə etmişdir. Ağ Ev İlham Əliyevin ölkəmizdə seçkinin obyektivliyinə şərait yaradan bütün addımlarını təqdir etmişdir. ABŞ Prezidenti də Azərbaycanın dövlət rəhbərinin bu yöndə ortaya qoyduğu səyləri açıqlamışdır: «Gələn ay Azərbaycanda keçiriləcək parlament seçkiləri ölkələrimiz arasındakı münasibətlərin yeni strateji səviyyəyə yüksəlməsinə imkanlar yaradacaqdır. Mən Sizin azad və ədalətli seçkilərin keçirilməsinə sadiqliyinizi alqışlayıram. Bu seçkilər ölkələrimiz arasında güclü və davamlı münasibətlər üçün vacibdir. Bu seçkilərdən sonra da Sizinlə əməkdaşlıq etmək arzusundayam».

ABŞ-ın nüfuzlu «The Washington Times» qəzeti yazır ki, rəsmi Vaşinqtonun 6 noyabr seçkilərinə münasibətini açıqlayan Dövlət Departamentinin mətbuat katibi Adam Ereli jurnalistlərin suallarını cavablandırarkən, səsvermə zamanı bəzi qanun pozuntularının olduğunu etiraf etsə də, əldə olunmuş demokratik irəliləyişlərə diqqət yetirmişdir: «Çoxlu sayda namizədlərin qeydiyyata alınması, kütləvi informasiya vasitələrində namizədlərin çıxışma şərait yaradılması, beynəlxalq müşahidəçilərin seçki prosesində iştirakına maneələrin olmaması bütün bunlar çox vacib məsələlərdir və qeyd olunmalıdır». Qəzetdə qeyd olunur ki, 6 noyabr seçkiləri indiyədək keçirilmiş bütün səsvermələrdən azad və ədalətli olub. Müxalifətin iddialarına gəldikdə, ABŞ qəzeti hesab edir ki, bu gün müxalifət düşərgəsində vahid lider problemi var: «Müxalifətdə hamını öz ətrafında birləşdirəcək fiqur yoxdur. Müxalifətin bir sıra tanınmış nümayəndələrinin keçmişdə ölkəni öz arxasınca aparmaq cəhdləri isə uğursuzluqla nəticələnib».

Almaniyanın «Berliner Zeytunq» qəzetində isə qeyd olunur ki, Azərbaycanda sistemli dəyişikliklər həyata keçirə biləcək müxalifət lideri yoxdur. «Neçə ki, hakimiyyət İlham Əliyev kimi şəxsiyyətin əlindədir, heç bir namizədin müvafiq səviyyəyə yüksəlmək şansı yoxdur».

Ölkəmizin dünyada və regionda öz nüfuzunu daha da gücləndirməsi, geosiyasi məsələlərin həllində yaxından iştirak etməsi, xalqımızın ümummilli problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması çevik və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi ilə üzvi şəkildə bağlıdır. Məhz ötən dövrdə Azərbaycan hakimiyyəti bu meyarları əsas götürərək ardıcıl və sistemli xarici siyasət aparmışdır. Prezident İlham Əliyevin dünyada müasir geosiyasi və etnomədəni situasiyanı nəzərə alaraq balanslaşdırılmış xarici siyasət həyata keçirməsi Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi və milli strateji maraqlarımızın reallaşması üçün mühüm rol oynamışdır. Ötən müddətdə beynəlxalq münasibətlər sistemində qüvvələr balansını tənzimləyən və milli təhlükəsizliyin

təminatçısı rolunu oynayan müxtəlif regional təşkilatlarla qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi xarici siyasətdə əsas prioritet məsələlərdən birini təşkil etmişdir. Ölkəmizin BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İKT, MDB, Türkdilli Dövlətlər Birliyi kimi qurumlarla münasibətlərinin daha da inkişaf etdirilməsi dövlətimizin strateji maraqlarının gerçəkləşdirilməsində mühüm amil kimi dəyərləndirilmişdir. Ötən dövr ərzində bu təşkilatların nümayəndələrinin Azərbaycana intensiv səfərləri tərəflər arasındakı sağlam və xoşməramlı münasibətlərin mövcud olduğunu göstərir. Dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı, qonşu dövlətlərlə də bərabərhüquqlu qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi yönündə mühüm addımlar atılmışdır. Azərbaycan Prezidentinin xarici ölkələrə səfərləri, xarici ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

Hazırda Avropa Şurası və ATƏT-lə, habelə hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm strukturu olan NATO ilə, eləcə də MDB, İƏT və digər təşkilatlarla əməkdaşlığa böyük diqqət yetirilir. Azərbaycanın BMT, ATƏT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə daha sıx tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son illərin uğurlu xarici siyasətinin real nəticələridir. Azərbaycan BMT-nin altı əsas qurumundan biri və təşkilatın strukturunda Təhlükəsizlik Şurasından sonra ikinci olan İqtisadi və Sosial Şurada 2002-ci ildən etibarən Şərqi Avropa ölkələrini təmsil edir. Eyni zamanda ölkəmiz BMT-nin İqtisadi və Sosial Şurasının Cenevrədə yerləşən İnsan Hüquqları Komissiyasının 15 yeni üzvündən biri seçilmişdir.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 59-cu sessiyasında iştirakı və çıxışı Azərbaycan siyasətinin dünyaya çatdırılması, qlobal dünya siyasətində ölkəmizin milli və dövlət maraqların gündəmə gətirilməsi və mövqelərinin gücləndirilməsi baxımından tarixi bir hadisədir. İlham Əliyev bu mötəbər toplantıda dərin məzmunlu nitqiylə dünya miqyaslı siyasətçi, diplomat və qlobal siyasətin strateqlərindən biri olduğunu, xüsusilə nüfuzlu dövlət və siyasət adamları, aparıcı ölkələr tərəfindən dəstəklənddiyini və qəbul olunduğunu bir daha təsdiq etmişdir. Dövlətimizin başçısı həmin sessiyada bir daha diqqəti Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldərək, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın on ildən çox müddətdə işğal altında saxlandığını, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün kimi ağır vəziyyətdə yaşadığını bildirmişdir. Prezident İlham Əliyev BMT-

nin münaqişəyə dair qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə münasibətə də toxunmuşdur: "Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır".

İşğal edilmiş ərazilərimizin terrorçu yuvasına çevrilməsindən, tanınmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nın bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyi olmasından və Ermənistanın dini və tarixi abidələrimizi özünüküləşdirməsindən narahatlığım bildirən Prezident İlham Əliyev işğal altında olan ərazilərin beynəlxalq nəzarətdən kənarda qalması faktını ön plana çəkmişdir: "...işğal edilmiş ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah otürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir". Azərbaycan Prezidenti daha sonra demişdir ki, münaqişənin siyasi yolla həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsinə hələ də lazımi qiymət verməyib: "münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir".

Prezident İlham Əliyev bu çıxışı ilə Azərbaycana qarşı yönəlmiş bütün informasiya blokadalarını, antiazərbaycan təbliğat maşınını darmadağın etmiş, Azərbaycan həqiqətlərini, o cümlədən Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə bağlı acınacaqlı vəziyyəti çılpaqlığı ilə dünyanın diqqət mərkəzinə çəkmişdir. Unutmaq lazım deyil ki, İlham Əliyev Avropa məkanında Ermənistanın mövqelərinə qarşı aparılan aktiv informasiya müharibəsinə bilavasitə rəhbərlik edir və bu mübarizənin taktiki və strateji hədəflərinin müəyyənləşməsi məhz onun adı ilə bağlıdır. Bu barədə bəzi məqamlara toxunmaq istərdik. 1994-cü ilin mayında atəşkəs haqqında razılıq əldə edilsə də, Qarabağ amili iki ölkə arasında siyasi təbliğatın və informasiya savaşının əsas obyekti olaraq qalıb. Bu proses hazırda BMT, ATƏT, İKT, MDB və digər beynəlxalq və regional təşkilatlar müstəvisində

davam edir. Amma nəzərə almaq lazımdır ki, bu qurumlar indiyə kimi bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanımaq barədə qərar qəbul etsələr də, "işğal faktoru" heç zaman etiraf edilməyib. Hətta 1992-1993-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələbi qoyulsa da, bu mühüm sənəddə erməni işğalının adı çəkilməyib. Azərbaycan üçün əsas məqsəd isə odur ki, məhz onun ərazi bütövlüyünə Ermənistan tərəfindən qəsd edilməsi bir reallıq kimi dünya birliyi tərəfindən qəbul edilsin. İlk dəfə olaraq bu barədə qərar bir neçə il əvvəl İslam Konfransı Təşkilatı tərəfindən qəbul edilmişdi. Həmin sənəddə Ermənistan birmənalı olaraq işğalçı ölkə kimi ittiham olunurdu. Amma nəzərə almaq lazımdır ki, İKT və ona üzv olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik vasitələrlə həlli prosesinə təsiretmə imkanları son dərəcə azdır. Bu mənada, Avropada erməni işğalının tanınması məhz İlham Əliyevin fəaliyyətilə bağlıdır.

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə inəliklərinə qədər bələddir və öz mövqeyini qlobal miqyasda cərəyan edən proseslərə uyğunlaşdırır. Prezident İlham Əliyev Avropa Şurası, NATO, BMT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatlardakı çıxışlarında bu problemin tezliklə həll olunmasının vacibliyini bildirərək Ermənistanın qeyri-konstruktiv mövqeyindən hələ də əl çəkmədiyini, BMT-nin qətnamələrinə məhəl qoymadığını əsaslandırılmış arqumentlərlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. Dövlətimizin başçısı BMT-ni və ATƏT-i özünün verdiyi qərarlara sayğısız münasibətdə qınayaraq hər bir çıxışında dünyanın aparıcı güc sahiblərini ikili standartlar siyasətindən çəkinməyə dəvət etmişdir. Ölkə Prezidenti Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı heç bir güzəştə getməyəcəyini, beynəlxalq hüququn əsas prinsiplərindən biri olan millətlərin öz müqəddəratını təyin etmək hüququnun yalnız digər prinsip - ərazi toxunulmazlığı çərçivəsində mümkün olduğunu bildirmişdir. Azərbaycan Prezidentinin belə qətiyyətli və prinsipial mövqe tutmasına həmrəylik əlaməti olaraq dünyanın nüfuzlu dövlətlərinin və beynəlxalq qurumların ölkəmizə dəstəyi daha da artmışdır. Ona görə də İlham Əliyevin bəyanatlarında müxalifətin bəzi nüanslar axtarmaq cəhdləri yalnız çirkin siyasi texnologiyanın elementlərindən biridir. Siyasi qısqanclıq, ifrat radikalizm imkan vermir ki, müxalifət real həqiqətləri həzm edə bilsin. Bu antimilli siyasət təkcə İlham Əliyevə deyil, həm də ölkənin strateji mənafelərinə qarşı yönəlib. Hər halda bu müqayisə müxalifətin İlham Əliyevə qarşı apardığı total kampaniyanın mahiyyətini nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi demokratik islahatlara verilən yüksək qiymət, beynəlxalq ictimaiyyətin ölkəmizə

marağının güclənməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların mövqeyində bir sıra dəyişikliklərlə müşayiət olunmaqdadır. Avropa Şurasının öz qətnaməsində Ermənistanın işğalçı dövlət kimi tanıması, Dağlıq Qarabağ münaqişəsinə dair məsələnin BMT Baş Assambleyasının gündəliyinə salınması, ən nəhayət bu ilin əvvəllərindən başlayaraq problemin nizamlanması prosesində «mərhələli həll» prinsipinin qəbul edilməsi və sülh danışıqlarının artıq bu prinsip əsasında aparılması kimi vurğulanmışdır.

İlham Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsindən, xarici ölkələrlə, beynəlxalq təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq dövlət başçısının xarici ölkələrə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, o cümlədən Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankı ilə müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır.

Ölkə başçısının xarici dövlətlərə çoxsaylı səfərləri, keçirdiyi yüksək səviyyəli görüşlər, nüfuzlu siyasətçilər, dövlət xadimləri, iş adamları, hərbçilər, görkəmli diplomatlarla yüksək peşəkarlıqla apardığı danışıqlar, nəhayət BMT Baş Assambleyasının 59-cu sessiyasındakı, GUAM-ın dövlət başçılarının Kişinyov sammiti zamanı, Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Varşava zirvə görüşündə və İKT-nin üçüncü fövqəladə zirvə toplantısındakı parlaq çıxışları, müasir beynəlxalq münasibətlərə verdiyi obyektiv və cəsarətli qiymət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qətiyyətli mövqe nümayiş etdirməsi Vətənini sevən hər bir azərbaycanlıda haqlı qürur hissi doğurur və gələcəyə böyük ümid yaradır. Bütün bunlar aydın göstərir ki, İlham Əliyev beynəlxalq aləmdə yaxşı tanınan və dünyanın aparıcı dövlət xadimləri tərəfindən qəbul olunan, onların arasında layiqli yer tutan siyasətçidir. Bu, Azərbaycan rəhbərinin dünya siyasətində daha parlaq gələcəyindən xəbər verir. Şübhə yoxdur ki, İlham Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi doğma xalqına hələ uzun müddət böyük uğurlar qazandıracaqdır.

Azərbaycan Respublikası regional, beynəlxalq inteqrasiya və əməkdaşlıq proseslərinin fəal iştirakçısıdır. Ölkəmiz region və bütün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı iqtisadi və mədəni əlaqələr qurulmasında maraqlıdır. Azərbaycan transmilli nəqliyyat-kommunikasiya

layihələrinin həyata keçirilməsində birmənalı mövqeyi və fəaliyyəti ilə seçilir. Xüsusən beynəlxalq enerji layihələrində Azərbaycan həmişə əsas təşəbbüskarlardan və söz sahiblərindən biri olmuşdur. Təsadüfi deyil ki, indi Azərbaycan transmilli, qlobal enerji-kommunikasiya layihələrinin mərkəzidir, dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu gün biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin memarı olduğu Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasının şahidiyik. 2006-cı ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası başa çatdırılacaqdır. Türkiyə, Gürcüstan və Azərbaycanın vahid dəmir yolu sistemi ilə birləşdirilməsi haqqında dövlətlərarası razılaşma əldə olunmuşdur. Artıq reallaşmasına heç kimin şübhə etmədiyi bu nəhəng layihələr ölkəmizi və onunla birlikdə regionumuzu qloballaşan dünyanın çiçəklənən, sülh, sabitlik və inkişafın hökm sürdüyü bölgələrindən birinə çevirəcəkdir.

ABŞ-da dərc olunan «The Wall Street Journal» qəzetinin «World Today» agentliyinin MDB məkanında baş verən proseslərlə bağlı keçirdiyi sorğuların nəticələri əsasında dərc etdiyi yazıda göstərilir ki, son 10 il ərzində Azərbaycanda insan hüquqları sahəsində göstəricilər 70, siyasi dözümlülük sahəsində 62, dini tolerantlıq sahəsində 98,6, mətbuat azadlığı sahəsində 75, siyasi senzura sahəsində 92, qanunvericilik sahəsində 78, beynəlxalq öhdəliklərin yerinə yetirilməsində 90 faizə yüksəlib. Azərbaycan beynəlxalq strukturlara inteqrasiya səviyyəsinə görə də öndə gedir. Ölkəmizin ümumdünya və Avropa strukturlarına inteqrasiya faizi 86 rəqəmi ilə ifadə olunub. MDB məkanı üçün proqnozlarda Azərbaycana dair iqtisadi göstəricilər siyasi göstəriciləri üstələyib. Azərbaycanın iqtisadi inkişafı növbəti on ildə ən yüksək həddə - 70 faizə yüksələcək.

Prezident İlham Əliyevin Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi, qüdrətlənməsi, firavan və çiçəklənən bir cəmiyyətə çevrilməsi üçün qısa bir zamanda atdığı addımlar xalqımızın ona olan inamını daha da artırır və onun haqqında Azərbaycanın ümummilli liderinin xalqa müraciətində bəyan etdiyi fikirlər bu gün bir daha öz təsdiqini tapır. "Vətəndaş cəmiyyəti və İlham Əliyevin 365 günlük prezidentlik fəaliyyəti" haqqında ümumrespublika rəy sorğusunun yekunları da bunu deməyə əsas verir. Belə ki, sorğu iştirakçılarının 79,3 faizi Prezident İlham Əliyevə Azərbaycanın digər siyasi xadimlərindən daha çox inam bəslədiklərini nümayiş etdirmiş və əgər seçkilər yenidən keçirilsəydi, məhz ona səs verə biləcəklərini, ölkədə mövcud olan problemləri yalnız cənab İlham Əliyevin həll etmək iqtidarında olduğuna əminliklərini bildirmişlər. Rəyi soruşulan-

ların 77,57 faizi Prezident İlham Əliyevə tam etibar etdiklərini söyləmişlər. Respondentlərin 85,9 faizi isə prezidentlik institutuna inamlarını möhtərəm İlham Əliyevin şəxsiyyətinə olan rəğbətləri ilə əsaslandırmışlar. ABŞ-ın dünyada ən məşhur sosioloji sorğu mərkəzi olan «Gellap international» Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğulara görə isə, Azərbaycan Prezidenti İlham Əliyev həm öz ölkəsində, həm də Cənubi Qafqaz regionunda ən yaxşı göstəriciyə (77%) malik liderdir. Dünyanın nüfuzlu siyasətçilərinin, diplomatlarının, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin şəxsiyyəti və siyasi fəaliyyəti barədə fikirləri də deyilənlərə parlaq sübutdur.

"Rəy" Monitorinq Mərkəzinin Bakı və Sumqayıtla yanaşı, ölkəmizin 37 yaşayış məntəqəsində 18 və daha yuxarı yaşlı 1205 respondent arasında keçirdiyi sosioloji sorğuda iştirak edənlərin 85,2 faizi Prezident İlham Əliyevin ötən ildəki fəaliyyətini müsbət qiymətləndirmiş, 70,3 faizi isə ölkə başçımızı "2005-ci ilin adamı" adlandırmışdır.

...Bu gün Azərbaycan Respublikası əsasını XX əsrin dahi siyasətçisi, Vətənini canından artıq sevən ulu öndər Heydər Əliyevin qoyduğu yolla irəliləyərək öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ümummilli liderimiz daim müstəqil Azərbaycanın demokratik, firavan, inkişaf etmiş gələcəyini düşünürdü, bu gələcəyə aparan böyük Yolun əsasını qoyurdu. Bu yol çətin və mürəkkəb, lakin şərəfli yoldur. İndi Azərbaycan bu böyük Yolda özünün seçdiyi rəhbəri - Böyük Yolun Yolçusu - Prezident İlham Əliyevlə qətiyyətlə, inamla, sədaqətlə irəliləyir...

"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə". Elmi-nəzəri və praktiki jurnal. 2006-cı il, № 1. s. 95-115

Əfsanələri reallığa çevirən şəxsiyyət

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində fəaliyyəti haqqında yazmaq, onu ümumiləşdirmək, tədqiq və təhlil etmək, qiymətləndirmək və nəticə çıxarmaq, sözün hər mənasında həddindən artıq çətin və məsuliyyətli vəzifədir. Hətta edilən cəhdin ona adekvat olmayacağına əmin olsaq belə, müstəqil Azərbaycan Respublikasının maraqlarına, onun dövlətçiliyinin möhkəmlənməsinə və inkişafına xidmət edən bu zəngin, uzaqgörən, müdrik, ölçülüb-biçilmiş siyasi kursun hərtərəfli öyrənilməsi həm vacibdir, həm aktualdır, həm də təbiidir. Heç şübhə yoxdur ki, bu mövzuya həsr olunmuş bir məqalə dənizdən damla götürməyə bənzəyir. Amma bu dənizdən hamı götürə bilər, özü də kim nə qədər istəyir, kim nə qədər bacarır.

Heydər Əliyevin xarici siyasət fəaliyyəti bir dövlətçilik məktəbidir, mükəmməl, tarazlaşdırılmış, ilk baxışdan sadə, əslində isə olduqca mürəkkəb, dünyada və regionda gedən prosesləri, tarixi, mədəniyyəti, mövcud reallıqları, bu fəaliyyət sahəsində az-çox əhəmiyyəti, rolu olan hər bir hadisə və faktı nəzərə alan, zəngin təcrübəni, nəzəriyyə və praktikanın harmonik vəhdətini, görkəmli dövlət və siyasi xadimlərdə belə qısqanclıq doğura biləcək uzaqgörənliyi, müdrikliyi və qətiyyəti özündə birləşdirən konsepsiyadır. Bu konsepsiyanın qanun, kateqoriya və prinsiplərinin siyasət, geosiyasət və beynəlxalq münasibətlər üzrə monoqrafiya və dərsliklərdə özünə yer tapacağının və gələcək nəsillər üçün məhək daşma çevriləcəyinin zaman-zaman şahidi olacağıq.

Dahinin bir adı var, dahi. Dahi harada olsa dahidir. Heydər Əliyev sovet rejiminin müxtəlif inkişaf mərhələlərini yalnız ona məxsus olan istedad və məharətlə arxada qoyaraq, mürəkkəb, qəddar, eyni zamanda sərt imtahanlardan keçərək ən yüksək zirvəyə ucaldı. Dahi həmişə dahidir. Bu dahiliyin ictimai-siyasi və tarixi əhəmiyyəti onun xalqa bağlılığı, milli və dövlətçilik maraqlarına xidməti ilə müəyyənləşir. Artıq bu gün Heydər Əliyevin fəaliyyəti, ölkənin inkişafında, Azərbaycanda dövlətçilik ənənələrinin formalaşmasında onun xidmətləri haqqında yüzlərlə müxtəlif tədqiqat yazılmış, nəzəri və praktik ümumiləşdirmələr aparılmışdır. Düşünürük ki, bütün hallarda bu, görülməli işlərin başlanğıcıdır. Heydər Əliyev fəaliyyətinin, ümumiyyətlə, xarici siyasət kursunun ayrılıqda adekvat qiymətini vermək üçün ən azı Heydər Əliyev qədər iş görmək lazımdır. Zamana ehtiyac olduğu üçün, bununla gələcək nəsillər hələ çox məşğul olacaqlar. Bu həm də tarixi borcdur. İndiki nəslin hər bir nümayəndəsinin, hamımızın borcudur. Cəmiyyətin Heydər Əliyevə qaytaracağı mənəvi, tarixi borcdur.

1993-cü ilin yayında xalqın iradəsi və tələbi, respublikanın bütün siyasi qüvvələrinin dəvəti və çağırışı ilə hakimiyyətə qayıdan Heydər

Əliyevin vəziyyətini təsəvvür etmək üçün ölkədəki prosesləri görmək lazım idi. Adi vətəndaşlar belə qarşıda nə dərəcədə çətin vəzifənin durduğunu dərk edirdilər. Belə bir şəraitdə Heydər Əliyev kimi təcrübəli və müdrik, qeyri-adi idarəçilik məharəti olan bir şəxsiyyətin nə düşündüyünü müəyyənləşdirmək üçün onun yerində olmaq lazım idi. İmperiya dağıldıqdan sonra getdikcə dərinləşən böhran və özbaşınalıq, vətəndaş müharibəsi və ölkənin parçalanma təhlükəsi, kövrək addımlarını atan müstəqilliyimizə edilən sui-qəsdlər, əsrlər boyu başqalarının həsəd apardığı zəngin təbii ehtiyatlarımız, geosiyasi əhəmiyyəti olan Şərq—Qərb, Şimal—Cənub kommunikasiya imkanlarımız, etiraf etmək lazımdır ki, qarşıdakı vəzifələri dəfələrlə, on qat, yüz qat çətinləşdirirdi.

Belə bir situasiyada xalq və millət nağıllarda və əfsanələrdə olduğu kimi xilaskar axtarırdı. Bu xilaskar isə Heydər Əliyev idi. Böyükdən kiçiyə, kiçikdən böyüyə hamının ümidi ona yönəlmişdi. Heydər Əliyevin siyasət aləmindəki fəaliyyətini şahmat terminləri ilə ifadə etməli olsaq, o, siyasət qrossmeysterlərinin ən nəhəngidir. Müstəqillik ərəfəsində respublikaya rəhbərlik etməyə cəhd göstərən Vəzirov və Mütəllibovu, bir tərəfdən, miskinlik və qul xisləti, digər tərəfdən isə, manqurtluq səciyyələndirirdi. Belələrinin bədnam və rüsvayçı tarixçələri qanunauyğunluqdur.

Cəbhə—müsavat cütlüyünün fəaliyyəti, mahiyyət etibarı ilə, heç nə ilə fərqlənmədi. Əksinə, mövcud problemlərə yeniləri əlavə edildi. Müstəqil dövlət isə uçuruma yuvarlanmaqda davam edirdi. Yeri gəldi-gəlmədi özlərini öyən, məsuliyyət hissindən tam məhrum həm birincilərin, həm də ikincilərin faciəsi onda idi ki, onların hadisə və proseslərə münasibəti metafiziki primitivliyi ilə yadda qalırdı. Əşya və predmet yalnız bir tərəfmi görənlər üçün onlar haqqında təsəvvür də elə birtərəfli və bəsit olur.

Xarici siyasət — Heydər Əliyev fəaliyyətinin bir istiqamətidir, bir sahəsidir. Amma ən mürəkkəb sahəsidir. Burada səhvlər bağışlanılmır. Burada atılan hər bir addım mühüm əhəmiyyət daşıyır. Onların kiçiyi, böyüyü yoxdur. Hər bir addımın atılması üçün yüzlərlə, minlərlə faktor: hadisələr, proseslər, münasibətlər, tarixi keçmiş, mövcud durum, yaxın və uzaq perspektivlər nəzərə alınmalıdır. Buna hətta dövlət başçıları arasında belə heç də hamı nail ola bilmir.

Dünyagörüşü qeyri-adi analitik təfəkkür əsasında formalaşmış Heydər Əliyevin xarici siyasət fəaliyyəti kamil bir sistemdir. Bu sistem mürəkkəb struktura malik olan operativ mexanizmlərdən ibarətdir. Onların hər biri obyektiv qanunauyğunluqlar əsasında fəaliyyət göstərir bir-biri ilə üzvi şəkildə sıx bağlıdır. Düşünürəm ki, bu günün özündə dünyanın ən inkişaf etmiş ölkələrində aparıcı alimlərin icad etmək istədikləri ən mükəmməl elektron hesablama maşınlarının ideal modeli Heydər Əliyev beyninə yaxın

bir modeldir. Amma buna nail olmaq, həm nəzəri, həm də praktik baxımda mümkündürmü? Yəqin ki, yox. Bu baxımdan Heydər Əliyev fenomendir. Belə şəxsiyyət yüz ildən, iki yüz ildən bir dünyaya gəlir.

Heydər Əliyevin siyasi dühası analitik təfəkkürü və uzaqgörənliyi, bir tərəfdən, eyni zamanda müxtəlif istiqamətləri, müxtəlif sahələri əhatə edərək ümumiləşdirməyə, qlobal münasibətlər sistemini, onların inkişaf xarakterini və istiqamətlərini vəhdətdə görməyə və qiymətləndirməyə imkan verir, digər tərəfdən isə, bu mürəkkəb münasibətlər sistemində öz ölkəsi və xalqı üçün ən vacib məqamları seçib-ayıraraq onları milli və dövlətçilik maraqlarını təmin edən mühüm ideya və layihələrə çevirməyi, sonra isə qlobal və regional proseslərin mərkəzinə çıxarmağı bacarır. Məhz bu xüsusiyyəti Heydər Əliyevi dövlət başçısı, siyasi xadim kimi başqalarından fərqləndirir. Heydər Əliyev dühasını səciyyələndirən cəhətlər olduqca müxtəlif və qeyri-adidir. Onların hamısını müəyyənləşdirmək, təsnif etmək, sistemləşdirmək və şərh etmək siyasət və diplomatiya elmlərinin vəzifəsidir. Heydər Əliyevin siyasi intuisiyasının, uzaqgörənliyinin elmi-metodoloji əsaslarının izahını vermək çətin vəzifədir. Lakin Heydər Əliyevin fəaliyyətində realizm və praqmatizm həmişə mühüm rol oynayır. Böyük realist və praqmatik olaraq o, qarşısına qoyduğu vəzifənin, hətta ən çətin və ən mürəkkəb olsa belə, öhdəsindən həmişə yüksək səviyyədə gəlir. Bunun əsas səbəbi odur ki, çoxlarının siyasətdə, beynəlxalq münasibətlərdə xülya, əfsanə, ən yaxşı halda, rasional fərziyyə hesab etdiyi məsələləri Heydər Əliyev fenomeni heç kimə xas olmayan, yalnız özünəməxsus ölçü və kateqoriyalarla təhlil edir, nəticə çıxarır. Lakin sadəcə "təhlil edir, nəticə çıxarır" demək, şübhəsiz, çox primitiv yanaşma üsuludur. Çünki bu zaman onun beynində gedən proseslərin elmi izahını şərh etmək mümkün deyil. Biz ancaq nəticələri görürük.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı müharibə, siyasi proseslər, düşdüyü çıxılmaz vəziyyət, daxildəki siyasi özbaşınalıq və xaos, iqtisadi böhran, tarixi qonşularımız İran İslam Respublikası və Rusiya Federasiyası ilə səriştəsizlikdən gərginləşmiş münasibətlər ölkənin, gənc dövlətin taleyini və gələcəyini ciddi düşünən hər bir şəxsin pessimizmə qapılmasına səbəb olurdu. O dövrdə yaşadığımız təhlükəli proseslərin ciddiliyi hər bir vətəndaşı düşündürürdü Sadə insanlar, bütün xalq uçuruma sürüklədiyini duyurdu, fəlakətin qaçılmaz olduğunu hiss edirdi. Elə Heydər Əliyevin hakimiyyətə qayıtmasını zəruriləşdirən mühiti də xalqın bu duyumu formalaşdırdı. Məhz bu duyum xalqın iradəsini ortaya qoydu. Həmin iradənin qətiliyinə və Heydər Əliyevin qayıdışına alternativin olmadığına əmin olan cəbhə - müsavat rəhbərliyi onu dəvət etməyə məcbur oldu.

Heydər Əliyevi isə bu zaman hakimiyyət yox, xalqın durumu, dövlət

və dövlətçiliklə bağlı taleyüklü məsələlər düşündürürdü. Ötən qısa müddət ərzində hansı səhvlər buraxılmışdı? Bu səhvləri törədən obyektiv səbəblər hansılardır? Onları aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır? Xalqı və dövləti bu vəziyyətdən necə çıxarmalı? Bu xarakterli düşüncələrin, sualların sayı-hesabı yox idi.

Azərbaycan xalqı ağıllı, cəsur, mərd, qonaqpərvər, zəhmətkeş, xalqdır. O, min illərlə ölçülən tariximiz boyu dəfələrlə müstəqil dövlətini yaratsa da, onu yaşatmaq mümkün olmamışdır. Müxtəlif səbəblər üzündən xalqımızın qəlbində əsrlər boyu bəslədiyi ümdə arzu puç olmuşdur. Son dəfə SSRİ dağıldıqdan sonra da müstəqilliyimizə təhlükə olan bütün səbəblər qalırdı. Lakin xalqın əzminə və iradəsinə söykənərək bu çətinliklərin aradan qaldırılmasına çalışmaq əvəzinə, cəbhə—müsavat rəhbərləri heç bir məsuliyyət hiss etmədən və kor-koranə yenilərini yaratmaqla məşğul idilər.

Siyasətdə radikallıq və populizm gec-tez həm siyasətçinin özünü, həm də onun rəhbərlik etdiyi qurumu və ölkəni uçuruma aparır. Tarix bunu dəfələrlə sübut etmişdir. Cəbhə—müsavat rəhbərləri, eləcə də Vəzirov və Mütəllibov kimilər bunu bir daha sübut etdilər. Prosesin tez getməsinə səbəb isə bu üzdəniraq rəhbərlərin dövləti bağ, bostan, müəssisə hesab etmələri, yəni dövlətin mahiyyətini başa düşməmələri və eyni zamanda xalqdan bir alət kimi istifadə etmək niyyətləri idi. (Təəssüflər olsun ki, elə bu gün də onların beyinlərinin təkcə bir qırışı işləyir.) Bunun nəticəsi idi ki, onlar rüsvayçılıqla siyasət səhnəsini tərk edəndən sonra Heydər Əliyevin qarşısında minimum aşağıdakı fundamental problemləri həll etmək vəzifəsi dururdu:

—daxildə separatçılıq və dövlətçiliyə sui-qəsd meyllərinin qarşısını almaq və ictimai-siyasi sabitliyi təmin etmək;

—getdikcə dərinləşməkdə olan iqtisadi böhranı dayandırmaq;

—cəbhə—müsavat rəhbərlərinin məsuliyyətsiz, kor-koranə və populist bəyanat və çağırışları nəticəsində qonşu İran İslam Respublikası və Rusiya Federasiyası ilə gənc Azərbaycan Respublikası arasında korlanmış, gərgin münasibətləri normal səviyyəyə qaldırmaq;

—Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində gedən müharibəni dayandırmaq;

— bütün dövlətlərlə əlaqələr quraraq müstəqil Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, hüquqi və s. sahələrdə inkişafını təmin edəcək şərait yaratmaq;

— xalqın itirilmiş inamını özünə qaytarmaq.

Yuxarıda qeyd etdiyimiz problemlər Azərbaycan üçün səriştəsizlik və xəyanət nəticəsində yaranmışdı. Onların aradan qaldırılması üçün Heydər Əliyev dühası lazım idi. Məhz onun yorulmaz fəaliyyəti, müdrik daxili və

xarici siyasət kursu sayəsində yaxın tariximizdə qarşılaşdığımız fundamental problemlər artıq arxada qalmışdır. Hətta gənc nəsil də bu mərhələlərin şahidi olmuşdur. Amma Azərbaycanın qarşısında duran tale yüklü məsələləri həll edərkən Heydər Əliyev eyni zamanda, xalqın, millətin və dövlətin gələcəyi haqqında düşünürdü. Heydər Əliyevi başqalarından fərqləndirən də budur. O, eyni zamanda çoxgedişli addımlar atmağı bacarır.

Qeyd olunan problemlərin hər birinin həllinə müxtəlif zaman kəsiyinin lazım gəldiyini nəzərə almaq lazımdır. 1993-cü ildən başlayan bu proses sonrakı illərdə, İran İslam Respublikası və Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlərin normal səviyyəyə qaldırılmasını da nəzərə alsaq, ötən əsrin sonunadək davam etdi. Lakin bu cür tale yüklü məsələlərin həlli ilə paralel atılan addımları nəzərdən keçirsək, Heydər Əliyevin dövlətçilik konsepsiyası gözlərimiz önündə canlanar.

Belə ki, 1994-cü ildə atəşkəs rejimi haqqında razılaşmaya nail olan Heydər Əliyev həmin ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzalayır. Dünyanın bir sıra aparıcı şirkətlərinin iştirak etdiyi bu layihəni o zaman çoxları utopiya adlandırsalar da Heydər Əliyev sabaha baxırdı, gələcəyi görürdü və bu layihənin Azərbaycan Respublikası, eləcə də regional və beynəlxalq əməkdaşlıq üçün nə dərəcədə əhəmiyyətli olduğuna tam əmin idi. O, 1994-cü ildə XXI əsri görə bilirdi.

Həmin dövrdə Azərbaycan və dünya mətbuatında "Əsrin müqaviłə-si" ilə bağlı gedən mütəxəssis, ekspert fikirlərini, müxtəlif bəyanatları nəzərdən keçirdikdə, Heydər Əliyevin böyüklüyünün bir daha şahidi olursan. Təkcə "Əsrin müqaviləsi" Heydər Əliyevi əbədiləşdirməyə kifayətdir. Amma Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqilliyimiz dövründə bu layihəyə bərabər tutulacaq addımları bir deyil, iki deyil. Bu addımlar həyatını ölkəsinin inkişafına, dirçəlişinə, çiçəklənməsinə, xalqının rifahına, xoşbəxtliyinə, təhlükəsizliyinə həsr etmiş bir şəxsin — Heydə r Əliyevin taleyidir, onun həyat verdiyi abidələrdir.

Həyatda olduğu kimi, siyasətdə də bəzən elə situasiyalar yaranır ki, dərhal qərar çıxarmaq lazım gəlir. Lakin dərhal qəbul edilən bu qərar düzgün, məhz ölkənin milli və dövlətçilik maraqlarına cavab verən qərar olmalıdır. Dövlət başçısının müdrikliyi məhz belə anlarda özünü daha parlaq nümayiş etdirir. Dərhal qəbul edilən qərarların düzgünlüyünü təsdiq etmək üçün ən azı zamana, hadisə və proseslərin təkamülünü izləməyə ehtiyac yaranır. Heydər Əliyev elə nadir dövlət başçılarındandır ki, onun ekstremal situasiyalarda qəbul etdiyi qərarların zərgər dəqiqliyini hər dəfə zaman təsdiq edir.

Dediklərimizə istənilən qədər nümunələr gətirmək olar. Ən parlaq nümunə isə 2001-ci ilin sentyabr ayının 11-də ABŞ-da törədilən terror

aktları ilə bağlı Azərbaycanın dövlət başçısının atdığı addımdır. Hadisə baş verən günün sabahı, səhər-səhər Prezident Əliyev ABŞ-ın ölkəmizdəki səfirini iqamətgahına dəvət edərək dəhşətli faciəyə münasibətini bildirdi, ABŞ Prezidentinə, hökumətinə, həlak olanların yaxınlarına dərin hüznlə başsağlığı verdi, terror aktlarını qətiyyətlə pisləndi, ABŞ-ın yaratdığı antiterror koalisiyasına qoşulduğunu və bu istiqamətdə Azərbaycanın bütün imkanları ilə iştirak edəcəyini bəyan etdi.

Bu elə bir zaman idi ki, bir sıra dövlətlərin rəhbərləri günlərlə mövqelərini dəqiqləşdirməkdə çətinlik çəkir və başqalarını gözləyirdilər. Lakin təxminən 10 gündən artıq vaxt keçəndən sonra hadisələrə münasibət bildirən Ermənistan rəhbərliyi həmişə olduğu kimi, sonralar, riyakarlıqla, guya, ilk günlərdən antiterror koalisiyasına qoşulduğunu sübut etməyə və tarixi təhrif etməyə çalışdı. Həqiqəti öyrənmək üçün isə 2001-ci ilin sentyabr ayının 11-dən sonra yerli və dünya mətbuatını nəzərdən keçirmək kifayətdir.

Qeyd etdik ki, Heydər Əliyevin həyatından bu cür nümunələr gətirməklə onların hamısını sadalamaq mümkün deyil. Lakin müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılacaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri haqqında danışmamaq olmur. İki əsrin qovuşuğunda dünyanın nəhəng layihələrindən olan bu boru kəməri Heydər Əliyevin yaratdığı ən böyük abidələrdən biridir. Azərbaycan xalqı və dövləti üçün ucaldılan bu abidə, çiçəklənmə amili olaraq, beynəlxalq əməkdaşlıq rəmzi kimi region dövlətləri üçün də mühüm əhəmiyyət daşıyacaqdır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ideyası ortaya çıxanda, bəziləri dodaq büzürdü, bu layihəni qeyri-real, xülya və əfsanə adlandırırdı. Əslində, çoxları üçün bu layihə, doğrudan da, fantastik ideya idi. Amma bu fantastik ideyanın müəllifi, atası Heydər Əliyev idi. Onun üçün isə fantastika, əfsanə yoxdur. O əfsanələri reallığa çevirən siyasətçi və rəhbərdir. Müəllifi Heydər Əliyev olan bu layihənin tarixini üç hadisə ilə də qeyd etmək olar. 1999-cu ildə Türkiyədə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ABŞ Prezidenti U.Klintonun iştirakı ilə bəyanat verirlər. 2002-ci ildə Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 10 illiyi münasibəti ilə keçirilən sammitdə iştirak etməyə gəlmiş Heydər Əliyevi bir konfransa dəvət edirlər. Konfrans "Üç dənizin əfsanəsi" adlanır. 2003-cü ilin martında isə Vaşinqtonda təşkil olunmuş "Şərq-Qərb dəhlizi günün reallığıdır" adlı konfrans da Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə həsr olunmuşdu.

Əlbəttə, bütün bunlar qısa, sadə bir tarixdir. Amma bu tarixin arxasında nələrin durduğunu yalnız Prezident Əliyev bilir. Bircə fikri vurğulamaq yerinə düşər: böyük layihənin böyük də problemləri olur. Elə bütün mənalarda. Amma böyük və möhtəşəm layihənin müəllifi və gerçəkləşdirəni də böyük və möhtəşəm olur.

Daha bir prosesi də mütləq etmək ona görə lazımdır ki, bu Heydər Əliyev dühasının dinamikasını nümayiş etdirir. Müstəqilliyini yenicə qazanmış Azərbaycanın qarşında duran ən mühüm və çətin vəzifələrdən biri də Xəzər və onun Azərbaycan sektorunda olan neft yataqlarının işlənməsi, istismarı məsələsini tezliklə həlli idi. SSRİ dağılandan sonra Xəzər bölgəsində, həqiqətən də nadir bir vəziyyət yaranmışdı. Xəzər beş dövlətin əhatəsində idi və bir hala dünya praktikasında əvvəllər təsadüf edilməmişdi. Heydər Əliyevin dövlətçilik təcrübəsi, uzaqgörənliyi bu çətin situasiyadan çıxış yolu göstərdi. Heydər Əliyevin Xəzərin statusu ilə bağlı təklif etdiyi sektoral prinsip, bu qeyri-adi vəziyyətdə ədalətli, yeganə düzgün və hər bir Xəzəryanı dövlətin maraqlarını təmin edən konsepsiya oldu. Yeni açılan yollar hamar olmur. Bu yol da hamar deyil. Amma ötən illər ərzində əldə edilmiş nailiyyətlər, Xəzərin statusu ilə bağlı gedən proseslər və aparılan danışıqlar bir daha göstərir ki, biz doğru yoldayıq və bu məsələ də öz həllini tapacaqdır.

Heydər Əliyev bütün həyatı boyu bir prinsipə sadiqdir: nəyin bahasına olursa olsun, bütün imkanlardan istifadə edərək xalqına və millətinə maksimum xidmət etmək. SSRİ-nin tərkibində olduğumuz dövrdə də belə olmuşdur. Bu gün də belədir. Heydər Əliyevin yeganə amalı Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin inkişafı və möhkəmləndirililməsini, xalqımızın rifahını, təhlükəsizliyini və çiçəklənməsini təmin edə biləcək hakimiyyət formulu yaratmaq və onu etibarlı əllərə təhvil verməkdir.

Tarixi dahi şəxsiyyətlər yaradır; xalq, millət isə yaşadır desək, yəqin yanılmarıq. Azərbaycanın tarixinin iftixar, qürur doğuran ən şərəfli və mühüm dövrü — XX əsrin ikinci, XXI-ci əsrin isə birinci yarısı məhz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev bu dövrdə həm xalqımız, həm də özü üçün qoyulan müstəqil Azərbaycan adlı bir abidənin memarıdır. Əbədi yaşamağın resepti budur.

"Xalq" qəzeti, 10 may 2003-cü il

Tarixi şərait və Ümummilli Lider

Tarixi böyük şəxsiyyətlər, liderlər, görkəmli ictimai-siyasi və dövlət xadimləri yaradır. Tarixçilər onu qələmə alır, ümumiləşdirir və salnaməyə çevirirlər. Bütöv nəsillər isə bu tarixi təcrübələrdən nəticə çıxarır, bəhrələnir və gələcək həyatlarını qururlar. Bu yanaşmadan çıxış edərək, ingilis tarixçisi Tomas Karleyl (1795-1881) yazırdı ki, dünya tarixi, əslində, görkəmli şəxsiyyətlərin tərcümeyi-halıdır. Amerika filosofu Ralf Uoldo Emerson (1803-1882) hesab edirdi ki, tarix qəhrəman şəxsiyyətlərin fəaliyyətinin nəticəsidir. Alman filosofu Fridrix Nitsşe (1844-1900) özünün belə bir ideyasını əsaslandırmağa çalışırdı ki, bəşəriyyətin ali nümayəndəsi kimi yalnız "fövqəlinsan" böyük işlər görür, tarixi yaradır.

Tarixin bütün mərhələlərində şəxsiyyətlər ictimai inkişafın lokomotivi kimi çıxış edirlər. Tarix ictimai tərəqqi və azadlıq ideallarının təntənəsi uğrunda mübarizə aparan şəxsiyyətlərin adlarını hifz etmişdir. Əsrlər boyu həmin şəxsiyyətlər bir çox cəhətdən dövrləri və sivilizasiyaları təcəssüm etdirmiş, haqlı olaraq sosial tarixin əsas mərhələlərini, onun nailiyyətlərini və sarsıntılarını şəxsləndirmişlər. Belə şəxsiyyətlərin qəhrəmanlığı və hünərləri o qədər böyükdür ki, onların adları xalqın varlığının rəmzinə çevrilmişdir. Bu şəxsiyyətlər hətta dünyalarını dəyişdikdən sonra da onların xatirəsi milyonların ürəyində, müstəqillik və azadlıq uğrunda mücadilənin qalibləri kimi xalqın qəlbində yaşayır.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycan tarixinin böyük bir qərinəsini əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə, onun mübarizə yolu və böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

Heydər Əliyev bütün mənalı həyatını Azərbaycana, xalqının milli-mənəvi varlığının qorunmasına, tərəqqisinə, onun firavan həyatının təmin olunmasına, dünya xalqları sırasında layiqli yer tutmasına həsr etmişdir. Bu dahi şəxsiyyətin zəngin həyatının böyük bir dövrü onun müstəqil Azərbaycan dövləti uğrunda apardığı mübarizə və fəaliyyətdən ibarət olmuşdur. Müstəqil dövlətçiliyin qorunub saxlanması və möhkəmlənməsində, azərbaycançılıq ideyasının, milli həmrəyliyin, Azərbaycanın inkişaf

modelinin formalaşmasında, ölkənin dünyaya inteqrasiyasında Heydər Əliyevin xidmətləri misilsizdir.

Heydər Əliyev bəşər tarixinə özünəməxsus siyasi dəst-xətti, idarəçilik üslubu və yaradıcılıq əzmi olan böyük şəxsiyyətlərdən biri kimi daxil olmuşdur. O, zəngin və çoxəsrlik Azərbaycan tarixində müstəsna yer tutur. Onun çoxşaxəli fəaliyyəti əhəmiyyəti və dəyəri baxımından ölkəsinin hüdudlarını aşır, dünyada gedən qlobal proseslərə öz təsirini göstərirdi. Heydər Əliyevin liderlik keyfiyyətlərinin, həm ölkədaxili, həm də beynəlxalq nüfuzunun optimal nisbəti, bir-birini tamamlaması heyrət doğurmaya bilmir. Liderin obrazı, idealı onun daşıyıcısından asılıdır. Onun fenomenal keyfiyyətləri yoxdursa, sırf siyasi texnologiya heç nəyə qadir deyildir. Ulu öndər Heydər Əliyev, sözün əsl mənasında, bütün keyfiyyətlərinə görə – intellektinə görə zəka öndəri, mənəviyyatına görə etnik-mədəni ideal təcəssümü, sadəlik mücəssəməsi, ensiklopedik bilik sahibi, bir sözlə, bütöv, fenomen şəxsiyyət idi. Sadalanan keyfiyyətlərdən əlavə, qeyri-adi təsir və nüfuz gücünə malik olmaq, insanlarla izah edilməsi mümkün olmayan səmimiyyət və anlayışlı münasibətlər yarada bilmək, xarizmatik lider, lider-ideoloq, lider-strateq, lider-praqmatik və digər keyfiyyətlər – bütün bunlar bir nəfərin, Heydər Əliyevin simasında cəmləşmişdir. Heydər Əliyevin simasında, həmçinin siyasi ideologiya və siyasi texnologiyanın strateji alyansı öz təcəssümünü tapmışdır. Buna görədir ki, o, ənənəvi və müasir, novator və konservator keyfiyyətlərin ideal sintezinə nail olmuş, bu dəyərlərin varisliyini təmin etmişdir. Xalqın rəğbətinin ən ali məqamına – ümummilli lider səviyyəsinə yüksəlmək məhz bunların sayəsində mümkün olmuşdur.

Heydər Əliyevi Azərbaycanın son 200 illik tarixində olan digər liderlərdən fərqləndirən əsas, əhəmiyyətli və nadir üstünlük odur ki, o, düşüncəsində olan nəzəriyyələri reallaşdırmaq qüdrətinə malik siyasi şəxsiyyət və dövlət xadimi, bir sözlə, əfsanələri gerçəkləşdirən ümummilli liderdir. Heydər Əliyev Azərbaycanın yaxın və uzaq tarixini dərindən bildiyindən, hər dövrün rəhbərlərinin siyasi fəaliyyətini düzgün təhlil edərək onların səhvlərini araşdırdığından, beynəlxalq aləmdə tükənməz nüfuz qazandığından, zəngin dövlətçilik təcrübəsinə və fenomen yaddaşa malik olduğundan, ayrı-ayrı dövrlərdə xalqımızın taleyini müəyyənləşdirən digər şəxsiyyətlərdən fərqli olaraq, tarixi şəraitlərə uyğun və dövlətçilik baxımından düzgün qərarlar qəbul etmiş, bunları reallaşdıra bilmişdir.

Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və müasir mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu bu prinsiplərə istinad etməsi bu qüdrətli şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə yeganə doğru

qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdəndir.

Heydər Əliyevə siyasət səhnəsində heç kim qalib gələ bilməmişdir. O, dövlətçilik tarixində "qalib lider" obrazını yaratmışdır. Azərbaycan tarixində böyük uğurları ilə yanaşı, həm də ən müxtəlif səbəblərdən məğlubiyyət anı yaşayan liderlər çox olmuşdur. Heydər Əliyev isə Azərbaycan xalqına qalibiyyətin canlı obrazını, lider örnəyini bəxş etmişdir.

Heydər Əliyev Azərbaycanın ən çətin anlarında üzərinə düşmüş xilaskar missiyasını ləyaqətlə yerinə yetirmiş, bu yolda heyrətamiz fədakarlıqlar göstərmiş, xalqı müdhiş bəlalardan qoruya bilmişdir. O, öz fitri istedadı, iti zəkası, zəngin təcrübəsi və digər nadir keyfiyyətləri hesabına hadisələrin gedişini qabaqcadan görür, böyük əhəmiyyət kəsb edən tarixi qərarlar qəbul edir və bu zaman əsil vətənpərvər mövqeyində dayanırdı. Bütün ömrünü doğma Vətəninin xoşbəxtliyinə həsr edən, Azərbaycana sonsuz məhəbbət bəsləyən Heydər Əliyevin ürəyi müstəqilliyimizin möhkəmləndirilməsi, xalqın xoşbəxtliyi üçün çırpınırdı.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Xalqın təkidli tələbi və çağırışı ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtmış Heydər Əliyev güclü daxili potensiala malik yeni milli dövlət sistemi yaratdı. Ümummilli lider bu sistemi bir çox cəhətdən özünün nadir fəhmi və onilliklər boyu əvvəlcə bir respublikanın rəhbəri, sonra isə nəhəng Sovet imperiyasının rəhbərlərindən biri kimi topladığı əməli təcrübəsi hesabına qurdu. O, Azərbaycanın siyasi və işgüzar elitasını qlobal dünyaya inteqrasiya edə bildi.

Keçən əsrin son onilliklərində həm bütün dünyada, həm də Azərbaycanda baş verən, sözün əsil mənasında, tüğyan edən siyasi və iqtisadi transformasiyalar fonunda dövlətçilik ənənəsini bərpa etmək və sarsılmazlığını təmin etmək Heydər Əliyevin əzəməti və liderlik missiyasının hələ tam məzmunu deyildir. Yalnız əsrlərin və nəsillərin deyil, siyasi sistemlərin də bir-birini əvəzlədiyi belə bir zamanda müstəqil Azərbaycan dövlətini təməlindən yaratmaq üçün fövqəliradə və fövqəlsəylər gərək idi.

Görkəmli dövlət xadiminin gərgin səyləri sayəsində bir tərəfdən, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı təsirli tədbirlər görüldü, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Qan-qadanın arası kəsildi, ölkə iflic vəziyyətindən çıxdı, qorxu, vahimə içində çabalayan insanlar asudə nəfəs aldılar. Ümumi ruh yüksəkliyi, xoş, inamlı bir ovqat yarandı. Heydər Əliyev

bütün vətəndaşlara öz dövlətinə görə qürur və ona hörmət hissini qaytardı. Ölkənin parçalanmasına yol vermədi, doğma ölkəsinin öz ərazisinə yetərli nəzarətini bərpa etdi, ermənilər tərəfindən işğal olunmuş bütün ərazilərin Bakının yurisdiksiyasına qaytarılması üçün zəmin yaratdı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılan əsas addım Azərbaycanın qarşısında duran ən ümdə, taleyüklü məsələnin həlli – ölkəmizə qarşı erməni təcavüzünün dəf edilməsi, işğal olunmuş torpaqların azad edilməsi, ev-eşiyindən didərgin salınmış bir milyondan çox soydaşımızın öz el-obalarına dönməsi istiqamətində görülən tədbirlər idi. Ölkədə daxili ictimai-siyasi durumun son dərəcə mürəkkəb olmasına baxmayaraq, fəal surətdə həyata keçirilən tədbirlər nəticəsində ayrı-ayrı xarici mərkəzlərdən dəstəklənən Ermənistan silahlı qüvvələrinin azğınlıqlarının qarşısı alındı, düşmənə güclü əks-zərbələr endirildi və beləliklə də, münaqişənin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edildi. Münaqişənin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktına 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Azərbaycanın daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsinə başlanması Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişafının təməlində dayanan neft strategiyasının gələcək təntənəsinin müjdəsi oldu. Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir. Bütün bunlar dövlətimizin daxili qüdrəti ilə yanaşı, beynəlxalq nüfuzunun artırılmasına, Azərbaycanın təbii karbohidrogen ehtiyatlarının işlənilməsi və ixracı sahəsində regionda yeni beynəlxalq mərkəzə çevrilməsinə, Qara dəniz-Xəzər hövzəsində ümdə mövqe tutmasına, başlıcası isə, möhkəm hüquqi baza əsasında çox böyük Şərq-Qərb enerji dəhlizi yaradılmasına doğru yol açmasına imkan vermişdir.

Heydər Əliyevin müdrikliyi, zəngin dövlətçilik təcrübəsi ölkədə hərəmərcliyə, siyasi böhrana, dövlət çevrilişi cəhdlərinə son qoymağa, ictimai-siyasi sabitliyi bərqərar etməyə şərait yaratmışdır. Bütün bunlar, habelə iqtisadi tənəzzülün qarşısının alınması və bu sahədə tədricən inkişafa nail olunması Azərbaycanın müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi üçün həyati əhəmiyyətə malik idi.

Heydər Əliyevin daxili siyasəti hüquqi dövlət quruculuğuna, Azərbaycanın hər bir vətəndaşının azad, sərbəst yaşamaq hüquqlarının təmin edilməsinə, xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi. Bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi bu siyasətin prioritetləri idi.

Ümummilli liderin həyata keçirdiyi iqtisadi inkişafın sürətləndirilməsi strategiyası ölkə iqtisadiyyatının yüksələn xətlə artımını şərtləndirmişdir. Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası müəyyənləşdirilərkən dünyanın inkişaf meyilləri, eləcə də xalqın ümummilli məqsəd və mənafeləri ciddi şəkildə nəzərə alınmışdı. Ardıcıl və sistemli şəkildə atılan bütün addımlar güclü iqtisadi potensialın yaradılmasına, dövlətin möhkəmlənməsinə və xalqın sabitlik şəraitində yaşamasına xidmət etmişdir. Çünki inkişafın əsasını sabitlik təşkil edir. Sabitlik olmadan dirçəlişin baş verməsi mümkün deyildir.

Ümummilli liderin sosial-iqtisadi inkişaf konsepsiyasının ana xətti həm də belə bir ideyadan ibarət olmuşdur ki, iqtisadiyyatın yüksəlişi, iqtisadi tərəqqi xalqın tələbatını ödəmək, insanların həyatını yaxşılaşdırmaq məqsədinə xidmət etməlidir. Təsadüfi deyil ki, Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərin sürətli iqtisadi yüksəlişi ölkədə sosial sahənin də inkişafına təkan vermiş, adamların həyat səviyyəsində və yaşayış tərzində nəzərəçarpan dəyişikliklər etmişdir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. İnsan hüquqları sahəsində ardıcıl surətdə həyata keçirilən tədbirlərin təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır. Heydər Əliyev ölkəmizin inkişafını bu yüksək ideyalar əsasında strateji yol kimi müəyyən etmişdir. Ulu öndərin təşəbbüsü

ilə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda ölüm cəzasının ləğv edilməsi insan hüquqları və azadlıqlarına hörmətin təzahürü, həyata keçirilən dövlət siyasətinin məntiqi nəticəsi idi.

Heydər Əliyevin titanik fəaliyyəti, uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycan 2001-ci ildə "Avropa dövlətlərinin ailəsi" sayılan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini aldı.

Ümummilli lider daxili siyasi sabitliyin və davamlı quruculuq işlərinin təmin edilməsi ilə beynəlxalq aləmin, dünya ictimaiyyətinin marağının Azərbaycana yönəlməsinə nail oldu. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Dünya xəritəsində suveren və müstəqil Azərbaycan adlı tarixi həqiqət ünvanı hər kəsə bəlli oldu. Heydər Əliyev strategiyasının uğurları xarici siyasət sahəsində də bir-birini əvəzləməyə başladı. Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın böyük dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bildi. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Zəmanəsinin böyük mütəfəkkiri və filosofu olan Heydər Əliyev başlıca qayəsini müstəqillik, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın – azərbaycançılıq məfkurəsinin əsasını qoymuşdur. Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir. Heydər

Əliyevin işləyib hazırladığı azərbaycançılıq ideologiyası hazırda Azərbaycanın yeni nəslinin mənəvi-əxlaqi və sosiomədəni obrazının əsası kimi çıxış edir.

Ulu öndər dünya azərbaycanlılarının təşkilatlanmasına və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsinə xüsusi əhəmiyyət verirdi və bu istiqamətdə çox mühüm işlər görmüşdür. Təsadüfü deyil ki, 1991-ci ildən başlayaraq ilk dəfə məhz Heydər Əliyevin təşəbbüsü ilə əvvəl Naxçıvanda, sonra isə bütün Azərbaycan miqyasında hər il 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi xüsusi qeyd edilir. Ümummilli liderin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 25 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında", 21 aprel 1998-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi haqqında" fərmanları, "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı 29 dekabr 2000-ci il tarixli xalqa müraciəti dünya azərbaycanlılarının mənəvi-ideoloji birliyinin əsas istiqamətlərini müəyyən edən konseptual sənədlər hesab oluna bilər. Ən əsası isə ümummilli lider Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin ətraflı müzakirə edilməsini nəzərə alaraq 2001-ci il may ayının 23-də xüsusi sərəncam imzalamışdır. Məhz bu sərəncama əsasən 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində dünya azərbaycanlılarının I qurultayının keçirilməsinə nail olundu. Dünya azərbaycanlılarının I qurultayı Azərbaycan xalqının həyatında, milli və mənəvi birliyinin təşəkkülündə tarixi bir hadisə oldu. Dünyanın onlarca ölkəsində yaşayan azərbaycanlıları bir araya gətirən qurultay xaricdə yaşayan soydaşımızın milli təşəkkülünün, özünüdərk hissinin formalaşması, onların müstəqil Azərbaycan dövləti ətrafında təşkilatlanması, mənəvi, siyasi birliyinin təmin edilməsi işində yeni bir mərhələ açdı. Həmçinin, dünya azərbaycanlılarının I qurultayı xaricdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsinə, əvvəllər zəif olan diasporların möhkəmlənməsinə, onların fəaliyyətinin canlanmasına, müxtəlif milli və mədəni təşkilatlar arasında əlaqələrin qurulmasına təkan vermişdir. Ümummilli lider Heydər Əliyevin "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərmanının da Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə qurulması baxımından müstəsna əhəmiyyəti vardır. Bütün bunlar bir daha Azərbaycan diasporunun möhkəm, sarsılmaz

siyasi əsaslar üzərində formalaşdırılmasından xəbər verir.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı da ən böyük azərbaycanlı, ulu öndər Heydər Əliyevə məxsusdur. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ürəyinin ən dərin qatlarına qədər milli lider olduğunu nümayiş etdirmişdir. Xalqımızın tarix boyu qərarlaşmış milli dəyərlərinin bərpa edilməsi, Azərbaycan dilinin inkişafı, milli mədəniyyətimizin, əxlaq normalarımızın, dinimizin, mənəviyyatımızın yüksəldilməsi, gənclərin milli ruhda tərbiyə edilməsi Heydər Əliyevin liderlik qayəsini müəyyən edən cəhətlərdən idi. Milli qüruru yüksəldən, milli şüuru və milli ruhu zənginləşdirən özünəqayıdış prosesi Heydər Əliyevin çoxşaxəli fəaliyyəti, diqqəti və təşəbbüskarlığı sayəsində reallığa çevrilmişdir. Onun parlaq siyasi zəkası, müdrikliyi sayəsində xalqımız bütün maneələri dəf edərək öz milli mənəvi dəyərlərini qoruya bilmişdir.

Doğma dilə, ana dilinə sevgisi və qayğısı baxımından Heydər Əliyev nadir şəxsiyyətdir. Mübaliğəsiz demək olar ki, Azərbaycan dilinin hərtərəfli inkişafı, onun yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, praktikada dövlət dilinə, ümumişlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, get-gedə zənginləşərək nüfuz qazanması və dünyanın ən mötəbər kürsülərindən eşidilməsi ulu öndər Heydər Əliyevin dilimizin inkişafına, cəmiyyətimizdə layiqli yer tutmasına yorulmadan göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin nəticəsidir. Lakin, Heydər Əliyev təkcə ana dilinin inkişafına qayğı göstərməklə kifayətlənməmişdir, o, həmişə dilimizin problemlərinə peşəkarlıqla yanaşmış, öz fikir və ideyaları ilə, öz böyük təşəbbüsləri ilə Azərbaycan dilinin inkişafına təkan vermişdir. Bir sözlə, o, təkcə böyük dövlət xadimi və dahi siyasətçi kimi yox, həm də əsil dil bilicisi kimi tanınmışdır. Heydər Əliyevin Azərbaycan dilinin ifadə imkanlarından istifadə imkanı, natiqlik istedadı, onun şifahi nitqinin mükəmməlliyi və üslub xüsusiyyətləri hətta mütəxəssisləri də heyran edir. Gərgin və misilsiz dövlət quruculuğu fəaliyyəti, ictimai-siyasi və sosial-iqtisadi həyata rəhbərlik, beynəlxalq həyatda görkəmli dövlət xadimi və siyasi xadim kimi fəal iştirakı ilə ümumxalq nüfuzu və hörməti qazanmış Heydər Əliyev, eyni zamanda, ən mürəkkəb mövzularda kağızsız-mətnsiz, səlis və rəvan dildə çıxışları ilə, nurlu zəkanın və dəqiq məntiqin bəhrəsi olan natiqlik məharəti ilə şöhrət qazanmışdır.

Heydər Əliyevin geniş və çoxcəhətli fəaliyyətində Azərbaycan ədəbiyyatına, onun nümayəndələrinə, klassik irsə və müasir ədəbi prosesə diqqət və qayğı həmişə öncül mövqedə dayanmışdır. Xalqımızın nadir söz xəzinəsi ilə ilk gənclik illərindən maraqlanan Heydər Əliyev Azərbaycanın

lideri olduqdan sonra ədəbiyyatın inkişafı üçün son dərəcə böyük işlər görmüşdür. Onun ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycan yalnız əlverişli coğrafi-siyasi mövqeyi, zəngin təbii sərvətləri, iqtisadi potensialı ilə deyil, həm də eyni dərəcədə qədim və zəngin ədəbiyyatı ilə, dünya bədii fikrinin tarixində özünəməxsus yer tutan sənət korifeyləri ilə, bəşər mədəniyyətini zənginləşdirən cahanşümul ədəbi abidələri ilə dünya miqyasında tanınmışdır. Heydər Əliyev Azərbaycanı dünyaya bədii sözü ilə, sənət korifeyləri ilə, xalqın yaradıcı zəkasının aynası olan ədəbiyyatı ilə tanıtmış, bu yolla da Azərbaycanın zəngin tarixi keçmişini, möhtəşəm elmi-mədəni irsini inkar etməyə çalışan bədxahlarımızı susdurmuşdur.

Heydər Əliyevin dövlətçilik qarşısında misilsiz xidmətlərindən biri də onun liderliyi altında müstəqil Azərbaycanın suveren milli, xüsusilə də siyasi elitasının formalaşmasıdır. Heydər Əliyev hələ Azərbaycan SSR-nin Dövlət Təhlükəsizlik Komitəsinin sədri olduğu illərdə milli oyanışa təsir edən fəaliyyəti ilə seçilən ziyalılara qarşı repressiyaların qarşısının alınması istiqamətində təqdirəlayiq işlər görərək 1937-ci il dəhşətlərinin təkrar olunmasına imkan verməmişdir. Tarixi səbəblərə görə, Azərbaycanda milli elitanın formalaşmasında dəfələrlə fasilələr yaranmış, onun say-seçmə nümayəndələri repressiyalara məruz qalmışdır. Yalnız Azərbaycanın bu gününü və sabahını müəyyənləşdirmiş dühanın – Heydər Əliyevin səyləri sayəsində milli elitamız qısa zaman kəsiyində ictimai rəydə nüfuza malik, xalqın quruculuq əzmini bir arada cəmləməyə nail olan monolit qüvvəyə çevrilmişdir.

Hər bir xalqın milli mənliyinin, milli şüurunun formalaşması onun mədəniyyətinin, elminin, təhsilinin inkişafı ilə şərtlənir. Bəşər sivilizasiyasının zirvəsinə yüksəlmək kimi şərəfli yol keçmiş xalqlar hər şeydən əvvəl elm və təhsilin inkişafına borcludur. Çünki sivilizasiyanın ən sintetik göstəricisi elmin, təhsilin inkişafı hesab olunur. Antik yunan akademiyaları, qədim universitetlər də məhz bu ehtiyacdan yaradılmışdır. Bu baxımdan, ulu öndər Heydər Əliyevin rəhbərliyi illərinə təsadüf edən, Azərbaycan intibahını şərtləndirən, onu səciyyələndirən mühüm amillər sırasında təhsilin, elmin, mədəniyyətin yüksəlişi xüsusilə diqqəti cəlb edir. Bu böyük şəxsiyyət özünəməxsus müdrikliklə belə bir həqiqətə tapınmışdı ki, elmin, mədəniyyətin, mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan inkişaf bütövlükdə cəmiyyətin yüksəlişini, xüsusilə də onun davamlı xarakter almasını təmin edə bilməz.

Bütövlükdə, Heydər Əliyev zəngin tarixə malik bir xalqın özünütəsdiqi üçün zəruri olan bütün prosesləri qısa müddətdə əvvəldən axıradək apararaq tamamlamış, onun öz müstəqil dövlətində və milli-mədəni məkanında yaşamaq imkanını və hüququnu reallaşdırmışdır. Nəticədə milli yiyəlik hissinə sahib olan, dövlətçilik təfəkküründə yiyələnən, ölkənin bu günü və

sabahı üçün məsuliyyət hissi ilə yaşayan azərbaycanlı vətəndaşın obrazı, dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi planlar artıq bugünkü Azərbaycanın reallığına çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi müdrik siyasi xətt yeni mərhələdə siyasi varisi Prezident İlham Əliyev tərəfindən əzmlə, müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilir. Aparılan genişmiqyaslı sosial-iqtisadi islahatlar, həyata keçirilən möhtəşəm layihələr Azərbaycanı bölgədə lider dövlətə, beynəlxalq aləmdə nüfuz sahibinə çevirmiş, ölkəmiz yeni tarixi epoxaya qədəm qoymuşdur. Vətəndaş cəmiyyətinin, habelə iqtisadiyyatın modernləşməsi, ictimai məkanın demokratikləşməsi, milli məkanın sistemli liberallaşmasının formalaşdırılması Azərbaycanın milli strategiyasının əsas prioritetinə çevrilmişdir.

Azərbaycan sabitlik və modernləşmə yolunu seçmişdir. Azərbaycan cəmiyyəti üçün modernləşmə müasir inkişafın əsas amili olmaqla, özündə milli ənənələri, qaynaqları və kökləri, əsrlər boyu keçdiyimiz tarixi yolu təcəssüm etdirir. Modernləşmə sahəsində qarşıya qoyulmuş vəzifələrin icrasına keçən əsrin 90-cı illərinin ortalarından başlanılmış, indi isə Azərbaycanda rəqabətədavamlı cəmiyyət formalaşır, modernləşmə xətti sürətlə həyata keçirilir. Modernləşmənin əsas məqsədi həm Azərbaycanın, həm də hər bir vətəndaşın arzu və istəyinin reallaşmasına xidmət etdiyindən bu istiqamətdə ciddi tədbirlər görülür.

Bu gün Azərbaycan cəmiyyəti ardıcıl demokratikləşmə yolu ilə irəliləyir, demokratik təsisatlar inkişaf etdirilir. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq sənədlərə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Dünya birliyinə inteqrasiya xəttini seçmiş Azərbaycan hüquqi dövlət quran mütərəqqi xalqlar ailəsində öz layiqli yerini tutmuşdur.

İndi Azərbaycan keçid dövrünü arxada qoymuş və ictimai həyatın bütün sahələrini əhatə edən ümumi tərəqqinin keyfiyyətcə yeni mərhələsinə daxil olmuşdur. Təsadüfi deyil ki, mötəbər beynəlxalq qurumlardan sayılan

Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksək qiymətləndirmiş və dünyada 51-ci sıraya qoymuşdur ki, bu da Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ən yüksək göstəricidir. Artıq bir neçə ildir ki, Azərbaycan iqtisadi artım göstəricilərinə görə dünyada ən qabaqcıl ölkələrdən biridir.

Həyata keçirilmiş islahatların uğurlu nəticələri özünün bariz ifadəsini ümumdünya iqtisadi və maliyyə böhranı şəraitində Azərbaycan iqtisadiyyatının müsbət dinamikasında tapır. Son 6 il ərzində iqtisadiyyatımız 3 dəfə, büdcə xərclərimiz 10 dəfədən çox artmışdır, yüz minlərlə yeni iş yerləri açılmış, ölkədə yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, valyuta ehtiyatları, ölkəyə sərmayə qoyuluşlarının həcmi artmış, güclü sahibkarlıq sinfi yaranmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan neft strategiyası böyük uğurla davam etdirilir. Yalnız iqtisadi deyil, həmçinin çox böyük geosiyasi əhəmiyyət daşıyan, region ölkələrinin gələcək ictimai-siyasi və iqtisadi həyatında ciddi dəyişikliklərə yol açan enerji layihələri uğurla icra edilir. Azərbaycan regional layihələrdə iştirakını genişləndirərək, enerji nəqlinin diversifikasiyası siyasətini həyata keçirir və dünya dövlətləri üçün etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir. Ölkəmizin beynəlxalq enerji təhlükəsizliyi sistemində mövqeləri güclənir və Azərbaycan əhəmiyyətli miqdarda qaz ixrac edən dövlətə çevrilmişdir. Həmçinin, Şimal-Cənub, Şərq-Qərb enerji dəhlizində respublikamızın həlledici mövqeyindən milli maraqlarımız naminə uğurla istifadə olunur.

Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəqli sonradan Azərbaycanın enerji strategiyası adlandırılan siyasətin əsas elementinə çevrilmişdir. Bu gün Xəzər regionu qlobal geosiyasi münasibətlərin diqqət mərkəzindədir. Bu, Avropa ölkələri üçün Asiya regionuna keçid yolu, Rusiya üçün iqtisadi maraq zonası, həm də geosiyasi buferdir. Birləşmiş Ştatlar üçün isə böyük qlobal dəyişiklik zamanında əsas enerji mənbəyi vəd edən strateji bölgədir. Başqa sözlə, Xəzər hövzəsi strateji yol qovşağıdır və onun dünyada əhəmiyyəti yüksəlməkdədir. Hövzənin strateji potensialını artırmağa nail olmaq üçün region ölkələri sıx əməkdaşlıq şəraitində işləməli və postsovet məkanında inkişafa ardıcıl olaraq ümumi baxış yaratmalıdırlar.

Azərbaycanın bu təşəbbüsə rəhbərlik etmək üçün üstün mövqeyə malikdir. Ölkəmiz Xəzərin şərq və qərb sahillərini birləşdirərək dənizin enerji inkişafına mühüm töhfə verir. Azərbaycan hökuməti bu məsələlərdə regional və hətta qlobal rol oynamaq üçün strateji planlar üzərində işləyir.

Neft və qaz kəmərlərinin, digər müvafiq infrastrukturun tikintisi də daxil olmaqla, Azərbaycanın neft sektorunun inkişafı artıq ölkənin iqtisadi

yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Azərbaycanın karbohidrogen ehtiyatları ölkəni əhəmiyyətli enerji mənbəyinə və beynəlxalq enerji təchizatı sisteminin vacib tərkib hissəsinə çevirmişdir.

Bu gün qloballaşan dünyada artan neft gəlirləri ölkələrin iqtisadi siyasətinin müəyyənləşdirilməsində həlledici rol oynayır. Neftlə zəngin Azərbaycan iqtisadiyyatını daha da inkişaf etdirmək məqsədi ilə bu gəlirlərdən səmərəli istifadə edir. Azərbaycan mədən sənayesində şəffaflıq təşəbbüsünə qoşulmuş ilk ölkələrdən biridir, neft gəlirlərinin xərclənməsi baxımından uğurlu siyasət yürüdülür. Strateji tərəfdaşları ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan həqiqətən irimiqyaslı, transmilli layihələri gerçəkləşdirmişdir. Bu layihələr ölkənin iqtisadi inkişafının sürətlənməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamaqla, regionda təhlükəsizliyin və sabitliyin təminatına çevriləcəkdir.

Lakin, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bölgədə bir sıra problemlər yaratmışdır. Münaqişənin sülh yolu ilə həlli ölkəmizin iqtisadi potensialını artıracaq, regionun daha parlaq gələcəyinə gətirib çıxaracaqdır. Ölkəmizin inkişafının məqsədi təkcə dövlətin daxili çərçivələri ilə məhdudlaşmır, Azərbaycan həm də regionda sabitlik və tərəqqi naminə çalışır. Azərbaycanın iqtisadi inkişaf fəlsəfəsi çox sadədir – qonşu ölkələrin çiçəklənməsi qarşılıqlı fayda gətirir.

Azərbaycan sülhsevər xarici siyasət yürüdür. Bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq Azərbaycanın başqa ölkələrlə qarşılıqlı əlaqələrində əsas prinsiplərdir. Ölkəmizin xarici siyasəti, ilk növbədə onun ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsinə, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsinə, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsinə, Xəzər dənizi hövzəsinin demilitarizasiyasına, Avropa və Transatlantik strukturlarına inteqrasiyanın genişləndirilməsi işinə xidmət edir. Bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi tarazlaşdırılmış xarici siyasət xətti nəinki ölkəmizin beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmiş, eyni zamanda, milli təhlükəsizliyini gücləndirmişdir. Bununla yanaşı, Azərbaycanın geosiyasi rəqabət meydanına çevrilməsinin qarşısı alınmışdır. Strateji baxımdan əlaqələri genişlənən Azərbaycanın dünya geosiyasi məkanına siyasi, iqtisadi inteqrasiyası üçün də geniş imkanlar açılmışdır. Qərb ilə Şərqin qovuşuğunda yerləşən mühüm geostrateji məkan kimi Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün dayaq nöqtəsi kimi ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Azərbaycan sivilizasiyalar və dinlər arasındakı dialoqda fəal iştirak edir və bu məsələyə töhfə verən ilk ölkələr sırasındadır. Avropa Şurasının və ATƏT-in üzvü kimi Azərbaycan Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşür. Enerji təhlükəsizliyi baxımından Azərbaycan çox önəmli ölkədir. Azərbaycan yürütdüyü uğurlu xarici siyasət nəticəsində artıq dünya dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanımış və ölkəmizin bu məsələdəki birmənalı mövqeyi təsdiqləmişdir ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur.

Bütün bunlar müstəqil Azərbaycanın tarixi nailiyyətləridir. Bu nailiyyətlərin əsasını qoymuş Azərbaycanın böyük oğlu, müstəqil dövlətimizin xilaskarı, qurucusu və xalqımızın ümummilli lideri Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır!

"Respublika" qəzeti, 9 may 2010-cu il

Azərbaycan Prezidenti sülh carçısıdır

Cənab Heydər Əliyev Azərbaycanın bütün tarixi boyu yetişdirdiyi və bəşəriyyətə bəxş etdiyi ən parlaq, əzəmətli siyasi dühalardan biridir. O bu gün dünyanın görkəmli siyasi və dövlət xadimləri sırasında ön cərgədə özünəməxsus şərəfli yer tutur. Prezident Heydər Əliyev Azərbaycanın müstəqilliyi, bütövlüyü, rifahı, çiçəklənməsi və xoşbəxt gələcəyi uğrunda yorulmaz və yenilməz fəaliyyətinə görə zaman-zaman nəsillərin iftixar mənbəyi, məhəbbət məbədi və bələdçisi olacaqdır. Heydər Əliyevin ən böyük üstünlüklərindən biri də budur ki, yalnız ona məxsus müdrikliklə o, insan zəkasının həyatda hər şeydən qüdrətli qüvvə olduğuna əmindir. Azərbaycan Prezident həm də böyük sülh carçısıdır. Heydər Əliyev elə bir siyasi dühadır ki, onun qüdrəti, qiyməti zaman-zaman veriləcəkdir.

Azərbaycanın dövlət başçısı həm də xalqının xoşbəxt rəhbərdir, çünki o, xalqının ürəyində özünə artıq əbədi yer tapmışıdır, amma əminəm ki, sonuncu deyil. Cənab Heydər Əliyevin "Atatürk Beynəlxalq Sülh Mükafatı"na layiq görülməsi bütün həmvətənləri kimi, məni də son dərəcə sevindirir, iftixar hissi oyadır. Əslində bütün fəaliyyətini, amalını doğma xalqına, Azərbaycanın möhkəmlənməsinə və çiçəklənməsinə həsr edən Azərbaycan Prezidentinin bu ali mükafatı da onun xalqı ilə bağlılığının təcəssümüdür.

Azərbaycan Prezidenti "Atatürk Beynəlxalq Sülh Mükafatı"na layiq görülməsi onun bu yönümdə fəaliyyətinin məntiqi və layiqli qiymətidir. Mən qətiyyətlə bildirirəm ki, Heydər Əliyev Beynəlxalq "Nobel" Sülh mükafatına da layiqdir.

Dünya birliyi artıq yaxşı bilir ki, Azərbaycan təcavüzə məruz qalıb, ərazisinin 20 faizi isə işğal altındadır, 1 milyondan çox qaçqını var. Bu vəziyyət neçə ildir ki, davam edir. Bütün beynəlxalq normalara, BMT-nin Nizamnaməsinə görə Azərbaycan Hərbi yolla torpaqlarını qaytarmaq hüququna malikdir. O bu hüquqdan istifadə edə bilər. Lakin Heydər Əliyevin müdrikliyi ondadır ki, o, ən çətin və mürəkkəb bir münaqişəni sülh yolu ilə həll etmək əzmindədir. O, hamıdan yaxşı bilir ki, Azərbaycanın geosiyasi vəziyyəti necədir və müharibə hansı nəticələr verə bilər. Bunu başqa dövlət rəhbərləri və xadimləri də bilir. Elə Azərbaycan prezidentinin mövqeyi dünyada sülhün qorunub saxlanması üçün əvəzsiz və misilsiz xidmət deyilmi?

Müdrik, uzaqgörən Heydər Əliyev həm Azərbaycanda, həm də dünyada sülhün təmsilçisi kimi tanınır.

"Respublika" qəzeti, 29 aprel, 1999-cu il

İlham Əliyev: siyasi portretin cizgiləri

Dünya məhz bənzərsiz şəxsiyyətlərin sayəsində zənginləşir, onların əməlləri və əsərləri dünyanı nurlandırır.
Tomas Karleyl
ingilis tarixçisi və filosofu

Zamanı dahi şəxsiyyətlərin işıqlı əməlləri nurlandırır. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur. Onlar tarixin çağırışına millətin cavabı kimi meydana çıxır və tələb olunan vaxt özlərini hadisələrin gərgin məqamına çatdırır, mövcud vəziyyəti hərtərəfli qiymətləndirib düzgün həll yolunu tapır, bədbinləşmiş, ümidləri boşa çıxmış, məyus həmvətənlərini çox qısa bir zamanda sosial həyata qaytara bilirlər. Məhz buna görə də xalq onlara etimad göstərir, öz taleyini etibar edir, bütün məsuliyyəti və vəzifələri onların çiyinlərinə qoyur. Heydər Əliyev Azərbaycan xalqı üçün məhz belə bir şəxsiyyətdir. Xalqımız haqlı olaraq öz azadlıq idealının təsdiqini milli-etnik potensialımızın ən yüksək meyarı hesab etdiyi Heydər Əliyevin siyasi əzəmətində görür.

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş qüdrətli şəxsiyyətdir. Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, Azərbaycanın dirçəlişi və yüksəlişinin qarantı, ötən yüzilliyin 90-cı illərindən isə yenidən müstəqilliyini qazanmış Azərbaycanın xilaskarı, onun dövlətçiliyinin qurucusudur.

Heydər Əliyevin ömür yolunu izlədikcə, onun həyat və fəaliyyətini öyrənməyə, təhlil və dərk etməyə çalışdıqca hər dəfə belə bir həqiqətlə üzüzə dayanırsan ki, bu böyük insanın qəlbi həmişə bir amal, bir məqsəd üçün döyünmüşdür: xalqa təmənnasız xidmət etmək, xalqı firavan gələcəyə doğru aparmaq, xalqın taleyini öz həyatından yüksəkdə tutmaq. Heydər Əliyev kimi qüdrət və iradə sahibinə xalqın iztirablarını kənardan müşahidə etmək, təhlükə yarandıqda, bəziləri kimi, çəkilib kənarda dayanmaq kimi cəhətlər yaddır. Elə buna görə də 1993-cü ilin iyununda - Azərbaycanın öz tarixinin ən qanlı burulğanı içərisində çapaladığı bir dövrdə Heydər Əliyev onu haraylayan xalqa səs verdi, onun ümid çırağını yandırmaq, inamını özünə qaytarmaq üçün hətta həyatını da qurban verməyə hazır olduğunu qətiyyətlə bildirərək: "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" - dedi.

Heydər Əliyevin çoxillik dövlət rəhbərliyi praktikasında qazandığı

zəngin təcrübəsi artıq on ildir ki, müstəqil Azərbaycan dövlətinin quruculuğuna həsr olunur. Azərbaycan dövlətçiliyinin siyasi, hüquqi, mənəvi dəyərlər sistemini, qanunvericilik bazasını formalaşdırır. Dəfələrlə möhtərəm prezidentin çıxışlarında özünün əksini tapan həmin dəyərlərin normal işləməsi üçün isə aşağıdakılar vacibdir: ölkənin təhlükəsizliyi, möhkəm daxili sabitlik, demokratiya, sosial ədalət, vətəndaş cəmiyyəti, hüquqi dövlət və i. a. Görülən işlərin miqyası, qoyulan özülün əzəməti əminlik yaradır ki, dünya praktikasının və milli həyatımızın ən yaxşı ənənələrini özündə birləşdirən müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəri kimi bəşəriyyətin siyasi gerçəkliklərində məğrurluq və möhtəşəmlik mücəssəməsi olacaq, yeni sivilizasiyanın qərar tapmasında mühüm rol oynayacaq.

Bu gün Azərbaycan Heydər Əliyevin gərgin və uzaqgörən fəaliyyəti sayəsində indiki mərhələsini yaşayır. 1993-cü ildən sonrakı müddət ərzində Azərbaycan Prezidenti tərəfindən çoxsaylı - taktiki və strateji, uzunmüddətli və təxirəsalınmaz, qlobal və lokal vəzifələr həll edilib, Azərbaycan dövlətçiliyi qorunub saxlanılıb və əsaslı şəkildə möhkəmləndirilib.

Məhz Heydər Əliyev dühasının yaratdığı ictimai, siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkəmiz XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. Qərb demokratiyası ölkələrinin təcrübəsi sübut edir ki, dövlətin və dövlətçilik ənənələrinin uğurla davam etdirilməsinin ən məqbul və səmərəli modeli hakimiyyətin və dövlət idarəçiliyinin, həyata keçirilən siyasi kursun varisliyindədir. Bu mənada Azərbaycanın tərəqqisini və inkişafını yalnız səmərəli dövlət quruculuğunun müasir siyasi xəttinə sədaqətli varislik təmin edə bilər.

Qətiyyətlə deyə bilərik ki, Heydər Əliyevin 1993-cü ildən başladığı siyasi, iqtisadi və hüquqi islahatları uğurla davam etdirəcək bir siyasi varis Azərbaycan əhalisinin mütləq əksəriyyəti kimi məhz ilham Əliyevi qəbul edir. İlham Əliyev şəxsiyyətinin zaman keçdikcə ictimai rəyə daha çox nüfuz etməsi, onun ictimai-siyasi fəaliyyətinin cəmiyyətin diqqət mərkəzində saxlanılması reallığı özünü getdikcə daha bariz şəkildə göstərir. Bu, bir tərəfdən Azərbaycan ictimaiyyətinin Heydər Əliyevin dövlətçilik və siyasi kursunun perspektivinə möhkəm inamı ilə bağlıdırsa, digər tərəfdən, heç şübhəsiz, Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və idman sahəsində, eləcə də beynəlxalq arenada son illər əldə etdiyi uğurlarda millət vəkili ilham Əliyevin özünün müstəsna xidmətləri ilə əlaqədardır.

İlham Əliyev gəncdir, böyük enerjiyə və yüksək potensiala malikdir. İşgüzarlığı, siyasi çevikliyi, zəhmətkeşliyi, təvazökarlığı, özünü reklamdan qaçması onu rəqiblərindən fərqləndirən müsbət tutumlu şəxsi keyfiyyətlərdəndir. İlham Əliyev artıq müasir intellektual və praqmatik siyasi xadim imici qazanmışdır. O, gənclərimizi yeni Azərbaycan - qabaqcıl, dünyaya açıq və

Avropa və Qərb ilə tam mənada bütövləşmiş Azərbaycan qurmağa səfərbər edir. İlham Əliyev postindustrial dünyanın son nailiyyətlərinə yaxından bələddir. Yüksək peşəkarlığı və talantı, beynəlxalq siyasət aləmini, xarici dilləri gözəl bilməsi, sakit və təmkinli xarakteri, yüksək gərginliyə dözümlülüyü ona inamı və ictimai etimadı günü-gündən artırır. Azərbaycanın daxili ictimai, siyasi, iqtisadi və mədəni həyatını çox gözəl bilən, energetika kimi strateji sahədə sanballı təcrübə qazanmış, ölkəmizin ən aktual problemləri ilə bağlı beynəlxalq aləmdə yüksək ranqlı diplomat-elçi vərdişləri nümayiş etdirən, Milli Olimpiya Komitəsinin prezidenti simasında gənclərlə işin əsl təşkilatçısı kimi özünü gözəl göstərmiş İlham Əliyevin Prezident Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə keçdiyi dövlət idarəçiliyi məktəbi və göstərilən keyfiyyətləri onun perspektivli ümummilli lider kimi formalaşması üçün kifayətdir.

İlham Əliyevin ayrı-ayrılıqda istər Avropa Şurasının-Parlament Assambleyasındakı (AŞ PA) Azərbaycan nümayəndə heyətinin başçısı, istər Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) birinci vitse-prezidenti, istərsə də Milli Olimpiya Komitəsinin (MOK) rəhbəri kimi fəaliyyəti xüsusi çəkiyə malikdir. O, həm AŞ PA kimi nüfuzlu bir təşkilatın tribunasından Azərbaycanın milli maraqlarını qoruyaraq dövlətimizin ərazi bütövlüyünün təmin olunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli zərurətini beynəlxalq təşkilatların diqqətinə çatdırır, həm Azərbaycanın neft strategiyasının formalaşması sahəsində ardıcıl fəaliyyətini davam etdirir, həm də bir zamanlar beynəlxalq miqyaslı yarışlarda, nüfuzlu turnirlərdə adı belə çəkilməyən Azərbaycan idmançılarının Olimpiya, dünya və qitə çempionatlarında böyük uğurlara imza atması üçün MOK prezidenti kimi əlindən gələn köməyi göstərir.

Ölkəmizin xarici siyasətində əldə olunmuş nailiyyətlərin bir hissəsi məhz İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. Unutmaq lazım deyil ki, İlham Əliyev Avropa məkanında Ermənistanın qərəzli mövqelərinə qarşı aparılan aktiv informasiya müharibəsinə bilavasitə rəhbərlik edir və bu mübarizənin taktiki və strateji hədəflərinin müəyyənləşməsi məhz onun adı ilə bağlıdır. Bu barədə bəzi məqamlara toxunmaq istərdik.

1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalansa da Qarabağ amili iki ölkə arasında siyasi təbliğatın və informasiya savaşının əsas obyekti olaraq qalır. Bu proses hazırda BMT, ATƏT, AŞ və digər beynəlxalq və regional təşkilatlar müstəvisində davam edir. Amma bu qurumlar indiyə kimi bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanımaq barədə qərar qəbul etsələr də, "işğal faktoru" heç zaman etiraf edilməyib. 1992 -1993-cü illərdə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələbi qoyulsa da, bu qətnamələrdə Azərbaycana təcavüz və onun ərazilərinin işğalı faktı öz əksini tapmayıb.

Azərbaycan üçün əsas məqsəd isə odur ki, məhz onun ərazi bütövlüyünə Ermənistan tərəfindən qəsd edilməsi bir reallıq kimi dünya birliyi tərəfindən qəbul edilsin. İlk dəfə olaraq bu barədə qərar bir neçə il əvvəl İslam Konfransı Təşkilatı (İKT) tərəfindən qəbul edilmişdir. Həmin sənəddə Ermənistan birmənalı olaraq işğalçı ölkə kimi ittiham olunur. Amma nəzərə almaq lazımdır ki, İKT və ona üzv olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik vasitələrlə həlli prosesinə təsir etmə imkanları son dərəcə azdır. Bu mənada Avropada erməni işğalının tanınması məhz İlham Əliyevin adı ilə bağlıdır.

Müxalifət dairələri əldə olunan nailiyyətə qısqanclıqla yanaşaraq onu heç cür həzm edə bilməsələr də real həqiqətlər göz önündədir. Faktiki olaraq, Avropadakı erməni lobbi təşkilatları və Yerevan İlham Əliyevin apardığı təbliğat mübarizəsi sayəsində ciddi zərbə ilə üzləşmişlər. Təsadüfi deyildir ki, AŞ PA tərəfindən belə bir qərarın qəbul edilməsindən sonra Ermənistan parlamentində kəskin mübahisələr başladı və sabiq prezident Levon Ter-Petrosyanı müdafiə edən deputatlar ölkə rəhbərliyini xarici siyasətdə lobbi təşkilatları ilə işi düzgün təşkil etməməkdə ittiham etdilər.

İlham Əliyev Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə incəliklərinə qədər bələddir və öz mövqeyini qlobal miqyasda cərəyan edən proseslərə uyğunlaşdırmağı bacarır. Ona görə də onun bəyanatlarında müxalifətin bəzi nüanslar axtarmaq cəhdləri yalnız çirkin siyasi texnologiyanın elementlərindən biridir. Siyasi qısqanclıq, dar dünyagörüşü, ifrat radikalizm müxalifət liderlərinə imkan vermir ki, onlar real həqiqətləri həzm edə bilsinlər. Bu antimilli siyasət İlham Əliyevlə bərabər, həm də ölkənin strateji mənafelərinə qarşı yönəlib. Hər halda bu müqayisə müxalifətin İlham Əliyevə qarşı apardığı total kampaniyanın mahiyyətini nümayiş etdirir.

Digər tərəfdən isə hakimiyyəti və İlham Əliyevi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı əsassız olaraq "yumşaq mövqe" tutmaqda günahlandıran müxalifət dairələri nədənsə unudurlar ki, onların problemin həlli yolları ilə ilgili mövqeyi səmimi deyil, belə bu siyasət şəxsi ambisiyalardan asılı olaraq tez-tez dəyişə bilir. Nə vaxtsa müxalifət "sülh carçısına" çevrilərsə buna da təəccüblənmək lazım deyil. Çünki onların ipi öz əllərində deyil. Nəhayət, necə olur ki, vaxtaşırı münaqişədən iqtidara qarşı təzyiq vasitəsi kimi istifadə edən müxalif dairələr keçirdikləri mitinqlərdə problemə "dilucu" da olsa belə toxunmurlar və digər siyasi şüarların yanında problemin aktuallığı, demək olar ki, nəzərə çarpmır.

Öz opponentlərindən fərqli olaraq, İlham Əliyevin Qarabağ probleminə dair mövqeyi ardıcıllığı və prinsipiallığı ilə seçilir. İstər beynəlxalq təşkilatlarda, istər dünyanın aparıcı dövlətlərinin təmsilçiləri ilə

görüşlərdə, istərsə də ölkə daxilində o, eyni prinsipi əsas tutur: işğal olunmuş Azərbaycan torpaqları azad edilməyincə rəsmi Bakı heç kimə heç nəyi güzəştə getməyəcək. 2001-ci ilin əvvəllərində - Milli Məclisdə Qarabağ probleminin nizamlanması mövzusunda müzakirələr keçirilməndən az sonra, cəmiyyətdə müəyyən gərginliyin hələ də qaldığı bir vaxtda ölkə müxalifəti guya iqtidarın təslimçi sazişə imza atmağa hazırlaşması ilə bağlı bəyanatlar yayanda İlham Əliyev aydın və birmənalı şəkildə açıqlama verərək opponentlərinin riyakar narahatçılığına son qoydu. O, açıq şəkildə bildirdi ki, iqtidar danışıqlarının tərəfdarı olsa da müharibəni istisna etmir. Qarabağ probleminin müharibə yolu ilə həlli variantına müsbət yanaşan və gənclərin müharibə aparmaq istəyini alqışlayan millət vəkili sülh yolu ilə alınmayan torpaqların mütləq müharibə vasitəsilə geri qaytarılmasının qaçılmaz olduğunu bəyan etdi. Etiraf etmək lazımdır ki, hakimiyyətdə təmsil olunan şəxsin bu cür sərt mövqe nümayiş etdirməsi adi məsələ deyil. İqtidarda olmayan və təbii ki, açıqlamaları konyunktur xarakterli olduğu üçün beynəlxalq aləmdə rezonans doğurmayan, məhz bu səbəbdən də öz siyasi fəaliyyətini məsuliyyətsiz və pafoslu bəyanatlar üzərində quran bir çox müxalifət liderlərindən fərqli olaraq, dünya ictimaiyyətinin daim diqqət mərkəzində olan İlham Əliyev dövlətdə yüksək postlardan birini tutur və onun hər cümləsi rəsmi Bakının mövqeyi kimi dünya ictimaiyyətinin marağına səbəb olur. Bu baxımdan hakim partiyanın sədr müavininin məsələyə belə sərt yanaşaraq müharibə variantını mümkün sayması kifayət qədər cəsarətli addım idi.

Çoxları siyasətdə tez-tez öz mövqeyini dəyişməni, prinsiplərdən dönməni adi hal hesab edir. Ancaq İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ardıcıl və dəyişməz mövqe nümayiş etdirməklə bir sıra real nəticələrə nail olub. Azərbaycanın parlament nümayəndə heyəti başçısının Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyəti buna parlaq nümunədir.

İlham Əliyev ilk dəfə AŞ PA-da Dağlıq Qarabağ probleminə başqa rakursdan baxaraq diqqəti həmin ərazinin narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsinə yönəltmişdir. Məsələnin bu şəkildə ortaya çıxarılması Parlament Assambleyasında böyük rezonans doğurmuş, Avropa Şurası üzvlərinin bu məsələ ilə daha ciddi məşğul olmasına səbəb olmuşdur. İlham Əliyev həmin təşkilatın sessiyalarında antiterror kampaniyasının aktuallaşdığı bir dövrdə Avropa və dünya ictimaiyyətinin diqqətini eyni zamanda Dağlıq Qarabağ və erməni terroruna yönəltmişdir. Azərbaycanı AŞ PA-da təmsil edən parlament nümayəndə heyətinin başçısı İlham Əliyevin Assambleya üzvləri qarşısında qaldırdığı məsələlərdə ölkəmizin iyirmi faizdən artıq ərazisinin Ermənistan tərəfindən işğal olunması, bir milyondan

artıq soydaşımızın öz doğma yurdlarından qaçqın düşməsi, erməni işğalı altında olan Azərbaycan torpaqlarında müxtəlif terror aktlarının törədilməsi üçün təlim düşərgələrinin yaradılması, qədim tarixi abidələrlə zəngin olan Qarabağın vəhşicəsinə talan edilməsi öz əksini tapmışdır. İlham Əliyev Azərbaycanın terrora məruz qaldığını tutarlı faktlarla sübut edərək ermənilərin "ASALA" və digər terror təşkilatlarının təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, bütün Avropa və dünya ölkələri üçün təhlükəli olduğunu bəyan etmiş və dünya ictimaiyyətini erməni terroru ilə mübarizəyə səsləmişdir. Nəticədə, Avropa Şurası bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmiş və terrorla mübarizədə hər zaman Azərbaycanın yanında olacağını bəyan etmişdir. Bu, diplomatiyamızın İlham Əliyevin sayəsində növbəti uğuru idi.

İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət münaqişənin subyekti kimi Ermənistanın bütün parametrlər üzrə zəiflədilməsinə və bu prosesin fonunda Azərbaycanın siyasi, iqtisadi, hərbi, beynəlxalq dəstək qazanmasına hesablanıb. Dağlıq Qarabağ probleminin həlli məsələsinə, yuxarıda qeyd olunan prizmadan yanaşılması artıq özünün real nəticələrini verməkdədir. Uzun illərdən bəri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyası Ermənistanın bölgədə təklənməsi, qlobal iqtisadi layihələrdən kənarda qalması ilə nəticələnib və iqtisadi resurslar amilini münaqişənin həlli prosesinə dolayı yolla cəlb etməklə Azərbaycan problemin sülh yolu ilə həlli məsələsində əlavə sanballı təzyiq vasitəsi əldə edib.

Təsadüfi deyildir ki, AŞ PA-dakı nümayəndə heyətimizin başçısı cənab İlham Əliyevin səmərəli siyasi fəaliyyəti haqlı olaraq xalqımızın böyük rəğbətini qazanıb. ilham Əliyev yalnız nümayəndə heyəti üzvlərinin fəaliyyətini ustalıqla koordinasiya etməklə qalmır, o, öz geniş siyasi erudisiyasından, qazandığı böyük təcrübədən, bilik və bacarığından maksimum istifadə edərək Avropa standartlarına tam uyğun olan polemika mədəniyyəti ilə Azərbaycanın maraqlarının qorunması, Azərbaycan həqiqətlərinin dünyaya yayılması istiqamətində yorulmadan çalışır. Onun açıq siyasi müstəvidə, sərbəst diskussiya meydanı olan AŞ PA tribunasında avropalı həmkarları ilə apardığı səmimi və inandırıcı söhbətlər qarşı tərəfin təmsilçilərini Azərbaycanın dövlət və milli maraqları ilə hesablaşmaq zorunda qoyur. Bu, artıq bir ənənə halını alıb. AŞ PA-nın sonuncu yay sessiyası da bu cəhətdən istisna olmayıb.

Prezident seçkiləri ərəfəsində "siyasi məhbus" hesab edilən şəxslərin məsələsinin AŞ PA-nın yay sessiyasının gündəliyinə salınması təsadüfi sayıla bilməz. Bu həm də onu göstərirdi ki, Azərbaycan əleyhinə mübarizədə maraqları üst-üstə düşən bəzi daxili və xarici qüvvələr birgə əməkdaşlıqdan hələ də əl çəkməyiblər. Bu dairələrə qarşı İlham Əliyevin

yüksək peşəkarlıqla, əsaslı arqumentlərlə cavab verməsi xalqımızın onu özünün gələcəyi ilə bağlamasının təsadüfi olmadığını sübut edir.

İlham Əliyev Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi qətiyyət nümayiş etdirərək artıq sessiyanın gündəliyinə salınmış "siyasi məhbuslar" haqqında məruzənin ziddiyyətli olduğunu və seçkiqabağı vəziyyətə təsir etmək məqsədi güddüyünü bəyan etmişdir. İlham Əliyev, Demokratik qrupun yığıncağındakı çıxışında məruzə hazırlanandan sonra ölkədə əsaslı dəyişikliklər baş verdiyini və iyunun 17-də prezidentin əfvlə bağlı fərmanı olduğunu demişdir: "Bu fərmana əsasən 106 məhbus həbsxanadan buraxılmışdır. Azərbaycan AŞ-yə daxil olduğu vaxtdan bəri bəzi qeyri-hökumət təşkilatlarının hazırladığı 716 nəfərdən ibarət "siyasi məhbus" siyahısı 527 nəfər azalmışdır. Bu, o deməkdir ki, bizim AŞ-dəki üzvlüyümüz dövründə bəzi qeyri-hökumət təşkilatlarının "siyasi məhbus" hesab etdiyi 527 dustaq azadlığa buraxılmışdır". Onların C.Klerfaytın sənədi ilə yox, prezidentin fərmanı ilə bağışlanıldığını deyən AŞ-nin baş katibi V.Şvimmerin təyin etdiyi müstəqil ekspertlərin "siyasi məhbus" saydığı iki şəxsin də dövlətimizin başçısının son fərmanı ilə azad olunduğunu bildirən İlham Əliyev məruzə ilə müstəqil ekspertlərin fikirləri arasında ciddi ziddiyyətlər olduğunu avropalı deputatlara çatdırmışdır: "Müstəqil ekspertlərin siyasi məhbus hesab etmədiyi bəzi şəxslər məruzəçi tərəfindən siyasi məhbus hesab olunur. Bu da öz əksini layihədə tapmışdır. ikinci səbəb məruzənin siyasi tərəfinin olmasıdır. Bu isə ölkəmizdə daxili siyasi həyata birbaşa təsir edə bilər". AŞ-nin fəaliyyəti tarixində ölkələrin prezident, yaxud parlament seçkiləri ərəfəsində bu cür məsələləri müzakirə etmək praktikasına rast gəlinməmişdir. AŞ PA xüsusən Ermənistanın problemlərinə həssaslıqla yanaşır, heç zaman bu ölkənin daxili məsələlərini siyasiləşdirmək cəhdləri görünmür. İlham Əliyev məruzənin iyirmi beş paraqrafında dəyişikliklər etmək ehtiyacı yarandığını bildirmiş, bütün bunlara görə, bu məsələnin AŞ PA-nın qış sessiyasınadək təxirə salınmasını təklif etmişdir. Azərbaycanın təklifini Rusiya, İtaliya, Gürcüstan, Fransa, İngiltərə və başqa ölkələrin nümayəndələri dəstəkləyərək ölkəmizi qrup şəklində müdafiə edəcəklərini bildirmişlər. Siyasi məsələlər, hüquq məsələləri və insan hüquqları komitələrində də Azərbaycanın təklifinə həssaslıqla yanaşılmışdır. Siyasi komitənin qurumun baş katibinə ünvanladığı məktubunda müzakirə olunacaq məsələnin yalnız Azərbaycan nümayəndə heyətinin nüfuzuna deyil, eyni zamanda qarşıdan gələn prezident seçkiləri prosesinə, eləcə də Dağlıq Qarabağ məsələsinə təsir edə biləcəyindən narahatlığını ifadə etmişdir.

Göründüyü kimi, nümayəndə heyətimizin başçısı öz diplomatik məharəti ilə ölkənin milli maraqlarını qorumağa yönələn kifayət qədər güclü dəstək qazana, nəticədə AŞ PA-nın məqbul qərara gəlməsinə nail ola

bilmişdir. "Avropada muxtar vilayətlərin müsbət təcrübəsi" məsələsi ilə bağlı məruzə edən AŞ PA-nın siyasi monitorinq qrupunun üzvü A.Qross dünyanın qaynar nöqtələrinə çevrilmiş və mənfi təcrübəsi olan muxtar vilayətlərin adlarını çəkməyəndə İlham Əliyev buna dərhal reaksiya vermiş və məruzəçini ciddi tənqid etmişdir. İlham Əliyevin təklifi ilə layihə qətnaməsinə "muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır" və "muxtar qurumların beynəlxalq aləmdə tanınmış sərhədləri pozmağa hüququ yoxdur" əlavələri salınmışdır. Bu isə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi prosesində yeni bir hüquqi baza elementinin yaranmasına bərabər idi. Bununla kifayətlənməyən İlham Əliyev cənab Qrossa Avropadakı muxtar qurumlarla bağlı məruzəsində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqe bildirməməsinin səbəbləri barədə sorğu ilə müraciət etməklə Avropa parlamentarlarının diqqətini bir daha bu məsələyə yönəltmişdir. Cavab təxminən bu istiqamət də olmuşdur ki, guya AŞPA Qara bağ münaqişəsinə dair öz məruzəçisini - cənab T.Devisi təyin edib və burada həmin məsələnin xatırlanmasına ehtiyac duyulmayıb. Bu, AŞ PA-nın bəzi deputatlarının, o cümlədən cənab Qrossun Azərbaycana münasibətdə ikili standartlarla çıxış etməsinin daha bir bariz nümunəsi kimi səsləndiyi üçün cənab İlham Əliyevin məntiqi bir qeydi ilə rastlaşmaya bilməzdi. Məsələ bundan ibarət idi ki, söhbət muxtar qurumlar ətrafında yaranmış problemlərdən gedərkən, Çeçenistan və Dağlıq Qarabağ münaqişələri oxşar məsələlər kimi meydana çıxır, həm Çeçenistan, həm də Dağlıq Qara-bağ məsələlərinə dair ayrıca hesabatlar hazırlanmaqdadır və s. Belə olduğu təqdirdə İlham Əliyev digər bir sorğu ilə deputatlara müraciət etməli olub: bəs onda nəyə görə cənab Qross Avropada muxtar vilayətlərin müsbət təcrübəsi məsələsindən çıxış edərkən Çeçenistan üzərində ayrıca dayandığı halda, Dağlıq Qarabağı xatırlatmır və buna lüzum görmür? Məntiqi arqumentləşdirmənin Avropada yüksək qiymətləndirilən bu səviyyəsi, emosiyasız, hay-küysüz rasional təfəkkürə əsaslanan düşüncə tərzi və beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş ümumi prinsiplərinə istinad edilməsi Assambleya üzvlərinin ölkəmizin mövqeyi ilə razılaşmasına səbəb olub.

Beləliklə, bu sessiyada Azərbaycan nümayəndə heyətinə sanksiyalar tətbiq ediləcəyi barədə mülahizələr yürüdən müxalifət növbəti dəfə məyus oldu. AŞ PA məruzəni qeyri-təkmil və ziddiyyətli sayaraq yenidən işlənilmək üçün komitəyə qaytardı. Bu məsələ sentyabr ayında qurumun payız sessiyasında müzakirəyə çıxarılacaqdır. Bu, o deməkdir ki, Azərbaycan nümayəndə heyətini, onun rəhbəri ilham Əliyevi qarşıda fəth ediləcək yeni uğurlar gözləyir.

Neft strategiyamızın uğurlar qazanmasında da İlham Əliyevin xidmətləri böyükdür. ARDNŞ-in birinci vitse-prezidenti kimi o, bu sahədə

yüksək peşəkarlıq və diplomatik məharət nümayiş etdirmiş və güclü siyasətçi kimi qeyri-adi potensiala malik olduğunu göstərmişdir. İlham Əliyevin neft sahəsində yeritdiyi siyasət Azərbaycanın təbii sərvətlərindən xalqımızın rifahı naminə istifadə etmək, dünyanın ayrı-ayrı neft şirkətlərinin Azərbaycana cəlb edilməsi prosesini daha da gücləndirmək və ölkəmizin beynəlxalq nüfuzunu yüksəltmək məqsədini daşıyır.

Azərbaycanın neft strategiyasının möhkəm təməlinə çevrilən "Əsrin müqaviləsi" dünyanın aparıcı ölkələrini təmsil edən iri neft şirkətləri ilə beynəlxalq əməkdaşlığın parlaq nümunəsi kimi nəhəng iqtisadi, siyasi və geosiyasi hadisədir. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin mülahizələrinə görə, təkcə həmin ölkələrin siyahısına nəzər salmaq kifayətdir ki, Azərbaycanın beynəlxalq nüfuzunun necə yüksək olması aydınlaşsın. Bu siyahıda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Norveç, Almaniya, Rusiya, Yaponiya, Türkiyə, Səudiyyə Ərəbistanı və İranın - yəni üç qitənin təmsilçiləri, özü də dünyanın ən nüfuzlu dövlətləri yer alır. İlham Əliyev bu tərkibi böyük nailiyyət sayaraq deyir: "Fikrimcə, bu gün artıq heç kimə sirr deyil ki, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin neft strategiyasının uğurları ilk növbədə Azərbaycanın bütün neft şirkətləri üçün açıq olması ilə bağlıdır. Həqiqətən, biz müvafiq şərtlər çərçivəsində hər bir neft şirkəti ilə əməkdaşlıq etməyə hazırıq. Neft siyasətimizin hər cür ayrı-seçkilikdən azad olması bütün sərmayəçilərə məlumdur".

İlham Əliyev xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin perspektivlərini əvvəlcədən görür, bunun xalqımızın gələcəyi üçün nə dərəcədə əhəmiyyət-olduğunu bilir və qazanılan uğurların hərtərəfli düşünülmüş neft strategiyası ilə bağlı olduğunu əsaslandırır. O, Azərbaycan gənclərinin II forumundakı çıxışında bu barədə belə deyirdi: "Gələcəyimiz bizim öz əlimizdədir. Neft sektoruna xarici investisiyaların cəlb edilməsi ilə bilavasitə məşğul olan adam kimi mən tam məsuliyyətlə deyirəm ki, ölkəmizin iqtisadi inkişafının çox gözəl perspektivləri vardır. İndi biz ancaq yolun əvvəlindəyik".

İndiyədək dünyanın 15 dövlətini təmsil edən 33 neft şirkəti ilə 22 müqavilə, eləcə də neft-qaz resurslarının dünya bazarlarına çıxarılmasına dair bir sıra mühüm sənədlər imzalanmışdır. "Əsrin müqaviləsi" və ondan sonra imzalanmış sazişlər sayəsində respublikamız aşağıdakılara nail olmuşdur:

- neft layihələrinin həyata keçirilməsi Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan açmışdır ki, bu da, öz növbəsində, digər perspektivli sahələrin uğurla inkişafına zəmin yaratmışdır;

- strateji layihələrin, məsələn, karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli üçün Bakı Tbilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşdirilməsi ilə bağlı beynəlxalq sərmayə və kredit təşkilatlarının nəzərində Azərbaycanın nüfuzu xeyli dərəcədə artmışdır;

- neftlə bağlı sahələrə daha iri məbləğdə kapital qoyulmasına imkan yaranmışdır;

- respublikamız valyuta ehtiyatlarını yarada və öz sərmayə siyasətini sabitləşdirə bilmişdir;

- Azərbaycanın dünya iqtisadi birliyinə inteqrasiyası prosesi sürətlənmişdir;

- ölkəmizin texnoloji inkişaf imkanları yüksəlmişdir;

- nəhayət, beynəlxalq əmək-daşlıq, onun uğurla həyata keçiril-məsi sahəsində Azərbaycan Xəzər regionunun və Cənubi Qafqazın mühüm və aparıcı ölkəsinə çevrilmişdir.

Neft sənayesinin dirçəldilməsi və birbaşa iqtisadi mənfəət götürməsi ilə yanaşı, bağlanmış sazişlər maşınqayırma, kənd təsərrüfatı, telekommunikasiyalar, servis xidmətləri kimi digər sahələrə sərmayələr qoyulması, yeni iş yerlərinin açılması üçün əlverişli zəmin yaratmışdır. Neft faktorundan səmərəli istifadə etməklə respublikamız sosial inkişafa, yeni istehsal və sənaye infrastrukturlarının qurulmasına nail olmuşdur. Milli burjuaziya, 400 minlik sahibkarlar ordusu yaranmışdır. ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Rusi-ya, Türkiyə, Səudiyyə Ərəbistanı və s. şirkətlərinin konsorsiumun tərkibinə daxil olması sayəsində ölkəmizin elmi və mədəni əlaqələri genişlənmişdir. Hazırda Azərbaycanda bir neçə min müştərək müəssisə, ABŞ, Almaniya, Türkiyə, Rusiya, İngiltərə, Fransa Ukrayna, Belarus, Moldova, Rumıniya və digər ölkələrdə çoxlu sayda Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına cəlb edilməsi vasitəsilə ölkə-miz onların sanballı siyasi dəstəyini qazanmışdır.

İlham Əliyev bir fikri daim vurğulayır: Azərbaycanın öz karbohidrogen ehtiyatlarını necə hasil və realizə etməsi onun öz daxili işidir və bu yolda ona heç kim mane ola bilməz. Onun bütün diplomatik fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinin əsas götürülməsi ideyasının tərəfdaş ölkələrə aşılanması konsepsiyası üzə-rində qurulub. İlham Əliyevin bu cür prinsipial mövqeyi Prezident Heydər Əliyevin müəllifi olduğu " "Əsrin müqaviləsinin" imzalanması Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın müstəqil dövlət olaraq öz sərvətlərinin tam sahibinə çevrildiyini bir daha göstərdi" fikrindən qaynaqlanır.

İlham Əliyev Azərbaycan neftinin Qərb bazarlarına ixracı marşrutunun müəyyənləşdirilməsi məsələləri ilə də bilavasitə məşğul-dur. Bu məsələ tərəfdaşlar arasın-da uzunmüddətli mübahisələrin və müzakirələrin mövzusu olub. İlham Əliyev 1999-cu ilin sentyabrında deyirdi: "Əgər kimsə bu sahədə bizimlə rəqabət aparmaq istəyirsə, çətin ki, bir şeyə nail ola bilər... Bu gün əsas ixrac neft kəmərinin marşrutu kimi Azərbaycanın nəyə görə məhz Bakı-Tbilisi-Ceyhan istiqamətini seçməsini sübut etməyin nə yeridir, nə də vaxtı. Bəzi

hökumətlərin və şirkət-ərin nümayəndələri bu prosesə siyasi don geyindirməyə nə qədər cidd-cəhd göstərsələr də bizim seçimimiz ölkəmizin və Azərbaycanda fəaliyyət göstərən şirkətlərin uzunmüddətli iqtisadi maraqları ilə bağlıdır".

Məsələyə geosiyasət və Azərbaycanın seçdiyi strateji xətt prizmasından yanaşdıqda Bakı-Tbilisi-Ceyhanın nə qədər vacib olduğu üzə çıxır. Bu marşrut Azərbaycanın milli-strateji maraqlarına tam cavab verən və dünyada analoqu olmayan bir layihədir. İlham Əliyev 1999-cu ildə Türkiyənin "Nərgiz-TV" kanalına müsahibəsində belə deyirdi: "Bizim Bakı-Tbilisi-Ceyhandan başqa yolumuz yoxdur. Bu, bizə həm iqtisadi baxımdan faydalıdır, həm siyasi baxımdan, həm də ən mühümü müstəqilliyimizi möhkəmləndirmək üçün ən əsas amildir".

Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin həyata vəsiqə alması Azərbaycanın nəhəng bir strateji layihəsinin gerçəkləşməsi deməkdir. İlham Əliyev bu zaman Azərbaycanın strateji maraqlarının öndə olmasını söyləyir: "Əlbəttə, biz bu sazişi bir il, yaxud iki il bundan əvvəl imzalaya bilərdik. Amma bizim məqsədimiz ondan ibarət idi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri barədə sazişi nəyin bahasına olursa-olsun yox, məhz Azərbaycanın siyasi və iqtisadi maraqlarına uyğun şəkildə imzalayaq. Mən hesab edirəm ki, biz buna nail olmuşuq... Bakı-Ceyhanın əsas memarı Azərbaycandır, daha doğrusu, Heydər Əliyevdir və onun neft strategiyasıdır... Bizim regionun yeni bir erası başlanır. Bu regionun da mərkəzi Azərbaycandır".

Xəzərin enerji ehtiyatlarının işlədilməsində ümdə məsələlərdən biri, heç şübhəsiz, onun statusu məsələsidir. Prezident Heydər Əliyevin apardığı siyasətin uzaqgörənliyi bundadır ki, o, Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ətrafında uzun sürən mübahisələrin nəticələrini gözləməyərək, Xəzərin Azərbaycan sektorundakı yataqların xarici şirkətlərlə birgə işlənilməsi haqqında sənəd imzalamışdır.

Təbii ki, Rusiya və Azərbaycan rəhbərlərinin siyasi uzaqgörənliyi və xoş məramı olmasaydı, Xəzər dənizinin hüquqi statusu üzrə mövqelərin beş sahilyanı dövlət arasında razılaşdırılması məsələsi intəhasız davam edərdi. Məhz Heydər Əliyevin və Vladimir Putinin şəxsi səyləri və onların aralarında əldə edilmiş qarşılıqlı anlaşma sayəsində bu problemi ilişib qaldığı nöqtədən çıxarmaq mümkün olmuşdur.

İki dövlət arasında, habelə Rusiya ilə Qazaxıstan, Azərbaycan ilə Qazaxıstan arasında dəniz sektorları sərhədlərinin müəyyənləşdirilməsi bu taleyüklü məsələnin həllində digər dövlətlərin Türkmənistan və İranın da mövqelərini dəyişdirmək zərurətini irəli sürmüşdür. Xəzərin statusu ilə bağlı birgə Azərbaycan - Rusiya sənədləri paketinin imzalanması bu nadir sututarın bioloji və enerji ehtiyatlarından daha səmərəli istifadə etməyə, Xəzəryanı dövlətlərin milli sektorlarını ayıran orta xətlərin müəyyənləşdiril-

məsi, ha-belə neft və qazın nəqli üçün Xəzəryanı sistemlərin layihələşdirilməsi və tikintisi məsələlərində xoşagəlməz halları, mübahisələri aradan qaldırmağa imkan verəcəkdir.

İlham Əliyev Xəzər dənizinin hüquqi statusuna dair vahid müqavilədə aşağıdakı məsələləri əksini tapmasını xüsusi vurğulayır:

- bioloji ehtiyatlardan isti edilməsi;
- gəmiçilikdən və nəqliyyatın digər növündən istifadə məsələləri;
- Xəzərdə ekoloji təhlükəsizliyin vahid mexanizminin yaradılması;
- Xəzər şelfinin mineral ehtiyatlarından istifadə olunması;
- regional əməkdaşlığın beynəlxalq hökumətlərarası təşkilatının formalaşdırılması.

İlham Əliyevin "Azərbaycanın Xəzər nefti" kitabı neft strategiyamızın inkişafına sanballı töhfə olmuş, onu elmi-texniki və metodoloji cəhətdən əsaslandırmışdır. Bu əsəri, haqlı olaraq, Xəzərin ensiklopediyası adlandırırlar, çünki orada bölgənin siyasi və iqtisadi inkişafı, Xəzərin coğrafi-siyasi, hüquqi aspektləri, Xəzər neftinin hasilatı və nəqli ilə bağlı zəngin material öz əksini tapmışdır. İlham Əliyev qaldırdığı bütün məsələləri Azərbaycan xalqının və dövlətçiliyinin gələcək müqəddəratına, ölkəmizin milli maraqlarına uyğun araşdırır və bu zaman sistemli yanaşma və tədqiqat metodunu tətbiq edir. Digər tərəfdən, Azərbaycanın neft strategiyasının kitabda verilmiş kompleks nəzəri təhlili düzgün qurulmuş struktur-metodoloji sxem, zəngin elmi ədəbiyyat və digər cəhətlər sübut edir ki, monoqrafiya mükəmməl, orijinal əsər kimi müasir Azərbaycan elminə sanballı töhfədir.

Müəllif, ilk dəfə olaraq, geostrategiyanın, geosiyasətin və geoiqtisadiyyatın ən ümdə aspektlərini dərindən sintez və təhlil edərək, Azərbaycanın yeni neft strategiyasının gerçəkləşdirilməsindən əldə olunmuş nəticələrin tətbiqinin elmi-metodoloji əsasını işləyib hazırlamışdır.

Xalqların və millətlərin beynəlxalq arenada tanınmasının mühüm vasitələrindən biri də məhz idmandır. Müstəqilliyimizin ilk illərində ölkədəki mövcud siyasi-iqtisadi böhran idmana da öz təsiri göstərmişdi. O zamankı hakimiyyət bu sahəyə, demək olar ki, sonuncu dərəcəli məsələ kimi baxırdı. Məhz millət vəkili İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyətə başlamasından sonra idman sahəsində dönüş yarandı. idmançılarımız xarici ölkələrdə Azərbaycan bayrağını qaldırması, respublikaya qələbələrlə dönməsi İlham Əliyevin idmançılara olan qayğı və diqqətinin və bu sahədə apardığı ardıcıl fəaliyyətinin bəhrəsidir Azərbaycan idmanı özünün ən yüksək səviyyəsinə isə Avstraliyanın Sidney şəhərində keçirik XXVII Yay Olimpiya Oyunlarında çatdı. Bu olimpiadada Azərbaycanı təmsil edən idmançılarımız vətənə iki qızıl və bir bürünc medalla döndülər.

Milli Olimpiya hərəkatında baş verən müsbət dəyişiklikləri nəzərə alan Beynəlxalq Olimpiya Komitəsi (BOK) son illər idmanın müxtəlif növləri üzrə bir sıra dünya miqyaslı yarışların ölkəmizdə keçirilməsinə razılıq vermişdir. Bundan əlavə, respublikamızda idmanın və bədən tərbiyəsinin inkişafı haqqında qanunun qəbul edilməsi, Nazirlər Kabinetinin beynəlxalq miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş idmançılara xüsusi mükafat ayırması BOK-un rəhbərliyində xüsusi maraq oyatmış, bütövlükdə Azərbaycan Milli Olimpiya Komitəsinin son illər əldə etdiyi nailiyyətlərin və bu sahədə qazanılmış təcrübənin digər ölkələrə nümunə ola biləcəyi fikri səslənmişdir.

Heç şübhəsiz, bütün bunlar İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Bu isə bir daha İlham Əliyevin universal idarəçilik və təşkilatçılıq qabiliyyətini, onun üzərinə götürdüyü ən çətin və məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığını sübut edir.

İlham Əliyev praqmatik siyasətçidir. Siyasi avantürizmdən və populizmdən uzaq olması, problemlərə arqumentləşdirilmiş mövqedən və real situasiyadan, milli və dövlətçilik maraqları çərçivəsində yanaşması, mövcud real proseslərdən çıxış etməsi onun kamil siyasi və dövlət xadimi kimi formalaşmasını bir daha təsdiq edir.

İlham Əliyev bir siyasi lider kimi öz məntiqi mülahizələri, güclü arqumentləri, natiqlik məharəti ilə ətrafındakıları, qarşısındakıları, bir sözlə, istənilən auditoriyanı inandırmağa və idarə etməyə qadirdir. O, siyasi lider üçün son dərəcə vacib olan başlıca xüsusiyyətlərə - öz hərəkətlərində prinsipial və qətiyyətli olmaq, ayrı-ayrı insan qruplarına, bütövlükdə ictimaiyyətə öz iradəsini qəbul etdirmək, siyasi mübarizədə çeviklik göstərərək üstünlüyü ələ almaq və sair bu kimi keyfiyyətlərə böyük ustalıqla yiyələnmişdir. O, həqiqətin sübuta yetirilməsi yollarını yaxşı bilir, məntiqi olduqca güclüdür, ən kəskin fikirləri belə incə, korrekt şəkildə qarşısındakına çatdırmaqda mahirdir. Həmçinin, siyasi lider üçün son dərəcə zəruri olan xüsusiyyətlər - yumor hissi, mürəkkəb situasiyalarda məsuliyyəti öz üzərinə götürmək bacarığı, özünün məntiqi və xarizması ilə ictimai rəyi formalaşdırmaq, lazımi məqamda iti ağıl, dəmir iradə, tükənməz enerji nümayiş etdirmək bacarığı İlham Əliyevin şəxsində öz əksini tapmışdır.

İlham Əliyev müasir Azərbaycan ədəbi dilinin zəngin potensialından, onun daxili struktur imkanlarından tam mənasında yüksək səviyyəli peşəkar natiq kimi istifadə edir. Onun nitq mədəniyyəti və natiqlik məharəti ailədən, məktəbdən başlayaraq, zaman-zaman yüksələn xətt üzrə inkişaf etmişdir.

Qədim Çin fəlsəfəsində əlmi cəhətdən tam əsaslandırılmış və təsdiqini tapmış belə bir fikir var. Əgər bir şəxs öz iradəsini digərinə qəbul etdirə bilirsə, ona qalib gəlməyi bacarırsa, o, ağıllıdır. Əgər bir şəxs öz iradəsini bir qrup adama, ya kütləyə qəbul etdirə bilirsə, qalib gələ bilirsə o, güclüdür.

Lakin əgər bir şəxs özünə qalib gələ bilirsə o, qüdrətlidir.

İlham Əliyevdə bu xüsusiyyətlərin hər üçü vəhdət şəklində və uğurla öz təcəssümünü tapmışdır. İlham Əliyev məhz özünə qalib gələ bilən nadir şəxsiyyətlərdəndir. Ümumiyyətlə, Ümumi siyasi və dövlət xadimi İlham Əliyevin şəxsiyyəti şübhəsiz ki, hələ tam kəşf edilməyib və bu proses qabaqdadır.

İlham Əliyevi müxalifətdəki opponentlərindən fərqləndirən əsas cəhəti onun böyük idarəetmə təcrübəsinə malik olmasıdır. Heydər Əliyev məktəbinin yetirməsi kimi o, qarşıya qoyulan məqsədlər barədə aydın təsəvvürlərə malikdir. Hədəfin düzgün seçilməsi isə uğuru təmin edən əsas komponentdir. İlham Əliyev artıq bu hədəfləri müəyyənləşdirib. Onun başlıca hədəfi əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik və siyasi kursun davam etdirilməsidir. Bu, həm də ictimai, iqtisadi və siyasi inkişaf baxımından cəmiyyətin sosial sifarişidir.

İlham Əliyevin siyasi baxışlarında iki başlıca xətt - liberalizm və islahatçılıq kimi demokratik dəyərlər paralellik təşkil edir. Siyasi dəyərləri qiymətləndirmə səviyyə-si onun liberal dünyagörüşü siyasətçi olması gerçəkliyini üzə çıxaran amillərdəndir. Radikalizmə qarşı apatiyanın güclü olması fonunda sivil, hüquqi dövlət quruculuğu, inkişaf etmiş bazar iqtisadiyyatı, demokratik prinsiplərin önə çəkilməsi İlham Əliyevin liberal dəyərlərə üstünlük verən xarakterini ortaya qoyur. Cəmiyyətdə demokratik prinsiplərin geniş yayılmasının tərəfdarı kimi çıxış edən İlham Əliyevin insanların siyasi və iqtisadi azadlığını irəli sürməsi onun müasir siyasətçi olduğunu göstərən parametrlərdəndir. İlham Əliyevin "Biz indi əldə etdiyimiz nailiyyətləri iqtisadiyyatda, siyasətdə, xarici siyasətdə davam etdirsək, o zaman Azərbaycan xalqı üçün "dəmir əl" lazım olmayacaq" fikri onun dövlət idarəçiliyində sərt metodların əleyhinə olduğunu və tənzimləyici prinsiplərə üstünlük verdiyini təsdiqləyir. Bu fikir həm də cəmiyyətdə radikal meyllərə qarşı mübarizə əzminin güclü olması zəminində liberal əhval-ruhiyyəli yeni siyasi nəslin meydana çıxdığını göstərir. İlham Əliyevin azad sahibkarlar ordusu yarat-maqla şüurlardakı tabeçilik stereotiplərini məhv etməyin mümkünlüyü barədə söylədiyi fikir politoloji baxımdan olduqca maraqlıdır. Təhlillər də göstərir ki, "Azad sahibkar - azad cəmiyyət" ideyası gələcək hakimiyyət komandasının əsas devizlərindən birinə çevriləcək. Bu baxımdan İlham Əliyevin islahatçı mövqeyinin trayektoriyası "azad sahibkarlığı gücləndirməklə cəmiyyətin demokratikləşdirilməsini sürətləndirmək" siyasi formulu ilə şərtlənir.

Hazırda Azərbaycan siyasətində islahatçılığın mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür, müxalif siyasi qüvvələr bu termində ehtiva olunan siyasi mənadan möhtəkirlik məqsədilə istifadə etməyə çalışırlar. Amma etiraf etmək lazımdır ki, müasir Azərbaycan siyasətinin ən böyük

reformatoru məhz Prezident Heydər Əliyevdir. Siyasi həyatın bütün sahələrində olduğu kimi, bu məsələdə də onun alternativi yoxdur. Aydın məsələdir ki, siyasi ədəbiyyatlarda klassik mənada islahatçılıq köklü dəyişikliklər kompleksi kimi nəzərdə tutulur. İslahatçılıq yenilikçiliyi, sosial dəyərlərin, sosial institutların və digər sosial strukturların müəyyən tərəflərinin tədrici dəyişdiril-məsini nəzərdə tutur. Dünya təcrübəsi göstərir ki, istənilən siyasi sistemdə islahata meylli qüvvələr həm müxalifətdə, həm də iqtidarda formalaşa bilir, lakin iqtidarda təmsil olunan islahatçıların qarşı-ya qoyulan məqsədləri həyata keçirmək imkanları daha genişdir. Bu gün müxalifəti ən çox qıcıqlandıran amillərdən biri də Heydər Əliyevin 1993-cü ildə başladığı islahatçı kursun önündə məhz İlham Əliyevin dayanmasıdır. Radikal müxalifət qüvvələrinin özünün bütün arsenalını İlham Əliyevin ətrafında formalaşan ictimai rəyi zəiflətməyə yönəltməsi də onu göstərir ki, müxalifət İlham Əliyev faktorunun özü üçün əsas təhlükə hesab edir və bu təhlükə onların siyasi iddialarını birdəfəlik puça çıxar-maq gücündədir. İlham Əliyevin siyasi uğurlarına qarşı ilkin reaksiyanın məhz müxalifət cəbhəsindən gəlməsi də göstərir ki, bu qüvvələr köklü dəyişikliyə hazır deyil. Faktiki olaraq, onların siyasi təfəkkürü hələ də 1988 - 90-cı illərin siyasi şüarçılıq təfəkkürü səviyyəsindədir. Şübhə yoxdur ki, ilham Əliyevin Azərbaycan siyasətində ön plana çıxmasının bu qüvvələrin birdəfəlik iflası ilə nəticələnəcəyini onların özləri də dərk edirlər.

İlham Əliyevin bolşeviksayağı keçmişinin olmaması amili bu gün həm daxili ictimai fikirdə, həm də mühüm geosiyasi əhəmiyyəti olan Azərbaycanın gələcək siyasi hakimiyyəti məsələsində marağı olan bütün xarici aləmdə elə onun xeyrinə işləyir. Məhz bu amil İlham Əliyevin XXI əsrin tələb etdiyi yeni tipli lider kimi formalaşması və möhkəmlənməsi üçün mühüm əhəmiyyət daşımışdır.

Şübhə yoxdur ki, Prezident Heydər Əliyevin siyasətinin nəticələri əsasən gələcək nəsillərə hesablanıb. Bu kursun alternativi olmadığından onun varisliyinin təmin edilməsi artıq milli-siyasi var-lığımızın məsələsidir. Məhz bu amil İlham Əliyevin gələcəyin ümummilli lideri rolunda çıxış etməsini zərurətə çevirir. İlham Əliyev Azərbaycanı xoşbəxt gələcəyə aparan uğurlu bir siyasəti - neft siyasətini formalaşdıranlardan biridir və onun bu sahədəki rolu Prezident Heydər Əliyevin siyasətini və fəaliyyətini tamamlayır. Bu yolda İlham Əliyevlə rəqabətə girə biləcək ikinci bir şəxs yoxdur. Azərbaycana gələcəkdə rəhbərlik etmək üçün hamıdan çox onun mənəvi haqqı var. O, bu haqqı Azərbaycanın ictimai-siyasi həyatında çoxşaxəli uğurlu fəaliyyəti, həmçinin, prinsipiallığı, qətiyyəti, fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, diplomat qabiliyyəti ilə qazanıb.

Rəqiblərinin perspektivlərinin uğursuzluğunu şərtləndirən ən ciddi

faktorlardan biri İlham Əliyevin siyasi kapitalının artımındakı sabit tempdir. O, öz ictimai statusundan və mövqeyindən, mövcud imkanlarından, o cümlədən təbliğat imkanlarından sui-istifadə etmir, sözçülükdən və reklamdan qətiyyətlə yayınır. Bu isə ona qarşı ictimai marağı məntiqi surətdə artırır. Cəmiyyət İlham Əliyevin simasında xalqına və vətəninə sədaqətlə xidmət edən ləyaqətli siyasi xadim görür. İlham Əliyev "məqsəd vasitəyə haqq qazandırır" fikrinə tapınan texnokratlar sırasına daxil deyildir. O, industrial toplumda ənənəvi ləyaqət nümayiş etdirir və öz siyasi fəaliyyətində məhz bu meyara üstünlük verir. İlham Əliyevin texnokrat siyasətçi obrazının yeni modelini təklif edir: "Məqsəd də nəcib olmalıdır, vasitələr də. İnsanlar hansısa məqsədlər naminə heç vaxt ləyaqətsiz hərəkət etməməlidirlər... İnsan üçün başlıcası budur ki, o, adamların da, öz övladlarının da gözlərinə dik baxa bilsin və öz əməllərinə görə heç vaxt xəcalət çəkməsin". İlham Əliyev ləyaqəti rədd edən texnokrat siyasətçi tipini qəbul etmir. O, texnokrat yox, realist siyasətçidir: "Əgər hər hansı romantikaya qapılsan, onda əvvəla, səhvlər edərsən, ikincisi isə uğursuzluğa düçar olarsan... Mən realistəm. Öz hərəkətlərimdə həmişə məhz realizmə, praqmatizmə əsaslanıram. Belə yanaşma məni hələlik pis vəziyyətdə qoymayıb".

Realizm hissi İlham Əliyevin dünya siyasətçiləri cərgəsindəki yerini daha da möhkəmləndirir. Burada ailə tərbiyəsi amilinin də müstəsna dərəcədə böyük rolu var. "Biz hamımız insanıq və ona görə də özümüzü ləyaqətlə aparmalıyıq... Biz heç zaman unutmamalıyıq ki, həyatımızın mahiyyəti-məğzi özünü ləyaqətlə aparmaqdır. Mən həyatda həmişə bunu əsas tuturam" - deyə İlham Əliyev bildirir. Bu keyfiyyət siyasətçi üçün ən vacib keyfiyyətdir.

Bu gün həm ölkə daxilində, həm xaricdə müxtəlif siyasi və dövlət xadimləri, aparıcı politoloqlar, analitiklər, siyasi texnologiyalar üzrə mütəxəssislər İlham Əliyevin gələcəkdə Azərbaycanın prezidenti seçilməsinə alternativ görmürlər. İlham Əliyev isə hətta belə vəziyyətdə də hansısa emosiyanın təsiri altına düşməyərək peşəkar dövlət xadimi, realist siyasətçi və ləyaqətli vətəndaş manerasını pozmur və "əsas tezis Heydər Əliyevin siyasətinin on illərlə davam etdirilməsidir, mənə gəlincə isə bu, artıq ikinci dərəcəli məsələdir, əsas tezis deyildir" deyə bildirir. Bu, şəxsi mənafeyini ümummilli mənafelərə qurban verməyi və özünə qalib gəlməyi bacaran alicənab və ləyaqətli siyasətçi üçün əxlaq kodeksidir. İlham Əliyev məhz bu keyfiyyətlərinə görə böyük siyasətdə ucalıb, ölkə siyasətinin aparıcı sütununa çevrilib və öz gücünü, siyasi kapitalını elə bir səviyyəyə çatdırıb ki, indi cəmiyyətin bütün siyasi qüvvələri öz siyasi fəaliyyət taktikasını məhz İlham Əliyev faktoruna uyğun qurarlar.

"Yeni Azərbaycan" qəzeti, 7 avqust 2003-cü il

XARİCİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin Sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: *"Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir. Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır"*. Sözünə davam edərək Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: *"Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır"*. Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti *"özümüzün özümüzə vurduğumuz zərbə"* adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi

taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

İlk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi.

Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərində uğurlu dialoq və anlaşma mühitinin yaranması isə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətli idi. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Rusiya ilə əməkdaşlığın inkişafına həmişə böyük əhəmiyyət vermişdir. İki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xüsusi rolu və xidmətləri olmuşdur. Məhz onun səyləri ilə bu əlaqələr dostluq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Heydər Əliyevin Rusiyanın Qərbin və Şərqin böyük sivilizasiyalarını özündə təcəssüm etdirən və dünya siyasətində nadir rol oynayan bir ölkə olması haqqında söylədiyi fikir Azərbaycanın xarici siyasətində Rusiyanın rolunu və yerini son dərəcə aydın müəyyən edir.

Ölkələrimizin münasibətlərinin yeni mərhələsi Rusiya Prezidenti V.Putinin Azərbaycana tarixi səfərindən başlanmışdır. Bu, Rusiya Prezidentinin suveren Azərbaycana ilk səfəri idi. Ulu öndər Heydər Əliyevin Rusiyaya cavab səfəri, Bakı Bəyannaməsinin imzalanması, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli iki ölkənin müxtəlif səviyyələrdə münasibətlərinə nəzərəçarpacaq tərəqqi və dinamizm gətirmişdir.

Hər iki ölkə siyasi və iqtisadi əməkdaşlığın dinamik inkişafında maraqlıdır. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İqtisadi, siyasi və hərbi potensial baxımından beynəlxalq münasibətlər sistemində xüsusi yeri olan Rusiya Federasiyası ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, keçmiş Sovet İttifaqı dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir geosiyasi

gerçəkliklərə nəzərən inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında 2008-ci ilin iyulunda Bakıda imzalanmış Dostluq və strateji əməkdaşlıq haqqında Bəyannaməyə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur.

İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da yaxın qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soydaşlarımızın yaşaması, Qafqazın bugünkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan və Gürcüstan arasında ikitərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Odur ki, Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici qüvvələr tərəfindən süni olaraq milli münaqişələrin qaynar nöqtəsinə çevrilmiş bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirirdi. Onun Qafqazda sülh və əməkdaşlıq məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı, Ermənistan istisna olmaqla bütün region dövlətləri, əsasən də Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ

Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktına 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, ölkəmizin cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Azərbaycan dövlətinin ardıcıl səyləri sayəsində beynəlxalq aləmdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması və ermənilərin işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti apararaq separatçı qurum yaratma cəhdinin təsdiqlənməsi, bu məsələnin BMT Baş Məclisinin sessiyasının gündəliyinə salınması, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul etməsi, ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni olaraq məskunlaşdırılmasını etiraf etməsi Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsi, Ermənistanın təcavüzkar siyasətinin ifşası istiqamətində qazanılan mühüm

diplomatik nailiyyətlərdir.

Əminliklə söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xeyrinə işləyir. Ölkəmiz ildən-ilə güclənir, beynəlxalq mövqelərini möhkəmləndirir və bütün bunlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına olan ümidləri artırır. Təhlillər göstərir ki, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında müvafiq qətnamələrinin mövcudluğu, Avropa Şurası və ATƏT-in qəbul etdiyi bir sıra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğunun təsbit edilməsi, Prezident İlham Əliyevin hücumçu diplomatiyasının uğurlu nəticələri, informasiya müharibəsində münaqişə barədə erməni tərəfin dünyada yaydığı dezinformasiyanın getdikcə ifşa olunması, Azərbaycanın iqtisadi-hərbi baxımdan güclənməsi, nəhayət, münaqişənin digər vasitələrlə həlli hüququnun ölkəmizdə qalması problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunacağına ciddi əsaslar verir.

20 ildir davam edən, beynəlxalq və regional sülhə, təhlükəsizliyə ciddi təhlükə olan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulmasının ən canlı nümunəsidir.

Münaqişənin həllinin hüquqi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə ələ keçirilməsinin yolverilməzliyi və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi vurğulanmış, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxması çağırışı əksini tapmışdır. BMT Baş Məclisinin 14 mart 2008-ci il tarixli Azərbaycanın "işğal edilmiş ərazilərində vəziyyət" qətnaməsində Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək bir daha ifadə olunmuşdur. BMT Təhlükəsizlik Şurasının və Baş Məclisinin qətnamələrində əks olunmuş yanaşma Azərbaycanın tutduğu mövqe ilə tamamilə üst-üstə düşür. Azərbaycan ilk gündən münaqişənin mərhələli həllinin yeganə mümkün yol olduğunu demişdir. İşğal olunmuş bütün ərazilərdən erməni silahlı

qüvvələrinin çıxarılması, həmin ərazilərin bərpası və qaçqın və məcburi köçkünlərin doğma yurdlarına – Dağlıq Qarabağa və ətraf rayonlara geri qayıtması, qarşılıqlı istifadə üçün bütün kommunikasiyaların açılması kimi bir sıra vacib işlər görülməlidir. Bu, müharibənin nəticələrini aradan qaldırmağa, regionun azərbaycanlı və erməni icmalarının qarşılıqlı razılığı nəzərə alınmaqla Azərbaycan daxilində Dağlıq Qarabağ regionunun hüquqi statusunun işlənib hazırlanmasına, regionda davamlı sülhün və sabitliyin təşəkkül tapmasına zəmin yaradacaqdır.

2008-ci ilin noyabrında Azərbaycan, Ermənistan və Rusiya Prezidentləri tərəfindən Moskvada imzalanmış Bəyannamədə Ermənistan tərəfinin münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında mərhələli həllini qəbul etməsi yaxşı əlamətdir. Azərbaycan Cənubi Qafqaz regionunda və ondan kənarda təhlükəsizlik və sabitlik naminə Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirir və bu da gələcəkdə geniş regional imkanları bütün tərəflərin faydası üçün istifadə etməyə şərait yaradacaqdır.

Beynəlxalq birlik münaqişədə status-kvonun saxlanılmasının yolverilməzliyini və münaqişənin tezliklə həllinin zəruriliyini dərk edir. Bu xüsusda, 2009-cu il iyulun 10-da "Böyük səkkizliyin" İtaliyanın Akvil şəhərində keçirilmiş sammitində ATƏT-in Minsk qrupunun həmsədr ölkələri prezidentlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birgə bəyanatının, habelə dekabrın 1-də Afinada keçirilmiş ATƏT-in Nazirlər Şurası çərçivəsində Minsk qrupunun həmsədr ölkələri nümayəndə heyətlərinin rəhbərləri olan Rusiya və Fransa xarici işlər nazirlərinin və ABŞ dövlət katibinin müavininin, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin birgə bəyanatının qəbul olunması münaqişənin nizamlanmasına ən yüksək səviyyədə diqqətin artdığını göstərir.

ATƏT-in xarici işlər nazirləri səviyyəsində Afinada keçirilən iclasında bu münaqişənin məhz ərazi bütövlüyü çərçivəsində həllinə dair sənəd qəbul edilmişdir. Münaqişə dövrü ərzində ilk dəfə Ermənistan bu sənədə qoşulmuş və etiraf etmişdir ki, problemin həlli yalnız ərazi bütövlüyü çərçivəsində mümkündür. Beləliklə, ərazi bütövlüyü prinsipinin xalqın öz müqəddəratını təyin etməsi problemi ilə qarşı-qarşıya qoyulduğu uzun dövr başa çatmış, ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə prinsiplərinin hüquqi tətbiq edilməsində kolliziyanın aradan qaldırılması məsələsində taktiki hücum fəaliyyətinə keçid əldə olunmuşdur. Nəticə sadədir: öz müqəddəratını təyinetmə məsələsi ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi.

Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, vacib və olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu fövqəldövlət mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi.

Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a 2006-cı il aprelin 25-28-də ilk rəsmi səfəri son illərdə sürətlə inkişaf edən ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoymuş və bir sıra uğurlu nəticələrlə yadda qalmışdır. Səfərin yekunları tam əminliklə deməyə əsas verir ki, ABŞ Azərbaycanla mövcud əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır. Bu maraq, ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas

məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə zəngin intellektual resurslara malik olması ilə şərtlənir.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni bir istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni kurs çevik taktiki gedişlərlə həyata keçirilirdi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu müttəfiqlər qazanması Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu. Prezident Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açdı, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi.

Ötən əsrin 90-cı illərinə doğru sosializm dəyərlərindən imtina edərək bazar iqtisadiyyatı və demokratiya yolunu seçmiş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulması həm də yeni dövrün reallıqları ilə şərtlənir. Məsələ bundadır ki, vaxtilə keçmiş SSRİ də daxil olmaqla, sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi iqtisadi-siyasi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına səbəb olmuşdur. Rəsmi Bakının Mərkəzi və Şərqi Avropa ilə qarşılıqlı faydalı əməkdaşlığı bütün səviyyələrdə genişləndirməyə çalışması bu məkanda yerləşən dövlətlərin Avropanın siyasi atmosferinin müəyyənləşməsində mövqeyinin və fəal xarici siyasətinin mühüm təsirə malik olması ilə şərtlənir. Azərbaycan iqtisadi və siyasi islahatları uğurla başa çatdırmış həmin ölkələrin Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsindəki mütərəqqi təcrübəsindən səmərəli şəkildə yararlanmaq niyyətindədir. Hazırda Qərbi Avropa ilə yanaşı, Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa, Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi ölkələr də Azərbaycanın avrostrukturlara inteqrasiyası prosesinə fəal şəkildə dəstək verir, təcrübələrini bölüşürlər. Eyni zamanda, Mərkəzi və Şərqi Avropa respublikamızın Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmini baxımından əlverişli geosiyasi məkandır.

Qeyd etmək lazımdır ki, xaricdən enerji asılılığının minimal həddə endirilməsi dünyanın əsas karbohidrogen ehtiyatlarına nəzarəti əldə etmək uğrunda rəqabətin gücləndiyi hazırkı şəraitdə ayrı-ayrı dövlətlərin təkcə milli təhlükəsizliyinin deyil, həm də müstəqil siyasət yeritməsinin vacib şərtinə çevrilmişdir. Azərbaycan isə bütövlükdə Avropanın enerji təhlükəsizliyində

geniş imkanlara malik ölkə kimi Mərkəzi və Şərqi Avropa dövlətlərinin maraq dairəsindədir. Məsələn, 2007-ci ildə ilk enerji sammitinin keçirilməsi təşəbbüsünü üzərinə götürən Polşa Xəzər neftinin Odessa-Brodı-Plotsk-Qdansk kəməri ilə nəqlini təklif edir. Bu marşrut Qara dənizə çıxarılan neftin Baltik dənizi sahilinə çatdırılmasını, oradan Avropa və dünya bazarlarına daşınmasını nəzərdə tutur. Rumıniya isə Xəzər neftinin Rumıniyadan tankerlər vasitəsilə – Supsa limanından Konstansa limanına, daha sonra isə boru kəməri ilə Avropaya nəqli layihəsini dəstəkləyir. Ümumiyyətlə, əksər Avropa ölkələri enerji asılılığından çıxmaq üçün neftin nəqlində tranzit və istehlakçı qismində çıxış etmək niyyətlərini bəyan edirlər.

Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühüm istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, İslam dünyası ilə münasibətlər təşkil edirdi. Bu baxımdan, dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək olsun. Bu isə Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırır. Odur ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənəd başqa

amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı. Bu illər ərzində Türkiyə ilə əlaqələr "bir millət, iki dövlət" formulu əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur.

Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi, iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Hər iki ölkə özünün iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edir. Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Türkiyə də daxil olmaqla, bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə konsolidasiyası istiqamətində inamlı addımlar atmışdır.

Ötən ilin oktyabr ayında Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi isə ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün Assambleya böyük əhəmiyyətə malikdir. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik forumu kimi təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf arazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır.

Nəhayət, türkdilli ölkələrin dövlət başçılarının yenə də 2009-cu ilin oktyabrında keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır. Faydalı müzakirələrlə əlamətdar olan zirvə toplantısında türk dövlətləri arasında hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılması vacibliyi önə

çəkmişdir. Eyni zamanda, türkdilli dövlət başçıları ildə iki dəfə rəsmi və qeyri-rəsmi görüşmək barədə razılığa gəlmişlər. Rəsmi imzalanmış Naxçıvan Bəyannaməsinə görə isə, yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur.

Ölkəmiz İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır və İran dövləti ilə xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişafına, əmtəə dövriyyəsinin həcminin ildən-ilə artmasına gətirib çıxarmışdır.

Son illər qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığını inkişaf etdirərək, onun siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində təsiri və iştirakının gücləndirilməsi istiqamətində apardığı fəal siyasətini davam etdirmişdir. 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi çox əlamətdar və mühüm hadisə olaraq, Azərbaycanın İKT ilə apardığı səmərəli və faydalı əməkdaşlığın, bütövlükdə ölkəmizin İslam ümməti arasında qazandığı nüfuzun mühüm göstəricisi olmuşdur. Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqun təşviqi, müxtəlif millətlər və dinlər arasında dözümlülüyün, qarşılıqlı anlaşmanın və tolerantlığın inkişafına xidmət edən səmərəli meyarların hazırlanması, beynəlxalq ictimaiyyətdə, ilk növbədə Avropada İslamın, onun mədəniyyət, dəyər və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədi ilə fəal səylər göstərmiş, geniştərkibli bir sıra iri beynəlxalq təşəbbüslər həyata keçirmişdir.

Azərbaycanın xarici siyasətində fəal istiqamətlərdən biri Şərqdir. XXI əsrdə Asiya-Sakit okean bölgəsinin dünya siyasətində rolu xeyli artmalıdır. Azərbaycanı Mərkəzi Asiya ilə həm də etnik və mədəni yaxınlıq birləşdirir. Ölkəmiz tarixdə İpək Yolunun əsas məntəqələrindən biri kimi də geosiyasi və mədəni imic qazanıb. Bu faktorlar kompleks halda Azərbaycanın xarici siyasətində Asiya-Sakit okean istiqamətinin də mühüm yer tutmasını şərtləndirir. Bu prosesdə, şübhəsiz ki, Mərkəzi Asiya regionunun xüsusi yeri vardır. Azərbaycan həmin dövlətlərlə aktiv əməkdaşlıq siyasətini yeridir ki, bu da Uzaq Şərq istiqamətində əməkdaşlığı gücləndirmək üçün meydan rolunu oynaya bilər. Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanın münasibətlərinin türkdilli dövlətlərin əməkdaşlığını inkişaf etdirmək müstəvisində də qurması əlavə imkanlar açmaqdadır.

Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun balanslaşdırılmış xarakter daşıması ilə səciyyələnməsidir. Ölkəmizin

geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə etməyi zəruri edirdi. Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən birini təşkil edir. Ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın milli maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar o, NATO-nun sammitlərində iştirak etmiş və Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir.

Ötən illərdə olduğu kimi, indi də Avropa və Avratlantik strukturlara inteqrasiya Azərbaycan xarici siyasətinin mühüm istiqamətini təşkil edir. Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşən Azərbaycan, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını uğurla inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə

töhfə verir. Bu gün NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Avratlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. NATO ilə fəal siyasi dialoq qarşılaşdığımız birgə çağırışlar üzrə ortaq anlayışın yaradılması və möhkəmləndirilməsinə imkan yaradır. Azərbaycan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının növbəti fazasını açan və NATO ilə siyasi dialoqun dərinləşdirilməsini, müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan Fəaliyyət Planı üzrə ikinci sənədin icrasını uğurla başa vurmuşdur ki, bu da növbəti illərdə Azərbaycan-NATO münasibətlərini istiqamətləndirəcəkdir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir. Bu siyasət bu gün də səylə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın və dünya siyasətinin mərkəzinə çevrilmiş Avropanın ən mühüm istiqamətlər üzrə tərəfdaşı kimi tanınır. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2006-cı ildə "Yeni qonşuluq siyasəti" çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır. Bu proqram üzrə Praqa zirvə görüşünün Birgə

Bəyannaməsinin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Zirvə görüşü çərçivəsində Transxəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və dövlətimizin enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənub Dəhlizi-Yeni İpək Yolu" Bəyannaməsinin qəbul edilməsi, eyni zamanda, ötən ilin dekabrında Avropa İttifaqının bir sıra ölkələrlə, o cümlədən Azərbaycan ilə assosiasiya sazişi ilə bağlı danışıqlara başlaması niyyətində olduğunu bəyan etməsi xüsusi diqqətə layiqdir.

Prezident Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Bu nüfuzlu panavropa qurumu ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan qanunun aliliyinə əsaslanan demokratik cəmiyyət quruculuğunu indi də müvəffəqiyyətlə davam etdirir. Ölkədə demokratikləşmə prosesləri, xüsusilə vətəndaş cəmiyyəti institutlarının gələcək inkişafı, vətəndaşların hüquq və əsas azadlıqlarının müdafiəsinin təmin edilməsi, dövlət idarəçiliyi sahəsində səmərəliliyin artırılması və digər məsələlər Azərbaycanın Avropa Şurası, onun Parlament Assambleyası, ATƏT/DTİHB, eləcə də aparıcı qeyri-hökumət hüquq müdafiə təşkilatları ilə əməkdaşlığı da diqqət mərkəzində saxlanılır.

Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 2001-ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir. Bu gün Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Azərbaycanın sülhməramlıları Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər. Azərbaycan hökuməti və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin bərpası ilə bağlı səyləri ehtiyac içində yaşayan əhali üçün də imkanlar yaradır.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi meqalayihələr nəinki re-

gion miqyasında, habelə bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malikdir. Bu qlobal partnyorluq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir.

Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Azərbaycanın 2004-cü ildə Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülmüş Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulması da bunun bariz göstəricisidir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu, ölkəmizin enerji siyasətinin düzgün və uzaqgörənliklə həyata keçirildiyini, bir daha təsdiqləyir. Bu, Avropanın enerji təhlükəsizliyi ilə bağlı baş verən bəzi proseslərdən sonra özünü daha qabarıq göstərir.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın İcraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirmişdir.

Bu gün Azərbaycan dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirir. Cənubi Qafqaz regionu ərazisindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementidir. Bu mənada, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRASECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Habelə, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin qurulması istiqamətində əməkdaşlıq edir. Bu xəttin həyata keçirilməsi regional əməkdaşlığın sürətləndirilməsi və gücləndirilməsi üçün vacib addım olacaq, eyni zamanda, qlobal təsirlərə malik yeni regional imkanlar yaradacaqdır.

Azərbaycanın Şərqlə Qərbin, Şimalla Cənubun əsas nəqliyyat yollarının kəsişdiyi məkanda yerləşməsi və regional avtomobil və dəmir yol şəbəkəsinə birləşən sürətlə inkişaf edən milli nəqliyyat infrastrukturu ölkənin stra-

teji əhəmiyyətini artırır. Azərbaycan, həmçinin Şərq-Qərb nəqliyyat dəhlizinin əsas hissəsi olacaq və 20-dək ölkəni internet, telekommunikasiya sistemləri, elektron informasiya resursları ilə təmin etməyə qadir olan Trans-Avrasiya Super İnformasiya Magistralı yaratmaq təşəbbüsü ilə çıxış etmişdir.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutmuşdur. Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir. Ermənistanın həmin tarixi mərhələdə getdikcə genişlənən işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti riyakarlıqla çaşdırmaq cəhdlərini ciddiliklə nəzərə alan ulu öndərimiz xarici ölkələrdə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Diaspor və lobbi quruculuğuna göstərilən xüsusi diqqət Heydər Əliyevin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanırdı.

Azərbaycan regionun nadir ölkələrindən biridir ki, çətin geosiyasi mühitdə müstəqil xarici siyasət yürüdür. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təzliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avropa və Transatlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdir.

Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan

praqmatik xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə yaşama və mehriban qonşuluğu təşviq edir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamlılığını təmin edən Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Bu gün dünyanı narahat edən bir sıra məsələlərdə böyük dövlətlərin başçıları Azərbaycanın – onun rəhbərinin mövqeyi ilə hesablaşırlar. Avropa və Asiyanın qovuşuğunda yerləşən mühüm geostrateji məkan kimi Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün dayaq nöqtəsi kimi ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Azərbaycan qonşu dövlətlərlə təhlükəsizliyin təmini aspektində regional lider səviyyəsində münasibətlər qurmuşdur, enerji təhlükəsizliyi məsələsi ilə əməkdaşlığın digər sahələri arasında unikal harmoniya formalaşmışdır. Rusiya, İran və Türkiyə Azərbaycanla regional lider qismində əlaqələr qurur və bunu açıq etiraf edirlər. Bu əlaqələr qarşılıqlı faydalılıq prinsipi üzrə yaradılıb və təkmilləşdirilir. Azərbaycan diplomatiyasının regional qurumların yaradılmasındakı fəallığı hamıya məlumdur. Bu qurumların tərkibində aktiv iştirak edən ölkəmiz, eyni zamanda, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlarını atmaqdadır.

Rusiya ilə münasibətlərin dinamikası və əhatəliliyi bunun əyani sübutlarındandır. İndi iki dövlət arasında bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Türkiyə Azərbaycanın ən yaxın müttəfiqi kimi diqqət mərkəzindədir. İranla əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Azərbaycan lazım olan bütün addımları atır. Bu proseslərdə Azərbaycanın xarici siyasəti üçün əsas meyar regionun sabitliyi, təhlükəsizliyi və inteqrasiyası üçün çalışmaqdır.

Bütövlükdə, Azərbaycanın xarici siyasəti ölkənin milli təhlükəsizliyinin etibarlı təminatıdır. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən müasir xarici siyasət kursunun məzmunundan qaynaqlanır. Əsasını varislik ilə yenilik arasındakı tarazlıq təşkil edən bu model mövcud konyunkturanın dəyişikliklərinə əməli surətdə cavab verməyə, eyni zamanda, ölkənin davamlı inkişafını təmin etmək üçün əlverişli xarici şəraitin yaradılmasına yönələn diplomatik strategiyanın saxlanılmasına imkan yaratmışdır.

Qeyd olunmalıdır ki, qlobal miqyasda dünya siyasəti və diplomatiyasının müəyyən problemləri mövcuddur. Onları hətta "siyasət və diplomatiyanın ümumi böhranı" da (Ramiz Mehdiyev. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə kursu") adlandırırlar. Bu şəraitdə Azərbaycan dövlətinin xarici siyasəti həm milli maraqları gözləyir, həm də dünya siyasətinin bütün subyektlərinin bərabərhüquqlu iştirakını təmin edən fəaliyyət modelinə üstünlük verir. Azərbaycanın xarici siyasətində çoxvektorluq üstünlük təşkil etdiyindən onun qlobal miqyasda geosiyasi çəkisi durmadan artır. Bu məqamları nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, Azərbaycanın regional və qlobal siyasətin müstəqil mərkəzi olmasında, Heydər Əliyev tərəfindən müəyyən edilmiş çoxvektorlu xarici siyasət kursu həlledici rol oynamışdır. Həmin məqam ölkəmizin dinamik inkişafı üçün geniş perspektivlər açır.

"Heydər Əliyev və inkişafın Azərbaycan modeli"
Bakı, 2010-cu il, s. 445-464

Azərbaycanin xarici siyasətinin əsas istiqamətləri haqqında

Giriş

XXI əsrin əvvəlində dünyanın siyasi müstəvisində müstəqil Azərbaycan dövlətinin yeri və rolu artıq müəyyənləşmişdi. Sovet İttifaqının süqutundan sonra siyasi fırtınaların qurbanına çevrilmək təhlükəsi ilə üzləşən Azərbaycan ümummilli lider Heydər Əliyevin titanik səyləri nəticəsində istər xarici, istərsə də daxili siyasət məsələlərində müstəqil söz sahibinə çevrilmişdi. Bu illər ərzində dövlətin yeritdiyi siyasət Azərbaycan xalqının milli maraqlarının qorunmasına və ölkənin qarşısında duran taleyüklü məsələlərin həllinə yönəlmiş və dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət etmişdir. Təbii ki, Azərbaycan diplomatiyasının strateji oriyentirlərinin həyata keçirilməsində Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı neft strategiyası müstəsna rol oynamışdır. Təcrübəli dövlət xadimi dünyanın inkişaf etmiş ölkələrinin, onların nəhəng neft şirkətlərinin karbohidrogen ehtiyatları ilə zəngin olan Azərbaycana ciddi maraq göstərdiklərini və "qara qızıl" uğrunda kəskin və ciddi mübarizənin başladığını aydın görürdü. Heydər Əliyev neft gəlirlərindən daha önəmli olan qlobal məsələlər barədə düşünürdü: Xəzər hövzəsində təsir gücünə yiyələnmək uğrunda gedən mübarizədə gənc, müstəqil Azərbaycan dövlətinin milli maraqlarını qorumaq üçün siyasəti elə qurmaq lazımdır ki, bu, yalnız cari maraq yox, həm də gələcəyin möhkəm əsaslarını qoymuş mexanizm olsun.

Həmin illərdə neft müqavilələri sahəsində danışıqlar prosesinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) birinci vitse-prezidenti İlham Əliyev rəhbərlik edirdi. Ölkənin iqtisadi, eyni zamanda, siyasi taleyində sonralar mühüm rol oynayacaq neft müqavilələrinin hazırlanması üçün İlham Əliyevin başçılığı ilə aparılan danışıqlar Azərbaycanın neft diplomatiyasının əsasını qoydu. Bu danışıqlarda Azərbaycan Qərb investorları ilə iqtisadi əməkdaşlıq münasibətlərinin mümkün sistemlərinin ən səmərəli olanına üstünlük verirdi. Danışıqlarda prioritet olaraq açıq qapı və balanslaşdırılmış siyasət prinsipləri əsas götürülürdü. Heydər Əliyevin dərin düşünülmüş və peşəkarlıqla həyata keçirilən neft strategiyası nəticəsində xarici şirkətlərin hər müqavilədə iştirak payı uğrunda kəskin mübarizə apardıqları fərqli bir "neft müqavilələri birjası" yaranırdı.

Prezident İlham Əliyev sonralar həmin danışıqları xatırlayaraq deyirdi: "Qısa müddətdə dünyanın müxtəlif guşələrində aparıcı siyasətçilərlə, nazirlərlə, konqresmenlərlə görüşüb dünyada neft biznesinin müxtəlif aspektlərini, bizim regionun inkişaf perspektivlərini müzakirə edərkən, neft

müqavilələrini imzalayarkən mən, ilk növbədə, geosiyasi məsələləri qaldırır, yalnız bu sahədə anlaşma əldə olunandan sonra texniki-iqtisadi problemlərin təhlilinə keçir, hər bir məsələni konkretləşdirməyə başlayırdım".

O, xarici həmkarlarını inandırır, sürətlə və məqsədyönlü şəkildə problemləri həll edirdi. Ölkənin rəhbərinə etibar edən, Heydər Əliyevi investisiyaların qarantı hesab edən sərmayəçilər və tərəfdaşlar onun oğluna - yüksək hazırlıqlı iqtisadçı mütəxəssisə, çevik diplomata inanır və etibar edirdilər.

Xəzər şelfində yataqların işlənməsi, neft və qaz kəmərlərinin çəkilməsi, Böyük İpək yolu, TRASEKA kimi layihələr İlham Əliyevin Klinton, Mitteran, Şirak, Haşimoto, Kol, Meycor, Bleyer kimi dünya siyasətinin liderləri ilə şəxsi görüşləri zamanı müzakirə olunurdu. Dünyanın böyük dövlətlərinin nəhəng neft şirkətləri ilə danışıqlar aparan, Vaşinqtonda, Nyu-Yorkda, Londonda, Ankarada, Parisdə, eləcə də dünyanın aparıcı universitetləri olan Harvardda, Stenfordda, həmçinin beynəlxalq iqtisadi forumlarda, dünya biznesinin elitası qarşısında çıxışlar edən İlham Əliyevin ölkəsinin nüfuzunu qorumaq, maraqlarını müdafiə etmək uğrunda mübarizədə həm güclü bir iqtisadçı, həm bir diplomat, həm də dünya səviyyəli bir siyasətçi olmasına şübhə yox idi. Ümummilli lider Heydər Əliyev isə regiona nəzarət uğrunda açıq-gizli mübarizə aparan dövlətlərin təsirindən ustalıqla yayınaraq özünün balanslaşdırılmış siyasətinə sadiqliyini nümayiş etdirir, Xəzər nefti uğrunda mübarizə aparan Qərb şirkətlərinin maraqlarını Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin möhkəmlənməsinə yönəldirdi. O, bütün bu məsələlərdə öz xalqının təhlükəsizliyi mövqeyindən, qloballaşmaya və inteqrasiyaya yönəlmiş ümumdünya iqtisadiyyatının obyektiv tələblərindən çıxış edirdi. Zaman göstərir ki, onun düşündüyü və həyata keçirdiyi strategiya öz sevimli müstəqil Azərbaycanı ilə yanaşı, bir çox dünya dövlətlərinin və xalqlarının rifahına xidmət edir. Bakı-TbilisiCeyhan neft kəməri layihəsinin həyata keçirilməsi beynəlxalq münasibətlərə yeni məntiqi yanaşmanın tarixi nümunəsi sayıla bilər.

Azərbaycan Prezidenti İlham Əliyev son vaxtlardakı çıxışlarının birində haqlı olaraq deyir: "Heydər Əliyev adına Bakı-Tbilisi Ceyhan neft kəməri geosiyasi xarakter daşıyır və özünün varlığı ilə dünyanın siyasi proseslərinə təsir göstərəcəkdir". Bununla razılaşmamaq olmaz. Dünyada enerji qıtlığının artdığı bir vaxtda Azərbaycanın karbohidrogen ehtiyatları, həmçinin, beynəlxalq təhlükəsizliyə xidmət edir. Azərbaycanın xarici siyasət kursunun artıq 15 ildən çox tarixi var və bu kurs, qeyd etdiyimiz kimi, Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə sadiqdir. Ümummilli liderin dahiliyi məhz onda idi ki, Azərbaycanın müstəqilliyinin bərqərar olması üçün, bir çox postsovet respublikalarından fərqli olaraq, tarixən qonşu olduğu Rusiya ilə münasibətləri tarixi reallığa adekvat formalaşdıra

bildi. Öz hakimiyyətini qorumaq üçün ona kəskin şəkildə Qərb bloklarına qoşulmaq kursu da seçmək lazım gəlmədi. O, ölkəsini hansısa dövlətdən qorumaq üçün himayəçi tutmadı. Sadəcə, öz yolunu seçib bu yolla getdi. Məhz onun dövründə Azərbaycan özündə müxtəlif vektorları Şərqi və Qərbi, islamı və xristianlığı birləşdirdi.

Onun layiqli varisi - Prezident İlham Əliyev bu "çevik alyanslar" kursunu qlobal güc qütblərindən kənar keçirərək, uğurla davam etdirir və bu kurs öz dividendlərini gətirir: "Azərbaycan heç vaxt özünün bəzi qonşuları kimi dəyişən geosiyasi kart olmayıb və olmayacaq da". İlham Əliyev bunu dövlət başçısı seçildiyi ilk gündə mətbuata verdiyi açıqlamada belə bəyan edir: "Azərbaycan rəqabət meydanına çevrilməməlidir, əksinə, regional və dünya miqyasında əməkdaşlıq mərkəzi olmalıdır, bizim əsas istiqamətimiz ondan ibarətdir ki, öz xarici siyasi fəaliyyətimizlə qarşıya qoyduğumuz məqsədlərin əldə olunmasına, Azərbaycanın dünya birliyindəki yerinin möhkəmlənməsinə, həmçinin dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq yolu ilə bizim iqtisadi inkişafımıza kömək edək. Bu siyasət bu vaxta qədər həyata keçirilib və bundan sonra da davam etdiriləcək. Bilmək istəyirsinizsə, bu, yeni Prezidentin və hökumətin Heydər Əliyevin müəyyənləşdirdiyi yolda atacağı ilk addımlar olacaq. Mən həmişə çalışmışam və çalışacağam ki, atama oxşayım". O, bu bəyanatı verməzdən əvvəl də artıq ölkəsinin iqtisadi nüfuzunun xilası naminə apardığı mübarizədə, gərgin və mürəkkəb diplomatik danışıqlarda dünya miqyaslı iqtisadçı, çevik siyasətçi və lider kimi formalaşmışdı. Məhz onun bu keyfiyyətlərini nəzərə alaraq ABŞ konqresmeni Kurt Ueldon 2003-cü il avqustun 29-da Azərbaycan Respublikasının Baş naziri postunda olan İlham Əliyevə bir siyasətçi kimi heyranlığını ifadə edərək deyirdi: "Həqiqətən, beş dildə təmiz danışan və dünya siyasətində xüsusi çəkisi olan Sizin kimi liderlə ilk dəfədir ki görüşürəm... Əminəm, bir çox ölkələrin xalqları arzulayırlar ki, onların da Sizin kimi bacarıqlı, beş dildə danışa bilən, müxtəlif mövzulara dair dərin biliklərə malik, geniş dünyagörüşlü bir lideri olsun. Hesab edirəm ki, bu baxımdan Azərbaycan xoşbəxt ölkədir, çünki bu ölkəyə Sizin kimi lider qismət olmuşdur". "Zəngin neft ehtiyatlarına malik olan Azərbaycanın ətrafında çoxkombinasiyalı siyasi oyunlar gedir. "Böyük neftin" müsbət tərəfləri olduğu kimi, mənfi tərəfləri də var", – deyən İlham Əliyev bax beləcə, hələ Prezident olmamışdan çox-çox əvvəl dərin zəkası, yüksək intellekti, qətiyyəti, xarizması, ölkəsinin mənafeyi naminə heç vəchlə güzəştə getməməsi ilə dünya siyasi elitasının diqqət mərkəzinə keçmişdi. Yeni siyasi epoxanın, demokratik dəyərlərin formalaşmağa və bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olmağa başladığı dövrün yetirməsi, dünya siyasətində iqtisadi maraqların siyasi maraqları üstələdiyi bir mər-

hələnin diplomatı kimi siyasi olimpə doğru irəliləyən İlham Əliyev, sözün həqiqi mənasında, xalqın gözlədiyi və inandığı siyasi liderə çevrilmişdi.

2003-cü ildə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil Azərbaycanın tarixinin keyfiyyətcə yeni bir mərhələsi başladı. Filosof, akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir: "... Prezident İlham Əliyev hakimiyyətə gəldiyi zaman ölkədə və dünyada vəziyyət o qədər də sadə deyildi...Bütün cəhdlərə baxmayaraq, 2003-cü ilin prezident seçkiləri ən müasir tariximizin dönüş nöqtəsi oldu. Azərbaycanın qarşısında duran başlıca strateji vəzifə Azərbaycan dövlətinin əldə edilmiş geosiyasi simasını, mövqeyini bundan sonra da qorumaq, yeni yaranan dövlətlərin və ölkəmizə qarşı qeyri-səmimi olan qüvvələrin müxtəlif məqsəd və vasitələrlə Ermənistanın işğalçılıq siyasətindən bəhrələnərək, Azərbaycan ərazisini siyasi qrupların münaqişəsi meydanına, qeyri-sabitliyin tüğyan etdiyi məkana çevirməsinin qarşısını almaq idi". Uzaqgörən, məsuliyyətli qərarlar vermək qətiyyətində olan, cəsarətli, enerjili İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji oriyentirləri uğurla həyata keçirməyə başladı. Bu strateji istiqamətlərin ən vacibi isə ölkənin xarici siyasət xətti idi və İlham Əliyev burada da "keçmiş gələcəyin peyğəmbəridir" prinsipindən çıxış edərək, Heydər Əliyev kursuna sədaqət nümayiş etdirdi. "Biz Azərbaycan xalqının tələbatlarına və maraqlarına uyğun siyasət aparırıq. Siyasətimiz müstəqildir. Siyasi, iqtisadi münasibətlərdə, o cümlədən dünya ictimaiyyəti ilə qurduğumuz əlaqələrdə siyasətimiz müstəqildir. ...Bu siyasət özünü doğruldur. Bizim ABŞ-la da strateji əməkdaşlıq münasibətlərimiz mövcuddur. Eyni zamanda, bizim İKT-yə üzv olan ölkələrlə də yaxşı münasibətlərimiz var. Bizim qonşularla olan münasibətlərimiz müsbətdir. Rusiyadan başqa, bizim İranla da münasibətlərimiz var. Bir sözlə, bütün bunlar mümkündür. Həmin amillər regionda təhlükəsizliyin və sabitliyin bərqərar olmasına xidmət edir. Çünki bizim yerləşdiyimiz region olduqca mürəkkəbdir". Prezident İlham Əliyevin bu fikirlərində Azərbaycan dövlətinin xarici siyasətinin strateji istiqamətləri kifayət qədər aydın və konkret şəkildə öz əksini tapmışdır. Ən yığcam şəkildə desək, bunlar tarazlaşdırılmış siyasi xətt, tarixdə dəfələrlə olduğu kimi, Azərbaycanın rəqabət, toqquşma və savaş zonasına çevrilməsinə yol verməmək, təbii sərvətlərin ölkənin rifahı və dövlətçiliyin möhkəmləndirilməsi yönündə istifadə edilməsidir.

Avropa Azərbaycanın tərəfdaşıdır

2009-cu il yanvarın 29-da Davos İqtisadi Forumu çərçivəsində "Böyük oyun təkrarlanır" devizi altında keçirilən xüsusi iclasda Azərbaycanın dövlət başçısı Avropa ilə münasibətlərə yenidən aydınlıq gətirərək bildirdi: "Müstəqillik əldə etdiyimiz vaxtdan etibarən siyasətimizin Avropa istiqaməti prioritet məsələ idi və bu gün də o davam edir".

Bu istiqamətdə Azərbaycanın Avropaya inteqrasiyasının əsas, əslində, ilk real nəticələrini 2001-ci il yanvarın 25-də verdi. Uzun sürən danışıqlardan sonra Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü oldu və qurumun Strasburqda yerləşən qərargahı qarşısında Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Azərbaycan Respublikasının üçrəngli bayrağı qaldırıldı. Bununla ölkəmiz öz üzərinə bir sıra öhdəliklər götürdü ki, son günlərə qədər onların yerinə yetirilməsi üçün bir çox tədbirlər həyata keçirilir Ölkəmiz Avropa Şurasına üzvlüyü müddətində məhz İlham Əliyevin rəhbərliyi ilə bir sıra mühüm diplomatik uğurlara imza atmışdır. Hələ üzvlüyün ikinci ilində qurumun Parlament Assambleyasının qış sessiyasının ilk iclasında təşkilatın rəhbər orqanlarına keçirilən iclasda Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyev avropalı parlamentarilərin yekdil səsi ilə AŞ PA-nın vitse-prezidenti seçildi. Bu hadisənin əhəmiyyəti onda idi ki, bu post ona büronun bütün iclaslarında iştirak etməyə, burada müzakirə edilən məsələlərə müdaxilə etməyə və Azərbaycanın mövqeyini bildirməyə imkan verirdi. Beləliklə, İlham Əliyev Azərbaycanın tarixində bu beynəlxalq təşkilatda nüfuzlu posta seçilən ilk siyasətçi oldu. İlham Əliyevin rəhbərliyi ilə AŞ PA-dakı nümayəndə heyətinin ən böyük uğuru isə 2001-ci ilin sentyabrında tarixə yazıldı. İlham Əliyevin AŞ PAnın iclasında Ermənistanın təcavüzü və işğalçılıq siyasəti ilə bağlı tutarlı faktlara əsaslanan mühüm nitqi böyük əks-səda doğurdu. Bundan sonra AŞ PA-nın iclasında Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair öz qərarını elan etdi.

Sənədə əsasən Avropa Şurasının Nazirlər Komitəsi dövlətlərin ərazi bütövlüyünü, onların müstəqilliyini və beynəlxalq aləmdə tanınmış sərhədlərinə dair beynəlxalq prinsipləri müdafiə etdiyini bir daha təsdiq etdi. Qərarın əhəmiyyəti qaldırılmış məsələdə ərazi bütövlüyü prinsipinin müqəddəsrat prinsipindən üstün olmasından ibarət idi. Bu vaxta qədər bütün beynəlxalq forumlarda Ermənistan məhz həmin prinsiplərin eyniliyi ilə möhtəkirlik edirdi. Bununla da erməni diplomatiyası ərazi bütövlüyü prinsipinə zidd olan əsas arqumentini itirirdi. Məhz bu hadisəni dünya mətbuatı 1996-cı ildə keçirilmiş ATƏT-in Lissabon zirvə görüşündən sonra Azərbaycanın beynəlxalq aləmdə ən böyük diplomatik uğuru kimi qələmə

verdi. Azərbaycanın AŞ PA ilə əməkdaşlığı və ölkəmizin nümayəndə heyətinin bu qurumda fəaliyyəti indi də uğurla davam etdirilir.

Hazırda Prezident İlham Əliyevin istər diplomatlarımız, istərsə də nümayəndə heyətimiz qarşısında qoyduğu vəzifə – bütün mövqelərdən Ermənistana diplomatik hücum strategiyası öz müsbət nəticələrini verməkdədir.

Xarici siyasətdə əsas prioritetlərimizdən biri də dünyada söz sahibi olan Avropa İttifaqı ilə əməkdaşlıqdır. Bu mühüm təşkilatla münasibətlərin az qala müstəqilliyimizin yaşı qədər tarixi vardır. Bu münasibətlərin təməlində, əvvəldə qeyd etdiyimiz kimi, məhz Ulu Öndər Heydər Əliyevin neft strategiyası durur. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan dünya siyasətinin əsas müzakirə mövzusu olmuşdu. Hadisələr o qədər sürətlə inkişaf edirdi ki, Azərbaycan Avropa üçün mühüm əhəmiyyət daşıyan bir etibarlı tərəfdaşa çevrilirdi. Onunla əməkdaşlıq etməmək, sadəcə, dünyanın inkişaf perspektivlərini görməmək demək idi. Qoca Avropada isə bunu aydın görür və başa düşürdülər. Növbə Azərbaycanın idi. Avropanı təşvişə salan dövr başlamışdı və artıq Cənubi Qafqazın enerji ehtiyatları, neft-qaz kəmərləri və kommunikasiya xətləri ilə zəngin olan lideri – Azərbaycan bu əməkdaşlığın mühərrikinə çevrilirdi.

2006-cı il noyabrın 7-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzaladılar.

Analitiklərin xüsusi vurğuladığı kimi, bu memorandum Avropa Komissiyasının davamlı enerji təhlükəsizliyinin təminatı strategiyasının bir qoludur. Bu strategiyada enerji sektorunda əsas neft ixrac edən və tranzit ölkələr arasında əlaqələrin genişləndirilməsinə xüsusi diqqət verilir. Bu, eyni zamanda, Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına inteqrasiyasına kömək edən və Xəzər hövzəsindən enerjidaşıyıcılarının nəqli nəticəsində Avropa İttifaqının enerji təhlükəsizliyini daha da gücləndirən sənəd idi.

Joze Manuel Barrozu imzalanma mərasimindən sonra verdiyi bəyanatda deyir: "Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq enerjidaşıyıcıları böyük rol oynayacaqdır. Biz buna görə Azərbaycana minnətdarıq... Məmnunluq hissi ilə qeyd edirik ki, Azərbaycan Avropa İttifaqının qonşuluq siyasətinə daxil olub və bu, ölkədə sabitliyə və rifaha öz töhfəsini verəcəkdir.....Biz Azərbaycanla güclü və hərtərəfli münasibətlərin yaradılmasında maraqlıyıq". Oxşar mövqeyi Avropa İttifaqı Nazirlər Şurası da nümayiş etdirir və qurumun ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana da həmin memorandum imzalanandan sonra bildirmişdir: "Biz Azərbaycanla ikitərəfli

münasibətlərimizi dərinləşdirmək əzmindəyik və bu, təkcə enerji sahəsini əhatə etmir. Baxmayaraq ki, o vacib sahədir. Azərbaycan təkcə enerji məhsulları ölkəsi deyil, həm də regionun mühüm ölkəsidir". Təbii ki, Brüsseldə 2006-cı ildə imzalanan bu memorandum Azərbaycanın Avropa İttifaqı ilə uzun illər apardığı uğurlu əməkdaşlığın davamı idi və bu sənədlə münasibətlər artıq yeni mərhələyə, yeni müstəviyə çıxırdı. Sənəddə qeyd olunan hər iki məsələ – Avropa İttifaqının Cənubi Qafqazda yeni qonşuluq siyasəti və enerji məsələləri üzrə strateji tərəfdaşlığı Azərbaycan üçün böyük əhəmiyyət daşıdığından bunlar dövlət başçısının daim diqqət mərkəzində olmuşdur.

Prezident İlham Əliyev bunun ölkəsinə verəcəyi faydanı belə açıqlayır: "Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"ndə iştirak, Avropa Şurası kimi təşkilatlardakı fəaliyyət nəyə görə bizim üçün vacibdir? Çünki bu, bizə Avropa İttifaqında olan dəyərlərə uyğunlaşmağa, ən azı, bu dəyərlərə yaxın olmağa və onları təkmilləşdirməyə kömək edir. Belə ki, dünyada digər ölkələrin müsbət və mənfi təcrübəsinə nəzər yetirsəniz görərsiniz ki, bu sahədə ən yaxşı nailiyyətlər, demək olar, Avropada əldə olunub: açıq və demokratik cəmiyyət, güclü iqtisadiyyat və sair".

Digər tərəfdən, ölkə başçısı Avropa İttifaqına Azərbaycanın ərazi bütövlüyünü təmin etmək və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün geniş təsir imkanlarına malik bir qurum kimi baxır: "ATƏT problemi həll etmək mandatına malikdir. BMT-nin Təhlükəsizlik Şurası erməni qüvvələrinin Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxması ilə bağlı 4 qətnamə qəbul etmişdir. Onlar hələ də yerinə yetirilməyibdir. Avropa İttifaqının bu baxımdan mövqeyi vacibdir, çünki Avropa İttifaqı artıq bizim qonşumuzdur. Biz də öz tərəfimizdən Avropa İttifaqına daha da yaxınlaşırıq və onun "Yeni qonşuluq siyasəti"ndə iştirak edirik. Ona görə də digər təşkilatlardan fərqli olaraq, Avropa İttifaqı regionda təhlükəsizliyin olmasında daha da maraqlıdır. Çünki biz qonşuyuq". Avratlantik məkana inteqrasiya sahəsində Azərbaycanın apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün müsbət nəticələrini verməkdədir. Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" ötən illərdə ölkəmizdə siyasi və iqtisadi inkişaf meyarlarının Avropa İttifaqı ölkələrindəki göstəricilərə uyğunlaşdırılmasında əhəmiyyətli rol oynamışdır. Bunun nəticəsidir ki, indi Azərbaycan artıq Avropa üçün etibarlı tərəfdaş və dosta çevrilmiş, bütün Avropa ölkələri üçün get-gedə daha mühüm məsələyə çevrilən enerji təhlükəsizliyində vacib rola və sözə sahibdir. Milli müstəqilliyin bərpasından sonra Avropaya inteqrasiya xətti götürmüş Azərbaycan qitə iqtisadiyyatının enerji daşıyıcılarına olan tələbatının ödənilməsinə öz töhfəsini verir. "Əsrin müqaviləsi"nin

imzalanması ilə başlamış strateji tərəfdaşlıq artıq dönməz xarakter almışdır. Bir tərəfdən, neft və qaz ixracı milli iqtisadiyyatın inkişafında misilsiz rol oynayır, digər tərəfdən isə ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsində vacib amil kimi çıxış edir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, energetika sahəsində Azərbaycan-Avropa əməkdaşlığının bütün potensialı hələ tam işə düşməmişdir. Enerji təchizatında asılılığı azaltmaq üçün yollar axtaran Avropa Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verir. Ötən ilin noyabrında Bakıda keçirilmiş enerji sammiti bunun əyani nümayişi oldu. 21 ölkənin, o cümlədən Avropa İttifaqının üzvü olan 9 ölkənin dövlət və hökumət başçılarının, yüksək vəzifəli nümayəndələrinin qatıldığı sammitdə Xəzər dənizi hövzəsində hasil edilən neft və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsi (diversifikasiyası) məsələsi əsas müzakirə mövzusu idi. Qeyd etmək lazımdır ki, IV Bakı Enerji Sammiti Azərbaycanın aparıcı tərəf kimi iştirak etdiyi Krakov, Vilnüs və Kiyev enerji sammitlərindən sonra Bakının təşkilatçılığı ilə həyata keçirilirdi. Sammit enerji ehtiyatlarının həm hasilatı, həm də nəqli baxımından Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əvəzedilməz rolunu xüsusi önə çəkmişdir. Prezident İlham Əliyev sammitin açılışında söylədiyi nitqində Azərbaycanın iqtisadi və siyasi sabitliyinin, yürütdüyü müstəqil xarici və iqtisadi siyasətin ölkəyə uzun müddət ərzində bu rolu yerinə yetirməyə imkan verdiyini bildirmişdir. Avropa İttifaqı ilə strateji əməkdaşlığın inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il aprelin sonu və mayın əvvəllərində Brüsselə və "Şərq tərəfdaşlığı" sammitinin keçirildiyi Çexiyaya səfəri zamanı yeni bir müstəviyə çıxdı. "Azərbaycanı Cənubi Qafqaz regionunda Avropanın olduqca mühüm tərəfdaşı" hesab edən Avropa Komissiyasının sədri Joze Manuel Barrozu "Artıq on ildir ki, həyata keçirilən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin münasibətlərdə möhkəm bünövrə" olduğunu söylədi. Mayın 7-də Praqada Avropa İttifaqı ölkələrinin və eləcə də "Şərq tərəfdaşlığı" təşəbbüsünün üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitində qəbul olunan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına gəldikdə isə ölkəmizin rəhbəri bu proqramın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da yaxınlaşmasına və genişlənməsinə təkan verəcəyini bildirdi.

Azərbaycanın dövlət başçısı yeni qəbul olunmuş "Şərq tərəfdaşlığı" proqramından çox şey gözlədiyini və onun Avropa-Azərbaycan münasibətlərinə töhfə verəcəyini bəyan etdi. Əslində, bu proqram "Yeni qonşuluq siyasəti"nin davamı olaraq münasibətlərin yeni müstəvisinə çıxış üçün əsaslar yaradır. Prezident İlham Əliyev onu belə dəyərləndirmişdir: "...Vacib məsələ odur ki, "Şərq tərəfdaşlığı" proqramında həm Avropaya, həm də Azərbaycana fayda gətirəcək konkret və dəqiq elementlər mövcud-

dur... "Şərq tərəfdaşlığı" proqramından biz çox şey gözləyirik. ...Məqsədimiz Avropa İttifaqının qabaqcıl təcrübəsinə çıxış əldə etmək, həyatımızın müxtəlif sahələrini Avropa İttifaqının standartlarına yaxınlaşdırmaq və gələcək illər üçün çiçəklənən və dayanıqlı ölkə qurmaqdır".

Hazırda Avropa İttifaqı ilə inteqrasiya əlaqələri "Yeni qonşuluq siyasəti" kontekstində Fəaliyyət Planının həyata keçirilməsi, "Twinning" və "TAİEX" kimi proqramlarda iştirak çərçivəsində inkişaf etdirilir. Avropa İttifaqı ilə tərəfdaşlıq və yaxınlaşmanın möhkəmlənməsi prosesi "Şərq tərəfdaşlığı" təşəbbüsünün irəli sürülməsi ilə əlavə təkan almışdır. Həmin təşəbbüs azad ticarət, eləcə də qarşılıqlı şəkildə viza rejiminin sadələşdirilməsi haqqında müqavilə daxil olmaqla, yeni assosiativ müqavilələr imzalamaq yolu ilə ticarət-iqtisadi, siyasi və humanitar əlaqələrin dərinləşdirilməsi üçün zəmin yaradır.

"Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır"

Bu fikri NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer Azərbaycan Prezidenti İlham Əliyevlə 2009-cu il aprelin 29-da Brüsseldə alyansın mənzil-qərargahında keçirdiyi görüşdən sonra birgə mətbuat konfransında söyləmişdir. Özü-özlüyündə münasibətlərin hansı səviyyədə olduğunu göstərən bu mövqe, təbii ki, bir ilə, iki ilə formalaşmamışdır. Artıq 15 ildir ki, Azərbaycan Şimali Atlantika Alyansı ilə "Sülh naminə tərəfdaşlıq" proqramı və 2005-ci ildən isə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində uğurlu əməkdaşlıq edir. Ona görə də NATO Azərbaycanı təkcə regionda deyil, onun hüdudlarından kənarda da həyata keçirilən tədbirlərdə özünün tərəfdaşı sayır və ölkəmiz ilə əməkdaşlığa üstünlük verir. Xatırlatmaq yerinə düşər ki, təkcə 2008-ci ildə Azərbaycan təmsilçiləri NATO-nun təşkil etdiyi 200-dən çox əməkdaşlıq tədbirində iştirak etmişdir.

NATO ilə Azərbaycanın münasibətləri tarixinə nəzər salsaq, görərik ki, Şimali Atlantika Alyansının bu ölkəyə marağı təkcə Azərbaycanın karbohidrogen ehtiyatları ilə zəngin olması gerçəkliyi ilə bağlı deyil. Bu maraq hər şeydən əvvəl həm də Azərbaycanın regiondakı mühüm geosiyasi mövqeyi və rolu ilə bağlıdır. Region həssasdır, orada qeyri-sabitlik riskləri var. Unutmaq olmaz ki, ölkəmizi mühüm tərəfdaşa çevirən amillərdən biri də NATO üzrə müttəfiq ölkələrin nəhəng şirkətlərinin Azərbaycan iqtisadiyyatına çox böyük həcmdə sərmayələr yatırmasıdır və onların təhlükəsizliyi məsələsi də xüsusi önəm daşıyır. Digər tərəfdən, Azərbaycanın Əfqanıstan, İraq və Kosovodakı sülhyaratma əməliyyatlarında, antiterror tədbirlərində iştirakı da NATO və onun tərəfdaşları üçün böyük əhəmiyyət

kəsb edir. NATO-nun Baş katibi Avropanın enerji təhlükəsizliyi məsələlərinə toxunarkən etiraf edir: "Azərbaycan bu sahədə çox mühüm ölkədir, yəni bundan sonra neft və qaz təchizatı sahəsində daha böyük rol oynamağa başlayacaqdır... NATO bu sahədə aparıcı təşkilat olmasa da, enerji təhlükəsizliyi ilə bağlı müzakirələr təşkilatımız üçün çox vacibdir. Bu məsələlər NATO çərçivəsində nəzərdən keçirilir. ...Əgər Azərbaycana və regiona nəzər salsanız, aydın şəkildə görərsiniz ki, enerji təchizatı və boru kəmərlərinin çəkilməsi enerji təhlükəsizliyində mühüm rol oynayır".

Azərbaycanın NATO ilə əməkdaşlığının faydalı və əhəmiyyətli bir məqamı da bu fövqəltəşkilatın ölkəmizi daim narahat edən Dağlıq Qarabağ münaqişəsi, Ermənistan-Azərbaycan münasibətləri kontekstində tutduğu mövqedir. Şimali Atlantika Alyansı 2009-cu il aprelin əvvəlində quruma daxil olan ölkələrin dövlət və hökumət başçılarının Strasburqda və Kehldə keçirilmiş zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsinin mühüm bir prinsip – ərazi bütövlüyü prinsipi əsasında həllini tapa biləcəyini bəyan etmişdir. Bu, eynən Avropa İttifaqının qəbul və bəyan etdiyi qərardır ki, nəticədə Ermənistanın mövqelərinə və apardığı siyasətə çox böyük zərbə vurur.

Azərbaycanın dövlət başçısı NATO-nun bu qərarını alqışlayaraq Brüsseldə alyansın mənzil-qərargahındakı açıqlamasında demişdir: "Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ərazi bütövlüyü prinsipinə əsaslanan qəti mövqeyinə görə NATO-ya olduqca minnətdarıq. Bu, regiona çox yaxşı mesajdır. Hesab edirəm ki, biz həmin münaqişənin həlli istiqamətində yalnız bu prinsip əsasında irəliyə doğru gedə bilərik".

Diqqət çəkən məqamlardan biri ondan ibarətdir ki, prezidentliyinin ilk günlərindən başlayaraq dövlət başçısı İlham Əliyev bu məsələdə elan etdiyi diplomatik hücum strategiyasını uğurla davam etdirir. Buna daha gözəl bir nümunəni 2009-cu ilin aprel ayının 28-də Brüsseldə "Şərq tərəfdaşlığı" sammiti çərçivəsində Avropa Siyasi Mərkəzinin təşkil etdiyi "Azərbaycan: Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaş" mövzusunda görüşdə Azərbaycan liderinin qətiyyətli mövqeyində bir daha gördük. Avropanın tanınmış siyasətçilərinin, politoloqlarının və bir çox qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə İlham Əliyev Ermənistanın dünya birliyinin mövqeyini saya salmadığına diqqət çəkərək demişdir: "Ərazimizin 20 faizi işğal altındadır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının və Baş Məclisinin işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən qətnamələri, ATƏT-in qərarları, sadəcə kağız üzərində qalıb. Budur böyük problem. Dünyanın aparıcı beynəlxalq təşkilatları qərarlar qəbul edib, lakin həmin qərarlar icra olunmur və həmin qərarları pozan ölkələr cəzalandırılmır. Bu

nəinki bizim üçün, bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükədir. Bu, beynəlxalq ictimaiyyət qarşısında böyük çağırışdır".

Regionun bəzi dövlətləri Azərbaycanın NATO ilə bu münasibətlərini və tərəfdaşlığını qısqanclıqla qarşılamış və buna siyasi rəng verməyə çalışmışlar. Lakin bütün dövrlərdə Azərbaycan Prezidenti xarici siyasət məsələsində ölkəsinin prioritetlərini dəqiq və konkret göstərərək demişdir: "Biz Azərbaycan xalqının tələbatlarına və maraqlarına uyğun siyasət aparırıq. Siyasətimiz müstəqildir, o cümlədən dünya ictimaiyyəti ilə qurduğumuz siyasətimiz müstəqildir... Xarici siyasətimiz aydın, proqnozlaşdırılan siyasətdir. Azərbaycan etibarlı tərəfdaş olduğunu sübuta yetirib. Bütün dünyada, o cümlədən Avropada biz müxtəlif ölkələrlə çox möhkəm əlaqələr qurmuşuq. Hazırda Avropa İttifaqının üzvü olan ölkələr Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır. İxracımızın böyük hissəsi Avropa İttifaqı ölkələri ilə bağlıdır".

Bu gün NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq uğurla inkişaf edir. Artıq "Fərdi tərəfdaşlığın fəaliyyət planı"nın həyata keçirilməsinin növbəti fazasını açan və NATO ilə siyasi dialoqun dərinləşdirilməsini, müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan Fəaliyyət Planı üzrə ikinci sənəd qəbul edilmişdir.

ABŞ – Azərbaycana dost və tərəfdaş ölkə

ABŞ-la diplomatik münasibətlərin əsası Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra qoyulmuşdur. Qarşılıqlı münasibətlərdə ciddi siyasi təsir amilinə çevrilmiş mühüm məqamlardan biri də məhz ABŞ-ın Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələr sırasında olmasıdır. Kifayət qədər mürəkkəb və ziddiyyətli mərhələdə 1991-ci il dekabrın 25-də belə bir addım atan rəsmi Vaşinqton Azərbaycanla səmimi tərəfdaşlıq və dostluq niyyətini ifadə etmiş, respublikamızın Cənubi Qafqaz regionundakı yerini və perspektivini düzgün müəyyənləşdirmişdir. 1992-ci il fevralın 28-də Azərbaycan-ABŞ diplomatik münasibətlərinin təməli qoyulsa da, həmin dövrdə hakimiyyətdə olan qüvvələr bu ölkə ilə əlaqələrin genişləndirilməsi istiqamətində heç bir real addım atmamışlar. Nəticədə güclü erməni diasporunun təsiri ilə 1992-ci ilin dekabrında ABŞ

Konqresi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktına 907-ci düzəliş" deyilən ədalətsiz sənəd qəbul etdi. Bu, müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş dövlət üçün ağır bir zərbə idi.

Siyasi və iqtisadi dəstəyə daha çox ehtiyac duyan Azərbaycan həmin illərdə Birləşmiş Ştatların maraq dairəsinə daxil olan ölkə deyildi. Lakin Azərbaycanın gələcəyinin qeyri-müəyyənliyi, hansı inkişaf yolunu seçə biləcəyi ehtimalları ABŞ-ı narahat etməyə bilməzdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra artıq Vaşinqtonla Azərbaycan arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri formalaşmağa başladı. Hələ 1994-cü ildə Prezident Bill Klintonun imzaladığı sənəddə açıq bəyan olunurdu ki, ABŞ təbii sərvətlərə çıxış əldə etmək üçün bütün imkanlardan istifadəyə, hətta gücün tətbiqinə hazırdır. Bu regionun Rusiya üçün necə mühüm əhəmiyyət kəsb etdiyini bilən rəsmi Vaşinqton bəyan etdi ki, "dünyanın təsir dairələrinə bölünməsi konsepsiyasını rədd edir".

ABŞ-ın Azərbaycanla əlaqələrinin strateji xarakter almasında "Əsrin müqaviləsi"nin çox böyük rolu oldu. Məhz bu müqavilədən sonra Amerika-Azərbaycan əməkdaşlığının davamı olaraq yenidən Xəzər neftinin hasili və dünya bazarlarına nəqli ilə bağlı müxtəlif investisiya layihələri işlənib hazırlandı və müqavilələr bağlandı. Lakin politoloqlar və tarixçilər haqlı olaraq ABŞ-ın Azərbaycanı prioritet ölkə elan etməsində 1997-ci ili özünəməxsus bir dönüş ili adlandırırlar. Hələ 1997-ci ilin ortalarında politoloq Ariel Koen ABŞ-ın siyasi dairələrinə və diplomatlara müraciət edərək bildirmişdir: "... Sovet İttifaqı dağılandan sonra Rusiyanın cənuba dörd əsrlik ekspansiyası bitdi. Postkommunist Rusiyanın imperiyanı hərbi qüvvə tətbiq etməklə bərpa etməyə qətiyyəti və hərbi resursları yoxdur. Birləşmiş Ştatların Avrasiyada manevr etməyə daha böyük imkanları var və tarixdə ilk dəfə ABŞ və onun müttəfiqləri Avrasiyanın daxili məkanına və burada olan zəngin iqtisadi resurslara çıxış əldə edirlər". Amma bu kimi bəyanatlar və çağırışlar hələ lazım olan effekti vermirdi. Rusiya mətbuatının bu günə qədər yazdığı kimi: "Ciddi münasibətlər yalnız Heydər Əliyevin 1997-ci il iyulun 27-dən avqustun 6-na qədər ABŞ-a ilk rəsmi səfərindən sonra yarandı". Elə həmin günlərdə dövlət katibinin müavini Stroub Telbott Con Hopkins Universitetində "Amerika siyasəti Qafqazda və Mərkəzi Asiyada" mövzusundakı çıxışında Vaşinqtonun xarici siyasətinin əsas istiqamətlərini göstərdi.

Politoloqlar hesab edirlər ki, məhz həmin ərəfədə ABŞ Konqresi Xəzər və Qara dəniz regionunu Amerikanın milli maraq dairəsi kimi tanıdı, Prezident yanında Xəzər regionu məsələləri üzrə xüsusi müşavir postu təsis olundu. Regiondakı strategiyanın hazırlanması ilə bir çox elmi-tədqiqat

mərkəzləri məşğul olmağa başladı. Məhz bu səfər günlərində Ağ Evin jurnalistlərə payladığı pres-relizində deyilirdi: "Prezident Əliyevin səfəri iki ölkənin əməkdaşlıq əlaqələrində təməl daşıdır və əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacaqdır".

Bu səfər həm də ABŞ-Azərbaycan münasibətlərini əngəlləyən, Stroub Telbottun "əlaqələrin inkişafı yolunda özümüzün yaratdığımız maneə" adlandırdığı Azadlığa Dəstək Aktına ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılması istiqamətində də ciddi addım kimi qiymətləndirilə bilər. Səfər ərəfəsində Telbott Klinton administrasiyasının bu düzəliş ilə razı olmadığını bildirərək deyirdi: "Mən güman edirəm ki, siz bu məsələ ilə bağlı gələn həftə Prezident Əliyev Vaşinqtona gələndə daha geniş informasiya alacaqsınız".

1998-ci ildən başlayaraq ABŞ-la əməkdaşlıq Azərbaycan xarici siyasətinin əsas strateji istiqamətlərindən birinə çevrildi. Corc Buşun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri daha da genişlənməyə başladı. Həmkarı Heydər Əliyevlə görüşü zamanı cənab Buş ölkəsinin milli maraqlarından çıxış edərək bildirirdi ki, "Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır". Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra ulu öndər Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi. Müqayisə üçün deyək ki, o zaman bir sıra dövlətlər, o cümlədən işğalçı Ermənistan da gözləmə mövqeyi tutmuşdu. Azərbaycan rəhbərliyinin rəsmi mövqeyi isə əməli fəaliyyətə əsaslanırdı – rəsmi Bakı əvvəlcə Əfqanıstanda, daha sonra isə İraqda həyata keçirilən antiterror əməliyyatlarına siyasi və hərbi dəstək verdi. Azərbaycan hərbi kontingenti bu gün də Əfqanıstanda sülhməramlı missiya yerinə yetirir. Təsadüfi deyil ki, ABŞ Prezidenti Corc Buş bu faktı bir neçə dəfə məmnunluqla önə çəkmiş, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlanmış, hazırda isə Prezident İlham Əliyev tərəfindən uğurla aparılan antiterror siyasətini təqdir etmişdir. Həmçinin, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəqli sahəsində ölkəmiz üçün son dərəcə əhəmiyyətli olan irimiqyaslı transmilli layihələrin həyata keçirilməsində ABŞ-ın hərtərəfli dəstəyini xüsusi qeyd etmək lazımdır. Belə ki, iki nəhəng enerji layihəsinin reallaşması Birləşmiş Ştatların dəstəyi ilə mümkün olmuşdur.

Münasibətlərdəki pozitiv dinamika sonrakı illərdə də inkişaf etdi və ABŞ İlham Əliyevin Azərbaycanda prezident seçkilərindəki uğurunu

dəstəklədi. Hələ Azərbaycanın Baş naziri olarkən ABŞ-la münasibətlərdə dəyişikliyin olmayacağını söyləyən İlham Əliyev mövqeyini belə açıqlayır: "ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çox sürətlə və hərtərəfli inkişaf edir, Amerika hökumətinin dəstəyi olmasaydı, regionda və Azərbaycanda həyata keçirilən böyük enerji layihələrinin reallaşması da mümkün olmazdı...Xüsusilə terrora qarşı mübarizədə Azərbaycan ABŞ ilə birlikdədir. İraqdakı son hadisələr zamanı ölkəmiz Birləşmiş Ştatları birmənalı şəkildə dəstəkləmişdir. İndi biz bir koalisiyadayıq və ölkələrimiz arasında mövcud olan əməkdaşlığın daha da inkişaf etdirilməsini arzulayırıq".

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a 2006-cı il aprelin 25-28-də ilk rəsmi səfəri son illərdə sürətlə inkişaf edən ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoymuş və bir sıra uğurlu nəticələrlə yadda qalmışdır. Səfərin yekunları tam əminliklə deməyə əsas verir ki, ABŞ Azərbaycanla mövcud əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır. Bu maraq, ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə zəngin intellektual resurslara malik olması ilə şərtlənir. Azərbaycanda xarici sərmayədarların fəaliyyəti üçün yaradılmış münbit mühit ABŞ-ın iş adamlarının da diqqətini xüsusi cəlb edir. İndi ABŞ kapitalının iştirakı ilə Azərbaycanda bir çox şirkətlər fəaliyyət göstərir. ABŞ şirkətlərinin Azərbaycanla çoxşaxəli əməkdaşlığa artan marağı həm də son illərdə ikitərəfli iqtisadi əlaqələrdə qazanılmış nailiyyətlərlə bağlıdır. 2004-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi təqribən 157 milyon ABŞ dolları olduğu halda, 2008-ci ildə bu rəqəm 630 milyon dollar təşkil etmişdir.

Rusiya – yaxın qonşu və strateji tərəfdaş

Müstəqillik tariximizin xarici siyasətində Rusiya-Azərbaycan münasibətlərini bir-birindən kəskin şəkildə fərqlənən iki dövrə ayırmaq daha doğru olardı. Bunlardan biri Yeltsin, digəri isə Putin dövrü adlandırıla bilər. Putinə qədərki dövrü qısaca da olsa, xarakterizə etmədən ondan sonrakı dövrü dəyərləndirmək o qədər də doğru olmazdı.

Postsovet respublikalarının müstəqillik paradında öndə addımlayan Azərbaycanla Rusiya arasında münasibətlər tamamilə yeni, Moskvanın alışa bilmədiyi bir müstəviyə keçmişdi. 200 ildən artıq tarixin təlqin etdiyi təkəbbür Rusiyaya keçmiş təbəəsi ilə danışıqlar masasına bərabərhüquqlu subyekt kimi oturmağa imkan vermirdi. Rusiya bütün vasitələrlə keçmiş

nüfuzunu bərpa etmək üçün Azərbaycana təzyiqlərini artırırdı. Müstəqilliyin ilk illərində vəziyyət daha da kəskinləşmişdi. Həmin dövrdə Azərbaycanda hakimiyyətdə olan qüvvələr Rusiyanın təzyiqlərini tez-tez gündəmə gətirməklə artıq xalqda Moskvaya qarşı soyuq münasibət yaratmışdı. Yeltsinin komandası isə aqressivliyi və Dağlıq Qarabağ münaqişəsində Ermənistana dəstək verməsi ilə münasibətləri daha da gərginləşdirdi. Doğrudur, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra bu istiqamətdə vəziyyət dəyişdi. Rusiyanın apardığı böyük geosiyasi oyunda Heydər Əliyev yüksək diplomatik məharət nümayiş etdirərək münasibətləri dəyişməyə, əlaqələri bərpa etməyə çalışırdı. Lakin Rusiyanın tez-tez dəyişən, çox zaman sözlə əməldə üst-üstə düşməyən mövqeyi, eləcə də yeni şəraitə uyğun regionla bağlı iqtisadi və siyasi hədəflərini müəyyənləşdirə bilməməsi münasibətlərin gərgin olaraq qalmasına xidmət edirdi. Azərbaycan Prezidenti İlham Əliyev həmin dövrü xatırlayarkən deyir: "...Təqribən 10 il bundan əvvəl Rusiya ilə Azərbaycan arasında olan əlaqələr çox pis idi. Həmin vaxt Rusiya açıq formada erməni separatçılarını dəstəkləyirdi. Rusiya bir milyard dollar həcmində hərbi avadanlıq və texnikanı qeyri-qanuni olaraq Ermənistana ötürmüşdü. Bu məsələ ilə bağlı Rusiya Dövlət Dumasında böyük qalmaqal yarandı və bizim Rusiya ilə münasibətlərimiz çox gərgin xarakter aldı".

Rusiyada Putin hakimiyyətə gələndən sonra rəsmi Bakı ilə Moskvanın münasibətlərində köklü dəyişikliklər başladı. Onun hakimiyyətdə olduğu səkkiz il şəxsiyyətlərin tarixdə rolunu bir daha təsdiq etdi. Bunu təkcə Azərbaycan-Rusiya münasibətlərinin pozitiv dinamik inkişafı ilə deyil, bütövlükdə Rusiyanın özünün inkişafı ilə bağlı da qeyd etmək mümkündür.

Artıq Rusiyanın "Putin doktrinası" adlanan yeni xarici siyasət strategiyasında Azərbaycan prioritet ölkəyə çevrildi. Bu siyasət qarşı tərəfdən də lazımi dəstəyi aldı. Münasibətlər sürətlə inkişaf etməyə başladı. İki ölkə rəhbəri arasında yaranan dostluq münasibətləri dövlətlərin bir-birinə yaxınlaşmasında əhəmiyyətli rol oynadı. Terrorizmdən əziyyət çəkən Azərbaycan 2002-ci ilin oktyabrında Moskvada "Nord-ost"da insanların girov götürülməsini, 2004-cü ilin sentyabrında Beslandakı terror aktını qətiyyətlə pislədi və terrorizmə qarşı mübarizədə Moskva ilə birgə olduğunu bildirdi. Azərbaycanın və Rusiyanın xüsusi xidmət orqanları terrorçuların həbs edilməsi üçün bir sıra birgə əməliyyatlar həyata keçirtdilər. 2002-ci ildə Rusiya Azərbaycanla Qəbələ radiolokasiya stansiyasının icarəyə götürülməsi haqqında 10 illik müqavilə bağladı.

2006-cı ildə Moskva Azərbaycanla münasibətlərə özünün xarici siyasət prioriteti kimi baxdığını bəyan etdi. Bu dövrdə artıq Azərbaycan-Rusiya münasibətləri istər iqtisadi, istərsə siyasi sahədə özünün yüksəlişində idi. Məhz

həmin ərəfədə Prezident İlham Əliyev Rusiya mətbuat orqanlarına verdiyi müsahibələrdə iki ölkənin münasibətlərini belə qiymətləndirirdi: "Rusiya ilə münasibətlər bizim xarici siyasətimizin çox mühüm elementlərindən biridir və mehriban qonşuluq nümunəsidir. Bu gün Rusiya və Azərbaycan rəhbərləri arasında etimad və yaxın münasibətlər var. Bizdə siyasi danışıqların səviyyəsi çox yüksəkdir. İldən-ilə əmtəə dövriyyəsi artır. Rusiyanın da, Azərbaycanın da dinamik inkişafı üçün çox böyük potensialımız var".

İki ölkə arasında münasibətlərin inkişafında humanitar əlaqələr də az əhəmiyyət kəsb etmir və bu sahədə də son illər çox işlər görülmüşdür. Xüsusilə Rusiyada "Azərbaycan ili"nin, Azərbaycanda "Rusiya ili"nin keçirilməsi, Azərbaycan diasporunun Rusiya rəsmi dairələri tərəfindən dəstəklənməsi, rus dilinə Azərbaycanda olan münasibət və sair bu kimi məsələlər ölkələr arasında münasibətlərin möhkəmlənməsinə öz töhfələrini verir. Moskva ilə Bakı arasında bu gün çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında ötən ilin yayında Bakıda imzalanmış Dostluq və Strateji Tərəfdaşlıq Müqaviləsinə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu müqavilədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur. Bəyanatda göstərilir: "Rusiya və Azərbaycan münaqişə nəticəsində köçmüş və qaçqın düşmüş şəxslərin tezliklə könüllü şəkildə, təhlükəsiz qayıdışına yardım göstərəcəklər".

Beləliklə, Azərbaycan Heydər Əliyev xarici siyasət strategiyasına sadiq qaldığı üçün Rusiyanın Cənubi Qafqazdakı həyati əhəmiyyətli maraqları koordinasiya edilmiş və uzunmüddətli perspektivə hesablanmış kursun həyata keçirilməsi, o cümlədən Cənubi Qafqazda, ilk növbədə, Azərbaycanla etibarlı dostluq münasibətlərinin və çoxşaxəli qarşılıqlı münasibətlərin inkişafı təmin olunmuşdur.

Bu kurs ona gətirib çıxarmışdır ki, 2008-ci ildə iki ölkə arasında əmtəə dövriyyəsi 2 milyard dollara yaxın olmuşdur. Bu təkcə enerji daşıyıcılarını deyil, ən müxtəlif istiqamətləri əhatə edir. Rusiya Prezidenti Dmitri Medvedev bütün bunlardan çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevlə keçən il aprelin 17-də keçirdiyi görüşdə bəyan etmişdir: "İndi ən başlıcası əldə edilmiş tempi qoruyub saxlamaq, iqtisadi problemlər nəticəsində əmtəə dövriyyəsinin azalmasına yol verməməkdir".

Rusiyalı həmkarının fikrini dəstəkləyən Prezident İlham Əliyev də öz növbəsində bildirmişdir: "Bizim ölkələr arasında heç bir problem yoxdur... Həm ikitərəfli əməkdaşlıqda, həm də regional məsələlərdə Rusiyanın və

Azərbaycanın baxışları bir çox cəhətdən üst-üstə düşür. ...Bizim münasibətlərimizi məhz strateji tərəfdaşlıq termini ilə ifadə etmək olar".

Ancaq nəzərə almaq lazımdır ki, Rusiya ilə bu strateji tərəfdaşlıq Azərbaycan xarici siyasətinin elan etdiyi digər prioritetləri heç də gündəlikdən çıxarmır. Azərbaycan müstəqil xarici siyasətində özünün maraqlarına cavab verən kursu seçir və prioritetlərini özü müəyyənləşdirir.

Türkiyə – qardaş ölkə, strateji tərəfdaş

Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi, iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Hər iki ölkə özünün iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edir. Prezident İlham Əliyev 2008-ci ilin noyabrında Türkiyəyə rəsmi səfəri zamanı Türkiyə Böyük Millət Məclisində etdiyi dərin məzmunlu çıxışında demişdir: "Bizim birgə səylərimiz, təşəbbüslərimiz nəticəsində bölgədə çox önəmli transmilli layihələr icra olunur. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla fəaliyyəti həm bölgədə sabitliyin möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət göstərir, həm də bizim iqtisadi imkanlarımızı gücləndirir. Bu gün biz artıq Şərq-Qərb enerji dəhlizinin uğurlu fəaliyyətini müşahidə edirik. Onun əsasında da bizim təşəbbüslərimiz dayanır. Hər kəs bilir ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi çox mürəkkəb geosiyasi vəziyyətdə həyata keçirilmişdir. Uzun danışıqlardan, bəzi hallarda uzun mübahisələrdən və edilən təzyiqlərdən sonra bu, artıq reallıqdır və hər kəs bu reallıqla hesablaşmalıdır. Bu, sadəcə, bir enerji layihəsi, yaxud da ki, iqtisadi layihə deyildir. Bunun çox böyük mənası var. Bu, xalqlarımızı uzun illər bundan sonra üçün iqtisadi maraqlarla birləşdirir, bizim önəmimizi artırır. Artıq bölgədə Şərq-Qərb enerji dəhlizi və enerji təhlükəsizliyi məsələləri Türkiyə və Azərbaycanın iştirakı olmadan həll oluna bilməz.

Xəzər dənizinin təbii ehtiyatları dünya enerji bazarı üçün yeni mənbədir və bunun önəmi getdikcə artacaqdır. Bu mənbənin başında biz

dayanmışıq və əlbəttə ki, bunun gözəl nəticələrini biz ondan sonrakı layihələrdə də görürük. Biz "Şahdəniz" layihəsinin uğurla icra olunmasını birlikdə qeyd etmişik. Bu gün Azərbaycan qazı Türkiyə bazarına daxil olur. Bir neçə il bundan əvvəl Azərbaycan təbii qazın idxalı ilə məşğul idi. Bu gün biz bunu ixrac edirik və ilk növbədə, qardaş Türkiyəyə ixrac olunur. Əminəm ki, növbəti illərdə Azərbaycanda qaz ehtiyatlarının işlənilməsi nəticəsində biz buna daha da böyük həcmdə nail olacağıq. Biz öz siyasətimizlə, öz layihələrimizlə bir-birimizi gücləndiririk və belə də olmalıdır. Belə olan halda, bölgədə və dünyada bizim imkan dairəmiz daha da genişlənəcək, təsir imkanlarımız artacaqdır. O cümlədən, iqtisadi və enerji siyasətimizin uğurla aparılması ilə biz öz siyasi maraqlarımızı daha da dolğun şəkildə müdafiə edəcəyik. Bu gün biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə məşğuluq. Bu da tarixi bir layihədir ki, Türkiyə və Azərbaycan üzərindən Avropanı Asiya ilə birləşdirəcəkdir. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirəcəkdir. Bunun çox böyük tarixi və əlbəttə ki, iqtisadi və siyasi önəmi vardır. Bütün bu layihələr, deyə bilərəm ki, son illər ərzində tamamlandı. Mən xatırlayıram, dörd il bundan əvvəl, 2004-cü ildə bu kürsüdən Məclis qarşısında çıxış edərkən, bu layihələr barədə danışarkən onların uğurlu icrası haqqında fikirlər söyləmişdim. Ancaq o zaman nə Bakı-Tbilisi-Ceyhan, nə Bakı-Tbilisi-Ərzurum, nə də ki, Bakı-Tbilisi-Qars layihələri nə icra olunmuşdu, nə də ki, icrası başlanmışdı. Bu gün isə bunlar reallıqdır. Biz tarix baxımından qısa müddət ərzində, müştərək səylərlə, birgə iradə ilə dostluğumuzun, qardaşlığımızın möhkəmlənməsi ilə bunu bacardıq. Mən heç şübhə etmirəm ki, bundan sonra qarşıda duran bütün məsələlər eyni uğurla həll olunacaqdır".

Dövlət başçısı Türkiyə-Azərbaycan birliyinin bölgədə sabitləşdirici amil olduğunu da diqqətə çatdırır və bildirir: "... biz çox həssas bölgədə yaşayırıq və bizim siyasətimizdən geniş mənada bölgənin gələcək taleyi, sabitliyi asılıdır".

Azərbaycan Prezidenti haqlı olaraq Cənubi Qafqazda sülhün çox həssas olduğunu, əslində, bölgədə hələ sülhün bərqərar olmadığını bildirir. "Nə sülh, nə müharibə" vəziyyəti həqiqətən uzun sürə bilməz. Lakin nə etməli?! Cənubi Qafqazın lider dövləti olaraq, Azərbaycan öz mövqeyini ortaya qoymuş və problemlərin sülh yolu ilə həlli üçün kifayət qədər səbir və təmkin göstərmişdir.Türkiyənin Orta Şərq və Qafqaz regionunda sülhün, mehriban qonşuluğun və əmin-amanlığın bərpasına yönəlmiş diplomatiksiyasi səyləri diqqətlə izlənilir. Qafqazda sabitliyin təmin olunması məqsədilə rəsmi Ankaranın xüsusi təkliflər paketi hazırlaması bu cəhətdən ümidləri xeyli artırmışdır. Lakin reallıq bundan ibarətdir ki, Ermənistan ümumbəşəri dəyərlərin, eləcə də sülh, demokratiya, sabitlik və

regional əməkdaşlıq prinsiplərinin, beynəlxalq hüquq normalarının tam ziddinə olaraq Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, həmin ərazilərdə etnik təmizləmə aparmış, tarixi və mədəni abidələri məhv etməklə regionun simasını dəyişmişdir. Ermənistan Qarabağda qeyri-qanuni məskunlaşdırma prosesini həyata keçirmiş, ərazinin təbii sərvətlərini istismar etmiş və beynəlxalq nəzarətdən kənarda qalan regionda transmilli cinayətkarlıqlar üçün şərait yaratmışdır. Türkiyə məhz bu səbəblərdən Ermənistanla diplomatik əlaqələr yaratmamış və sərhədlərin açılmasına hər hansı şəkildə razılıq verməmişdir. Lakin son illər, xüsusilə də 2009-cu ilin əvvəlindən başlayaraq, Türkiyə ilə Ermənistan arasında İsveçrənin vasitəçiliyi ilə sərhədlərin açılması ilə bağlı gedən danışıqlara ABŞ Prezidenti Barak Obamanın Türkiyəyə səfəri zamanı verdiyi dəstək Azərbaycan tərəfdən birmənalı qarşılanmadı və Ermənistana açıqaşkar dəstək kimi qəbul edildi. Beləliklə, Türkiyə hökumətinin Ermənistanla sərhədləri açacağı ilə bağlı kütləvi informasiya vasitələrində aramsız olaraq məlumatların yayılması Azərbaycanda haqlı narahatlıq doğurmaya bilməzdi. Ancaq "bir millət, iki dövlət" arasında belə anlaşılmazlıqların uzun sürməyəcəyi şübhəsiz idi. Artıq 2009-cu ilin may ayının əvvəllərində Prezident Abdulla Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğan səviyyəsində məsələyə aydınlıq gətirən açıqlamalar gündəmə gəldi. Açıqlamaların mahiyyəti son dövrlərə qədər olan mövqe ilə eyni idi: "Azərbaycanın işğal altında olan torpaqları azad olunmayana, Ermənistanın işğalçı qüvvələri bu ərazilərdən çıxmayana qədər sərhədlərin açılması danışıqlar mövzusu ola bilməz".

Etiraf etmək lazımdır ki, bu dövrdə Azərbaycanın dövlət başçısı siyasi müdriklik, qətiyyət və çevik diplomatik mövqe nümayiş etdirdi. Nəhayət, münasibətlərə gərginlik gətirən proseslər onunla nəticələndi ki, 2009-cu il mayın 14-də Azərbaycana səfərə gələn Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mətbuat nümayəndələri üçün verdiyi bəyanatda bildirdi: "Dağlıq Qarabağ işğal edildiyi üçün Türkiyə sərhədləri bağlamışdır. İşğala son qoyulmayınca bilavasitə sərhədlərin açılması da mümkün deyildir. Bunu çox açıq şəkildə bir çox yerdə ifadə etdiyim kimi, bu gün Bakıda da bunu ifadə edirəm". Prezident İlham Əliyev də öz növbəsində jurnalistlərin sualına cavabında bəyan etmişdir: "...Heç kim üçün sirr deyil, son aylar ərzində Azərbaycan cəmiyyətində müəyyən mənada bir narahatlıq hissləri var idi. O hisslərin, yəqin ki, müəyyən təbii səbəbləri də var idi. Ancaq ən önəmlisi odur ki, hesab edirəm və bu gün mən üzümü Azərbaycan xalqına tutub demək istəyirəm ki, heç bir şübhə üçün, möhtəkirlik üçün yer qalmadı. Türkiyə hökumətinin başçısı, Türkiyə Prezidenti dəfələrlə bu məsələyə aydınlıq gətirmişlər və bu gün də dəyərli qardaşım cənab Baş nazirin sözləri, bir daha demək istəyirəm ki, bunun ən gözəl cavabıdır".

İran – yaxın qonşu, dost ölkə

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1991-ci il dekabrın 25-də onun müstəqilliyini tanıyan ilk ölkələrdən biridə İran İslam Respublikası olmuşdur. 1992-ci il martın 12-də isə Azərbaycan ilə İran arasında diplomatik münasibətlər yaradılmışdır. Azərbaycanla İran arasındakı münasibətlər dərin tarixi köklərə malikdir. Ulu öndər Heydər Əliyev bununla bağlı qeyd edirdi: "Bizim xalqlarımız əsrlər boyu birgə yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir. Biz hamımız, yəni İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlarıq. İslam aləminin dəyərləri bizim üçün əzizdir, möhtərəmdir. Biz bu dəyərləri öz həyatımızda bundan sonra da bərqərar edəcəyik. Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının çox böyük sərhədi var. Bunları nəzərə alaraq Azərbaycan İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il iyunun 29-dan iyulun 2-dək Tehrana səfəri İran ilə əlaqələrin genişləndirilməsi sahəsində böyük əhəmiyyətə malik olmuşdur. Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən biri kimi qiymətləndirilən və müstəqil dövlətimiz üçün tarixi əhəmiyyət kəsb edən bu səfər iki ölkə arasındakı münasibətlərdə əvvəlki illərdə yol verilmiş soyuqluğun aradan qaldırılması, münasibətlərin normal inkişaf etdirilməsi və Azərbaycanın İranla əlaqələrinin dərinləşməsi üçün zəmin yaradılmasında əsaslı rol oynadı. Səfər zamanı iki ölkə arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət bəyanat imzalandı. Bəyanat ölkələrimiz arasında daha sıx əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirdi.

Azərbaycan qonşu İran dövləti ilə xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır. Son illərdə Prezident İlham Əliyevin İrana rəsmi səfəri, İran prezidentlərinin Azərbaycana səfərləri ikitərəfli əməkdaşlığın sürətli inkişafına təkan vermiş, keçirilmiş səmərəli görüşlərdə dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri və əlaqələrin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişafına, əmtəə dövriyyəsinin həcminin ildən-ilə artmasına gətirib çıxarmışdır. İran Azərbaycanın ixrac-idxal əməliyyatları

apardığı əsas dövlətlərdən biridir. İranlı sərmayədarlar ölkəmizin infrastrukturuna, kənd təsərrüfatına, emal sənayesinə, energetika sektoruna və digər sahələrə investisiya qoyurlar. Qarşılıqlı əlaqələrə yeni, güclü təkan verə biləcək bir sıra inkişaf layihələri artıq gündəlikdədir. Söhbət, ilk növbədə, Azərbaycandan keçən Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasından gedir. Ölkəmizin qovşaq rolu oynayacağı bu böyük layihəni reallaşdırmaq üçün Azərbaycan, İran və Rusiya arasında müvafiq razılaşmalar əldə edilmişdir. Mərkəzi və Şimali Avropanı Cənubi Asiya ilə birləşdirəcək dəmir-yol xəttinin, eləcə də beynəlxalq əhəmiyyətli avtomobil yolunun işə salınması Azərbaycan-İran əməkdaşlığının genişləndirilməsinə və dərinləşdirilməsinə şərait yaradacaqdır. İki ölkə arasında elektrik enerjisi mübadiləsinin nizama salınması, eləcə də İrandan Naxçıvana qaz kəmərinin çəkilməsi ikitərəfli əlaqələrin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfədir.

Nəticə əvəzi

Azərbaycan Şərqlə Qərbi birləşdirən, Avrasiya məkanında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə kömək edən yeni kommunikasiyaların, nəqliyyat və enerji dəhlizlərinin üzərində qovşaq ölkə kimi regionda böyük nüfuz sahibinə çevrilmişdir. Azərbaycanın xarici siyasət strategiyası özünün prioritet istiqamətlərinin, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələrin ümummilli mənafelərə əsaslanan xətlə inkişaf etdirilməsini tələb edir. Ölkə başçısının son 6 ildə milli məqsədlərə çatmaq naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Uğurla aparılan xarici siyasət kursu nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Dünyanın nüfuzlu təşkilatları və dövlətləri ilə əməkdaşlığın getdikcə möhkəmlənməsi ölkəmizin beynəlxalq əlaqələrində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Avropa və Avratlantik məkana inteqrasiya Azərbaycanın yürütdüyü xarici siyasət xəttinin vacib istiqamətlərindən biri kimi bu gün uğurla davam etdirilir. Azərbaycan Avropa və Avratlantik birliyin dəyərlərini bölüşür, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Ölkəmizin Avropa dövlətləri və ABŞ-la əlaqələri artıq xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Bunu respublikamızın Qərbin enerji təhlükəsizliyinə verdiyi töhfə şərtləndirir. Bu işdə Qərb Azərbaycana böyük önəm verir. Bir tərəfdən, Qərbin ölkəmizə

maraq göstərməsi seçdiyimiz strateji xəttə – Avratlantik məkana inteqrasiyaya tam uyğundur. Digər tərəfdən, Azərbaycanın Qərbin enerji təhlükəsizliyinin təmin edilməsində iştirakı dövlətimizin regionda və dünyada çəkisini artırır və inteqrasiya prosesinin intensivləşməsinə təkan verir.

Azərbaycan islam aləminin tərkib hissəsi olaraq İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığı inkişaf etdirir, bu təşkilatın regional və qlobal məsələlərin həllində siyasi çəkisinin və nüfuzunun artırılmasına yardım göstərir. 2007-ci ildə İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının sədri kimi Azərbaycan İslam Konfransı Təşkilatının strukturlarının və funksiyalarının daha da gücləndirilməsi və Avropa təşkilatları ilə əməkdaşlıq mexanizmlərinin yaradılması istiqamətində səylər göstərmişdir. Şərq ilə Qərbin, xristian dünyası ilə islam aləminin qovuşuğunda yerləşərək nadir coğrafi mövqeyi, tolerantlığı, sülh ənənələri və etnik rəngarəngliyi ilə Azərbaycanın mədəniyyətlər və sivilizasiyalar arasında təbii körpüyə çevrilməsi zamanın tələbidir. Elə buna sübut kimi İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Tripolidə keçirilmiş beşinci konfransının nəticələrinə görə, Bakı 2009-cu ildə "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdur. Azərbaycanın xarici siyasət kursunda beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə böyük diqqət yetirilir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur.

Azərbaycan xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərəçarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Hazırda Azərbaycan 163 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana Konvensiyasının iştirakçısı olan ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır. Azərbaycanda 93 xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Bunların 42-si bilavasitə Bakıda, 51-i isə həmin dövlətlərin Türkiyə, Rusiya, İran, Gürcüstan və Özbəkistandakı səfirliklərində akkreditə olunmuşdur. Öz növbəsində Azərbaycanın xarici ölkələrdə 64 diplomatik nümayəndəliyi – səfirlik, beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlik və baş konsulluq fəaliyyət göstərir. Bunun 51-i səfirlik, 6-sı baş konsulluq, 7-si nümayəndəlikdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi indiyə qədər həllini tapmaması bütövlükdə regionda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhlükə mənbəyi kimi çıxış edir. Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan

təcavüzkar Ermənistanın müxtəlif səviyyələrdə ifşası, erməni lobbisinin respublikamıza qarşı apardığı bədnam təbliğata qarşı effektiv əks-hücumun təşkili ölkəmizin xarici siyasətində prioritet məsələlərdəndir. Beynəlxalq hüquq normaları, o cümlədən bir sıra mötəbər təşkilatların münaqişə ilə bağlı prinsipial mövqeyi Ermənistanın cəfəng iddialarının həm hüquqi, həm də siyasi baxımdan əsassızlığını tamamilə sübuta yetirir. Nəticədə, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməyən təcavüzkar dövlət olması faktı bir çox dünya dövlətləri tərəfindən etiraf edilmişdir. Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı müzakirə mövzusu ola bilməz: "Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları– məcburi köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da kənara çıxmayacağıq".

Bu baxımdan, 2008-ci il noyabrın 2-də Moskvada üç dövlətin – Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin imzaladıqları Bəyannamə xüsusi qeyd edilməlidir. Sənəddə Cənubi Qafqazda vəziyyətin sağlamlaşdırılması, regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin bu çərçivədə qəbul edilmiş qərar və sənədlər əsasında siyasi yolla həllinə şərait yaratmaq səyləri öz əksini tapmışdır. Bu sənəd indiyə qədər aparılan danışıqların mahiyyətini və məqamlarını özündə əks etdirir. Münaqişənin həlli ilə əlaqədar bu vaxta qədər verilən şifahi bəyanatlardan sonra imzalanan bu sənəd böyük əhəmiyyət kəsb edir. Bəyannamənin ən yüksək səviyyədə imzalanması münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində irəliyə doğru atılan addımdır. Bu bəyannamə ilə bağlı beynəlxalq ekspertlərin rəylərində də bildirilir ki, Moskva Bəyannaməsi Azərbaycan Prezidenti İlham Əliyevin münaqişənin nizamlanması istiqamətində dəfələrlə səsləndirdiyi fikirlərin bir növ müdafiəsi idi. Moskva Bəyannaməsi, əsasən, bu fikirləri özündə təcəssüm edirdi. Ermənistan prezidentinin bu bəyannaməni imzalaması Azərbaycan diplomatiyasının uğurlarından xəbər verir.

Azərbaycan Prezidentinin yeritdiyi uğurlu xarici siyasətin nəticəsi olaraq Avropa Şurası Parlament Assambleyasının 2005-ci il 1416 saylı qətnaməsində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi göstərilmiş-

dir. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasının vacibliyi xüsusi vurğulanmışdır. BMT Baş Məclisi 59, 60 və 62-ci sessiyalarında Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə dair məsələni müzakirəyə çıxarmışdır. Baş Məclis təqdim olunmuş faktlara istinadən Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılmasını, həmin ərazilərdə kütləvi yanğınların törədilməsini, insanların sağlamlığına və həyatına təhlükə yaratmasını pisləyən qətnamələr qəbul etmişdir. Həmin qətnamələrdə öz ata-baba torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdyuvalarına qayıtmaq hüququ bir daha təsdiqlənmişdir. Bu tələblər AŞ PA-nın 2005-ci il 1690 saylı tövsiyələrində də öz əksini tapmışdır. Bundan sonra, 2008-ci il martın 14-də BMT Baş Məclisi Azərbaycan tərəfindən irəli sürülmüş, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul etmişdir. Həmin sənədin Azərbaycan Respublikasının tərkibində olmaqla Dağlıq Qarabağda səmərəli fəaliyyət göstərə biləcək demokratik özünüidarəetmə sisteminin yaradılması məqsədilə bölgənin azərbaycanlı və erməni icmalarının təhlükəsiz və bərabər həyat şəraitinin təmin edilməsinin zəruriliyini qeyd edən bəndini xüsusilə vurğulamaq lazımdır. Bu, regionun gələcək statusu və onun bütün əhalisinin təhlükəsizliyi ilə bağlı zəmanətə dair ATƏT-in Lissabon prinsiplərinin şərtlərinə uyğundur. NATO-nun 2009-cu il aprelin 2-4-də Strasburq və Kehldə keçirilmiş sammiti də Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə etmiş, münaqişənin sözü gedən prinsiplər əsasında həllinin zəruriliyini qeyd etmişdir.2009-cu il iyulun 10-da ABŞ, Rusiya və Fransa prezidentləri "Böyük 8"-lərin İtaliyanın Akvila şəhərində keçirilən toplantısında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı birgə bəyanatla çıxış etmişlər. Prezidentlər həmsədrlərə, Azərbaycan və Ermənistan prezidentlərinə baza prinsiplərinə dair son təkliflərin əks olunduğu 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiya üzərində işləməyi tövsiyə etmişlər. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin başçıları əsas prinsiplərin razılaşdırılmasında Azərbaycan və Ermənistan prezidentlərinə dəstək verəcəklərini təsdiqləmişlər. Bu bəyanat "Böyük 8"-lərin problemin həllinə marağının artdığını göstərir. Münaqişənin həllinin hüquqi və siyasi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT

Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiq edir.

Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqdir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli və davamlı həllinin dəstəklənməsi üçün bütün səylərin səfərbər olunması məqsədi ilə öz tərəfdaşları, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı davam etdirir. Azərbaycan hakimiyyətinin məqsədi bütün zəbt edilmiş ərazilərin azad edilməsi, məcburi köçkün əhalinin öz doğma yurdlarına qaytarılması, Cənubi Qafqaz regionunda davamlı sülh və sabitliyin yaradılmasıdır. Son olaraq, məqsəd Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın hüdudları çərçivəsində statusunun müəyyənləşməsidir. Bu statusun müəyyən edilməsi yalnız sülh şəraitində, Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı icmasının birbaşa və bərabər iştirakı ilə, hüquqi və demokratik proses vasitəsilə mümkündür.

Lakin sülh prosesinin uğurla nəticələnməsi Ermənistan tərəfinin bu prosesə sadiqliyindən və konstruktiv yanaşmasından, həmçinin beynəlxalq birliyin, ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də Minsk qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin qətiyyətli mövqeyindən asılıdır.

Hazırda münaqişənin nizamlanması ilə bağlı danışıqlar yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev Rusiya Dövlət televiziya kanalının "Vesti v subbotu" verilişinin aparıcısına verdiyi müsahibədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini nəzərdə tutan məqamlar barəsində danışıb: "Mahiyyət etibarilə razılıq əldə edilmişdir ki, işğalçı Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasına başlanmalı, hazırda Dağlıq Qarabağda yaşayan vətəndaşların və işğal edilmiş ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıdacaq, milliyətcə azərbaycanlı olan vətəndaşların da təhlükəsizliyinə beynəlxalq zəmanət təmin edilməlidir. Biz hesab edirik ki, indiki halda siyasi zəmanətlər hərbi və ya hər hansı sülhməramlı zəmanətlərdən qat-qat sanballıdır". İşğal olunmuş ərazilərin statusu barədə söz açarkən Azərbaycan Prezidenti qeyd edib ki, hazırda qəbul olunan təkliflərdə status məsələsi yoxdur: "Dağlıq Qarabağın statusu məsələsinə gəldikdə isə bu, gələcəyin işidir. Bu gün bizim müzakirə etdiyimiz, qəbul etdiyimiz və razılaşdırdığımız təkliflərdə status məsələsi yoxdur. Əgər mövqelərin razılaşdırılması üçün bu mövzu yenidən ilkin şərt kimi irəli sürülərsə, biz heç nəyə nail olmayacağıq. Buna görə də real həyatda olanları başa düşmək

lazımdır. Əlbəttə, biz Dağlıq Qarabağın müstəqil dövlət kimi mövcud olmasını mümkün hesab etmirik və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Bizə belə gəlir ki, erməni tərəfi bunu başa düşür... Zənnimcə, əgər Ermənistan tərəfi siyasi iradə göstərsə və hər bir halda atmalı olduğu addımları atsa, işğal edilmiş bütün ərazilərdən çıxsa, azərbaycanlılar Şuşaya, Dağlıq Qarabağa qayıdandan sonra gələcəkdə biz, təbii ki, statusun müəyyən edilməsi məsələsini də müzakirə edəcəyik. Əlbəttə, Dağlıq Qarabağın müəyyən statusu olmalıdır. Biz bunu başa düşürük. Lakin bir daha deyirəm, biz həmin statusu suveren Azərbaycan dövlətindən kənarda təsəvvür etmirik".

Prezident İlham Əliyev bildirib ki, Minsk qrupu həmsədrlərinin təkliflərində də mövcud olan xronologiyaya əsasən sazişlər imzalandıqdan dərhal sonra birinci mərhələdə Ermənistan qoşunlarının beş rayondan çıxarılması nəzərdə tutulur: "Ermənistanla Dağlıq Qarabağ arasında yerləşən Kəlbəcər və Laçın rayonlarından erməni silahlı qüvvələrinin çıxarılmasını məhz həmin rayonların coğrafi şəraiti nəzərə alınmaqla, saziş qüvvəyə minəndən beş il sonra təmin etmək nəzərdə tutulur. Bizim fikrimizcə, bu, kompromis müddətdir və yəqin ki, həmin zonada daha artıq təhlükəsizlik tədbirləri təmin edilməlidir ki, hər iki tərəfin sülhsevər xarakterinə heç kəsin şübhəsi olmasın". Azərbaycanın xarici siyasət sahəsindəki uğurları ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir, xalqın öz Prezidentinə olan inamını, etimadını daha da artırır. ABŞ-da yerləşən və dünya üzrə insan resurslarını öyrənən, statistik araşdırma xidmətləri göstərən nüfuzlu "Gallup" təşkilatı 2009-cu il iyulun 31-də keçmiş sovet respublikaları üzrə yeni sorğusunun nəticələrini elan etmişdir. Sorğu hər ölkədə 1000 respondent arasında keçirilmişdir. "Siz ölkənizin rəhbərliyinin fəaliyyətindən razısınızmı" sualına Azərbaycanda respondentlərin 77 faizi müsbət cavab vermişdir. "Gallup"un sorğusunun nəticələrinə görə, Azərbaycan birinci yeri tutur. Bu, bir daha sübut edir ki, ölkəmizdə əhalinin böyük əksəriyyəti hakimiyyətin fəaliyyətini dəstəkləyir.

Azərbaycan dövlətinin xarici siyasət xətti dəyişməz və dönməz xarakter daşıyır. Milli maraqların müdafiəsi, dövlətin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, ölkənin dünya birliyinə, ilk növbədə, Avratlantik məkana inteqrasiyasının gücləndirilməsi, Ermənistanın hərbi təcavüzü ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, işğalın nəticələrinin aradan qaldırılması və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi naminə diplomatik səylər bu xəttin əsas istiqamətləri olaraq qalır. Ölkəmizin zəngin təbii resurslara, habelə əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də balanslaşdırılmış xarici siyasət yeritməsi onun beynəlxalq mövqelərinin

möhkəmlənməsinə yeni imkanlar açır. Bütün bunlar Azərbaycanın fəal diplomatiya yeridən, nüfuz və mövqelərini ildən-ilə gücləndirən, artan iqtisadi imkanlarını xarici siyasətin daha səmərəli təşkili məqsədinə yönəldən dövlət olduğunu bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 91-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda vurğuladığı kimi: "... Azərbaycan beynəlxalq mövqelərini yüksək dərəcədə möhkəmləndirə bilmişdir. Biz dünya birliyinə inteqrasiya edirik, eyni zamanda, öz siyasətimizi milli maraqlar üzərində qururuq, dərin tarixi və mədəni əsaslar üzərində qururuq. Azərbaycanın xarici siyasəti çox açıqdır, aydındır. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, ikitərəfli münasibətlərin inkişafında maraqlıyıq. Bu münasibətlər qarşılıqlı hörmət və qarşılıqlı maraq əsasında qurulubdur. Azərbaycan dünya birliyində etibarlı ölkə və tərəfdaş kimi tanınır. Son illərdə bizim dostlarımızın, müttəfiqlərimizin sayı böyük dərəcədə artmışdır".

"Azerbaijan Focus", Bakı, yanvar-mart 2010-cu il, s. 17-50

Heydər Əliyevin xarici siyasət kursu Azərbaycanın təhlükəsiz, davamlı və dinamik inkişafının qarantıdır

SSRİ-nin dağılması və sosializm sisteminin süqutu planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni paradiqma və imperativlərini formalaşdırdı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnir, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdusa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qızışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə gətirib çıxarırdı.

Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, qətiyyəti ən başlıcası-doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi və iradəsi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amilə çevrildi. Azərbaycan böyük fəlakətlərdən xilas oldu. Hər şeydən əvvəl əmin-amanlığın. qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması sahəsində tədbirlər görüldü. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox vacib işlər həyata keçirildi.

1993-cü ildən başlayaraq Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Azərbaycanın xarici siyasət kursunda ölkənin geosiyasi mövqeyi, tarixi gerçəkliklər, ictimai-siyasi, iqtisadi və mənəvi-psixoloji inkişafın xüsusiyyətləri, qarşıda duran yaxın və uzaq hədəflər, o cümlədən Ermənistanın davam edən təcavüzü və digər bu kimi amillər əsas götürülərək prioritet istiqamətləri müəyyən edildi. Dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da prezident seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında deyirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasət yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə

Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bund sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiya: açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir".

Xarici siyasətimizin vəzifələri, onun başlıca istiqamətləri, əsas prinsipləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri, özünəməxsusluğu Heydər Əliyevin sonrakı çıxışlarında, konkret tövsiyə və göstərişlərində, bilavasitə rəhbərliyi və iştirakı ilə dövlətimizin beynəlxalq aləmdə atdığı əməli addımlarda yaradıcılıqla inkişaf etdirilərək tez bir zamanda daha da təkmilləşdirildi. Hərtərəfli düşünülmüş elmi-nəzəri əsaslara malik bir proqrama çevrilərək Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul olunmuş Konstitusiyasında qanunvericilik yolu ilə təsbit edildi. Azərbaycan Konstitusiyasının dövlətimizin xarici siyasi fəaliyyətindən bəhs edən 7 və 10-cu maddələrində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır... Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur".

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev bütün amilləri nəzərə alaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi. Bu xarici siyasət kursu ilk növbədə bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmizin beynəlxalq imicinə zərbə vuran məqamları aradan qaldırmaq, haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamızın ətrafında informasiya blokadasını yarmaqdan

ibarət idi. Digər mühüm vəzifələrdən biri dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi azaltmaqdan, tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaqdan ibarət idi. Böyük dövlətlərlə sıx əlaqələr yaratmaq və onları getdikcə genişləndirmək, dünyada mövcud olan müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulmaq və orada fəal iştirak etmək, beləliklə də Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək də mühüm vəzifə kimi qarşıda dururdu. Nəhayət, daha bir vacib məsələ də ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq idi.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yönümündə Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin substansiyasını konfliktin beynəlxalq normalara uyğun və dünya ictimaiyyətinin dəstəyi ilə nizama salınması təşkil edir. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə diskriminasiyaya məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı təşkilatlarının ölkəmizə, onun zorla cəlb edildiyi silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in

54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri birmənalı şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həll edilməsi ilə bağlı Azərbaycanın diplomatik səyləri Ermənistanın mövqeyinin xeyli zəifləməsinə gətirib çıxarmışdır. Münaqişənin nizamlanması üçün ATƏT-in yaratdığı Minsk qrupu və həmin qrupun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın nümayəndələrinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı təkliflərinin ermənilər tərəfindən rədd edilməsi Ermənistanı qeyri-konstruktiv bir ölkə kimi tanıtmışdır. Azərbaycanın bu münaqişənin həlli yolu ilə bağlı beynəlxalq hüquqa əsaslanmış qəti mövqeyi vardır. Heç bir şübhə yoxdur ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll ediləcək. Ermənilər bunu istəsələr də, istəməsələr də, tez-gec bu belə olmalıdır. Zaman Azərbaycanın xeyrinə işləyir və erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qovulacağı gün uzaqda deyil.

Azərbaycanın xarici siyasəti çoxşaxəli istiqamətlərdə inkişaf edir, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulmasını, dünya birliyinə, Avropa təhlükəsizlik sistemi və NATO strukturlarına inteqrasiyasını nəzərdə tutur. Müstəqil Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları baxımından səmərəli, realist və praqmatik siyasət kursunu uğurla həyata keçirən Heydər Əliyev bütün ölkələrlə münasibətlərin qarşılıqlı surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında qurulmasına çalışırdı. Bu məqsədlə ötən illərdə Prezident Heydər Əliyev ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbistanı və başqa dövlətlərə dəfələrlə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Bu səfərlər zamanı ölkəmizin başçısının keçirdiyi yüksək səviyyəli görüşlər tarixi əhəmiyyət kəsb etmişdir. Ölkə başçısının islam ölkələrinə rəsmi və işgüzar səfərləri respublikamızın islam dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Asiya-Sakit okean regionu, Afrika və Latın Amerikası ölkələri ilə diplomatik münasibətlər yaradılması və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahəsində də səmərəli tədbirlər həyata keçirilmişdir. MDB ölkələri ilə əlaqələrin inkişafına xüsusi yer verilmiş, tarixi əlaqələrin yeni müstəvidə inkişafı üçün əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına həlledici təsir göstərmişdir.

Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri

onun tarazlaşdırılmış xarakter daşımasıdır. Ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə olunmasını zəruri edirdi.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq, Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət daşıyır. Məhz buna görə də Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUÖAM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və inkişaf Bankı, İslam inkişaf Bankı və digər təşkilatlarla fəal əməkdaşlıq edir. Azərbaycan müxtəlif kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır.

Ötən illər Azərbaycanın beynəlxalq strukturlarda fəaliyyəti baxımından da çox səmərəli olub. Təhlükəsizlik Şurasından sonra BMT strukturunda əhəmiyyətinə görə ikinci olan İqtisadi və Sosial Şuraya üzv seçilmiş Azərbaycan orada Şərqi Avropa ölkələrini təmsil edir. Eyni zamanda Azərbaycan NATO Parlament Assambleyasına assosiativ üzv qəbul olunmuşdur.

NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etmişdir.

Azərbaycanın NATO ilə əməkdaşlığı respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilməlidir. Əvvəla, Azərbaycan dövləti öz xarici siyasətində universal və regional beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda və dünya iqtisadi, siyasi və təhlükəsizlik sisteminə inteqrasiyada maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olması dünya birliyinin müstəqillik və təhlükəsizlik problemlərimizin həllinə daha fəal şəkildə cəlb edilməsini şərtləndirir. Bu üç faktor

Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmasında əsas rol oynamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında, işğal edilmiş torpaqlarımızın azad edilməsində, qaçqınların öz doğma yurdlarına dönməsində NATO kimi nüfuzlu beynəlxalq təşkilatın müstəsna rol oynaya biləcəyi inkaredilməzdir. Şimali Atlantika Bloku ilə münasibətlərin Azərbaycan dövləti üçün mühüm əhəmiyyəti bir də onunla ölçülür ki, respublikamız "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də quruma daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanmışdır.

Azərbaycanın müdafiə qabiliyyətinin yüksəldilməsi xarici təhlükələrin dəf olunmasında, o cümlədən Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınmasında həlledici amildir. Bu amilin mövcudluğu, şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması ehtimalını da artırır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu istiqamətdə ardıcıllıqla həyata keçirilən tədbirlərlə yanaşı, müxtəlif beynəlxalq təşkilatlarla və o cümlədən NATO strukturları ilə apardığımız əməkdaşlıq bizi məqsədimizə yaxınlaşmışdır.

Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşdu və burada öz layiqli yerini tutdu. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini aldı.

Xatırladaq ki, hələ 1996-cı ilin iyununda ölkəmiz Avropa Şurasının Parlament Assambleyasında xüsusi dəvətli qonaq statusu almışdı. 1996-cı il iyulun 13-də isə Azərbaycan rəhbərliyi tamhüquqlu üzv olmaq barədə Avropa Şurasına rəsmən müraciət etdi. Avropa Şurasının üzvü olan ölkələrin 1997-ci ilin oktyabrında Strasburqda keçirilən ikinci sammitində Heydər Əliyevin iştirakı ölkəmizin bu qurumla əməkdaşlığının tarixində yeni dövrün başlanğıcını qoydu. Əslində Azərbaycan Prezidentinin bu beynəlxalq qurumun zirvə görüşündə iştirakı ölkəmiz üçün tarixi bir hadisəyə çevrildi. Və nəticə etibarilə Azərbaycanın Avropa Şurasına inteqrasiyası yönümündə zəruri addımlar atıldı. Azərbaycan qanunvericiliyinin Avropa standartlarına unifikasiyası prosesi intensivləşdirildi. Venesiya komissiyası mütəxəssislərinin yaxından iştirakı ilə respublikamızın məhkəmə-hüquq

sistemində əsaslı islahatlar aparıldı. Heydər Əliyev Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir sıra mühüm fərman və sərəncamlar imzaladı. 1998-ci ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə bizim Azərbaycanda ölüm hökmü ləğv olundu.

Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində atılan addımlar Avropa Şurasının Siyasi və Hüquq komitələrində yüksək qiymətləndirildi və bunun nəticəsi olaraq, 2000-ci ilin iyununda Avropa Şurasının Parlament Assambleyası özünün növbəti sessiyasında Azərbaycan Respublikasının bu beynəlxalq quruma tamhüquqlu üzv qəbul olunması barədə yekdil qərar qəbul etdi. 2001-ci il yanvarın 17-də isə Avropa Şurasının Nazirlər Komitəsi Parlament Assambleyasının bu qərarını təsdiq etdi və beləliklə Azərbaycan Avropa ölkələri ailəsinə daxil oldu. Yanvarın 25-də Heydər Əliyev Strasburqda, Avropa Şurasının iqamətgahı qarşısında üçrəngli bayrağımızı qaldırdı.

Azərbaycanın dövlət başçısı üzvlüyə qəbul mərasimindəki çıxışında deyirdi: "Ölkəmizin Avropa Şurasına qəbul olunması müstəqil dövlətimiz üçün tarixi hadisədir. Azərbaycan Prezidenti kimi mən bütün xalqımızın iftixar hissini ifadə edirəm. Demokratik, hüquqi, dünyəvi Azərbaycan Avropa dəyərlərinə daim sadiq olacaqdır". O, dəfələrlə bəyan etmişdir ki, Avropa Şurasına daxil olmaq ölkəmizin son məqsədi deyil, Avropa Şurasına daxil olmaq Azərbaycanda gedən demokratikləşmə prosesini daha sürətlə irəlilətmək üçün bir imkandır. Artıq indi tam əminliklə demək olar ki, ölkəmiz ötən müddət ərzində həmin imkandan son dərəcə səmərəli istifadə etmişdir. Belə ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra insan hüquqları və əsas azadlıqlarının qorunması haqqında Avropa konvensiyasını imzalamış, Ekstradisiya üzrə Avropa konvensiyasına, Məhbusların dəyişdirilməsi haqqında konvensiyaya, Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına, İşgəncələrin və qeyri-insani rəftarın qadağan olunması haqqında Avropa konvensiyasına və Avropa Şurasının bir sıra mühüm konvensiyalarına qoşulmuş, ölkədə ombudsman təsisatı yaratmış, avropalı ekspertlərin müsbət rəyini almış Seçki Məcəlləsi hazırlamışdır. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Avropa ailəsinin tamhüquqlu üzvü kimi demokratiyanın layiqli davamçısı və yayıcısıdır.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə fəal iştirakıdır. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ay- rı ölkələrlə geniş əməkdaşlıq edir.

Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın ardıcıl, qətiyyətli mövqeyi və antiterror koalisiyasının etibarlı üzvü kimi tanınması

Azərbaycan-Amerika münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Bu amil və ümumiyyətlə, demokratik və iqtisadi islahatların aparılması, mühüm iqtisadi layihələrin həyata keçirilməsi Amerika ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmişdir. Amerikanın hərbi siyasətində bölgəmizə maraq xeyli artmışdır. Bilə ki, Xəzər dənizi hövzəsi 2002-ci ilin oktyabrından etibarən Birgə Döyüş Komandanlıq Planına əsasən, Birləşmiş Ştatların Avropadakı silahlı qüvvələri komandanlığının əhatə dairəsinə aid edilmişdir. Amerika hökuməti ilk dəfə olaraq, Azərbaycan və Ermənistanla hərbi əməkdaşlıq siyasətində tarazlığın saxlanılmasından imtina edərək ölkəmizlə hərbi-siyasi, təhlükəsizlik, hüquq-mühafizə sahələrində əməkdaşlığı sürətlə genişləndirmişdir. Hərbi nazirliklərimiz arasında imzalanmış birgə bəyanatda sülhməramlı bölmələr də daxil olmaqla, hər iki tərəfin hərbi qüvvələri arasında əlaqələndirmənin, hərbi dəniz qüvvələrimizin imkanlarının genişləndirilməsi, Azərbaycanın təyyarə meydanlarının və hava məkanının idarə olunmasına nəzarət sistemlərinin NATO standartlarına uyğunlaşdırılması barədə razılıq əldə edilmişdir. Respublikamız 2002-ci il ərzində ABŞ-ın təklifi ilə təhlükəsizlik və müdafiə sahələrini əhatə edən 11 proqrama qoşulmuşdur. Ümumi təhlükəsizlik və müdafiə proqramı çərçivəsində ABŞ tərəfindən Azərbaycana ayrılmış maliyyə vəsaiti 2001-ci ilə nisbətən 2002-ci ildə təxminən dörd dəfə artmışdır. Ötən ildə dövlət sərhədlərimizin təhlükəsizliyinə ayrılmış vəsait hesabına dəniz sərhədlərimizin mühafizəsi üçün 6 gəmi təmir edilmiş, 2 nəzarət kateri alınmışdır. Sülhməramlı qüvvələrimizin imkanlarını genişləndirmək məqsədilə ABŞ Dövlət Departamenti ölkəmizə 1 milyon dollar əlavə vəsait ayırmışdır.

Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan vasitəsilə Qərbə nəql edilməsi yönümündə dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan məlum 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında prezident Corc Buş və dövlət katibi Kolen Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Senator S. Braunbək isə adı çəkilən düzəlişin qüvvəsinin dayandırılması üçün prezident Corc Buşa səlahiyyət verilməsi təklifi ilə Konqres qarşısında məsələ qaldırdı. 2001-ci ilin oktyabrında Senat 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün Corc Buşa səlahiyyət verdi. Senatın qəbul etdiyi həmin qərar Konqresin hər iki palatasının nümayəndələrindən ibarət razılaşdırıcı komitənin müsbət rəyini aldıqdan sonra ötən ilin yanvarında prezident Corc Buş tərəfindən

imzalandı.

Ötən ilin iyununda ABŞ prezidenti Corc Buş Heydər Əliyevə ünvanladığı məktubunda yazırdı: "Mən ABŞ şirkətlərinin Azərbaycanın enerji sektorunun inkişafında və hərtərəfli iqtisadi artımında daha böyük iştirakına ümidlə baxıram. Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək qlobal enerji təhlükəsizliyini təmin etmək və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır". Məhz Birləşmiş Ştatlarla daha sıx əməkdaşlığımızın nəticəsində ikinci dəfə olaraq 907-ci düzəlişin qüvvəsinin dayandırılması müddəti uzadıldı. ABŞ prezidenti bu addımını ölkəsinin beynəlxalq terrorizmə qarşı mübarizəsinin dəstəklənməsi və Azərbaycan sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi ilə əsaslandırdı.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun ən mühüm, strateji tərkib hissələrindən birini Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin olunması təşkil edir. Bu baxımdan ötən onillik ərzində ciddi nailiyyətlər qazanılmışdır. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır.

Əlbəttə, neft müqavilələrinin əhəmiyyətini yalnız iqtisadi kateqoriyalarla müəyyənləşdirmək düzgün sayıla bilməz. İmzalanmış sazişlərin siyasi dəyəri heç də az əhəmiyyət daşımır. Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyi və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirir. Qərb dövlətlərinin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri ilə müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla böyük dövlətləri mənafelərinin kəsişdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvət bir bölgədə aparıcı dövlətlərin iqtisadi maraqlarının təmsil olunmasına şərait yaratmaq, Azərbaycana qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb dövlətləri amilindən istifadə etməyə imkan verir. Nüfuzlu dövlətlərin regionda siyasi təsir vasitələrinin güclənməsi Azərbaycan dövlətinin də manevretmə dairəsini genişləndirir.

Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən

ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Transqafqaz yolunun fəaliyyətə başlaması iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Orta Asiya dövlətlərinin siyasi mövqelərinin yaxınlaşmasına və beləliklə, Azərbaycanın regional təhlükəsizliyinin möhkəmlənməsinə əlverişli şərait yaratmışdır.

Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi region dövlətləri arasında iqtisadi inkişaf tempinin disproporsional şəkildə gedəcəyini göstərir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası Azərbaycanın iqtisadi baxımdan inkişafına öz müsbət töhfələrini verməkdədir və Ermənistanın qlobal iqtisadi layihələrdən kənarda qalması fonunda Azərbaycanın sürətlə irəli çıxması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə də öz müsbət təsirini göstərəcək. Bir neçə il bundan əvvəl ABŞ politoloqu Zbiqnev Bzejinskinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin Cənubi Qafqazda münaqişələrin həlli prosesində əsaslı rol oynayacağını qeyd etdiyini xatırlatmaq yerinə düşər. Belə olan təqdirdə Xəzərin karbohidrogen ehtiyatları kimi ciddi iqtisadi resurslara və Şərq-Qərb enerji dəhlizinin yaradılmasında son dərəcə əhəmiyyətli strateji mövqeyə malik olan Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində bu üstünlüklərdən istifadə etmək imkanı daha çoxdur.

Neft strategiyasının uğurla həyata keçirilməsi beynəlxalq aləmdə Azərbaycan haqqında ictimai rəyin formalaşmasına xidmət edən bir vasitə kimi respublikamıza dair gerçək məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar açmışdır. Neft müqavilələrinin mahiyyəti və həyata keçirilməsi ilə bağlı müxtəlif məsələlərin müntəzəm olaraq dünya dövlətlərinin rəsmi dairələrində, kütləvi informasiya vasitələrində müzakirə edilməsi Azərbaycan haqqında ictimai-siyasi və iqtisadi xarakterli məlumatların beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmasında mühüm rol oynamışdır.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı Şərq-Qərb, Şimal-Cənub kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsinə səbəb olmuşdur.

Tarixi İpək Yolunun bərpası ilə bağlı ilk beynəlxalq konfrans cənab Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilmişdir. 1998-ci ilin Bakı beynəlxalq konfransında 32 ölkənin və 15 beynəlxalq təşkilatın yüksək nümayəndəliyinin, o cümlədən 7 ölkənin prezidentinin təmsil olunması bu tədbirin xüsusi statusunu göstərməklə bərabər, Avropa ilə Asiyanı

birləşdirəcək kommunikasiya sisteminin yaradılmasında Azərbaycana böyük önəm verildiyini də təsdiqləyir.

"Əsrin müqaviləsi", "İpək Yolu" və digər nəhəng layihələrin həyata keçirilməsi Azərbaycanın xarici siyasətinin uğurlarıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri layihələri, onların həyata keçirilməsi üçün görülən işlər bu siyasətin tərkib hissəsidir.

Təqribən 10 il bundan əvvəl sadəcə əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri layihəsinin reallığa çevrilməsi heç də asan başa gəlməyib. 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul sammiti zamanı Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşa olunması haqqında saziş imzaladılar. İmzalanma mərasimində ABŞ prezidenti B. Klintonun iştirak etməsi və bu sazişi dəstəkləməsi onu göstərdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə region ölkələrinin deyil, həm də Qərb dövlətlərinin dəstəklədiyi mühüm beynəlxalq layihədir.

Ötən müddətdə saziş əleyhdarlarının cidd-cəhdlərinə baxmayaraq, layihəyə dair bütün detalları aydınlaşdırmaq, onun iqtisadi və kommersiya baxımından əhəmiyyətini tam dəqiqləşdirmək üçün lazımi tədbirlər həyata keçirildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinə aid mühəndis işləri görüldü. Kəmərin rentabelliyini dəqiqləşdirmək üçün "Azəri", Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsində əlavə tədqiqat və qiymətləndirmə işləri aparıldı.

2002-ci il sentyabr ayının 18-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bu bir daha sübut etdi ki, Bakı-Tbilisi-Ceyhan layihəsi dövrümüzün reallığıdır.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının açılması ölkəmizin yaxın illərdə potensial qaz ixracatçısına çevrilməsinə yaxşı imkanlar yaradıb. Artıq "Şahdəniz" qazının Türkiyəyə, oradan isə dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi gündəlikdədir. "Azəri", "Çıraq", "Günəşli" neft və "Şahdəniz" qaz-kondensat yataqları Şərq-Qərb enerji dəhlizinin formalaşdırılmasının əsasını qoyub.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin iqtisadi cəhətdən səmərəliliyi heç kimdə şübhə doğurmur. Hətta bu layihənin rentabelli olması üçün zəruri miqdarda ixrac qazının tapılmayacağını iddia edənlər də indi susmağa məcbur olublar. Çünki ilkin qiymətləndirmələrə görə, Xəzərin Azərbaycan sektorunda 5 trilyon kubmetrdən artıq qaz ehtiyatı var. Bu ilin fevral ayında Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak edən Heydər Əliyev demişdir: "...4

milyard ton neft və 5 trilyon kubmetr qaz. Bunlar ancaq Azərbaycan sektorundadır. Deməli, bu 50-100 ilə qədər işlənilməsi mümkün olan bir sahədir. Ona görə də bu həm Azərbaycan üçün, onun iqtisadiyyatını, inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün, həm də bizimlə əməkdaşlıq edən Qərb ölkələri, şirkətləri üçün çox böyük mənfəət, fayda gətirəcəkdir".

Avrasiya nəqliyyat dəhlizinin ən mühüm qollarından sayılan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin reallaşması Heydər Əliyevin təkcə z xalqı qarşısında deyil, həm də beynəlxalq miqyasda ən böyük xidmətlərindən biridir. Artıq regionda, eləcə də Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində marağı olan ölkələrdə bu amil məhz belə qiymətləndirilir. Təsadüfi deyildir ki, ABŞ Dövlət Departamentinin Xəzərin enerji diplomatiyası üzrə müşaviri Stiven Mən regionun çox mühüm enerji layihələrinin məhz Heydər Əliyevin uzaqgörənliyi və liderliyi sayəsində uğur qazandığını söyləmiş, Birləşmiş Ştatların sabiq prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Brent Skoukroft ölkənin zəngin neft sərvətlərinin xalqın rifahına müvəffəqiyyətlə yönəldildiyini bildirmişdir.

Heydər Əliyevin neft diplomatiyasının başlıca istiqamətlərindən biri, məlum olduğu kimi, Xəzər dənizinin hüquqi statusu məsələsidir. Ümumiyyətlə, indiyədək Xəzər dənizi dövlətlər arasında nüfuz bölgüsü məsələsi olmuşdur. Hələ XIX əsrdə Rusiya-İran müharibələri nəticəsində Rusiya bütün Xəzəryanı dövlətləri işğal etdiyi üçün Xəzər iki dövlət arasında şərti olaraq iki hissəyə bölünmüşdü və hər bir hissə müvafiq dövlətin ərazisinə daxil edilmişdi. Başqa sözlə desək, Xəzər məhz göl kimi qəbul olunmuşdu. Sonradan - 1921-ci ilin fevralında və 1940-cı ilin martında SSRİ ilə İran arasında ticarət və dənizçilik haqqında müqavilə imzalandı; İranla olan su sərhədi və bu dövlətin Xəzərdə hərbi donanma saxlamaq hüququnun olması rəsmi formada təsdiq edildi. Bu müqavilələrdən əlavə müxtəlif illərdə Xəzər barədə bir neçə Sovet-İran sənədləri imzalandı ki, bunlar da ticarət, gəmiçilik və əməkdaşlıq məsələlərini əhatə edirdi. Sovet ittifaqı dağıldıqdan sonra Rusiya və yeni Xəzəryanı dövlətlər - Azərbaycan, Qazaxıstan, Türkmənistan keçmiş SSRİ-nin daxili su sərhədləri statusuna və ümumiyyətlə, mövcud praktikaya uyğun olaraq, Xəzərin öz sektorlarına aid olan hissələrinə nəzarət etməyə başladılar.

Ümumiyyətlə, postsovet məkanında cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər Xəzəryanı regionda beynəlxalq münasibətlərə təsirsiz qalmamışdır. Əvvəllər Xəzərə münasibətdə israrlı mövqe nümayiş etdirən Rusiya anlaşma istiqamətində qəti addım atmışdır. Qazaxıstan Xəzərin statusu probleminə yanaşmada Rusiyanın müttəfiqinə çevrilmişdir. 1998-ci ilin iyu-

lunda Rusiya ilə Qazaxıstan arasında Xəzərin şimal hissəsində dənizin dibinin bölünməsi haqqında saziş imzalanmışdır. Bu sənəd imzalandıqdan sonra Rusiya Xəzərin milli sektorlara bölünməsini, yəni sututarın delimitasiyasının sektoral prinsipini tamamilə tanıdı. Bu isə ilkin mövqelərin xeyli yumşalmasına gətirib çıxardı.

Rusiya və Qazaxıstanın qərarını Azərbaycan müsbət qarşıladı. Çünki Azərbaycan Xəzərin təkcə dibinin yox, həm də su qatının və səthinin bölünməsinin zəruriliyi mövqeyindən çıxış edir. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi diplomatiya və beynəlxalq münasibətlər tarixində analoqu olmayan bir hadisədir. Düşünürük ki, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi prosesində Xəzəryanı dövlətlərin 1994-cü ildən sonra başlamış çoxtərəfli əməkdaşlığı indiyədək formalaşmış praktika və dövlətlərin razılaşdırılmış siyasi iradəsi mühüm rol oynayacaqdır.

Göründüyü kimi, Heydər Əliyevin həyata keçirdiyi tarazlaşdırılmış, Azərbaycanın strateji maraqlarının müdafiəsinə yönəldilmiş realist və praqmatik xarici siyasət kursunun məntiqi yekunu olaraq ölkəmiz bu gün Avrasiyanın mühüm geopolitik mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması və Avrasiya dəhlizinin gerçəkləşməsi xeyli dərəcədə Azərbaycanın qətiyyətli mövqeyindən asılıdır. Geosiyasi baxımdan Azərbaycan, regionda xüsusi yer tutur və bu, ona qlobal qüvvələr - geopolitik vektorlar arasında mühüm tarazlaşdırıcı rol oynamağa imkan verir.

Heydər Əliyevin 2001-ci ilin sentyabr hadisələrinə dərhal reaksiya verərək beynəlxalq antiterror koalisiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarına kömək etməyə hazır olduğu barədə bəyanatı Qərbdə yüksək qiymətləndirilmiş və ölkəmizin beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini Elizabet Cons hələ bir il bundan əvvəl Bakıda olarkən Heydər Əliyevə bu ölkənin antiterror kampaniyasına verdiyi səmərəli dəstəyə görə Ağ Evin minnətdarlığını çatdırmışdı. Bundan əlavə, ABŞ prezidenti Corc Buş Heydər Əliyevə xüsusi məktubunda Azərbaycanın beynəlxalq terrorizmə qarşı tutduğu qətiyyətli mövqeyə görə təşəkkürünü ifadə etmişdir: "Bir daha istərdim ki, Sizə yazıb Amerika xalqı adından şəxsən Sizə və hökumətinizə bu günədək qlobal terrorizmə qarşı müharibədə göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirim. Biz bu günlər bizimlə bir cərgədə dayananları unutmarıq".

Hazırda Azərbaycan-ABŞ münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. 907-ci düzəlişin qüvvəsinin iki ildir ki, dayandırılması iki dövlət arasında münasibətlərə yeni nüanslar gətirmişdir. Heydər Əliyevin bu ilin fevral ayında ABŞ-a səfəri Azərbaycan üçün müsbət nəticələr ver-

mişdir. ABŞ prezidenti Corc Buş Azərbaycanın dövlət başçısı ilə söhbətində bir daha bəyan etmişdir ki, Vaşinqtonun Xəzərin karbohidrogen ehtiyatlarının hasil edilməsi və Qərbə nəqli sahəsində həyata keçirdiyi siyasət dəyişməyəcək. Prezident Corc Buşun Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsində maraqlı olduqlarını və bundan sonra layihəni müdafiə edəcəklərini və lazımi kömək göstərəcəklərini qeyd etməsi Heydər Əliyevin uzaqgörən siyasətçi olduğunu bir daha təsdiqləmişdir. İndi Birləşmiş Ştatlarla müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə də tərəfdaşlıq həyata keçirilir ki, bu da daha təhlükəsiz və sabit dünya nizamı yaradılmasına yönəldilmişdir.

Azərbaycan nefti, gələcəkdə isə Qazaxıstan nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına daşınacaqdır. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi perspektivləri də ölkə iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyətə malikdir. Bu layihənin gerçəkləşməsi ilə Azərbaycan qazının Türkiyəyə və dünya bazarlarına göndərilməsi imkanı artacaqdır.

Beləliklə, Heydər Əliyevin 1994-cü ildə irəli sürdüyü neft strategiyası Azərbaycan üçün artıq real nəticələr verməkdədir. Bu gün tam yəqinliklə demək olar ki, neft kontraktları imzalandıqdan, neftin ixrac marşrutları, Xəzər dənizinin statusu məsələsinin bir sıra problemləri müəyyənləşdirildikdən sonra Azərbaycan ABŞ-ın strateji partnyoruna çevrilmişdir.

Ümumiyyətlə, müstəqilliyimiz dövründə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyası Ermənistanın bölgədə təkləmməsi ilə nəticələnib və iqtisadi amili Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə yönəltməklə Azərbaycan problemin sülh yolu ilə nizamlanmasında mühüm təzyiq vasitəsi əldə edib. Azərbaycanın neft siyasəti və diplomatiyası bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Bütün bunlar ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, dünyada onun dostlarının və həmfikirlərinin sayının artmasına və deməli, xarici siyasətimizin nüfuz dairəsinin genişlənməsinə səbəb olub. Azərbaycanın dünya siyasətindəki rolu nəzərəçarpacaq dərəcədə artıb.

"Respublika" qəzeti, 15, 19 dekabr 2003-cü il

Ümummilli lider Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir

Azərbaycanda son prezident seçkilərindən bir il ötür. 2003-cü il oktyabr ayının 15-də İlham Əliyev Azərbaycan seçicilərinin böyük əksəriyyətinin səslərini qazanaraq bütün rəqiblərinə qalib gəldi və ölkə prezidenti seçildi. Ümummilli lider Heydər Əliyev İlham Əliyevin xeyrinə öz namizədliyini geri götürərək prezident seçkiləri öncəsi onun sağlıq durumundan narahatlıq keçirən xalqına tarixi müraciətində deyirdi: "Üzümü sizə—həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu tarixi sözlər əslində bütün xalqın ürək sözü, bütün Azərbaycanın mövqeyi idi. Azərbaycan xalqı bu seçimi qəbul etməklə, öz müdrik liderinə sədaqətini nümayiş etdirdi və yekdilliklə Heydər Əliyevin siyasətinə səs verdi. Hakimiyyətin varisliyi ölkənin müstəqilliyi və xalqın daha yaxşı günlərə qovuşması üçün yeganə etibarlı təminat kimi ümumxalq etimadı ilə legitimləşdirildi. Azərbaycan bu seçimi ilə demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğunun yeni mərhələsinə qədəm qoydu. İlham Əliyevin ölkənin yeni prezidenti seçilməsi Azərbaycanda ictimai şüurun yetkinliyini, xalqın demokratiya və tərəqqiyə sadiqliyini, respublikamızın əldə olunmuş uğurları qorumaq və artırmaq əzmini bütün dünyaya göstərdi.

Seçkilərdə xalqın yüksək etimadını qazanan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü il oktyabrın 31-də dövlət başçısı kimi fəaliyyətə başlaması ilə əlaqədar andiçmə mərasimində ümummilli liderin ölməz əməllərini davam etdirməyi başlıca fəaliyyət prinsipi kimi irəli sürərək ölkənin milli inkişafı üçün son dərəcə önəmli olan problemlər üzərində dayandı, yeni şəraitdə həlli vacib olan məsələlərin aktuallığını vurğuladı.

Prezident ilham Əliyev andiçmə nitqində bir daha bəyan etdi ki, Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətirmişdir: "Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə

Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir. Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır".

Azərbaycan Prezidenti ölkəmizin gələcəyinə inandığını, onu gələcəyə aparmaq əzmində olduğunu bəyan etdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir".

Çox qısa bir müddətdə Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti bütün cəmiyyətin diqqətini cəlb etdi. İlham Əliyevin Prezident vəzifəsində fəaliyyəti Azərbaycanda on illik tarixə malik ictimai-siyasi sabitlik faktorunun qorunub saxlanılmasında ən etibarlı təminat oldu və bunu indi bütün dünya etiraf edir. O, yeni siyasi şəraitdə və yeni siyasi şərtlər daxilində Heydər Əliyev siyasi kursunun fundamental prinsiplərini həyata keçirmək iqtidarında olan və ölkənin gələcək təhlükələrdən sığortalanmasını təmin etməyə qadir yeni siyasi liderdir.

İlham Əliyev praqmatik siyasətçidir. Onun siyasi avantürizmdən, siyasi populizmdən uzaq olması, problemlərə milli və dövlətçilik maraqları çərçivəsində arqumentləşdirilmiş mövqedən və real situasiyadan yanaşması, mövcud real proseslərdən çıxış etməsi onun artıq kamil siyasi və dövlət xadimi kimi formalaşdığını bir daha təsdiq edir.

İlham Əliyev bir siyasi lider kimi öz məntiqi mülahizələri, güclü arqumentləri, natiqlik məharəti ilə ətrafındakıları, qarşısındakıları, bir sözlə, istənilən auditoriyanı inandırmağa və idarə etməyə qadirdir. O, siyasi lider üçün son dərəcə vacib olan başlıca xüsusiyyətlərə-öz hərəkətlərində prinsipial və qətiyyətli olmaq, siyasi mübarizədə çeviklik göstərərək üstünlüyü ələ almaq və digər bu kimi keyfiyyətlərə böyük ustalıqla yiyələnmişdir. O, həqiqətin sübuta yetirilməsi yollarını yaxşı bilir, məntiqi olduqca güclüdür, ən kəskin fikirləri belə incə, korrekt şəkildə qarşısındakına çatdırmaqda mahirdir. Həmçinin siyasi lider üçün son dərəcə zəruri olan xüsusiyyətlər-mürəkkəb situasiyalarda məsuliyyəti öz üzərinə götürmək bacarığı, özünün məntiqi və xarizması ilə ictimai rəyi formalaşdırmaq, lazımi məqamda iti

ağıl, dəmir iradə, tükənməz enerji nümayiş etdirmək bacarığı ilham Əliyevin şəxsində öz əksini tapmışdır.

Prezidentin siyasi baxışlarında iki başlıca xətt-liberalizm və islahatçılıq kimi demokratik dəyərlər paralellik təşkil edir. Siyasi dəyərləri qiymətləndirmə səviyyəsi onun liberal dünyagörüşlü siyasətçi olması gerçəkliyini üzə çıxaran amillərdəndir. Radikalizmə qarşı apatiyanın güclü olması fonunda sivil, hüquqi dövlət quruculuğu, inkişaf etmiş bazar iqtisadiyyatı, demokratik prinsiplərin önə çəkilməsi İlham Əliyevin liberal dəyərlərə üstünlük verən xarakterini ortaya qoyur. Cəmiyyətdə demokratik prinsiplərin geniş yayılmasının tərəfdarı kimi çıxış edən İlham Əliyevin insanların siyasi və iqtisadi azadlığını irəli sürməsi onun müasir siyasətçi olduğunu göstərən parametrlərdəndir. İlham Əliyevin "Biz indi əldə etdiyimiz nailiyyətləri iqtisadiyyatda, siyasətdə, xarici siyasətdə davam etdirsək, o zaman Azərbaycan xalqı üçün "dəmir əl" lazım olmayacaq" fikri onun dövlət idarəetməsində sərt metodların əleyhinə olduğunu və tənzimləyici prinsiplərə üstünlük verdiyini təsdiqləyir. Bu fikir həm də cəmiyyətdə radikal meyllərə qarşı mübarizə əzminin güclü olması zəminində liberal əhval-ruhiyyəli yeni siyasi nəslin meydana çıxdığını göstərir. İlham Əliyevin azad sahibkarlar ordusu yaratmaqla şüurlardakı tabeçilik stereotiplərini məhv etməyin mümkünlüyü barədə söylədiyi fikir politoloji baxımdan olduqca maraqlıdır. Təhlillər də göstərir ki, "Azad sahibkar-azad cəmiyyət" ideyası gələcək hakimiyyət komandası əsas devizlərindən birinə çevriləcək. Bu baxımdan İlham Əliyev islahatçı mövqeyinin trayektoriyası "azad sahibkarlığı gücləndirməklə cəmiyyətin demokratikləşdirilməsini sürətləndirmək" siyasi formulu ilə şərtlənir.

Cəmiyyətdə belə bir rəy mövcuddur ki, İlham Əliyev Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, əbədi uğurlar qazandıran atasının— dahi dövlət və siyasət xadimi Heydər Əliyevin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçidir Onun siyasi və diplomatik fəaliyyətinin bəzi aspektləri də bu mülahizələrin üstündə israrla dayanmağa əsas verir. Amerika və Avropanın paytaxt şəhərlərinə Azərbaycan nümayəndə heyətinin rəhbəri və ölkə başçısı kimi bir sıra səfərləri, rəsmi və qeyri-rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, dövlət xadimlərinin diqqətini cəlb edən İlham Əliyev artıq müasir dünya siyasətinin danılmaz və perspektivli reallığıdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkənin xarici siyasət strategiyasını gücləndirmək yolunda fəaliyyəti, əsasən, bir neçə istiqaməti ilə diqqəti cəlb edir. Bunlardan birincisi şübhəsiz ki, Azərbaycanın ikitərəfli əlaqələridir. Prezident İlham Əliyev dövləti vəzifəsində ilk rəsmi səfərini Fransaya etmişdir. Ölkə başçısı bunun

səbəbini açıqlayarkən demişdir: "Fransa Minsk qrupunun həmsədridir. Biz onun fəaliyyətinin gücləndirilməsini istəyirik. Fransa dünyanın aparıcı dövlətidir və Azərbaycan bu ölkə ilə əməkdaşlığa böyük əhəmiyyət verir".

2004-cü ilin yanvar ayında cənab İlham Əliyevin Fransaya rəsmi səfəri zamanı aparılan müzakirələr və iki ölkə arasında iqtisadi, siyasi, hüquqi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması müstəqil Azərbaycan Respublikasının ötən illərdə gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı. Qocaman və inkişaf edən Avropanın mərkəzinə-Fransaya edilən bu səfəri siyasət adamları haqlı olaraq Azərbaycanın uğur qazanan, tarazlaşdırılmış xarici siyasət strategiyasının inamlı davamı kimi qiymətləndirirlər. Azərbaycan liderinin prezident Jak Şirakla Yelisey sarayında dostluq və yüksək əməkdaşlıq ruhunda apardığı danışıqlar, ölkə Senatında və digər mühüm görüşləri Paris səfərinə, Azərbaycan-Fransa əlaqələrinə əsaslı təkan verən əhəmiyyətli səfər statusu qazandırdı.

Bundan az sonra Prezident İlham Əliyevi rəsmi Moskva arzu olunan qonağı kimi qarşıladı. Rusiya prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti İlham Əliyev arasında yaranan şəxsi dostluq münasibətləri dünya siyasətçilərinin və media nümayəndələrinin diqqətindən yayınmadı. Dövlət başçımızın fevralın 5-də Rusiyaya ilk rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin daha da yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadı. Səfər müddətində ikitərəfli iqtisadi-ticarət əlaqələrinin daha da gücləndirilməsini, qarşılıqlı informasiya mübadiləsini, təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutan bir sıra mühüm sazişlərin, həmçinin Azərbaycan-Rusiya əlaqələrində mühüm əhəmiyyətə malik Moskva Bəyannaməsinin imzalanması, dünyanın iki qitəsində böyük nüfuzu olan bu ölkənin xarici və daxili siyasət strategiyasını müəyyənləşdirən dövlət və hökumət rəhbərləri ilə səmimi görüşləri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət kursunun böyük perspektivlərə hesablandığını aydın göstərdi. Təsadüfi deyil ki, hazırda Rusiya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından birinə çevrilmişdir. Son iki ildə bu ölkə ilə əmtəə dövriyyəsində böyük artım müşahidə olunur. Hökumətlərarası komissiya intensiv işləyir və müxtəlif iqtisadi layihələri həyata keçirir. İdxal-ixrac əməliyyatlarının səviyyəsinə görə Rusiya Azərbaycanla ticarət edən ölkələr arasında birinci yeri tutur.

Prezident İlham Əliyevin martın 1-2-də Qazaxıstan Respublikasına etdiyi dövlət səfəri siyasi analitiklər tərəfindən xüsusi əhəmiyyətə malik addım kimi qiymətləndirilir. Azərbaycan Prezidenti də səfər haqqında təəssüratlarını ifadə edərkən münasibətlərin inkişafında yeni mərhələnin başlandığını təsdiqləmişdir: "Əminəm ki, bu səfər və onun gedişində

imzalanmış sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni mərhələ olacaqdır". Həqiqətən də səfər zamanı qarşılıqlı maraq kəsb edən bir çox mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, strateji tərəfdaşlıq münasibətlərinin inkişafına istiqamətlənmiş mühüm tarixi sənədlər imzalanmışdır. Səfərin ən yaddaqalan məqamlarından biri ölkə prezidentlərinin təkbətək görüşü olmuş və burada aparılmış danışıqlar bir neçə istiqamətdə tərəflər arasında anlaşmanın mövcudluğunu göstərmişdir. Qazaxıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə edir və problemin yalnız sülh yolu ilə, eyni zamanda ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır. Bu fakt dövlət başçılarının birgə bəyannaməsində də öz əksini tapmışdır. Birgə bəyannamədə həmçinin tərəflərin qarşılıqlı münasibətlərinin bundan sonra da strateji tərəfdaşlıq prinsiplərinə uyğun formada inkişaf etdirilməsinə çalışacaqları bildirilir və bu da Azərbaycanın region dövlətləri ilə əlaqələrini daha da sıxlaşdırmaq siyasətinin məntiqi nəticəsidir.

Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqli məsələsi də səfər zamanı ciddi müzakirə mövzusu olmuş və prezidentlərin birgə mətbuat konfransında söylədikləri fikirlər bu istiqamətdə nəzərəçarpacaq irəliləyişlərin əldə edildiyini deməyə əsas verir. Azərbaycanın dövlət başçısı görüş zamanı demişdir: "Hörmətli Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə keçirdiyimiz görüşlər və danışıqlar çərçivəsində enerji dəhlizi problemləri, neft və qaz layihələri, nəqliyyat və kommunikasiya proqramları sahəsində əməkdaşlıq barədə baxışlarımızda tam uyğunluq əldə edildi. Qazaxıstana dost və qardaş ölkə olan Azərbaycan Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəql ediləcəyi etibarlı və təminatlı məkana çevriləcəkdir".

Prezident İlham Əliyevin Mərkəzi Asiyanın iqtisadi və strateji cəhətdən ən mühüm ölkələrindən biri olan Özbəkistan Respublikasına martın 23-24-də etdiyi dövlət səfəri, şübhəsiz ki, Azərbaycan-Özbəkistan əlaqələri ilə yanaşı, regional əməkdaşlığın da inkişafına güclü təkan verəcəkdir. Azərbaycan liderinin Özbəkistana səfəri zamanı regionun liderlərindən olan prezident İslam Kərimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli barədə öz ölkəsinin qəti mövqeyini açıqlamışdır: "...problemin həllində ilk vacib məsələ Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsidir. Bəlkə də bu bəyanat hansısa ölkənin xoşuna gəlməyə bilər, ilk növbədə işğal olunmuş ərazilər azad olunmalıdır. Bundan sonra dəmir yolları və kommunikasiya xətləri açılmalıdır. Ermənistan da bu məsələdən narahat olmalıdır. O, işğal etdiyi əraziləri azad etməlidir. Qaçqınlar öz yurd-yuvalarına qayıtmalıdır. Bütün bunlardan sonra Qarabağın statusu ilə bağlı müzakirələr aparıla bilər". Özbəkistan dövlətinin bu mövqeyi respublikamı-

zın və onun yeni liderinin siyasətinə beynəlxalq dəstəyin getdikcə möhkəmlənməsi, qətiləşməsi kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyə Respublikasına aprel ayının 13-dən 15-dək olan ilk rəsmi səfəri qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlardan biri kimi diqqəti çəkir. Prezident İlham Əliyev bu səfərə böyük əhəmiyyət verdiyini xüsusi vurğulamışdır. "Mən eminəm ki, burada keçiriləcək ikitərəfli danışıqlarda ölkələrimizin mənafeyi üçün mühüm qərarlar qəbul ediləcəkdir. Ölkələrimiz bundan sonra da bir-birinə həmişə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq. Bizim gücümüz birliyimizdədir. Azərbaycan Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti də məhz bundan ibarət idi. O, daim çalışırdı ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf etsin, güclənsin. Biz-Azərbaycanın yeni rəhbərləri bu siyasətə sadiqik, əlimizdən gələni əsirgəməyəcəyik ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin".

Türkiyəyə səfər zamanı hər iki tərəfin maraqlarını ifadə edən bir çox məsələlər müzakirə edilmiş, ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinə dair bir neçə sənəd imzalanmışdır. Prezidentlərin birgə bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin gələcək inkişafının prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, həm də tərəflərin strateji müttəfiqlik xəttinə sədaqətini ifadə edən çox vacib bir hüquqi sənəddir. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat"da bu iki dövlətin etibarlı tərəfdaşlıq əlaqələri qurması ən ciddi nailiyyətlərdən biri kimi qiymətləndirilir. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin bundan sonra da Azərbaycana lazım olan dəstəyi verəcəyi bildirilir. Rəsmi Ankara problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını nizamlama prosesinin ən ümdə şərti kimi dəyərləndirdiyini bəyan edir.

Azərbaycan liderinin 2004-cü il martın 18-19-da Slovakiyanın paytaxtı Bratislavada keçirilən "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda beynəlxalq konfransda iştirakı ölkəmizin ümumavropa inteqrasiyasına əzmini bir daha təsdiqləmişdir. Prezident İlham Əliyev "Avropanın Qara dəniz və Qafqaz qonşuluğu" mövzusu ətrafında gedən diskussiyalarda maraqlı ideyalarla çıxış edərək dinləyicilərə geniş biliyi və problemlərə peşəkar yanaşması ilə güclü təsir göstərmişdir. O, Azərbaycanın qarşısında duran taleyüklü problemlər dən, müstəqilliyin əldə olunmasından sonra demokratikləşmə prosesləri ilə bağlı ortaya çıxan çətinliklərdən və onların tədricən həlli məsələlərindən ətraflı bəhs etmişdir. Azərbaycan Prezidenti Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal olunması-

nın çətin vəziyyət yaratdığını xatırlatmış, bütün bunlara baxmayaraq, 1996-cı ildən inkişaf dövrünün başlandığını bildirmişdir. O, xüsusilə vurğulamışdır ki, Azərbaycanın Avropa strukturlarına, Avratlantika məkanına inteqrasiyası prosesi çox uğurla gedir. "...Bu, bizim həqiqi istəyimiz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avratlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir".

Prezident ilham Əliyev mayın 17-19-da Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biri olan Belçika Krallığına işgüzar səfəri zamanı bu ölkə ilə siyasi, iqtisadi, mədəni və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əlaqələrin geniş müzakirəsini keçirmiş, iki dövlətin qarşılıqlı mənafelərinin ortaq nöqtəsini müəyyən etmişdir.

Ölkə başçısının iyunun 3-dən 4-dək Ukraynaya rəsmi səfəri Azərbaycanın xarici siyasətinin uğuru kimi qiymətləndirilməlidir. Ukrayna ilə Azərbaycan xalqları arasında dostluq əlaqələrinin kökləri çox-çox qədimlərə gedib çıxır. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra prezidentlər Heydər Əliyev və Leonid Kuçmanın birgə səyilə dövlətlərimiz arasında dostluq münasibətləri və qarşılıqlı əlaqələr daha da möhkəmlənmişdir. Xalqlarımız məhz bu görkəmli şəxsiyyətlərin rəhbərliyi altında strateji tərəfdaşlıq yolunda cəsarətli addımlar atmış, sənayenin inkişafında, elmi-texniki tərəqqidə, Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizlərinin yaradılması sahəsində birgə fəaliyyətdə, ən mühüm enerji layihələrinin gerçəkləşməsində uğurlu nəticələr əldə etmişdir.

Prezident İlham Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə səmimi görüşləri, həmin görüşlər zamanı imzalanan birgə bəyannamə və digər sənədlər, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, enerji daşıyıcılarının Avropaya nəqli, GUƏAM çərçivəsində sıx əməkdaşlıq məsələlərinin geniş müzakirəsi ikitərəfli əlaqələrin perspektivlərindən xəbər verir. Əminliklə demək olar ki, Ukrayna ilə Azərbaycan arasında imzalanmış bu sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, ikitərəfli münasibətlərdə, regional və beynəlxalq miqyaslı əlaqələrdə daha fəal iştirak etməyimizə geniş imkan yaradacaqdır.

Prezidentimizin iyunun 14-15-də Tbilisiyə dövlət səfəri Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının təsdiqi kimi diqqəti çəkdi. Dövlətimizin başçısını qonşu ölkədə ürək genişliyi ilə qarşıladılar. Bu, həm də ondan irəli gəlirdi ki, dost Gürcüstan torpağında da Prezident İlham Əliyevi bütün region üçün yeni ruhlu, nüfuzlu lider kimi qəbul edirlər. Prezident Mixail Saakaşvilinin Azərbaycan rəhbərinin siyasəti, nüfuzu, liderliyi barədə fikirləri bunu təsdiqləyir: "Bu gün biz yeni lideri, postsovet məkanı üçün

çox qeyri-adi olan lideri, öz ölkəsi və bütün region üçün rəhbərliyin yeni üslubunu həyata keçirən lideri, həmişə bel bağlamaq mümkün olan dostu qarşılayırıq... Biz əsl dostlar, qardaşlar kimi bir-birimizə həmişə güvənə bilərik". Tbilisidə Gürcüstanın böyük dostu, ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq parkın açılması da, Prezidentin paytaxt sakinləri ilə görüşləri də bu ölkə üçün Azərbaycanın nə qədər mühüm əhəmiyyət daşıdığını göstərən faktlardandır.

Onu da qeyd etmək lazımdır ki, bütün sahələrdə inkişafa nail olmaq üçün dövlət başçılarının şəxsi münasibətləri də müstəsna rol oynayır. Bundan əvvəl Gürcüstan Prezidentinin Bakıya, sonra isə Azərbaycanın dövlət başçısının Tbilisiyə səfərləri də belə qənaət yaradır. Səfərlərdən alınan təəssürat göstərir ki, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin gələcək inkişafı üçün iki ölkənin dövlət başçılarının şəxsi dostluq münasibətləri bir stimuldur.

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına avqustun 24-dən 26-dək davam edən ilk rəsmi səfərinin gedişi iki ölkə arasında əlaqələrin bütün sahələrdə dinamik inkişaf etdiyini təsdiqləyən mühüm faktlarla zəngin olmuşdur. Bu səfər dünya diplomatiyasındakı yerinə, beynəlxalq siyasi proseslərə təsir imkanlarına və iqtisadi potensialına görə Avropanın ən aparıcı dövlətlərindən sayılan Almaniyanın Azərbaycanla münasibətlərə kifayət qədər böyük əhəmiyyət verdiyini bir daha təsdiqləmişdir. Prezident İlham Əliyevin Berlində keçirdiyi bütün görüşlərdə hər iki ölkənin əksər məsələlərdə ortaq mövqedən çıxış etdiyi növbəti dəfə təsdiqini tapmışdır. Almaniya prezidenti Horst Köler və federal kansleri Gerhard Şröder Azərbaycanla siyasi tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayaraq rəsmi Bakının Avratlantik məkanına inteqrasiya kursunu dəstəklədiklərini bəyan etmişlər. Cənab Şröderin Azərbaycandakı iqtisadi-siyasi durumla bağlı məmnunluqla danışması, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatları təqdir etməsi ikitərəfli əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyindən xəbər verir: "...Mən belə fikirdəyəm ki, Azərbaycan Prezidenti hüquqi dövlət yaradılmasında çox maraqlıdır və çox böyük səylər göstərir, nailiyyətlər də əldə edibdir. Ona görə də mən ona çox böyük hörmətlə, ehtiramla yanaşıram. Cənab İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən islahatlar nəticəsində çox gözəl, yaxşı mənada təəccübləndirici nəticələr əldə olunubdur".

Almaniyanın federal kansleri Gerhard Şröderin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş etdirdiyi prinsipial və ədalətli mövqe səfərin siyasi əhəmiyyətini daha da artırdı. Səfər zamanı cənab Gerhard Şröder rəsmi Berlinin bu mövqeyini bir daha bəyan

edərək Azərbaycanın Cənubi Qafqaz regionunda sülh və sabitliyin, iqtisadi tərəqqinin bərqərar olunması istiqamətindəki səylərini yüksək qiymətləndirmişdir.

İkitərəfli əməkdaşlıq sistemində respublikamızın müstəqilliyini ilk tanıyan ölkələrdən olan Rumıniya ilə əlaqələr də çox əhəmiyyətli olmuşdur. Azərbaycanın xarici siyasətində bu ölkə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi, sözün əsil mənasında yüksək səviyyəyə qaldırılması mühüm əhəmiyyət daşıyır. Bu mənada, cənab İlham Əliyevin oktyabrın 11-də Rumıniyaya ikigünlük, rəsmi səfəri, səfər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan hazırda planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indi daha aydın şəkildə hiss olunmaqdadır. Son bir ildə xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərlərinin müntəzəm xarakter alması da bunu təsdiqləyir. Gürcüstan, Yunanıstan, Pakistan, İran, Bolqarıstan və Moldova prezidentlərinin ölkəmizə səfərləri və bu səfərlər zamanı imzalanmış sazişlər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək, mövcud əlaqələri daha da möhkəmləndirmək baxımından müstəsna əhəmiyyətə malik olmuşdur.

Dövlətimizin başçısının həyata keçirdiyi xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsindən, xarici ölkələrlə, beynəlxalq təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq dövlət başçısının xarici ölkələrə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, o cümlədən Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankı ilə müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır.

Prezident İlham Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərini qoruması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb edir. BMT, Avropa İttifaqı, ATƏT, Avropa Şurası, NATO, İKT, MDB kimi beynəlxalq təşkilatlardan Azərbaycanın nüfuzuna hörmət, problemlərinə

diqqət görmək istəyi Prezident İlham Əliyevin yüksək peşəkarlıqla həyata keçirdiyi siyasətin mühüm bir hissəsini təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasında iştirakı və dərin məzmunlu nitqiylə dünya miqyaslı siyasətçi, diplomat və qlobal siyasətin strateqlərindən biri olduğunu, xüsusilə nüfuzlu dövlət və siyasət adamları, aparıcı ölkələr tərəfindən dəstəkləndiyini və qəbul olunduğunu bir daha təsdiq etdi. Prezident İlham Əliyevin bu mötəbər toplantıda çıxışı Azərbaycan siyasətinin dünyaya çatdırılması, qlobal dünya siyasətində ölkəmizin milli və dövlət maraqlarının gündəmə gətirilməsi və mövqelərinin gücləndirilməsi baxımından tarixi bir hadisədir. Dövlətimizin başçısı həmin sessiyada bir daha diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldərək Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın on ildən çox müddətdə işğal altında saxlandığını, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün kimi ağır vəziyyətdə yaşadığını bildirmişdir. Prezident İlham Əliyev BMT-nin münaqişəyə dair qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə münasibətə də toxunmuşdur: "Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə müharibə zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır".

İşğal edilmiş ərazilərimizin terrorçu yuvasına çevrilməsindən, tanınmayan qondarma qurumun bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyi olmasından və Ermənistanın dini və tarixi abidələrimizi özününkiləşdirməsindən narahatlığını bildirən cənab İlham Əliyev işğal altında olan ərazilərin beynəlxalq nəzarətdən kənarda qalması faktını ön plana çəkmişdir.

Ölkə başçısı BMT tribunasından bir daha bəyan etmişdir ki, "Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır". İlham Əliyev bu çıxışı ilə Azərbaycana qarşı yönəlmiş bütün informasiya blokadalarını, antiazərbaycan təbliğat maşınını darmadağın etmiş, Azərbaycan həqiqətlərini, o cümlədən Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə bağlı faciəli vəziyyəti çılpaqlığı ilə dünyanın diqqət mərkəzinə çəkmişdir.

Unutmaq lazım deyil ki, İlham Əliyev Avropa məkanında Ermənistanın mövqelərinə qarşı aparılan aktiv informasiya müharibəsinə bilavasitə rəhbərlik edir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə-

sinə incəliklərinə qədər bələddir və öz mövqeyini qlobal miqyasda cərəyan edən proseslərə uyğunlaşdırmağı bacarır. Ona görə də onun bəyanatlarında müxalifətin bəzi nüanslar axtarmaq cəhdləri yalnız çirkin siyasi texnologiyanın elementlərindən biridir. Siyasi qısqanclıq, ifrat radikalizm imkan vermir ki, müxalifət real həqiqətləri həzm edə bilsin. Bu antimilli siyasət təkcə İlham Əliyevə deyil, həm də ölkənin strateji mənafelərinə qarşı yönəlib. Hər halda, bu müqayisə müxalifətin İlham Əliyevə qarşı apardığı total kampaniyanın mahiyyətini nümayiş etdirir.

Xatırladaq ki, Azərbaycan Respublikası BMT Baş Assambleyasının sessiyasında artıq üçüncü dəfədir ki, belə yüksək səviyyədə iştirak edir. İlk dəfə 1994-cü ilin sentyabrında bu nüfuzlu beynəlxalq toplantıda dövlətimizi Azərbaycan Prezidenti Heydər Əliyev təmsil etmişdir. Həmin sessiyada ümummilli liderimizin son dərəcə mühüm, tarixi çıxışı bu gün əksəriyyət tərəfindən maraqla xatırlanır. Prezident İlham Əliyevin Nyu-Yorka səfəri isə Azərbaycan-BMT münasibətləri tarixində növbəti belə əlamətdar hadisədir.

Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Avropa və Avratlantika strukturları ilə fəal əməkdaşlıq edir. Qloballaşma prosesləri ilə əlaqədar iqtisadi müstəvidə Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa işlərində, xüsusən XXI əsrdə Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin cari ilin may və sentyabr aylarında Brüsselə səfəri Avropa ittifaqı ilə əlaqələrin inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prezidentinin Avropa Komissiyasında keçirilmiş görüşləri zamanı bu əməkdaşlığın genişləndirilməsinə dair əldə olunmuş prinsipial razılığın həyata keçirilməsi üçün birgə tədbirlərin görüləcəyi bildirilmişdir. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının "Yeni qonşusu" statusu verilmiş, "enerji dialoqu"nun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir.

Bununla yanaşı, dövlət başçısının Brüssel səfəri Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açmışdır. Ölkəmizin Avropa İttifaqı ilə "Genişlənmiş Avropa və qonşuları siyasəti", Şimali Atlantika Alyansı ilə "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" çərçivəsində genişmiqyaslı əməkdaşlıq etməsi barədə ciddi razılaşmalar əldə olunmuşdur.

Ötən bir ildə Avropa Şurası və ATƏT-lə, habelə hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm elementi NATO ilə, eləcə də MDB, İƏT digər təşkilatlarla əməkdaşlığa böyük diqqət yetirilmişdir. Ümumiyyətlə isə, Azərbaycanın BMT, Avropa İttifaqı, ATƏT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə daha sıx tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son bir ilin uğurlu xarici siyasətinin real nəticələridir.

Ölkəmiz son bir ildə beynəlxalq təhlükəsizlik – terrorizmə qarşı mübarizə işində də öz : səylərini əsirgəməmiş və Azərbaycanın sülhməramlı hərbi kontingenti sülhyaratma prosesləri fəal iştirak etmişdir.

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın dövlət maraqlarının qorunmasında mühüm rol oynamış, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirilmiş və onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır. Son bir ildə müxtəlif beynəlxalq tədbirlərdə iştirak edən İlham Əliyev ölkəmizin mənafelərini layiqincə müdafiə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayırmışdır.

Azərbaycan Prezidentinin xarici ölkələrə çoxsaylı səfərləri, keçirdiyi yüksək səviyyəli görüşlər, nüfuzlu siyasətçilər, dövlət xadimləri, iş adamları, hərbçilər, görkəmli diplomatlarla yüksək peşəkarlıqla apardığı danışıqlar nəhayət, BMT Baş Məclisinin 59-cu sessiyasındakı parlaq çıxışı müasir beynəlxalq münasibətlərə verdiyi obyektiv və cəsarətli qiymət, Ermənistan-Azərbaycan; Dağlıq Qarabağ münaqişəsi barədə qətiyyətli mövqe nümayiş etdirməsi Vətənini sevən hər bir azərbaycanlıda haqlı qürur hissi doğurur və gələcəyə böyük ümid yaradır. Bütün bunlar aydın göstərir ki, İlham Əliyev beynəlxalq aləmdə yaxşı tanınan və dünyanın aparıcı dövlət xadimləri arasında layiqli yer tutan siyasətçidir.

Prezident İlham Əliyevin Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi, qüdrətlənməsi, firavan və çiçəklənən bir cəmiyyətə çevrilməsi üçün yalnız bir il ərzində atdığı addımlar xalqımızın ona olan inamını daha artırır və onun haqqında Azərbaycanın ümummilli liderinin xalqa müraciətində bəyan etdiyi fikirlər bu gün bir daha öz təsdiqini tapır. Belə ki, "Vətəndaş cəmiyyəti və İlham Əliyevin 365 günlük prezidentlik fəaliyyəti" haqqında ümumrespublika rəy sorğu iştirakçılarının 79,3 faizi Prezident İlham Əliyevə Azərbaycanın digər siyasi xadimlərindən çox inam bəslədiklərini nümayiş etdirmiş və əgər seçkilər yenidən keçirilsəydi, məhz ona səs verəcəklərini, ölkədə mövcud problemləri yalnız İlham Əliyevin həll etmək iqtidarında olduğuna əminliklərini bildirmişlər. Rəyi soruşulanların 77,57 faizi Prezident İlham Əliyevə tam etibar etdiklərini

söyləmişlər. Respondentlərin 85,9 faizi isə prezidentlik institutuna inamlarını möhtərəm İlham Əliyevin şəxsiyyətinə inam və rəğbətləri ilə əsaslandırmışar. Düşünürəm ki, xalqın liderinə məhəbbəti, liderin isə Vətəninə və xalqına bağlılığı ümummilli liderimiz Heydər Əliyev kimi, İlham Əliyevi də səciyyələndirən əsas xüsusiyyətdir.

"Respublika" qəzeti, 31 oktyabr 2004-cü il

Ümummilli Lider Heydər Əliyevin xarici siyasət kursunun davamı Azərbaycanın uğurlu inkişafının təminatıdır

Sovet İttifaqının və Varşava Müqaviləsi Təşkilatının dağılması, Qərblə Şərq arasında siyasi, ideoloji və hərbi qarşıdurmanın başa çatması bütün dünyada geosiyasi vəziyyətin ciddi şəkildə dəyişməsinə səbəb oldu. Bipolyar sistemin süqutu Avrasiya məkanında geosiyasi strukturu kökündən dəyişdirdi, regional qüvvələr balansına və dövlətlərin strateji kursuna yeni nüanslar gətirdi. Beynəlxalq arenada əvvəlki iki qarşıduran sistemin əvəzinə yeni güc mərkəzləri yaranmağa başladı. İkiqütblü dünya nizamı tarixə qovuşduqdan sonra postsovet məkanına daxil olan ölkələr həm beynəlxalq siyasətin yeniləşən strategiyasında, həm də dünyanın dəyişən siyasi mənzərəsində xeyli fərqli missiya daşımaq zərurəti ilə qarşı-qarşıya qaldılar. Müstəqillik qazanmış keçmiş Sovet respublikaları beynəlxalq hüququn subyekti kimi dünya dövlətləri ilə bilavasitə qarşılıqlı münasibətlərin qurulması dövrünə qədəm qoydular. Bu dövrdən etibarən Azərbaycanın da qarşısında öz dövlət müstəqilliyini möhkəmləndirmək sahəsində mühüm vəzifələr dururdu.

Ermənistanın getdikcə genişlənən hərbi təcavüzü şəraitində müstəqilliyini qazanmış Azərbaycanın dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi mühüm strateji regionda yerləşməsi onu milli dövlətçilik mənafelərinin qorunması sahəsində böyük çətinliklər və təzyiqlərlə üz-üzə qoydu. Azərbaycan regionun geosiyasi və strateji əhəmiyyətini ciddi şəkildə qiymətləndirməklə beynəlxalq aləmdə baş verən qlobal prosesləri və özünün milli maraqlarını uzlaşdıran çevik və çoxşaxəli fəal xarici siyasət xətti yeritməli idi.

Lakin müstəqilliyimizin ilk illərində respublikada siyasi hakimiyyətdə olan dairələr dövlətin qarşısında dayanan ümdə vəzifələri nəinki müəyyən edə bilmədilər, hətta yol verdikləri kobud səhvlər nəticəsində, digər sahələr kimi, xarici siyasəti də bərbad vəziyyətə saldılar. Bütün bunlar nəticə etibarilə Azərbaycanı çıxılmaz vəziyyətə saldı. Bir tərəfdən region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə beynəlxalq birliyin dəstəyi təmin edilmədi, əksinə, bunu təmin edə biləcək dövlətlərlə münasibətlər sərinləşdi.

Daxildə isə, Azərbaycanın siyasi, iqtisadi, sosial, mənəvi həyatını bürümüş böhran 1993-cü ilin yayında özünün kulminasiya həddinə çatdı. Dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, siyasi dərəbəyliyin məntiqi nəticəsi olaraq ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə böyük siyasətçi və təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu, ümummilli hərəkata çevrildi. Dünyanın ən qüdrətli tarixi simaları sırasına

yüksəlmiş müdrik siyasətçinin - xalqımızın yeganə ümid çırağı və misilsiz təəssübkeşinin hakimiyyətə tarixi qayıdışı nə qədər tələtümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası - doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi və iradəsi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması sahəsində tədbirlər görüldü. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox vacib işlər həyata keçirildi. Azərbaycan böyük fəlakətlərdən xilas oldu.

1993-cü ildən başlayaraq ümummilli liderimiz bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Azərbaycanın xarici siyasət kursunda ölkənin geosiyasi mövqeyi, tarixi gerçəkliklər, ictimai-siyasi, iqtisadi və mənəvi-psixoloji inkişafın xüsusiyyətləri, qarşıda duran yaxın və uzaq hədəflər, o cümlədən Ermənistanın davam edən təcavüzü və sair bu kimi amillər əsas götürülərək, prioritet istiqamətlər müəyyən edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin bey-nəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə ilə, müsəlman dünyası və İranla, Asiya, Afrika və Cənubi Amerika ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, aparıcı strategiyası müəyyənləşdirildi.

Bu xarici siyasət kursu bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi. Həmin vəzifələr Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaqdan, Azərbaycanın beynəlxalq imicinə zərbə vuran məqamları aradan qaldırmaqdan, haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdan, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan, bəzi dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi azaltmaqdan, tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaqdan, böyük dövlətlərlə sıx əlaqələr yaratmaq və onları getdikcə genişləndirməkdən, dünyada mövcud olan müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulmaq və orada fəal iştirak etməklə Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etməkdən və nəhayət, ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq

təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaqdan ibarət idi.

Heydər Əliyev məhz bu reallıqları nəzərə alaraq, ilk növbədə Cənubi Qafqazda özünün strateji maraqlarını güdən və regionda böyük təsir imkanlarına malik olan ölkələrlə qarşılıqlı faydalı münasibətlərin yaradılması və inkişaf etdirilməsi istiqamətində ardıcıl səylərə başladı. Bu baxımdan, dövlətimizin başçısının Rusiyaya səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, bu ölkə ilə münasibətlərdə xeyli əhəmiyyətli dəyişikliklər edildi və dövlətlərarası əlaqələrin normal inkişaf məcrasına yönəldilməsinə mane olan bütün problemlərin həlli üçün ardıcıl addımlar atılmağa başlandı. Rusiya ilə münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu, hər iki ölkənin mənafeyinə cavab verdiyini və əlaqələrin inkişaf etdirilməsi üçün geniş perspektivlər açdığını göstərdi. Təsadüfi deyil ki, Heydər Əliyevin 1993-cü il sentyabrın 5-dən 8-dək Moskvaya işgüzar səfəri zamanı aparılan müzakirələr, əvvəlki illərdə buraxılmış səhvlərin aradan qaldırılması, iki ölkə arasında etimadın bərpası və iqtisadi, siyasi, hüquqi, mədəni əlaqələrin inkişafına yeni təkan verəcək sıx əməkdaşlığın möhkəmləndirilməsi naminə zəruri tədbirlərin həyata keçirilməsi haqqında razılığın əldə olunması ümummilli liderimizin gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı.

Rusiya və bütün keçmiş SSRİ respublikaları ilə qədim tarixi ənənələrə malik əlaqələri bərpa etmək, müstəqil dövlətlərin ortaq mənafelərinə uyğun, yeni prinsiplər əsasında inkişaf etdirmək və postsovet məkanında, bütün beynəlxalq aləmdə öz dövlət maraqlarını daha səmərəli qorumaq məqsədilə Azərbaycan 1993-cü il sentyabrın 24-də MDB-yə daxil oldu. Bu addım Azərbaycan-Rusiya münasibətlərindəki gərginliyi yumşaltmaq üçün də zəruri idi. Heydər Əliyev deyirdi: *"Biz bu birliyin tamhüquqlu üzvü olaraq iqtisadi əməkdaşlıq və kollektiv əməkdaşlıq sahəsində müqavilələrin təmin etdiyi üstünlüklərdən faydalanmaq istəyirik.... Biz MDB məkanından kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırdıq və belə bir qənaətə gəldik ki, MDB çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir".*

Azərbaycan-Rusiya əməkdaşlığında diqqəti cəlb edən daha bir məqam 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə və növbəti neft kontraktlarda Rusiyanın "LUKoyl" neft şirkətinə müvafiq pay ayrılması, neftin Bakı-Novorossiysk marşrutu ilə nəql olunması haqqında qərarın qəbul edilməsi və uğurla həyata keçirilməsi və Rusiyanın digər şirkətlərinin əməkdaşlığa dəvət olunması ilə əlamətdar olmuşdur.

Regiondakı mühüm qonşularımızdan biri - İran İslam Respublikası ilə

münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər, hətta siyasi-ideoloji qarşıdurma da məhz Heydər Əliyev tərəfindən böyük səylər hesabına aradan qaldırıldı. Azərbaycan Prezidentinin İrana səfərləri iki ölkə arasında siyasi dialoqun böyük imkanlara malik olduğunu və qarşıya çıxan bütün məsələlərin qarşılıqlı hörmət və mehriban qonşuluq prinsipləri əsasında həll edilməsinin mümkünlüyünü əyani şəkildə nümayiş etdirdi.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 18-də yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, vacib və olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu ölkə mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, daima müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni və həm də dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməklə nəticələndi. Bu, çox əhəmiyyətli bəyanat idi. İndi irəli getmək, ölkəmizi, işlərimizi, məqsəd və məramımızı, düçar olduğumuz müsibətlərimizi Amerika ictimaiyyətinə çatdırmaq, əlaqələri daha da genişləndirmək üçün yeni səylər göstərmək tələb olunurdu. Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a səfərləri və onların uğurlu nəticələri bu böyük səylərin davamı kimi çox əhəmiyyətli oldu. Bu, Heydər Əliyev diplomatiyasının, Azərbaycanın düşünülmüş, əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin növbəti uğuru idi.

Azərbaycanın yeni siyasət kursunda bütövlükdə Avropanın yeni dövlətləri ilə münasibətlər məsələsi yeni bir istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt qısa bir müddətdə çevik taktiki gedişlərlə həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu həmfikirlər əldə etməsi Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu.

Özünün uzaq tarixi köklərə malik demokratik dövlətçilik ənənələri ilə

seçilən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı beynəlxalq münasibətlərə təsir etmək gücünə görə dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxil olduğundan Azərbaycan ilə bu ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri qurmaq çox əhəmiyyətli idi. Enerji ehtiyatı ilə zəngin olan Xəzərin Azərbaycan sektorunun ölkəmizin taleyüklü məsələlərinin həllində həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, İngiltərə dövləti ilə bu sahədə səmərəli iqtisadi əməkdaşlığın da Azərbaycan üçün çox böyük siyasi və iqtisadi dəstək rolu oynayacağı şübhə doğurmurdu. Xüsusən Xəzərin statusu ətrafında ayrı-ayrı dövlətlərin əsassız iddiaları və münaqişə törətmək cəhdlərinin aradan qaldırılmasında, Xəzərin ədalətli sektor bölgüsünün bütün dünyada dəstəklənməsində Böyük Britaniyanın rolu əvəz olunmaz idi.

Böyük Britaniya dövlətini Azərbaycanla dostluğa və əməkdaşlığa sövq edən bir sıra siyasi, iqtisadi və digər amillər Azərbaycan - Böyük Britaniya əlaqələrinin dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərində qurulmasını şərtləndirmiş və zəruri etmişdir. Bu zərurəti dərk edən və qarşılıqlı əlaqələrin hər iki dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın hökumət rəhbərləri iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etməsi üçün bütün imkanlardan istifadə etmişlər. Məhz elə bunun nəticəsidir ki, bu gün iki ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq istiqamətində inkişaf edir.

Yalnız Prezident Heydər Əliyevin respublika rəhbərliyinə yenidən qayıtmasından sonra Azərbaycanın xarici siyasətində, o cümlədən dünyanın böyük və nüfuzlu dövlətlərindən sayılan Fransa ilə münasibətlərdə də dönüş baş verdi. Təcrübəli siyasi xadim və incə diplomat Heydər Əliyev keçmiş iqtidar başçılarından fərqli olaraq, Fransa dövlətinin dünyada və Avropada oynadığı rolu, malik olduğu gücü, nüfuzu və təsir dairəsini yaxşı bildiyindən, ilk növbədə o vaxta kimi Azərbaycanda yalnız "düşmən" kimi təqdim olunmuş Fransa ilə əlaqələri sahmana salmağı qərarlaşdırdı. Məhz bu məqsədlə də onun ilk rəsmi xarici səfəri Fransadan başladı. Möhkəm təməl üzərində qurulmuş Azərbaycan - Fransa münasibətləri gələcəkdə hər iki ölkənin mənafeyinə cavab verən sıx əməkdaşlığı inkişaf etdirmək üçün geniş perspektivlər açırdı. Təsadüfü deyil ki, 1997-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı aparılan müzakirələr və iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması müstəqil Azərbaycan Respublikasının ötən illərdə gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasında dünya siyasətində xüsusi təsir gücünə malik və nüfuzlu dövlətlərdən biri olan Almaniya Federativ Respublikası ilə münasibətlər geniş yer tuturdu. 1993-cü ilin ikinci yarısından başlayaraq Avropa dövlətləri ilə, xüsusən Almaniya kimi böyük, inkişaf etmiş və nüfuzlu ölkə ilə yeni əlaqələr və münasibətlər sisteminin yaradılması sahəsində aparılan məqsədyönlü işlər müstəqil Azərbaycan diplomatiyasının fəaliyyətində mühüm bir istiqamət kimi diqqəti cəlb edirdi. Planetin qlobal problemlərinin həllində mühüm rol oynayan, beynəlxalq və regional məsələlərdə rəyi və mövqeyi hər zaman nəzərə alınan Almaniya Federativ Respublikası İkinci Dünya müharibəsindən sonra, qısa bir zaman ərzində iqtisadi, siyasi, sosial və mədəni inkişaf sahəsində dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksələ bilmişdir. Belə bir dövlətlə dostluq və əməkdaşlıq etmək üçün yollar aramaq, onunla qarşılıqlı faydalı münasibət yaratmaq müstəqillik yolu tutan gənc Azərbaycan Respublikası üçün həyati zərurətdən doğan bir tələbat idi. Məhz bu zərurəti dərk edən respublika rəhbərliyi bu ölkə ilə regional və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əməkdaşlığa xüsusi yer ayırmaq qərarına gəldi. Ölkələrimiz arasında daha sıx münasibət yaratmaq məqsədilə atılan addımlar, Almaniyaya rəsmi səfərlər, burada keçirilən görüşlər, aparılan danışıqlar, fəal diplomatik gedişlər bunu bir daha sübut edirdi. Həyata keçirilən tədbirlər dostluq münasibətlərin yaranmasına öz müsbət təsirini göstərmiş, əlaqələrin genişlənməsinə və dərinləşməsinə əlverişli şərait yaratmışdır.

Müstəqillik illərində Azərbaycan dövlətinin xarici siyasətinin yeni istiqamətlərindən biri də İtaliya olmuşdur. Azərbaycan Prezidentinin İtaliyaya 1997-ci il sentyabrın 25-28-də həyata keçirilmiş səfəri ölkələrimiz arasındakı əlaqələrin vüsət götürməsi üçün əhəmiyyətli başlanğıc oldu. İtaliyada aparılmış danışıqların başlıca mövzusu Xəzərin karbohidrogen ehtiyatı olmuşdur. Səfər zamanı İtaliyanın "Acip" kompaniyası ilə neft müqaviləsinin bağlanılması bu sahədəki əməkdaşlıq üçün geniş imkan yaratmışdır. İki ölkə arasında elm, texnika, turizm, hava nəqliyyatı ilə yük daşınmasına dair bir sıra müqavilələr imzalandı. Səfər zamanı iki ölkə arasında dövlətlərarası münasibətlərin və iqtisadi əməkdaşlığın əsasları haqqında imzalanmış birgə bəyanat xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Səfərin mühüm müsbət nəticələrindən biri də ölkələrimizin bir-birinə siyasi cəhətdən yaxınlaşması olmuşdur. Bunun üçün əsas verən amillərdən biri Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən birinin məhz İtaliyanın olması idisə, digəri də İtaliya Prezidentinin və ölkəsinin Azərbaycanın işğal olunmuş rayonlarından erməni hərbi birləşmələrinin çıxarılması və qaçqınların öz doğma yurdlarına qayıtmaları barədəki ədalətli tələbini dəstəklədiyini bəyan etməsi idi. İtaliya Prezidenti bildirmişdi ki, onun ölkəsi

həmişə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və dövlət suverenliyinin möhkəmləndirilməsinə tərəfdar olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açmış, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etmişdir.

Sosializm düşərgəsi süquta uğradıqdan sonra yeni siyasi-iqtisadi durumun müəyyənləşməsində Şərqi Avropa ölkələrinin mövqeyi və xarici siyasəti əsas amillərdən biri kimi ön plana çıxdı. Azərbaycan hələ SSRİ tərkibində olarkən Avropa qitəsinin başqa ölkələrindən fərqli olaraq, sosializm düşərgəsinə daxil olan bu dövlətlərlə müəyyən iqtisadi və mədəni əlaqələrə malik idi. XX əsrin sonunda SSRİ-nin dağılması və onun tərkibinə daxil olan respublikaların müstəqillik qazanması, eyni zamanda Şərqi Avropa dövlətlərinin sosializm düşərgəsini tərk edərək Qərbə üz tutması bu əlaqələri daha da aktuallaşdırmış və müstəqil dövlət quruculuğu yolu tutmuş Azərbaycan üçün həyati zərurətə çevirmişdi. Bu gün Şərqi Avropanın Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Rumıniya kimi dövlətlərinin iqtisadi, siyasi və sosial-mədəni həyatının bütün sahələrində dünyanın inkişaf etmiş ölkələrinin əldə etdiyi qabaqcıl təcrübənin uğurla tətbiqi nəticəsində əhəmiyyətli dəyişikliklər baş verməkdədir. Bu dövlətlər regional, dövlətlərarası və beynəlxalq münasibətlər sahəsində özlərinin xarici siyasət prioritetlərini müəyyən edərək, planetin sivilizasiyalı birgəyaşayış müstəvisində özünəməxsus layiqli yerlərini tuturlar.

Avropa dövlətləri ilə tarazlaşdırılmış yeni münasibətlərin möhkəm təməlinin qoyulması bu istiqamətdə uzun bir dövr üçün gediləcək yolun və xarici siyasət xətti ilə görüləcək işlərin başlıca məqsəd və vəzifələrini müəyyənləşdirdi. Avropanın Azərbaycana marağı artdı və xeyirxah, obyektiv münasibətlərin ilk təməli qoyuldu ki, bu da sonrakı işlərdə, Lissabon sammitinin uğurlu nəticələri üçün çox faydalı oldu.

Prezident Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş

yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühüm istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, İslam dünyası ilə münasibətlər təşkil edirdi. Bu baxımdan, dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri müstəsna rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək olsun. Bu isə Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırır. Odur ki, iki ölkə arasında strateji partnyorluq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı.

Xarici siyasət fəaliyyətinin daha bir mühüm istiqaməti kimi ÇXR, Yaponiya, Pakistan, Hindistan və Asiyanın digər ölkələri ilə əlaqələrə böyük əhəmiyyət verildi. Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin möhkəmlənməsində, taleyüklü maraqlarının dəstəklənməsində bu ölkələrlə qurduğu mehriban dostluq, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xüsusi əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu ölkələrə səfərləri, həmin ölkələrin nümayəndə heyətlərinin Azərbaycana səfərləri ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəm hüquqi bazasını yaratdı və gələcək üçün geniş perspektivlər açdı.

Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlərdə də xarici siyasət xəttində bu istiqamətdə mühüm dəyişikliklər edildi. Azərbaycanın bu çox vacib regionda zəifləmiş mövqeyini möhkəmləndirmək və milli mənafeyimiz üçün zərərli olan vəziyyəti aradan qaldırmaq məqsədilə çevik diplomatik gedişlərlə yeni münasibətlər qurulmasını təmin edəcək forma və vasitələr düşünülüb tapıldı. Az müddət ərzində normal vəziyyətə gətirilən münasibətlər ölkə başçılarının bir qədər sonra həyata keçirilmiş qarşılıqlı rəsmi səfərlərinin nəticələri ilə möhkəmləndirildi. Bu işdə Prezident Heydər Əliyevin Qazaxıstan və Özbəkistan Respublikalarına olan rəsmi səfərləri çox mühüm rol oynadı. Qazaxıstan Respublikasına səfər zamanı strateji tərəfdaşlığa dair böyük proqram hazırlandı, həmçinin çoxsaylı sənədlər paketi imzalandı ki, bunların da arasında dövlətlərarası münasibətlərin əsasları haqqında müqavilə başlıca yer tuturdu. Ölkələrimiz arasında iqtisadi və siyasi əməkdaşlığın daha da möhkəmlənməsində çox əhəmiyyətli olan həmin səfər zamanı MDB daxilindəki proseslər, Xəzər dənizinin hüquqi statusu və qarşılıqlı maraq doğuran bir çox beynəlxalq problemlər barəsində də geniş fikir mübadiləsi edilmişdir.

İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Heydər Əliyevin xarici siyasət xəttində bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi, sözün əsl mənasında yüksək səviyyəyə qaldırılması Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli bir tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da ən yaxın bir qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soydaşlarımızın yaşaması, Qafqazın bugünkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Odur ki, Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici qüvvələr tərəfindən süni olaraq milli münaqişələrin qaynar nöqtəsinə çevrilmiş bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirirdi. Onun Qafqazda sülh və əməkdaşlıq məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı, Ermənistan istisna olmaqla, bütün region dövlətləri, əsasən də Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. On başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin substansiyasını konfliktin beynəlxalq normalara uyğun və dünya ictimaiyyətinin dəstəyi ilə nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də

qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə diskriminasiyaya məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. Dağlıq Qarabağ probleminin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, Azərbaycanın cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həll edilməsi ilə bağlı Azərbaycanın diplomatik səyləri Ermənistanın mövqeyinin xeyli zəifləməsinə gətirib çıxardı. Münaqişənin nizamlanması üçün ATƏT-in yaratdığı Minsk qrupu və həmin qrupun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı təkliflərinin ermənilər tərəfindən rədd edilməsi Ermənistanı qeyri-konstruktiv bir ölkə kimi tanıtdı. Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Məlumdur ki, BMT Baş Məclisinin 59-cu sessiyası özünün 60-cı iclasında Azərbaycanın təşəbbüsü ilə gündəliyin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı maddəsi üzrə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirəyə çıxarmış, Avropa Şurasının Parlament Assambleyası isə Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında tarixi qərar qəbul etmiş, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunması və Dağlıq Qarabağda etnik təmizləmə siyasətinin həyata keçirilməsi faktını rəsmən tanımışdır.

Müstəqil Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları baxımından səmərəli, realist və praqmatik siyasət kursunu uğurla həyata keçirən ümummilli liderimiz Heydər Əliyev bütün ölkələrlə qarşılıqlı

surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında münasibətlərin qurulmasına, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulmasına, dünya birliyinə, Avratlantik strukturlara inteqrasiyasına çalışırdı. Bu məqsədlərlə ötən illərdə dövlətimizin başçısı ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbistanı və s. kimi dövlətlərə dəfələrlə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Bu səfərlər zamanı ölkəmizin başçısının keçirdiyi yüksək səviyyəli görüşlər tarixi əhəmiyyət kəsb etmişdir. Azərbaycan Prezidentinin İslam ölkələrinə rəsmi və işgüzar səfərləri respublikamızın müsəlman dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Prezident Heydər Əliyev Asiya-Sakit okean regionu, Afrika və Latın Amerikası ölkələri ilə diplomatik münasibətlər yaradılması və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahəsində səmərəli tədbirlər həyata keçirmişdir. MDB ölkələri ilə əlaqələrin inkişafına xüsusi yer verilmiş, tarixi əlaqələrin yeni müstəvidə inkişafı üçün əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına həlledici təsir göstərmişdir.

Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun tarazlaşdırılmış xarakter daşıması ilə səciyyələnməsidir. Ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə etməyi zəruri edirdi. Azərbaycan Prezidentinin xarici ölkələrə səfərləri, xarici ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq, Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam

İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq etmişdir. İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Azərbaycan müxtəlif kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır, dövlətimiz beynəlxalq və regional siyasətin həyata keçirilməsində getdikcə daha fəal iştirak edir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar o, NATO-nun sammitlərində iştirak etmiş və Şimali Atlantika Alyansının Azərbaycanla tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir. Bu prioritetlər əsasında Azərbaycanın Avratlantik strukturlara inteqrasiyası prosesi bu gün də uğurla davam etməkdədir. Təsadüfi deyil ki, Azərbaycan "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı (Aİ) ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Aİ ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Aİ-nin göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, çoxlu sayda layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir.

Ümummilli liderimiz Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi başəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Bu nüfuzlu panavropa qurumu ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan

qanunun aliliyinə əsaslanan demokratik cəmiyyət quruculuğunu indi də uğurla davam etdirir.

Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir.

Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın ardıcıl, qətiyyətli mövqeyi və antiterror koalisiyasının etibarlı üzvü kimi tanınması Azərbaycan-ABŞ münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Bu amil və ümumiyyətlə, demokratik və iqtisadi islahatların aparılması, mühüm iqtisadi layihələrin həyata keçirilməsi Amerika ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmişdir. Nəticədə Amerikanın hərbi siyasətində bölgəmizə maraq xeyli artmışdır. Belə ki, Xəzər dənizi hövzəsi 2002-ci ilin oktyabrından etibarən Birgə Döyüş Komandanlıq Planına əsasən, Amerika Birləşmiş Ştatlarının Avropadakı Silahlı Qüvvələri Komandanlığının əhatə dairəsinə aid edilmişdir. Amerika hökuməti ilk dəfə olaraq, Azərbaycan və Ermənistanla hərbi əməkdaşlıq siyasətində tarazlığın saxlanılmasından imtina edərək, ölkəmizlə hərbi-siyasi, təhlükəsizlik, hüquq-mühafizə sahələrində əməkdaşlığı sürətlə genişləndirmişdir. Hərbi nazirliklərimiz arasında imzalanmış birgə bəyanatda sülhməramlı bölmələr də daxil olmaqla, hər iki tərəfin hərbi qüvvələri arasında əlaqələndirmənin, hərbi dəniz qüvvələrimizin imkanlarının genişləndirilməsi, Azərbaycanın təyyarə meydanlarının və hava məkanının idarə olunmasına nəzarət sistemlərinin NATO standartlarına uyğunlaşdırılması barədə razılıq əldə edilmişdir. Respublikamız 2002-ci il ərzində ABŞ-ın təklifi ilə təhlükəsizlik və müdafiə sahələrini əhatə edən 11 proqrama qoşulmuşdur. Ümumi təhlükəsizlik və müdafiə proqramı çərçivəsində ABŞ tərəfindən Azərbaycana ayrılmış maliyyə vəsaiti xeyli artmışdır.

Ümummilli liderimizin siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması prosesinə yaxından cəlb edilmiş, dünyanın müxtəlif nöqtələrində olan münaqişələrin aradan qaldırılması istiqamətində sülhməramlı proqramlara qoşulmuşdur. Prezident Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan məlum 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxarmışdır. 2001-ci

ilin oktyabrında ABŞ Prezidenti Corc Buş və Dövlət katibi Kolin Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğulamışlar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Heydər Əliyevin uğurlu xarici siyasət kursunun ən mühüm, strateji tərkib hissələrindən birini Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin edilməsi təşkil edirdi. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirmişdir.

Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirir. Qərb dövlətlərinin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri ilə müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla böyük dövlətlərin mənafelərinin kəsişdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvətli bir bölgədə aparıcı dövlətlərin iqtisadi maraqlarının təmsil olunmasına şərait yaratmaq, Azərbaycana qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb dövlətləri amilindən istifadə etməyə imkan verir. Nüfuzlu dövlətlərin regionda siyasi təsir vasitələrinin güclənməsi Azərbaycan dövlətinin də manevretmə dairəsini genişləndirir.

Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Transqafqaz yolunun fəaliyyətə başlaması iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Orta Asiya dövlətlərinin siyasi mövqelərinin yaxınlaşmasına və beləliklə, Azərbaycanın regional təhlükəsizliyinin möhkəmlənməsinə əlverişli şərait yaratmışdır.

Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi region

dövlətləri arasında iqtisadi inkişaf tempinin disproporsional şəkildə gedəcəyini göstərir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası Azərbaycanın iqtisadi baxımdan inkişafına öz müsbət töhfələrini verməkdədir və Ermənistanın qlobal iqtisadi layihələrdən kənarda qalması fonunda Azərbaycanın sürətlə irəli çıxması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə də öz müsbət təsirini göstərir. Bir neçə il bundan əvvəl ABŞ politoloqu Zbiqnev Bjezinskinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin Cənubi Qafqazda münaqişələrin həlli prosesində əsaslı rol oynayacağını qeyd etdiyini xatırlatmaq yerinə düşər. Belə olan təqdirdə Xəzərin karbohidrogen ehtiyatları kimi ciddi iqtisadi resurslara və Şərq-Qərb enerji dəhlizinin yaradılmasında son dərəcə əhəmiyyətli strateji mövqeyə malik olan Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində bu üstünlüklərdən istifadə etmək imkanı daha çoxdur.

Ümummilli liderimizin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində Tarixi İpək Yolunun bərpası ilə bağlı Şərq-Qərb, Şimal-Cənub kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın Katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsinə səbəb olmuşdur.

Azərbaycan xalqı Heydər Əliyevin xarici siyasət kursuna alternativ görmədiyi kimi, bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq onun komandasında müəyyənləşdirdi. Və sözsüz ki, bu inam məhz İlham Əliyevin fəaliyyətinə nəzərən formalaşdı. Cəmiyyətdə belə bir rəy hakim oldu ki, İlham Əliyev Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, əbədi uğurlar qazandıran atasının - dahi dövlət və siyasət xadimi Heydər Əliyevin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçidir. Onun siyasi və diplomatik fəaliyyətinin bəzi aspektləri də bu mülahizələrin üstündə israrla dayanmağa əsas verirdi. Amerika və Avropanın paytaxt şəhərlərinə Azərbaycan nümayəndə heyətinin rəhbəri və ölkə başçısı kimi bir sıra səfərləri, rəsmi və qeyri-rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, dövlət xadimlərinin diqqətini cəlb edən İlham Əliyev artıq müasir dünya siyasətinin danılmaz faktı, perspektivli reallığına çevrilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin xarici siyasət strategiyasını gücləndirmək yolunda fəaliyyəti, əsasən bir neçə istiqaməti ilə diqqəti xüsusilə cəlb edir. Bunlardan birincisi şübhəsiz ki, Azərbaycanın ikitərəfli əlaqələridir. Prezident İlham Əliyev dövləti vəzifəsində ilk rəsmi səfərini Fransaya etmişdir. Ölkə başçısı Fransaya ilk rəsmi səfərinin səbəbini açıqlayarkən demişdir: *"Fransa Minsk qrupunun həmsədridir. Biz onun fəaliyyətinin gücləndirilməsini istəyirik. Fransa*

dünyanın aparıcı dövlətidir və Azərbaycan bu ölkə ilə əməkdaşlığa böyük əhəmiyyət verir". 2004-cü ilin yanvar ayında cənab İlham Əliyevin Fransaya rəsmi səfəri zamanı aparılan müzakirələr və iki ölkə arasında iqtisadi, siyasi, hüquqi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması müstəqil Azərbaycan Respublikasının ötən illərdə gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı. Qocaman və inkişaf edən Avropanın mərkəzinə - Fransaya edilən bu səfəri siyasət adamları haqlı olaraq Azərbaycanın uğur qazanan, tarazlaşdırılmış xarici siyasət strategiyasının inamlı davamı kimi qiymətləndirirlər. Azərbaycan liderinin Prezident Jak Şirakla Yelisey sarayında dostluq və yüksək əməkdaşlıq ruhunda apardığı danışıqlar, ölkə Senatında və digər mühüm görüşləri Paris səfərinə, Azərbaycan-Fransa əlaqələrinə əsaslı təkan verən əhəmiyyətli səfər statusu qazandırmışdır.

Bundan az sonra Prezident İlham Əliyevi rəsmi Moskva arzu olunan qonağı kimi qarşıladı. Rusiya Prezidenti Vladimir Putinin cənab İlham Əliyevlə şəxsi dostluq münasibətləri dünya siyasətçilərinin və media nümayəndələrinin diqqətindən yayınmadı. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il fevralın 5-də Rusiyaya ilk rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin daha da yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadı. Səfər müddətində ikitərəfli iqtisadi-ticarət əlaqələrinin daha da gücləndirilməsini, qarşılıqlı informasiya mübadiləsini, təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutan bir sıra mühüm sazişlərin, həmçinin Azərbaycan-Rusiya əlaqələrində mühüm əhəmiyyətə malik Moskva Bəyannaməsinin imzalanması, dünyanın iki qitəsində böyük nüfuzu olan bu ölkənin xarici və daxili siyasət strategiyasını müəyyənləşdirən dövlət və hökumət rəhbərləri ilə səmimi görüşləri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət kursunun böyük perspektivlərə hesablandığını aydın göstərdi.

Təsadüfi deyil ki, hazırda Rusiya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından birinə çevrilmişdir. Son iki ildə bu ölkə ilə əmtəə dövriyyəsində böyük artım müşahidə olunur. Hökumətlərarası Komissiya intensiv işləyir və müxtəlif iqtisadi layihələri həyata keçirir. İdxal-ixrac əməliyyatlarının səviyyəsinə görə Rusiya Azərbaycanla ticarət edən ölkələr arasında birinci yeri tutur. Son bir neçə ildə Rusiya regionları ilə Azərbaycan arasında 40-dək əməkdaşlıq sazişi imzalanmışdır. Bundan əlavə, neftin Rusiya ərazisi ilə nəqli haqqında hökumətlərarası müqavilənin şərtlərinə uyğun olaraq Azərbaycan tərəfi Bakı-Novorossiysk kəməri ilə neft ixracını davam etdirir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi vacibliyi 2004-cü il iyulun 3-də MDB dövlət başçılarının Moskvada təşkil edilmiş qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin

Rusiya rəsmiləri ilə apardığı danışıqlarda da vurğulanmışdır.

Prezident İlham Əliyevin 2004-cü il martın 1-2-də Qazaxıstan Respublikasına etdiyi dövlət səfəri siyasi analitiklər tərəfindən xüsusi əhəmiyyətə malik addım kimi qiymətləndirilir. Azərbaycan Prezidenti də səfər haqqında təəssüratlarını ifadə edərkən münasibətlərin inkişafında yeni mərhələnin başlandığını təsdiqləmişdir: *"Əminəm ki, bu səfər və onun gedişində imzalanmış sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni mərhələ olacaqdır".* Həqiqətən də səfər zamanı qarşılıqlı maraq kəsb edən bir çox mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, strateji tərəfdaşlıq münasibətlərinin inkişafına istiqamətlənmiş mühüm tarixi sənədlər imzalanmışdır. Səfərin ən yadda qalan məqamlarından biri ölkə prezidentlərinin təkbətək görüşü olmuş və burada aparılmış danışıqlar bir neçə istiqamətdə tərəflər arasında anlaşmanın mövcudluğunu göstərmişdir. Qazaxıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə edir və problemin yalnız sülh yolu ilə, eyni zamanda ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır. Bu fakt dövlət başçılarının Birgə Bəyannaməsində də öz əksini tapmışdır. Prezidentlərin imzaladığı "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə"də qeyd olunur ki, rəsmi Astana problemin ərazi bütövlüyü prinsipi əsasında həllinə dair Azərbaycanın mövqeyini qətiyyətlə dəstəkləyir. Dövlət başçılarının Birgə Bəyannaməsində tərəflərin qarşılıqlı münasibətlərinin bundan sonra da strateji tərəfdaşlıq prinsiplərinə uyğun formada inkişaf etdirilməsinə çalışacaqları bildirilir və bu da Azərbaycanın region dövlətləri ilə əlaqələrini daha da sıxlaşdırmaq siyasətinin məntiqi nəticəsidir.

Qazaxıstan neftinin Bakı - Tbilisi - Ceyhan kəməri ilə nəqli məsələsi də səfər zamanı ciddi müzakirə mövzusu olmuş və prezidentlərin birgə mətbuat konfransında söylədikləri fikirlər bu istiqamətdə nəzərəçarpacaq irəliləyişlərin əldə edildiyini deməyə əsas verir. Azərbaycanın dövlət başçısı görüş zamanı demişdir: *"Hörmətli Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə keçirdiyimiz görüşlər və danışıqlar çərçivəsində enerji dəhlizi problemləri, neft və qaz layihələri, nəqliyyat və kommunikasiya proqramları sahəsində əməkdaşlıq barədə baxışlarımızda tam uyğunluq əldə edildi. Qazaxıstana dost və qardaş ölkə olan Azərbaycan Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəql ediləcəyi etibarlı və təminatlı məkana çevriləcəkdir".*

Azərbaycan liderinin 2004-cü il martın 18-19-da Slovakiyanın paytaxtı Bratislavada keçirilən "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda beynəlxalq konfransda iştirakı ölkəmizin ümumavropa inteqrasiyasına əzmini bir daha təsdiqləmişdir. Prezident İlham Əliyev "Avropanın Qara dəniz və Qafqaz qonşuluğu" mövzusu ətrafında gedən diskussiyalarda

maraqlı ideyalarla çıxış edərək dinləyicilərə geniş biliyi və problemlərə peşəkar yanaşması ilə güclü təsir göstərmişdir. O, Azərbaycanın qarşısında duran taleyüklü problemlərdən, müstəqilliyin əldə olunmasından sonra demokratikləşmə prosesləri ilə bağlı ortaya çıxan çətinliklərdən və onların tədricən həlli məsələlərindən ətraflı bəhs etmişdir. Azərbaycan Prezidenti Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal olunmasının çətin vəziyyət yaratdığını xatırlatmış, bütün bunlara baxmayaraq, 1996-cı ildən inkişaf dövrünün başlandığını bildirmişdir. O, xüsusilə vurğulamışdır ki, Azərbaycanın Avropa strukturlarına, Avratlantika məkanına inteqrasiyası prosesi çox uğurla gedir. *"...Bu, bizim həqiqi istəyimiz və strateji məqsədimizdir. Azərbaycan öz gələcəyini Avratlantik məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir".*

Prezident İlham Əliyevin Mərkəzi Asiyanın iqtisadi və strateji cəhətdən ən mühüm ölkələrindən biri olan Özbəkistan Respublikasına 2004-cü il martın 23-24-də etdiyi dövlət səfəri, şübhəsiz ki, Azərbaycan-Özbəkistan əlaqələri ilə yanaşı, regional əməkdaşlığın da inkişafına güclü təkan verəcəkdir. Azərbaycan liderinin Özbəkistana səfəri zamanı regionun liderlərindən olan Prezident İslam Kərimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli barədə öz ölkəsinin qəti mövqeyini açıqlamışdır: *"...problemin həllində ilk vacib məsələ Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsidir. Bəlkə də bu bəyanat hansısa ölkənin xoşuna gəlməyə bilər. İlk növbədə işğal olunmuş ərazilər azad olunmalıdır. Bundan sonra dəmir yolları və kommunikasiya xətləri açılmalıdır. Ermənistan da bu məsələdən narahat olmalıdır. O, işğal etdiyi əraziləri azad etməlidir. Qaçqınlar öz yurd-yuvalarına qayıtmalıdır. Bütün bunlardan sonra Qarabağın statusu ilə bağlı müzakirələr aparıla bilər".* Özbəkistan dövlətinin bu mövqeyi respublikamızın və onun yeni liderinin siyasətinə beynəlxalq dəstəyin getdikcə möhkəmlənməsi, qətiləşməsi kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı kimi qardaş Türkiyə Respublikasına 2004-cü il aprel ayının 13-dən 15-dək olan ilk rəsmi səfəri qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlardan biri kimi diqqəti çəkir. Prezident İlham Əliyev bu səfərə böyük əhəmiyyət verdiyini xüsusi vurğulamışdır: *"Mən əminəm ki, burada keçiriləcək ikitərəfli danışıqlarda ölkələrimizin mənafeyi üçün mühüm qərarlar qəbul ediləcəkdir. Ölkələrimiz bundan sonra da bir-birinə həmişə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq. Bizim gücümüz birliyimizdədir. Azərbaycan Prezidenti, xalqımızın ümummilli lideri Heydər*

Əliyevin siyasəti də məhz bundan ibarət idi. O, daim çalışırdı ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf etsin, güclənsin. Biz-Azərbaycanın yeni rəhbərləri bu siyasətə sadiqik, əlimizdən gələni əsirgəməyəcəyik ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin".

Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı hər iki tərəfin maraqlarını ifadə edən bir çox məsələlər müzakirə edilmiş, ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinə dair bir neçə sənəd imzalanmışdır. Prezidentlərin Birgə Bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin gələcək inkişafının prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, həm də tərəflərin strateji müttəfiqlik xəttinə sədaqətini ifadə edən çox vacib bir hüquqi sənəddir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Birgə Bəyanatda bu iki dövlətin etibarlı tərəfdaşlıq əlaqələri qurması ən ciddi nailiyyətlərdən biri kimi qiymətləndirilir. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin bundan sonra da Azərbaycana lazım olan dəstəyi verəcəyi bildirilir. Rəsmi Ankara problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını nizamlama prosesinin ən ümdə şərti kimi dəyərləndirdiyini bəyan edir. Prezidentlərin imzaladığı sənəddə belə bir qəti mövqenin öz əksini tapması münaqişənin həllində Azərbaycanın maraqlarının nəzərə alınmasının qaçılmaz olduğunu ortaya qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İqtisadi sammitində iştirak etmək üçün 2004-cü il aprelin 27-28-də Polşada səfərdə olmuşdur. Polşa Prezidenti Aleksandr Kvasnevski ilə görüş zamanı Prezident İlham Əliyev Azərbaycanda gedən demokratikləşmə proseslərindən, ölkəmizin Avropa strukturlarına inteqrasiyasından, respublikamızda həyata keçirilən və təkcə region üçün deyil, həm də ümumən Avropadan ötrü böyük əhəmiyyət daşıyan irimiqyaslı layihələrdən söhbət açmışdır. Dünya (Davos) İqtisadi Forumunun təşkil etdiyi Avropa iqtisadi sammitinin açılışında ölkəmizin başçısı çıxış edərək demişdir: *"Baxmayaraq ki, Azərbaycan müstəqil dövlət kimi gəncdir, müstəqilliyini yalnız 1991-ci ildə, Sovet İttifaqının dağılmasından sonra əldə edib və bu müddət ərzində çoxsaylı problemlərlə üzləşibdir. Azərbaycan xarici sərmayəçiləri ölkəyə cəlb edə bildi. Bu da xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması nəticəsində mümkün olmuşdur".*

Aprelin 28-də Azərbaycan Prezidentinin Ermənistan Prezidenti ilə təkbətək görüşü keçirilmişdir. Həmin gün sammit çərçivəsində Cənubi Qafqaz ölkələri prezidentlərinin şərəfinə ziyafət zamanı Azərbaycan Prezidenti nitq söyləmişdir: *"Azərbaycan vacib yolların kəsişdiyi məkanda*

yerləşir. Bizim coğrafi-siyasi mövqeyimiz elədir ki, ölkə şərq-qərb və şimal-cənub dəhlizlərinin qovuşuğunda yerləşir. Regionda istər enerji layihələri, istər digər sahələrə aid layihələr Azərbaycanın birbaşa fəal iştirakı ilə həyata keçirilir".

Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü il aprelin 28-29-da Fransada - Strasburq şəhərində səfərdə olmuşdur. Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider ilə görüşündə demişdir: *"Bu qurumun üzvü olduğu müddətdə Azərbaycan demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük yol keçmişdir".* Piter Şider Azərbaycan Prezidentinə Avropa Şurası ailəsində xüsusi fəallığa görə medal və Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomunu təqdim etmişdir. Səfər zamanı Prezident İlham Əliyev Avropa Şurasının o vaxtkı Baş katibi Valter Şvimmer ilə görüşmüşdür. Sonra Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasının iclasında çıxış edərkən üç il ərzində ölkəmizdə aparılan hüquqi islahatlar, respublikamızdakı ictimai-siyasi, iqtisadi vəziyyət barədə geniş məlumat vermiş və demişdir ki, Avropa ailəsinə inteqrasiya bizim strateji seçimimizdir. Azərbaycan Prezidenti həmin gün Avropa Şurasının iqamətgahında mətbuat konfransı keçirmişdir. Dövlətimizin başçısı Avropa Şurasının İnsan Hüquqları Məhkəməsində bu qurumun rəhbəri Luzius Vildhaber ilə görüşmüş və Azərbaycanda insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin qurulması, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları barədə məlumat vermişdir. O, əmin olduğunu bildirmişdir ki, insan haqlarının qorunması sahəsində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Prezident İlham Əliyev 2004-cü il mayın 17-19-da Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biri olan Belçika Krallığına işgüzar səfəri zamanı bu ölkə ilə siyasi, iqtisadi, mədəni və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əlaqələrin geniş müzakirəsini keçirmiş, iki dövlətin qarşılıqlı mənafelərinin ortaq nöqtəsini müəyyən etmişdir. Brüsseldə Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşdə "Yeni qonşuluq siyasəti" proqramı və Azərbaycanın bu təşəbbüsə cəlb edilməsi ətrafında fikir mübadiləsi aparılmışdır. Azərbaycan Prezidenti Avropaya inteqrasiyanın ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri olduğunu xatırlatmış, bu sahədə görülən məqsədyönlü tədbirlərdən danışmış və bildirmişdir ki, Avropanın bir hissəsi olan, "Yeni qonşuluq siyasəti" proqramına qoşulan Azərbaycana qarşı Ermənistanın təcavüzünə son qoyulmalıdır. Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə söhbət zamanı Azərbaycan-Avropa Komissiyası əməkdaşlığı və onun

perspektivlərinə dair müzakirələr aparılmışdır. Dövlətimizin başçısı Avropa Komissiyası sədrinin müavini xanım Loyola de Palasio ilə görüşdə ölkəmizdə aparılan iqtisadi islahatların nəticələrindən, əsas ixrac boru kəməri olan BTC-nin tikintisinin gedişindən danışmış, Azərbaycanın TRASEKA layihəsinə böyük əhəmiyyət verdiyini vurğulamışdır. Sonra Dünya Gömrük Təşkilatının iqamətgahı qarşısında "Dədə Qorqud" abidəsinin açılış mərasimi keçirilmişdir. Dünya Gömrük Təşkilatının binasında DGT ilə Azərbaycanın müvafiq strukturu arasında niyyət protokolu imzalanmışdır.

Mayın 18-də Prezident İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Küveytin xarici işlər naziri Şeyx Məhəmməd əs-Sabahı, Belçika Krallığının Baş naziri Gi Verhofstadtı qəbul etmişdir. Belçika ilə Azərbaycan arasında ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya imzalanmışdır. Sonra Avropa İttifaqının iqamətgahında Avropa İttifaqı Şurasının Baş katibi, Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə görüş keçirilmişdir. "Avropa İttifaqına yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol"un imzalanması mərasimindən sonra Prezident İlham Əliyev "Euro news" telekanalına müsahibə vermiş və Avropa Siyasi Mərkəzinin təşkil etdiyi siyasi brifinq - "Avropa İttifaqı və Azərbaycan - tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda diskussiya zamanı geniş nitq söyləmişdir. NATO-nun iqamətgahında Baş katib Yaap de Hoop Sxeffer ilə təkbətək görüş zamanı cənab İlham Əliyev Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesinin bundan sonra da davam etdiriləcəyini vurğulamışdır. Azərbaycan Prezidenti sonra Şimali Atlantika Şurasında çıxış etmişdir. Prezident İlham Əliyev və NATO-nun Baş katibi brifinq keçirmişlər. Azərbaycan Prezidenti demişdir: *"Bu gün Azərbaycanın regiondakı mövqeyinə baxsaq, qonşuları ilə müqayisə etsək, görərik ki, iqtisadi baxımdan ölkəmiz böyük tərəqqiyə nail olubdur".*

Ölkə başçısının 2004-cü il iyunun 3-dən 4-dək Ukraynaya rəsmi səfəri Azərbaycanın xarici siyasətinin uğuru kimi qiymətləndirilməlidir. Ukraynaya ilə Azərbaycan xalqları arasında dostluq əlaqələrinin kökləri çox-çox qədimlərə gedib çıxır. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra prezidentlər Heydər Əliyev və Leonid Kuçmanın birgə səyilə dövlətlərimiz arasında dostluq münasibətləri və qarşılıqlı əlaqələr daha da möhkəmlənmişdir. Xalqlarımız məhz bu görkəmli şəxsiyyətlərin rəhbərliyi altında strateji tərəfdaşlıq yolunda cəsarətli addımlar atmış, sənayenin inkişafında, elmi-texniki tərəqqidə, Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizlərinin yaradılması sahəsində birgə fəaliyyətdə, ən mühüm enerji layihələrinin gerçəkləşməsində uğurlu nəticələr əldə etmişdir.

Cənab İlham Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə səmimi görüşləri, həmin görüşlər zamanı imzalanan birgə bəyannamə və digər sənədlər, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, enerji daşıyıcılarının Avropaya nəqli, GUAM çərçivəsində sıx əməkdaşlıq məsələlərinin geniş müzakirəsi ikitərəfli əlaqələrin perspektivlərindən xəbər verir. Əminliklə demək olar ki, Ukraynaya ilə Azərbaycan arasında imzalanmış bu sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, ikitərəfli münasibətlərdə, regional və beynəlxalq miqyaslı əlaqələrdə daha fəal iştirak etməyimizə geniş imkan yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il iyunun 14-15-də Tbilisiyə dövlət səfəri Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının təsdiqi kimi diqqəti çəkmişdir. Dövlətimizin başçısını qonşu ölkədə ürək genişliyi ilə qarşıladılar. Bu, həm də ondan irəli gəlirdi ki, dost Gürcüstan torpağında da Prezident İlham Əliyevi bütün region üçün yeni ruhlu, nüfuzlu lider kimi qəbul edirlər. Prezident Mixail Saakaşvilinin Azərbaycan rəhbərinin siyasəti, nüfuzu, liderliyi barədə fikirləri bunu təsdiqləyir: *"Bu gün biz yeni lideri, postsovet məkanı üçün çox qeyri-adi olan lideri, öz ölkəsi və bütün region üçün rəhbərliyin yeni üslubunu həyata keçirən lideri, həmişə bel bağlamaq mümkün olan dostu qarşılayırıq. Bu, sadəcə, söz deyil, bu, həqiqətən belədir... Biz əsl dostlar, qardaşlar kimi birbirimizə həmişə güvənə bilərik"*. Tbilisidə Gürcüstanın böyük dostu, ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq parkın açılması da, Prezidentin paytaxt sakinləri ilə görüşləri də bu ölkə üçün Azərbaycanın nə qədər mühüm əhəmiyyət daşıdığını göstərən faktlardandır.

Prezidentlər sənədlərin imzalanma mərasimindən sonra verdikləri bəyanatlarda Gürcüstanla Azərbaycan arasında lazımi səviyyədə qarşılıqlı anlaşma olduğunu önə çəkdilər. Beynəlxalq və regional səviyyədə əməkdaşlığın nə dərəcədə strateji əhəmiyyət daşıdığı dəfələrlə vurğulandı. Onu da qeyd etmək lazımdır ki, bütün sahələrdə inkişafa nail olmaq üçün dövlət başçılarının şəxsi münasibətləri də müstəsna rol oynayır. Bundan əvvəl Gürcüstan Prezidentinin Bakıya, sonra isə Azərbaycanın dövlət başçısının Tbilisiyə səfərləri də belə qənaət yaradır. Səfərlərdən alınan təəssürat göstərir ki, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin gələcək inkişafı üçün iki ölkənin dövlət başçılarının şəxsi dostluq münasibətləri bir stimuldur.

Prezidenti İlham Əliyev 2004-cü il iyunun 26-29-da NATO-nun zirvə görüşündə iştirak etmək üçün Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı İstanbulun mərkəzində - Şişli bələdiyyəsinin ərazisində Heydər Əliyev adına park və büstün açılışı olmuşdur. Prezident İlham Əliyev mərasimdə çıxış edərkən demişdir: *"Mən bir daha qeyd etmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri çox güclüdür. Aramızda olan qardaşlıq,*

dostluq çox güclüdür və heç kim bu münasibətlərə təsir edə bilməz. Bu, bizim siyasətimizdir, biz də bunu aparacağıq".

İyunun 26-da Azərbaycan Prezidenti öz iqamətgahında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri Bill Fristi qəbul etmişdir. Burada Qara dəniz hövzəsi ölkələri üçün təşkil olunmuş "Avratlantik İttifaqı yol ayrıcında" mövzusunda konfransda çıxış edən respublikamızın rəhbəri demişdir: *"Regiona təhlükəsizlik lazımdır. Təəssüf ki, cənubi Qafqazda baş verən proseslər, xüsusilə də təcavüzkar separatçılıq ölkələrimizdə - Gürcüstan və Azərbaycanda baş verən hadisələr bütün regional əməkdaşlığı və təhlükəsizliyin özünü təhlükə altına alır"*. Azərbaycan Prezidenti Almaniya parlamentinin Müdafiə məsələləri komitəsinin sədri Volfqanq Rühe ilə də görüşmüşdür. Həmin gün cənab İlham Əliyev ABŞ-nın ən nüfuzlu qəzeti olan "Uoll street jornel"ə musahibə verdikdən sonra "Çırağan" mehmanxanasında mətbuat konfransı keçirmiş, Türkiyə Prezidenti Əhməd Necdət Sezərlə görüşmüşdür. "Lütfü Kırdal" adına beynəlxalq konfrans və sərgi sarayında NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə respublikamızın rəhbəri çıxış edərək demişdir: *"Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq yalnız bəyanatlarla deyil, praktiki addımlarla sübuta yetirmişdir. Biz siyasi iradəmizi ifadə edərək həm də ümumi məqsədimiz olan NATO-nun sülhü dəstəkləyən əməliyyatlarına qoşulmağa hazır olduğumuzu bildirdik. Bu gün bizim sülhməramlılar NATO və tərəfdaş dövlətlərin hərbçiləri ilə birlikdə dünyanın müxtəlif bölgələrində sülh və təhlükəsizliyə töhfələrini əsirgəmirlər"*.

İyunun 29-da NATO-nun zirvə görüşü çərçivəsində Azərbaycan dövlətinin başçısı İlham Əliyev ABŞ Prezidenti Corc Buş, Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Fransa Prezidenti Jak Şirak, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Ukrayna Prezidenti Leonid Kuçma, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Latviya Prezidenti xanım Vayra Vike-Freyberqa, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Litva Prezidentinin səlahiyyətlərini icra edən Arturas Paulauskas ilə görüşmüşdür. Respublikamızın rəhbərinin NATO-nun Baş katibinin Əfqanıstan üzrə yüksək səviyyəli mülki nümayəndəsi Hikmət Çətin və Türkiyənin Doğru Yol Partiyasının sədri Mehmet Ağar ilə də görüşləri keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Vladimir Putinin dəvəti ilə 2004-cü il iyulun 2-3-də Rusiyada səfərdə olmuşdur. Prezidentlər İlham Əliyev, Vladimir Putin və Əsgər Akayev Moskva Böyük Teatrının yeni səhnəsində dahi bəstəkar Dmitri Şostakoviçin "Duru çeşmə" baletinə tamaşa etmişlər. İyulun 3-də Moskvanın Mərkəzi Cıdır meydanında Rusiya Prezidentinin mükafatı uğrunda atçapma yarışları keçirilmişdir. Prezident İlham Əliyev bu

yarışmanı izləmişdir. Həmin gün MDB-nin üzvü olan ölkələrin prezidentlərinin qeyri-rəsmi görüşü keçirilmişdir.

Prezident İlham Əliyev XXVIII yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün 2004-cü il avqustun 12-19-da Yunanıstanın paytaxtı Afinada səfərdə olmuşdur. Azərbaycanın dövlət başçısı Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun adından verilən ziyafətdə iştirak etmiş, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq ilə görüşmüşdür. Söhbət zamanı bu qurumla sıx əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin vacibliyi vurğulanmışdır. Respublikamızın rəhbəri tədbir zamanı Avropa Olimpiya Komitəsinin prezidenti Mario Peskante, Ukraynanın Baş naziri Viktor Yanukoviç, Beynəlxalq Olimpiya Komitəsinin fəxri prezidenti Xuan Antonio Samaranc və digər şəxslərlə də görüşmüşdür. Olimpiya oyunları çərçivəsində keçirilən "Azərbaycan günü"ndə Prezident İlham Əliyev demişdir: *"Azərbaycanda Olimpiya hərəkatı həyatımızın çox vacib, çox mühüm bir hissəsinə çevrilmişdir. Biz olimpizmin, idmanın inkişafına çox böyük fikir veririk. Olimpiya hərəkatının ideallarını inkişaf etdiririk. İdmançılar üçün qurğular yaradırıq"*. Sonra dövlətimizin başçısı Olimpiya kəndinə getmiş və burada Azərbaycanın idman nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına 2004-cü il avqustun 24-dən 26-dək davam edən ilk rəsmi səfərinin gedişi iki ölkə arasında əlaqələrin bütün sahələrdə dinamik inkişaf etdiyini təsdiqləyən mühüm faktlarla zəngin olmuşdur. Bu səfər dünya diplomatiyasındakı yerinə, beynəlxalq siyasi proseslərə təsir imkanlarına və iqtisadi potensialına görə Avropanın ən aparıcı dövlətlərindən sayılan Almaniyanın Azərbaycanla münasibətlərə kifayət qədər böyük əhəmiyyət verdiyini bir daha təsdiqləmişdir. Prezident İlham Əliyevin Berlində keçirdiyi bütün görüşlərdə hər iki ölkənin əksər məsələlərdə ortaq mövqedən çıxış etdiyi növbəti dəfə təsdiqini tapmışdır. Almaniya Prezidenti Horst Köler və Federal kansler Gerhard Şröder Azərbaycanla siyasi tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayaraq rəsmi Bakının Avratlantik məkanına inteqrasiya kursunu dəstəklədiklərini bəyan etmişlər. Cənab Şröderin Azərbaycandakı iqtisadi-siyasi durumla bağlı məmnunluqla danışması, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatları təqdir etməsi ikitərəfli əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyindən xəbər verir: *"...Mən belə fikirdəyəm ki, Azərbaycan Prezidenti hüquqi dövlət yaradılmasında çox maraqlıdır və çox böyük səylər göstərir, nailiyyətlər də əldə edibdir. Ona görə də mən ona çox böyük hörmətlə, ehtiramla yanaşıram. Cənab İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən islahatlar nəticəsində çox gözəl,*

yaxşı mənada təəccübləndirici nəticələr əldə olunubdur".

Almaniyanın Federal kansleri Gerhard Şröderin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş etdirdiyi prinsipial və ədalətli mövqe səfərin siyasi əhəmiyyətini daha da artırdı. Səfər zamanı Cənab Gerhard Şröder rəsmi Berlinin bu mövqeyini bir daha bəyan edərək Azərbaycanın Cənubi Qafqaz regionunda sülh və sabitliyin, iqtisadi tərəqqinin bərqərar olunması istiqamətindəki səylərini yüksək qiymətləndirmişdir. Prezident İlham Əliyev səfər zamanı keçirdiyi bütün görüşlərdə ölkəmizin Almaniya ilə münasibətlərə hər zaman xüsusi əhəmiyyət verdiyini və bu yönümdə konkret addımlar atdığını bildirmişdir. O, xüsusilə vurğulamışdır ki, Almaniya şirkətləri Azərbaycanda infrastrukturun yeniləşməsində, yeni müəssisələrin açılmasında daha yaxından iştirak etməli, sərmayə qoyuluşunda daha fəal olmalıdırlar.

İkitərəfli əməkdaşlıq sistemində respublikamızın müstəqilliyini ilk tanıyan ölkələrdən olan Rumıniya ilə əlaqələr də çox əhəmiyyətli olmuşdur. Azərbaycanın xarici siyasətində bu ölkə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi, sözün əsl mənasında yüksək səviyyəyə qaldırılması mühüm əhəmiyyət daşıyır. Bu mənada, cənab İlham Əliyevin 2004-cü il oktyabrın 11-də Rumıniyaya ikigünlük rəsmi səfəri, səfər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycan və Rumıniya prezidentləri arasında təkbətək görüşdə dövlət başçıları Azərbaycan Prezidentinin bu səfərini yüksək dəyərləndirmiş və bunun ikitərəfli əlaqələrin daha yüksək səviyyəyə qalxmasında önəmli rol oynayacağına əminliklərini ifadə etmişlər. Görüş zamanı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin perspektivləri, regional əməkdaşlıq, eləcə də beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparılmışdır. Prezidentlər Azərbaycan-Rumıniya əlaqələrinin daha da inkişafı üçün görülən işlərdən və Hökumətlərarası Komissiyanın fəaliyyətindən məmnunluqlarını bildirmişlər. Dövlət başçıları regionda sabitlik və təhlükəsizlik məsələləri, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi etmişlər. Azərbaycanın və Rumıniyanın Avropa strukturlarına, Avropa və Avratlantika məkanına inteqrasiyası məsələlərini geniş müzakirə edən dövlət başçıları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq bunun regional əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəyini bildirmişlər. Tərəflər Avropa İttifaqının yeni qonşuluq siyasətini bəyəndiklərini vurğulamış və Qafqaz ölkələrinin, xüsusilə Azərbaycanın bu siyasətə daxil olunmasını çox əlamətdar hal kimi qiymətləndirmişlər. Görüşdə Azərbaycanın təbii qazının Rumıniyaya və buradan Avropanın digər ölkələrinə nəqli məsələsinə də toxunulmuş. Avropa İttifaqının Qafqazdakı münaqişələrin həlli sahəsində səylərinin

gücləndirilməsi zərurəti qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il oktyabrın 18-19-da Rusiyada işgüzar səfərdə olmuş, səfər çərçivəsində Ümumrusiya Azərbaycan Konqresinin II qurultayında və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) 60 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Ümumrusiya Azərbaycan Konqresinin qurultayında Rusiyadakı Azərbaycan diasporu üçillik fəaliyyətinə yekun vurmuş və gələcək işin əsas istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin qurultayda iştirakı forumun əsas hadisəsinə çevrilmişdir. Dövlət başçıları Konqresin fəaliyyətini yüksək qiymətləndirmiş, Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsində bu təşkilatın əhəmiyyətini vurğulamışlar. Qurultay iştirakçıları ÜAK-ın hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndirmişlər. Qurultay iştirakçılarının yekdil fikrincə, ÜAK-ın fəaliyyətinin öncül istiqamətləri Rusiyada yaşayan azərbaycanlıların sıx birləşməsi prosesini davam etdirməkdən və milli ənənələrin, Azərbaycan dilinin inkişafı və qorunub saxlanması da daxil olmaqla, milli-mədəni işi gücləndirməkdən ibarətdir. Ümumtəhsil proqramlarının həyata keçirilməsinə, gənclərlə iş aparılmasına, habelə Rusiya Federasiyasının ərazisində yaşayan azərbaycanlıların hüquqi və sosial müdafiəsinin təmin edilməsi üzrə fəaliyyətə gələcəkdə də xüsusi diqqət yetiriləcəkdir. Qurultayda qəbul olunmuş qətnamədə təşkilatın fəaliyyətinin öncül istiqamətləri əksini tapmışdır. Bununla yanaşı, "Beynəlxalq terrorizmin və silahlı separatizmin milli təhlükəsizliyə, millətlərarası sülhə və Rusiya xalqının həmrəyliyinə hədə-qorxuları haqqında" qurultayın bəyanatı qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair bəyanat da qəbul olunmuşdur.

Azərbaycanın xarici siyasətində Qərbə inteqrasiya məsələləri xüsusi əhəmiyyətə malik istiqamətlərdən birini təşkil edir. Lakin bu, digər regionlarla əlaqələrin arxa plana keçirilməsi anlamına gəlmir. Prezident İlham Əliyevin Qətər Dövlətinə 2004-cü il noyabrın 30-dan dekabrın 1-dək olan rəsmi səfəri də bunu əyani şəkildə təsdiqləyir. Ərəb dünyasının inkişaf etmiş ölkələrindən biri kimi tanınan Qətər Dövləti İslam Konfransı Təşkilatının fəal üzvlərindən biridir və digər beynəlxalq təşkilatlarda keçirilən müzakirələr zamanı həmişə ölkəmizin mövqeyini dəstəkləmişdir. Azərbaycanı Qətərlə əlaqələri inkişaf etdirməyə sövq edən əsas amillərdən biri müsəlman dövlətləri ilə əlaqələrin daha sürətli inkişafına olan ehtiyacdır. İkinci mühüm faktor isə bundan ibarətdir ki, Qətər Dövlətinin neft sərvətlərindən iqtisadiyyatın kompleks inkişafı üçün istifadə təcrübəsi

Azərbaycana da faydalı ola bilər. Qətərin iqtisadiyyatında neft faktoru əsasında qazanılmış nailiyyətlərdən dünyada karbohidrogen ehtiyatlarına görə tanınan Azərbaycan da bəzi şeylər öyrənə bilər. İki ölkəni yaxınlaşdıran daha bir məqam isə iqtisadi əməkdaşlığın inkişafı ilə bağlıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Qətərə rəsmi səfəri zamanı bu barədə geniş fikir mübadiləsi aparılmış və bir neçə mühüm sənəd imzalanmışdır. Turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu, iqtisadi-ticarət və texniki əməkdaşlıq haqqında saziş, səhiyyə sahəsində əməkdaşlıq haqqında saziş buna misal ola bilər. İmzalanmış sənədlər ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin, səhiyyə, mədəniyyət, turizm, idman sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə olan qarşılıqlı marağı əks etdirir. Səhiyyə və idmanla bağlı imzalanmış sənədlərdə Azərbaycan mütəxəssislərinin Qətərə dəvət olunması və yerli mütəxəssislərin hazırlanmasına kömək göstərməsi nəzərdə tutulur. 2005-ci ildə keçiriləcək ərəb ölkələri çempionatında və 2006-cı ildə Asiya ölkələri çempionatında çıxış edəcək Qətər idmançılarının yaxşı hazırlaşmasını təmin etmək baxımından Milli olimpiya komitələri arasında imzalanmış memoranduma böyük əhəmiyyət verilir. Qətər tərəfi bu sahədə Azərbaycanın idman mütəxəssislərinin təcrübəsi və köməyindən bəhrələnmək niyyətindədir. Xarici işlər nazirlikləri arasında imzalanmış sənəd isə digər qurumların əməkdaşlığa cəlb olunması sahəsində çərçivə mexanizminin yaradılması məqsədi daşıyır.

İmzalanmış sənədlər tərəflərin iqtisadi əməkdaşlığa xüsusi maraq göstərdiyini təsdiqləməklə yanaşı, həm də hər iki ölkənin mənafelərinin bir çox məsələlərdə üst-üstə düşdüyünü nümayiş etdirir. Dövlət başçıları da danışıqlarda iki ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyəyə qaldırılmasının vacibliyini qeyd etmişlər. Prezident İlham Əliyev xüsusi olaraq vurğulamışdır ki, bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlər var. Qətər Dövlətinin Əmiri şeyx Həməd bin Xəlifə Al Tani ölkəsinin nəinki Azərbaycanla əməkdaşlığı inkişaf etdirməyə, həm də respublikamıza zəruri yardım göstərməyə hazır olduğunu bəyan etmişdir. O, siyasi sahədə əməkdaşlığın səviyyəsinin qənaətbəxş olduğunu da vurğulamışdır. İmzalanmış sənədlər və aparılmış danışıqların məzmunu hər iki ölkənin münasibətlərin inkişafı istiqamətində konkret addımlar atmağa hazır olduğunu təsdiqləyir. Bu isə tamamilə təbiidir və yalnız tərəflərin iqtisadi maraqları və siyasi mənafeləri ilə şərtlənmir. Azərbaycanla Qətəri həm də daha bir vacib amil - din eyniliyi birləşdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il dekabrın 12-14-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri iki ölkə arasında münasibətlərin gələcək prioritetlərinin müəyyənləşdirilməsi, eləcə də qarşılıqlı maraq doğuran bir sıra mühüm məsələlərin müzakirəsi

baxımından uğurlu nəticələrlə yadda qalmış, Avropanın hərbi-siyasi güc mərkəzlərindən sayılan Böyük Britaniyanın Azərbaycanla qarşılıqlı faydalı əlaqələrə böyük önəm verdiyini və strateji müttəfiqlik istiqamətində real addımlar atdığını nümayiş etdirmişdir. Səfər zamanı məlum olmuşdur ki, İngiltərə hökuməti rəsmi Bakının demokratiya və iqtisadi inkişaf naminə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirir və bu xüsusda ölkəmizə yardımlarını artırmaq niyyətindədir.

Prezident İlham Əliyevin Böyük Britaniyaya ilk rəsmi səfəri zamanı iki ölkə arasında mövcud əlaqələrin daha da genişləndirilməsinə və strateji müstəvidə inkişafına xidmət edən bir sıra razılaşmalar əldə olunmuş, habelə müxtəlif məsələlərlə bağlı faydalı müzakirələr aparılmışdır. Böyük Britaniyanın Baş naziri Toni Bleyer Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı ölkədə demokratikləşmə və iqtisadi inkişaf yönümündə həyata keçirilən islahatları yüksək dəyərləndirmişdir. Görüşün əhəmiyyətli məqamlarından biri də 1998-ci il iyulun 21-də imzalanmış dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamənin yenidən təsdiqi idi: bununla dövlət başçıları Azərbaycanda bazar iqtisadiyyatının və çoxpartiyalı demokratiyanın inkişafına kömək məqsədi ilə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsini dəstəklədiklərini bəyan etmişlər. Həmçinin, Baş nazir Toni Bleyer Azərbaycan Silahlı Qüvvələrinin İraq, Əfqanıstan və Kosovoda beynəlxalq sülh və təhlükəsizliyin təminatında yaxından iştirakını alqışlamışdır. Görüş zamanı Silahlı Qüvvələrin bu sahədə təcrübəsinin artırılması məqsədilə təlim proqramını inkişaf etdirmək barədə də razılığa gəlinmişdir. Dövlət başçıları Avratlantik Tərəfdaşlıq Şurası və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə əlaqələrin inkişafını alqışlamış və "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nın əhəmiyyətini xüsusi vurğulamışlar. Genişlənmiş Avropa daxilində Cənubi Qafqazın sülh, sabitlik, mehriban qonşuluq və tərəqqi ərazisinə çevrilməsi, Azərbaycanın təbii ehtiyatlarının birgə mənimsənilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli naminə səylərin gücləndirilməsi, terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı ikitərəfli əməkdaşlığın davam etdirilməsi barədə əldə olunan razılaşmalar da danışıqların vacib elementləri kimi qeyd oluna bilər. Toni Bleyer BMT Nizamnaməsinə uyğun olaraq Birləşmiş Krallığın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bir daha bəyan etmiş və bu fakt ölkəmiz üçün prinsipial əhəmiyyət kəsb edir. Azərbaycanın hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulması da Böyük Britaniyanın Baş naziri tərəfindən yüksək dəyərləndirilmişdir.

Dövlətimizin başçısı Böyük Britaniyada keçirdiyi digər görüşlər zamanı Azərbaycanın bugünü və gələcəyi ilə bağlı fikirlərini açıqlamış, ölkədə həyata keçirilən islahatlar barədə ətraflı məlumat vermişdir.

Prezident İlham Əliyevin Londonda məşhur siyasətçilərin, diplomatların, mətbuat nümayəndələrinin, Avropanın tanınmış publisist və ictimai xadimlərinin üzvü olduqları "Shatham House" klubundakı dərin məzmunlu nitqi də bu baxımdan diqqətəlayiqdir. Azərbaycan Prezidenti çıxışında 1993-cü ildən Azərbaycanda siyasi sabitliyin, vətəndaş həmrəyliyinin və elmi əsaslara söykənən sosial-iqtisadi inkişafın təmin olunduğunu, Qərb dövlətləri ilə birgə qlobal enerji layihələrinin həyata keçirildiyini, bütün bunların nəticəsində isə ölkənin beynəlxalq nüfuzunun gücləndiyini vurğulamışdır: "Azərbaycanın iqtisadi göstəricilərinə nəzər salsanız, görərsiniz ki, 1995-ci ildən 2003-cü ilədək iqtisadi göstəricilər 90 faiz artmışdır. Azərbaycan bu gün regionda adambaşına düşən xarici sərmayənin həcminə görə aparıcı ölkədir. Genişmiqyaslı özəlləşdirmə proqramı, iqtisadi islahatlar, torpaq islahatları, özəl sektor üçün əlverişli şəraitin yaradılması bugünkü duruma gətirib çıxarmışdır, yəni Azərbaycan sürətlə inkişaf edən ölkədir. Qətiyyətlə demək olar ki, Ümumi Daxili Məhsulda özəl sektorun payı 75 faizdir. Xüsusilə, nəzərə alınsa ki, Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi dövlətin inhisarındadır, onda özəl sektorun Azərbaycan iqtisadiyyatındakı rolunu görmək olar. Ölkə daha sabit olduqca, iqtisadi cəhətdən daha çox inkişaf etdikcə, Azərbaycanın regiondakı aparıcı rolu da artmağa başladı. Bu gün Azərbaycan sosial və siyasi sabitlik ölkəsidir, cəmiyyətin birliyi ölkəsidir". Rəsmi Bakının Avratlantik məkana inteqrasiya kursunun dəyişməz olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan Qərbin aparıcı dövlətləri və demokratik institutları ilə əməkdaşlığa böyük önəm verir. Ölkəmizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və bunun nəticəsində bölgədə yaranmış təhlükəli vəziyyət barədə də ətraflı danışmış və xüsusi vurğulamışdır ki, münaqişənin həllinin uzanması Cənubi Qafqazda sülh və sabitliyin möhkəmlənməsinə və daimi xarakter almasına, habelə Qərb dövlətləri ilə birgə qlobal enerji layihələrinin təhlükəsiz reallaşdırılmasına ciddi maneə yaradır: *"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində beynəlxalq normalar kobudcasına pozulmuşdur və beynəlxalq hüquq normalarına məhəl qoymamaq işğal və etnik təmizləmə ilə nəticələnmişdir. Bugünkü gün təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağın ətrafındakı 7 rayon da işğal altındadır. Danışıqlar təəssüf ki, heç bir fayda verməmişdir, nəticə yoxdur. Amma biz münaqişənin sülh yolu ilə həlli variantına sadiqik və bu yola inanırıq. Biz istəyirik inanaq ki, məsələnin sülh yolu ilə həlli mümkündür. Amma, eyni zamanda, Azərbaycan heç zaman bu işğalla barışmayacaq və bacardığımızı edəcəyik və əminəm ki, torpaqlarımız azad olunacaqdır".*

Ümumiyyətlə, dövlətimizin başçısının Böyük Britaniyaya səfəri göstərdi ki, bu ölkədə Azərbaycan həqiqətləri barədə getdikcə daha aydın

təsəvvürlər formalaşır. Xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu ölkənin regiondakı nüfuz və mövqelərinə, iqtisadi maraqlarına ciddi təhlükə kimi qəbul edilir. Bu baxımdan, rəsmi Londonun perspektivdə münaqişənin həlli ilə bağlı səylərinin gücləndəcəyini də böyük ehtimalla söyləmək olar. Səfərin nəticələri həm də deməyə əsas verir ki, Azərbaycan İngiltərənin timsalında beynəlxalq aləmdə ciddi nüfuz və söz sahibi olan tərəfdaş qazanıb. Azərbaycana etibarlı müttəfiq kimi yanaşan rəsmi London ona ən müxtəlif məsələlərdə dəstək olmağa çalışır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran Prezidenti Seyid Məhəmməd Xatəminin dəvətilə bu ölkəyə 2005-ci il yanvar ayının 24-dən 26-dək olan ilk rəsmi səfəri ikitərəfli əməkdaşlığın sürətli inkişafına təkan vermiş, İranın rəhbərləri ilə keçirilmiş səmərəli görüşlərdə dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri və əlaqələrin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir. Dövlətimizin başçısı dost və qonşu ölkəyə çox uğurlu keçən ilk səfəri zamanı İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə müzakirələr və danışıqlar aparmış, ölkənin ali rəhbəri ayətüllah Seyid Əli Xamenei, parlamentin sədri Qulaməli Həddad Adil, Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani, xarici işlər naziri Kamal Xərrazi ilə görüşlər keçirmişdir. Azərbaycan və İran prezidentlərinin danışıqlarından sonra doqquz sənəd imzalanmışdır. Səfərin yekunlarına dair prezidentlərin mətbuat üçün Birgə Bəyanatı yayılmışdır. Azərbaycan Prezidenti "İran Xodro" zavodu ilə də tanış olmuş, İran inqilabının rəhbəri imam Xomeyninin məzarını ziyarət edərək əklil qoymuş, fəxri qonaqlar kitabına ürək sözlərini yazmış, Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbriz şəhərinə səfər etmişdir.

Azərbaycan və İran prezidentlərinin görüşündə cənab İlham Əliyevin İrana rəsmi səfərinin çox uğurlu keçdiyi və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün bu səfərin faydalı olduğu bildirilmişdir. Tərəflər müzakirə edilən məsələlərin ölkələrimizin və xalqlarımızın milli mənafelərinə uyğun olduğunu vurğulamışlar. Söhbət zamanı Azərbaycan-İran dostluğunun və tərəfdaşlığının möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, siyasi, iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması, iqtisadi münasibətlərin genişləndirilməsi üçün hüquqi bazanın və yaxşı şəraitin mövcud olduğu qeyd edilmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivlərinə də toxunulmuş, BMT-nin və digər beynəlxalq təşkilatların bu münaqişə ilə bağlı qəbul etdiyi sənədlərin yerinə yetirilməsi, İranın problemin Azərbaycan Respublikasının ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğu bir daha bəyan edilmişdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin hazırkı səviyyəyə qalxmasında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini

vurğulamışdır: *"Münasibətlərin yeni mərhələsi, demək olar ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin İrana rəsmi səfərindən sonra başlamışdır"*. Təsadüfi deyil ki, səfərin yekunlarına dair Birgə Bəyanatda da, ilk növbədə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 2002-ci il 20 may tarixli müqaviləyə istinad edilmişdir. İran Prezidenti Seyid Məhəmməd Xatəmi isə son altı ay ərzində 20-dək sənəd imzalanmasını tərəflərin qarşılıqlı əlaqələrə ciddi münasibətinin göstəricisi kimi dəyərləndirmiş və əmin olduğunu bildirmişdir ki, əsası Prezident Heydər Əliyev tərəfindən qoyulmuş siyasət daha qətiyyətlə davam etdiriləcəkdir: *"...rəhmətlik Heydər Əliyevin öz ölkəsi üçün və bu bölgədə sülhün, əmin-amanlığın yaranması üçün gördüyü işlər Sizin güclü əliniz və möhkəm iradəniz nəticəsində davam etdiriləcəkdir"*.

Prezidentlərin danışıqlarından sonra ikitərəfli əməkdaşlığa dair doqquz sənəd imzalanmışdır. İmzalanan sənədlər arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan və İran vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri, İranın Astara-Ələt yolunun tikintisi ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması məqsədilə Azərbaycana 1 milyon ABŞ dolları həcmində qrant ayırması, səhiyyə, təhsil, dəmir yolu və aviasiya sahələrində əməkdaşlıq haqqında memorandumlar var. Tərəflər, həmçinin Araz çayının hidropotensialından birgə istifadə, o cümlədən Ordubad HES-in tikintisinə dair sazişlər imzalamışlar. Bundan əlavə, iki ölkənin Maliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu və İrana məxsus olan sənət əsərlərinin Azərbaycan hökuməti tərəfindən bu ölkəyə verilməsinə dair protokol imzalanmışdır.

Prezidentlər sənədlərin imzalanma mərasimindən sonra keçirdikləri birgə mətbuat konfransında İranla Azərbaycan arasında lazımi səviyyədə qarşılıqlı anlaşma olduğunu önə çəkmişlər. Beynəlxalq və regional səviyyədə əməkdaşlığın nə dərəcədə əhəmiyyət daşıdığı dəfələrlə vurğulanmışdır. Onu da qeyd etmək lazımdır ki, bütün sahələrdə inkişafa nail olmaq üçün dövlət başçılarının şəxsi münasibətləri də müstəsna rol oynayır. Bundan əvvəl İran Prezidentinin Bakıya, sonra isə Azərbaycanın dövlət başçısının Tehrana səfərləri də belə qənaət yaradır. Səfərlərdən alınan təəssürat göstərir ki, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin gələcək inkişafı üçün iki ölkənin dövlət başçılarının şəxsi dostluq münasibətləri bir stimuldur.

Səfərin gedişində İranın ali rəhbəri ayətüllah Seyid Əli Xamenei ilə keçirilən görüşdə ikitərəfli münasibətlərə dair geniş fikir mübadiləsi aparılmışdır. Dövlətimizin başçısını mehribanlıqla, səmimiyyətlə qarşılayan və onunla görüşündən çox məmnun olduğunu söyləyən ayətüllah Seyid Əli Xamenei əminliklə bildirmişdir ki, Prezident İlham Əliyevin İrana ilk rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafını daha da sürətləndirəcəkdir. O, eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə Allahdan rəhmət diləyərək onun siyasi

fəaliyyətini, tarixi xidmətlərini yüksək qiymətləndirmiş, ona böyük hörmət və ehtiram bəslədiyini və indi də əziz xatirəsini daim yad etdiyini vurğulamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən İranın ali rəhbəri demişdir ki, Qafqazda baş verən münaqişələr bölgədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törədir: *"İran Ermənistanın Azərbaycana təcavüzünü daim pisləmişdir və bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılmalıdır"*. Seyid Əli Xamenei vurğulamışdır ki, Azərbaycan ilə İranın gələcək əlaqələrinin perspektivləri aydın və ümidvericidir. O, iki ölkə xalqlarının uzun tarixi münasibətlərinə toxunaraq bildirmişdir ki, biz əlaqələrimizi bütün sahələrdə, o cümlədən siyasi, təhlükəsizlik, iqtisadi, mədəni sahələrdə genişləndirmək fikrindəyik. Ali rəhbər bu səfərin Tehran-Bakı əməkdaşlığına böyük təkan verəcəyinə və iki ölkənin mənafeyinə xidmət edəcəyinə əminliyini bildirmişdir.

Dövlətimizin başçısı İrana səfərə gəlməsindən və İranın ali rəhbəri ilə görüşündən çox məmnun olduğunu bildirmiş, səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razı qaldığını söyləmiş və əmin olduğunu bildirmişdir ki, bu səfər İran-Azərbaycan münasibətlərinin inkişafına təkan verəcəkdir. O, həmçinin ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu da xatırlatmışdır. Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri davam etdiyini bildirən Prezident İlham Əliyev torpaqlarımızın iyirmi faizinin hələ də işğal altında qaldığını, bir milyondan artıq vətəndaşımızın öz doğma yerlərindən qovularaq ağır vəziyyətdə yaşadığını xatırlatmış, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar prosesindən söhbət açmışdır.

Azərbaycan-İran əməkdaşlığının perspektivləri Prezident İlham Əliyevin İran parlamentinin sədri Qulaməli Həddad Adil ilə görüşündə də geniş müzakirə edilmişdir. Dövlətimizin başçısının İranda keçirdiyi görüşlərin, apardığı danışıqların faydalı olacağını bildirən parlamentin sədri ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini xatırlatmış və onun xüsusilə İranla əlaqədar siyasətini davam etdirdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmişdir. Söhbət zamanı Azərbaycan ilə İran arasında hərtərəfli əlaqələrin inkişafı üçün böyük imkanların olduğu və bunlardan səmərəli istifadə edilməsinin zəruriliyi qeyd olunmuş, qarşılıqlı əlaqələrin daha sürətlə inkişafı üçün nəzərdə tutulan bütün tədbirlərin həyata keçiriləcəyi vurğulanmışdır. Tərəflər ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası dostluq qruplarının rolunu müsbət qiymətləndirmiş, onların fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini bildirmişlər. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşdə isə Azərbaycan Prezidenti İrana səfərinin çox uğurla keçdiyini və bu səfərdən sonra münasibətlərin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir. Məsləhət Şurasının sədri Prezident İlham Əliyevin İrana səfərə gəlməsindən və Tehranda onunla görüşündən çox şad olduğunu söyləmişdir. Rəfsəncani Azərbaycanın ümummilli lideri, görkəmli şəxsiyyət Heydər Əliyev ilə yaxın dost olduğunu xatırladaraq demişdir ki, o, öz ölkəsi və bütün region üçün tarixi fəaliyyət göstərmişdir: "Allah ona rəhmət eləsin, onun İranda çox böyük hörməti vardır. Biz çox şadıq ki, Siz onun yolunu uğurla davam etdirirsiniz".

Dövlətimizin başçısı Azərbaycanın bütün istiqamətlərdə inkişaf etdiyini, iqtisadi baxımdan sağlam mühitin yarandığını və ölkənin gözəl perspektivləri olduğunu söyləmiş və demişdir ki, qarşıdakı beş ildə Azərbaycan daha da inkişaf edəcəkdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev xüsusilə qeyd etmişdir ki, *"bizim ən böyük problemimiz Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bu işğal nəticəsində ölkədə bir milyondan çox qaçqın və məcburi köçkünün yaranmasıdır. Təəssüflər olsun ki, bu məsələ danışıqlar yolu ilə hələ də öz həllini tapmayıbdır. Bu münaqişə region üçün böyük təhlükə mənbəyidir. İranın bu məsələdə mövqeyi ədalətli olubdur, həmişə onun dəstəyini hiss etmişik və buna görə də təşəkkür edirik"*.

Səfər zamanı qarşılıqlı maraq kəsb edən bir çox mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin yekunlarına dair mətbuat üçün Birgə Bəyanat qəbul edilmişdir. Birgə Bəyanatda bu iki dövlətin etibarlı tərəfdaşlıq əlaqələri qurması ən ciddi nailiyyətlərdən biri kimi qiymətləndirilir. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İranın bundan sonra da Azərbaycana lazım olan dəstəyi verəcəyini bildirilir. Rəsmi Tehran problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını nizamlama prosesinin ən ümdə şərti kimi dəyərləndirdiyini bəyan edir. Prezidentlərin imzaladığı sənəddə belə bir qəti mövqenin öz əksini tapması münaqişənin həllində Azərbaycanın maraqlarının nəzərə alınmasının qaçılmaz olduğunu ortaya qoyur. Birgə Bəyanatda deyilir: "Azərbaycan və İran Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonası olmasına səy göstərəcəklər". Sənəddə tərəflər Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın sahilyanı dövlətlərin konsensusu əsasında razılaşdırılması üzrə konstruktiv dialoqun davam etdirilməsi zəruriliyini önə çəkir və bununla bağlı Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun fəaliyyətinin artırılması arzusu bildirilir. Bundan əlavə, Bəyanatda 2003-cü ildə Tehranda bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanmış Xəzər dənizinin mühitinin

mühafizəsi haqqında Çərçivə Konvensiyasının tezliklə ratifikasiya edilməsinin və qüvvəyə minməsinin vacibliyi qeyd olunur. Tərəflər bütün dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə, onların daxili işlərinə qarışmamağa, beynəlxalq hüququn hamılıqla tanınmış digər normalarına əsaslanan beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsi məqsədi ilə ikitərəfli və çoxtərəfli əsasda sıx qarşılıqlı fəaliyyəti davam etdirəcəklər. İran və Azərbaycan qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq çərçivəsində BMT və onun təsisatları, İKT, İƏT və digər universal və regional xarakterli beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını təsdiqləyir. Tərəflər mövcud müqavilə-hüquq bazasının iki ölkə arasında münasibətlərin hərtərəfli inkişafının təmin edilməsi üçün etibarlı əsas olduğunu məmnunluqla qeyd edir. Azərbaycan ilə İran beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi yeni qlobal çağırışlara və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaq. Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin və İKT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinə və bu münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında həllinə tərəfdar olduqlarını bir daha bəyan edir.

Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı ilə əlaqədar 2005-ci il fevralın 15-dən 16-dək Moskvada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kremldə Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşmüş və burada aparılmış danışıqlar tərəflər arasında konstruktiv siyasi dialoqun və anlaşmanın mövcudluğunu göstərmişdir. Azərbaycan və Rusiya prezidentlərinin görüşündə cənab İlham Əliyevin Moskvaya səfərinin ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün faydalı olduğu bildirilmişdir. Tərəflər müzakirə edilən məsələlərin ölkələrimizin və xalqlarımızın milli mənafelərinə uyğun olduğunu vurğulamışlar. Söhbət zamanı Azərbaycan-Rusiya dostluğunun və tərəfdaşlığının möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, siyasi, iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması, iqtisadi münasibətlərin genişləndirilməsi üçün hüquqi bazanın və yaxşı şəraitin mövcud olduğu qeyd edilmişdir. Dövlət başçısı Vladimir Putin Prezident İlham Əliyevlə Rusiyada Azərbaycan ilinin açılışı kimi gözəl bir hadisə ilə əlaqədar görüşdüyündən məmnunluq duyduğunu xüsusi vurğulamışdır: *"Biz bu barədə ötən il razılığa gəlmişdik. Bununla əlaqədar demək istəyirəm ki, kifayət qədər fəal inkişaf edən heç də təkcə iqtisadi əlaqələrimiz deyildir. Ötən il əmtəə dövriyyəsi rekord həddədək - 50 faizədək artaraq, təxminən*

bir milyard dollara yaxınlaşmışdır. Hər halda, biz milyard səviyyəsinə tezliklə nail olacağıq, indi əmtəə dövriyyəsi təqribən 800 milyon dollardır. Keçən il biz sizinlə 1 milyard dollar səviyyəsinə çıxmağı qarşıya məqsəd qoymuşduq. Əminəm ki, biz buna yaxın vaxtlarda çatacağıq".

Ölkələrimiz arasında humanitar sahədə əlaqələrin kəsilmədiyini, əksinə, inkişaf etdiyini bildirən Rusiya Prezidenti qeyd etmişdir ki, *"ötən il Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Rus dilinin dəstəklənməsinə Sizin necə münasibət göstərdiyinizi bilirəm. Bizim məlumatımıza görə, Azərbaycanda əhalinin, demək olar, 40 faizi rusdillidir, yəni onlar rus dilində sərbəst danışırlar. Zənnimcə, bundan da çoxdur. Bugünkü tədbiri, Rusiyada Azərbaycan ilinin açılışını sözsüz əlamətdar hadisə hesab edirəm. Bu tədbirdə şəxsən iştirak etməyə gəldiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm".*

Bir il öncə Rusiyaya rəsmi səfəri zamanı müəyyənləşdirilən planların belə sürətlə həyata keçirilməsindən məmnun olduğunu vurğulayan Azərbaycan lideri əmtəə dövriyyəsinin 50 faiz artmasını qarşılıqlı marağın, qarşılıqlı faydanın parlaq göstəricisi kimi dəyərləndirmişdir: *"Ümumiyyətlə, siyasi müstəvidə konstruktiv, yaxın münasibətlər olmadan, belə iqtisadi sahədə sıçrayışa nail olmaq mümkün olmazdı. Bu il biz Bakıda Rusiya-Azərbaycan biznes forumu kimi böyük tədbir də keçirdik. Dövlət müəssisələri və özəl müəssisələr səviyyəsində əlaqələr genişlənir. ...Humanitar sahədə də böyük tərəqqi var. Lakin bu sahə əməkdaşlığın qalan bütün istiqamətlərindən həmişə bir növ irəlidə olmuşdur. Əvvəlki illərdə olduğu kimi, yenə də Azərbaycanda rus dilinə, rus mədəniyyətinə münasibət ən yüksək səviyyədədir. Biz ikitərəfli əməkdaşlığın səviyyəsindən çox məmnunuq, əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Yeri gəlmişkən, biz keçən il heç ümid etmirdik ki, əmtəə dövriyyəsi belə sürətlə artacaqdır. Biz əmtəə dövriyyəsini daha uzaq perspektivdə iki dəfə artırmağı qarşıya məqsəd qoymuşduq. İndi bu, artıq reallıqdır. Odur ki, bütün bunlar məmnunluq hissi doğurur və biz buna çox şadıq".*

Rusiya Prezidenti ölkələrimiz arasında əməkdaşlığın daha bir istiqamətinə, yəni investisiya fəaliyyətinə toxunaraq bildirmişdir ki, Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa hazır olan bir çox Rusiya şirkətlərinin planları məlumdur, tamamilə konkret layihələr var.

Dövlətimizin başçısı bu sərmayələri alqışladığını və səmərəli, faydalı əməkdaşlıq ediləcəyinə ümid bəslədiyini demişdir. Prezident İlham Əliyev Azərbaycandakı sosial-iqtisadi vəziyyətdən, son bir ildə bu istiqamətdə əldə olunmuş uğurlardan danışmış, Azərbaycanın bütün istiqamətlərdə inkişaf etdiyini, iqtisadi baxımdan sağlam mühitin yarandığını söyləmişdir. O, bu sahədəki nailiyyətləri və ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini prezident-

liyinin ilk ili üçün çox yüksək nəticə kimi dəyərləndirmişdir. Dövlətimizin başçısı ölkədə ümumi daxili məhsulun dinamik şəkildə artdığını, keçən il Azərbaycan iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu vurğulayaraq, bu işdə yerli sərmayəçilərin də fəallıq göstərdiyini bildirmişdir.

Prezidentlər Azərbaycanın həyatındakı bütün bu amillərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün də əhəmiyyətli olduğunu qeyd etmişlər. Eyni zamanda, ötən il Moskvada Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayının keçirilməsinin Rusiyada yaşayan azərbaycanlıların vəziyyətinin yaxşılaşdırılmasında müsbət rol oynadığını bildirmişlər.

Görüşdə ikitərəfli əlaqələrin aktual məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmış, əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə edilmişdir. Prezidentlər Rusiyada Azərbaycan ili çərçivəsində bu ölkənin federal və regional hakimiyyət orqanlarının, elm, təhsil, mədəniyyət təşkilatlarının və digər strukturlarının azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığının qarşılıqlı əlaqələrin daha da güclənməsinə kömək edəcəyinə əminliklərini bildirmişlər. İqtisadi əməkdaşlığın bütün spektrləri üzrə irəliləyişdən, o cümlədən ticarət dövriyyəsinin artmasından, yanacaq-energetika bölməsində və digər sahələrdə əlaqələrin inkişafından razılıqlarını bildirən dövlət başçıları bütün bu istiqamətlərdə geniş imkanların mövcud olduğunu da vurğulamışlar. Prezidentlər bir sıra beynəlxalq və regional məsələlər haqqında da ətraflı fikir mübadiləsi etmişlər. Şimal-Cənub nəqliyyat dəhlizinin perspektivləri, beynəlxalq və regional təhlükəsizlik məsələləri geniş müzakirə olunmuşdur. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı danışıqlar prosesi, mövcud vəziyyət və problemin həlli perspektivlərinə də toxunulmuş, BMT-nin və digər beynəlxalq təşkilatların bu münaqişə ilə bağlı qəbul etdiyi sənədlərin yerinə yetirilməsi, Rusiyanın problemin Azərbaycan Respublikasının ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğu bir daha bəyan edilmişdir.

Fevralın 16-da Moskvada, Dövlət Kreml sarayında Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bu ilin çox uğurla keçəcəyinə əminliyini bildirərək demişdir: *"Şübhəm yoxdur ki, bu il ərzində rusiyalılar bugünkü Azərbaycanın nə ilə yaşadığından, necə inkişaf etdiyindən və nə kimi nailiyyətlərinin olduğundan daha yaxşı xəbər tutacaqlar.*

Biz Rusiyada Azərbaycan ilinin keçirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, bu bir il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da möhkəmlənəcəkdir. Bu münasibətlər indi də kifayət qədər yüksək səviyyədədir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq var. Biz regional məsələlərdə, regional

inkişafda, regional təhlükəsizlikdə iştirak edirik, iqtisadi əlaqələr çox fəal inkişaf edir. ...Cəmi bir ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 50 faiz artmışdır. Əlbəttə, ötən ilin fevralında mənim Rusiyaya rəsmi səfərim zamanı biz əmtəə dövriyyəsini iki dəfə artırmağı qarşıya bir vəzifə kimi qoyduq. Lakin, görünür, güman etmirdik ki, bu, belə tez baş verəcəkdir. Bu sübut edir ki, çox böyük qarşılıqlı maraq, qarşılıqlı surətdə çox faydalı iqtisadi fəaliyyət və ticarət var.

...Humanitar sahədə münasibətlərimiz həmişə yüksək səviyyədə olması ilə fərqlənmişdir və bu gün də belədir. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə həmişə çox qayğı ilə yanaşmışlar və yanaşırlar. Bu, həmişə belə olmuşdur və həmişə də ölkəmizi fərqləndirmişdir. Lakin çox xoşdur ki, ictimai formasiyadan asılı olmayaraq, istənilən şəraitdə mövcud olmuş bu gözəl ənənələr indi də yaşayır, inkişaf edir və möhkəmlənir. Mən hesab edirəm ki, ikitərəfli münasibətlərin bütün müsbət təcrübəsi bu əlaqələrin inkişafına gələcəkdə də xidmət edəcəkdir". Dövlətimizin başçısı həmçinin qeyd etmişdir ki, Azərbaycan Rusiya ilə münasibətlərini strateji tərəfdaşlıq kimi qiymətləndirir. Biz təkcə sözdə deyil, bəyanatlarda deyil, praktikada da, real işlərdə də tərəfdaşıq. Çıxışının sonunda Prezident İlham Əliyev vurğulamışdır ki, ikitərəfli münasibətlərimiz yalnız Azərbaycan və Rusiya illəri çərçivəsindəki tədbirlərlə məhdudlaşmayacaqdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, dərinləşəcək və yeni-yeni sahələri əhatə edəcəkdir.

Rusiya Prezidenti Vladimir Putinin çıxışında bildirmişdir ki, *"son illər ərzində, son onillik ərzində Azərbaycanla Rusiya arasında münasibətlərin belə müsbət inkişafı Heydər Əliyeviç Əliyevin nüfuzu və müdrikliyi sayəsində mümkün olmuşdur. Rusiyada biz onu, unutmamışıq, xidmətlərini xatırlayırıq və xatirəsini ehtiramla yad edirik".* Dövlət başçısı vurğulamışdır ki, bizim günlərdə Rusiya-Azərbaycan siyasi, iqtisadi və mədəni dialoqu ardıcıl və fəal surətdə inkişaf edir: *"Hər iki ölkənin vətəndaşları öz həyati əhəmiyyətli problemlərinin həllini bu dialoqun inkişafı ilə bağlayırlar. Söhbət qarşılıqlı surətdə faydalı kooperasiyadan, işədüzəlmə və miqrasiya məsələlərindən, təhsil sahəsi də daxil olmaqla ümumi mədəni-informasiya məkanından istifadə edilməsindən, habelə zəngin milli ənənələrin qorunub saxlanılmasından gedir. Prezident indicə xatırlatdı ki, son bir ildə əmtəə dövriyyəmiz 50 faiz artmışdır. Bu, son illərin parlaq nəticəsidir. Həmçinin xüsusi vurğulamaq istərdim ki, tərəfdaşlığımız regional sabitliyin əhəmiyyətli amilidir. Biz MDB-nin imkanlarından daha fəal istifadə edilməsində eyni dərəcədə maraqlıyıq. Eləcə də ümumi sosial-iqtisadi problemlərin həlli üçün, milli təhlükəsizliyə olan təhdidlərə, terrorizmə və ekstremizmə qarşı birgə müqavimət göstərilməsi üçün. Rusiya Qarabağ*

düyününün layiqincə açılmasına kömək göstərməyə və bu regionda etibarlı təhlükəsizliyi təmin etməyə də çalışır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Prezidentinin dəvəti ilə bu ölkəyə 2005-ci il fevralın 24-dən 26-dək olan ilk rəsmi səfəri ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın yeni səhifənin açılması ilə əlamətdar olmuşdur. Hələ 1997-ci ilin sentyabrında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin İtaliyaya dövlət səfərində əsası qoyulmuş ikitərəfli əlaqələr ötən müddət ərzində xeyli genişlənmiş, bütün sahələrdə münasibətlərin inkişafına təkan vermişdir. Həmin səfər zamanı imzalanmış münasibətlərin prinsiplərinə dair Birgə Bəyannamə konkret fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan və İtaliya beynəlxalq hüquq prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və digər sənədlər əsasında, həmçinin demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlərə birgə töhfə vermək inamlarını nümayiş etdirərək əlaqələrin hərtərəfli inkişafına güclü stimul yaratmışlar.

Azərbaycanın İtaliya ilə əməkdaşlığı ölkəmizin inkişafının vacib elementlərindən biridir. Avropanın iqtisadi cəhətdən ən qüdrətli beş ölkəsindən biri olan İtaliyanın qitəyə inteqrasiyamızı tam dəstəkləməsi əlamətdar haldır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycanla İtaliya arasında hökumətlər, siyasətçilər, parlament təmsilçiləri səviyyəsində yaxşı əlaqələri var. Gözləmək olar ki, belə əlaqələr iki ölkənin biznes dairələri arasında da bərqərar olacaqdır. Buna isə artıq nümunə var: Azərbaycan İtaliyanın energetika sahəsində fəaliyyət göstərən şirkətləri ilə etibarlı əlaqələr qurmuşdur. Digər şirkətlərin ölkəmizə gəlməsi üçün vaxt yetişmişdir. Azərbaycanı İtaliya ilə təkcə iqtisadi-ticarət əlaqələri birləşdirmir. Ölkələrimiz beynəlxalq təşkilatlarda, Avropa strukturları çərçivəsində səmərəli əməkdaşlıq edirlər. İtaliya Cənubi Qafqazın ən ağrılı probleminə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də biganə deyil. Yeri gəlmişkən, münaqişənin tənzimlənməsində vasitəçilik edən ATƏT-in Minsk qrupunun ilk sədri İtaliya olmuşdur. Lakin o vaxt Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından İtaliyanın vasitəçi kimi göstərdiyi səylər nəticəsiz qalmışdır. Bu gün İtaliya Minsk qrupuna rəhbərlik etməsə də, problemə diqqətini də azaltmır. İtaliya ATƏT vasitəsilə münaqişənin sülh yolu ilə həllinə dəstəyini davam etdirir. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərinin nəticələrinə dair "İtaliya-Azərbaycan Birgə Bəyannaməsi"ndə vurğulanır ki, münaqişənin tənzimlənməsi beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə də dövlət müstəqilliyi, suverenlik və ərazi bütövlüyünə uyğun olmalıdır. Bu çox vacib məqamdır. Çünki rəsmi Yerevan iddia edir ki, guya heç bir ciddi dövlət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmir. Ona görə də dünyanın nüfuzlu dövlət-

lərindən və Avropa İttifaqının aparıcı üzvlərindən biri kimi İtaliyanın mövqeyi olduqca əhəmiyyətlidir və Ermənistanın ekspansionist siyasətinə beynəlxalq dəstəyin olması barədə illüziyanı puça çıxarır.

Səfər çərçivəsində Prezident İlham Əliyev İtaliya Prezidenti Adzelyo Çampi, İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni, "Eni" şirkətinin prezidenti Roberto Rolini, BMT-nin Dünya Ərzaq Proqramının rəhbəri vəzifəsini icra edən Con Pauell, İtaliya Parlamentinin Deputatlar Palatasının sədri Pyerferdinando Kazini, İtaliyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü, senator Fiorello Provera, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru Jak Dyuk, İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Covanni Petrucçi ilə görüşmüşdür. Söhbətlər zamanı İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın ən müxtəlif sahələrdə inkişafı zəruriliyinə diqqət yetirilmiş, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin davam etdirilməsi vacibliyi vurğulanmışdır. İtaliya Prezidenti Adzelyo Çampi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci ildə İtaliyaya rəsmi səfərini xatırladaraq, həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinin başlandığını söyləmişdir. İtaliya Prezidenti demişdir ki, o, Azərbaycanda olmasa da, burada aparılan uğurlu islahatlardan xəbərdardır və xüsusilə qanunvericilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində görülən işlər ölkənin Avropaya tam inteqrasiyasına şərait yaradacaqdır. Adzelyo Çampi Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğulamışdır ki, vaxtilə İtaliya da belə problemlə qarşılaşmışdı və biz onun həlli təcrübəsindən istifadə edərək Azərbaycana kömək göstərməyə hazırıq. ATƏT-in Minsk qrupunun vasitəçilik səylərinin hələ bir nəticə vermədiyini xatırladan Prezident Adzelyo Çampi bildirmişdir ki, İtaliya Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün köməyini əsirgəməyəcəkdir.

Prezident İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə İtaliya dövlətinin başçısına təşəkkür etmiş, ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra daha da inkişaf edəcəyinə əmin olduğunu bildirmişdir. Görüşdə vurğulanmışdır ki, Azərbaycan Prezidentinin bu səfəri ikitərəfli əlaqələrin inkişafında yeni səhifə olacaqdır. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələrindən, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qaldırılması sahəsində aparılan danışıqlardan bəhs etmiş, problemin beynəlxalq hüquq normaları əsasında həll edilməsinin vacibliyini vurğulamışdır. Azərbaycan Prezidenti eyni zamanda xatırlatmışdır ki, BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfinin təqsiri üzündən hələ də kağız üzərində qalır. Bu baxımdan dövlət başçıları vurğulamışlar ki, BMT-də islahatların aparılması,

onun nüfuzunun artırılmasına imkan verən müvafiq mexanizmlər yaradılması vacibdir. Prezident İlham Əliyev Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatlardan ətraflı bəhs etmişdir. Görüşdə Azərbaycanda həyata keçirilən mühüm enerji layihələri barədə də söhbət getmişdir. Dövlət başçıları ölkələrimiz arasında iqtisadi sahədə, xüsusən neft sektorunda uğurlu əməkdaşlığı qeyd etmişlər. Siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar olduğu vurğulanmışdır.

Səfər çərçivəsində təşkil edilən biznes forumunda Azərbaycanın yüngül sənaye, metallurgiya, maşınqayırma, tikinti, mebel istehsalı, informasiya texnologiyaları sahələrini təmsil edən 60-dan çox, İtaliya biznesinin müxtəlif sahələrinin nümayəndələri olan 170-dən çox iş adamı iştirak etmişdir. Məlumat verilmişdir ki, Azərbaycanın "Gilan" və İtaliyanın "Betvend TMCİ Padovan" şirkətləri 5 milyon avro dəyərində konserv zavodunun tikintisi haqqında razılığa gəliblər. Azərbaycanın "Lotos" və İtaliyanın "Aredo Luçia" şirkətləri arasındakı razılaşmaya əsasən çilçıraq və başqa məişət malları istehsal edəcək birgə müəssisə yaranacaqdır. Prezident İlham Əliyev biznes forumunda çıxış edərək Romaya ilk səfərinin iqtisadi əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə, italiyalı iş adamlarının respublikamıza cəlb olunacağına və kənd təsərrüfatı, yüngül sənaye, maşınqayırma, turizm sahələrinə sərmayə qoyacaqlarına inamını ifadə etmişdir. Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda yaradılmış ictimai-siyasi sabitlikdən, həyata keçirilən iqtisadi islahatlardan söz açaraq demişdir ki, görülən tədbirlər nəticəsində ölkəmizə xarici sərmayələrin cəlb olunması üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev ölkəmizin neft-qaz sektorunda, Xəzər dənizinin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənilməsinə dair imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində görülən işlərdən, bu sahəyə milyardlarla dollar sərmayə qoyulmasından, dünyada ən iri layihələrdən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisindən danışmışdır. Azərbaycanla İtaliya arasında mövcud iqtisadi əlaqələrin səviyyəsini yüksək dəyərləndirən, "Eni" şirkətinin respublikamızın neft sektorundakı layihələrə 1995-ci ildən qoşulduğunu və uğurlu fəaliyyət göstərdiyini, bu əməkdaşlığın yüksək perspektivləri olduğunu bildirən dövlətimizin başçısı qarşılıqlı ticarət əlaqələrinin genişləndiyini, mal dövriyyəsi həcminin ilbəil artdığını xatırladaraq demişdir ki, iqtisadi əməkdaşlığın genişlənməsi xalqlarımızın mənafeyinə xidmət edir. Prezident İlham Əliyev Azərbaycanın Avropaya inteqrasiyası, beynəlxalq iqtisadi təhlükəsizlik sahəsində üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəldiyini, regionda əmin-amanlığın bərpası üçün

səylərini əsirgəmədiyini vurğulamışdır. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, onun ağır nəticələri barədə ətraflı məlumat verərək bildirmişdir ki, bu problemin indiyədək həll olunmaması iqtisadi tərəqqiyə və təhlükəsizliyə ciddi əngəl törədir. Azərbaycan rəhbəri münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesindən söhbət açmışdır.

Səfərin uğurlu nəticələrindən danışarkən İtaliya - Azərbaycan Birgə Bəyannaməsinin əhəmiyyətini xüsusi qeyd etmək vacibdir. Bu sənəddə nəinki ölkələrimizi maraqlandıran, eləcə də beynəlxalq münasibətlərə, qlobal çağırışlara aid əksər müddəalar əksini tapmışdır. Bəyannamənin sonunda Prezident İlham Əliyevin səfəri ilə əlaqədar imzalanmış sənədlər "əməkdaşlığı və mübadilələri artırmaq, iki ölkə arasında "gücləndirilmiş dialoq"un gələcək konkretliyini təmin etmək, normativ qarşılıqlı etimad mühitini genişləndirmək üçün birgə istəyin göstəricisi" hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il fevralın 26-da Vatikan Dövlətində səfərdə olmuşdur. Prezident İlham Əliyevi müqəddəs taxt-tacın prefekti monsenyor Xarven, prefektin müavini Paolo de Nikolo, İsveçrə qvardiyasının komandanı, Kardinallar kollegiyasının üzvləri, Roma Papasının digər rəsmi nümayəndələri ehtiramla qarşılamışlar. Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Vatikanın dövlət katibi kardinal Ancelo Sodano ilə təkbətək görüşü olmuşdur. Kardinal Sodano dövlətimizin başçısını səmimiyyətlə salamlamış, onun İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfərini yüksək dəyərləndirmişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevə Vatikan dövlətinin başçısı, zati-müqəddəsləri Papa II İohann Pavelin salamlarını çatdırmışdır.

Azərbaycanın müstəqilliyinin Vatikan Dövləti tərəfindən 13 il bundan əvvəl tanındığını bildirən Ancelo Sodano vurğulamışdır ki, Papa II İohann Pavel dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün insanların, xalqların dostu kimi tanınır. Özünə və ölkəmizin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı Vatikanı ziyarət etdiyini, Papa II İohann Pavel ilə görüşüb ətraflı fikir mübadiləsi apardığını, eyni zamanda Vatikan Dövləti başçısının Azərbaycana səfərinin də uğurla keçdiyini xatırlatdı. Prezident İlham Əliyev zati-müqəddəsləri Papa II İohann Pavelə Tanrıdan şəfa dilədi. Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı. Görüşdən sonra Azərbaycan Prezidenti dövlət katibi Ancelo Sodanoya xatirə hədiyyəsi təqdim etdi. Vatikanın dövlət katibi Prezident İlham Əliyevə, habelə Azərbaycan nümayəndə heyətinin üzvlərinə hədiyyələr və

üzərində II İohann Pavelin şəkli olan xatirə medalları təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Fəhd bin Əbdüləziz Al Səudun dəvəti ilə 2005-ci il martın 8-10-da Ər-Riyada ilk rəsmi səfəri bu ölkə ilə əlaqələrin genişləndirilməsi sahəsində xüsusi əhəmiyyətə malik olmuşdur. Səfər zamanı Səudiyyə Ərəbistanının dövlət və hökumət başçıları, o cümlədən Kral Fəhd bin Əbdüləziz Al Səud, Vəliəhd, Baş nazirin birinci müavini Əmir Abdulla bin Əbdüləziz Al Səudla keçirilən görüşlər iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha sürətlə inkişafına təkan verəcəkdir. Bu baxımdan Kral Fəhd bin Əbdüləziz Al Səudun dövlətimizin başçısına dediyi bu sözlər çox əhəmiyyətlidir: *"Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Azərbaycanın ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin dövlətlərimiz arasındakı əlaqələrin inkişafındakı tarixi xidmətlərini və onun 1994-cü ildə ölkəmizə rəsmi səfərini yaxşı xatırlayır və Allahdan ona rəhmət diləyirik".* Kralın Azərbaycan Prezidentini Səudiyyə Ərəbistanının ali dövlət mükafatı - "Kral Əbdüləziz" ordeni ilə təltif etməsi də təsadüfi deyildir. Məlumdur ki, bu orden dünyanın ən nüfuzlu, ən görkəmli siyasi xadimlərinə təqdim olunur.

Ölkələrimiz arasında dərin tarixi, dini və mədəni köklərə söykənən münasibətlər Azərbaycan üçün həm də ona görə qiymətlidir ki, respublikamız dövlət müstəqilliyi əldə etdikdən sonra Səudiyyə Ərəbistanı daim haqq işimizi dəstəkləmiş, öz köməyini heç vaxt əsirgəməmişdir. Qarşılaşdığı çoxsaylı problemlərin həllində, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq soydaşımızın üzləşdiyi çətinliklərin aradan qaldırılmasında Azərbaycan həmişə Səudiyyə Ərəbistanının dəstəyini hiss etmişdir. Krallığın humanitar təşkilatları azərbaycanlı məcburi köçkünlərin məişət qayğılarının yoluna qoyulmasında əhəmiyyətli rol oynamışdır. Dost ölkənin bu sahədə yardımı indi də davam edir. İslam Konfransı Təşkilatının aparıcı üzvü kimi Krallıq bu təşkilat çərçivəsində Ermənistanın təcavüzkarlıq siyasətini pisləyən qərarların qəbul olunmasında mühüm rol oynamışdır. Səudiyyə Ərəbistanı indiyədək bu mövqeyində qalır. Rəsmi Ər-Riyad Ermənistanın bütün cəhdlərinə baxmayaraq, təcavüzkar dövlətlə hər hansı səviyyədə əlaqə yaratmağı rədd edir və ikitərəfli münasibətlərin qurulması üçün işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsini şərt kimi irəli sürür. Azərbaycan Prezidenti İlham Əliyev səfər müddətində verdiyi müsahibə zamanı bu məqama diqqət yetirmişdir: *"Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Bu səfər bunu bir daha təsdiqlədi. Biz bir-birimizi daim dəstəkləyirik, ikitərəfli formatda, regional işbirliyi çərçivəsində sıx*

əməkdaşlıq edirik. Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz mövqeyini açıq bəyan edib və Ermənistanla bu günə kimi diplomatik əlaqələr qurmayıbdır. Bunun özü gözəl bir nümunədir, dostluq, qardaşlıq, mehribanlıq nümunəsidir. Çox şadam ki, bizim aramızda belə gözəl münasibətlər vardır".

Ümumiyyətlə, keçirdiyi bütün görüşlərində Prezident İlham Əliyev Dağlıq Qarabağ probleminin yaranma səbəbləri və mövcud vəziyyəti, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, qaçqınların və məcburi köçkünlərin ağır həyat şəraiti barədə ətraflı söhbət açmışdır. Dövlətimizin başçısı bu problemə hətta Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye Palatasında söylədiyi nitq zamanı da geniş yer ayırmışdır. *"Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ölkəmizə daimi dəstəyinə görə çox minnətdarıq. Biz bu dəstəyin şahidiyik və onun gələcəkdə də davam edəcəyinə əminik. Səudiyyə Ərəbistanı Ermənistanla heç bir diplomatik münasibət yaratmayıbdır. Səudiyyə Ərəbistanı hökumətinin Azərbaycanda qaçqın və məcburi köçkünlərə verdiyi yardımı da xüsusi qeyd etmək lazımdır. Biz bunu yüksək dəyərləndiririk. Biz Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq normaları və prinsipləri, yəni ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında həllinin tərəfdarıyıq. Erməni işğalçıları Azərbaycanın ərazi bütövlüyünü pozublar. Ölkəmizin ərazisinin 20 faizini zəbt ediblər, etnik təmizləmə aparıblar və bunun nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür və dözülməz şəraitdə yaşayır. Biz hesab edirik ki, bu münaqişəni aradan qaldırmaq və təcavüzə son qoymaq üçün o, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır və Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməlidir. XXI əsrdə bir ölkənin ərazisinin digər ölkə tərəfindən işğal edilməsinə imkan vermək olmaz. İşğalçının cəzasız qalması yolverilməzdir. Hesab edirəm ki, əgər bütün ölkələr sizin ölkə kimi ədalətli və düzgün mövqe tutsaydı, bu münaqişə hələ bir neçə il bundan əvvəl öz həllini tapardı",* - deyə Azərbaycan rəhbəri vurğulamışdır.

Səudiyyə Ərəbistanı beynəlxalq təşkilatlar, o cümlədən BMT, İKT çərçivəsində də Azərbaycanın ədalətli mövqeyini daim müdafiə edib. Mərkəzi qərargahı Ciddə şəhərində yerləşən İKT-nin Baş katibi Ekmələddin İhsanoğlu ilə görüşündə də Azərbaycan Prezidenti İlham Əliyev bu təşkilatla ölkəmiz arasında əməkdaşlığın inkişaf etdiyindən razılığını bildirib. İKT Azərbaycana münasibətdə, xüsusən əsas problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində həmişə düzgün mövqe tutub, bir neçə mühüm qərar və qətnamə qəbul edərək Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Təcavüzkarı tanıyan, işğal edilmiş torpaqların azad olunmasını tələb edən, münaqişənin

beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyünün bərpası çərçivəsində həllini istəyən İKT-nin regionun və bütün dünyanın sabitliyinə təhlükə olan bu problemə birmənalı münasibətindən digər beynəlxalq təşkilatlar nümunə götürməlidir.

Dünyada böyük nüfuza malik olan ölkələrlə sıx əlaqələrin qurulması Azərbaycanın xarici siyasətində üstün istiqamətlərdən biri kimi diqqəti çəkir. Milli müstəqilliyimizin bərpasından sonra bu məqsədlə ardıcıl addımlar atılmış, nəticədə beynəlxalq siyasətdə söz sahibi olan dövlətlərlə münasibətlər normal inkişaf məcrasına çıxmışdır. Hazırda Azərbaycan diplomatiyası əldə edilmiş nailiyyətləri möhkəmləndirib qarşılıqlı əlaqələri daha da genişləndirmək üçün səy göstərir.

Çinin beynəlxalq aləmdə malik olduğu çəki yaxşı məlumdur. Əhalisinin sayına görə dünyanın ən böyük ölkəsi olan Çin həm beynəlxalq siyasətdə, həm də beynəlxalq ticarət-iqtisadi əlaqələrdə əhəmiyyətli rol oynayır. Çin BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir və beynəlxalq problemlərin həllinə təsir imkanlarına malikdir. Eyni zamanda Çinin iqtisadi qüdrəti ildən-ilə artır və getdikcə dünya iqtisadiyyatında rolu güclənir.

Azərbaycan-Çin əlaqələrin tarixi Tarixi İpək Yolunun mövcud olduğu dövrlərə gedib çıxır. Prezident İlham Əliyevin 2005-ci il martın 17-19-da Çin Xalq Respublikasına dövlət səfərinin nəticələri bu vəzifənin reallaşdırılması baxımından səmərəli olmuşdur. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanla Çin arasında siyasi əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Bu, ilk növbədə iki ölkənin ortaq maraqları bölüşməsi ilə şərtlənir. Həm Azərbaycanın, həm də Çinin ərazi bütövlüyü pozulmuşdur və iki ölkə oxşar problemi həll etməlidir. Çin həmişə beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxmışdır. Azərbaycan da Çinə münasibətdə eyni mövqedən çıxış edir və Çinin sərhədlərinin toxunulmazlığını tanıyır. Pekində keçirilmiş yüksək səviyyəli Azərbaycan-Çin danışıqlarında tərəflərin bu problemə münasibətdə mövqeləri bir daha təsdiqlənmişdir. İki ölkənin rəhbərləri növbəti dəfə vurğulamışlar ki, beynəlxalq məsələlərin həllində ölkələrin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri üstün yer tutmalıdır. Eyni zamanda Çin Azərbaycanın Dünya Ticarət Təşkilatına qoşulmaq niyyətini dəstəkləyir. Təşkilatın üzvü kimi Çin hesab edir ki, bu niyyətin reallaşması iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın davamlı inkişafına kömək edəcək. Digər tərəfdən, həm Azərbaycanın, həm də Çinin müasir inkişafında oxşar cəhətlər diqqəti cəlb edir. Belə ki, hər iki ölkənin inkişafı möhkəm ictimai-siyasi sabitliyə əsaslanır. Məhz belə bir sabitlik şəraitində Azərbaycan və Çin iqtisadi islahatlar aparır, diqqətəlayiq uğurlar əldə edirlər.

Azərbaycanın Çinə əməkdaşlıq üçün təklif etdiyi bir sıra sahələr var. Məlum olduğu kimi, dünyanın iri şirkətləri ölkəmizdəki karbohidrogen ehtiyatlarının işlənməsi sahəsində fəaliyyət göstərir. Onların arasında Çin müəssisələri də var. Digər tərəfdən, neft ölkəsi kimi Azərbaycan Çini də maraqlandırır. Çin yüksək sürətlə inkişaf etdiyindən onun enerji daşıyıcılarına ehtiyacı da artır. Bir neçə ildən sonra Azərbaycanın neft ixracı potensialı azı üç dəfə artacaq. Bakı-Tbilisi-Ceyhan boru kəməri istifadəyə verildikdən sonra böyük həcmdə Azərbaycan nefti dünya bazarına çıxarılacaq. Başqa sözlə, Azərbaycan nefti Çin iqtisadiyyatının inkişafında rol oynaya bilər. Azərbaycan-Çin iqtisadi əməkdaşlığının genişləndirilməsi naminə yeni addımlar Prezident İlham Əliyev elə Pekində olarkən atılmışdır. Çin paytaxtında keçirilmiş Azərbaycan-Çin biznes forumu çərçivəsində iki ölkənin biznes strukturları arasında əməkdaşlığa dair 20-dək sənəd imzalanmışdır. İki ölkənin şirkətləri arasında əldə edilmiş razılaşmalara uyğun olaraq ölkəmizdə Çin texnologiyalarından istifadə edilməklə kabel, kompüter, neft sənayesi üçün səyyar qazma avadanlıqları, kənd təsərrüfatında istifadə üçün qablar və qablaşdırma materialları, toxuculuq və ayaqqabı sənayesi məhsulları, tikinti materialları istehsalı üzrə müəssisələrin yaradılması nəzərdə tutulmuşdur. Digər sahələrdə əməkdaşlıq imkanları da müzakirə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il martın 30-31-də Polşaya rəsmi səfəri iki ölkə arasında mövcud əməkdaşlığın daha da genişləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Aparılan danışıqlar zamanı Polşa Prezidenti Aleksandr Kvasnevski Azərbaycanın Avropa strukturlarına və NATO-ya inteqrasiya səylərini təqdir edərək, rəsmi Varşavanın bu prosesdə ölkəmizə yardımçı olacağını vurğulamış, həmçinin qeyd etmişdir ki, Azərbaycanda demokratiyanın inkişafı və iqtisadi tərəqqi meylləri Polşada diqqətlə izlənilir. Polşa Prezidenti qarşılıqlı ticarət dövriyyəsinin artırılması perspektivlərinin və hərbi sahədə əməkdaşlığın vacibliyini önə çəkmişdir. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası hökuməti və Polşa Respublikası hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" saziş Azərbaycan-Polşa münasibətlərinin hərbi-strateji müstəvidə inkişafına geniş imkanlar açır. Hər iki ölkə hökumətləri arasında imzalanmış müdafiə, gömrük işi və iqtisadi sahələrdə əməkdaşlığa dair sazişlər iqtisadi və digər mühüm sahələrdə mövcud olan əməkdaşlığın daha da dərinləşdirilməsi baxımından vacib əhəmiyyətə malikdir. Bu sənədlər Azərbaycanla Polşa arasında sözügedən sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi işinə xidmət edir, iqtisadi əməkdaşlığın inkişafına, gömrük məsələlərinin tənzimlənməsinə zəmanət verir. Azərbaycanla Polşa arasında bir sıra birgə layihələr, o cümlədən təbii qazın və neftin Avropaya nəqli sahəsində layihələr hazırlanır və bunlar gələcəkdə həyata keçiriləcəkdir. Azərbaycan

neftinin Odessa-Brodi-Plotsk-Odansk marşrutu ilə nəqli də rəsmi Varşavanın maraq göstərdiyi əsas məsələlərdəndir.

Polşanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquq norma və prinsiplərinə uyğun mövqe nümayiş etdirməsi də səfərin yaddaqalan məqamlarından olmuşdur. Prezident Aleksandr Kvasnevski problemin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinə tərəfdar olduğunu bir daha bəyan etmiş və bildirmişdir ki, Azərbaycanın Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusunun verilməsi ilə bağlı təklifinə baxılmalıdır. *"Mən Polşa adından bəyan edirəm ki, biz prosesi asanlaşdıra bilərik, ona yardım edə bilərik. Lakin qərar Azərbaycan və Ermənistan tərəfindən qəbul edilməlidir. Müzakirələr davam etdirilməlidir ki, məsələnin həlli mümkün olsun"* - deyə Aleksandr Kvasnevski qeyd etmişdir. Müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunan nüfuzlu Qərbi Avropa dövlətinin bu məsələdə beynəlxalq hüquq normalarından çıxış etməsi ölkəmiz üçün prinsipial əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu obyektiv mövqeyə, habelə ölkənin NATO-ya inteqrasiya siyasətinə dəstək verdiyinə görə Polşa Prezidenti Aleksandr Kvasnevskiyə minnətdarlığını bildirmişdir. İki ölkə arasında əməkdaşlığın sürətlə inkişaf etdiyini bildirən Azərbaycan Prezidenti əlavə etmişdir ki, rəsmi Bakı Polşa ilə əlaqələrə hər zaman böyük önəm vermişdir. Rəsmi Varşavanın münaqişənin həllində ədalətli və obyektiv mövqe tutması Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir: *"Azərbaycan bu problemin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həllinə tərəfdardır. Bugünkü beynəlxalq hüquq normaları tələb edir ki, hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Bu münaqişə nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar bu məsələnin ədalətli həlli istiqamətində səylərini artırmalıdırlar".*

Səfər zamanı hər iki ölkənin dövlət başçıları regional və beynəlxalq məsələlər barədə də geniş fikir mübadiləsi aparmışlar. Bu danışıqlar zamanı həm də Polşa və Azərbaycanın bir çox məsələlərdə mövqelərinin üst-üstə düşdüyü bəlli olmuşdur. Ümumiyyətlə, bu səfər Azərbaycan-Polşa münasibətlərinin yeni - aktiv fazaya daxil olduğunu göstərməklə, iki ölkə arasındakı əməkdaşlığın perspektivi barədə nikbin qənaət yaradır. Bu gün NATO, Avropa İttifaqı və digər nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Polşa ilə mövcud əlaqələrin daha da genişləndirilməsi ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Avratlantika strukturlarına inteqrasiya yolunda, xüsusən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Polşa dövlətinin böyük töhfələri ola bilər. Prezident İlham Əliyevin Polşanın dövlət başçısı Aleksandr Kvasnevski, Nazirlər Şurasının sədri

Marek Belka, Senatın vitse-marşalı xanım İolanta Danelyak, Polşa Seyminin Administrasiyası rəhbərinin müavini Lek Çapla keçirdiyi görüşlərdə əməkdaşlığın genişləndirilməsi müzakirələrin əsas prioritet mövzusu olmuşdur. Polşa Azərbaycandakı dəyişiklikləri - ölkənin demokratikləşməsini, həyata keçirilən siyasi, iqtisadi, sosial islahatları yüksək qiymətləndirir, habelə rəsmi Bakının NATO, Avropa İttifaqı ilə əlaqələrini dəstəkləyir və bütün bu məsələlərdə Azərbaycana yardım etməyə hazır olduğunu bildirir. Polşa, həmçinin Azərbaycanla NATO və Avropa İttifaqına inteqrasiya çərçivəsində təcrübəsini bölüşməyə də hazırdır. Varşavada jurnalistlər qarşısında bəyanatla çıxış edən Prezident Aleksandr Kvasnevski ölkəsinin Azərbaycanın Avropa İttifaqına təqdim etdiyi böyük layihələrə, xüsusən də neft-qazla bağlı məsələlərə maraq göstərdiyini vurğulamışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il aprelin 12-13-də Pakistana rəsmi səfəri və bu səfər zamanı aparılmış danışıqlar, imzalanmış hökumətlərarası sənədlər qarşılıqlı əlaqələrin inkişafı üçün yeni imkanlar açmışdır. Azərbaycanın xarici əlaqələrində dost ölkə kimi Pakistanın xüsusi yeri var. Təkcə bir faktı xatırlatmaq kifayət edər ki, Pakistan Türkiyədən sonra milli müstəqilliyimizi tanıyan ikinci ölkə olmuşdur. İki dövlət arasında diplomatik münasibətlər qurulduqdan sonra Bakı ilə İslamabadın təmasları sıxlaşmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Pakistana, Pakistanın sabiq Prezidenti Əhməd Xan Leqarinin və indiki dövlət başçısı Pərviz Müşərrəfin ölkəmizə səfərləri qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə və bununla yanaşı, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasının yaradılmasına imkan vermişdir.

Azərbaycanla Pakistan arasında tarixi və müasir inkişaf baxımından bir çox oxşar cəhətlər mövcuddur. Əvvəla, hər iki ölkəni və xalqı dini-mədəni bağlar birləşdirir. Azərbaycan və Pakistan xalqları hələ orta əsrlərdə ortaq dəyərləri bölüşmüş, bir-biri ilə yaxın təmasda olmuşdur. Müasir dövrdə zəngin tarixi irsdən bəhrələnən Azərbaycan və Pakistan ikitərəfli münasibətləri genişləndirmək əzmi nümayiş etdirir. Tarixi inkişaf baxımından başqa bir cəhət də diqqəti cəlb edir. Həm Pakistan, həm də Azərbaycan milli müstəqilliyinə qovuşar-qovuşmaz münaqişələrlə qarşı-qarşıya qalmışdır; Pakistan Kəşmir problemindən əziyyət çəkir, Azərbaycan isə Ermənistanın silahlı təcavüzü ilə üzləşmişdir. Bu münaqişələr bir-birindən müəyyən qədər fərqlənsə də, oxşar məqamlar da var. Belə ki, Pakistan da, Azərbaycan da dünyada baş verən bütün münaqişələrin, o cümlədən Kəşmir və Dağlıq Qarabağ münaqişələrinin dinc yolla, beynəlxalq hüquq normalarına və beynəlxalq təşkilatların müvafiq qətnamələrinə uyğun şəkildə həllinə tərəfdardır. Diqqətəlayiq haldır ki, Azərbaycan və Pakistan bu məsələdə bir-birini daim dəstəkləyir və sözügedən problemlərin tezliklə nizama salınması

istiqamətində səylərini birləşdirir. Bütün bunlarla yanaşı, həm Azərbaycan, həm də Pakistan regional və qlobal məsələlərə münasibətdə mövqe birliyi nümayiş etdirir. Bakı və İslamabad regional əməkdaşlığın möhkəmləndirilməsi, beynəlxalq terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlığın və narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması kimi ümumbəşəri problemlərinin həllində dünya birliyinin səylərinə fəal dəstək verir, bu işdə bilavasitə iştirak edir. Bu kontekstdə ölkələrimiz arasında yüksək səviyyədə siyasi əməkdaşlıq əlaqələri mövcuddur. Prezident İlham Əliyevin Pakistana səfəri zamanı siyasi əməkdaşlığın hazırkı səviyyəsi vurğulanmaqla yanaşı, belə bir məqama da diqqət yetirilmişdir ki, ikitərəfli əlaqələr artıq strateji tərəfdaşlıq mərhələsinə keçir. Odur ki, qarşılıqlı əməkdaşlığın digər sahələrinin də genişləndirilməsi və yeni məzmun kəsb etməsi vacib məsələ kimi qarşıda durur.

Azərbaycanın və Pakistanın çox mühüm coğrafi-strateji mövqedə yerləşməsi, dənizə çıxışı olmayan ölkələr üçün tranzit rolunu oynaması, Şərqə və Qərbə uzanan yolların ölkələrimizin ərazisindən keçməsi iqtisadi və demokratik inkişaf üçün çox gözəl zəmin yaradır. Azərbaycanın iqtisadi potensialı Pakistanı cəlb edir və Azərbaycan Prezidentinin səfəri zamanı keçirilən görüşlərdə bildirilmişdir ki, iqtisadi əlaqələri genişləndirmək, ticarət dövriyyəsinin həcmini artırmaq zəruridir. İqtisadi əlaqələrin siyasi münasibətlər səviyyəsinə qaldırılması üçün hələ çox iş görülməli, iş adamları qarşılıqlı səfərlər etməli, biznes forumları keçirilməlidir. Qarşılıqlı əmtəə dövriyyəsini artırmaq üçün Hökumətlərarası Komissiyanın işindən səmərəli istifadə etmək, Pakistanın bir çox sahələrdə dünya standartlarına uyğun mallar istehsal etməsi təcrübəsini öyrənmək, kənd təsərrüfatı, əczaçılıq və s. sahələrdəki ənənələrindən bəhrələnmək, turizm sektorunda əməkdaşlığın inkişafı xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir. Prezidentlərin söhbətində rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verilmiş, Pakistanda bu sahənin sürətlə inkişaf etdiyi, aviasiya, maliyyə sektoru, təhsil, nəqliyyat və s. sahələrdə əlaqələrin genişləndirilməsi vacibliyi vurğulanmışdır.

Prezident İlham Əliyevin Pakistan İslam Respublikası Parlamentinin Milli Assambleya palatasının spikeri Çoudri Əmir Hüseyn ilə görüşü də dövlətlərarası münasibətlərin inkişafına yönələn hadisə kimi dəyərləndirilir. Görüş zamanı parlamentlərarası əlaqələrin intensivləşdirilməsi, deputatların qarşılıqlı səfərlərinin faydalılığı və s. məsələlərə toxunulmuş, qeyd edilmişdir ki, hər iki ölkənin ali qanunverici orqanının nümayəndələri beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirlər.

Pakistan hərbi potensialına görə region dövlətləri arasında liderdir. Qüdrətli orduya malik ölkənin sülh və təhlükəsizlik carçısı kimi çıxış etmə-

si, dünyanın ən böyük hərbi-siyasi ittifaqı olan NATO ilə münasibətlərini genişləndirməsi, Azərbaycanla əlaqələri bu sahədə da dərinləşdirməyə çalışması Pakistanı ölkəmizin xarici siyasətində prioritet dövlətə çevirən amillərdəndir. Şübhə yoxdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana uğurlu keçən rəsmi səfəri regional və qlobal məsələlərə münasibətdə eyni mövqe nümayiş etdirən dövlətlərimiz arasında əlaqələrin bütün sahələrdə sürətli inkişafına səbəb olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il aprelin 21-də Moldovaya rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə, əməkdaşlığın bütün sahələrdə strateji xarakterinə yeni impuls vermişdir. Azərbaycan-Moldova münasibətlərinin möhkəm hüquqi bazası 1997-ci il noyabrın 27-də imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilə və 2004-cü il oktyabrın 26-da imzalanmış Birgə Bəyannamə əsasında yaradılmışdır. Bu iki dövlət beynəlxalq və regional təşkilatlarda qarşılıqlı maraqları qoruyaraq Avropa və Avratlantik strukturlara daha sıx inteqrasiya etmək, TRASEKA çərçivəsində iqtisadi layihələri birgə reallaşdırmaq əzmindədir. İndiyədək müxtəlif sahələrdə 35 sənəd imzalanmışdır və Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə səfəri zamanı, ilk dəfə olaraq münaqişələrdən əziyyət çəkən ölkələrimiz BMT-də əməkdaşlıq barədə razılığa gəliblər. Moldovanın və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Etnik separatçıların müstəqillik pərdəsi altında gizlənən təcavüzkar hərəkətləri hər iki ölkənin inkişafına, regionda sülhün, təhlükəsizliyin təminatına, qlobal problemlərlə, o cümlədən terrorizmlə, narkotiklərin, silahların qanunsuz dövriyyəsi və digər mütəşəkkil cinayətkarlıqla mübarizəsinə mane olur. Problemə münasibətdə ölkələrimiz ikili standartlardan əziyyət çəkirlər. Dünyanın hansısa regionunda bu səpkidə mövcud problem beynəlxalq ictimaiyyətin mənfi reaksiyasına səbəb olduğu və dünya birliyinin təzyiqi nəticəsində qısa müddətdə həllini tapdığı halda Moldovanın və Azərbaycanın üzləşdiyi münaqişələrin "dondurulmuş" vəziyyətdə qalmasında bəzi dairələr maraqlıdırlar. Odur ki, dövlət başçılarının Moldovanın Dnestryanı bölgə və Azərbaycanın Dağlıq Qarabağ probleminə beynəlxalq ictimaiyyətin eyni meyarlarla yanaşmasına nail olmaq üçün birgə səylərlə fəaliyyət göstərməsi barədə razılığı siyasi analitiklər tərəfindən yüksək qiymətləndirilir. İlk dəfə olaraq BMT çərçivəsində tətbiq olunacaq bu təcrübə problemin mahiyyətinin başa düşülməsinə, onun tənzimlənməsi yollarına dünya ictimaiyyətinin mümkün qədər daha çox dairəsinin cəlb olunmasına şərait yaradacaq və ölkələrimizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Azərbaycan Moldovanın ərazi bütövlüyünü, Dnestryanı bölgə probleminin həlli istiqamətində fəaliyyətini müdafiə edir, həmçinin Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin mövqeyini birmənalı olaraq

dəstəklədiyinə görə Moldova dövlətinə minnətdarlığını bildirir. Eyni problemlə üzləşmiş ölkələrimizin beynəlxalq və regional təşkilatlarda silahlı münaqişələr mövzusunu birgə müzakirəyə çıxarması məsələnin həllini sürətləndirəcəkdir. GUAM-ın dövlət başçılarının Kişinyov sammiti zamanı Avropaya inteqrasiyanı prioritet sayan dövlət başçılarının Azərbaycanın və Moldovanın münaqişələr barədə birgə mövqeyini dəstəkləməsi təsadüfi deyil. Ümumiyyətlə, Kişinyov zirvə görüşü zamanı dövlət başçıları mövcud münaqişələrə ümumi meyarlarla yanaşmış, onların həllinə beynəlxalq ictimaiyyətin daha çox diqqət yetirməsinin vacibliyini vurğulamışlar. Buna görə də Moldovanın Dnestryanı və Azərbaycanın Dağlıq Qarabağ problemi BMT Baş Məclisinin müzakirəsinə birgə çıxarılacaqdır. Artıq beynəlxalq əhəmiyyətli struktura çevrilmiş bu regional təşkilatın ərazisindəki sovet imperiyasından miras qalan və təcavüzkar separatizmlə müşayiət olunan dörd münaqişənin həlli məsələsi bir neçə dəfə GUAM ölkələri rəhbərlərinin zirvə görüşündə qaldırılmışdır.

Xəzər, Qara dəniz və Aralıq dənizi regionunu əhatə edən GUAM ölkələrini tarixi əlaqələr, uzun müddət vahid sistemdə yaşadığımız ənənələr də birləşdirir. Sammitdə Litva və Rumıniya prezidentlərinin iştirakı qurumun ideyalarının getdikcə daha çox dövlətlər tərəfindən dəstəkləndiyinin və onun genişləndirilməsi məsələsinin aktuallığının sübutudur. Xatırladaq ki, Azərbaycan GUAM-ın təşkilatlanması işində mühüm rol oynamış və ötən müddət ərzində həm ikitərəfli əlaqələr, həm regional əməkdaşlıq, həm də beynəlxalq münasibətlər çərçivəsində onun möhkəmlənməsinə mühüm töhfələr vermişdir. GUAM iştirakçı dövlətlərin maraqlarını bundan sonra beynəlxalq səviyyədə daha fəal müdafiə edəcək, onun vahid strukturu yaradılacaq. Sammitdə ABŞ və ATƏT nümayəndələrinin iştirakı, GUAM-ABŞ proqramının qəbulu təşkilatın siyasi gücünü artıran amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün 2005-ci il mayın 16-17-də Polşanın paytaxtı Varşava şəhərində səfərdə olmuş, Polşa Prezidenti Aleksandr Kvasnevski, Avropa Şurasının Baş katibi Terri Devis, Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan və digər ölkələrin dövlət və hökumət başçıları ilə görüşlər keçirmişdir. Bu görüşlərdə Azərbaycanın Avropaya inteqrasiyası, habelə bu yolda başlıca maneə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir. Dövlətimizin başçısı Avropa Şurasının üzvü olan ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlər görülməsinin vacibliyini vurğulamış, Ermənistanın hərbi təcavüzünün ölkəmiz üçün doğurduğu ağır nəticələri bir daha xatırlatmış, bir milyondan artıq soydaşımızın öz doğma yurdlarından didərgin düşərək, ağır vəziyyətdə

yaşadıqlarını diqqətə çatdırmışdır. Azərbaycan Prezidenti Avropa Şurasının ən başlıca prinsiplərindən olan insan hüquqlarının qorunması prinsipinin pozulduğunu söyləmiş, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tərəfdar olduğunu bildirmişdir: *"Biz kompromislərə də hazırıq. Hesab edirik ki, uzun illər ərzində Azərbaycan tərəfindən Dağlıq Qarabağ ermənilərinə mümkün olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifi kifayət qədər ciddi güzəştdir. Bununla yanaşı, biz həmin regionda yaşayan hər kəsin təhlükəsizliyinə zəmanət veririk. Bu təklif hərtərəfli nizamlanma üçün çox vacib element hesab edilə bilər. Lakin eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağ üzərindəki suverenliyi kompromis mövzusu ola bilməz. Biz ərazi bütövlüyümüzlə bağlı heç bir güzəştə gedə bilmərik. Biz bütün dünya ölkələrinin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyünə də hörmətlə yanaşılmasını istəyirik"*. Azərbaycan Prezidentinin sammitdəki çıxışının dövlət və hökumət başçıları tərəfindən yüksək qarşılanması ölkəmizin tutduğu ədalətli mövqenin artıq dünya ölkələri tərəfindən də qəbul edilməsini bir daha sübuta yetirmişdir. Təsadüfi deyildir ki, bu mötəbər qurumda Ermənistan işğalçı dövlət, Dağlıq Qarabağdakı rejim isə separatçı rejim adlandırılmışdır.

Dövlətimizin başçısı ölkədə aparılan iqtisadi islahatlara da toxunmuş, bir çox beynəlxalq, regional layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm rol oynadığını xatırladaraq demişdir ki, Avropaya inteqrasiya yolunda Azərbaycan üçün, eləcə də region üçün ən böyük maneə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və onun tezliklə aradan qaldırılması üçün Avropa ölkələri bu məsələyə daha ciddi yanaşmalıdır. Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini vurğulayaraq demişdir ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

Müstəqil Azərbaycanın yeritdiyi xarici siyasətdə Şərqi Avropa ölkələri ilə əməkdaşlığa böyük önəm verilir. Bu baxımdan dövlətimizin başçısının 2005-ci il iyunun 10-11-də Xorvatiyaya rəsmi səfəri xüsusi diqqət çəkir. Qeyd edək ki, ölkələrarası mədəni əməkdaşlıq haqqında sazişin, Xarici işlər nazirliklərinin əməkdaşlığı haqqında protokol və aviasiya qurumları arasında əməkdaşlıq haqqında memorandumun imzalandığı rəsmi səfər çərçivəsində aparılan danışıqlar Azərbaycanın Şərqi Avropa ölkələrindən olan Xorvatiya ilə əməkdaşlığını daha da genişləndirəcək. Bu fikri təsdiqləmək üçün iyunun 10-da rəsmi sənədlərin imzalanması mərasimindən sonra Xorvatiya Prezidenti Stipe Mesiçin verdiyi bəyanata müraciət etmək kifayətdir: *"Biz bütün sahələrdə, xüsusən də iqtisadi sahədə qarşılıqlı*

əməkdaşlığı daha da intensivləşdirmək və möhkəmləndirmək arzumuzu ifadə etdik. Eyni zamanda bildirdik ki, ikitərəfli əməkdaşlığımızın genişləndirilməsi və gücləndirilməsi məqsədi ilə hüquqi baza yaradılmalıdır və bu gün həmin istiqamətdə ilkin addımlar atılmışdır". Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinin işə salınması faktını yada salan Xorvatiya Prezidenti həmin layihənin Azərbaycan üçün xoş gələcək vəd etdiyini vurğulamaqla öz ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlığa böyük önəm verdiyini ifadə etdi: "Xəzər dənizindən çıxarılacaq Azərbaycan neftinin böyük bir hissəsi bu yaxınlarda istismara verilmiş yeni neft boru kəməri vasitəsilə dünya bazarlarına çatdırılacaqdır. Beləliklə, bu layihə Azərbaycanın büdcəsinə milyardlarla dollar gətirəcək və Azərbaycan hökuməti ən mühüm məsələləri həll etməyə qadir olacaqdır. Bu fürsət həmçinin bizim şirkətlər üçün Azərbaycanda fəaliyyət göstərmək imkanları yaradacaqdır. Xorvatiya isə öz növbəsində, Azərbaycanda istehsal olunan məhsullar üçün bazarlarını açıq elan edəcəkdir". Bu, bir daha sübut edir ki, Xorvatiya Azərbaycanla hərtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Azərbaycan Avropa ilə əməkdaşlığa böyük əhəmiyyət verir, Avratlantik strukturlarla münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün səylərini əsirgəmir, region dövlətləri ilə sıx əməkdaşlıq edir. Eyni zamanda Azərbaycan öz iqtisadi imkanlarına görə regionun lideri kimi tanınmaqdadır. Respublikamızın sürətli iqtisadi inkişafı və qazanılmış nailiyyətlər ölkəmizin bütün dünyada nüfuzunun artmasında həlledici amil kimi çıxış edir. 2005-ci il iyun ayının 16-da Kiyevdə keçirilən Beynəlxalq investisiya forumunun "Fövqəladə Ukrayna dəyirmi masası"nda Azərbaycanın iştirakı buna parlaq sübutdur. Qeyd edək ki, Ukrayna Prezidentinin təşəbbüsü, Dünya (Davos) iqtisadi forumunun himayəsi ilə və Ukraynanı kəşf edirik devizi altında keçirilən bu mötəbər tədbirdə 26 ölkədən 250-dək nümayəndə, o cümlədən dövlət başçıları, biznes liderləri iştirak edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumdakı nitqində respublikanın indiyə qədər əldə etmiş olduğu iqtisadi nailiyyətləri stimullaşdıran başlıca amilləri diqqətə çatdıraraq ölkəmizin Avropaya inteqrasiya xəttinə sadiq qaldığını bəyan etmişdir. Dövlətimizin başçısı bir daha vurğulamışdır ki, müstəqil Azərbaycan demokratikləşməni və iqtisadi azadlıqların təmin olunmasını ümumi tərəqqinin və xalqın sosial rifahının əsas şərti kimi qəbul edir: *"Azərbaycan Avropa strukturlarına tam inteqrasiya olunmaq siyasəti yürüdür. Biz artıq bir neçə ildir ki, Avropa Şurasının üzvüyük və Siz qeyd etdiyiniz kimi, mən Avropa Şurası Parlament Assambleyası sədrinin müavini olmuşam. Hazırda Azərbaycan Avropa İttifaqının*

"Yeni qonşuluq siyasətinə" daxil edilmişdir. Bizim bu təşkilatla çox yaxşı dialoqumuz var. Bu, xüsusən enerji, nəqliyyat sahələrinə və digər sahələrə aiddir. Şübhəsiz, biz hesab edirik ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır".

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının sürətli inkişafının bütün dünya tərəfindən etiraf edildiyini və təqdir hissi ilə qarşılandığını vurğulayaraq burada ölkəmizin zəngin təbii sərvətlərinin mühüm rol oynadığına diqqəti çəkmiş, iqtisadi siyasətin düzgün müəyyənləşdirilməsinin də həlledici əhəmiyyət kəsb etdiyini bildirmişdir: *"Burada sadəcə, iqtisadi inkişaf və ya sənayenin inkişafı nəzərdə tutulmur. Bizim ölkə iqtisadi baxımdan böyük uğurlar əldə etmişdir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il ərzində ÜDM-in artımı 18 faiz olacaqdır. Lakin bizim zəngin təbii sərvətlərimiz də var. Bilirsiniz ki, dünyada bir çox ölkənin zəngin təbii ehtiyatları var, amma bu o demək deyil ki, həmin ölkələrin hamısı arzuolunan səviyyədə tərəqqi edir və əhali bu imkandan bəhrələnir. Buna görə də demokratikləşmə prosesi, müasir siyasi sistemin yaradılması uğurumuz və inkişaf üçün əsas ilkin şərtlərdən biridir. Eyni zamanda, biz anlayırıq ki, bu ilkin şərtlər Avropaya yaxınlaşmağımız üçün də vacibdir".* Dövlətimizin başçısı demişdir ki, Beynəlxalq Valyuta Fondunun məlumatına görə, bu il Azərbaycanda ümumi daxili məhsulun artımı 18 faizə çatacaqdır. Azərbaycan irimiqyaslı layihələr həyata keçirir və zəngin təbii ehtiyatlara malikdir. Bu ehtiyatlardan səmərəli istifadə edərək, ölkədə sosial vəziyyəti daha da yaxşılaşdırmaqla bağlı Azərbaycan hökumətinin müvafiq proqramları var və bunlar həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsindən, xarici ölkələrlə, beynəlxalq təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq dövlət başçısının xarici ölkələrə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, o cümlədən Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankı ilə müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır.

Prezident İlham Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasi-

bətlərini qoruması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb edir. BMT, Avropa İttifaqı, ATƏT, Avropa Şurası, NATO, İKT, MDB kimi beynəlxalq təşkilatlardan Azərbaycanın nüfuzuna hörmət, problemlərinə diqqət görmək istəyi Prezident İlham Əliyevin yüksək peşəkarlıqla həyata keçirdiyi siyasətin mühüm bir hissəsini təşkil edir. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasında iştirakı və dərin məzmunlu nitqiylə dünya miqyaslı siyasətçi, diplomat və qlobal siyasətin strateqlərindən biri olduğunu, xüsusilə nüfuzlu dövlət və siyasət adamları, aparıcı ölkələr tərəfindən dəstəkləndiyini və qəbul olunduğunu bir daha təsdiq etmişdir. Cənab İlham Əliyevin bu mötəbər toplantıda çıxışı Azərbaycan siyasətinin dünyaya çatdırılması, qlobal dünya siyasətində ölkəmizin milli və dövlət maraqlarının gündəmə gətirilməsi və mövqelərinin gücləndirilməsi baxımından tarixi bir hadisədir. Dövlətimizin başçısı həmin sessiyada bir daha diqqəti Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldərək, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın on ildən çox müddətdə işğal altında saxlandığını, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün kimi ağır vəziyyətdə yaşadığını bildirmişdir. Prezident İlham Əliyev BMT-nin münaqişəyə dair qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə münasibətə də toxunmuşdur: *"Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır"*.

İşğal edilmiş ərazilərimizin terrorçu yuvasına çevrilməsindən, tanınmayan qondarma Dağlıq Qarabağ Respublikasının bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyi olmasından və Ermənistanın dini və tarixi abidələrimizi özününküləşdirməsindən narahatlığını bildirən Prezident İlham Əliyev işğal altında olan ərazilərin beynəlxalq nəzarətdən kənarda qalması faktını ön plana çəkmişdir: *"...işğal edilmiş ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir"*. Azərbaycan Prezidenti daha sonra demişdir ki, münaqişənin siyasi yolla həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsinə hələ də lazımi qiymət verməyib: *"münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu*

çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir".

Prezident İlham Əliyev bu çıxışı ilə Azərbaycana qarşı yönəlmiş bütün informasiya blokadalarını, antiazərbaycan təbliğat maşınını darmadağın etmiş, Azərbaycan həqiqətlərini, o cümlədən Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə bağlı acınacaqlı vəziyyəti çılpaqlığı ilə dünyanın diqqət mərkəzinə çəkmişdir. Unutmaq lazım deyil ki, İlham Əliyev Avropa məkanında Ermənistanın mövqelərinə qarşı aparılan aktiv informasiya müharibəsinə bilavasitə rəhbərlik edir və bu mübarizənin taktiki və strateji hədəflərinin müəyyənləşməsi məhz onun adı ilə bağlıdır. Bu barədə bəzi məqamlara toxunmaq istərdik. 1994-cü ilin mayında atəşkəs haqqında razılıq əldə edilsə də, Qarabağ amili iki ölkə arasında siyasi təbliğatın və informasiya savaşının əsas obyekti olaraq qalıb. Bu proses hazırda BMT, ATƏT, MDB və digər beynəlxalq və regional təşkilatlar müstəvisində davam edir. Amma nəzərə almaq lazımdır ki, bu qurumlar indiyə kimi bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanımaq barədə qərar qəbul etsələr də, «işğal faktoru» heç zaman etiraf edilməyib. Hətta 1992-1993-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələbi qoyulsa da, bu mühüm sənəddə erməni işğalının adı çəkilməyib. Azərbaycan üçün əsas məqsəd isə odur ki, məhz onun ərazi bütövlüyünə Ermənistan tərəfindən qəsd edilməsi bir reallıq kimi dünya birliyi tərəfindən qəbul edilsin. İlk dəfə olaraq bu barədə qərar bir neçə il əvvəl İslam Konfransı Təşkilatı tərəfindən qəbul edilmişdi. Həmin sənəddə Ermənistan birmənalı olaraq işğalçı ölkə kimi ittiham olunurdu. Amma nəzərə almaq lazımdır ki, İKT və ona üzv olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik vasitələrlə həlli prosesinə təsiretmə imkanları son dərəcə azdır. Bu mənada, Avropada erməni işğalının tanınması məhz cənab İlham Əliyevin adı ilə bağlıdır.

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə incəliklərinə qədər bələddir və öz mövqeyini qlobal miqyasda cərəyan edən proseslərə uyğunlaşdırmağı bacarır. Ona görə də onun bəyanatlarında müxalifətin bəzi nüanslar axtarmaq cəhdləri yalnız çirkin siyasi texnologiyanın elementlərindən biridir. Siyasi qısqanclıq, ifrat radikalizm imkan vermir ki, müxalifət real həqiqətləri həzm edə bilsin. Bu antimilli siyasət təkcə İlham Əliyevə deyil, həm də ölkənin strateji mənafelərinə qarşı yönəlib. Hər halda bu müqayisə müxalifətin İlham Əliyevə qarşı apardığı total

kampaniyanın mahiyyətini nümayiş etdirir.

Xatırladaq ki, Azərbaycan Respublikası BMT Baş Assambleyasının sessiyasında artıq üçüncü dəfədir ki, belə yüksək səviyyədə iştirak edir. İlk dəfə 1994-cü ilin sentyabrında bu nüfuzlu beynəlxalq toplantıda dövlətimizi Azərbaycan Prezidenti Heydər Əliyev təmsil etmişdir. Həmin sessiyada ümummilli liderimizin son dərəcə mühüm, tarixi çıxışı bu gün əksəriyyət tərəfindən maraqla xatırlanır. Prezident İlham Əliyevin Nyu-Yorka səfəri isə Azərbaycan - BMT münasibətləri tarixində növbəti belə əlamətdar hadisədir.

Hazırda Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında Avropa və Avratlantika strukturları ilə fəal əməkdaşlıq edir. Qloballaşma prosesləri ilə əlaqədar iqtisadi müstəvidə Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa işlərində, xüsusən XXI əsrdə Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur.

Qeyd etmək lazımdır ki, cənab İlham Əliyevin cari ilin may və sentyabr aylarında Brüsselə səfəri Avropa İttifaqı ilə əlaqələrin inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prezidentinin Avropa Komissiyasında keçirilmiş görüşləri zamanı bu əməkdaşlığın genişləndirilməsinə dair əldə olunmuş prinsipial razılığın həyata keçirilməsi üçün birgə tədbirlərin görüləcəyi bildirilmişdir. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının "Yeni qonşusu" statusu verilmiş, "enerji dialoqu"nun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir. Bununla yanaşı, dövlət başçısının Brüssel səfəri Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açmışdır. Ölkəmizin Avropa İttifaqı ilə "Genişlənmiş Avropa və qonşuları" siyasəti, Şimali Atlantika Alyansı ilə "Fərdi əməkdaşlıq üzrə əməliyyat planı" çərçivəsində genişmiqyaslı əməkdaşlıq etməsi barədə ciddi razılaşmalar əldə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan hazırda planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya

ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indi daha aydın şəkildə hiss olunmaqdadır. Son iki ildə xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərlərinin müntəzəm xarakter alması da bunu təsdiqləyir. Gürcüstan, Yunanıstan, Pakistan, İran, Bolqarıstan, Moldova, Qazaxıstan və Türkiyə prezidentlərinin ölkəmizə səfərləri və bu səfərlər zamanı imzalanmış sazişlər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək, mövcud əlaqələri daha da möhkəmləndirmək baxımından müstəsna əhəmiyyətə malik olmuşdur.

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmiş, ölkəmiz Avrasiyanın mühüm geosiyasi mərkəzlərindən birinə çevrilmişdir. Son illərdə müxtəlif beynəlxalq tədbirlərdə iştirak edən cənab İlham Əliyev ölkəmizin mənafelərini layiqincə müdafiə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayırmışdır. Azərbaycan Prezidentinin xarici ölkələrə səfərləri, xarici ölkələrin dövlət başçıları, digər rəsmi şəxsləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

Hazırda Avropa Şurası və ATƏT-lə, habelə hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm elementi olan NATO ilə, eləcə də MDB, İƏT və digər təşkilatlarla əməkdaşlığa böyük diqqət yetirilir. Azərbaycanın BMT, ATƏT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə daha sıx tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son illərin uğurlu xarici siyasətinin real nəticələridir. Azərbaycan BMT-nin altı əsas qurumundan biri və təşkilatın strukturunda Təhlükəsizlik Şurasından sonra ikinci olan İqtisadi və Sosial Şurada 2002-ci ildən etibarən Şərqi Avropa ölkələrini təmsil edir. Eyni zamanda ölkəmiz BMT-nin İqtisadi və Sosial Şurasının Cenevrədə yerləşən İnsan Hüquqları Komissiyasının 15 yeni üzvündən biri seçilmişdir. BMT-nin Nyu-Yorkdakı iqamətgahında keçirilən gizli səsvermə zamanı ölkəmizin namizədliyinə 31 səs, həmin yerə digər namizəd olan Latviyanın lehinə isə 23 səs verilmişdir.

Ölkəmiz beynəlxalq təhlükəsizlik - terrorizmə qarşı mübarizə işində də öz səylərini əsirgəmir və Azərbaycanın sülhməramlı hərbi kontingenti sülhyaratma proseslərində fəal iştirak edir. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Azərbaycan terrorizmə qarşı mübarizə sahəsində ABŞ-la çox uğurlu əməkdaşlıq edir. Təsadüfi deyil ki, 2004-cü ildə Hava məkanına hücumlara və digər terror aktlarına qarşı Konvensiyanın Azərbaycan tərəfindən ratifikasiya olunması və ölkəmizin ümumilikdə terrorizmlə

mübarizəyə dair on iki beynəlxalq konvensiyanı və protokolu ratifikasiya etməsi ABŞ Dövlət Departamenti tərəfindən yüksək qiymətləndirilmişdir. Dövlət Departamentinin cari ilin aprel ayının 27-də dərc olunmuş 2004-cü ildə terrorizmə qarşı mübarizəyə dair hesabatında Azərbaycan hökumətinin terrorçu təşkilatların Qafqaz ərazisindən istifadə etməklə terrorçuların, "çirkli" pulların və digər materialların keçirilməsinin qarşısının alınması sahəsində böyük uğurlar qazandığı vurğulanmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan hökuməti, habelə terrorçu təşkilatların maliyyə mənbələrinin ləğv edilməsi ilə əlaqədar yerli banklara bu təşkilatların müvafiq siyahılarını təqdim etmişdir. Azərbaycan Milli Bankının ekspert qrupunun "çirkli pulların yuyulması"na qarşı hazırladığı qanun layihəsi və bununla əlaqədar yaradılacaq maliyyə kəşfiyyatı strukturu da terrorizmə qarşı mübarizə sahəsində ölkəmizin atdığı mühüm addım kimi vurğulanmışdır.

Ölkə başçısının xarici dövlətlərə çoxsaylı səfərləri, keçirdiyi yüksək səviyyəli görüşlər, nüfuzlu siyasətçilər, dövlət xadimləri, iş adamları, hərbçilər, görkəmli diplomatlarla yüksək peşəkarlıqla apardığı danışıqlar, nəhayət, BMT Baş Məclisinin 59-cu sessiyasındakı, GUAM-ın dövlət başçılarının Kişinyov sammiti zamanı və Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Varşava zirvə görüşündəki parlaq çıxışları, müasir beynəlxalq münasibətlərə verdiyi obyektiv və cəsarətli qiymət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qətiyyətli mövqe nümayiş etdirməsi Vətənini sevən hər bir azərbaycanlıda haqlı qürur hissi doğurur və gələcəyə böyük ümid yaradır. Bütün bunlar aydın göstərir ki, İlham Əliyev beynəlxalq aləmdə yaxşı tanınan və dünyanın aparıcı dövlət xadimləri tərəfindən qəbul olunan, onların arasında layiqli yer tutan siyasətçidir. Bu, Azərbaycan rəhbərinin dünya siyasətində daha parlaq gələcəyindən xəbər verir. Şübhə yoxdur ki, İlham Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi doğma xalqına hələ uzun müddət böyük uğurlar qazandıracaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan hazırda planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indiki şəraitdə bu, daha aydın şəkildə hiss olunmaqdadır.

Hazırda Azərbaycan Respublikası regional, beynəlxalq inteqrasiya və əməkdaşlıq proseslərinin fəal iştirakçısıdır. Ölkəmiz region və bütün dünya

dövlətləri ilə qarşılıqlı surətdə faydalı iqtisadi və mədəni əlaqələr qurulmasında maraqlıdır. Azərbaycan bütün dünyada terrorizmə qarşı mübarizədə, regional təhlükəsizliklə bağlı tədbirlərdə, transmilli nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsində birmənalı mövqeyi və fəaliyyəti ilə seçilir. Xüsusən beynəlxalq enerji layihələrində Azərbaycan həmişə əsas təşəbbüskarlardan və söz sahiblərindən biri olmuşdur. Təsadüfi deyil ki, indi Azərbaycan transmilli, qlobal enerji-kommunikasiya layihələrinin mərkəzidir, dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu gün biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin memarı olduğu Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasının şahidiyik. 2006-cı ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası başa çatdırılacaqdır. Türkiyə, Gürcüstan və Azərbaycanın vahid dəmir yolu sistemi ilə birləşdirilməsi haqqında dövlətlərarası razılaşma əldə olunmuşdur. Artıq reallaşmasına heç kimin şübhə etmədiyi bu nəhəng layihələr ölkəmizi və onunla birlikdə regionumuzu qloballaşan dünyanın çiçəklənən, sülh, sabitlik və inkişafın hökm sürdüyü bölgələrindən birinə çevirəcəkdir.

"Azərbaycanda milli siyasət və strateji inkişaf XXI əsrin astanasında (sosial, siyasi və ideoloji aspektlər)", Bakı, 2005-ci il, s. 16-79

Qloballaşan dünyada Azərbaycanın hücum xarakterli praqmatik xarici siyasət kursu

Xalqımızın tarixinə əlamətdar hadisə kimi daxil olan 15 oktyabr prezident seçkilərindən keçən üç il ərzində Azərbaycanda gedən dinamik inkişaf müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində layiqli yerini və mövqeyini daha da möhkəmləndirmişdir. Ötən dövrdə ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünya dövlətləri və beynəlxalq təşkilatlarla əlaqələri milli mənafelərə əsaslanan xətlə inkişaf etmişdir. Prezident İlham Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Prezident ilham Əliyev bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında münasibətlərin inkişaf etdirilməsi, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulması, dünya birliyinə, Avratlantik strukturlara inteqrasiyası istiqamətində mühüm addımlar atmışdır. Bu məqsədlərlə dövlətimizin başçısı ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Türkiyə, Rusiya, Belçika, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Slovakiya, Sloveniya, Xorvatiya, Bolqarıstan, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Qətər, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Moldova, Latviya və s. dövlətlərə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin genişlənməsinə nail olmuşdur. Azərbaycan Prezidentinin islam ölkələrinə səfərləri respublikamızın müsəlman dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Prezident İlham Əliyev Asiya-Sakit okean regionu, Afrika və Amerika qitəsi ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi sahəsində tədbirlər həyata keçirmişdir. MDB ölkələri ilə əlaqələrin dərinləşdirilməsinə xüsusi yer verilmiş, tarixi əlaqələrin yeni müstəvidə inkişafı üçün əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına əhəmiyyətli təsir göstərmişdir.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir. Son üç il ərzində Azərbaycan ilə həmin ölkələr arasında qarşılıqlı münasibətlər inkişaf etdirilmişdir. Bu, planetin ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana

cəlb etmək üçün aparılan ardıcıl işin müsbət nəticəsidir.

Dövlətimizin başçısının müasir dünyanın ən qüdrətli ölkəsi olan Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri son illərdə sürətlə inkişaf edən ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoymuş və uğurlu nəticələrlə yadda qalmışdır. Səfər zamanı keçirilən müxtəlif səviyyəli görüşlərdə mövcud əlaqələrin perspektivləri, habelə iki ölkənin maraq dairəsində olan digər vacib məsələlər müzakirə olunmuşdur. Azərbaycan və ABŞ prezidentlərinin görüşündə dövlətimizin başçısının Vaşinqtona rəsmi səfərinin çox uğurlu keçdiyi və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün bu səfərin faydalı olduğu bildirilmişdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Azərbaycanda həyata keçirilən demokratik islahatlara və ölkəmizin beynəlxalq terrorizmə qarşı mübarizədə fəal iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. Səfər zamanı Azərbaycan-ABŞ tərəfdaşlığının möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması, iqtisadi münasibətlərin genişləndirilməsi üçün hüquqi bazanın və yaxşı şəraitin mövcud olduğu qeyd edilmişdir. Eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həlli, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, habelə regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında geniş fikir mübadiləsi aparılmışdır.

Səfərin yekunları tam əminliklə deməyə əsas verir ki, ABŞ Azərbaycanla mövcud əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır. Bu maraq ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə zəngin intellektual resurslara malik olması ilə şərtlənir. Ümumi • Daxili Məhsulun 26,4 faizlik artımı ilə 2005-ci ildə inkişaf tempinə görə dünyanın lider ölkəsinə çevrilmiş Azərbaycanda xarici sərmayədarların fəaliyyəti üçün yaradılmış münbit mühit ABŞ-ın iş adamlarının da diqqətini xüsusi cəlb edir. Bu gün ABŞ kapitalının iştirakı ilə Azərbaycanda bir çox şirkətlər fəaliyyət göstərir. "Şevron Yunokoi", "Amerada HESS" və "Konoko Filips" şirkətləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisində 13,76 faizlik payla yaxından iştirak edirlər. ABŞ şirkətlərinin Azərbaycanla, çoxşaxəli əməkdaşlığa artan marağı həm də son illərdə ikitərəfli iqtisadi əlaqələrdə əldə olunmuş nailiyyətlərlə bağlıdır. 2004-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi təqribən 157.4 milyon ABŞ dolları olduğu halda, 2005-ci ildə bu rəqəm 184.1 milyon dollar təşkil etmişdir.

Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Prezidentimizin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın nüfuzlu ölkələri - Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Belçika, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan, Slovakiya, Xorvatiya, Sloveniya və Skandinaviya ölkələri ilə respublikamız arasında sabit və bərabərhüquqlu əməkdaşlıq münasibətləri inkişaf etdirilmişdir. Ötən illərdə Azərbaycan Prezidentinin Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərinə səfərləri əlaqələrimizin genişlənməsində müstəsna əhəmiyyətə malik olmuşdur. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının yeni qonşusu statusu verilmiş, enerji dialoqunun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə alt komitənin yaradılmasına qərar verilmişdir. Bununla yanaşı, Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açılmışdır. Hazırda uğurla həyata keçirilən Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı ölkəmizin NATO ilə əlaqələrinin inkişafı prosesində mühüm amilə çevrilmişdir. Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planının işlənib hazırlanması isə Avropa İttifaqı ilə tərəfdaşlığımızın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə kəsb edir.

Avropa ölkələri ilə münasibətlərin inkişafında Tarixi İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi mühüm yer tutur. Bu nəhəng layihələrin təşəbbüskarı və iştirakçısı kimi Azərbaycan Şərqlə Qərbin qovuşuğunda mühüm rol oynayır.

Dünyanın ən böyük dövlətlərindən biri və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Xalq Respublikası, nəhəng intellektual potensiala malik Yaponiya, həmçinin iqtisadi və elmi-texniki tərəqqi baxımından aparıcı ölkələrdən sayılan Cənubi Koreya Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətimizin şəksiz uğurlarıdır.

Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərdə əldə olunan uğurlar diqqəti xüsusilə cəlb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının paytaxtı Moskvaya səfərləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ölkələrimiz arasındakı münasibətlərə yeni keyfiyyət gətirmişdir. Son illər yaranmış mehriban qonşuluq münasibətlərinin məntiqi nəticəsi olaraq Rusiya respublikamızla əlaqələrin perspektivinə inamla yanaşır, təkcə siyasi-iqtisadi sahədə deyil, həm də humanitar sahədə əməkdaşlığı genişləndirmək niyyətini konkret şəkildə ortaya qoyur. iki ölkə arasında uğurlu dialoq və anlaşma mühitinin yaranması isə qarşılıqlı faydalı münasibətlərin inkişafına

təkan verir. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə respublikadır. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın ən etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərinin möhkəmləndirilib daha da genişləndirilməsi, yüksək səviyyəyə qaldırılması Prezident İlham Əliyevin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Türkiyəyə rəsmi və işgüzar səfərlər zamanı hər iki tərəfin maraqlarını ifadə edən bir çox məsələlər müzakirə edilmiş, ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinə dair bir neçə sənəd imzalanmışdır. Prezidentlərin Birgə Bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin gələcək inkişafının prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, həm də tərəflərin strateji müttəfiqlik xəttinə sədaqətini ifadə edən çox vacib hüquqi sənəddir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikasının prezidentləri arasında imzalanmış Birgə Bəyanatda bu iki dövlətin etibarlı tərəfdaşlıq əlaqələri qurması ən ciddi nailiyyətlərdən biri kimi qiymətləndirilir. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin bundan sonra da Azərbaycana lazım olan dəstəyi verəcəyi bildirilir. Rəsmi Ankara problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını nizamlama prosesinin ən ümdə şərti kimi dəyərləndirdiyini bəyan edir. Prezidentlərin imzaladığı sənəddə belə bir qəti mövqenin öz əksini tapması münaqişənin həllində Azərbaycanın maraqlarının nəzərə alınmasının qaçılmaz olduğunu ortaya qoyur. Türkiyə Prezidenti Əhməd Necdət Sezərin 2006-cı il oktyabrın 1-də Türkiyə Böyük Millət Məclisinin payız sessiyasının açılış iclasında söylədiyi Dağlıq Qarabağ problemi həll edilməli və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır fikri bunu bir daha təsdiq edir.

Azərbaycanın xarici əlaqələrində dost ölkə kimi Pakistanın xüsusi yeri var. Təkcə bir faktı xatırlatmaq kifayət edər ki, Pakistan Türkiyədən sonra milli müstəqilliyimizi tanıyan ikinci ölkə olmuş və bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanla diplomatik münasibətlər qurmamışdır. İki dövlət arasında diplomatik münasibətlər qurulduqdan sonra Bakı ilə İslamabadın təmasları sıxlaşmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Pakistana, Pakistan rəhbərlərinin və indiki dövlət başçısı general Pərviz Müşərrəfin ölkəmizə səfərləri qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə və bununla yanaşı müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasının yaradılmasına imkan vermişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana uğurlu rəsmi səfəri regional və qlobal məsələlərə münasibətdə eyni mövqe nümayiş etdirən dövlətlərimiz arasında

əlaqələrin bütün sahələrdə sürətli inkişafına səbəb olmuş, qarşılıqlı əməkdaşlığın inkişafı üçün yeni imkanlar açmışdır.

Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına olmuşdur. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır. Prezident İlham Əliyevin İrana rəsmi səfəri, İran prezidentlərinin Azərbaycana səfərləri ikitərəfli əməkdaşlığın sürətli inkişafına təkan vermiş, keçirilmiş səmərəli görüşlərdə dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri və əlaqələrin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etməsinə, əmtəə dövriyyəsinin həcminin ildən-ilə artmasına səbəb olmuşdur. İran Azərbaycanın ixrac-idxal əməliyyatları apardığı əsas dövlətlərdən biridir. Milli iqtisadiyyatımıza sərmayə qoyuluşunda iranlı iş adamlarının payı yüksəkdir. İranlı sərmayədarlar ölkəmizin infrastrukturuna, kənd təsərrüfatına, emal sənayesinə, energetika sektoruna və digər sahələrə investisiya qoyurlar. Qarşılıqlı əlaqələrə yeni, güclü təkan verə biləcək bir sıra inkişaf layihələri artıq gündəlikdədir. Söhbət, ilk növbədə Azərbaycandan keçən Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasından gedir. Ölkəmizin qovşaq rolu oynayacağı bu böyük layihəni reallaşdırmaq üçün Azərbaycan, İran və Rusiya arasında müvafiq razılaşmalar əldə edilmişdir. Mərkəzi və Şimali Avropanı Cənubi Asiya ilə birləşdirəcək dəmiryol xəttinin, eləcə də beynəlxalq əhəmiyyətli avtomobil yolunun işə salınması Azərbaycan-İran əməkdaşlığının genişləndirilməsinə və dərinləşdirilməsinə şərait yaradacaq. İki ölkə arasında elektrik enerjisi mübadiləsinin nizama salınması, eləcə də İrandan Naxçıvana qaz kəmərinin çəkilməsi ikitərəfli əlaqələrin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfədir.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrlə də son illər ərzində siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız uğurlu olmuşdur.

Hazırda Səudiyyə Ərəbistanı, Pakistan, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya, Küveyt, Qətər, Oman və Bruney ilə bir çox sahələrdə fəal dialoq mövcuddur. Ötən dövrdə Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlər də möhkəmləndirilmişdir. Bu işdə Prezident İlham Əliyevin Qazaxıstan və Özbəkistan Respublikalarına olan rəsmi səfərləri çox mühüm rol oynamışdır. Eyni zamanda. Azərbaycanla İsrail Dövləti arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir.

Ortaq tarixi keçmişə və milli-mədəni dəyərlərə malik türk xalqları arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin daha da genişləndirilməsi və dünyanın müxtəlif bölgələrində mövcud olan Azərbaycan və türk diaspor təşkilatlarının birgə səylərinin əlaqələndirilməsi sahəsində Prezident İlham Əliyevin rolu xüsusi qeyd olunmalıdır. Bu baxımdan dövlətimizin başçısının Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirakı tarixi əhəmiyyət kəsb etmişdir. İnamla demək olar ki, türkdilli dövlətlərin və topluluqların növbəti dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının, eləcə də Azərbaycan və türk diaspor təşkilatlarının forumunun ölkəmizdə keçirilməsi türk xalqları arasında əməkdaşlığı daha da gücləndirəcək, qarşılıqlı əlaqələri yeni inkişaf səviyyəsinə qaldıracaq və xalqlarımızın mənafelərinin qorunmasında mühüm rol oynayacaqdır.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması və respublikamızın ərazi bütövlüyünün təmin edilməsi ölkəmizin başçısının xarici siyasət fəaliyyətində mühüm yer tutur. Prezident İlham Əliyev xarici ölkələrin dövlət başçıları ilə çoxsaylı görüşlərində, BMT, Avropa Şurası, NATO, İKT, İƏT, GUAM kimi nüfuzlu təşkilatlardakı çıxışlarında bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq tezliklə aradan qaldırılmasının vacibliyini bildirmiş, Ermənistanın təcavüzkar siyasətini ifşa etmişdir. Azərbaycanın bu məsələdə tarixi ədalətin bərpa olunması üçün qətiyyətli mövqe tutması dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların ölkəmizə dəstəyini daha da artırmışdır. Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində Avropa Şurası Parlament Assambleyasında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması və ermənilərin işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti apararaq separatçı qurum yaratma cəhdinin təsdiqlənməsi, bu məsələnin İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 3-cü fövqəladə zirvə görüşünün və BMT Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə salınması, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının işğal olunmuş ərazilərdə ermənilərin törətdikləri yanğınlarla bağlı qətnamə qəbul etməsi, ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni olaraq məskunlaşdırılmasını etiraf etməsi Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsi, Ermənistanın təcavüzkar siyasətinin ifşası istiqamətində qazanılan mühüm diplomatik nailiyyətlərdir. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Hazırda intensiv xarakter almış danışıqlar prosesində Azərbaycan Prezidentinin prinsipial və ardıcıl mövqeyi mühüm rol oynayır. Prezident öz qəti mövqeyini belə ifadə edir: "Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir". Prezident İlham Əliyev bu il oktyabr ayının 2-də Milli Məclisin payız sessiyasının açılışındakı çıxışında da münaqişə ilə bağlı ölkəmizin mövqeyinin dəyişməz olduğunu bir daha bəyan etmişdir.

Ərazisinin 20 faizinin işğal altında olmasına, əhalisinin hər səkkiz nəfərindən birinin qaçqın taleyi yaşamasına baxmayaraq Azərbaycan Respublikası Ermənistanın təcavüzünün nəticələrinin danışıqlar vasitəsilə aradan qaldırılmasına çalışır. Azərbaycan beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliyə sadiq qalaraq bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak edir. Rəsmi Bakı Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli danışıqlarının (2003-2006-cı illərdə hər iki ölkənin prezidentləri arasında 6 görüş keçirilmişdir) və xarici işlər nazirləri səviyyəsində Praqa prosesi adlandırılan danışıqlar prosesinin davamlı xarakter alması üçün səylərini əsirgəmir.

Azərbaycan Prezidentinin xarici siyasət kursunda beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə böyük diqqət yetirilir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat-GUAM, Parlamentlərarası İttifaq, BMT-nin İnsan Hüquqları Şurasının və digər beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər qurumlarla da sıx əməkdaşlıq edir. Ölkəmiz yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Prezident İlham Əliyev BMT Baş Məclisinin 59-cu sessiyasında, İslam Konfransı Təşkilatının 3-cü fövqəladə zirvə toplantısında, GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kiyev sammitində, NATO Parlament Assambleyasının yaz sessiyasında, Dialoq və tərəfdaşlıq naminə Qara dəniz forumunda, Asiyada Qarşılıqlı Fəaliyyətə və Etimad Tədbirlərinə dair Müşavirənin 2-ci sammitində, "Caspian Outlook-2008" Bled Strateji forumu və Beynəlxalq Bertelsmann—2006 forumunda çıxış edərək ölkəmizin beynəlxalq təşkilatlarla münasibətlərinin daha da inkişaf etdirilməsini dövlətimizin milli mənafelərinin qorunmasında mühüm amil kimi dəyərləndirmiş, konstruktiv əməkdaşlıqda maraqlı olduğunu vurğulamışdır. Ötən dövr ərzində müxtəlif beynəlxalq

təşkilatların nümayəndələrinin Azərbaycana intensiv səfərləri, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısının, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici işlər Nazirləri Şurasının 33-cü sessiyası və turizm nazirlərinin 5-ci konfransının ölkəmizdə keçirilməsi regional lider kimi Azərbaycanın və onun rəhbərinin beynəlxalq aləmdə nüfuzunun və rolunun yüksəlməsinin təsdiqidir.

Bu gün Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə fəal mövqe nümayiş etdirir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir. Prezident İlham Əliyevin diplomatik səyləri və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması prosesinə yaxından cəlb edilmiş, dünyanın müxtəlif nöqtələrində olan münaqişələrin aradan qaldırılması istiqamətində sülhməramlı proqramlarda iştirakını genişləndirmişdir. Təsadüfi deyil ki, Hava məkanına hücumlara və digər terror aktlarına qarşı Konvensiyanın Azərbaycan tərəfindən ratifikasiya olunması və ölkəmizin ümumilikdə terrorizmlə mübarizəyə dair 12 beynəlxalq konvensiyanı və protokolu ratifikasiya etməsi beynəlxalq birlik, eləcə də ABŞ Dövlət Departamenti tərəfindən yüksək qiymətləndirilmişdir. Dövlət Departamentinin terrorizmə qarşı mübarizəyə dair hesabatında Azərbaycan hökumətinin terrorçu təşkilatların Qafqaz ərazisindən istifadə etməklə terrorçuların, çirkli pulların və digər materialların keçirilməsinin qarşısı alınması sahəsində böyük uğurlar qazandığı vurğulanmışdır.

Prezident İlham Əliyevin xarici siyasət fəaliyyətinin mühüm strateji tərkib hissələrindən biri kimi Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin olunmasına böyük əhəmiyyət verilir. Bu mənada əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının həyata keçirilməsi baxımından son üç ili ən uğurlu dövr saymaq olar. Belə ki, 2004-cü fevralında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin maliyyələşdirilməsi məsələsi tam həllini tapmış, 2005-ci il fevralın 18-də "Əsrin müqaviləsi" çərçivəsində "Mərkəzi Azəri" platforması istismara verilmiş, mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirilmişdir. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Aralıq dənizinin sahilindəki Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan hadisəyə çevrildi. 2006-cı il iyul ayının 13-də Türkiyənin Ceyhan terminalında hər üç ölkənin prezidentinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan kəmərinin tam istismara verilməsi ilə bağlı

möhtəşəm tədbir təşkil olundu. Beləliklə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində və Xəzər hövzəsinin inkişafında yeni mərhələ başlanmış, üç dənizin əfsanəsi reallığa çevrilmişdir. Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Azərbaycanın 2004-cü ildə Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülmüş Mineral Ehtiyatların Hasilatı ilə Məşğul Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulması da bunun bariz göstəricisidir. Bütün bunlar Azərbaycanın müstəqil; dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqları sonadək müdafiə etmək əzmində olduğunu, ölkəmizin enerji siyasətinin düzgün və uzaqgörənliklə həyata keçirildiyini, bir daha təsdiqləyir. Bu, Avropanın enerji təhlükəsizliyi ilə bağlı baş verən bəzi proseslərdən sonra özünü daha qabarıq göstərir.

Təsadüfi deyil ki, region dövlətlərinin enerji sahəsində qlobal əməkdaşlığının rəmzinə çevrilmiş Bakı-Tbilisi-Ceyhan boru kəməri həm də iqtisadi təhlükəsizlik modeli kimi nəzərdən keçirilir. Zəngin neft ehtiyatlarına Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulması da bunun əyani təsdiqidir. ABŞ prezidenti Corc Buşun 13-cü Beynəlxalq Xəzər neft-qaz sərgisi konfransının açılışı münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu bunu bir daha təsdiqləyir.

"Mən Şərq-Qərb enerji dəhlizinin yaradılmasında Azərbaycanın həyata keçirdiyi vacib liderliyə öz təşəkkürümü bildirirəm. indi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam fəaliyyətə başladığı, Cənubi Qafqaz qaz kəmərinin isə payızda işə düşəcəyi bir vaxtda Azərbaycan regional iqtisadi inkişafda aparıcı qüvvəyə, Avratlantika ailəsinin enerji təhlükəsizliyinin təminatçısına çevrilməkdədir. Azərbaycanın nümayiş etdirdiyi ardıcıl rəhbərliklə biz gələcəkdə də enerji təhlükəsizliyində davamlı nailiyyətlər əldə ediləcəyini gözləyirik".

ABŞ prezidentinin də məktubunda deyildiyi kimi, son illər ölkəmizdə uğurla həyata keçirilən neft diplomatiyası Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDB dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr, eyni zamanda respublikamızın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir. Azərbaycan Prezidenti İlham Əliyev respublikamızın enerji təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması üçün geniş imkanların olduğunu böyük inam və qətiyyətlə bildirir: "Təbii sərvətlər imkan verir ki, biz enerji təhlükəsizliyi baxımından heç kimdən

asılı olmayaq. Qış aylarında bəzi ölkələrdə yaşanan enerji böhranı göstərdi ki, bu, çox ağır sosial və bəzi hallarda siyasi məsələyə çevrilir. Azərbaycan bu baxımdan sığortalıdır. Şübhəsiz ki, bizim enerji təhlükəsizliyimiz çox yüksək səviyyədə təmin olunacaq və Azərbaycan gələcək illərdə bölgə üçün, region üçün, Avropa istehlakçıları üçün çox önəmli enerji mənbəyi olan ölkəyə çevriləcəkdir. Biz bundan məharətlə istifadə etməliyik. Azərbaycanın coğrafi vəziyyəti, onun regiondakı artan nüfuzu, rolu, habelə təbii sərvətlərimiz bizə çox gözəl imkanlar yaradır. Bu imkanlar Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edəcək, eyni zamanda Azərbaycanın bölgədəki və dünyadakı mövqelərini möhkəmləndirəcəkdir".

Prezident İlham Əliyevin tarazlaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq və regional əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmiş, ölkəmiz transmilli, qlobal enerji-kommunikasiya layihələrinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün ardıcıl səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa müsbət təsir göstərəcəkdir. Digər tərəfdən isə dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu bu layihələrin reallaşdırılması Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirəcək, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha səmərəli və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərəcəkdir.

Prezident İlham Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin digər bir mühüm prioriteti Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsindən, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq dövlət başçısının xarici ölkələrə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmış, habelə Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünə dair danışıqlar davam etdirilmişdir. Eyni zamanda, iqtisadi yönümlü beynəlxalq təşkilatların, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısı,

Qara Dəniz iqtisadi Əməkdaşlıq s Təşkilatı və digər beynəlxalq qurumların mühüm tədbirləri Bakı s şəhərində keçirilmişdir.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və. mədəni əsaslarının gücləndirilməsi Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutur. Dövlətimizin başçısı bəyan etmişdir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər. Prezident İlham Əliyev dünya azərbaycanlılarının II qurultayındakı çıxışında diaspor quruculuğu işini xarici siyasət sahəsində üstün istiqamətlərdən biri kimi qiymətləndirmişdir.

Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mübarizə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Prezident İlham Əliyev Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində soydaşlarımızı da-ha fəal olmağa çağırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, habelə ölkəmizin son illər demokratiya, insan hüquqlarının müdafiəsi və iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar barədə təbliğatın gücləndirilməsi vacibliyini önə çəkmişdir.

Bu gün möhtərəm Prezidentimizin dünyanın bir sıra aparıcı dövlətlərinin başçıları ilə şəxsi münasibətləri xaricdə yaşayan soydaşlarımızın həmin ölkələrdə təhsili, işgüzar fəaliyyəti üçün olduqca əlverişli imkanlar açır. Rusiya, Ukrayna və bir sıra digər ölkələrdə bu amilin müsbət təsirini soydaşlarımız daha yaxşı hiss edirlər. Güclü, qüdrətli Azərbaycan və onun nüfuzlu rəhbəri bu gün dünyadakı soydaşlarımızın hər biri üçün güvənc yeridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın, demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edərək planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indi daha aydın şəkildə hiss olunmaqdadır. Son 3 ildə xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərlərinin müntəzəm xarakter alması da bunu təsdiqləyir. Rusiya, Gürcüstan, Yunanıstan, Pakistan, Bolqarıstan, Moldova, Qazaxıstan, Finlandiya, Latviya, Türkiyə, Koreya, Litva, Ukrayna prezidentlərinin və İordaniya kralının ölkəmizə səfərləri və bu səfərlər zamanı imzalanmış sazişlər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək, mövcud əlaqələri daha da möhkəmləndirmək baxımından müstəsna əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Respublikası artıq dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Hazırda Azərbaycan 160 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır. Bakıda iqamətgahı olan 30 səfirlik, 2 baş konsulluq, beynəlxalq təşkilatların 12 nümayəndəliyi, 7 fəxri konsulluq fəaliyyət göstərir. iqamətgahları digər şəhərlərdə olan 43 diplomatik nümayəndəliyin rəhbərləri də Azərbaycanda akkreditə edilmişdir. öz növbəsində Azərbaycanın xaricdə 37 səfirliyi, beynəlxalq təşkilatlar yanında 4 nümayəndəliyi, 5 baş konsulluğu, 1 konsulluğu, 2 fəxri konsulluğu fəaliyyət göstərir ki, onlardan da 20-si son iki ildə fəaliyyətə başlamışdır. Azərbaycan Prezidenti bu ilin payızında daha 5 ölkədə səfirliyin təsis olunması haqqında qərar qəbul etmişdir.

Ölkəmizin dünyada və regionda nüfuzunun gücləndiyi, geosiyasi məsələlərin həllində daha yaxından iştirak etdiyi indiki şəraitdə xarici siyasətimizin qarşısında bir sıra təxirəsalınmaz vəzifələr durur. Prezident İlham Əliyev 2006-cı il avqustun 14-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsindəki çıxışında Azərbaycanın xarici siyasətinin qarşısında duran vəzifələri bir daha aydın şəkildə bəyan etmişdir. Bunlara dünya ölkələri ilə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq, xarici ölkələrdəki səfirliklərimizin fəaliyyətinin genişləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlər problemi ilə bağlı dünya ictimaiyyətində dolğun təsəvvür yaradılması, xaricdə yaşayan azərbaycanlıların potensialından səmərəli istifadə edilməsi, Azərbaycanın iqtisadi maraqlarının qorunması daxildir.

Bu gün dünyada 200-ə yaxın dövlət var. Onlardan 192-si BMT-nin üzvüdür. Bu dövlətlərdən hər biri, ilk növbədə yalnız öz maraqlarını təmin etmək uğrunda çarpışır, mübarizə, rəqabət aparır. Dövlətlər bu mübarizəni həm təklikdə, həm də müxtəlif dövlətlər, təşkilatlar, qurumlarla birlikdə, yəni bütün imkanlardan istifadə edərək aparırlar. Dünya təcrübəsində bu arsenal çox zəngindir—QHT-lərdən tutmuş dini qurum və missiyalara qədər, xüsusi xidmət orqanlarından tutmuş böyük beynəlxalq təşkilatlaradək bu prosesdə iştirak edirlər. Və bu proses hər bir dövlətin yarandığı gündən başlayaraq onun mövcudluğu müddətində davam edir.

Azərbaycan müstəqilliyini qazandığı zaman bu əla qurulmuş sistem artıq işləyirdi. Güclü təşkilatlanmış sistemə daxil olmaq, orada özünə layiq

yerini tutmaq heç də asan deyil. Hətta Azərbaycandan bir neçə dəfə çox potensialı olan dövlətlər belə çoxsaylı daxili və xarici səbəblər üzündən müasir beynəlxalq münasibətlər sistemində özlərinə adekvat mövqe təmin etməkdə çətinlik çəkirlər.

Azərbaycan müstəqilliyini qazananda hansı vəziyyətdə idi: müsəlman dövləti, mühüm geostrateji məkan, zəngin karbohidrogen ehtiyatı, müstəqil dövlətçilik təcrübəsi yox dərəcəsində, çox mürəkkəb əhatə, eyni zamanda onilliklərlə dişini qıcayıb pusquda durmuş, imkan tapan kimi hücuma keçən, böyük hamilərinə arxalanan düşmən. Belə bir vəziyyətdə—gənc respublika quruculuğunu yalnız şüarlarla həyata keçirməyi mümkün hesab edən sərişəsizlərin zamanında hər şey göz qabağında idi.

Xalqımızın tarixində heç şübhəsiz, belə sınaq məqamları xeyli olub və apriori ehtimal da elə ondan ibarətdir ki, biz o sınaqlardan çıxa bilməmişik. Əgər çıxa bilsəydik, yenidən onunla qarşılaşmazdıq. Azərbaycanı bu sınaqlardan adi siyasi və dövlət xadimi çıxara bilməzdi. Adi birisi bir ilin içində ölkəni elə vəziyyətə gətirdi ki, əvvəlki faciələrin təkrarı labüd idi. Məhz belə bir dövrdə Heydər Əliyev siyasətin simurq quşu kimi sanki dövrünün alovundan yenidən doğuldu.

Azərbaycanın xarici siyasətində təsadüfi addım yoxdur. Strateji konsepsiya taktiki addımlar vasitəsilə mərhələ-mərhələ gerçəkləşir. Atılan addımlar dərin, hərtərəfli və əsaslandırılmış induksiya və deduksiyanın nəticəsidir və bütün faktorlar nəzərə alınır. Xarici siyasətimizin üstünlüyü də bundadır. Çox mürəkkəb coğrafi məkanda yerləşib, mürəkkəb beynəlxalq prosesləri nəzərə alaraq öz maraqlarını qoruya biləcək bir kurs həyata keçirmək o qədər də asan deyil. Yalnız bir problemi götürüb onun reallaşması yolunu izləsək, təhlil etsək hər şey aydın olar.

Azərbaycan kiçik dövlətdir, gənc dövlətdir. Qısa müddət ərzində Heydər Əliyevin dövlətçilik dühası sayəsində Azərbaycanın regionda və beynəlxalq aləmdə tutduğu mövqe və qazandığı nüfuz onun rəhbərlərinin tarixi nailiyyətidir. Bu nailiyyət Azərbaycan dövlətçiliyinin əbədi yaşamasını, xalqımızın firavan gələcəyə qovuşmasını təmin edəcəkdir.

Prezident İlham Əliyevin Azərbaycan xalqının və dövlətçiliyinin maraqlarını qorumağa, təmin etməyə yönəlmiş dinamik və hücum xarakterli fəaliyyəti isə həm ümummilli lider, dahi dövlət xadimi Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi balanslaşdırılmış xarici siyasət kursunun dönmədən və ardıcıl şəkildə həyata keçirilməsini, həm də onun ən başlıca qayəsi olan müstəqil və qüdrətli Azərbaycanın çiçəklənməsini bundan sonra da təmin edən yeganə etibarlı və uğurlu yoldur, tarixi missiyadır.

"Respublika" qəzeti, 17 oktyabr 2006-cı il

Konseptual xarici siyasətin uğurlu nəticələri

Azərbaycan dövlətinin müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya nümayiş etdirərək özünü doğruldan, ölkənin milli və dövlətçilik maraqlarının təmin olunmasına uğurla xidmət edən çoxvektorlu müstəqil xarici siyasəti özünün konseptual bazisinə malikdir. Təməl ideyalar əsasında formalaşdırılmış həmin bazis ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə prezident olduğu dövrdə yaradılmışdır. Onun zəngin həyat və siyasi təcrübəsindən irəli gələn optimal qərarlar qəbul etmək bacarığı, intuisiyası və uzaqgörənliyi - bütün bunlar xalqın strateji məqsədlərinə xidmət edən intellektual və mənəvi-siyasi arsenaldır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, müəyyənləşdirilmiş, formalaşdırılmış bu daxili və xarici siyasət kursunu Prezident İlham Əliyev bu gün uğurla davam etdirir.

Bu məqalədə biz ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun bəzi konseptual məqamlarına toxunmaq istərdik. İlk növbədə qeyd edək ki, Heydər Əliyev xarici siyasətinin on ili Azərbaycan tarixinə sülh yolu ilə əldə oluna biləcək maksimal mümkün nailiyyətlər dövrü kimi daxil oldu. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada yaranmış vəziyyəti yada salsaq, bu sözlərdə heç bir mübaliğənin olmadığı aydın görünər. SSRİ və onun müttəfiqlərinin «soyuq müharibə»də məğlubiyyəti beynəlxalq münasibətlərdə böyük dəyişikliklərlə nəticələndi. Qərb cəmiyyəti çərçivəsində Amerika Birləşmiş Ştatları alternativsiz və şəksiz lider dövlətə çevrildi. ABŞ-ın maraq və məqsədləri qlobal səciyyə kəsb etməyə başladı. Qısa bir zaman kəsiyində mühüm dəyişikliklər baş verdi. Bütün fəaliyyət sahələri sıçrayışşəkilli qloballaşdı. Əksəriyyəti genetik və funksional baxımdan Qərbə bağlı olan dünya siyasətinin transmilli şirkətlər (TMŞ), transmilli banklar (TMB) kimi subyektlərinin beynəlxalq proseslərə təsiri həddsiz dərəcədə artdı. Beynəlxalq həyatın yeni subyektləri olan dövlətlərarası və qeyri-hökumət təşkilatları xüsusi inadkarlıqla prosesləri istiqamətləndirməyə girişdilər.

Onların fəaliyyəti nəticəsində qlobal təşkilati-siyasi infrastruktur meydana gəldi ki, həmin infrastrukturun əsasında da dövlətüstü iqtisadi tənzimləməni, hərbi-siyasi əlaqələndirməni və hətta siyasi idarəetməni həyata keçirən inteqrasiya strukturları həddindən artıq fəallaşdı. NATO, Avropa Şurası, ATƏT və digər təşkilatlar beynəlxalq münasibətlərin aparıcı və istiqamətverici qüvvəsinə çevrildilər. Yeni dünya nizamının formalaşması prosesi başladı.

1990-cı ildə Vaşinqton Beynəlxalq İqtisadiyyat İnstitutunun aparıcı elmi əməkdaşı C.Uilyamson milli dövlətin ənənəvi rolunun zəiflədilməsi hesabına iqtisadiyyatın liberallaşdırılmasını nəzərdə tutan «Vaşinqton kon-

sensusu» terminini dövriyyəyə daxil etdi. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu yeni dövlətlərə «Vaşinqton konsensusu»nu qəbul etməsi əsasında borc ayrılması barədə razılığa gəldilər. Qeyri-Qərb cəmiyyətləri sırasına daxil olmayan dövlətlər - «ikinci dünya» ölkələri fövqəldövlətlərin maraqlarına uyğun olaraq beynəlxalq təşkilatların müəyyənləşdirdiyi qaydalar əsasında neoliberal islahatlar aparmaq zərurəti qarşısında qaldılar.

Öz ruhuna və məzmununa görə beynəlxalq sistem tamam dəyişdi: dövlətlərarası münasibətlərdə ilk dəfə olaraq konstruktiv əməkdaşlıq elementləri üstünlük təşkil etməyə başladı, amma bu əməkdaşlıq birbaşa və ya dolayı təsirdən azad hesab edilə bilmədi. İkiqütblü planetin səciyyəvi xüsusiyyətlərindən ən başlıcası o idi ki, bütün beynəlxalq proseslər tərəflərin maraqları müstəvisində gedən mübarizənin girovuna çevrilir və sonda ya o, ya bu tərəfin iradəsinə uyğun həll olunurdu. Sosialist düşərgəsi, Varşava Müqaviləsi təşkilatı dağılandan sonra bu problemin nəhayət aradan qalxacağına ümidlər böyük olsa da, belə olmadı. Maraqlar uğrunda mübarizə davam etdi, lakin bu mübarizə, demək olar ki, opponentsiz getməyə başladı. Proseslərin bu cür inkişafı isə beynəlxalq hüququn praktikadan daha çox söz səviyyəsində qərar tapmasına gətirib çıxardı. Beləliklə də maraqlar uğrunda gedən mübarizədə öz problemlərini həll etmək istiqamətində beynəlxalq hüquqa riayət edilməməsindən əziyyət çəkən subyektlərin artıq müqavimət göstərməyə gücü qalmadı, beynəlxalq münasibətlərin demokratik təşkili məsələsi bir tərəfin iradəsindən asılı vəziyyətə düşdü. Beynəlxalq münasibətlərdə bərabərhüquqluluq, beynəlxalq demokratiya, yəni qərarların beynəlxalq hüquq əsasında qəbul edilməsi isə müasir dövrümüzün mübahisəsiz faktına çevrilmədi. İki fövqəldövlətin mübarizəsi ilə müəyyən proseslərin və çəkişmələrin nəticəsi olaraq təmin edilən nisbi obyektivlik mühiti təhlükəli həddə qədər daraldı. Bu dəyişikliklərin nəticəsində «izqoy ölkə» və «tranzit ölkə» ifadələri dövriyyəyə daxil edildi. 90-cı illərin əvvəllərində «ikinci dünya» ölkələri (Second World) «countries in transition» və ya CİTs - keçid iqtisadiyyatlı ölkələr termini ilə əvəzləndi.

Keçid dövrünü yaşayan milli dövlətlər üçün dünyanın yeni siyasi vəziyyəti prioritetlərin dəyişməsi mənasını kəsb etdi. Beynəlxalq strukturlar iqtisadi inkişaf və siyasi quruculuq məsələləri ilə məşğul olmağı tələb etməyə başladılar. Onsuz da həm mühüm geosiyasi məkanda yerləşməsi, həm təbii resurslarla zənginliyi ilə transnasional qüvvələri cəlb edən Cənubi Qafqaz regionu dövlətlərin təsir dairəsi uğrunda apardıqları mübarizəni daha da gücləndirdi. Eyni zamanda, milli dövlətlərin öz xarici təhlükəsizliklərini təmin etməklə bağlı problemləri və məqsədləri kifayət qədər biganə yanaşma ilə qarşılaşaraq böyük maraqlar burulğanında kiçildi, deklarativ

bəyanatlardan başqa münasibətə layiq görülmədi.

Burada beynəlxalq münasibətlərdə ideoloji özünüdərkin xüsusi rolunu qeyd etmək lazımdır. İdeoloji sistemlər dövlətdaxili, beynəlxalq, transmilli, qlobal səviyyələrdə bir-biri ilə toqquşurlar. Bir neçə onillik ərzində ikinci fövqəldövlətin mövcudluğu Qərbə əks güc mərkəzi olmuşdur. SSRİ təkcə ABŞ-ın hərbi və siyasi rəqibi deyil, həm də alternativ siyasi-ideoloji modelin daşıyıcısı idi. O, həm sosialist ölkələri, həm də Qərbin siyasi sistemi daxilində fəaliyyət göstərən subyektlər sırasında çoxsaylı siyasi və hərbi müttəfiqlərinin dəstəyindən faydalanırdı.

Yeni şəraitdə ideoloji özünüdərkin, yəni milli təcrübənin dərk edilməsinin Azərbaycan üçün rolu həddsiz dərəcədə əhəmiyyətli idi, çünki məhz ötən əsrin 90-cı illəri gələcək yolun riskli yeniliyini üzə çıxardı. 90-cı illərin əvvəllərində Heydər Əliyev və onun silahdaşları qarşısında ciddi ideoloji problem dayanmışdı. Həmin problemi sadə yolla bu cür ifadə etmək olar: Qərb dünyasının əsas ideoloji məhsulu olan liberalizmi keçmiş sovet cəmiyyətinin qeyri-Qərb mentallığı ilə necə uyğunlaşdırmalı?

Sonrakı təcrübə bu problemi bütün çılpaqlığı ilə göstərdi. Postsovet ölkələrində islahatlarla bağlı ideoloji özünüdərk aradan tez bir zamanda qaldırılması mümkün olmayan bir ziddiyyəti ortaya çıxardı. İslahatların əsas mənasına görə, keçidin, yəni liberal demokratiya və bazar iqtisadiyyatı institutlarının yaradılmasının əsas subyekti milli dövlətdir, lakin həmin ölkələrdə biznes-struktur mövcud deyildi. Şəxsi kapital və burjua sinfi ötən əsrin əvvəlindəki inqilabi çevriliş dövründə məhv edilmişdi. Bu səbəbdən də milli dövlət tərəfindən həyata keçirilən liberal islahatların obyektiv nəticəsi islahatların aparıcı qüvvəsi kimi məhz milli dövlətin rolunun artması olmuşdur. İslahatların keçirilməsi zamanı postsovet ölkələrində iki fərqli fəaliyyət məntiqi yaranmışdı: dövlətin simasında «hakimiyyət məntiqi» və biznes-strukturların simasında «qazanc məntiqi».

Beləliklə, liberal islahatların əsas yekunlarından birinin həyata keçirilməsi mümkün olmadı, yəni, milli dövlət dərhal liberal dövlətə çevrilə bilmədi: o öz səlahiyyətlərini məhdudlaşdırmadı, iqtisadiyyat və mədəniyyət sahələrindən çəkilmədi.

Bunun səbəblərini axtarsaq, müstəqilliyimizin ilk ilində Azərbaycanın yaşadığı proseslərə nəzər salmaq kifayətdir. Liberal cəmiyyətə dərhal keçidin xoşbəxtlik gətirəcəyinə sadəlövhcəsinə və məsuliyyətsizliklə inanan bir illik hakimiyyət Azərbaycanı siyasi-iqtisadi böhran, hərc-mərclik qarşısında qoydu. Erməni separatçılarının azğınlığı ərazilərin işğalı prosesini daha da gücləndirdi. Daxildə hakimiyyətə gəlmək üçün mübarizə aparan müxtəlif dairələr və qruplar vətəndaş müharibəsindən belə çəkinmədilər. Xaricdə müxtəlif qüvvələr öz planlarını həyata keçirmək

imkanı qazandılar. Azərbaycanın dünya birliyi və beynəlxalq təşkilatlardan gördüyü isə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının bu gün də kağız üzərində qalmış 4 qətnaməsi və «Azadlığa Dəstək Aktı»na ədalətsizliyin görünməmiş nümunəsi olan 907-ci düzəliş oldu.

Ölkənin strateji əhəmiyyət daşıyan müəssisə və sahələrinin məhz Azərbaycan kimi müstəqilliyini yenicə qazanmış və çox mürəkkəb geosiyasi məkanda yerləşən zəngin ölkədə dövlətin nəzarətində qalmasının zəruriliyi uzaqgörən və müdrik mövqe olaraq öz yaşarılığını sübut etdi. Nəticədə özəl kapital Azərbaycanda dövləti ələ keçirə bilmədi. Liberal islahatlara xas olan bu ziddiyyət Azərbaycan Respublikasının daxili və xarici siyasətinin təməlində qalmaqdadır.

Qərb analitikləri tərəfindən dərk olunan bu təzad qeyri-Qərb cəmiyyətlərində islahatların perspektivi ilə bağlı müəyyən şübhə yaratmışdı. ABŞ Dövlət Departamentinin analitiki F.Fukuyama 1989-cu ildə bildirirdi ki, «Qərbin, Qərb ideyasının qələbəsi aşkardır..., liberalizmin heç bir həyat-qabiliyyətli alternativi qalmamışdır». Amma 2001-ci ildə o, etiraf edirdi ki, «müasirləşmə nəzəriyyəsi Avropa təmayüllüdür və məqsədlərin müxtəlifliyini nəzərə almır». Bəlli oldu ki, «belə müasirləşmənin əleyhdarlarının ideyaları öz güc və inandırıcılığını saxlayır, nəticədə bir çox insanlar azad bazar iqtisadiyyatına əsaslanmış demokratik cəmiyyətə aparan bəşəriyyət üçün yeganə inkişaf yolunun müdafiəsindən çəkindilər». Fukuyama proqnozlaşdırırdı ki, liberal demokratiyanın qarşılaşmalı olduğu əsas çətinliklərə qeyri-Qərb cəmiyyətlərində dərin səviyyədə - mədəniyyət səviyyəsində, yəni din, mənəviyyat, milli özünüdərk, adət-ənənə sahələrində rast gəlinir.

Əgər Fukuyamanın etiraflarını Azərbaycan reallığına tətbiq etsək, belə bir nəticəyə gəlmək olar: Heydər Əliyev kursu özünün böyük nailiyyətləri ilə bərabər, bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənir. Belə ki, Fukuyamanın qeyd etdiyi liberal müasirləşmənin çətinliklərinə baxmayaraq, məhz Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycan səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəldilməsi strategiyasına uyğun olaraq və xalqın sosio-mədəni irsinə əsaslanaraq liberal demokratiya yoluna qədəm qoydu. Ölkənin ictimai-siyasi, sosial, iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan dövlətçiliyin və sosial sabitliyin təməli qoyuldu. Dövlət cəmiyyətin bütövlüyünün etibarlı təminatçısına çevrildi. Azərbaycanın gələcəyi üçün məsuliyyəti öz üzərinə götürmüş Heydər Əliyev hədsiz gərgin zəhmət bahasına 1993-2003-cü illərdə yeni milli inkişaf strategiyası formalaşdırmağa müvəffəq oldu. Bu strategiya mədəniyyəttutumlu suverenlik ideyasına

əsaslanırdı.

Mədəniyyəttutumlu suverenlik Azərbaycan Respublikasının daxili və xarici siyasətinin özəyi olmuşdur. Bu, xarici siyasət sisteminin prioritetlərinin milli mədəniyyət əsasında, o cümlədən dövlət quruculuğu mədəniyyəti zəminində qurulması deməkdir. Bu gün, 16 il keçdikdən sonra biz deyə bilərik ki, 1993-cü il iyunun 15-də Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı məhdud suverenliyə malik ölkə taleyindən azad olan yeni milli tarixin başlanğıcı oldu.

Heydər Əliyevin daxili siyasəti hansı konseptual məqamlardan ibarət idi? Bu, millətin iqtisadi kapitalının sərbəstləşdirilməsi istiqamətində tədricən islahatlar həyata keçirən güclü dövlətin plüralist tipli demokratiyanın inkişafı və milli mədəniyyətin qorunması ilə sintezidir. Bütün sadalanan məqsədlər və onlarla bağlı dəyər oriyentirləri hər bir milli dövlətin iki fundamental əsasına - inkişafına və təhlükəsizliyinə cavab verirdi.

Mədəniyyət tutumlu suverenlikdən danışdıqda aşağıdakıları nəzərdə saxlamaq lazımdır: Heydər Əliyev öz nitqlərinə, hər şeydən əvvəl, millətin mənəvi dünyasını əks etdirən anlayışları daxil edirdi. Məlum səbəblərdən onun siyasi çıxışlarında bu məqam adətən xüsusi vurğulanmırdı. Başqa sözlə, Heydər Əliyev çox mühüm iş görürdü: o, liberal nitqi öz siyasətinə - vətənpərvərliyə, suverenliyə, dövlətçiliyə uyğunlaşdırırdı. Heydər Əliyev nitqinin bu özünəməxsusluğu ölkədaxili mövzularda daha qabarıq şəkildə gözə çarpırdı. Amma məlum olduğu kimi, xarici siyasət daxili siyasətin davamı olaraq onunla vəhdət təşkil edir və onun ehtiyacları əsasında formalaşır.

1993-cü il iyunun 15-də ilk çıxışında Heydər Əliyev «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin müdafiəsini, gücləndirilməsini və inkişafı»nı əsas siyasi və mənəvi öhdəlik adlandırır. Çıxışın əsas mahiyyətini «Nə olur-olsun müstəqillik itirilməyəcəkdir», «Azərbaycan Respublikası bundan sonra hər hansı bir dövlətin tərkibinə daxil olmayacaq, başqa dövlətin əsarətinə düşməyəcəkdir» ideyaları təşkil edir. Heydər Əliyev ali məqsədi açıqlayır - Azərbaycan Respublikasının müstəqilliyi. Müstəqilliyin görünən əsasları ilə yanaşı - torpaqların azad olunması və qorunması - Heydər Əliyev müstəqilliyin mental atributunu, daha dəqiq desək, «vətəndaşların öz ehtiyaclarına uyğun öz dövlətlərini yaratmaq» hüququnu müəyyənləşdirir.

Müstəqillik mövzusu 1993-cü ildən Heydər Əliyevin çıxışlarında daim səslənir. O, 1993-cü il iyulun 4-də «Ostankino» telekompaniyasına müsahibəsində bildirmişdi: «...Azərbaycan müstəqil dövlətdir və heç vaxt kiminsə vassalı və ya müstəmləkəsi olmamalıdır. ...Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət olaraq görürəm».

1993-cü il sentyabrın 14-də mətbuat konfransında Heydər Əliyev respublikanın çətinliklərini möhkəm dövlətçilik dayaqlarının olmaması faktı

ilə əsaslandırırdı. Milli müstəqilliyin dönməzliyinə əmin olan Heydər Əliyev problemi «respublikanın öz dövlət siyasətini nə qədər tez həyata keçirmək və beynəlxalq miqyasda çox çətin daxili problemlərini həll etmək üçün öz dövlət və iqtisadi strukturlarını, institutlarını yarada biləcəyində» görürdü. Beləliklə, millətin lideri daxili problemlərin həllini xarici siyasətlə sıx əlaqələndirirdi.

1993-cü il oktyabrın 10-da dövlət başçısı vəzifəsinə başlayarkən Heydər Əliyev birinci dərəcəli praktiki məqsədləri bəyan edir: «Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət sistemini yaratmaq, dövlət atributlarını möhkəmləndirmək və inkişaf etdirmək, ərazi bütövlüyünü və Azərbaycan Respublikasının tam suverenliyini təmin etmək, ölkəni müharibə vəziyyətindən çıxarmaq».

Hakimiyyətdə olduğu ilk ildə Heydər Əliyev çox vacib bir konseptual məqamı - müasir dünya siyasi sistemində deklarativ deyil, real suverenliyə nail olmağı ön plana çəkir. 1993-cü il sentyabrın 21-də o deyəcəkdi: «Müstəqillik təkcə beynəlxalq təşkilatların bizi tanımasından ibarət deyil... müstəqilliyi inkişaf etdirmək, onu əldən buraxmamaq, bütün sahələrdə (rəhbər prinsip kimi) həyata keçirmək lazımdır\."

Heydər Əliyevin suverenlik konseptinin (anlayışının) qavrayışının özəlliyini də nəzərə almaq lazımdır. Burada qeyd etməliyik ki, suverenlik anlayışı Heydər Əliyevin anlamında ümumi qəbul olunmuş tutumdan daha dərin məna kəsb edir. Onun leksikonunda suverenlik anlayışı tarixilik kimi bir xüsusiyyətə malikdir. Heydər Əliyevin çıxışlarının ümumi konteksti belə deməyə əsas verir ki, «suverenlik» ifadəsi dövlətin və onun siyasi elitasının yeni dünya siyasi arenasında öz tarixi missiyasının yerinə yetirilməsi, daha dəqiq desək, Azərbaycanı siyasi mədəniyyət də daxil olmaqla, milli mədəniyyətə tamamilə uyğun şəkildə müasirləşdirməklə bağlı suveren hüquqları mənasını verir. Əslində, Heydər Əliyev millətin siyasi elitasının müasirləşmək konsepsiyasını kənar imperativ təsirlər olmadan müəyyənləşdirmək hüququ uğrunda mübarizə aparırdı.

Ulu öndərin çıxışlarında müasir Azərbaycan dövlətinin siyasətinin fövqəlsinfi səciyyə daşıdığını göstərən mənəvi tələblər öz əksini tapırdı. Sovet Azərbaycanında şəxsi kapitala imkan verilməməsi təcrübəsindən 90-cı illərdə onun yaradılmasına və təşviqinə keçid Azərbaycan Respublikasında dünya oliqarxiyası ilə saysız-hesabsız tellərlə bağlı olan yeni yaranmış oliqarxiyanın hakimlik edəcəyi kimi başa düşülmürdü. Heydər Əliyevin prinsipial olaraq fövqəlsinfi, antioliqarxik daxili siyasəti Azərbaycan dövlətinin davamlı xarici siyasi oriyentasiyalarının əsası oldu.

Göstərilən xüsusiyyət xarici siyasətin çoxvektorluğunda təcəssümünü tapır. Tarix göstərir ki, postsovet ölkələrində oliqarxik daxili siyasət

hakimiyyətə inamda dərin böhrana və «narıncı inqilab»a sürüklənməyə səbəb olur. 2003-cü və 2005-ci illərdə «narıncıların» uğursuzluğunun səbəblərini Heydər Əliyev kursu tərəfindən yaradılmış immunitetdə axtarmaq lazımdır.

Oliqarxlıq ehtirası ilə milli maraqlara xəyanət arasında əlaqə artıq şübhə doğurmur. Dövlətin xarici siyasəti daxili siyasətin davamı, onun təzahürüdür. Xarici siyasət, ilk növbədə, milli dövlətin digər dövlətlərlə milli maraqlarının müdafiəsi uğrunda mübarizəsidir. Bu maraqlar suverenliyin vəhdət təşkil edən üçəhətli konsepsiyasında - dövlət suverenliyi, milli suverenlik və xalq suverenliyində birləşmişdir. Bu səbəbdən də dövlətdə birlik nə qədər möhkəm olarsa, dövlətin xarici siyasəti bir o qədər uğurlu olar. Bununla yanaşı, ümummilli maraqların formalaşdırılması mental ənənənin, tarixi təcrübənin mütləq nəzərə alınmasını tələb edir ki, bunun da dövlət tərəfindən yerinə yetirilməsi olduqca mürəkkəb, böyük zəhmət tələb edən məsələdir. Bütün bu məqamlar Heydər Əliyev tərəfindən uğurla əlaqələndirilmişdir.

Ümummilli liderin xarici siyasətinin maraqlı cəhətlərindən biri də ideal və real məqamların nisbətidir. Heydər Əliyev milli ideologiyanın mahiyyətini zəngin təcrübəsinə əsaslanaraq yaxşı başa düşürdü. Artıq hakimiyyətdə olduğu ilk illərdə o bu mövzunu dövlətin taleyi üçün aktual məsələ kimi qaldırırdı. 1994-cü ilin dekabrında o deyirdi: «Biz öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiya, heç şübhəsiz, bizim tarixi keçmişimizlə, millətimizin adət və ənənələri ilə, bizim xüsusiyyətlərimizlə, xalqımızın və dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır".

Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, dünyanın aparıcı dövlətləri ilə əməkdaşlıq modelini hazırlayarkən risk hədlərini mütləq nəzərə almaq lazımdır. Belə bir tələb də məhz bu məntiqdən doğur: Azərbaycan dövlətinin xarici siyasəti özündə mənəvi dəyərləri nümayiş etdirən məqamları əks etdirməlidir. Heydər Əliyev deyirdi: «Biz çalışmalıyıq ki, yenidən müstəqilliyini əldə etmiş Azərbaycan bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqı bu mənada həm tarixi, həm də müasir potensiala malikdir». İqtisadiyyatın da aid olduğu bu potensiala Heydər Əliyev «bizim elmimizi, mədəniyyətimizi, ənənələrimizi və islam dinini» daxil edirdi.

Azərbaycan dövlətinin əsasını təşkil edən tarixilik, realizm, mənəvilik, mədəniyyəttutumlu müstəqillik millətin xarici siyasi mentallığı ilə təmin edilir. Bu cəhət Heydər Əliyev tərəfindən intuitiv olaraq nəzərə alınmışdır.

Heydər Əliyevin siyasi kursu realpolitik ruhu ilə səciyyələnir. O, dünya reallıqlarının qiymətləndirilməsində müxtəlif resurslarla təmin edilən milli dövlətlərin maraqları mövqeyindən çıxış edir. Dünyanı maddi maraqlar

idarə edir və bu, müxtəlif ideoloji sistemlərdə özünü göstərir. Realpolitik istiqamətli bu yanaşma sayəsində Heydər Əliyev Azərbaycan dövlətinin yeni neft strategiyasını formalaşdırdı və bu təsəvvür bu gün də xarici siyasətin əsas konseptual cəhətini təşkil edir. Prezident İlham Əliyevin xarici siyasət kursunun çoxvektorluğu da realpolitik yanaşma prinsiplərinə söykənir.

Müasir dünyanı ciddi problemlər narahat edir. Geniş mənada bunlar bəşəriyyətin yaşamaq uğrunda mübarizəsi, dünya sivilizasiyasının nailiyyətlərinin qorunub saxlanması ilə bağlıdır. Məsələn, dünyanın ən kəskin problemlərindən biri enerji təhlükəsizliyi problemidir. Bizim ölkəmiz mühüm enerji ixracatçısıdır. Azərbaycan dövlətinin bu sahədə real imkanları onun xarici siyasətini lövbər kimi saxlayır, ona özünəməxsus məna və dəyər verir. Ölkəmizin enerji baxımından əhəmiyyəti həyat tərzimizi, təsisatlarımızı qoruya bilən müstəqil xarici siyasət həyata keçirməyə imkan verir və bununla da millətin öz məqsədlərini həyata keçirmək hüququnun aliliyini təmin edir. Bununla bərabər, Azərbaycanın enerji siyasəti yuxarıda adı çəkilən dəyər motivasiyalarını ehtiva edir. Bunu tarixi hadisə - «Əsrin müqaviləsi»nin imzalanması faktından görmək olar. Bu, ilk baxışdan sırf iqtisadi xarakterli akt, eyni zamanda, dünyagörüşü baxımından hadisə oldu. 1994-cü il sentyabrın 20-də Heydər Əliyev deyirdi: «1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında mühüm dəyişikliklər baş vermişdir. Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş, respublikada güclü sənaye potensialı yaradılmışdır, bizim neft sənayemiz böyük tarixi yol keçmişdir. Mən bu gün bunu bizim qonaqlarımızın diqqətinə çatdırmağı, Azərbaycan xalqına xatırlatmağı zəruri hesab edirəm. Çünki bütün bunlar Azərbaycan xalqının fəxri və şöhrətidir, bizim xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatında böyük xidmətlərindən xəbər verir».

Heydər Əliyevin hakimiyyət konsepsiyasında «Əsrin müqaviləsi» onun əsas məqsədini - ictimai rifaha xidmət edən dəyər ideyasını əks etdirirdi. «Əsrin müqaviləsi» insan enerjisinin azad olunması kimi başa düşülən müasirləşmənin mühərrikinə çevrilsə də, proseslərə nəzarət dövlətin himayəsində qalırdı.

Azərbaycanın digər mühüm taleyüklü xüsusiyyəti dünya və regional maraqların kəsişməsində yerləşməsidir. Biz bir çox dövlətlər və nüfuzlu transmilli təşkilatların maraqlarının toqquşduğu mürəkkəb geosiyasi məkanda yerləşirik. Çox vacib haldır ki, Azərbaycan dövləti bu gün dünya siyasətinin təhlükəli dəyişikliklərinin qarşısını almağa və konfliktogen situasiyaları müxtəlif siyasi sistemli ölkələrlə əməkdaşlıq məcrasına keçirməyə müvəffəq olmuşdur.

Azərbaycanın həyata keçirdiyi dəyərtutumlu və məqsədyönlü çoxvektorlu xarici siyasət, sözün tam mənasında, MDB-yə üzv dövlətlər

üçün model ola bilər. Çünki bu kurs milli maraqların, Azərbaycan dövlətinin maraqlarının maksimal təminatına yönəlmişdir və müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya kimi özünü uğurla doğruldur. Azərbaycanın həyata keçirilməkdə olan milli və dövlət maraqları ümumi inkişaf və tərəqqi, xalqın maddi rifahının yüksəldilməsi, eyni zamanda, ölkəmizin dünyada mövqelərinin möhkəmləndirilməsi deməkdir. Azərbaycan dövlətinin bugünkü tarixi nailiyyətləri ümummilli lider Heydər Əliyevin islahatçı fəaliyyəti sayəsində mümkün olmuşdur.

"Azərbaycan" qəzeti, 29 Aprel 2009-cu il

Milli maraq və mənafeləri təmin edən effektiv xarici siyasət

Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi, milli maraq və mənafelərini yüksək səviyyədə müdafiə etməsi, qlobal təhdid və çağırışlara adekvat cavab verməsi, diplomatik əməkdaşlıq sferasında həlledici uğurlara imza atması onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır. Tarixi təcrübə təsdiqləyir ki, beynəlxalq hüquq prinsiplərini əsas tutaraq praqmatizmə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan açıq xarici siyasət yeridən, qlobal coğrafi-siyasi məkanda cərəyan edən proseslərə çevik və qarşılıqlı reaksiyası ilə seçilən, çoxqütblü əməkdaşlığa üstünlük verən ölkələr tez bir zamanda qarşıya qoyduqları məqsədlərə yetişə bilirlər. Bu sahədə müsbət nəticələri təmin edən vacib amillərdən biri də milli və bəşəri mənafelərin mümkün dərəcədə uzlaşdırılması, habelə dəqiq hədəflərə hesablanmış xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsidir.

Xarici siyasətin bu vacib meyarlar üzərində gerçəkləşdirilməsi isə təkcə dövlətlərin iqtisadi qüdrəti, zəngin təbii ehtiyatları, coğrafi-siyasi yerləşməsi ilə şərtlənmir. Diplomatik fəaliyyətin effektivliyi həm də ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin liberal xarakteri – hamılıqla qəbul olunmuş dəyərlərə tolerant münasibəti, beynəlxalq sülh və təhlükəsizliyə layiqli töhfə verməsi, iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal surətdə dəstəkləməsi ilə üzvi surətdə bağlıdır. Ümumbəşəri sivilizasiyanın hazırkı yüksək inkişaf mərhələsində demokratikləşmə xəttini müdafiə etməyən, yaxud insan və vətəndaş hüquq və azadlıqlarına hörmət bəsləməyən hər hansı bir dövlətin hansısa nüfuz qazanmasından, geniş coğrafi arealda cərəyan edən proseslərə təsiretmə imkanlarından danışmaq mümkün deyildir.

İnsanların qərinələr boyu təcrübədən uğurla çıxardığı demokratik-liberal dəyərlər hazırda dünya ölkələrinin əksəriyyətində milli inkişaf strategiyası kimi müəyyənləşdirilmiş, dövlət idarəçiliyinin, birgə yaşayışın, vətəndaş-hakimiyyət münasibətlərinin tənzimlənməsinin ən ahəngdar, sivil forması kimi dəyərləndirilmişdir. Daxildə möhkəm ictimai-siyasi sabitliyə, qanunçuluğa, effektiv sosial-iqtisadi islahatlara nail olmadan, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda kompleks addımlar atmadan xarici siyasət sahəsində hansısa uğurlu nəticələr əldə etməyin qeyri-mümkünlüyü hazırda bütün dövlətlər tərəfindən etiraf olunur.

Balanslı, çevik və çoxşaxəli diplomatiya

Ötən əsrin sonlarına doğru milli dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikasının məhz bu fundamental prinsiplər əsasında xarici siyasət yeritməsi – balanslı diplomatiya ilə dünyanın fövqəlgüc mərkəzlərinin regionda toqquşan maraqlarını optimal şəkildə uzlaşdırması, ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu tərəfdaşa çevrilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurması, ən başlıcası, milli mənafeyini lazımi səviyyədə müdafiə etməsi məhz Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider ölkəyə rəhbərliyinin ilk günlərindən qətiyyətli addımlar ataraq xarici siyasətdə yol verilmiş kobud səhvlərin aradan qaldırılmasına başlamışdır. Azərbaycan siyasətinin patriarxı, ilk növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. Azərbaycana qarşı "ikili standart" yanaşmaları tədricən aradan qaldırmağa nail olan Heydər Əliyev böyük strateq kimi aparıcı dünya dövlətlərini respublikamızın tarazlı və müstəqil siyasət yeridəcəyinə inandıra bilmişdir. *"Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir"* – deyən ümummilli lider həmçinin əlavə etmişdir ki, müxtəlif dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq qurulması, Avratlantik məkana inteqrasiya, sivil Qərb dəyərlərinin mənimsənilməsi Azərbaycanın xarici siyasət prioritetləri sırasında mühüm yer tutur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil respublikamızın qəbul edilmiş ilk milli Konstitusiyasında xarici siyasətin konseptual xarakterinin, məqsəd və vəzifələrinin səhih şəkildə əksini tapması da məhz Ulu Öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Dövlətin idarəetmə sisteminin əsasını təşkil edən Konstitusiyanın 10-cu maddəsinə görə, Azərbaycan başqa dövlətlərlə və beynəlxalq aləmlə münasibətlərini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur.

Azərbaycanın müstəqillik illəri ərzində yeritdiyi xarici siyasət ümumən bu prinsiplərə əsaslanmış, respublikanın dövlət müstəqilliyinin və

suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas məqsədlərinə çevrilmişdir. Rəsmi Bakı daim Cənub Qafqaz regionunun müxtəlif güc mərkəzləri arasında "bölüşdürülməsi" cəhdlərini yolverilməz saymış, bölgə dövlətlərinin ərazisində xarici qoşun və hərbi bazaların yerləşdirilməsinin, bir sözlə, Qafqazın militaristləşdirilməsinin əleyhinə çıxış etmişdir. Respublikamız ötən illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda, demokratikləşmə xəttinə, Avratlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə Qərbin diqqətini cəlb etmiş, Avropa məkanında etibarlı tərəfdaş imici qazanmışdır. Dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan respublikamız beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün ölkələrə münasibətdə – onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq – müstəqil xarici siyasət həyata keçirir. Bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət və daxili işlərinə qarışmamaq Azərbaycanın digər ölkələrlə qarşılıqlı əlaqələrində əsas prinsiplərdir. Eyni zamanda, əhəmiyyətli ərazi, geostrateji və geoiqtisadi üstünlüklərindən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasət və milli təhlükəsizliyin strateji vəzifələrindəndir.

Demokratikləşmə, insan hüquq və azadlıqlarının etibarlı təminat mexanizmlərinin formalaşdırılması, liberal dəyərlərin mənimsənilməsi Azərbaycanın xarici siyasət doktrinasının mühüm vektorlarından biri olsa da, rəsmi Bakı müəyyən dairələrin bu bəşəri dəyərlərdən geosiyasi təzyiq aləti kimi istifadə etməsi cəhdlərinə qarşı çıxır, "demokratiyanın müdafiəsi bayrağı" altında "ikili standart" yanaşmaları, yeni müstəqillik qazanmış dövlətlərin suveren hüquqlarına müdaxiləni yolverilməz hesab edir. Silah gücünə və ya müxtəlif rəngli inqilablarla demokratiya toxumu əkmək prinsipi, bütövlükdə, demokratiya ideallarını şübhə altına alır, xalqlarda demokratiyaya inamsızlıq yaradır, ümumbəşəri dəyərləri vasitəyə çevirərək müəyyən məqsədlərə nail olmaq istəyənlərin səmimiliyini sual altında qoyur.

Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" əsərində haqlı olaraq yazır ki, inkişaf etmiş və demokratik inkişaf yolunda böyük təcrübə qazanmış Qərb ölkələrinin standartları ilə totalitar rejimlərdən yenicə xilas olmuş, keçid mərhələsini yaşayan ölkələrdə gedən demokratik prosesləri eyniləşdirmək cəhdi istənilən halda uğursuzluğa məhkumdur. Müasir dünyada demokratikləşmə prosesinin müəyyən standart tələbləri və meyarları olsa da, hər bir ölkənin özünəməxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları nəzərə alınır. Filosofun bu

fikri ilə tam razılaşmaq lazımdır ki, Azərbaycanda demokratiya və vətəndaş cəmiyyətini Qərb modelini olduğu kimi tətbiq edərək formalaşdırmaq heç də həmişə uğurlu variant hesab edilməməlidir: *"Demokratik ənənələrin tarixən yabançı olduğu cəmiyyətlərdə milli-tarixi, mədəni və sosial-siyasi özünəməxsusluq amilləri və ictimai şüurun dəyişməsi nəzərə alınmadan birdən-birə yeni davranış normaları formalaşanda artıq bu amillər təəccüb doğurmur. Hətta tərəqqi innovasiya xarakteri kəsb etdiyi, yəni ideyalar, texnologiyalar, biliklər bir nəslin digərini əvəz etməsindən daha tez dəyişdiyi bir şəraitdə belə, bu cür kəskin siyasi hərəkətlər ictimai şüurun ağırlıq mərkəzinin radikal inkarlar müstəvisinə doğru dəyişməsinə səbəb olur. Nəticədə XXI əsrdə demokratiya ən qısa müddətdə nəinki rejimin dəyişməsinə, hətta gərginliyin daha geniş miqyas almasına şərait yarada biləcək təhlükəli geosiyasi silaha çevrilir. Biz İraqda, Əfqanıstanda, Kosovoda və başqa bölgələrdə belə halların baş verməsinin şahidiyik. Bu gün isə həmin proseslər özünü digər ölkələrdə də göstərir"*.

Azərbaycanın xarici siyasət kursunun formalaşması prosesi respublikada müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən rəsmi Bakı xarici siyasətini təməl prinsiplər əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləmiş, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, "ikili standartlara" qarşı çıxmış, milli mənafelərini yetərincə qoruya bilmişdir. Yeni dünya nizamında aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətini nəzərə alaraq uyğun xarici siyasət yeridən Azərbaycan Cənub Qafqazın lider dövlətinə çevrilmiş, ölkəmizin regionda həyata keçirilən bütün irimiqyaslı transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Respublikamız bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Lakin bəzən Azərbaycanın bölgədə artan rolunun yanlış olaraq respublikanın karbohidrogen ehtiyatları ilə əlaqələndirilməsi cəhdlərinə də rast gəlinir. Bu reallıq sanki unudulur ki, Qərb dövlətləri iqtisadi dirçəliş və demokratiya yolunda olmayan heç bir ölkə ilə davamlı, uzunmüddətli, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurmamışdır. Bəzi dövlətlərin timsalında bunu əminliklə demək olar. Azərbaycanla Avropa dövlətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq da məhz xalqımızın sivil Qərb dəyərlərinə tolerant münasibəti, habelə respublikamızda demokratik proseslərin dönməzliyinə olan inamı ilə təmin edilir. Siyasi sistemin xarakteri, cəmiyyətin liberal dəyərlərə adaptasiyası prosesi respublikamızın, eyni zamanda, beynəlxalq sülh və əməkdaşlıq mərkəzinə çevrilməsini şərtləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin indi bütövlükdə dünya siyasətində bütün siyasi qütblərin hesablaşdığı və rəğbət bəslədiyi fenomen

siyasi liderə çevrilməsi də məhz bu reallıqların nəticəsidir. *"Azərbaycanın coğrafi mövqeyi özü onun xarici siyasətini müəyyən edir"* – deyən dövlət başçısı respublikamızın necə həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinin fərqindədir və özünün xarici siyasət doktrinasında bölgənin özəlliklərini nəzərə alır. Azərbaycan nəinki Cənub Qafqazda, bütövlükdə, MDB və Avropa məkanında çox az sayda dövlətlərdən biridir ki, regionda maraqları toqquşan dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə, praktik əməkdaşlığa əsaslanan münasibətlər qurmağa nail olmuşdur.

Diplomatik korpus qarşısında yeni vəzifələr

Xarici siyasətdə varislik ənənələrinin qorunması, diplomatiyanın əsas istinad mənbəyi olan təməl prinsiplərinin dəyişməz qalması Azərbaycanın hazırkı çoxşaxəli uğurlarını təmin edən amillər sırasında xüsusi vurğulana bilər. Ümummilli lider Heydər Əliyev müstəqil respublikamızın milli mənafelərə cavab verən xarici siyasət doktrinasının müəllifi olmaqla yanaşı, bu siyasəti keyfiyyətcə yeni mərhələdə inamla, qətiyyətlə davam etdirəcək rasional və praqmatik düşüncəli lideri də yetişdirmişdir. 2003-cü ilin oktyabrından respublikaya inamla rəhbərlik edən İlham Əliyev Ulu Öndərin böyük uzaqgörənliklə irəli sürdüyü xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun davam etdirmiş, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəlməsinə, müstəqil siyasət yeritməklə milli maraqlarını maksimum səviyyədə qorumasına nail olmuşdur.

Ermənistanın dünya miqyasında təcavüzkar dövlət kimi tanınmasına nail olmaq və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, dünya siyasətini istiqamətləndirən iri dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, beynəlxalq ictimaiyyətdə respublikamızda həyata keçirilən mütərəqqi ruhlu iqtisadi və demokratik islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq dövlət başçısı İlham Əliyevin xarici siyasətinin prioritet məqsədləri sırasında xüsusi vurğulanmalıdır. Balanslı xarici siyasət yürüdən Azərbaycan son illərdə regionun və dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqələri inkişaf etdirmək siyasətinə üstünlük vermiş, sivil oyun qaydalarına əsaslanan enerji diplomatiyası həyata keçirmişdir.

Azərbaycan Prezidenti bu və digər məqsədləri ən qısa zamanda reallaşdırmaq, xarici siyasətin ardıcıllığını və çevikliyini təmin etmək üçün, ilk növbədə diplomatik korpusun fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılmasını təmin etməyə çalışmışdır. Dövlət başçısının 2004, 2006 və 2008-ci illərdə Xarici İşlər Nazirliyində Azərbaycanın diplomatik xidmət

orqanları rəhbərlərinin iştirakı ilə keçirdiyi geniş müşavirələr də məhz xarici siyasət sahəsində vəzifələrin bir daha nəzərdən keçirilməsi, diplomatik fəaliyyətin dünyanın müasir reallıqları və tələblərinə uyğun qurulması məqsədindən irəli gəlmişdir. Müasir beynəlxalq münasibətlər sisteminin incəliklərinə dərindən bələd olan Prezident İlham Əliyev hər üç müşavirədə dərin məzmunlu nitq söyləyərək keyfiyyətcə yeni mərhələdə Azərbaycanın diplomatik nümayəndəlikləri qarşısında duran vəzifələri bir daha diqqətə çatdırmış, erməni lobbisinin cəfəng təbliğatının zərərsizləşdirilməsi baxımından hücum xətti üzərində qurulan çevik diplomatiyanın həyata keçirilməsini vacib saymışdır.

"Bizim diplomatiyamız çox çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən proseslərə çox operativ qiymət verməliyik. Eyni zamanda, öz təkliflərimizi verməliyik. Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə, - nə siyasi, nə iqtisadi, nə də başqa, - həyata keçirilə bilməz. Ona görə də bu, bizim ölkəmizi möhkəmləndirir" – fikrini daim önə çəkən Prezident İlham Əliyev əlavə etmişdir ki, ölkə diplomatiyasının əsas məqsədlərindən biri də dövlətimizin milli təhlükəsizliyinin etibarlı təminatıdır.

Xarici siyasət və milli təhlükəsizlik sahəsində qarşıda duran vəzifələrin düzgün müəyyənləşdirilməsi, bu sahədə ardıcıllığın və sistemliliyin təmin edilməsi baxımından dövlət başçısı İlham Əliyevin 2007-ci il 23 may tarixli "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamının əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Respublikanın milli təhlükəsizliyinin möhkəmləndirilməsi nöqteyi-nəzərindən kompleks tədbirlər sisteminin həyata keçirilməsini nəzərdə tutan bu konsepsiya həm də respublikamızın iqtisadi imkanlarının genişlənməsi, qlobal proseslərdə nüfuz imkanlarını, dünya enerji təhlükəsizliyi sisteminə layiqli töhfələr vermək əzmini nümayiş etdirir. Konsepsiya bəşəriyyətin başı üstünü almış terrorizm, etnik separatizm, transmilli cinayətkarlıq, qanunsuz miqrasiya, ekoloji problemlər fonunda Azərbaycanın dövlət prioritetlərinin dəqiq müəyyənləşdirilməsini, ehtimal olunan təhlükə və risklərə qarşı preventiv tədbirlərin reallaşdırılmasını, habelə ölkənin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu xarici təhdidlərdən qorumağa yönəlmiş daxili və xarici siyasətin həyata keçirilməsini mühüm vəzifələr kimi qarşıya qoymuşdur.

Regionun sabitləşdirici dövləti

Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanan xarici siyasət yeridən Azərbaycan qonşu dövlətlərlə münasibətlərini son illərdə daha da inkişaf etdirməyə nail olmuş, regionda sülh, sabitlik, iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəkləmişdir. Artıq qeyd etdiyimiz kimi, rəsmi Bakı tarazlı xarici siyasətlə regionda siyasi-hərbi qütbləşmənin dərinləşməsinə deyil, sivil əməkdaşlıq, qarşılıqlı inam mühitinin yaranmasına, Rusiya, ABŞ, İran və Avropa dövlətlərinin regionda toqquşan maraqlarının optimal şəkildə uzlaşdırılmasına nail olmuşdur. Nəticədə İran və Rusiya kimi iri qonşu dövlətlərlə ikitərəfli əlaqələrdə bir vaxtlar müxtəlif problemlərə rəvac vermiş psixoloji gərginlik mərhələsi artıq geridə qalmış, çoxşaxəli əməkdaşlıq münasibətləri daha da möhkəmləndirilmişdir. Respublikamızın diplomatiyada ardıcıl, qətiyyətli, prinsipial, öhdəliklərinə sadiq tərəfdaş imicini qazanması onun müxtəlif güc mərkəzləri ilə münasibətlərinin xarakterində hansısa şübhə və tərəddüdlərə yer qoymur. *"Bir ölkə ilə yaxşı münasibətlərdə olmaq o demək deyil ki, digəri ilə pis münasibətdə olmaq lazımdır"* – deyən Prezident İlham Əliyevin milli maraqları maksimum dərəcədə qorumaqla İran, Rusiya, Çin və digər dövlətlərlə münasibətləri yüksək səviyyədə qurmağa yönəlmiş səyləri digər vektorlarda hər hansı narahatlıq doğurmur. İstənilən siyasi gərginliyin beynəlxalq hüquq prinsipləri əsasında, diplomatik danışıqlar və qarşılıqlı anlaşma şəraitində aradan qaldırılması zərurətini diqqətə çəkən rəsmi Bakı Azərbaycanın geosiyasi rəqabət meydanına çevrilməsinə, hansısa dövlətə hərbi güc tətbiqində plasdarm ərazi kimi istifadə edilməsinə heç zaman yol verməyəcəyini qətiyyətlə bəyan etmiş, bunu əməli fəaliyyəti ilə sübuta yetirmişdir.

2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında müşahidə olunan siyasi və hərbi böhran Azərbaycanın regionda yeritdiyi siyasətin düzgünlüyünü və milli maraqlara əsaslandığını bir daha təsdiqləmişdir. Respublikamız müdrik siyasət yeritməklə, regionda hərbi, iqtisadi və siyasi gərginliyi azaltmağa çalışmış, eyni zamanda, sabitləşdirici mövqeyindən maksimum səmərəli şəkildə yararlanmışdır. Prezident İlham Əliyev bəyan etmişdir ki, Azərbaycan digər ölkələr arasındakı münasibətlərə müdaxiləni diplomatik normalar baxımından qəbul etmir: *"Regionda yaranan, yaxud da yarana biləcək vəziyyətə uyğun şəkildə öz siyasətimizi aparmaq bizim təbii hüququmuzdur və bu hüquqdan istənilən formada istifadə edəcəyik. Azərbaycan bölgədə sabitləşdirici rolunu oynayır. Bunu artıq həyat göstəribdir. Keçən il Cənub Qafqazda yaşanan siyasi və hərbi böhran Azərbaycana öz mənfi təsirini göstərməmişdir. Düzdür, müəyyən, qısa müddət ərzində bizim enerji və nəqliyyat imkanlarımız məhdudlaşdı, ancaq*

biz çevik siyasət aparmaqla, qısa vaxt ərzində yeni nəqliyyat istiqamətlərini işə sala bildik. Beləliklə, ən az itkilər verməklə o vəziyyətdən şərəflə çıxdıq, iqtisadi maraqları qoruduq. Onu da deyə bilərəm ki, Azərbaycan bir daha etibarlı tərəfdaş və sabitləşdirici amil kimi öz rolunu göstərə bilmişdir".

İran və Rusiya kimi yaxın qonşu dövlətlər hazırda regionda tam müstəqil siyasət yeridən Azərbaycanı özlərinə yaxın tərəfdaş və dost ölkə sayır, respublikamızla hərtərəfli əməkdaşlığa böyük maraq göstərirlər. Avratlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə seçilən respublikamızın Qərblə münasibətlərdə Rusiya, İran və digər dövlətlərin mənafeyinə toxunan hansısa addıma yol verməməsi də mövcud əməkdaşlığın səmimi etimad çalarları üzərində qurulmasını təmin edir.

Azərbaycan regionda baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməklə yanaşı, regional inteqrasiya və inkişafın lokomotivinə çevrilmişdir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən böyük layihələr bütövlükdə region üçün mühüm əhəmiyyətə malikdir. Bugünkü Azərbaycanın iqtisadiyyatı ölçülərinə görə Qafqazda birinci yeri tutur. Azərbaycan bölgə iqtisadiyyatının 75 faizinə sahibdir. Əvvəllər sosializmin yayılmış olduğu bütün məkanda ən sürətlə tərəqqi edən Azərbaycanda hökm sürən sabitlik və inkişaf son 10 ildə milli iqtisadiyyatı 4, ixracı 15, dövlət büdcəsini 15, valyuta ehtiyatlarını 31 dəfə, sərmayələri isə 96 faiz artırmağa imkan vermişdir. Təkcə 2003-2010-cu illərdə ölkədə orta illik iqtisadi artım 17 faiz təşkil etmişdir ki, bu göstərici üzrə Azərbaycan dünya liderliyinə yüksəlmişdir. Qlobal maliyyə böhranının dünya iqtisadiyyatını ağır tənəzzülə məruz qoyduğuna baxmayaraq, Azərbaycan iqtisadiyyatında sabitlik və dinamik inkişaf davam edir. Böhran illərində ölkədə real artım orta hesabla illik 8 faizdən çox olmuş, makroiqtisadi və maliyyə sabitliyi təmin edilmiş, ölkənin valyuta ehtiyatları 29 milyard dollara yüksəlmişdir.

Qlobal təhdidlərə preventiv reaksiya

Uzun illər regionda siyasi arbitr rolunda çıxış etməyə iddialı olan bəzi dövlətlərin respublikamıza bərabərhüquqlu tərəfdaş kimi yanaşmaq məcburiyyətində qalması, rəsmi Bakı ilə təzyiq və təhdid dilində danışmağın mənasızlığını dərk etməsi bu gün Azərbaycanın diplomatiyasının ən mühüm uğurlarından biri kimi vurğulana bilər. İrili-xırdalı bütün dövlətlərin respublikamızla hesablaşması, onun mənafeyini nəzərə alması, ilk növbədə qətiyyətli, inamlı, praqmatik, dünya siyasi arxitekturasının reallıqlarına cavab verən xarici siyasətin nəticəsidir. Ölkə iqtidarının xalqın dəstəyinə arxalanması, hər bir məsələdə milli maraqları önə çəkməsi sayəsində Azər-

baycanın xarici siyasəti dövlətin maraq və təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Son illərin bir sıra hadisələri deməyə əsas verir ki, Prezident İlham Əliyev istər ABŞ və Avropa, istərsə də Rusiya və İranla münasibətlərdə Azərbaycanın mənafeyinə xələl gətirə biləcək bütün məqamları ardıcıl, obyektiv və məntiqli şəkildə aradan qaldırmağa nail olmuşdur. ABŞ-dakı ermənipərəst qüvvələrin təsiri ilə rəsmi Vaşinqtonun müəyyən müddət narazılıqla qarşıladığı Bakı-Tbilisi-Qars dəmir yolu xəttini Azərbaycanın daxili imkanlar hesabına maliyyələşdirməsi, habelə ABŞ Dövlət Departamentinin 2007-ci ildə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu şübhə altına alan hesabatına sərt reaksiya verməsi və həmin texniki yanlışlığı qısa zamanda aradan qaldırmağa nail olması bu sırada diqqət çəkən məsələlərdir.

Dövlət başçısı İlham Əliyev şimal qonşumuzun 2005-2006-cı illərdə Azərbaycanı müəyyən enerji təhdidlərinə, şantajlarına məruz qoymaq, təbii qazın qiymətlərini ikitərəfli münasibətlərin xarakterinə adekvat olmayan şəkildə diktə etmək cəhdlərinə də eyni prinsipiallıqla cavab vermiş, qonşu dövlətdən təbii qazın idxalının dayandırılması barədə operativ qərar qəbul etmişdir. Prezident İlham Əliyev bu qətiyyətli addımını izah edərkən demişdir: *"Rusiya tərəfi yenidən qiyməti iki dəfədən çox, 235 dollara qaldırırsa, biz burada artıq Rusiya-Azərbaycan münasibətlərinin ruhuna uyğun gəlməyən yanaşma, dissonas görürük və bu, təəssüf doğurur... Rusiya şirkəti qazın qiymətini istədiyi səviyyəyə, lap 500 dollara qaldıra bilər, bu onun hüququdur. Amma bizim də belə təklifdən imtina etmək hüququmuz var. Azərbaycan artıq o ölkə deyil ki, onu nəyəsə məcbur etmək mümkün olsun. Bizim ölkə Ermənistandan fərqli olaraq heç kimdən asılı deyil, qışda da soyuqdan donmayacağıq, çünki özümüzü təmin edə biləcək imkandayıq. Ona görə də mən razı ola bilmərəm ki, Azərbaycan iqtisadi-kommersiya şantajı elementlərinə məruz qalsın".*

Sonrakı mərhələdə respublikamız daxili imkanları hesabına nəinki özünü, eyni zamanda, çıxılmaz vəziyyətə düşmüş Gürcüstanı da qazla təmin etmişdir. Enerji amilindən hansısa üçüncü ölkəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə olunması cəhdlərini yolverilməz sayan Azərbaycan regionun iri neft və qaz hasilatçısı olaraq iqtisadi və siyasi öhdəliklərə şərtsiz əməl olunmasını qarşılıqlı faydalı əməkdaşlıqda vacib amillərdən biri kimi dəyərləndirir. Faktiki olaraq, indiyədək Türkiyə, Yunanıstan və Gürcüstanı əhəmiyyətli həcmdə qazla təmin edən respublikamızın 2010-cu il yanvarın 1-dən Rusiyaya qaz nəqlinə başlaması təkcə iqtisadi-kommersiya deyil, həm də siyasi baxımdan mühüm əhəmiyyətə malik hadisədir. Xatırladaq ki, bu barədə razılaşma Rusiya Prezidenti Dmitri Medvedevin 2009-cu ilin iyun ayında Azərbaycana işgüzar səfəri zamanı əldə edilmişdir. 5 illik müqavilənin respublikamızın maraqlarına cavab verən şərtlər əsasında imzalanması göstərir ki, rəsmi Bakı istənilən məsələdə, o cümlədən təbii sərvətlərindən səmərəli istifadədə ilk növbədə, xalqın milli mənafeyini əsas götürür.

Rəsmi Bakı İsrail Prezidenti Şimon Peresin ölkəmizə səfərinə dolayısı ilə etiraz edən bəzi dairələrin bu mövqeyinin bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə cavab vermədiyini də açıq vurğulamış, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdini düzgün saymamışdır. Sonrakı proseslər bir daha təsdiqləmişdir ki, Azərbaycan nə İsrail, nə də ABŞ-la münasibətlərində qonşu dövlətlərin mənafeyinə toxunan heç bir addıma yol vermir. Bununla belə, rəsmi Bakı hansısa dövlətin narazılığına görə digər dövlətlə əməkdaşlığa embarqo qoymağı da düşünmür.

Azərbaycan milli maraqları ilə bağlı məsələlərdə heç bir dövlətə, hətta ən yaxın strateji tərəfdaşı olan Türkiyəyə belə güzəştə getmək niyyətindən uzaqdır. Rəsmi Bakının qardaş ölkənin Ermənistanla sərhədləri açacağı ilə bağlı yayılan məlumatlara çevik reaksiya verməsi bunu bir daha təsdiqləmişdir. Nəticədə 2009-cu ilin mayında Bakıya səfər edən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bu xəbərləri qətiyyətlə təkzib etmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həllini tapmayınca Ankaranın belə bir addım atmayacağını rəsmən bəyan etmişdir.

Türkiyənin "NTV" telekanalının jurnalistlərinin qeyri-qanuni olaraq Azərbaycanın işğal altında olan torpaqlarına səfər etməsi ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin qardaş dövlətin Bakıdakı səfirliyinə etiraz notası təqdim etməsi də prinsipial məqam kimi göstərilməlidir. Türkiyə XİN-i bu etiraz notasına cavabında türkiyəli jurnalistlərin bu səfərinin qeyri-qanuniliyini bir daha təsdiqləmişdir.

Beynəlxalq təşkilatlarda layiqli təmsilçilik

Azərbaycanın xarici siyasətində beynəlxalq əməkdaşlıq mühüm istiqamətlərdən biri kimi nəzərdən keçirilir, ölkənin milli maraqları baxımından bu sahəyə xüsusi diqqət yetirilir. Respublikamızın zəngin təbii resurslara, habelə Şərqlə Qərbi qovuşduran əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, balanslaşdırılmış xarici siyasət yeritməsi onun dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı təşkilatlarla əlaqələrinin genişlənməsinə də yaxşı imkanlar açır. Azərbaycanın mənafeyini layiqincə təmsil etmək, Ermənistanın təcavüzkar siyasətinin ifşasına nail olmaq baxımından bu təşkilatların tribunası əvəzsiz imkanlar yaradır. Prezident İlham Əliyev bu reallıqdan çıxış edərək son illərdə Azərbaycanın BMT, ATƏT, Avropa

Şurası, Avropa İttifaqı, NATO, İKT, MDB, GUAM, AQEM, QİƏT, İƏT və digər beynəlxalq qurumlarla əməkdaşlığını inkişaf etdirmək istiqamətində böyük səy və əzmkarlıq göstərir. Avropa və Avratlantik strukturlara inteqrasiya yolu ilə gedərək, Azərbaycan Avropa İttifaqı və NATO ilə əməkdaşlığı inkişaf və davam etdirir.

Azərbaycan bəşəri sülh və təhlükəsizliyin təminatında universal beynəlxalq təşkilat kimi BMT-nin mərkəzi rolunun daha da artırılması istiqamətində göstərilən beynəlxalq səylərə töhfəsini davam etdirir, təşkilatın müxtəlif qurumları və ixtisaslaşdırılmış təsisatlarında təmsilçiliyini artırır. Azərbaycan müasir dövrün hədə və təhdidlərinə daha səmərəli şəkildə cavab vermək üçün beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların həyata keçirilməsi də daxil olmaqla, BMT-nin operativ imkanlarının artırılmasına yönələn islahatları dəstəkləyir.

ATƏT ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədlər bu təşkilata üzv olan ölkələr arasında münasibətləri tənzimləyən norma və prinsipləri müəyyən edir və kollektiv təhlükəsizliyin saxlanılması üçün əsas yaradır. Azərbaycanın ATƏT-lə əməkdaşlığı təkcə demokratik inkişaf baxımından deyil, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından vacibdir.

Eyni zamanda, milli maraqlarımızın təmin olunması, daxili siyasi və institusional islahatların səmərəli şəkildə həyata keçirilməsi, həmçinin Azərbaycan qanunvericiliyinin Avropanın norma və standartlarına uyğunlaşdırılması nöqteyi-nəzərdən Avropa Şurası ilə əməkdaşlığa xüsusi diqqət yetirilir. Azərbaycan Avropa Şurasına üzv qəbul olunarkən bu nüfuzlu beynəlxalq qurum qarşısında götürdüyü öhdəliklərin böyük əksəriyyətini artıq yerinə yetirmişdir. Qalan bəzi öhdəliklərin reallaşdırılması istiqamətində fəal iş aparılır.

Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı "Yeni qonşuluq siyasəti" və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində inkişaf etdirilir. Azərbaycan Avropa İttifaqı ilə siyasi dialoqu gücləndirir, siyasi, iqtisadi və institusional islahatlar sahələrində əməkdaşlığı inkişaf etdirir, əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün əsaslar yaradır.

Avratlantik məkana inteqrasiya baxımından NATO ilə əməkdaşlıq da respublikamız üçün müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk ölkələrdən biri olmuşdur və Avratlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Azərbaycan Fərdi Tərəfdaşlığın Fəaliyyəti Planının ikinci fazasını uğurla başa vurmuşdur. Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə birlikdə

Kosovoda, İraqda və Əfqanıstanda sabitliyin qorunmasında, sülhyaratma əməliyyatlarında xidmət göstərmişlər.

Azərbaycan regional çoxtərəfli əməkdaşlığı vacib hesab edir və GUAM çərçivəsində regionda daha mehriban və daha sabit münasibətlərə nail olunmasına öz töhfəsini verir. Gürcüstan, Ukrayna və Moldova ilə GUAM – Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat çərçivəsində sıx əməkdaşlıq edir. Təşkilatın üzvləri qarşılıqlı əlaqələri genişləndirməklə bərabər, bir sıra mühüm məsələlərə münasibətdə vahid mövqedən çıxış edirlər. GUAM-ın iştirakçısı olan üç ölkənin – Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyinin pozulması onların istər regional, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətini şərtləndirir. Bu əməkdaşlıq, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmini baxımından vacib əhəmiyyət daşıyır.

Dini, tarixi, siyasi və mənəvi dəyərləri ilə bir-birinə bağlı olan müsəlman ölkələrinin uğurlu birlik modeli kimi özünü təsdiqləyən, beynəlxalq münasibətlər sistemində xüsusi çəkiyə malik olan İslam Konfransı Təşkilatı ilə əməkdaşlıq da Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Respublikamız təşkilatla qarşılıqlı faydalı münasibətlər qurmaqla ümummilli maraqlarını daha geniş coğrafi arealda müdafiə etmək, üzləşdiyi bir sıra problemləri beynəlxalq birliyə çatdırmaq baxımından əlverişli tribuna qazanmışdır.

Dinlər və sivilizasiyalararası dialoqun təşviq edilməsində ənənəvi olaraq yüksək nüfuza malik Azərbaycan Respublikası Türkiyənin və İspaniyanın təşəbbüsü ilə baş tutan Sivilizasiyalararası Alyansa qoşulan ilk ölkələrdəndir. Ölkəmiz, həmçinin 32 dövlətin dini liderlərinin və dini nümayəndələrinin iştirakı ilə Bakıda Dini Liderlərin Ümumdünya Sammitini keçirmişdir.

Danışıqlar milli maraqlarımız çərçivəsində gedir

20 ildir davam edən, beynəlxalq və regional sülhə, təhlükəsizliyə ciddi təhlükə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən uzun sürən, qanlı və çətin həll edilə bilən problemə çevrilmişdir. Ermənistan tərəfindən həyata keçirilən təcavüzün nəticəsi olaraq Azərbaycan ərazilərinin beşdə biri zəbt olunmuş, etnik təmizləməyə məruz qalmış bir milyonadək azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, ölkənin minlərlə tarixi-mədəni irsi dağıdılaraq qarət edilmişdir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə ələ keçirilməsinin yolverilməzliyi və Azərbay-

canın ərazi bütövlüyü, suverenliyi vurğulanmış, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxması çağırışı əksini tapmışdır. BMT Baş Məclisinin 2008-ci il 14 mart tarixli "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnaməsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək bir daha ifadə olunmuşdur.

Münaqişənin həllinə dair ATƏT, İKT, Avropa Şurası Parlament Assambleyası, NATO, Avropa İttifaqı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələrində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi göstərilmişdir. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasının vacibliyi xüsusi vurğulanmış, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edilmişdir.

Xatırlatmaq yerinə düşərdi ki, hələ 2008-ci ilin payızında Moskvada keçirilən görüş çərçivəsində Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin son 15 ildə ilk dəfə birgə bəyannamə imzalaması danışıqlar prosesini intensivləşdirmək, problemi qarşılıqlı güzəştlər əsasında həll etməklə bağlı siyasi iradə nümayişi kimi yadda qalmışdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə imzalanmış bəyannamədə münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, bu çərçivədə qəbul olunmuş qərar və sənədlər əsasında siyasi yolla həlli, Cənub Qafqazda vəziyyətin sağlamlaşması, regionda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi, iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradılması məsələləri öz əksini tapmışdır. Minsk qrupu həmsədrlərinin münaqişənin siyasi yolla həllinin əsas prinsiplərinin işlənib hazırlanması məqsədilə 2007-ci il noyabrın 29-da Madriddə tərəflərlə keçirilmiş görüşü və sonrakı diskussiyalar nəzərə alınmaqla həmsədrlərin vasitəçilik səylərinin davam etdirilməsinin böyük əhəmiyyətə malik olması da bəyannamə ilə təsdiqlənmişdir. Bu sənəd indiyə qədər aparılan danışıqların mahiyyətini və məqamlarını özündə əks etdirir. Münaqişənin həllilə əlaqədar bu vaxta qədər verilən şifahi bəyanatlardan sonra imzalanan bu sənəd böyük əhəmiyyət daşıyır. Bəyannamənin ən yüksək səviyyədə imzalanması münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində irəliyə doğru atılan addımdır. Bəyannamədə Azərbaycanın dəfələrlə qeyd etdiyi məqamlardan kənara çıxan heç bir maddə yoxdur. Beynəlxalq ekspertlərin rəylərində də bildirilir ki, Moskva bəyannaməsi Azərbaycan Prezidenti İlham Əliyevin münaqişənin nizamlanması istiqamətində dəfələrlə səsləndirdiyi fikirlərin bir növ müdafiəsi idi və əsasən bu fikirləri özündə təcəssüm edirdi. Məhz Ermənistan Prezidentinin bu bəyannaməni

imzalaması Azərbaycan diplomatiyasının uğuru sayılmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Prezidenti Serj Sarkisyanın son üç ildə keçirilmiş görüşləri problemin həllinin mümkün variantlarının müzakirəsinə həsr edilmişdir. Ötən il gerçəkləşən Soçi, Sankt-Peterburq və Həştərxan görüşlərinin Madrid prinsipləri əsasında aparılması deməyə əsas verir ki, danışıqlar prosesi məhz münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həlli formulu çərçivəsində aparılır. ATƏT-in Minsk qrupu səviyyəsində aparılan danışıqların xaotik məcradan çıxarılaraq konkret həll formatına salınması da rəsmi Bakının mühüm siyasi üstünlüyü kimi vurğulana bilər. Təcavüzkarlıq siyasətini uzun müddət davam etdirə bilməyəcəyini yaxşı başa düşən Ermənistan prezidenti son illərdə danışıqlar prosesində müəyyən konstruktivlik görüntüsü nümayiş etdirməyə çalışsa da, məkrli niyyətlərini gizlədə bilməmişdir.

Qeyd etmək lazımdır ki, münaqişənin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərin başçılarının keçən il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır.

Ötən il dekabrin 1-2-də Qazaxıstanın paytaxtında keçirilmiş ATƏT-in 7-ci sammiti çərçivəsində təşkilatın Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən qəbul olunmuş birgə bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin dövlət başçılarının 2009-cu ildə İtaliya və 2010-cu ildə Kanadada keçirilmiş "Böyük səkkizliyin" zirvə görüşləri çərçivəsində qəbul edilmiş prinsiplər əsasında həllinin vacibliyi bir daha vurğulanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev münaqişə ilə bağlı danışıqlar prosesinin məhz Azərbaycanın qəti şəkildə önə çəkdiyi prinsiplər əsasında getdiyini razılıqla vurğulayır: *"Xarici siyasətdə bütövlükdə bizim qarşımızda yeganə böyük problem dayanıbdır. O da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan dövləti bu istiqamətdə bütün səyləri göstərir ki, məsələ tezliklə ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun. Bizim səylərimiz, deyə bilərəm ki, danışıqlar prosesində artıq ilk nəticələrini verməkdədir. Bütün dövrlərdə bizim mövqeyimiz ondan ibarət olmuşdur ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər. Dağlıq Qarabağda insanlar yüksək muxtariyyət statusu çərçivəsində, vahid Azərbaycan dövləti çərçivəsində*

yaşaya bilərlər. Bu gün bu prinsiplər əsas götürülübdür. Yəni danışıqlar bu prinsiplər əsasında aparılır və istənilən razılaşma ancaq bu prinsiplər əsasında ola bilər. Biz bütün dövrlərdə demişik və bu gün də deyirik ki, məsələ ancaq mərhələli yolla həll oluna bilər. Bu gün danışıqlar mövzusu olan təkliflər məhz mərhələli həlli təmin edir".

Azərbaycan Cənubi Qafqaz regionunda və ondan kənarda təhlükəsizlik və sabitlik naminə Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirməyə hazırdır və bu da gələcəkdə geniş regional imkanları bütün tərəflərin faydası üçün istifadə etməyə şərait yaradacaqdır. Lakin, sülh prosesinin uğurla nəticələnməsi Ermənistan tərəfinin eynilə bu prosesə sadiqliyindən və konstruktiv yanaşmasından, həmçinin beynəlxalq birliyin, ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də Minsk qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin fəal töhfəsindən asılıdır.

Prezident İlham Əliyev Rusiyanın "Vesti" telekanalına və İTAR-TASS informasiya agentliyinə verdiyi müsahibədə demişdir ki, indiki halda biz Minsk qrupu həmsədrlərinin təklifini dəstəkləyirik. Həm bizim təklifimizdə, həm də Minsk qrupu həmsədrlərinin təklifində ərazi bütövlüyünün bərpası, təhlükəsizliyə zəmanətin təmin edilməsi, bütün qaçqınların və daxili köçkünlərin Dağlıq Qarabağın ətrafındakı tarixi torpaqlarına və Dağlıq Qarabağa qaytarılması və gələcəkdə Dağlıq Qarabağın statusu barəsində hər iki tərəfi qane edən qərar qəbul olunması məsələləri əlaqələndirilir. *"Dağlıq Qarabağın statusu haqqında birtərəfli qərar qəbul edilə bilməz"* fikrini önə çəkən Prezident İlham Əliyev bəyan etmişdir ki, Dağlıq Qarabağın Azərbaycandan hüquqi cəhətdən ayrılması mexanizmini nəzərdə tutan proseslərdə Azərbaycan özünün iştirakını mümkün saymır və heç vaxt bu proseslərdə iştirak etməyəcəkdir. Bu, bizim birmənalı mövqeyimizdir.

Bütün bunlar göstərir ki, Azərbaycanın ictimai-siyasi cəhətdən sabit, iqtisadi baxımdan sürətlə inkişaf edən, eyni zamanda, beynəlxalq miqyasda maraq və mənafeyini layiqincə təmin edən ölkəyə çevrilməsində dövlət başçısı İlham Əliyevin yeritdiyi uğurlu xarici siyasət kursu vacib əhəmiyyətə malikdir. Bu kursun əsas məqsədi isə milli maraqların prioritetliyi şərti ilə respublikamızın beynəlxalq miqyasda özünü təsdiqləməsi, iqtisadi-siyasi potensialını effektiv surətdə reallaşdırması və təhlükəsizliyinin hərtərəfli təminatından ibarətdir.

"Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası",
Bakı, 2011-ci il

Diaspora construction conception of Heydar Aliyev

Historically Azerbaijani people having rich national-moral values, ancient past lived with national unity and solidarity dreams. However, world Azerbaijanis formation, their solidarity's strengthening, heightening of our independent State's authority on international arena through this powerful moral support, as well as infusion of our compatriots, residing abroad, with love for single Azerbaijan are linked with name of our national leader Heydar Aliyev who constantly conducted intensive activities for deepening national unity and solidarity feelings of Azerbaijanis dwelling in the world, their close unification around national ideas, Azerbaijani statehood, exerted all his knowledge and ability for it. As early as being Chairman of Nakhchyvan Autonomous Republic Supreme Council he declared December 31 Day of World Azerbaijanis Solidarity and National Unity for the first time officially on December 16, 1991, and subsequently exerted particular efforts to turn the date into national holiday of Azerbaijani people, all world Azerbaijanis. Our wise and great leader who told - "For every man his national belonging is his pride source. I was always proud and today proud that I'm Azerbaijani", - having constructed modern, independent Azerbaijani State, turned it into hope lamp for over 50 mln people in veins of whom there flows our great nation's blood.

Today our country which developed into leader State of the region due to its major achievements in the realm of sovereign State construction, democratic progress level, economic growth speed and position in the international world, confidently advancing through democratic, legal, secular State construction way owing to prescient policy of namely our great leader, made unparalleled achievements. As a result, both our internal life entered path of stability, tranquility, our national unity was established, and there appeared favourable conditions for setting up close links of our compatriots living abroad with their historical homeland, coming to deep belief in our young State and consolidation for sake of its interest.

World Azerbaijanis formation, our diaspora movement's gathering momentum and turning to strong and efficient force at international scale was the most cherished dream of our great leader, and he had been paying particular attention to the problem through his numerous foreign trips, met with our compatriots living in countries visited by him, was interested by their problems and preoccupations.

Heydar Aliyev, who correctly identified strategical tasks of foreign policy through self-peculiar prescience and wisdom, used to tell that in

modern period every State's power is measured not only with economic resources, but also might of diaspora and lobby formed by it abroad. Without paying specific attention to the realm it's impossible to make any serious achievements in external policy, nor raise national problems to international level. Namely therefore Azerbaijani Government tried to carry out historical mission of achieving world Azerbaijanis solidarity, that fell to its lot, with responsibility, conduct systematic and consecutive policy in this field. Establishment of diverse relations with our foreign compatriots, their weaponing in ideologico-political terms and their mobilization for sake of national interests turned to priorities of Azerbaijan's foreign policy. The aim of State policy in this field consists of preserving and developing our foreign compatriots, extending their relations with Azerbaijan, as well as realizing their other rights. Our great leader, who took into account expansionist policy of Armenia gradually intensifying at this historical period, attempts of Armenian lobby to mislead international community by hypocrisy, raised problem of Azerbaijani diaspora and lobby formation abroad to the level of major State policy. Specific care about diaspora and lobby formation issued from Heydar Aliyev's high diplomatic and professional politician merits.

The tasks before world Azerbaijanis were clearly and precisely determined by our national leader. Azerbaijanis living in different countries, in the first turn, must realize and feel their national belonging, support and develop Azeri language, culture, progressive traditions, history of Azerbaijan. This is paramount condition for moral-cultural unity of our compatriots living all around the world. Our great leader Heydar Aliyev, who used to state - "Man, regardless of country he lives in, must preserve his national roots. At the same time assimilation process exists in the world, too. People - I speak about Azerbaijanis - must assimilate conditions of country dwelled by them, take up good positions there for themselves. However, they must be permanently loyal to their national-moral values, national roots. Namely these factors unify all of us. It's Azerbaijanism idea which unify, consolidate all of us" -, advanced Azerbaijanism idea for ensuring close unity of our foreign compatriots around single idea, aim and principle, and succeeded in its firm rooting to public consciousness.

In his speeches our national leader every-time was pointing out that Azerbaijanism is universal and national philosophical outlook form aimed on preserving national belonging, national-moral values, at the same time benefiting by their synthesis, integration with values common to all mankind, providing development of every man. Azerbaijanism is ruling State ideology which results from the dictates of time, reflects the facts of our today. The idea

turned to stronghold, speeded up formation of Azerbaijani diaspora, stimulated centralization of different social unities, societies, circles in ideologico-political terms.

Strengthening of world Azerbaijanis' relations with Azerbaijan Republic, respective legal, political, social and cultural bases constantly provided centre of attention for our national leader. Every Azerbaijani, regardless of country he resides, must live for problems of Azerbaijani State, society, feel moral responsibility for their solution. Simultaneously, Azerbaijani Government must also create conditions for deriving advantage from our Motherland's growing material and moral power, its political authority by all world Azerbaijanis, use them for their rights' preserving. Constantly dwelling at large on these problems Heydar Aliyev stated with self-peculiar wisdom as below: "We deem that each of Azerbaijanis dwelling in different countries live their life in country resided by them on their own. They are citizens of the country, must observe its laws and follow the way which they want. But at the same time now that Azerbaijanis have their own independent State, establishing of closer relations between Azerbaijanis who inhabit different countries of the world, declaring of their solidarity and creating of links with independent Azerbaijani State appear as very important tasks at this historical period. Our task, the task of Azerbaijani State is to render possible care to Azerbaijanis living in all countries, take interest for their life and our State must extend interrelations of Azerbaijani communes from different ountries. And Azerbaijanis living outside Azerbaijan must now set up closer relations with independent Azerbaijan. All of these are key conditions for ensuring unity, solidarity of all Azerbaijanis living in the world".

Through his meetings with Azerbaijani diaspora representatives our national leader had been dwelling largely on the activities of diasporas in countries resided by them, with view to intensify public activity of our compatriots adducing concrete facts about foreign diasporas' work, especially life of diaspora established by our people's bitter enemy - Armenians, activities conducted by them, exposing essence of policy which Armenians have been conducting against our people, generally Turkic world along the whole length of history. For example, in 1998 speaking before Great Britain Azerbaijanis Heydar Aliyev stated: "Armenians try to prove that Azerbaijani nation allegedly doesn't generally exist, it was migrant etc. However, our Azerbaijani nation has great history. Great, ancient history".

Speeches of our national leader before our foreign compatriots inspired our Azerbaijani compatriots with great faith feeling, connected them to native land with firm links, called to keep Azerbaijan's interest in

foreign countries above all, inspired them to show activity for sake of Motherland's interest. He tried to suggest in his speeches to our compatriots such idea that Armenians living n different countries of the world, having closely united, appear as an organized force. All around the world Armenian diaspora conduct activities against Azerbaijan, our people, deliver wrong information to the world public.

The outstanding statesman, largely dwelling on the activity of Armenians living in the USA, as early as during his visit to this country in the early 1990ies pointed out that Armenian lobby, diaspora conducting in America anti-Azerbaijani propaganda is powerful. "Pay attention to the fact that in the USA numbering 300 mln residents 700 thousand Armenians can influence upon the country's policy...Armenians are very valuable for their nation...99 per cent of Armenians living in America are absolutely unaware of Nagorno Karabagh's location...But wherever is Armenian, he thinks about Nagorno Karabagh".

Great leader wished to see our compatriots namely such ones. Our foreign compatriots owe to put aside their personal interests, care about strengthening Motherland's future, sovereignty, mobilize their forces on this way, become organized and struggle for common idea, i.e. for Azerbaijan.

I Congress of World Azerbaijanis held in Baku through Heydar Aliyev's initiative in November 2001 played high importance for uniting our compatriots who live abroad around common aim, single Azerbaijanism idea, marked the beginning of qualitatively new stage in diaspora movement history. The Congress was partaken by 403 delegates and 63 guests representing over 200 different organizations from 35 foreign states dwelled by our compatriots. Delegates of national culture centers and societies functioning in the USA, Turkey, Russia, Georgia, Austria, Romania, Switzerland, Australia, Uzbekistan, Ukraine, Estonia, Latvia, Moldova, Kazakhstan, Denmark, Netherland, Finland, Belarus, Israel and other states were represented in this congress. At the same time 702 representatives from over 130 different governmental and public organizations, 25 political parties of our republic took part in the congress. The latter adopted such documents, like "Resolution of I Congress of World Azerbaijanis to all world Azerbaijanis", "Appeal to the world public, international organizations, foreign governmental heads and parliaments in view of Nagorno Karabagh conflict", "Appeal of I Congress of World Azerbaijanis to Azerbaijan Republic ' President Heydar Aliyev", "Appeal of the representatives of I Congress of World" Azerbaijanis to American people in connection with bloody terror actions committed in the USA on September 11, 2001".

Historic decisions adopted at the congress favored turning of diaspora

construction to State policy's component part, determined ideologico-political directions of world Azerbaijanis forming process, played exceptional role in strengthening national unity and solidarity between our compatriots.

At I Congress of World Azerbaijanis the most remarkable feature was our national leader Heydar Aliyev's speech. He appraised the held action as major historic event in the life of world Azerbaijanis and sovereign Azerbaijan: "I Congress of World Azerbaijanis is historic event in the life of independent Azerbaijan, all world Azerbaijanis' life. For the first time representatives of Azerbaijanis living all around the world, Azerbaijani communes have gathered in Azerbaijan, its capital Baku city and hold their first congress. I express gratitude to all delegates, guests, Azerbaijani communes from different countries, represented by the formers, in view of their voting for our decision about holding I Congress of World Azerbaijanis and their coming to Azerbaijan, Baku for taking part in the congress".

Heydar Aliyev stressing possession of ancient history by Azerbaijani people spoke about undergoing by Azerbaijanis some deprivals at different historical periods, their leaving native land due to various reasons, playing special importance of our compatriots' unity at present: "Azerbaijani people have great, ancient history. Through our centuries - old history our people had undergone many ordeals, lost its national consciousness, made valuable contribution to world civilization, enriched it. But in different historical periods Azerbaijanis had undergone some deprivals. That's why unity, solidarity of Azerbaijanis who are scattered all around the world now plays particular importance both for us, and for Azerbaijanis living in different countries of the world".

Speaking about military aggression of Armenia to our country Heydar Aliyev pointed out benefits to be derived from Azerbaijanis unity and interrelations of diaspora societies and Azerbaijan. The great leader stressed with regret the fact that since the first days of hostilities Armenians have been showing unity, whereas Azerbaijanis failed to unite, reminded respective duty before every Azerbaijani: "Armenian military forces, having laid territorial claim, launched hostilities for seizing Nagorno Karabagh province of Azerbaijan and all Armenians united like a fist around this idea, whereas in Azerbaijan, unfortunately, this wasn't observed. Because that years instead of uniting, mobilizing all Azerbaijani people, protecting our lands and giving proper answer to Armenian military forces, in Azerbaijan there proceeded struggle for power, intestine discords, armed groups belonging to different political forces acted themselves aggressive. The most detrimental result of all these for us was the fact that Armenian military forces taking the opportunity occupied Azerbaijan's several

administrative districts around Nagorno Karabagh, expatriated Azerbaijani dwellers of that lands with violence. Thus, 20 per cent of Azerbaijani lands were occupied by Armenian armed forces, at the same time over 1 mln Azerbaijanis who were expatriated both from Armenian territory, and the occupied lands, still live under trying conditions, in tents. Azerbaijan lived its first years as an independent State under such conditions. That's why our task was to prevent negative processes, mobilize all forces efforts for defending Azerbaijani lands and ensure living, developing of Azerbaijan as an independent State".

Concerning new oil strategy of our country, Heydar Aliyev spoke about global energy projects under realization, their importance for Azerbaijan: "Lately we had been elaborating very great project and had already begun constructing Baku-Tbilisi-Ceyhan oil pipeline for exporting to the world markets Azerbaijani oil in high numbers to be produced in the future. We also concluded necessary contracts for exporting gas to be recovered from rich Shahdaniz field of Azerbaijan to Turkey and launch construction of the gas pipeline. Our oil strategy created conditions for functioning of not only companies directly dealing with oil recovery, but also many other companies in Azerbaijan, and thus for making foreign investments to the economy of our country. Such is new panorama of Azerbaijan. This could take place only and only under the conditions of Azerbaijan's independence".

After acquiring state independence by Azerbaijan, Azerbaijanism became key idea for our compatriots living both in Azerbaijan, and all around the world. As we mentioned above, great leader Heydar Aliyev made unexampled contribution to turning of Azerbaijanism concept into national mentality mode. In his historic speech Heydar Aliyev once again pointed out importance of Azerbaijanism, necessity of being more active for bearers of this idea, bringing Azerbaijan's justice voice to the world's attention: "....The key idea of independent Azerbaijani State is Azerbaijanism. Every Azerbaijani owe to be proud for his national belonging and we must keep alive Azerbaijanism - the Azeri language, Azerbaijani culture, national-moral values, traditions... We must always unite around the idea. Azerbaijanism means keeping your national belonging, national-moral values, traditions... We must always unite around the idea. Azerbaijanism means keeping your national belonging, national-moral values, at the same time deriving benefit from their synthesis, integration with values common to all mankind and ensuring development of every man".

Heydar Aliyev characterizing the congress as major historic event for realizing Azerbaijanism ideas, strengthening and developing solidarity of

world Azerbaijanis expressed his hope that the grand occasion play very high role in coping with the forthcoming tasks, and that our compatriots make their respective contribution: "I deem that here, during the congress days the congress representatives, our compatriots who came to Azerbaijan, native land from many far countries of the world keep closer interrelations, try to understand better each others, more actively take part in forming of communes functioning in different countries as diaspora and strengthen relations of Azerbaijanis living abroad with Azerbaijan. I think that in this field the congress is very important historic occasion for realizing Azerbaijanism ideas, strengthening and developing world Azerbaijanis solidarity. Just like independent Azerbaijani State, Azerbaijan solidarity, world Azerbaijanis unity, Azerbaijani communes from different countries are young. But now we have entered new stage. We are being formed, our independence strengthened, foreign Azerbaijanis more intensively arrange themselves and all of us together will keep alive, eternalize Azerbaijanism".

Having taken into account numerous proposals of the congress representatives, our national leader adopted decree about establishing State Committee for Work with Foreign Azerbaijanis on July 5, 2002. And Law "About State policy in view of Azerbaijanis living abroad" adopted in December of the same year determined priorities and legal principles of State policy followed in this realm. For the first time in the life of sovereign Azerbaijan Republic reflected objects, principles of State policy in view of Azerbaijanis living abroad, the policy foundations, citizenship problems, economic and social policy of our republic in connection with Azerbaijanis living abroad, at the same time cultural, language and educational policy. The law also keeps in the focus of attention financing of the activity of governmental bodies in view of Azerbaijanis living abroad, conducting of monitorings and other problems. Establishment of a governmental body to deal directly with diaspora problems and respective law adoption even more speeded up process of forming world Azerbaijanis, created new conditions for bringing Azerbaijani facts to the world public's attention.

Through the period after I Congress of World Azerbaijanis dramatic qualitative changes had taken place in the life of world Azerbaijanis, diaspora construction, our independent State's public-political, social-economic and cultural life to favour much intensifying of the political activities of our compatriots living abroad, their participation in public-economic and cultural life of our country. At the same time through this period there had widely spread establishment of Azerbaijani communes in different countries of the world. Presently there are functioning over 300 Azerbaijani communes and more than 100 new diaspora organizations were

founded. There were also undertaken major steps toward co-ordinating Azerbaijani communes activity, for the aim diaspora organizations set up relevant structures. Establishment of European Azerbaijanis Congress, Turkish Azerbaijani Circles Federation, Canadian Azerbaijani Organizations Federation proves successive and stable character of the process.

Today our compatriots living all around the world closely joined around modern, independent Azerbaijani State and national-moral unity idea being masterpiece of Heydar Aliyev. "If you are an Azerbaijani, you must know: world Azerbaijanis have their independent State - Azerbaijan, world Azerbaijanis have their historical Motherland Azerbaijan!" - the great words of our national leader forever were engraved to the heart and memory of our every compatriot.

Azerbaijan President Ilham Aliyev being loyal to our national leader Heydar Aliyev's ideas and principles permanently keeps the problem of unifying and organizing our compatriots living abroad in the focus of attention, during numerous visits to foreign countries meets with Azerbaijani diaspora representatives, takes close interest for their problems and preoccupations. The leader of our country conducts at State level necessary activities for more intensive propagating of national unity and Azerbaijanism idea among our compatriots who settled in different places of the world. Besides, there is attached specific importance to establishing close relations between our country and world-famed public-political, cultural and art workers, intellectuals and scientists who made outstanding contribution to Azerbaijani diaspora development, actively partake of protecting our national interests, feel great sympathy, love to our nation and our State. Today personal friendship of our respected President with heads of some leading states creates rather favourable conditions for education, business activity of our compatriots living abroad in these countries. Our compatriots better feel positive impact of the factor especially in such neighboring countries, like Russia and Georgia. Powerful, mighty Azerbaijan and its authoritative leader today are confidence abode for each of our compatriots living in the world.

Ilham Aliyev always stated that only people having powerful diaspora achieve great successes in external policy, everytime worthily protect their interests at world scale, succeed in solving their national problems, decently propagate their language, culture, art, history. In his speech at II Congress of World Azerbaijanis President Ilham Aliyev evaluated diaspora construction work as a priority of foreign policy and stressed necessity of intensifying the work. The State leader pointed out falling of major tasks to our foreign compatriots in view of high-level protection of national interests on the

international arena, complete, objective bringing of the country-related facts to the world public's notice, gave his valuable recommendations in connection with their better arranging, organized struggle for common tasks. President Ilham Aliyev called our compatriots to be more active in delivering Azerbaijan-related facts to the world community's attention. He pointed out necessity of intensifying propagation of Armenian-Azerbaijani, Nagorno Karabagh clash's real essence, as well as our country's latest achievements in the realm of democracy, human rights defending and economic growth.

Improvement of diaspora construction work, used by as a major factor of realizing Azerbaijan Republic's foreign policy, provides particular attention focus. This, on the one hand, results from economic and political growth of Azerbaijan, its turning into leader State of the region, heightening of its international prestige, on the other hand, from increasing of the quality of work with foreign Azerbaijanis, setting of new tasks before them. Communes and structures functioning in different countries gradually amalgamate within single centres, our compatriots had already begun arranging themselves at continental level. Presently Azerbaijani State sets itself the task of protecting our compatriots' rights and freedoms, turning them to influential force in relevant countries, bearing responsibility for the fate of world Azerbaijanis. That's why worthy representation of Azerbaijani communes at different governmental and public structures of the countries dwelled by them and formation of the authoritative Azerbaijani lobby in leading states rank with paramount tasks set before Azerbaijan Republic and our compatriots living abroad.

It's not occasional that decree of Azerbaijan Republic President Ilham Aliyev "About holding the second congress of world Azerbaijanis" dated February 8, 2006 touched upon this major problem. The decree points out that Azerbaijan Republic declared its relations with Azerbaijanis living abroad as a priority of State policy. Diaspora construction is long-term process not limitting itself to the concrete period, having strategical importance, demanding permanent activity and labour. Namely that's why there emerges need to discuss periodically achievements made in this field and the forthcoming tasks.

Holding of II Congress of World Azerbaijanis shall dramatically stimulate beginning of a new stage in diaspora construction, connections of our compatriots with their historical homeland, strengthening of world Azerbaijanis solidarity. From this viewpoint we can confidently say that the Congress results play high importance for determining relevant future tasks, general strategy, main targets, informing our foreign compatriots about

essence of systematic steps undertaken by our president Ilham Aliyev over Azerbaijan's strengthening, key principles of State policy and our national interests. Range of our diaspora movement, rich experience acquired through it laid down the basis for a new historical stage from viewpoint of world Azerbaijanis' closer unification around common idea after congress, national unity and solidarity.

Today Azerbaijani diaspora possesses high economic, cultural, intellectual potential, their influence upon public-political life of relevant countries gradually becomes more appreciable. Numerous Azerbaijani communes and societies from CIS countries, Europe, Asia, America conduct much more efficient activity as compared with previous periods. Now there are formed more favourable conditions for strengthening solidarity and organization of world Azerbaijanis, their close unification around national ideas.

Lately their have been undertaken major activities for intensifying co-operation with Turkish diaspora organizations in the world, secured appearance of Azerbaijani and Turkish diasporas from the same position in some problems, conducting of joint actions. There are continued relations with representatives of other nations having friendly attitude to Azerbaijan, statesmen, science and cultural workers, non-governmental organizations' representatives, used their potential for bringing our Motherland-related facts to the world community's, attention, defending Azerbaijan Republic's interests in different countries and international organizations.

Interest of businessmen among our foreign compatriots toward Azerbaijani economy grows from year to year, their efficient activity wholly meets interests of both Azerbaijan, and of the countries dwelled by them, material resources of our diaspora are increasing. Relations, based on economy, common interests even more strengthen moral connections and reflect demands of modern period.

Surely, our compatriots mustn't content themselves with only this, diaspora organizations owe to pay particular attention for economic lobbying. Thus, our compatriots efficiently using their relations with foreign businessmen should give them clear idea of favourable investing conditions in our country, our rich economic potential. Today achievements of our independent State in home and foreign policy, speeding up of social-economic development in our country require from every Azerbaijani living abroad to be more agile in their daily activity, inform the world public about Azerbaijan-related facts, conduct struggle for Azerbaijan's national interests by taking active part in public-political life of the State where they live, strengthen their civic position.

Cultural-political unity, solidarity of our foreign compatriots fully meets our country's and world Azerbaijanis' interest. The Azeri language being key intercourse means for millions of our compatriots living in different countries, being Azerbaijan's State language connect us with one another by indestructible ties. That's why national unity which became formed around Azerbaijanism idea and sovereign statehood ideas is moral fulcrum, national consciousness means for every Azerbaijani. Our national leader Heydar Aliyev attaching specific importance to all the problems stated: "Language of every nation is very dear to it. For us the Azeri language, our native language is too dear. Because for long years our native language, the Azeri language has been failing to spread widely. But despite the fact, every Azerbaijani did all his best to preserve the language. Especially our writers, literary critics, poets j made high contribution to keeping alive the Azeri language in that period. Now our language is wealthy, beautiful, sweet and has rich fund of words for expressing all ideas.

Along with intensifying feeling of relation to our Motherland, we mustn't forget that wherever we dwell it's love to Azerbaijan that unifies each of us. Just like civic duty makes us responsible for Azerbaijan, identically national belonging feeling, Azerbaijanism idea must connect our foreign compatriots with Motherland. In this view world Azerbaijanis must closer unify around common idea – Azerbaijanism idea, be more steadfast by organizing themselves. It's glad that after I Congress of World Azerbaijanis held by great leader Heydar Aliyev's initiative and heading there quickened process of unifying our compatriots around Azerbaijanism, national statehood and moral values. Even more strengthening of Azerbaijan's position on international arena, bringing of justice voice of our people, who underwent Armenian aggression, to the world public's notice, the just solution of Armenian-Azerbaijani, Nagorno Karabagh conflict in accordance with norms and principles of international law and necessity of solving other national problems turn our compatriots unity into more important factor. Organization of world Azerbaijanis, their closer unification around Azerbaijan Republic President Ilham Aliyev play high importance for full security of national and civic rights of our compatriots.

«Azerbaijan & Azerbaijanis=
Азербайджан и Азербайджанцы»
2006. №1-4. p.3-10

REGIONAL ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRI

Heydər Əliyevin xarici siyasət konsepsiyasında Avroatlantik strukturlarla əməkdaşlıq

Dünyanı dahi şəxsiyyətlərin işıqlı əməlləri nurlandırır. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulurlar. Xalq onlara etimad göstərir, öz taleyini etibar edir, bütün məsuliyyət və vəzifələri onların çiyinlərinə qoyur. Heydər Əliyev Azərbaycan xalqı üçün məhz belə bir şəxsiyyətdir. Xalqımız haqlı olaraq öz azadlıq idealının təsdiqini milli-etnik potensialımızın ən yüksək meyarı hesab etdiyi Heydər Əliyevin siyasi əzəmətində görür.

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş qüdrətli şəxsiyyətdir. Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, Azərbaycanın dirçəlişi və yüksəlişinin qarantı, ötən yüzilliyin 90-cı illərindən isə yenidən müstəqilliyə qovuşmuş dövlətçiliyimizin banisi və xilaskarıdır.

Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı nə qədər tələtümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası – doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Azərbaycan labüd fəlakətdən xilas oldu. Müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizə də ciddi nəticələr əldə edildi. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanılması istiqamətində uğurlu addımlar atıldı. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox diqqətəlayiq tədbirlər həyata keçirildi.

1993-cü ildən başlayaraq Prezident Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursunun prioritet istiqamətləri müəyyənləşdirilərək həyata keçirilməyə başlandı.

Heydər Əliyevin müəllifi olduğu xarici siyasət xətti dərin elmi-nəzəri

və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan hazırda planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indiki şəraitdə bu, daha aydın şəkildə hiss olunmaqdadır.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır, dövlətimiz beynəlxalq və regional siyasətin həyata keçirilməsində getdikcə daha fəal iştirak edir. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü və bilavasitə səyləri sayəsində yaradılmış GUÖAM təşkilatı böyük bir məkanda region qüvvələrinin birləşməsi, razılaşdırılmış siyasi və iqtisadi strategiyanın işlənib hazırlanması, regional təhlükəsizliyin təmin edilməsi yönümündə fəal rol oynamağa başlamışdır.

Azərbaycanın BMT, ATƏT, AŞ kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyin mühüm elementi ona NATO ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son illərin uğurlu xarici siyasətinin real nəticələridir.

NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Azərbaycanla NATO arasında əməkdaşlığın ilk təzahürləri 1992-1993-cü illərlə təsadüf etsə də, 1994-cü ilə qədər qarşılıqlı münasibətlər epizodik xarakter daşıyırdı. Lakin Ermənistanın əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı öz əlinə keçirmək məqsədilə respublikamıza qarşı təcavüzü və bunun nəticəsində torpaqlarımızın iyirmi faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan artıq soydaşımızın qaçqına çevrilməsi nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən NATO ilə daha sıx əməkdaşlığı zəruri edirdi.

Məhz belə bir şəraitdə Prezident Heydər Əliyev NATO ilə əməkdaşlıq haqqında prinsipial qərar qəbul etdi. NATO-nun müasir beynəlxalq münasibətlərdə aparıcı rolunu, dünya siyasətində yeni meylləri nəzərə alaraq, eləcə də öz potensialını və mənafelərini əsas tutaraq Azərbaycan dövləti 1994-cü ilin mayın 4-də "Sülh naminə tərəfdaşlıq" proqramının

çərçivə sənədini imzaladı. Azərbaycan MDB məkanında Ukrayna, Moldova və Gürcüstandan sonra bu proqrama qoşulan dördüncü respublika idi. Ümummilli liderimiz Heydər Əliyev bu tarixi hadisə ilə bağlı çıxışında deyirdi: "Azərbaycan Respublikası Şimali Atlantika İttifaqına dərin hörmətlə yanaşır, onun son on illiklər ərzində Avropada sülhü, sabitliyi və ardıcıl inkişafı təmin etmək sahəsində göstərdiyi fəaliyyəti yüksək qiymətləndirir. Hazırda dünyada kollektiv təhlükəsizliyin real surətdə mövcud olan strukturu kimi NATO demokratik dəyərlərin müdafiəsini və bu dəyərlərin Şərqi Avropada və keçmiş SSRİ ərazisində yaranmış yeni müstəqil dövlətlərdə yayılmasını təmin edir. Biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda və Qərb dünyasının çox zəngin təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq".

Azərbaycan Prezidenti Heydər Əliyevin NATO Baş katibinin müavini Serco Balansino ilə görüşü zamanı tərəflər silahlı münaqişələrin dayandırılması və sülhün bərqərar olmasında "Sülh naminə tərəfdaşlıq" proqramının mühüm rol oynaya bilməsi haqqında yekdil fikrə gəldilər. Əlbəttə, Azərbaycanın bu proqramı imzalaması NATO ilə əməkdaşlıqda ilk addım idi. Proqramın gələcəkdə Şimali Atlantika İttifaqı ilə əməkdaşlıq sahəsində açacağı imkanları və bu əlaqələrin geniş parametrlərini nəzərə alsaq, atılmış addımın əhəmiyyətinə əsl qiymət vermək olar.

Prezident Heydər Əliyev NATO-nun mənzil qərargahında sənədlərin imzalanmasında sonra keçirdiyi mətbuat konfransında bəyan edirdi ki, " "Sülh naminə tərəfdaşlıq" proqramının imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Müstəqil Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması Azərbaycan Respublikası ilə NATO üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcək".

Ermənistanın Azərbaycana qarşı təcavüzü probleminə toxunaraq Azərbaycan Prezidenti deyirdi: "Şimali Atlantika İttifaqının üzvləri hər hansı dövlətin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin zərərinə olaraq qüvvə tətbiq etməkdən imtina haqqında təəhhüdlərini, həmçinin mövcud sərhədlərə hörmətlə yanaşmaq və mübahisələri dinc vasitələrlə həll etməyə tərəfdar olduqlarını təsdiq etdilər. NATO üzvü olan dövlətlərin bu mövqeyi müstəqil Azərbaycanın maraqlarına cavab verir".

Azərbaycan dövlətinin başçısı ümidvar olduğunu bildirirdi ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək Ermənistan-

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətlə, dinclikl dayandırılmasına, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, müharibənin bütün nəticələrinin aradan qaldırılmasına tezliklə nail olmağa imkan verəcəkdir: "Çünki NATO üzvü olan dövlətlər hər hansı ölkənin sərhədlərinin sülh gücünə dəyişdirilməsini yolverilməz sayırlar. Sənədin bu müddəaları ümid etməyə əsas verir ki, Qafqaz regionunda vəziyyətin nizama salınması üçün NATO ölkələri konkret əməli addım atacaqdır". Bunu NATO Baş katibinin müavini S.Balansinonun fikirləri də sübut edir. O, bəyan etmişdir ki, "bu proqramın iştirakçısı kimi, Azərbaycan Respublikası özünün məruz qaldığı münaqişə ilə bağlı məsləhətləşmələr keçirilməsi barədə müraciət edərsə, biz buna böyük diqqətlə yanaşacaq və belə məsləhətləşmələr keçirəcəyik".

Azərbaycan Prezidenti "Sülh naminə tərəfdaşlıq" proqramının əhəmiyyətindən danışarkən deyirdi: "...bizim bu proqramda iştirakımız Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələlərin müzakirəsində NATO-nun iştirakına şərait yaradır".

Göründüyü kimi, NATO ilə əməkdaşlığın müstəqil Azərbaycan dövləti üçün böyük əhəmiyyəti və perspektivləri vardır. Bu əməkdaşlığın əsas prinsipləri və istiqamətləri "Sülh naminə tərəfdaşlıq" proqramında və Azərbaycanın təqdim etdiyi "Prezentasiya sənədi"ndə öz əksini tapmışdır. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Azərbaycan hər şeydən əvvəl, planetin ən qüdrətli hərbi-siyasi bloku ilə əməkdaşlıq tellərini möhkəmləndirdi, həmçinin NATO-nun şəxsində güclü və etibarlı tərəfdaş qazandı.

Azərbaycan-NATO münasibətləri 1994-cü ilin iyununda Azərbaycan nümayəndə heyətinin Şimali Atlantika Əməkdaşlıq Şurasının (ŞAƏŞ) sessiyasında iştirakı ilə bir qədər də inkişaf etdirildi. Səfər zamanı Ermənistanın Azərbaycana təcavüz və onun nəticələri haqqında geniş məlumat verilmiş və qəbul olunmuş bəyanatın "Regional münaqişələr" hissəsində bu problem öz əksini tapmışdır. Bəyanatda belə bir prinsipial müddəa ifadə olunmuşdur ki, bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır.

1995-ci ilin mayında NATO Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfər etdi. Bu komitə Avropada Adi Silahlı Qüvvələr haqqında müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti təmin etməli idi. Azərbaycana səfər də bununla bağlı idi. Prezident Heydər Əliyev keçirilən görüşdə NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan səfər də bununla bağlı idi. Prezident Heydər Əliyevlə keçirilən görüşdə NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsinin və bölgədə sülh yaradılmasının vacibliyi vurğulandı. Azərbaycan Prezidenti Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi əməkdaşlıq haqqında müqavilənin Azərbaycan tərəfində narahatlıq doğurduğunu bildirdi. Görüşdə, həmçinin ŞAƏŞ-in iclaslarında Azərbaycan tərəfinin dəfələrlə qaldırdığı daha bir məsələ - Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə nəzarətdən kənar qalmış hərbi qüvvələrin və silahların yerləşdirilməsi NATO nümayəndələrinin diqqətinə çatdırıldı. Azərbaycan regionda gərginlik yardan bu məsələ ətrafında Şimali Atlantika İttifaqının lazımi tədbirlər görməsinin zəruriliyini irəli sürdü.

Azərbaycan nümayəndə heyətinin NATO-nun müxtəlif tədbirlərində iştirakı ilə yanaşı, Alyansın müxtəlif səviyyəli nümayəndələrinin ölkəmizə səfərlərini də əməkdaşlığın inkişafı formaları kimi qəbul etmək olar. 1995-ci ilin iyununda Prezident Heydər Əliyev NATO Silahlı Qüvvələrinin Avropa komandanının müavini general Ç.Makkenzini qəbul etdi. Görüşdə general Ç.Makkenzi Azərbaycanla NATO arasında münasibətlərin inkişafından məmnun qaldığını bildirdi və qeyd etdi ki, Şimali Atlantika İttifaqı Azərbaycan silahlı Qüvvələrinin qurulmasında və təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. O, xüsusi vurğuladı ki, ordu hər bir dövlətin atributudur. Və Azərbaycan da öz növbəsində layiq olduğu orduya malik olmalıdır.

Azərbaycanın dövlət başçısı görüşdə bildirdi ki, "biz bir tərəfdən, NATO-nu dünyada ən nüfuzlu və təsirli təşkilat hesab edirik, digər tərəfdən, onu regionda sülhün dayağı və təşkilatçısı kimi görürük. Biz öz ordumuzun qurulması prosesində NATO təcrübəsindən faydalanmalıyıq və bu faktor əməkdaşlığımızın ən mühüm mərhələsi olacaqdır". Görüşdə ilk dəfə olaraq, NATO-nun rəsmi nümayəndəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və regionda sülhün təmin olunması zəruriliyini qeyd etdi.

Prezident Heydər Əliyevin 1996-cı ilin aprelində Avropa ölkələrinə səfəri zamanı Azərbaycan Respublikası və Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi NATO ilə əlaqələrin genişləndirilməsi sahəsində böyük əhəmiyyətə malik oldu. Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən biri kimi qiymətləndirilən və müstəqil dövlətimiz üçün tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin dərinləşməsi üçün hüquqi baza rolunu oynayır. Aprelin 23-də Brüsseldə NATO-nun baş katibi Xavyer Solana ilə görüşü zamanı Prezident Heydər Əliyev Azərbaycan Respublikasının Şimali Atlantika İttifaqı ilə əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi"ni ona təqdim etdi. Ölkəmizin hərbi struktur rəhbərlərinin də iştirak etdiyi həmin görüşdə respublikamızın gələcəkdə Alyans ilə əməkdaşlığı barədə bəzi məsələlər müzakirə olundu. Söhbət zamanı X.Solana Cənubi Qafqazda cərəyan edən hadisələri diqqətlə izlədiyini, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində

Prezident Heydər Əliyevin fəaliyyətini yüksək qiymətləndirdiyini bildirdi. Tərəflər belə bir fikri xüsusi olaraq vurğuladılar ki, Qafqazda sülhün və sabitliyin mövcudluğu region dövlətlərinin gələcək əməkdaşlığının və xalqların rifahının stimuludur. Bununla əlaqədar NATO-nun Baş katibi üç Cənubi Qafqaz dövləti tərəfindən Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq müqavilələrinin imzalanmasını və Azərbaycanla Ermənistanın birgə bəyanat qəbul etməsini yüksək qiymətləndirdi.

Azərbaycanın 1995-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olması NATO-ya Qafqazda münaqişəli məsələlərin həllində fəxri üzv statusu ilə iştirak etmək imkanı verirdisə, "Prezentasiya sənədi"nin təqdim olunması artıq respublikamıza öz təhlükəsizlik və müstəqillik məsələlərini fərdi qaydada, istədiyi taktiki yolla, müstəqil müəyyən etməyə və bu halda Şimali Atlantika Blokunun müdafiəsinə nail olmaq imkanı verir.

1997-ci ilin əvvəlində NATO-nun Baş katibi X.Solana Azərbaycana səfər etdi. Bu səfər NATO-Azərbaycan münasibətlərinə xüsusi təkan verdi və NATO-nun ölkəmizlə bağlı planlarının ciddi olduğunu sübut etdi. Prezident Heydər Əliyevlə görüşündə Baş katib təhlükəsizlik probleminin həm Azərbaycan, həm də NATO üçün çox mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulamaqla bərabər, respublikamızla əməkdaşlığın "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində gələcəkdə daha da inkişaf edəcəyini bildirdi. Səfər zamanı X.Solana Milli Məclisdə NATO qarşısında duran yeni vəzifələr və Azərbaycanla Alyans arasında qarşılıqlı əlaqələrin perspektivləri haqqında nitq söylədi. O, öz çıxışında bildirirdi: "Bu il biz Avropa təhlükəsizliyinin yeni arxitekturasının qurulması üçün addımlar atırıq və bu arxitekturada Azərbaycanın yerini hiss edirik".

Azərbaycan-NATO münasibətlərinin mahiyyəti və xüsusiyyətlərinə qiymət vermək baxımından 1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşündəki çıxışı xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçımız sammitdəki nitqində respublikamızın yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq bölgədə silahlı münaqişələrin aradan qaldırılmasında Azərbaycanın NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəslədiyini bildirirdi. O deyirdi: "Onlar Qafqazdakı silahlı münaqişələri kənardan müşahidə etməməlidirlər. Nəzərə almaq lazımdır ki, bu münaqişələr Ümumavropa təhlükəsizliyi üçün də ciddi təhlükə yaradır". Prezident bir daha qeyd edirdi ki, Azərbaycan Respublikası Avropa-Atlantika Əməkdaşlıq Şurasının yaradılmasını alqışlayır və buna NATO ilə tərəfdaş ölkələr arasında siyasi məsləhətləşmələrin, fəal əməkdaşlığın mühüm mexanizmi kimi baxır.

Həmin ilin iyulunda ABŞ-a rəsmi səfəri zamanı Prezident Heydər Əliyev Nyu-Yorkda X.Solana ilə növbəti görüşündə də bu fikri bir daha təsdiqləyirdi. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan Azərbaycan ilə NATO arasında son illər yaranmış əlaqələrdən razılıqla bəhs edən Baş katib əmin olduğunu bildirirdi ki, bu münasibətlər Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində daha da möhkəmlənəcəkdir. X.Solana respublikamızın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə demokratik proseslərin, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri müsbət qiymətləndirirdi.

1997-ci il noyabrın 14-də Prezident Heydər Əliyev Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında sərəncam imzaladı. Sərəncama uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti yanında NATO ilə əməkdaşlıq üzrə dövlət komissiyası yaradıldı. Komissiya "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə əlaqədar müdafiə, xarici işlər, milli təhlükəsizlik və rabitə nazirliklərinin, eləcə də Milli Elmlər Akademiyasının səylərinin birləşdirilməsi istiqamətində məqsədyönlü iş aparır. Eyni zamanda, Azərbaycan 1997-ci ildə NATO Planlaşdırma və Analiz Prosesinə (PAP) qoşuldu. Elə həmin il Azərbaycan NATO-nun Brüsseldəki mənzil-qərargahında öz diplomatik nümayəndəliyini təsis etdi. Ölkəmizin diplomatik missiyasının Şimali Atlantika Alyansının mənzil-qərargahında açılması qarşılıqlı şəkildə aparılan işləri daha da sürətləndirdi.

Azərbaycanın NATO ilə əməkdaşlıq etdiyi mühüm sahələrdən biri də "Sülh naminə tərəfdaşlıq" proqramında irəli sürülmüş bir sıra məqsədlərin praktik şəkildə həyata keçirilməsini nəzərdə tutan bu prosesdə MDB ölkələrindən yalnız Azərbaycan, Ukrayna və Moldova iştirak edir. PAP çərçivəsində fəaliyyətin əsas istiqaməti qarşılıqlı fəaliyyət tədbirlərinin, yeni hərbi təlim, sülhyaratma əməliyyatlarının planlaşdırılmasına yönəldilmişdir.

1998-ci il mayın 5-də Atlantika Müqaviləsi Assosiasiyasının (AMA) sədri G.Teodossis ölkəmizə səfər etdi. Prezident Heydər Əliyevlə görüşündə o, özündə 60-dan çox ölkənin qeyri-hökumət təşkilatlarını birləşdirən AMA-nın əsas məqsədinin NATO ilə əməkdaşlıq etmək istəyən ölkələrdə həmin blokun ideyalarının yayılmasından ibarət olduğunu bildirdi.

1998-ci ilin ikinci yarısından etibarən Silahlı Qüvvələrimizin hərbi hissələri "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə birgə keçirilən hərbi təlimlərdə iştirak etməyə başladı. 1998-ci il sentyabrın 10-dan 18-dək Makedoniyanın "Krivolk" təlim mərkəzində NATO üzvü və tərəfdaş dövlətlərin "Cooperative best effort" təlimlərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı bölüyünün bir taqımı da iştirak etdi. Otuza yaxın dövlətin qatıldığı bu təlimlərin əsas məqsədi

sülhməramlı əməliyyatlar zamanı birləşmiş hərbi qüvvələrin fəaliyyətini təkmilləşdirmək, qarşılıqlı yadım və əməkdaşlıq təcrübəsini zənginləşdirmək idi. Sentyabr ayının 22-dən 28-dək isə Özbəkistanda NATO ölkələrinin və Azərbaycan da daxil olmaqla, tərəfdaş dövlətlərin beynəlxalq sülhməramlı təlimləri keçirildi. Mütəxəssislərin fikrincə, beynəlxalq hərbi əməkdaşlıq sahəsində əlaqələrin genişlənməsində bu təlimlərin böyük əhəmiyyəti vardır. Təlimlərin məqsədi sülhməramlı əməliyyatlar zamanı çoxmillətli hərbi hissələr arasında əlaqələrin möhkəmləndirilməsindən ibarət idi. Təlimlərin keçirildiyi Çirçik təlim mərkəzində bu ölkələrin silahlı qüvvələrinin nümayəndələri müxtəlif əməliyyatlarda-humanitar yüklərin qorunması, sülhməramlı əməliyyatlar zamanı tibbi xidmət göstərilməsi, minaların tapılması və zərərsizləşdirilməsi, mühüm obyektlərin qorunmasında iştirak etdilər. Azərbaycan hərbçiləri sülhməramlı təlimlər zamanı tapşırıqları yerinə yetirərkən yüksək hazırlıq nümayiş etdirdilər və bu, təlimlərdə müşahidəçi qismində iştirak edən dövlətlərin silahlı qüvvələrinin nümayəndələri tərəfindən yüksək qiymətləndirildi. Bu təlimlərdən əlavə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ekspertləri təkcə sentyabr ayı ərzində daha ona yaxın tədbirdə iştirak etdilər.

Azərbaycan Silahlı Qüvvələrinin "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində aktiv fəaliyyəti fonunda NATO-nun Baş katibi X.Solana 1998-ci ilin sentyabrında ölkəmizə səfərə gəldi. Səfər zamanı NATO-nun Avroatlantik və regional təhlükəsizliyə dair mövqeyi Azərbaycan tərəfinə açıqlandı və ölkə başçısı ilə NATO-Azərbaycan əlaqələrinə dair geniş müzakirələr aparıldı. X.Solana regiona ikinci səfərinin məqsədin aşağıdakı kimi izah edirdi: "Başlıcası budur ki, biz nəinki "Sülh naminə tərəfdaşlıq" proqramı üzrə ümumi işi təhlil etmək üçün, həm də dünyada təhlükəsizliyə aid digər məsələləri müzakirə etmək üçün toplaşmışıq". X.Solana daha sonra deyirdi: "XXI əsr ərəfəsində isə məsələlər daha da çoxdur, çünki dünya sürətlə dəyişir, dünyada hər şey sürətlə qloballaşır, regional səviyyədə daimi təşəbbüslər irəli sürülür. Tarixi İpək yolunun bərpasına dair Azərbaycanın təşəbbüsü ilə bu yaxınlarda Bakıda keçirilmiş konfrans buna inandırıcı sübutdur". Sentyabrın 30-da X.Solana Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə baş çəkdi, Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı bölüyünün şəxsi heyəti ilə görüşdü və onları bu günlərdə başa çatan "Mərkəzi Asiya batalyonu-98" təlimlərində nümayiş etdirdikləri ustalığa görə təbrik etdi. Ümumiyyətlə, NATO Baş katibinin respublikamıza ikinci səfəri əməkdaşlığın inkişaf etdirilməsi baxımından daha məhsuldar oldu.

1998-ci ilin oktyabrında Şimali Atlantika Parlament Assambleyasının NATO-nun genişləndirilməsi və yeni demokratik ölkələr üzrə köməkçi komitəsinin nümayəndə heyəti ölkəmizə səfər edərək respublikamızdakı

ictimai-siyasi vəziyyətlə tanış oldu. Prezident Heydər Əliyevlə görüş zamanı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onunla əlaqədar yaranmış problemlər müzakirə edildi. Respublikamıza yenidən səfərə gəlməkdən məmnun qaldığını bildirən nümayəndə heyətinin başçısı, Fransa parlamentinin üzvü Lui Buvard Bakıda keçirdikləri görüşlərdən ətraflı söhbət açaraq, yaxın gələcəkdə Şimali Atlantika Parlament Assambleyasında Azərbaycan Milli Məclisi nümayəndəsinin daimi əsaslarla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu söylədi. Nümayəndə heyətinin üzvləri-türkiyəli Tahir Köse, polşalı Lonqin Pastusiak, yunanıstanlı Xristos Rokofilos Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması imkanları barədə maraqlandılar.

Dünyanın aparıcı ölkələrinin və beynəlxalq təşkilatların bu məsələyə daha ciddi yanaşması, lazımi səylər göstərməsi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin mümkün olduğunu vurğulayan dövlət başçımız bu sahədə yaranmış normativ-hüquqi sənədlərdən ətraflı söhbət açdı. 1993-1994-cü illərdə BMT-nin qəbul etdiyi qətnamələrdən, Təhlükəsizlik Şurası sədrinin bəyanatlarından bəhs edən Azərbaycan Prezidenti həmin sənədlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunduğunu vurğuladı, lakin təcavüzkar qonşumuzun bu qətnamələri və tələbləri yerinə yetirmədiyini və təəssüf ki, BMT Təhlükəsizlik Şurası və dünya dövlətlərinin bu beynəlxalq təşkilatın qərarlarına Ermənistanın itaətsizlik etməsinə laqeyd yanaşdıqlarını bildirdi. Bir çox nüfuzlu dövlətlərin üzvü olduqları Minsk qrupunun yaranmasından, ATƏT-in 1994-cü il Budapeşt zirvə görüşündə qəbul olunmuş qətnamədən söhbət açan respublikamızın rəhbəri 1996-cı ildə Lissabon sammitində ATƏT-in icraçı sədrinin bəyanatını və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün müəyyənləşdirilmiş üç əsas prinsipi geniş şərh etdi. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın irəli sürdükləri təkliflərdən bəhs edən, həmin təklifləri Ermənistan tərəfinin qəbul etmədiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev həmsədrlərin səylərinin də hələ heç bir nəticə vermədiyindən təəssüfləndiyini bildirdi. Ermənistan ərazisində Rusiyanın böyük həcmdə hərbi bazalarının xüsusi status aldığını, Rusiya ilə Ermənistan arasında hərbi ittifaq yarandığını nəzər çarpdıran dövlət başçımız Rusiyanın bir tərəfdən Minsk qrupunun həmsədri kimi münaqişənin həllinə çalışdığını, digər tərəfdən isə Ermənistanla hərbi müttəfiqlik haqqında saziş imzaladığını və hər iki ölkənin silahlı qüvvələrinin birgə hərbi manevrlər keçirdiyini deyirdi. Daha sonra o, müharibədə 1994-cü ildə atəşkəs əldə etdikdən sonra Rusiya Müdafiə Nazirliyinin Ermənistana qanunsuz, gizli yolla və təmənnasız

olaraq bir milyard dollar dəyərində ağır hərbi texnika, silah-sursat, raketlər verdiyini, bunun ardınca isə "S-300" raketləri, yeni tipli hərbi təyyarələr vermək niyyətində olduğunu qeyd edərək Rusiyanın çox kiçik ərazisi olan Ermənistanı başdan-ayağa silah-sursatla doldurmasının Azərbaycana qarşı deyil, NATO-ya qarşı edildiyini bildirirdi.

1999-cu ilin martında Azərbaycan Respublikasının müdafiə naziri ABŞ Aviasiya Kollecinin direktoru general-mayor L.Smitin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində ölkəmizlə Şimali Atlantika İttifaqı arasında əməkdaşlıq məsələləri müzakirə olundu. ABŞ-ın Avropadakı Silahlı Qüvvələri Qərargahlarının Planlaşdırma və siyasət departamentinin rəisi, hərbi-hava qüvvələri general-mayoru Çarlz Voksun martın sonlarında ölkəmizə səfəri də Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlığın imkanlarını öyrənmək məqsədi daşıyırdı. Prezident Heydər Əliyevlə görüşdə Ç.Voks öz səfərinin məqsədini bu şəkildə izah edirdi: "Biz buraya gəldik ki, Avropada yerləşən ABŞ qoşunları ilə Azərbaycan arasında daha dərin, daha geniş əlaqələr yaratmağın yollarını arayıb axtaraq. Biz yalnız Azərbaycanla deyil, eyni zamanda regionun digər xalqları ilə də əlaqələr yaratmaq istəyirik. Çünki bu xalqların sabitlik, sülh şəraitində yaşaması hamı üçün vacibdir". Azərbaycan Prezidenti generalın fikirlərini özünəməxsus incəliklə aşağıdakı sözləri ilə təsdiqlədi: "Mən də sizin fikrinizlə razıyam ki, bu, hər iki tərəf – həm Azərbaycan, həm ABŞ və NATO üçün, həm də Qafqazda olan başqa ölkələr üçün lazımdır. Ümumiyyətlə, bu məsələyə sizin geniş baxışınızı daha doğru hesab edirik".

1999-cu il aprelin 23-24-də Vaşinqtonda NATO-nun 50 illik yubileyinin də qeyd edildiyi dövlət və hökumət başçılarının sammiti Alyans tarixində dönüş nöqtəsi oldu. Bunu sammit zamanı qəbul edilmiş sənədlər əsasında söyləmək mümkündür. Əhəmiyyətli hadisələrdən biri NATO-nun yeni strateji konsepsiyasının qəbul edilməsi idi. Vaşinqton sammitində Azərbaycan üçün əhəmiyyətli olan bir məqama xüsusi diqqət yetirmək lazımdır. Hələ 1996-cı ilin mayından "Cinah sazişi"nin qəbul edilməsi ilə əlaqədar Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova arasında danışıqlar formatının əsası qoyulmuşdu. 1997-ci il oktyabrın 10-11-də bu ölkələrin dövlət başçılarının Strasburqda Avropa Şurası çərçivəsində keçirilən görüşü zamanı imzaladıqları əməkdaşlıq haqqında kommünikeyə uyğun olaraq, GUƏAM adlı konsultativ forum yaradıldı. 1997-ci il oktyabrın 24-25-də isə Bakıda dörd dövlətin Xarici işlər nazirliklərinin nümayəndələrinin daxil olduğu məsləhət qrupunun görüşü nəticəsində imzalanan protokolda bu təşkilatın yaradılması rəsmən elan olundu. Özbəkistan isə kommünikə və protokola bir qədər sonra, 1999-cu ilin aprelində və məhz Şimali Atlantika

İttifaqının Vaşinqton sammiti zamanı qoşuldu. NATO sammiti fonunda GUƏAM-ın genişləndirilməsi beynəlxalq ictimaiyyətinin diqqətini cəlb etmək və qurumun tədricən regional təşkilata çevrilməsini tezləşdirmək baxımından əhəmiyyətli idi.

1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında ölkəmiz bu təşkilatda müşahidəçi statusu aldı.

Azərbaycan-NATO əməkdaşlığında diqqəti cəlb edən daha bir məqam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taqımının Kosovada beynəlxalq sülhyaratma qüvvələrinin tərkibinə qoşulması idi. Hələ Kosovada NATO əməliyyatlarının başlanğıcında, MDB dövlət başçılarının görüşündə Prezident Heydər Əliyev Azərbaycan taqımının Kosovaya göndəriləcəyini bəyan etmişdi. Həmin ilin iyul ayında NATO-nun Baş katibi X. Solana Azərbaycanın Alyans yanındakı missiyasına məktub göndərmişdi. Məktubda bildirilirdi ki, Şimali Atlantika Şurası Kosovada keçirilən sülhyaratma əməliyyatlarında iştirak etmək üçün Azərbaycana rəsmi dəvət göndərməyi qərara almışdır. Məktubda, həmçinin sülhyaratma əməliyyatlarında Azərbaycanın iştirak etməsinin NATO üzvü olan ölkələr tərəfindən alqışlandığı bildirilirdi. İyulun 28-də Bakıda Türkiyə hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında "Kosova türk taboru tərkibində Azərbaycan taqımının fəaliyyətinə dair saziş" imzalandı. 1999-cu ilin sentyabr ayından etibarən ölkəmiz öz sülhməramlı tağımını ilk dəfə olaraq, Türkiyə taboru tərkibində Kosovada keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün həmin regiona ezam etdi. Azərbaycanın Kosovadakı sülh əməliyyatlarında iştirakı ölkəmizin silahlı qüvvələrinin NATO standartları əsasında formalaşmasının və oxşar hallarda lazımi təcrübənin toplamasının, NATO üzvü olan ölkələrin şəxsi heyətləri ilə birbaşa təmasda olmasının bariz nümunəsi idi. Azərbaycan hərbçilərinin bu istiqamətdə əldə etdiyi irəliləyişi 2000-ci ilin aprelində ölkəmizə səfər edən NATO Hərbi Komitəsinin sədri admiral Venturioni də qeyd etmişdir.

1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul sammitində Avropada Adi Silahlı Qüvvələr haqqında müqavilənin (AASQ) yeni şəraitə uyğunlaşdırılmış variantı qəbul edildi. 1997-ci ilin yanvar ayından başlayan unifikasiya prosesinin nəticəsində yaranmış yeni variant əvvəlkilərindən bəzi yeniliklərinə görə fərqlənirdi. Müqavilənin 1990-cı ilin noyabrında qəbul edilmiş ilkin variantı NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında beş kateqoriyadan (tank, zirehli döyüş maşını, artilleriya, döyüş təyyarələri və hücum vertolyotları) olan silahların Avropanın müxtəlif zonaları üzrə bərabər məhdudlaşdırılmasından ibarət idi. Müqavilənin yeni uyğunlaşdırılmış variantında blok və zonal məhdudlaşdırılma aradan qaldırılaraq, hər bir iştirakçı dövlət üçün silahların Milli Tavanının müəyyən edilməsi ilə əvəz

edilirdi. Bu, müqaviləyə əlavə edilmiş iki protokolla müəyyən edilirdi. Birinci protokolda müqaviləyə qoşulmuş hər bir dövlət üçün silahların Milli Tavanı, ikinci protokolda isə iştirakçı dövlətlərin əhatə etdiyi Ərazi tavanı göstərilirdi. Birinci protokol hər bir dövlətin malik ola biləcəyi silahları, ikinci protokol isə bir ölkənin ərazi daxilində xarici və yerli dövlətin birlikdə saxlaya biləcəyi maksimum silah tavanları göstərilirdi. Başqa sözlə, Ərazi Tavanı, əvvəlki müqavilədəki zonal məhdudiyyəti dövlətin əhatə etdiyi ərazi həcminə qədər kiçildilirdi. Bundan əlavə, müqavilə digər Avropa dövlətlərinin qoşulması üçün açıq elan edilirdi. Azərbaycan üçün bu müqavilə üç məqama görə maraqlı idi: 1992-ci il Daşkənd müqaviləsi ilə Azərbaycan üçün müəyyən edilmiş silah kvotasının artırılması, regionda nəzarətdən kənar silahlı birləşmələrin yaradılmasının qarşısını alan mexanizmlərin müqavilədə əks olunması və 1996-cı ilin mayında qəbul edilmiş "Cinah sazişi"nin aradan qaldırılması.

Birinci məsələ, yəni Azərbaycan üçün nəzərdə tutulmuş, onun ərazi və əhalisinin sayına müvafiq olmayan silah kvotasının artırılmasına edilmiş cəhdlər Ermənistan və Rusiyanın etirazları nəticəsində cavabsız qaldı. Beləliklə də, müqavilənin yeni variantında da Azərbaycan, Ermənistan və Gürcüstan üçün bərabər silah kvotaları müəyyən edildi ki, bu da regiondakı reallıqlarla uyğun deyildi. Nəzarətdən kənar ərazilərdə qeyri-qanuni silahlı qüvvələrin qeydiyyatının aparılması və ya onların ləğv edilməsi mexanizmlərinin müqavilədə əks olunması Azərbaycan və Gürcüstan üçün mühüm olan ikinci məsələ idi. Bu məsələyə Prezident Heydər Əliyev İstanbul sammiti ərəfəsində respublika ziyalıları ilə görüşündə xüsusi aydınlıq gətirdi. Prezident bildirdi ki, Qarabağda qeyri-qanuni silahların qeydiyyatdan keçməsinin iki variantı mövcuddur:

- birinci varianta əsasən, oradakı silahlar Ermənistanın kvotasına aid edilirdi. Bu da faktiki olaraq, Qarabağın Ermənistanın suverenliyi altında olan bir ərazi kimi tanınması idi. Ona görə də bu variant Azərbaycan üçün məqbul deyildi;

- ikinci variant həmin silahların Azərbaycanın kvotasına aid edilməsi idi. Lakin bu halda Azərbaycan üçün nəzərdə tutulmuş Ərazi Tavanında artıq yaranırdı ki, bunun da qarşısını almaq üçün Azərbaycan silahlı qüvvələrinin malik olduğu hərbi texnikanı azaltmaq lazım gələcəkdi.

Cinah məhdudiyyətlərinə gəldikdə isə, yeni müqavilədə zonal prinsipdən imtina edilsə də, cinah rejimi toxunulmaz olaraq qaldı. Cinah rejiminin aid edildiyi 12 dövlətdən 10-u (İslandiya, Norveç, Rusiya, Moldova, Ukrayna, Yunanıstan, Türkiyə, Bolqarıstan, Rumıniya, Azərbaycan, Gürcüstan, Ermənistan) Balkanlar və Qafqaz kimi hələ də aşağı intensivlikli toqquşmalara səhnə olan və lokal müharibə potensialını özündə

saxlayan həssas regionda yerləşdiyi üçün bu zonada qüvvələrin mövcud nisbi tarazlığının qorunub saxlanılması qərara alındı.

1999-cu ildən etibarən Azərbaycan ərazisində keçirilən tədbirlərdə də müəyyən artım müşahidə edilməyə başlandı. Bu tədbirlər Azərbaycan-NATO əməkdaşlığının inkişaf səviyyəsi haqqında fikir yürütməyə əsas verən faktlar sırasındadır. 1999-cu il mayın 20-də Bakıda NATO çərçivəsində fəaliyyət göstərən Atlantika Siyasəti üzrə Məsləhət Qrupunun sessiyası öz işinə başladı. Bu, qrupun keçmiş Sovet respublikalarından birinin ərazisində keçirildiyi ilk sessiyası idi. Sessiyanın işində NATO və AATŞ-ın 30-a yaxın dövlətinin nümayəndələri iştirak edirdi. İştirakçı dövlətlərin bir çoxu bu mötəbər tədbirin öz ölkələrində keçirilməsinə çalışırdı. Lakin hələ Brüsseldə sessiyanın 1998-ci ildə Bakıda keçirilməsi qərara alınmışdı. Sessiyada iki gün davam edən diskussiyalarda Avratlantika regionunda kollektiv təhlükəsizliyin yaradılması, əməkdaşlığın, tərəfdaşlığın dərinləşdirilməsi, böhranların nizamlanması yolları, NATO-ya gələcək üzvlük, Alyansın yeni strateji konsepsiyası və təşəbbüslərin reallaşdırılması yolları haqqında fikir mübadiləsi aparıldı. Sessiyanın işinə NATO Baş katibinin siyasi məsələlər üzrə köməkçisi səfir Klaus-Peter Klayber sədrlik edirdi. Sessiyadan sonra K.Klayberin Azərbaycan parlamenti, Xarici işlər və müdafiə nazirliklərində bir sıra görüşləri oldu, bu görüşlərdə Azərbaycan-NATO əməkdaşlığının dərinləşdirilməsi, GUÖAM-NATO əlaqələri, Qafqaz regionunda geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı. MÜdafiə Nazirliyində keçirilən görüşdə K.Klayber qeyd etdi ki, NATO boru kəmərlərinin mühafizəsinin təşkilinin maliyyələşdirilməsinə bu məsələdə marağı olan dövlətlərin cəlb edilməsində Azərbaycana yardım göstərə bilər. K.Klayber NATO-nun Müdafiə üzrə Roma Kolleci direktorunun Azərbaycan zabitlərini təhsil almağa dəvət məktubunu müdafiə nazirinə təqdim etdi. Görüşlərdən sonra K.Klayberin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Silahlı Qüvvələri ilə tanışlıq məqsədilə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində oldu. NATO-nun Romadakı Müdafiə Kollecinin rəhbəri Ceraldin Munaqa Kolleclə təhsil haqqında geniş məlumatla və AATŞ-ın əməkdaşı Pol de Vit "NATO XXI əsrdə özünü necə görür" mövzusunda mühazirələrlə dinləyicilər qarşısında çıxış etdilər. Sonra qonaqlar məktəbin tədris prosesi və maddi-texniki bazası ilə tanış olaraq burada gördüklərinə heyran qaldıqlarını gizlətmədilər. P.Vit qısa müddət ərzində NATO standartlarına uyğun təşkil edilmiş təlim-tədris prosesini təkmilləşməkdə olan Azərbaycan Silahlı Qüvvələrinin böyük uğuru adlandırdı.

2000-ci ilin aprelində NATO Hərbi Komitəsinin sədri G.Venturioni başda olmaqla Alyansın nümayəndə heyəti Azərbaycan səfər etdi. Səfərin gedişində G.Venturioni müdafiə naziri, Baş nazirlə görüşdü, hərbi hissələrə

və Hərbi Akademiyaya baş çəkdi. Prezident Heydər Əliyevlə görüşdə admiral bildirdi ki, Azərbaycanın NATO ilə münasibətdə atdığı addımlar daim diqqət mərkəzindədir və gələcək planlar qurularkən bu səylərdən istifadə ediləcəkdir. Admiral sıx əməkdaşlığa misal olaraq, Azərbaycan sülhyaratma qüvvələrinin Kosovadakı əməliyyatlarda iştirakını xüsusilə qeyd etdi. O, daha sonra bildirdi ki, bu səfər yalnız məlumat əldə edilməsi, tanışlıq deyil, həm də Azərbaycanda təcrübə keçmək idi və burada keçirilən görüşlərin gələcək işlər üçün böyük əhəmiyyəti olacaqdır. Prezident Heydər Əliyev isə öz növbəsində qeyd etdi ki, Azərbaycan öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir, indi növbədə Alyansın üzərinə düşən vəzifələri yerinə yetirməsindədir. G.Venturioninin səfəri NATO-nun hərbi fəaliyyətinə cavabdeh olan bir qurumun sədrinin Azərbaycana ilk gəlişi baxımından əhəmiyyətli idi və ikitərəfli hərbi münasibətlərin yeni mərhələyə keçirilməsi üçün təkan rolunu oynaya bilərdi.

2001-ci ilin yanvarında NATO-nun Baş katibi Corc Robertson ölkəmizdə səfərdə oldu. Səfər zamanı Baş katib Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-NATO əlaqələrinin gələcək perspektivləri və s. məsələlər müzakirə olundu. Bölgədəki təhlükəsizlik məsələlərinə toxunan Prezident Heydər Əliyev dedi: "Cənubi Qafqazdakı təhlükəsizlik bir çox məsələlərdən asılıdır. Ancaq birinci növbədə Cənubi Qafqaz ölkələrində münaqişələrə son qoymaq lazımdır. Bunların içərisində isə Ermənistan-Azərbaycan münaqişəsi xüsusi yer tutur. Ona görə də biz hesab edirik ki, bütün beynəlxalq təşkilatlar, o cümlədən NATO da bu işə çox diqqətli yanaşmalıdır. Belə vəziyyət daim davam edə bilməz və davam etməməlidir".

Şimali Atlantika İttifaqının rəhbəri cavab nitqində bəyan etdi ki, "regionda çox ciddi və mühüm problem var və bu, təkcə Cənubi Qafqaza deyil, həm də bütün bölgəyə təsir göstərir. Biz bu problemi hər vasitə ilə həll etməliyik. Əgər problem münaqişə iştirakçılarının özləri tərəfindən həll olunmamış qalsa, onda belə uzunmüddətli münaqişənin müşayiət etdiyi iqtisadi, sosial və hərbi problemlərdən heç cür yaxa qurtara bilməyəcəyik. Halbuki hər şey bu münaqişənin bilavasitə iştirakçılarından asılıdır və ümidvaram ki, Siz çox tezliklə razılığa nail ola biləcəksiniz".

2001-ci ildə NATO və Azərbaycan arasında münasibətlərin daha fəal olmasından xəbər verən bir sıra təhlükəsizlik seminarları və toplantıları keçirildi. Bu baxımdan 2001-ci ilin noyabrında Bakıda keçirilən "Əməkdaşlığa hazırlıq" komanda-qərargah təlimləri mühüm əhəmiyyət kəsb edirdi.

Həmin dövrdə Azərbaycan NATO-nun nüfuzlu qurumu sayılan Parlament Assambleyası ilə əməkdaşlığı inkişaf etdirmək niyyətini bəyan etdi. Bu münasibətlə 2002-ci il yanvarın 17-18-də NATO Parlament Assambleyasının

sədri Rafael Estrada ölkəmizdə səfərdə oldu və ölkə rəhbərliyi ilə Azərbaycanın Milli Məclisi və NATO-nun Parlament Assambleyası arasında münasibətlərin inkişaf etdirilməsi üzrə fikir mübadiləsi apardı. Bu çərçivədə əməkdaşlığımızın məntiqi yekunu olaraq, Azərbaycan 2002-ci il noyabrın 19-da NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edildi.

Azərbaycan Respublikasının NATO-nun Parlament Assambleyasının assosiativ üzv olması sayəsində ölkəmiz, hər şeydən əvvəl öz problemləri, ilk növbədə isə Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin iyirmi faizinin işğal edilməsi və bir milyondan çox qaçqın və köçkünün ağır şəraitdə yaşamaq məcburiyyətində olması haqqında dünya ictimaiyyətinə məlumat vermək üçün daha bir beynəlxalq tribuna əldə etdi. Təsadüfi deyildir ki, analitiklər bu tarixi hadisəni ölkəmizin həyatında Şimali Atlantika İttifaqı ilə əlaqələrinin genişlənib möhkəmlənməsi istiqamətində ciddim addım kimi qiymətləndirirlər.

2002-ci il mayın 7-8-də Bakıda NATO Müasir Cəmiyyətin Problemləri Komitəsi(MCPK) çərçivəsində "Xəzər dənizinin ekoloji problemləri" mövzusunda keçirilmiş seminarın işində iştirak etmək məqsədilə ölkəmizə səfər edən NATO Baş katibinin elm və ekologiya məsələləri üzrə müavini Furne Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul olundu və bu sahədə Azərbaycanla uğurlu əməkdaşlıqdan məmnun olduğunu söylədi.

2002-ci ilin noyabrında Prezident Heydər Əliyev NATO Avratlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə geniş nitqlə çıxış etdi. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə toxundu, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında və Cənubi Qafqaz regionunda hələ də öz həllini tapmamış münaqişələrin aradan qaldırılmasında NATO-nu daha fəal olmağa çağırdı. Azərbaycan Prezidenti NATO ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə "açıq qapı" siyasətinin həyata keçirilməsinin tərəfdarı olduğunu bəyan etdi. Bu siyasətin vacibliyi dövlət başçısının Praqadakı çıxışında öz əksini tapdı: "Azərbaycan NATO ilə tərəfdaşlığı gələcək Avratlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, alyans ilə inteqrasiya tərəfdaşlığına və intensiv ikitərəfli dialoqa soy göstərir. Bununla yanaşı, Alyans və tərəfdaşlıq üzvlərinin artmaqda olan qarşılıqlı asılılığını, tərəfdaşların mənafe və tələbatlarının daha çox nəzərə alınması zəruriliyini qeyd etmək istəyirəm.

Biz NATO tərəfindən Cənubi Qafqaza diqqətin artdığını görürük. Lakin hər cür regional təşəbbüslər və təkliflər ilk növbədə müharibələrin nəticələrinin aradan qaldırılmasına və dövlətlər arasında beynəlxalq miqyasda tanınmış sərhədlərin bərpa olunmasına yönəldilməlidir. Biz məmnunluq-

la qeyd edirik ki, NATO ilə Rusiya arasında yeni qarşılıqlı münasibətlər inkişaf etməkdədir, bu isə Avropanın müxtəlif regionlarında böhranların aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edə bilər".

2003-cü il aprelin 18-də keçid dövrü demokratiyaları layihəsinin rəhbəri, ABŞ-ın NATO Komitəsinin həmsədri B.Cekson ölkəmizə səfər etdi. NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsinin zəruriliyini bildirən B.Cekson Prezident Heydər Əliyevlə görüşündə daha bəyan etdi ki, Azərbaycanla Gürcüstanın NATO-ya və Aİ-yə inteqrasiyası məsələsi gündəlikdə dayanmalı və bu məsələnin üzərində iş getməlidir. Azərbaycan Prezidenti NATO ilə münasibətlərin inkişafından məmnun qaldığını bildirərək qeyd etdi ki, ölkəmiz Şimali Atlantika Alyansı ilə əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə lazımi səylər göstərəcək. Prezident Heydər Əliyev vurğuladı ki, "Azərbaycan hələ 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" müqaviləsini imzalayandan Avratlantika İttifaqına daxil olmaq məqsədi daşıyır. Biz bu işi daim, müntəzəm olaraq aparmışıq. Ancaq heç vaxt bu barədə, necə deyərlər, səs-küy salmamışıq, biz öz işimizi görürük. Bilirsiniz ki, bu illərdə Azərbaycan nümayəndələri NATO-nun müxtəlif qurumlarında, təşkilatlarında daim iştirak ediblər və öz töhfələrini veriblər. Praqadan sonra biz də lazımi tədbirlər görməyə başladıq. Məhz bizim bu məqsəd və məramımızın nəticəsidir ki, sentyabrın 11-də baş verən hadisələrdən dərhal sonra biz Amerika Birləşmiş Ştatlarının antiterror koalisiyasına qoşulduq. İraqda əməliyyatlar hazırlanan zaman dünya mürəkkəb bir dövr keçirirdi. Amerika Birləşmiş Ştatları əməliyyat aparılmasını və İraqda kütləvi qırğın silahlarının ləğv olunması üçün mütləq lazımi hərbi tədbirlər görülməsini irəliyə sürdü. Ancaq təəssüf ki, çox ölkələr, o cümlədən NATO-nun üzvləri bu təklifin əleyhinə çıxdılar və ABŞ-ın yaratdığı bu koalisiyaya qoşulmadılar. Bilirsiniz ki, biz bu koalisiyaya dərhal daxil olduq. Dediklərimin hamısı onu göstərir və yəqin siz özünüz də belə bir nəticə çıxara bilərsiniz ki, Azərbaycan ardıcıl surətdə Avratlantik İttifaqına daxil olmaq, hətta başqa üzvlər kənarda qalan vaxtda belə, Amerika ilə bir yerdə olmaq qərarını qəbul etmişdir...

Siz dediniz, NATO-ya daxil olan bir neçə yeni ölkələr bildirirlər ki, Gürcüstan da, Azərbaycan da NATO-ya daxil olmalıdır. Mən çox məmnunam, demək, onlar bizim istəklərimizi, arzularımızı yaxşı bilirlər".

NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsinin zəruriliyini bildirən B.Cekson Prezident Heydər Əliyevlə görüşündə bir daha bəyan etdi ki, Azərbaycanla Gürcüstanın NATO-ya və Avropa İttifaqına inteqrasiyası məsələsi gündəlikdə dayanmalı və bu məsələnin üzərində iş getməlidir: "...indidən fikir formalaşdırmalıyıq ki, Qara dəniz hövzəsi və Cənubi Qafqaz haqqında dərindən düşünülsün. Bunu lazımi səviyyədə çatdıra bilsək, onda

2006-2007-ci illərdə üzvlüyə qəbul məsələləri müzakirə olunan zaman bu məsələyə ciddi baxıla bilər".

Bütün çətinliklərə baxmayaraq, NATO Azərbaycanla əməkdaşlığa həmişə xüsusi diqqət yetirmişdir. Ötən on il ərzində demokratik və iqtisadi islahatların aparılması və mühüm layihələrin həyata keçirilməsi Şimali Atlantika Alyansı ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmişdir. Bu amil Azərbaycan-NATO münasibətlərinin daha da intensivləşdirilməsi üçün əsas rolunu oynamışdır.

2003-cü il mayın əvvəllərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 16-cı bəndinə uyğun olaraq, Azərbaycan Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi üçün Milli Məclisə təkliflə müraciət etdi. Milli Məclis 2003-cü il mayın 7-də keçirilmiş iclasında "Azərbaycan Respublikası Silahlı Qüvvələri bölüyünün beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi haqqında" qərar qəbul etdi.

2003-cü il mayın 15-də NATO-nun Baş katibi C.Robertson Azərbaycanda səfərdə oldu. Ölkəmizə səfəri çərçivəsində C.Robertson Baş nazir, Milli Məclis sədri, müdafiə və xarici işlər nazirləri ilə görüşlər keçirdi, Milli Elmlər Akademiyasında Virtual İpək yolu layihəsinin rəsmi açılışında, NATO ilə əməkdaşlıq üzrə komissiyanın iclasında iştirak etdi, habelə Şimali Atlantika İttifaqının qarşısında duran yeni vəzifələr və ölkəmizlə əməkdaşlığın perspektivləri barədə deputatlar qarşısında nitq söylədi. Azərbaycan-NATO komissiyasının iclasında komissiyanın sədri NATO Baş Katibinə Azərbaycanın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planına qoşulmaq niyyətini əks etdirən məktubu rəsmi olaraq təqdim etdi. Səfər zamanı NATO Baş katibi Milli Məclisdə Şimali Atlantika İttifaqının qarşısında duran yeni vəzifələr və Azərbaycanla əməkdaşlığın perspektivləri haqqında çıxış etdi: "Növbəti ildə yeddi ölkənin Şimali Atlantika Blokuna daxil olması, Avropanın Atlantikadan Qara dənizə, Qara dənizdən Balkanlara doğru ümumi təhlükəsizlik məkanında birləşməsi irəliyə doğru atdan nəhəng addım olacaqdır. Və bu, heç də prosesin sonu deyil. NATO-nun qapısı gələcəkdə də yeni üzvlərin üzünə açıq olacaq". C.Robertsonun bildirdiyinə görə, NATO-nun yeni tərəfdaşlığına "fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" daxildir ki, buraya Azərbaycan da qoşulacaq: "Bu plan Azərbaycanın hansı islahatları aparmaq istədiyini müəyyən edəcək, o cümlədən Azərbaycanın Şimali Atlantika Alyansına daha da yaxınlaşması üçün zəruri olan islahatların həyata keçirilməsini şərtləndirəcək. Bu yeni, daha dərin əməkdaşlığın çox böyük potensialı var".

NATO Baş katibinin sözlərinə görə, regional əməkdaşlıq prosesi real və ikitərəfli təhlükəsizlik məsələləri ilə yanaşı, getməlidir: "Cənubi Qafqazda közərən münaqişələrin həlli yolları xaricdə yox, bu regionun özündədir. NATO bu regionda sülh prosesinin sürətləndirilməsində başlıca rol oynaya bilməz və bunu iddia etməyəcək. Bu məsələnin məsuliyyəti məhz region dövlətlərinin öz üzərinə düşəcək. Biz eyni zamanda bilirik ki, regiondan kənar vacib qüvvələrin iştirakı olmadan münaqişənin müfəssəl surətdə həlli mümkün olmayacaq. Bu, xüsusilə Rusiyaya aiddir. Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasında Azərbaycanın Rusiya ilə əməkdaşlığı böyük əhəmiyyət daşıyır. Biz çox şadıq ki, ötən aylar ərzində bu əməkdaşlıqda bir sıra irəliləyişlər baş verib. Biz ümid edir və gözləyirik ki, NATO-nun Rusiya ilə münasibətləri bu məsələyə kömək edə bilər".

NATO Baş katibinin Azərbaycana səfəri siyasi müşahidəçilər tərəfindən Cənubi Qafqazda gedən proseslər kontekstindən şərh olunur və analitiklər bunu 11 sentyabr hadisələrindən sonra təhlükəsizlik landşaftında Azərbaycanın və ümumən Cənubi Qafqaz regionunun rolunun əhəmiyyətli dərəcədə artması ilə izah edirlər. C.Robertson Azərbaycanın Ümumqafqaz təhlükəsizlik sistemindəki yerini belə görürdü: "Qafqaz Avrasiyanın sabitliyi üçün böyük əhəmiyyətə malik olan region kimi qalmaqdadır. Azərbaycan isə burada Qərb və NATO ilə ən əsas tərəfdaş rolunu saxlayır".

Göründüyü kimi, Avratlantik strukturlarla əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət Heydər Əliyevin xarici siyasət kursunun prioritet istiqamətlərindən birini təşkil edir. Hazırda Azərbaycan yeni siyasi şəraitdə və yeni siyasi şərtlər daxilində Heydər Əliyev siyasi kursunun «layiqli davamçısı, ümummilli liderimizin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçi Prezident İlham Əliyevin rəhbərliyi altında Avropa və Avratlantika strukturları ilə fəal əməkdaşlıq edir. Qloballaşma prosesləri ilə əlaqədar iqtisadi müstəvidə Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və Ümumavropa proseslərində, xüsusən XXI əsrdə Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin cari ilin may və sentyabr aylarında Brüsselə səfəri Avropa İttifaqı ilə əlaqələrin inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prezidentinin Avropa

Komissiyasında keçirilmiş görüşləri zamanı bu əməkdaşlığın genişləndirilməsinə dair əldə olunmuş prinsipial razılığın həyata keçirilməsi üçün birgə tədbirlərin görüləcəyi bildirilmişdir. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının "Yeni qonşusu" statusu verilmiş, "enerji dialoqu"nun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir. Bununla yanaşı, Prezident İlham Əliyevin Brüssel səfəri Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açmışdır. Səfər zamanı dövlətimizin başçı "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı NATO-nun Baş katibinə təqdim etmişdir. Ölkəmizin Avropa İttifaqı ilə "Genişlənmiş Avropa və qonşuları" siyasəti, Şimali Atlantika Alyansı ilə "Fərdi əməkdaşlıq üzrə əməliyyat planı" çərçivəsində genişmiqyaslı əməkdaşlıq etməsi barədə ciddi razılaşmalar əldə olunmuşdur.

"Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi"
Bakı, 2005-ci il, səh.582-603

Heydər Əliyevin xarici siyasət kursunda Avropa ilə qonşuluq

Qərb ölkələri ilə münasibətlərin inkişafı və Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkana inteqrasiyası Heydər Əliyevin xarici siyasətinin xüsusi əhəmiyyətə malik istiqamətlərdən birini təşkil etmişdir. Müstəqil Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları baxımından səmərəli, realist və praqmatik siyasət kursunu uğurla həyata keçirən ümummilli liderimiz Qərb dövlətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında münasibətlərin qurulmasına, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulmasına, Avratlantik strukturlara inteqrasiyasına çalışırdı. Bu məqsədlərlə ötən illərdə dövlətimizin başçısı ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Türkiyə və s. kimi dövlətlərə dəfələrlə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Bu səfərlər zamanı ölkəmizin başçısının keçirdiyi yüksək səviyyəli görüşlər tarixi əhəmiyyət kəsb etmişdir.

Qərb dövlətləri ilə tarazlaşdırılmış yeni münasibətlərin möhkəm təməlinin qoyulması bu istiqamətdə uzun bir dövr üçün gediləcək yolun və xarici siyasət xətti ilə görüləcək işlərin başlıca məqsəd və vəzifələrini müəyyənləşdirmişdir. Nəticədə Qərbin Azərbaycana marağı artmış və xeyirxah, obyektiv münasibətlərin ilk təməli qoyulmuşdur ki, bu da ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına həlledici təsir göstərmişdir.

Prezident Heydər Əliyev Avropanın mötəbər beynəlxalq təşkilatları ilə səmərəli və işgüzar əlaqələrin qurulmasına mühüm diqqət yetirirdi. Azərbaycan liderinin NATO, ATƏT, Avropa İttifaqı kimi beynəlxalq qurumların işində fəal iştirakı da, heç şübhəsiz Azərbaycanın xarici siyasətinin uğurları və ölkəmizin nüfuzunun göstəricisi sayıla bilər.

Heydər Əliyevin Qərbə inteqrasiya istiqamətində uğurlu fəaliyyətinin ən mühüm məqamlarından biri hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm elementi olan NATO ilə əməkdaşlığın yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Bununla Azərbaycan NATO-nun təhlükəsizlik sisteminə daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sistemi və beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazanmışdır. Bu da, öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, mütərəqqi ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr

hazırlığı və s. sahələrdə birgə hərəkət etmək imkanı yaratmışdır.

Sonralar Heydər Əliyev NATO-nun sammitlərində iştirak etmiş və Şimali Atlantika Alyansının Azərbaycanla tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir. Bu prioritetlər əsasında Azərbaycanın Avratlantik strukturlara inteqrasiyası prosesi bu gün də uğurla davam etməkdədir. Təsadüfi deyil ki, Azərbaycan "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nı NATO rəhbərliyinə təqdim edən iki ölkədən biridir.

Ümummilli liderimizin siyasi uzaqgörənliyi sayəsində Azərbaycan Avropa təhlükəsizlik sisteminin yaradılması prosesinə yaxından cəlb edilmiş, dünyanın müxtəlif nöqtələrində olan münaqişələrin aradan qaldırılması istiqamətində sülhməramlı proqramlara qoşulmuşdur. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti terrorizmin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir. Bu əməkdaşlıq sonralar da uğurla davam etdirilmiş, Hava məkanına hücumlara və digər terror aktlarına qarşı Konvensiyanın Azərbaycan tərəfindən ratifikasiya olunması və ölkəmizin ümumilikdə terrorizmlə mübarizəyə dair on iki beynəlxalq konvensiyanı və protokolu ratifikasiya etməsi ABŞ Dövlət Departamenti tərəfindən də yüksək qiymətləndirilmişdir. Dövlət Departamentinin beynəlxalq terrorizmə qarşı mübarizəyə dair hesabatında Azərbaycan hökumətinin terrorçu təşkilatların Qafqaz ərazisindən istifadə etməklə terrorçuların, "çirkli" pulların və digər materialların keçirilməsinin qarşısının alınması sahəsində böyük uğurlar qazandığı vurğulanmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan hökuməti, habelə terrorçu təşkilatların maliyyə mənbələrinin ləğv edilməsi ilə əlaqədar yerli banklara bu təşkilatların müvafiq siyahılarını təqdim etmişdir. Azərbaycan Milli Bankının ekspert qrupunun "çirkli pulların yuyulması"na qarşı hazırladığı qanun layihəsi və bununla əlaqədar yaradılacaq maliyyə kəşfiyyatı strukturu da terrorizmə qarşı mübarizə sahəsində ölkəmizin atdığı mühüm addım kimi vurğulanmışdır.

Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın ardıcıl, qətiyyətli mövqeyi və antiterror koalisiyasının etibarlı üzvü kimi tanınması Azərbaycan-Avropa münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Bu amil və ümumiyyətlə, demokratik və iqtisadi islahatların aparılması, mühüm iqtisadi layihələrin həyata keçirilməsi Qərb ölkələri ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmiş və Azərbaycanın Avratlantik strukturlara inteqrasiyasına yeni yollar açmışdır. Nəticədə Qərbin hərbi siyasətində bölgəmizə maraq xeyli artmışdır. Belə ki, Xəzər dənizi hövzəsi 2002-ci ilin oktyabrından etibarən Birgə Döyüş Komandanlıq Planına əsasən, Amerika Birləşmiş Ştatlarının Avropadakı Silahlı Qüvvələri Komandanlığının əhatə dairəsinə aid edilmişdir. Amerika hökuməti ilk dəfə olaraq, Azərbaycan və Ermənistanla hərbi əməkdaşlıq siyasətində tarazlığın sax-

lanılmasından imtina edərək, ölkəmizlə hərbi-siyasi, təhlükəsizlik, hüquq-mühafizə sahələrində əməkdaşlığı sürətlə genişləndirmişdir. Hərbi nazirliklərimiz arasında imzalanmış birgə bəyanatda sülhməramlı bölmələr də daxil olmaqla, hər iki tərəfin hərbi qüvvələri arasında əlaqələndirmənin, hərbi dəniz qüvvələrimizin imkanlarının genişləndirilməsi, Azərbaycanın təyyarə meydanlarının və hava məkanının idarə olunmasına nəzarət sistemlərinin NATO standartlarına uyğunlaşdırılması barədə razılıq əldə edilmişdir. Respublikamız 2002-ci il ərzində ABŞ-ın təklifi ilə təhlükəsizlik və müdafiə sahələrini əhatə edən 11 proqrama qoşulmuşdur. Ümumi təhlükəsizlik və müdafiə proqramı çərçivəsində ABŞ tərəfindən Azərbaycana ayrılmış maliyyə vəsaiti xeyli artmışdır.

ATƏT-Azərbaycan əməkdaşlığının tarixinin ən parlaq səhifələri Heydər Əliyevin adı ilə bağlıdır. ATƏT-in Budarеşt, Lissabon və İstanbul sammitlərində Heydər Əliyevin kəsərli bəyanatları geniş əks-səda doğurmuş, ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında ədalətli həlli ilə bağlı mövqeyi beynəlxalq ictimaiyyətə çatdırılmışdır. ATƏT-in Lissabon zirvə toplantısında Heydər Əliyevin xarici siyasət kursunun düzgün əsaslara söykəndiyini təsdiqləyən sənəd qəbul olunmuşdur. Lissabon sammitinin qərarları münaqişənin həlli prosesində Azərbaycanın mövqelərinin möhkəmlənməsi baxımından ən zəruri sənədlərdən biri sayılmalıdır. Hakimiyyətə qayıdışından sonra ölkədə sabitliyi bərpa edən, dövlət quruculuğu və milli ordunun formalaşması istiqamətində mühüm addımlar atan Heydər Əliyev beynəlxalq aləmdə Azərbaycana yönələn ictimai rəyin dəyişməsinə nail ola bilmişdir. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəkləmişdir. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, Azərbaycanın cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi. Sammitdə qəbul olunan sənədin tarixi əhəmiyyəti beynəlxalq birliyin münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həllinə tərəfdar çıxması ilə ölçülür.

Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Məlumdur ki, BMT Baş Məclisinin 59-cu sessiyası özünün 60-cı iclasında Azərbaycanın təşəbbüsü ilə gündəliyin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı maddəsi üzrə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirəyə çıxarmış, Avropa Şurasının Parlament Assambleyası isə Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında tarixi qərar qəbul etmiş, torpaqlarımızın Ermənistan tərəfindən işğal olun-

ması və Dağlıq Qarabağda etnik təmizləmə siyasətinin həyata keçirilməsi faktını rəsmən tanımışdır.

Ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Bu nüfuzlu avropa qurumu ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan qanunun aliliyinə əsaslanan demokratik cəmiyyət quruculuğunu indi də uğurla davam etdirir.

Heydər Əliyevin Qərbə inteqrasiya siyasətinin digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumAvropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, çoxlu sayda layihələrin həyata keçirilməsinə yönəldilmişdir.

Bu baxımdan Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən TRASEKA - "Böyük İpək yolu" proqramı xüsusi əhəmiyyət kəsb etmişdir. Böyük İpək Yolunun qədim tarixi ənənələrinin bərpasına yönəlmiş bu proqram, bütün üzv dövlətlərin iqtisadi inkişafına xidmət etməklə, onların regional və regionlararası səviyyədə sıx inteqrasiyası üçün zəmin yaratmışdır. Bu layihənin gerçəkləşdirilməsinin gedişində yeni iş yerlərinin, istehsal komplekslərinin yaradılması, xidmət sahələrinin təkmilləşdirilməsi, tikinti işlərinin və şəhərsalmanın intensivləşdirilməsi və modernləşdirilməsi inteqrasiya layihələrinin iqtisadi səmərəliliyinin ən yaxşı göstəricisinə çevrilmişdir.

TRASEKA üzrə ən mühüm tədbir - beynəlxalq konfrans Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində keçirilmişdir. 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı etdiyi "TRASEKA - Tarixi İpək Yolunun Bərpası" Beynəlxalq Konfransında Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə Əsas Çoxtərəfli Saziş, Avrasiya ölkələri arasında hərtərəfli əməkdaşlıq və regional inteqrasiyanın əsas prinsiplərini əks etdirən Bakı Bəyannaməsi imzalanmış, proqramın İcraçı Katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul edilmiş və beynəlxalq

tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulmuşdur.

Bu önəmli toplantıdan sonrakı müddət ərzində əsas məqsədlərə nail olunmuş, ötən zaman kəsiyində nəqliyyat sektoru infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi, sərhəd-gömrük prosedurlarının sadələşdirilməsi, əlverişli investisiya mühitinin yaradılması, tarif siyasətinin uzlaşdırılması, kadrların hazırlanması sahəsində bir sıra perspektiv layihələr uğurla tətbiq edilmişdir. Bu uzunmüddətli əməkdaşlıq nəticəsində Şərq-Qərb istiqamətində daşınan yüklərin həcmləri kəskin şəkildə artmışdır.

TRASEKA proqramının həyata keçirilməsi prosesinə mühüm təkan verən amil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tarixi İpək Yolunun Bərpası üzrə Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında 1998-ci il 26 oktyabr tarixli xüsusi fərmanı olmuşdur. Bu tarixi fərmanda göstərilir ki, Tarixi İpək Yolunun bərpası üzrə keçirilmiş Beynəlxalq Konfrans və burada imzalanmış sənədlər böyük siyasi və iqtisadi əhəmiyyət kəsb edərək Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən ölkələrin inkişafı, onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradır. Fərmanda belə bir tarixi fikir irəli sürülür ki, Tarixi İpək Yolunun bərpası üzrə görülmüş tədbirlər ölkəmizin daha da güclənməsinə xidmət edir.

Avropa İttifaqı Azərbaycanla əlaqələrini təkcə TRASEKA layihəsi və Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində deyil, həm də Cənubi Qafqazda həyata keçirilən ümumi regional əməkdaşlıq layihəsi, Avrasiya bölgəsində sülhün, sabitliyin və iqtisadi tərəqqinin təmin olunmasına yönəlmiş digər proqramlar çərçivəsində reallaşdırır.

Avropa İttifaqı ilə əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycanın beynəlxalq mənafelərinin qorunması sahəsində Heydər Əliyevin xarici siyasət strategiyasının əsas prinsipləri bu gün də dönmədən həyata keçirilir. Belə ki, hazırda ölkəmizin Avropaya inteqrasiyası keyfiyyətcə yeni mərhələyə daxil olmuş, Avropa İttifaqı Azərbaycanı "Üeni qonşuluq siyasəti"nə daxil etmiş, "enerji dialoqu"nun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir.

Prezident İlham Əliyevin 2004-cü il mayın 17-19-da Avropanın *mühüm siyasi və iqtisadi mərkəzlərindən biri olan Belçika Krallığına* işgüzar səfəri Avropa İttifaqı ilə əlaqələrin daha da dərinləşməsi, ölkəmizin iqtisadi cəhətdən inkişaf etmiş Avropa məkanına inteqrasiyasının sürətlənməsi, regional əhəmiyyətli müştərək layihələrin həyata keçirilməsi baxımından müstəsna əhəmiyyət kəsb etmişdir. Səfər zamanı bu nüfuzlu beynəlxalq təşkilatla müxtəlif sahələrdə əməkdaşlığın geniş müzakirəsi keçirilmiş,

Avropa İttifaqına yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol" imzalanmış, qarşılıqlı mənafelərin ortaq nöqtəsi müəyyən edilmişdir.

Son illər Avropa İttifaqı öz sərhədlərini daha 10 üzv və üç üzvlüyə namizəd ölkə ilə xeyli genişləndirərək inkişaf etmişdir. Sərhədləri genişlənən İttifaq Avropada yeni qonşular qazanmış və bu da onu 2003-cü ildə "Daha geniş qonşuluq: Şərq və Qərb qonşularla yeni çərçivə təşəbbüsü" adlı proqram qəbul etməyə sövq etmişdir.

Azərbaycan Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasəti" çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanmış, bu məqsədlə İttifaqın texniki-maliyyə dəstəyini almışdır. Bundan başqa, Azərbaycan yeni proqram çərçivəsində Avropa İttifaqından onun daxili bazarlarına çıxış kvotası, işçi, əmtəə, xidmət, investisiya-kapital resurslarının sərbəst dövriyyə imkanını əldə etmişdir.

İttifaqla yeni təşəbbüs çərçivəsində həyata keçiriləcək səmərəli əməkdaşlıq həm də Azərbaycana Avropa ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrin qurulması, güzəştli ticarət və kredit rejiminin yaradılması, əmək, bazar münasibətləri və miqrasiya, narkobiznes və mütəşəkkil cinayətkarlıqla mübarizə, investisiyaları təşviqi, yeni maliyyə mənbələrinin cəlb edilməsi, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına qəbulunun tezləşdirilməsi və s. kimi imkanlar açır.

1993-2004-cü illər ərzində Avropa İttifaqı Avrasiyada, xüsusən Cənubi Qafqaz regionunda mövcud olan ölkələr arasında əməkdaşlığa yardım çərçivəsində Azərbaycana, ayırdığı maddi-texniki yardımdan başqa həm də fövqəladə və humanitar yardım, bərpa, texniki layihə, struktur islahatlar və s. proqramlar xətti ilə yüz milyondan çox avro dəyərində işlər görmüşdür. İttifaqın İNOGATE, ECHO və başqa proqramları ölkəmizdə ciddi layihələri maliyyələşdirir.

Azərbaycan Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə bərabər, Cənubi Qafqazdakı çəkisi, ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müvafiq mövqe tutmağa çalışır. Odur ki, Azərbaycan Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin yeni formalarını axtarır, onunla yaxınlaşmaq üçün *zəruri olan bütün lazımi təsisatları yaradır*, İttifaqın ümum Avropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olmaq istəyini nümayiş etdirir.

2004-cü ilin may ayında Avropa İttifaqı "Yeni qonşuluq siyasəti"nin reallaşmasına 255 milyon avro vəsait ayıraraq, bir neçə ölkə, o cümlədən Cənubi Qafqaz dövlətləri ilə məqsədyönlü iş aparır. Proqrama qoşulan ölkə-

lər İttifaq institutlarına insan hüquqlarına hörmətlə yanaşmaq, qanunların aliliyini təmin etmək, effektiv və şəffaf idarəçilik yaratmaq, bazar iqtisadiyyatı tələblərinə hörmət bəsləmək və xarici siyasət sahəsində beynəlxalq hüquq normalarına əməl etmək əzmində olduqlarını nümayiş etdirməlidirlər.

Azərbaycan Respublikası bu sahədə qarşıda duran vəzifələrin həlli istiqamətində ardıcıl addımların atılması ilə bağlı öz mövqeyini aydın ifadə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 iyun 2005-ci il tarixli "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamı da Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da gücləndirilməsi, Avropa İttifaqının Azərbaycan üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi üzrə səmərəli və əlaqələndirilmiş işin təmin edilməsi məqsədini qarşıya qoyur. Sərəncamda Avropa İttifaqı ilə siyasi, iqtisadi, nəqliyyat və enerji, hüquqi, təhlükəsizlik, insan hüquqları və demokratikləşmə, humanitar, elm-təhsil və digər əməkdaşlıq sahələri üzrə işçi qrupların yaradılması nəzərdə tutulur.

Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin perspektivləri bir neçə daxili və xarici faktorla şərtlənir. Daxili faktor Avropa İttifaqının standartlarına çatmaq üçün Azərbaycanın siyasi, iqtisadi, sosial, mənəvi həyatında islahatların davam etdirilməsi, inkişaf etmiş Qərb ölkələrinin qoşulduğu qloballaşmanın tələblərinə əməl olunması, açıq qarı siyasəti yürüdülməsi, daxili bazarın, istehsal və xidmətin tam liberallaşdırılması, ölkənin demokratik transformasiyasının başa çatdırılmasından və sairdən ibarətdir.

Xarici faktorlar sırasına Cənubi Qafqazda mövcud olan münaqişələrin aradan qaldırılması, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, bölgə ölkələri arasında vahid əməkdaşlıq və təhlükəsizlik sisteminə inteqrasiya mühitinin yaradılması, hər üç ölkədə vahid normaya salınmış qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin formalaşdırılması, beynəlxalq inteqrasiyanın gücləndirilməsi məqsədilə vahid hərbi komandanlıq, vahid pul sisteminin tətbiqi, açıq sərhəd, mal, işçi və digər əmək resurslarının sərbəst hərəkətinə imkan verən gömrük birliyi yaradılması üçün bir sıra suveren hüquqlardan imtina edilməsi və s. şərtlər daxildir.

Ümummilli liderimizin həyata keçirdiyi xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri Azərbaycanın Avropa iqtisadi məkanına inteqrasiyasının sürətləndirilməsindən, Qərb ölkələri və maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarət olmuşdur. Bununla əlaqədar olaraq Prezident Heydər Əliyevin Avropa ölkələrinə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, maliyyə institutları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır.

Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin Qərb dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Qərb ölkələrinin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri ilə Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla böyük dövlətlərin mənafelərinin kəsişdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvətli bir bölgədə aparıcı dövlətlərin iqtisadi maraqlarının təmsil olunmasına şərait yaratmaq, Azərbaycana qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb dövlətləri amilindən istifadə etməyə imkan vermişdir. Nüfuzlu dövlətlərin regionda siyasi təsir vasitələrinin güllənməsi Azərbaycan dövlətinin də manevretmə dairəsini genişləndirir.

Neft strategiyasının uğurla həyata keçirilməsi Qərbdə Azərbaycan haqqında ictimai rəyin formalaşmasına xidmət edən bir vasitə kimi Respublikamızın həyatından bəhs edən gerçək məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar açmışdır. Neft müqavilələrinin mahiyyəti və həyata keçirilməsi ilə bağlı müxtəlif məsələlərin müntəzəm olaraq dünya dövlətlərinin rəsmi dairələrində, kütləvi informasiya vasitələrində müzakirə edilməsi Azərbaycan haqqında ictimai-siyasi və iqtisadi xarakterli məlumatların beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmasında mühüm rol oynamışdır. Neft şirkətlərinin, onların təmsil etdikləri dövlətlərin Azərbaycan ilə səmərəli qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişlənməsində maraqlı olmaları Azərbaycan haqqında obyektiv olaraq müsbət ictimai fikrin formalaşmasına diqqət yetirmələrini şərtləndirir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Transqafqaz yolunun fəaliyyətə başlaması Azərbaycanın Qərbə inteqrasiyasına əlverişli şərait yaratmışdır.

Göründüyü kimi, Heydər Əliyevin müəllifi olduğu Avropa ilə inteqrasiya strategiyası ümummilli liderimizin xarici siyasət kursunun ayrılmaz tərkib hissəsi olaraq Azərbaycan dövlətinin qüdrətlənməsinə, onun xalqının rifahının yüksəldilməsinə, bütövlükdə ölkəmizin daha etibarlı təhlükəsizlik sisteminin qurulmasına xidmət etmişdir. Əminliklə demək olar ki, bu kursun dönmədən və ardıcıl şəkildə həyata keçirilməsi Heydər Əliyev dühasının ən başlıca qayəsi olan müstəqil və qüdrətli Azərbaycanın çiçəklənməsinə bundan sonra da öz töhfələrini verəcəkdir.

"Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası"
Bakı, 2006-cı il, səh. 142-152

Relationship between Azerbaijan and NATO: establishment, development and prospects

I cordially welcome you and congratulate you on the occasion of today's event. I hope that our meeting will make a good contribution to the development of cooperation between the Republic of Azerbaijan and NATO.

The development of civilization in the XX-th century has led the mankind to a totally new epoch. For this period cardinal changes have taken place in the world, socialism has collapsed, the end has been put to "the cold war", new independent states have emerged and ideas of freedom and democracy have turned into prevailing principles over the entire European continent and very far beyond. NATO's activities in ensuring international security, supporting sovereignty, territorial integrity and inviolability of borders of the states, conflict settlement and a successful struggle against terrorism have significantly impacted on the course and nature of these changes. After disintegration of the Communist system and the Soviet Union. NATO turned into the structure having an opportunity to exert influence on military and political processes in the world and to bear responsibility for a new world order. This responsibility generally provides for allied obligations in Europe. As NATO member-states are at the same time members of the OSCE. it is quite natural that the enlargement of this system towards the East and simultaneously the achievement in Eurasia of such important geopolitical base as Europe have become priority tasks. In relation to European security, the overall aim of NATO policy is to construct a peaceful and integrated Europe within the framework of a new Atlantic Alliance, which is able to resolve security problems successfully. In this process, NATO also makes use of the activities of the universal and regional international entities like the UN. the OSCE and the EU. The concept of NATO Neo-Atlantic Alliance is based on a broad concept of security covering traditional military issues and beyond. The North Atlantic Alliance that aimed to create and strengthen common values and norms of imperative behavior between all European countries attaches particular importance to the establishment of democracy in the Central and Eastern European countries. post-Soviet area and to the extension of the NATO cooperation in eliminating tension in the Balkans and the Eastern Mediterranean.

The enlargement of NATO towards the East should be considered from this aspect as well. "Partnership for Peace" Program, signing the special treaty with Russia and admission of new members to the alliance is also a component of this strategy.

In general. NATO enlargement is quite a natural and objective process. It is not only a question of the European security, but is a universal matter, it is not directed against anybody and combines principles and norms peculiar to democratic regimes. No state is forced to be a NATO member or partner: on the contrary, states apply to this organization for the protection of their security through the opportunities of the North Atlantic Bloc from the standpoint of geopolitical interests.

At present, this structure faces the need to perform a different mission both in the updated strategy of the USA and on a varying political background of the world. At the same time, as NATO pledges to perform such new obligations as maintenance of peace and settlement of conflicts; the questions included in the agenda of the organization gradually become more and more complicated. And it is also clear that under new conditions, bipolar world or the parity offerees among great powers is out of the question. So. the only force that is able to fulfill the function of maintenance of world order is NATO.

Time has proved that the NATO is the organization, which is carrying out important and fruitful activities. We highly appreciate the path covered by the Alliance, its contribution to All-European and world processes.

The Azerbaijani people, which has restored its independence, and despite objective difficulties of the transition period and the consequences of war in which we are forcibly involved, follows the way of building a democratic law-governed state, formation of a free market economy and integration into the Euro-Atlantic structures, constantly feels the effective assistance of NATO.

Though the first products of cooperation between Azerbaijan and NATO fell to 1992-1993. until) 1994 these relations had incidental character. However, the aggression of Armenia against our republic with a view of seizing Nagorno Karabakh, which is Azerbaijani land and the resulting occupation of twenty percent of our territory by the armed forces of the Republic of Armenia, the presence of more than 1 million refugees require closer cooperation with influential international organizations, in particular, with NATO.

Just under such conditions President Heydar Aliyev made a decision on principles of cooperation with NATO. Taking note of the leading role that NATO plays in present-day international relations and new tendencies in the world policy, and also being guided by its capacity and interest, on May 4, 1994 Azerbaijani state signed the Framework Document of the "Partnership for Peace" Program.

The head of the Azerbaijani state expressed his position on relations

with NATO as follows: "The Republic of Azerbaijan has deep respect for the North Atlantic Alliance and highly appreciates its activities that have ensured over the recent decade peace, stability and sustainable development in Europe. At present. NATO as an acting structure of collective security in the world that ensures protection of democratic values and their extension to the Eastern Europe as well as the newly independent states emerged on the territory of the former USSR. We view NATO as an organization, which can assist a young Azerbaijani state to establish close multilateral relations with the western world and access its experience." At the meeting between the President of Azerbaijan Heydar Aliyev and Deputy Secretary-General of NATO Mr.Sergio Balanzino, the parties came to a common view that the "Partnership for Peace" Program can play a major role in stopping armed conflicts and restoring peace. Certainly, signing of this program by Azerbaijan was the first step towards cooperation with NATO. If we take into consideration the opportunities that the program will open in cooperation with the North Atlantic Bloc in the future and wide-scale parameters of these relations, we can realize the importance of the taken step.

At the press-conference held after the signing of the documents at the NATO headquarters, President Heydar Aliyev declared: "Signing of the document of "Partnership for Peace" Program is of great importance for Azerbaijan. Participation of the Republic of Azerbaijan in this program as a young independent state creates favorable conditions for the implementation of its objectives. Taking into account military conflicts taking place in the region, Azerbaijan pins big hopes on this program. Independent Azerbaijan's joining "Partnership for Peace" Program will promote expansion of relations between the Republic of Azerbaijan and NATO member-states.

Touching upon the problem on aggression of Armenia against Azerbaijan, the President of Azerbaijan stated: "the member States of the North Atlantic Alliance reaffirm their commitment to refraining from the use of force against the territorial integrity or political independence of any state, as well as respecting existing borders and settling disputes by peaceful means. Such position of NATO member-states meets the interests of independent Azerbaijan."

The head of Azerbaijani state expressed his hope that our participation in the NATO "Partnership for Peace" Program would allow us to achieve soon the just peaceful settlement of the Armenian-Azerbaijan conflict soon, liberate occupied Azerbaijani territories and liquidate all the consequences of war, because NATO member states consider it inadmissible to change borders of any state by the force of arms. These provisions of the document allow us to hope that NATO countries will take specific constructive steps

to stabilize the situation in the Caucasus region. It is also confirmed by the opinion of Deputy Secretary General of NATO Sergio Balanzino. He stated: "If the Republic of Azerbaijan, as a participant of this program, requests consultations on the conflicts, it is exposed to, we will consider it very attentively and engage in such consultations."

Having emphasized the importance of "Partnership for Peace" Program, the President of Azerbaijan said: "...our participation in this program creates conditions for NATO's involvement in the issues related to the conflict between Armenia and Azerbaijan." Apparently, cooperation with NATO is of great importance and has big prospects for the independent Azerbaijani state. The key principles and fields of this cooperation are reflected in "Partnership for Peace" Program and "Presentation Document" submitted by Azerbaijan.

Joining "Partnership for Peace" Program, Azerbaijan, first of all. Strengthened cooperation with the most powerful military and political alliance of the planet, and gained a strong and safe partner such as NATO.

Azerbaijan-NATO relations have developed even more by the participation of an Azerbaijani delegation in the session of the North Atlantic Cooperation Council in June 1994. Throughout the visit extensive information was provided on the Armenian aggression against Azerbaijan and its consequences, and this problem is reflected in "Regional conflicts" section of the declaration adopted. The declaration also laid down a fundamental provision that all interstate conflicts should be resolved on the basis of territorial integrity and inviolability of borders of the states.

In 1995. a delegation led by the chairman of NATO's Verification Committee Nejil Nedimoglu visited our country. During the visit questions of bilateral cooperation with NATO were discussed, the importance of liberation of Azerbaijani lands from the Armenian occupation and the establishment of peace in the region were underlined. The same year Minister of Foreign Affairs of Azerbaijan took part in the meeting of NATO held in the city of Nordvik (the Netherlands). In his speech he spoke about the relations of our republic with the North Atlantic Alliance, gave broad information on the aggression of Armenia against our country, losses and damage inflicted upon our nation and Azerbaijan's stand on the resolution of the problem.

Alongside the participation of an Azerbaijani delegation in different events of NATO, visits of various representatives of the alliance to our country can also be seen as a form of development of cooperation. In June 1995 President Heydar Aliyev received Deputy Commander of the NATO armed forces in Europe, general Ch.Mackenzie. During the meeting general

Ch.Mackenzie expressed his satisfaction with the development of relations between Azerbaijan and NATO and noted that the North Atlantic Alliance could play an important role in building and improving Azerbaijani armed forces. He particularly emphasized that the army was an attribute of any state and Azerbaijan, in turn, must have a worthy regular army.

At the meeting the head of Azerbaijan stated that "on the one hand, we see NATO as the most authoritative and influential organization in the world, on the other hand, we see it as a stronghold and organizer of peace in the region. We should benefit from NATO's experience in forming of our army and this factor will be the most important stage of our cooperation."

For the first time at the meeting the official representative of NATO mentioned the necessity of liberation of Azerbaijani territories from the occupation and ensuring peace in the region.

The agreement signed between the Republic of Azerbaijan and the European Union on partnership and cooperation during the visit of President Heydar Aliyev to the countries of Europe in April 1996 was of great importance in expanding of relations with NATO. This agreement is assessed as one of the remarkable pages in the foreign policy of Azerbaijan and as a huge historical event in the life of our independent state. It plays a role of legal base for deepening relations of Azerbaijan with European structures and institutes. During the meeting with the Secretary-General of NATO Javier Solana on April 23 in Brussels, President Heydar Aliyev handed over to him a "Presentation Document" confirming and conditioning the cooperation of the Azerbaijan Republic with the North Atlantic Alliance. At that meeting, where heads of military structures of our country took part as well, some questions on further cooperation of our republic with the alliance were discussed. During the talks Javier Solana said that he was closely following the events taking place in the South Caucasus and highly appreciated the activity of President Heydar Aliyev aimed at consolidating independence and state system of Azerbaijan. The parties especially underlined the view that the existence of peace and stability in the Caucasus was incentive for further cooperation of the states in the region and would promote the welfare of the peoples inhabiting this region. In this connection the Secretary-General of NATO highly appreciated the signing of the agreement on partnership and cooperation by the three countries of South Caucasus with the European Union and the adoption of a joint statement by Azerbaijan and Armenia.

While the assession by Azerbaijan in 1995 to the North Atlantic Cooperation Council enabled NATO to participate with the status of an honorary member in the settlement of disputed questions in the Caucasus,

submission of the "Presentation Document" allowed our republic to define the issues of its security and independence by individual order, in desirable tactical way and independently, and in that case to win the protection of the North Atlantic Bloc.

At the beginning of 1997 the Secretary-General of NATO Javier Solana arrived in Azerbaijan. This visit gave a special impulse to NATO-Azerbaijan relations and proved the significance of the plans of NATO in relation to our country. At the meeting with President Heydar Aliyev, having especially emphasized the vital importance of security problem both for Azerbaijan and for NATO, the Secretary-General also pointed out that cooperation with our republic within the framework of the "Partnership for Peace" Program would be further developed. During his visit, J.Solana made a speech at the Milli Majlis (Parliament) on new objectives of NATO and prospects for relations between Azerbaijan and the alliance. He stated in his speech: "This year we are going to take steps toward construction of a new security architecture in Europe and in this architecture we see a place of Azerbaijan."

From the point of view of assessing the essence and peculiarities of Azerbaijan-NATO relations, the speech of President Heydar Aliyev at the summit conference between the heads of state and the government of member-countries of the Euro-Atlantic Partnership Council in July 1997 was of particular importance. In his speech at the summit, the head of our state, having especially underlined the great significance attached by our republic to constructive dialogue and cooperation of NATO with the newly independent states, expressed hopes of Azerbaijan for an active role of NATO and the Euro-Atlantic Partnership Council in settlement of armed conflicts in the region. In July of that year, during the official visit to the USA, Heydar Aliyev once again reaffirmed this view at the regular meeting with J.Solana in New York. The Secretary-General of NATO praised the protection of independence of our republic, successful implementation of democratic processes and economic reforms in our country.

The implementation of "Partnership for Peace" Program started in 1996. Participation of representatives of the Ministry of Defence of Azerbaijan in training courses and various seminars by NATO in the framework of that program was the first step in this field. Cooperation with the alliance in military sphere was intensified in 1997. The representatives of our armed forces were the participants of peacekeeping trainings conducted with in the framework of NATO "Partnership for Peace" Program in the city of Norfolk of Virginia state in the USA in July-August 1997. In December of that year an Azerbaijani delegation headed by the Minister for

Defence took part in the session of NATO member and partner states. Issues of expansion of relations and cooperation within the framework of "Partnership for Peace" Program and definition of new objectives for partner-countries were discussed during the session.

Cooperation between our country and the North Atlantic Organization was continued by public organizations as well. So, in July 1997 the "NATO and Azerbaijan: Coordination and Cooperation Center" was created. The organization aims to broaden knowledge and information of Azerbaijani public about NATO, form public opinion in a corresponding direction, study the principles of cooperation of Azerbaijan with NATO and research the impact of NATO enlargement upon peacekeeping processes in the Caucasus.

On November 14, 1997 President Heydar Aliyev signed an order on "Measures to further strengthen the cooperation between the Republic of Azerbaijan and NATO". In accordance with the order, a Commission on co-operation with NATO was established under the President of the Republic of Azerbaijan. t the same time, in 1997 Azerbaijan joined the Planning and Review Process (PRP) of NATO. In that year, Azerbaijan established its own diplomatic representation in the NATO headquarters in Brussels. Opening the diplomatic mission of our country at the headquarters of the North Atlantic Alliance further sped up the activities carried out on mutual basis.

On January 15. 1998 the agreement on the status of armed forces between member-countries of the North Atlantic Alliance and "Partnership for Peace" Program states and the Additional Protocol to this agreement were signed by the Republic of Azerbaijan.

In June 1998, an Azerbaijani delegation participated in the meeting of Parliamentary Assembly of NATO member-countries in Maastricht (Holland) and in November of that year in the 44th session of General Assembly of the North Atlantic Treaty Association in Lisbon (Portugal). In September, international peacekeeping trainings of NATO member-countries and partner-states, including Azerbaijan, were conducted in Uzbekistan. At the Chirchik center where trainings were held representatives of the armed forces of these countries involved in various operations-safeguarding humanitarian goods, rendering medical service during peacemaking operations, mine detection and disposal, protection of important objects. While carrying out the tasks throughout peacekeeping trainings, Azerbaijani servicemen demonstrated good preparation and this was highly valued by representatives of the armed forces of the states participating as observers in the exercises.

In September 1998, NATO Secretary-General Javier Solana arrived in

Baku on his second working visit. During the visit, NATO's position on Euro-Atlantic and regional security was explained to Azerbaijan and NATO-Azerbaijan relations were discussed with the head of state.

In October 1998, a Delegation of the Auxiliary Committee of the North Atlantic Parliamentary Assembly on NATO's enlargement and New Democratic Countries visited our country to get acquainted with social and political situation. At the meeting with President Heydar Aliyev, discussions were held on military aggression of Armenia against Azerbaijan and problems arising as a result of this. Having emphasized the possibility of a peaceful settlement of the Armenian-Azerbaijan conflict through a more serious attitude to this matter and necessary efforts by the leading countries and international organizations of the world, the head of state talked thoroughly about normative-legal documents in this field.

In November of that year, the 44lh session of the North Atlantic Parliamentary Assembly was held in the city of Edinburgh, Scotland. 16 members of NATO, as well as 16 associative members, participated in the event. Besides this, 5 more states - Azerbaijan. Sweden. Switzerland, Japan and Morocco were invited to the session. Out of five committees of the Assembly, the deputies representing our republic were participants of two - Committees on Political, and on Defence and Security Issues. During the sessions they talked about the Nagorno Karabakh problem, the occupation of our lands by Armenia, the plight of more than 1 million refugees and IDPs in our republic, as well as the Baku-Tbilisi-Ceyhan route, the main export pipeline for transporting Azerbaijani oil to the world market, security of this route and other issues.

In December 1998, a delegation of our republic headed by the Foreign Minister participated in the meeting of the Euro-Atlantic Partnership Council in Brussels. He reaffirmed the interest of our country in the opening of an Information Office of NATO in Baku and the readiness of Azerbaijan to provide all necessary facilities for this and said that he deemed it important to develop special partnership relations with NATO.

At the end of 1998, the Minister of Defense took part in the session of Minister of Defense of member and partner-states of the alliance at the NATO Headquarters in Brussels. Along with other questions concerning defence, he familiarized the participants of the session with the current military-political situation in the Southern Caucasus and touched upon Russian-Armenian relations.

In September of 1999, our country sent its peacekeeping platoon within a Turkish battalion to involve in peacemaking operations in Kosovo for the first time. Involvement of Azerbaijan in peacemaking operations in

Kosovo was an obvious case of formation of armed forces of our country under NATO standards and gaining necessary experience of actions in such cases, direct contacts with personnel of NATO member-countries. The progress achieved by Azerbaijani servicemen in this direction was also underlined by the chairman of NATO's Military Committee Admiral Venturioni who visited our country in April 2000.

In January 2001, NATO Secretary-General George Robertson arrived in our country on an official visit. During the visit the Secretary General was received by President of Azerbaijan Heydar Aliyev. In the meeting the Nagorno Karabakh conflict, further prospects of Azerbaijan-NATO relationship and other issues were discussed. Touching upon questions of regional security President Heydar Aliyev said: "Security in the South Caucasus depends on many questions. But. first of all, it is necessary to put an end to the conflicts in the countries of the Southern Caucasus. And among them, the Armenian-Azerbaijan conflict holds a particular place. Therefore we think that all international organizations, as well as NATO, should consider this matter very attentively. Such situation cannot and should not proceed constantly."

In his response speech the head of the North Atlantic Alliance declared: "there exists a very serious and urgent problem in the region, and it influences not only the South Caucasus, but also the whole region. We should solve this problem by any means. If this problem remains unresolved on the part of the participants of the conflict, then we can never overcome the economic, social and military problems accompanied by such a long-term conflicts. However, all depends directly on the parties to this conflict and I hope You will be able to reach an understanding very soon."

In 2001, a number of seminars and meetings on security testifying to the expansion of relations between NATO and Azerbaijan were held. From this point of view the "Readiness for the Cooperation" command-staff exercises conducted in Baku in November 2001 were of vital importance.

Azerbaijan declared its intention to develop cooperation with the Parliamentary Assembly, an influential structure of NATO. In this connection in January 2002 the chairman of the NATO Parliamentary Assembly Estrada visited our country and exchanged views with the leadership of our country on the development of cooperation between the Milli Majlis (National Assembly) of Azerbaijan and the Parliamentary Assembly of NATO. In this framework as a logical result of our cooperation, on November 19, 2002 Azerbaijan was admitted to the NATO Parliamentary Assembly as an associative member.

NATO's Deputy Secretary-General for Science and Environment

Fume, who visited our country in May 2002 in order to attend the seminar held in Baku on "Ecological problems of the Caspian Sea", was received by President of Azerbaijan Heydar Aliyev and expressed satisfaction with the successful cooperation with Azerbaijan in this field.

In November 2002, President of Azerbaijan Heydar Aliyev took part at the summit of NATO held in Prague and delivered a comprehensive speech. The head of state touched upon the annexationist policy of Armenia against Azerbaijan and called on NATO to be more active in restoring territorial integrity of our country and settling of the conflicts, which still remain unresolved in the South Caucasus. The President of Azerbaijan declared that he was a supporter of pursuing an open policy with a view to develop cooperation between NATO and Azerbaijan. The importance of this policy was outlined in the speech of the head of state in Prague: "Assessing the partnership with NATO as the basis for further Euro-Atlantic security system, Azerbaijan aspires to achieve integration partnership and intensive bilateral dialogue with the alliance. Furthermore, I would like to point out the importance of taking into account the positions and needs of the partners, the growing interdependence of the alliance and partnership members.

We see the increasing attention on the part of NATO to the South Caucasus. However, any regional initiatives and proposals should firstly be aimed at liquidation of the consequences of wars and restoration of the borders of the states recognized on an international scale."

It appears that as the extension and deepening of relations with NATO are very important from the point of view of integrating our country into the world community and directly representing its interests, the activity in this field is one of priority directions of foreign policy of the independent Azerbaijani state.

The cooperation of Azerbaijan with NATO should be valued from the viewpoint of some main factors of the foreign policy strategy of our republic. Firstly, the Azerbaijani state in its foreign policy attaches particular significance to cooperation with global and regional international organizations. Secondly, Azerbaijan shows interest in cooperation with all states of the world, which are members of international organizations, and pursues multilateral diplomatic policy. Thirdly, the continuing state of war in Azerbaijan requires more actively involvement of the international community in settlement of the problem of our independence. These three factors played a major role in Azerbaijan's joining the NATO "Partnership for Peace" Program.

It is undeniable that such an authoritative international organization as NATO can play an exceptional role in the peaceful settlement of the

Karabakh problem, liberation of our occupied lands, and return of refugees to their native lands. Moreover, the vital importance of the relationship with the North Atlantic Bloc for Azerbaijan is the fact that by joining "Partnership for Peace" Program, our republic gets an opportunity to enter the system of collective security in the world through various structures and institutes of NATO, adjust its security with international security issues and get involved in peacekeeping and humanitarian actions jointly and separately with the countries included into this structure.

The importance of "Partnership for Peace" Program is also determined by the fact that Azerbaijan acquires the opportunity to cooperate with the countries of Europe and the USA included into NATO's security system in every possible way under civil rules of the world security system and international relations. And this, in turn, allows the Azerbaijani Army to cooperate with NATO's military structures for the sake of peace, conduct joint exercises and maneuvers, benefit from their experience in army formation, carry out joint activities in personnel training and in other spheres.

Cooperation with NATO opens prospects for Azerbaijan in some other necessary fields. There is a special need for cooperation of the Azerbaijani Republic with NATO in the development of strategic security, democratic institutions, free market economy and involvement of new technologies and capital investments in the life of the republic and in other fields. There exist a number of committees in NATO offering broad opportunities for cooperation in these spheres.

Azerbaijan's joining NATO's "Partnership for Peace" Program also means strengthening the international positions of our country. Certainly, joining this program is not the guarantee of receiving immediate powerful international military-political support. In order to achieve the goal, the implementation of thought-out, purpose-oriented and fruitful activities by Azerbaijan is required.

In the future, the North Atlantic Alliance can assist Azerbaijan in its national defence planning, democratic control of the armed forces, creation of modern civil defence system, crisis management and other issues.

Cooperation with NATO will be able to play a significant role in neutralizing forces which can pose a threat to our state and in protection of our country from outside pressure. It also means the acceleration of integration of Azerbaijan with NATO member-countries possessing great experience in the field of democracy and market economy, and the opening up of new ways of cooperation with them.

As a result of joining the "Partnership for Peace" Program, big opportunities have been opened in further development of political, military,

cultural, humanitarian ties with NATO member -countries. As a partner, Azerbaijan demonstrates its adherence to the main goal of the North Atlantic Alliance - consolidation of peace and stability in the whole Euro-Atlantic zone.

The ultimate aim of cooperation with NATO is to find a niche in the reliable security system to be created with the direct participation of the Alliance. The opening of a wide range of opportunities in this sphere is only the beginning of this work. The main task will depend on the ability to use these opportunities.

Owing to the implementation of democratic reforms in Azerbaijan, its joining NATO strategic programs should be seen as natural, because Azerbaijan's interest in state system and the development of democracy, first of all, necessitates the assistance of NATO and various member-states of the alliance in adopting new technologies, strengthening civil society and establishing market economy mechanisms.

In order to reach these goals the opportunities and capacity of non-governmental organizations should be extensively used as well.

NATO offers long-term opportunities to all newly - independent states, as well as Azerbaijan, in democratic development and establishment of market economy. Participating in the "Partnership for Peace" Program, the Azerbaijani Republic obtained further opportunities and means for protection of the state independence and territorial integrity, joining international community and successful implementation of democratic reforms. Intellectual capacity and human resources, economic resources and geopolitical situation of our republic opens broad prospects for the realization of these opportunities.

Azerbaijan is the only state among the republics of the South Caucasus without military bases or armed forces of a foreign state. This factor can be considered as the other main factor involving NATO in special cooperation with our republic.

Besides, due to the geographical location, influence, population or geopolitical situation, our republic plays a role of the center of gravity in the region, and certainly, it is also another positive impulse for cooperation.

Alongside all this, one of the main conditions of NATO interest in our republic, in our opinion, is that Azerbaijan is headed by Heydar Aliyev, who pursues the most independent policy among the heads of the three South Caucasus countries and wages decisive struggle for the protection of independence of Azerbaijan. It should be noted that as far the role of the Azerbaijani state and its head Heydar Aliyev in the formation of global and political strategy of present-day international relations is concerned,

especially after the signing of oil contracts and the mutual difficulties and pressures on this way were courageously overcome, the interest in our republic and its influence upon the international processes increased.

Another positive peculiarity is the image of the most peace loving state gained by our republic in the South Caucasus, in Particular, attempts for settlement of the Armenian-Azerbaijan conflict only by peaceful means and aspiration of President Heydar Aliyev to close cooperation with all international organizations.

Located at a favorable geopolitical junction of Europe and Asia, our republic can be considered a prospective partner as supporter of peace and stability in the region, which is the main aim of this international organization. Since the South Caucasus is already included into the political map of Europe and is accepted as a part of this continent, it gradually shows itself as a component of general security.

The present period in NATO-Azerbaijan relations is rather specific. Looking through the formation of our relations and the ten-year experience, we confess that from a historical standpoint in the shortest time NATO and Azerbaijan raised the relationship from the initial acquaintance stage to a strategic partnership level. Unlike other former soviet republics, though our country established relations with NATO under more difficult conditions, now the relations between Azerbaijan and the alliance in comparison with many countries have assumed a steady strategic character.

The main reason for this is our consistent home and foreign policy aimed at consolidation of independence of Azerbaijan. To win a worthy place for Azerbaijan in the world policy. President Heydar Aliyev skillfully used the geopolitical situation and powerful economic potential of our country. In the shortest time, implementing the petroleum strategy to attract attention of the West and NATO not only to Azerbaijan, but also to the whole region this is accomplished.

Faster realization of integration of our country into the Euro- Atlantic security system should be explained by NATO's inevitable enlargement.

From the viewpoint of establishing our military and security structures, the participation of Azerbaijan in "Partnership for Peace" program is very important. After the Presentation Document was handed over by President of Azerbaijan to NATO Secretary-General in 1996 our country has carried on cooperation with the alliance under an individual program approved annually. The involvement of Azerbaijani officers in various educational courses of NATO's military schools and colleges is increasing every year. Opportunities have been offered for dozens of officers of the Ministry of Defence of the Republic of Azerbaijan to study at

the Institute of Strategic Studies of Marshall Center in Germany. The Republic of Azerbaijan attaches particular significance to cooperation with NATO structures for ensuring its security and sees the "Partnership for Peace" Program as an important means for the states willing to become NATO members.

Development of defense capacity of Azerbaijan is a crucial factor in repulsing outside threats, as well as in preventing annexationist policy of Armenia. Existence of this factor, undoubtedly, increases the chances of peaceful settlement of the Nagorno Karabakh conflict. Alongside the measures undertaken under an order by President of the Azerbaijan Republic in this direction, cooperation with different organizations, as well as NATO"s. draws us nearer to our goal.

Azerbaijani people like those gained independence after the collapse of the Soviet empire evaluates NATO as progressive friendly power and as a moral basis of sovereignty and independence of our country. NATO creates a hope for the returning of our lands occupied as a result of Armenia's aggression and for the restoration of Azerbaijan's territorial integrity. We will never reconcile ourselves to the occupation of 20 percent of our territory and the fact that more than 1 million refugees were forcibly displaced from these lands. And we consider that NATO" will work unsparingly in the field of settlement of the Armenia-Azerbaijan conflict as one of the long-term and destructive conflicts in Europe, return the refugees to their native lands and restoration of sustainable peace in the region.

"NATO and Caucasus Regional Security",
Baku, 2003 p. 22-59

Azerbaijan's relations with the Islamic world and the countries of Asia

After the restoration of Azerbaijan's state sovereignty, the formulation and implementation of foreign policy based on national interests was one of the important duties facing the country. It was necessary to determine an efficient and pragmatic foreign policy in order to pull the country out of the difficult situation that it had fallen into.

As soon as the Azerbaijan's National Leader Heydar Aliyev returned to power in 1993, he started to renew and rebuild Azerbaijan's foreign policy on the basis of the country's strategic interests. First, he eliminated gross foreign policy mistakes made by the previous government that strained the international political environment around Azerbaijan. The new foreign policy would be based upon the coordination of strategic interests of the country with the interests of region-al states and states that had special influence in the South Caucasus. Heydar Aliyev formulated these principal directions and tasks of foreign policy back when he was elected the Chairman of the National Assembly (Milli Maclis):

"Foreign policy is one of the attributes ensuring Azerbaijan's sovereignty. Azerbaijan must have a sound foreign policy, an elaborate foreign policy, a forward-looking foreign policy, a foreign policy that would tie Azerbaijan to the international community, ensure relations of Azerbaijan with all states, secure interests of Azerbaijan, and could ensure recognition of Azerbaijan as a *de facto* sovereign state across the globe. So far, Azerbaijan did not have such a healthy foreign policy".

Continuing, Heydar Aliyev drew attention to the mistakes made in this field: "Azerbaijan must have equal relations with all states, including Turkey, Iran, neighboring Georgia, Russia, the United States, European states, Arab and Muslim countries, Turkic-speaking countries, Central Asian states, [and] Kazakhstan". Aliyev stressed that having a policy of self-isolation, which dominated Azerbaijan's foreign policy during the previous years is not an option and contradicts national interests. He pointed out that the world does not know about Azerbaijan and its problems. The international community did not hear Azerbaijan's voice as a result of self-isolation and he called that policy "a blow to our-selves." Stressing the necessity to take deliberate steps towards the protection of the country's interests, Aliyev put the state interests of Azerbaijan above everything else. Taking into account the struggle of various states for economic interests and political influence in the South Caucasus and in Azerbaijan, Heydar Aliyev made flexible maneuvers and special tactical moves, including practical

changes that took into account the realities of foreign policy and were directed at the protection of the country's interests. The place of an independent Azerbaijan within the international relations system would be based on establishing good relations with European countries and the U.S., along with Russia and former Soviet countries, Turkey and Turkic-speaking countries, the Islamic world and Iran, and influential international organizations.

In the first place, it was necessary to put foreign relations in order and restore ties with neighboring and regional states. Azerbaijan joined the Commonwealth of Independent States (CIS) as one of the first steps in this direction and undertook consistent work in order to strengthen its direct bilateral ties with the member countries. By the end of 1993, a new approach was taken for the fundamental reconstruction of ties with the Central Asian republics, which had strained relations with Azerbaijan. The establishment of a successful dialog and understanding with Russia, with which Azerbaijan has historical ties, was important for strengthening the international position of our country and ensuring stability and security in the region.

Azerbaijan significantly changed its foreign policy towards Turkey, which is a reliable strategic partner of Azerbaijan, and as a result, a qualitatively new stage of Azerbaijani-Turkish relations began. Azerbaijan was also successful in setting up bilateral political, economic and cultural relations with neighboring Iran. Ties with other member countries of the Organization of the Islamic Conference were also significantly improved.

Establishing sound relations with major states, such as the U.S., UK, China, Japan, France, Germany and Italy, was the cornerstone of Azerbaijani foreign policy, and Azerbaijan was able to set up mutually beneficial relations with these countries. This was the result of consistent work carried out by Azerbaijan to gain the attention of certain key influential states that are of strategic significance for the country.

Relations with Europe became one of the top priorities for Azerbaijani diplomacy and foreign policy. Stable and equal partnership have been established between Azerbaijan and the influential countries of Europe the UK, Germany, France, Italy, Belgium, the Netherlands, Greece, Poland, Romania, Bulgaria and the Scandinavian countries. Numerous treaties signed with these countries constitute the legal basis of these relations.

The implementation of the Transport Corridor Europe-Caucasus-Asia (TRACECA) program, which envisions the restoration of the historic Silk Road, and the development of the Baku-Tbilisi-Ceyhan oil and Baku-Tbilisi-Erzurum gas pipeline projects constitute important components in the improvement of relations with European countries. Azerbaijan, as the initiator of and participant in these immense projects, is located in a

significant geographical position at the intersection between East and West. Both the People's Republic of China, a major world player and a permanent member of the Security Council of the United Nations, and Japan which possesses vast technological expertise and potential, became political and economic partners of Azerbaijan as a result of its successful foreign policy. Ties between Azerbaijan and Israel are also expanding.

Azerbaijan has attached significant importance to enhancing cooperation with Asian countries. Many of these countries are members of the Organization of the Islamic Conference (OIC), which was established in 1969 and aims to increase solidarity between Islamic nations. In addition to a number of international and regional organizations that have observer status within the OIC, this organization currently has 57 members.

In 1975 the OIC obtained observer status within the UN and at the same time signed a resolution on cooperation with this organization. Undoubtedly Azerbaijan's membership in such an influential organization opened significant opportunities to Azerbaijan for the development of mutual political, economic and cultural ties and cooperation with Muslim countries. Azerbaijan became a full member of the Organization of the Islamic Conference in December 1991.

Soon after Aliyev's return to power, the cooperation with the OIC began producing positive results. From the beginning, the General Secretariat of the OIC made declarations supporting Azerbaijan's position on the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. At subsequent stages, the organization adopted resolutions recognizing the rights of Azerbaijan, whereas Armenian aggression against Azerbaijan, along with its ethnic cleansing policy was harshly condemned.

Both the 21st and 23rd conferences of OIC Foreign Ministers held in 1993 in Karachi and in 1995 in Conakry adopted resolutions in connection with the conflict between Armenia and Azerbaijan. At the 24th conference of OIC Foreign Ministers held in 1996 in Jakarta, the name of the resolution on this issue was changed to "On the Aggression of the Republic of Armenia against the Republic of Azerbaijan." Since then, the name of this resolution at all conferences of Foreign Ministers has remained unchanged. It should be noted that all adopted resolutions in the 8th, 9th and 10th OIC conferences of the heads of states and governments held in 1997 in Tehran, in 2000 in Doha and in 2003 in the Malaysian city of Putrajaya, respectively, have the same name.

In comparison to the previous resolutions, these latest resolutions have been significantly improved with new clauses such as this:

"The Organization of the Islamic Conference calls upon all states to

refrain from supplying arms and supplies which encourage the aggressor to intensify the conflict and allow to continue the occupation of Azerbaijani territories; the territory of OIC member states shall not be used for military supply; invites OIC members states and other countries of the world community to use effective political and economic pressure in order to put an end to Armenian aggression and occupation of Azerbaijani territories; considers that Azerbaijan is entitled to compensation of sustained damages and imposes the liability for full payment of such damages on Armenia; requests the Secretary General of the OIC to inform the current Chairman of the OSCE about the position of OIC member states on this issue."

The relations between the OIC and Azerbaijan go beyond declarations and resolutions. The organization provides a venue for Azerbaijan to bring its position to the attention of the Islamic world and to seek the support of the member countries. President Aliyev's role in setting a right course for Azerbaijan's foreign policy in these directions has been indispensable for today's successes. He delivered an important speech at the OIC's summit held in December 1997 in Tehran, declaring that "Azerbaijan attaches significant importance to the work carried out by the Organization of the Islamic Conference in the Muslim world and the international arena." He brought to the attention of participants that during recent years Azerbaijan had significantly improved its political, economic, trade and cultural ties with fellow Muslim countries. Needless to say, the cooperation with the OIC and other international organizations has been beneficial and productive for all involved.

Aliyev also expressed his appreciation for the OIC resolutions in connection with the Nagorno-Karabakh conflict, especially singling out the resolutions adopted in 1994 in Morocco and in 1996 in Jakarta. He also noted that Azerbaijan is thankful to all member states for the OIC's support to the principles adopted in connection with the resolution of the Nagorno-Karabakh conflict at the Lisbon summit meeting of the OSCE.

President Aliyev's participation, speeches and meetings at the 7th and 8th summits of the OIC created extensive interest within the Islamic world. The following response of the former Secretary General of the OIC, Azeddine Laraki during the Tehran summit is just one example:

"I am proud that I met with the President of Azerbaijan Heydar Aliyev and heard his opinion. I am proud that he highly appreciates the work of our organization. We will do everything possible to improve the ties between our organization and Azerbaijan. I assured Mr. President that the OIC has always been and will always be on the side of Azerbaijan. I also assured Mr. President that our unchangeable position is the liberation of Azerbaijani

lands from the occupation."

Aliyev achieved immense success in the deepening and furthering of ties between the OIC and Azerbaijan. These successes led to the formation of strong diplomatic relations between Azerbaijan and other leading countries of the East.

It is from this perspective that this paper will review the resolution adopted at the 10th summit of the OIC held in 2003 in Putrajaya, Malaysia, and the state of relations between Azerbaijan and the OIC during the presidency of Mr. Ilham Aliyev. In addition to the political resolutions mentioned above, another resolution on economic aid to the Republic of Azerbaijan was adopted at this summit. The resolution condemns the Armenian occupation of Nagorno-Karabakh and other regions of the Republic of Azerbaijan, and ethnic cleansing of up to one million people by Armenia. It calls upon the OIC member states, Islamic organizations, as well as other international organizations to provide the necessary economic, financial and humanitarian assistance to alleviate the suffering of the Azerbaijani people. The summit meeting adopted a third document - a resolution "On looting and destruction of Islamic history and cultural monuments on the territories of the Republic of Azerbaijan occupied as a result of the aggression of the Republic of Armenia."

After reading the relevant report from the OIC Secretary General, the participants of the meeting strongly condemned the actions of the Armenian aggressors directed at the complete destruction of Islamic civilization within the occupied territories of the Republic of Azerbaijan. They demanded the unconditional and immediate implementation of UN Security Council resolutions 822, 853, 874 and 884 by Armenia, and requested the OIC Secretary General to communicate to the UN, OSCE and other international organizations the OIC member states' position on this matter.

The unanimous adoption of the draft resolutions without any amendments and revisions confirms once again that the Islamic world is very familiar with the problems of the Nagorno-Karabakh conflict and irrevocably supports Azerbaijan. This reflects the successful coordination of Azerbaijan's foreign policy.

Ties with the OIC were one of the guiding foreign policy principles under the leadership of Heydar Aliyev. This can be seen from the comments of the current Azerbaijani president, Ilham Aliyev, at the OIC conference on law enforcement hosted in Baku in early 2009. He noted that this event will play an important role in expanding the cooperation between Islamic countries, and said:

"Azerbaijan plays an important role in the Organization of the Islamic

Conference. On our initiative, various events within the framework of the OIC are carried out in Baku, ministers and representatives of other entities visited Baku. We want that cooperation within the framework of the Organization of the Islamic Conference to strengthen further, Islamic solidarity to become even stronger and mutual support among our countries to shows itself in all international organizations..."

President Ilham Aliyev also acknowledged the fruitful cooperation between Azerbaijan and the OIC:

"We always see a pleasant attitude and support from the Organization of the Islamic Conference. In connection with the Nagorno-Karabakh conflict, the Organization of the Islamic Conference has always unambiguously supported Azerbaijan's fair position, and the organization repeatedly adopted appropriate decisions and resolutions in connection with this issue. At the same time, during the contacts with other organizations, OIC raised this issue and declared that Azerbaijani position is just."

In particular, the president has touched upon the discussions taking place at the UN General Assembly, in March 2008 saying, "In the discussions held at the General Assembly of the United Nations in connection with the situation of the occupied territories of Azerbaijan, the major support for came from the Islamic countries and justice was served in the resolution adopted with a large majority of votes." He unambiguously expressed the trust and confidence in fraternal Muslim countries: "The people of Azerbaijan know and realize well who our friends are. Indeed, it was the moment of truth at the UN General Assembly last year. At that voting, real friends of Azerbaijan showed their position once again, that voting will never be forgotten by the people of Azerbaijan. In the first place, the attitude of friendly, fraternal countries towards us is fundamental for us in our policy."

Ilham Aliyev, is well-versed with the peculiarities of world politics, and as an acknowledged and influential politician, he noted the importance of unity and solidarity within this organization:

"I have great respect and love to all member countries of the Organization of the Islamic Conference. I also want you to know that, although we are young as an independent state, we do a lot of work for the strengthening of Islamic solidarity in Azerbaijan. I am absolutely sure that, if we can fully ensure this solidarity and mutual support among all Islamic countries, internal problems of the organization's member states may just as easily be solved."

While discussing relations with the Organization of the Islamic Conference and Islamic countries, it should be mentioned that the Islamic

Educational, Scientific and Cultural Organization (ISESCO) pronounced Baku a capital of Islamic culture. This is an important cultural and political event for Azerbaijan and the world. Indeed, secular Azerbaijan is a country where the cultural values of the East and West meet. As President Heydar Aliyev wisely stated, "our face is to the East and our path is to the West."

The strengthening of bilateral relations with Turkey, a reliable strategic partner of Azerbaijan, and its further expansion to the highest level, is a very important component of Azerbaijan's foreign policy. Today, relations between Azerbaijan and Turkey are deepening with great pace. In the past, the warm and friendly relationship between Heydar Aliyev and Suleyman Demirel, the President of the Republic of Turkey from 1993-2000, contributed to the improvement of relations between these two fraternal countries.

Thanks to Heydar Aliyev's energy strategy, Turkey became a transit country for export pipelines and in result of this Turkey's standing in the region increased. On November 1, 1999, during the presentation ceremony of the International Ataturk Peace Prize the recipient of the prize, Azerbaijani National Leader - Heydar Aliyev drew attention to the fact that he attaches great importance to Turkish-Azerbaijani relations:

"When we were signing the Contract of the Century, this contract provided the groundwork of a big oil pipeline, and we stipulated that this should be the Baku-Ceyhan oil pipeline...Many countries began putting pressure on us in connection with this issue. Many Caspian Sea countries tried to hinder implementation of this contract citing that the status of the Caspian Sea is not determined. Their main goal was to make sure that this big oil pipeline would go through Russia, rather than through Turkey by the Baku-Ceyhan route. But we repulsed all this pressure, resisted to it and gradually, step by step advanced towards laying the Baku-Ceyhan pipeline."

Heydar Aliyev considered Turkey and other Turkic-speaking countries throughout Asia as having one and the same root, origin and language. Heydar Aliyev, who was portrayed as a "Muslim leader with the iron character of the Soviets" and "the great Turk in the Kremlin" in the international media during the Soviet era, did a lot of work for the realization of the idea of Turkic solidarity. Aware of this, the ninth President of Turkey, a great politician and statesman, Suleyman Demirel, deeply appreciated Heydar Aliyev's unprecedented services for developing a strategy for the Turkic world and the unity of Turkic-speaking peoples: "Heydar Aliyev that I know is a Turkic patriot as much as he is a patriot of Azerbaijan. Heydar Aliyev, this great statesman can be considered the son of not only Azerbaijan but of the whole Turkic world."

Heydar Aliyev saw potential for improvement in Turkish-Azerbaijani relations. At the second Summit of the leaders of Turkic-speaking states, he called for the intensification of Turkish-Azerbaijani ties in many fields:

"We are satisfied that, within three years of Azerbaijan's independence, extensive ties have developed between Turkey and Azerbaijan. But we do not think that all of our opportunities have been used so far... Undoubtedly, we have big opportunities in the economic field. For example, cooperation of the Black Sea basin countries is already known to the world and certain achievements were made in this field. I believe that it is also possible to cooperate in the Caspian Sea basin."

The National Leader's strategy defining "Turkey [as] the closest friend and brother of Azerbaijan" continued to be one of the main priorities in Azerbaijani diplomacy under the presidency of Ilham Aliyev, elected in 2003.

Since 1992, more than 130 agreements, treaties and protocols in the political and economic fields have been signed on various levels between Turkey and Azerbaijan. The legal basis established by these documents creates broad opportunities for the continued improvement of relations between these two countries in all areas.

Economic relations between Turkey and Azerbaijan have steadily grown over the past years. A large proportion of foreign direct investment in Azerbaijan comes from Turkey. Azerbaijani companies have recently started to make major foreign direct investments in Turkey as well. Last year the volume of trade turnover between Azerbaijan and Turkey was 1,433.5 million USD, where imports accounted for 807.3 million USD and exports for 626.2 million USD. In total, in 2008, Turkey's share of Azerbaijan's foreign trade turnover amounted to 2.61 percent where imports accounted for 11.27 and exports for 1.31 percent.

Today, brotherly relations with Turkey may be the best example for all Turkic-speaking countries. There are common interests and benefits that bring both parties together to establish these relations. President Ilham Aliyev comprehensively explained the importance of this bilateral relationship in a speech during his official visit to Turkey in November 2008:

"As a result of our joint efforts and initiatives, very important transnational projects are implemented in the region. The successful functioning of the Baku-Tbilisi-Ceyhan oil pipeline serves to the stability and the intensification of cooperation in the region and increases our economic opportunities. Today, we already witness the successful functioning of the East-West energy corridor. And our initiatives are based

on it. Everyone knows that the construction of the Baku-Tbilisi-Ceyhan oil pipeline was carried out amidst a complex geopolitical situation. After long negotiations and, in some cases, long disputes and pressures, it became a reality and everyone should reckon with this reality. It is not simply an energy project or an economic project. It has a grand meaning. Now, the issues of an East-West energy corridor and energy security in the region may not be solved without the participation of Turkey and Azerbaijan

Today, we are busy constructing the Baku-Tbilisi-Kars railway. This is also a historical project. This project will connect Europe with Asia through Turkey and Azerbaijan. It will connect Turkey and Azerbaijan by a railway. I remember, four years ago, when speaking before the Assembly in 2004, I predicted the successful implementation of these projects. But at that time, none of the projects were finished or commenced. And today they are a reality. From a historical perspective, we managed to do it within a short period of time by strengthening our friendship and brotherhood by joint efforts and will. I have no doubts that all future issues will be solved as successfully."

Ilham Aliyev has also called attention to the fact that the Turkish-Azerbaijani union is a stabilizing factor in the region and stated that "we live in a very sensitive region and in a broad sense the fate and stability of the region depends on our policy."

The South Caucasus region has a special place in Turkey's foreign policy. After the collapse of the USSR, Turkey recognized the independence of all three countries of the South Caucasus and established diplomatic relations with Azerbaijan and Georgia. Turkey supports a peaceful and just resolution of the Nagorno-Karabakh, Abkhazia and South Ossetia conflicts, based on the principle of territorial integrity. The Caucasus Stability and Cooperation Platform, put forward by Turkish Prime Minister Erdogan, is also based on this principle.

Another indicator of the Turkish-Azerbaijani strategic partnership is their joint efforts in the international arena. Both states share a united position and support each other in all international organizations. With regard to the issues of regional and international security, it should be noted that Turkish- Azerbaijani military cooperation has been maintained within the framework of the NATO Partnership for Peace program for many years now. Another important area for cooperation is the joint stance against threats such as international and regional terrorism, narcotics trade, proliferation of WMDs, transnational organized crime, human trafficking and illegal trade in arms.

As a friendly country, Pakistan also has a special place in Azerbaijan's

foreign policy. Following Turkey, Pakistan was the second country to recognize Azerbaijan's independence, and has not established diplomatic relations with Armenia. Relations between the two countries rest on deep historical, religious and cultural roots which are valuable for Azerbaijan because Pakistan has always supported Azerbaijan's just cause and never denied it assistance. Pakistan has always defended Azerbaijan's position in international organizations, including within the frameworks of the UN and OIC.

After the establishment of diplomatic relations between the two states, ties between Baku and Islamabad have become closer. Visits by President Heydar Aliyev to Pakistan and by leaders of Pakistan to our country have created opportunities for the strengthening of mutual ties. After a successful official visit by President Ilham Aliyev to Pakistan, a rapid development of ties in all fields between our states was given new impetus.

Azerbaijan has made significant strides in the improvement of bilateral political, economic and cultural relations with neighboring Iran. After the collapse of the Soviet Union, Iran has been one of the most important participants in the political processes of the Caucasus, as it borders both Azerbaijan and Armenia.

Diplomatic relations with Iran, which recognized Azerbaijan's independence on December 25, 1991, were established 3 months later on March 12, 1992. Diplomatic ties established during the first years of independence did not rise to the level of real cooperation due to a lack of coherent foreign policy by Azerbaijan towards Iran.

Only after Heydar Aliyev returned to power were Iranian-Azerbaijani relations declared to be one of the priorities of foreign policy, and diplomatic activities in this direction were intensified. It did not take long for results to appear. In August 1993, the first document - an agreement on economic cooperation - was signed in Baku between Iran and Azerbaijan. Following that agreement, official visits by the heads of state took place. On October 26-28, a delegation headed by the President of Iran Ali Akbar Rafsanjani came to Baku for an official visit. Shortly after that, President Heydar Aliyev, along with a high level delegation, went to Tehran for an official visit on June 29, 1994. This happened just one month after a ceasefire was agreed between Azerbaijan and Armenia and when the country was getting ready for a major event - the signing of the Contract of the Century. With deliberate strategic motivation, Heydar Aliyev was making significant efforts to pull the country out of its difficult situation. He began making serious declarations to this effect, one of which he made during his official visit to Iran: "The foreign policy of Azerbaijan is free and independent. Our country is open to all states of the world. We are ready to

establish and have already been establishing ties with every state that recognized Azerbaijan's independence, is not hurting its interests and showing positive attitude to our country."

During that visit Heydar Aliyev clarified the foundations for the development and expansion of Azerbaijani-Iranian relations:

"Relations between Azerbaijan and Iran have deep roots. Our peoples lived together for centuries. Our historical and cultural values are similar. The peoples of Iran and Azerbaijan are both parts of the Islamic world. Values of the Islamic world are dear and honorable for us. We will further establish these values in our life. Our scientific, moral and cultural ties have connected us throughout history. The Republic of Azerbaijan and the Islamic Republic of Iran have a very long border. Taking this into account, Azerbaijan is resolved to develop friendly and brotherly ties with Iran."

At the OIC summit meeting held on December 14, 1994, in Casablanca, President Heydar Aliyev met with the Minister of Foreign Affairs of Iran and expressed his gratitude to the Iranian side for its active support for the Azerbaijani position:

".. .It is the first time that Azerbaijan has participated at a summit meeting of the Organization of the Islamic Conference. And this means that the doubts on the ties of the independent Republic of Azerbaijan to the Islamic world disappeared. I would like to say that I am hopeful that the resolutions to be adopted here will play an important role in defending the just cause of Azerbaijan. I highly appreciate the efforts of the Ministry of Foreign Affairs of the Islamic Republic of Iran in defending the Azerbaijani position during the drafting of these resolutions."

It must be noted though that in 1994, when Azerbaijan signed the Contract of the Century, Iran was cautious and regarded this as an unwelcome step. It was the lack of agreement on the status of the Caspian Sea that caused discontent from the Iranian side. President Heydar Aliyev proposed to the Iranian side that they should participate in the development of a natural gas structure as part of the newly-created international consortium. Iran accepted this proposal. As a result, the National Oil Company of Iran was included in the consortium with ten percent share.

When discussing Azerbaijani-Iranian relations, one cannot forget the role played by Iran in the social and economic development of Nakhchivan, which does not have a direct land link with mainland Azerbaijan. Despite the declaration of a ceasefire at the Armenian-Azerbaijani front in 1994, the country was in a very difficult situation. Nakhchivan, which was by then completely isolated from Azerbaijan, was in a blockade by Armenia in every sense of the word. The autonomous republic was experiencing serious

difficulties, especially during the winter time due to insufficient energy. However, Iran never denied its assistance - it broke through the blockade, and supplied Nakhchivan with both energy and food that saved thousands of people from starvation and severe cold. Heydar Aliyev acknowledged with gratitude that Iran was a friendly country and a vital supporter during those difficult days for Nakhchivan: "The mutual visits and trading between the residents of Nakhchivan and Iran was simplified. I note again Iran's assistance to Azerbaijan, Nakhchivan and express my gratitude." President Aliyev attached special importance to relations with Iran and noted that good Azerbaijani-Iranian relations have contributed significantly to the stability in the region.

Today, the foreign policy toward Iran under the presidency of Ilham Aliyev, looks at the development of ties with Iran not only from the perspective of national interests of Azerbaijan, but also within the framework of security of the Caspian Sea region and the Caucasus in general. In fact economic and political relations with Iran were raised to a qualitatively new level after Ilham Aliyev was elected as the president. A number of agreements had an important role in the development of cooperation between the two states. Major agreements were signed during reciprocal presidential visits, specifically official visits by the former President of Iran Seyid Mahammad Khatami in 2004 and by the current president, Mahmoud Ahmadinejad, in 2007, in addition to President Ilham Aliyev's visits to Iran in 2005 and 2007. In total, more than 90 documents covering various areas have been signed between the two countries.

As noted previously, energy exchange is an important field of Azerbaijani- Iranian cooperation. At the end of December 2005, during an official visit by President Ilham Aliyev to Iran, a main gas line from Iran to the Nakhchivan Autonomous Republic was opened. Finally, after fifteen years, the energy problem of Nakhchivan was resolved with an agreement made with Iran. The agreement on this gas line was reached in 2004 during the visit of Iranian President Khatami to Baku. From November 2005 consumers of Nakhchivan and Julfa, the city where gas lines from Iran cross the border, started receiving Iranian gas by the newly-laid pipeline. Gradually the fuel supply to other locations of Nakhchivan commenced and, within a short period of time, the number of subscribers in the autonomous republic exceeded 12,000.

By the end of 2005, Nakhchivani consumers were receiving approximately 52 million cubic meters of gas from Iran. This figure reached 250 million cubic meters in 2006 and, 350 million cubic meters in 2007. In return, an equivalent amount of gas was passed from Azerbaijan to Iran at

Astara. It supplies northwest regions of Iran with gas. According to this 25-year arrangement, Iran passes 85 percent of the gas coming from Azerbaijan to Nakhchivan and takes 15 percent as a service fee for domestic consumption. The agreement does not involve cash payments. New perspectives for cooperation in the gas field between Azerbaijan and Iran were opened in March 2009 after Russia and Iran signed a memorandum of understanding in the oil and gas field. This might involve delivery of Turkmen gas to the Persian Gulf states through the transit lines of Azerbaijan.

During the last 15 years, the most important foundation of Azerbaijani foreign policy has been its strategic interests and it was distinctly evident in Azerbaijani-Iranian bilateral relations. Our country warmly accepts Iran's support for the Azerbaijani initiative to establish an organization of the Caspian Sea basin countries, as well as its support in the Organization of the Islamic Conference and in the Organization of Economic Cooperation. Relations will improve even more if Iran supports Azerbaijan's attempts to begin a reconstruction of the historic Europe-Caucasus-Asia Great Silk Way and Azerbaijan's participation in the North-South transport corridor.

Another encouraging trend in Azerbaijani-Iranian relations was the opening, after 10 years of negotiations, of the General Consulate of the Republic of Azerbaijan in Tabriz in 2004. Furthermore, during President Ilham Aliyev's 2005 visit the parties signed an agreement that aims to simplify trade between the two countries.

Over the past years Azerbaijan has significantly invested in the improvement of its political, economic, trade and cultural ties with other member states of the Organization of the Islamic Conference. Currently, Azerbaijan maintains an active dialog with Saudi Arabia, Indonesia, the United Arab Emirates, Malaysia, Kuwait, Qatar, Oman, Bahrain and Brunei. The recent visits by President Ilham Aliyev to Kazakhstan and Uzbekistan reflect the importance that Baku attaches to developing its relations with the Central Asian countries.

At the same time, Azerbaijan has also good ties with Israel. Israel was one of the first states to recognize Azerbaijan, and diplomatic relations were established in 1994. The Jewish community living in Azerbaijan made significant contributions to the scientific, artistic and cultural life of this country during the last 100 years. Azerbaijan has long been a homeland for Jews. Since the Middle Ages, Jews fleeing from religious and political discrimination, prosecution and other hardships in either Western Europe or tsarist Russia, found safety and security within the Ottoman Empire and Azerbaijan. Currently, 42,000 Jews live in Azerbaijan. Their many national and cultural organizations, social and charitable funds, synagogues and

schools actively contribute to Azetbaijani civil society. Israeli companies and businesses operate within Azerbaijan. Currently, there are 11 joint Israeli-Azerbaijani commercial entities, 5 entities with 100 percent Israeli investment and representative offices of 3 Israeli companies are registered in Azerbaijan.

Today, Israel is one of Azerbaijan's main trade partners. In 2008, Azerbaijan exported to Israel US$ 3.5 billion worth of oil and oil related products. Both parties intend to further increase this amount. Broad opportunities exist for the further improvement of cooperation with Israel in a wide range of fields: technology, construction, electrical equipment, project management, communication, infrastructure, agriculture, tourism, and recreation and health centers. Israel itself sees Azerbaijan as a very important strategic partner in the region and strives to expand relations with Azerbaijan in all areas.

Azerbaijan attaches special importance to the development of mutually beneficial ties with the People's Republic of China (PRC), one of the most influential countries in Asia. As a permanent member of the Security Council of the UN and the world's most populous country, China is one of the most significant players in the international system. The visit by President Heydar Aliyev to the PRC in March 1994, shortly after his return to power and the conclusion of 10 important documents between the two countries, initiated the successful development of Sino-Azerbaijani ties.

The state visit of President Ilham Aliyev to the People's Republic of China in March, 2005, was also very productive. Political cooperation between Azerbaijan and China is facilitated by the fact that the two countries share common interests. The territorial integrity of both Azerbaijan and China was violated and both countries face similar problems. China has always backed the position of Azerbaijan within international organizations. China has supported the resolution of the Nagorno-Karabakh conflict within the framework of the territorial integrity of Azerbaijan. Similarly, Azerbaijan supports China and recognizes the inviolability of Chinese borders. The positions of both countries in relation to this problem were confirmed by the parties once again at high level Azerbaijani-Chinese negotiations held in Beijing. China supports the intention of Azerbaijan to join the World Trade Organization. As a member of this organization, China considers that the realization of this intention will help the sustainable development of trade and economic cooperation between the two countries. On the other hand, there are striking similarities in the modern development paths chosen by both Azerbaijan and China. The development of both countries is based on strong social and political

stability. While preserving a state of stability, Azerbaijan and China carry out economic reforms and achieve noteworthy successes.

Today, the principle of territorial integrity forms the basis of Azerbaijani- Chinese relations. China respects Azerbaijani independence, territorial integrity and sovereignty and supports the peaceful and just resolution of the Nagorno-Karabakh conflict within the framework of territorial integrity of our country. China supports relevant resolutions adopted by the UN Security Council. It should be noted that the PRC was the only UN Security Council member that voted for the amendment to the resolution put forward by Azerbaijan on cooperation between the UN and OSCE when voting took place at the UN General Assembly.

The close relations between the two countries is apparent within the frame works of international organizations. During the election for the International Fund for Agricultural Development held in February 2006, Azerbaijan supported the PRC's candidacy, taking into account China's request. During elections to the UN Human Rights Council held in May 2006, an agreement of mutual support was achieved between Azerbaijan and China and, consequently, the candidacy of Azerbaijan from the East Europe group was supported by China, and Azerbaijan supported the candidacy of China from the Asian regional group. Both states were elected members to this body. During the election for the position of Director General of the World Health Organization held in November 2006, China approached Azerbaijan with a view to supporting its candidate and even sent its candidate to our country on an official trip. Azerbaijan supported China's candidate, who eventually won.

At the same time, bilateral contacts between the law enforcement authorities of the two countries have intensified in areas of combating terror, separatism and extremist activities which have been increasing threats in recent years. Economic ties between China and Azerbaijan have been increasing too. In 2008, the volume of overall trade between the two countries was US$ 997.5 million which indicates a 2.4 times increase in comparison with the previous year. Last year, China's share in foreign trade turnover of Azerbaijan constituted 1.8 percent.

China is interested in Azerbaijan's energy resources. Multinational consortiums that took the lead in developing the energy resources of Azerbaijan include Chinese companies. As China continues to develop, its energy needs also increase. So, Azerbaijani energy may play a role in the development of the Chinese economy. Agreements between companies of the two countries foresee the creation manufacturing entities in Azerbaijan. Utilizing Chinese technology, they would focus on the production of cables,

computers, mobile equipment for the energy industry, packages and packaging materials for use in agriculture, weaving and footwear industry products, and construction materials. Azerbaijan is also seeking close partnership with China in the Europe-Caucasus-Asia (TRACECA) transport corridor project.

The establishment of a relationship with Japan, which is a major player in global politics and a center of gravity in the world economy, due to its scientific and technological achievements, also coincides with the first term of Heydar Aliyev's presidency. In fact, cooperation between Azerbaijan and influential Japanese companies can be traced back more than 30 years. Even during the Soviet period, under the initiative of Heydar Aliyev, Japanese specialists were involved in the construction of a massive Baku Air Conditioner Plant in 1973-1975. This major project was realized with the assistance of Toshiba. During the Soviet period, the AZON plant was one of the entities that involved the close cooperation of Japanese companies. This plant was built in 1967 with partly local and partly Japanese technologies, and it specialized in manufacturing microchips.

Japan was one of the first countries to recognize Azerbaijan's independence. After Tokyo recognized Azerbaijan on December 28, 1991, diplomatic relations were established between the two countries in September, 1992. However, the government, which was in power then, did not take any actual steps towards the expansion of ties with Japan. After returning to power in June 1993 Heydar Aliyev pursued the strategy of establishing multifaceted relations with leading states, of both West and East. Consistent with this strategy he made significant efforts for the expansion of ties with Japan. The allocation of a large share (13.92 percent) of the Contract of the Century to Japanese companies Itochu and Impex, and their close involvement in the development of Caspian energy resources is a result of President Aliyev's outreach.

During President Heydar Aliyev's official visit to Japan in February 1998, a number of agreements on bilateral relations were signed and important steps were taken for the expansion of economic and trade ties. During the last 10 years, cooperation between Azerbaijan and Japan in various fields has continued, and the interests of Japanese businesses in Azerbaijan continues to increase. One of the important steps stimulating development of bilateral relations was the opening of The Japanese Embassy in Azerbaijan on January 21, 2000. This was the first Japanese embassy in the South Caucasus region. Following this, in December 2002, President Heydar Aliyev signed an order about the establishment of the Azerbaijani Embassy in Japan.

The Japanese government has given Azerbaijan loans totaling mote than US$ 400 million, including aid of US$70 million. Japanese financial help contributed to the development of a dynamic humanitarian component in the relations between the two countries. The Japanese government's concern for the Azerbaijani IDPs, who were driven out of their historic lands as a result of Armenian occupation, deserves special attention. Japan helped refugees who were displaced as a result of Armenian aggression either through government institutions or various international financial institutions, such as the Asian Development Bank. Japan also provided assistance to refugees through the UN High Commissioner for Refugees (US$2.66 million), Red Cross Society (US$1 million), and the Asian Development Bank (US$2.55 million). The Japanese Embassy in Baku has allocated funds for solving the drinking water problems of the IDPs, construction of irrigation systems and building infrastructure.

The Japanese government also allocates grants to Azerbaijan for the protection of national heritage sites.. The total amount of grants allocated by apan to Azerbaijan within the framework of the Grassroots program is more than US$50 million. The growing ties between the two countries created a need for the study of Japanese history, language and culture in Azerbaijan. To address this, a Japanese language department was opened in 2001 as part of the Oriental Studies Department of Baku State University.

The first official trip by President Ilham Aliyev to Japan in March, 2006 contributed to the development of relations between the two countries. Japan is interested in Azerbaijan due to the latter's location on the geostrategic transit lines connecting the West and the East. The stable political and economic environment in Azerbaijan offers attractive business opportunities to Japanese businessmen. As a result of this, today there are many Japanese businesses operating in Azerbaijan. While the trade turnover between the two countries was only US$ 66.9 million in 2001, this figure had increased to US$ 365 million by 2008.

Cooperation between Azerbaijan and Japan within the framework of international organizations has also been quite successful. Both countries support UN reform and Azerbaijan supports Japanese membership in the UN Security Council. The Japanese participation in GUAM – the Organization for Democracy and Economic Development - during the last three years, is an important component of the relationship between the two countries. Japan consistently participated in the summit meetings of this organization, and maintains negotiations in the GUAM-Japan format. This is yet another confirmation of Japan's interest in the region and, specifically, in Azerbaijan. Baku also hopes to get Japanese support in the process of

World Trade Organization membership. The ties between Azerbaijan and Japan also continue to develop in the humanitarian field and the strengthening of bilateral legislative contacts. The two countries have been working towards the establishment of a Japanese-Azerbaijani Chamber of Commerce and there are plans to hold business forums.

The Republic of Korea also constitutes an important component of Azerbaijani foreign policy in Asia. Although relations with the Republic of Korea are mainly economic, both countries also efficiently cooperate within the frames of international organizations. The Republic of Korea has not been indifferent to the most painful problem of the South Caucasus: the Nagorno-Karabakh conflict. It has repeatedly defended the Azerbaijani position and supports the peaceful resolution of the conflict on the basis of the principle of territorial integrity.

During the official visit of the President of the Republic of Korea Roh Moo-hyun to Azerbaijan on May, 2006, a number of bilateral documents were signed in the fields of communication and information technologies, energy, construction and air transportation. A working group for cooperation with Azerbaijan was created within the Ministry of Trade, Industry and Energy of the Republic of Korea.

During a 3-day state visit by President Ilham Aliyev to Korea in April, 2007, further significant agreements were signed. It did not take long for the results of this cooperation to appear. The volume of overall trade between Azerbaijan and Korea reached US$ 859.3 million in 2008, a threefold increase in comparison to 2007.

Negotiations with Korea continue on Azerbaijan's membership in the World Trade Organization. Discussions also continue on the creation of free trade and economic zones, the construction of shipyards and the building of a high speed railway through the framework of the "State Program on the evelopment of the State Railway of Azerbaijan during 2008-2011." Korean companies are also interested in the modernization of the public transportation system in Baku and other cities.

Azerbaijan's rapidly developing friendly and cooperative relations with China, Japan and the Republic of Korea is yet another reflection of the swift overall social and economic development of this country. Azerbaijan's commitment to democratic values, human rights and freedoms are met with interest both in the East and the West. Azerbaijan follows a balanced foreign policy and maintains multi-vector ties, and this strategy has strengthened the country's position as a reliable partner in the international community, for both Western and Eastern countries.

The formulation of a balanced foreign policy course by the late

President Heydar Aliyev laid the foundation of a qualitatively new level of ties between Azerbaijan and the countries of Asia. Under the presidency of Ilham Aliyev, Azerbaijani's ties with Eastern countries continued to develop along lines consistent with our national interests. Today, the Eastern countries are familiar with Azerbaijan's problems and decidedly support its position. This is largely thanks to the foreign policy pursued by President Heydar Aliyev. This is a foreign policy based on noble ideals and it strives to solve the country's problems, facilitate its overall development, and ensure that the voice of the Azerbaijani people is heard within the world community.

"Azerbaijan In Global Politics: Crafting Foreign Policy",
Azerbaijan Diplomatic Academy,
Baku, 2009, p. 149-171

XƏZƏR HÖVZƏSİNDƏ ENERJİ MƏSƏLƏLƏRİ

Heydər Əliyevin enerji diplomatiyası

Ümummilli liderimiz, dahi dövlət xadimi Heydər Əliyevin uğurlu xarici siyasət kursunun ən mühüm, strateji tərkib hissələrindən biri Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin edilməsindən ibarət olmuşdur. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır.

Yeni neft erasının təməlini qoyan "Əsrin müqaviləsi"ni imzalamağa hazırlaşarkən Heydər Əliyev Azərbaycanın neft yataqlarının müştərək işlənilməsində əsas siyasi və iqtisadi amilləri nəzərə almış, neftin üçüncü minillikdə Azərbaycan xalqına, onun gələcək nəsillərinə xidmət etməsinin istiqamətlərini müəyyənləşdirmişdir. Regionda beynəlxalq əməkdaşlığın təməlini qoymuş bu qlobal enerji müqaviləsi eyni zamanda Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqləmişdir. Müqavilənin imzalanmasına həsr olunan təntənəli mərasimdə ulu öndər deyirdi: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərpa olunduğunu, xalqımızın öz sərvətlərinə sahib çıxdığını bütün dünyaya bir daha nümayiş etdirdik".

Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Cənubi Qafqaz yolunun fəaliyyətə başlaması iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Orta Asiya dövlətlərinin siyasi mövqelərinin yaxınlaşmasına və beləliklə, Azərbaycanın regional təhlükəsizliyinin möhkəmlənməsinə əlverişli şərait yaratmışdır.

Neft strategiyasının uğurla həyata keçirilməsi beynəlxalq aləmdə Azərbaycan haqqında ictimai rəyin formalaşmasına xidmət edən bir vasitə kimi respublikamızın həyatından bəhs edən gerçək məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar açmışdır. Neft müqavilələrinin mahiyyəti və həyata keçirilməsi ilə bağlı müxtəlif məsələlərin müntəzəm olaraq dünya dövlətlərinin rəsmi dairələrində, kütləvi informasiya vasitələrində müzakirə edilməsi Azərbaycan haqqında ictimai-siyasi və

iqtisadi xarakterli məlumatların beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmasında mühüm rol oynamışdır. Neft şirkətlərinin, onların təmsil etdikləri dövlətlərin Azərbaycan ilə səmərəli qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişlənməsində maraqlı olmaları Azərbaycan haqqında obyektiv olaraq müsbət ictimai fikrin formalaşmasına diqqət yetirmələrini şərtləndirir.

Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirmişdir. Qərb dövlətlərinin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri ilə müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla böyük dövlətlərin mənafelərinin kəsişdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvətli bir bölgədə aparıcı dövlətlərin iqtisadi maraqlarının təmsil olunmasına şərait yaratmaq, Azərbaycana qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb dövlətləri amilindən istifadə etməyə imkan verir. Nüfuzlu dövlətlərin regionda siyasi təsir vasitələrinin güclənməsi Azərbaycanın da manevretmə dairəsini genişləndirir.

Yeni neft strategiyası ölkəyə daxil olan vəsaitlərin şəffaf şəkildə idarə olunması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, ölkə infrastrukturlarının yenidən qurulması, eləcə də müstəqil Azərbaycan dövlətinin qüdrətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da yüksəltmişdir. İndi Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuş, aydın inkişaf perspektivlərinə malik ölkə imicini qazanmışdır.

Neft sənayesinin dirçəldilməsi və birbaşa iqtisadi mənfəət götürülməsi ilə yanaşı, yeni neft strategiyası maşınqayırma, kənd təsərrüfatı, telekommunikasiyalar, servis xidmətləri kimi digər sahələrə sərmayələr qoyulması, yeni iş yerləri açılması üçün əlverişli zəmin yaratmışdır. Neft amilindən səmərəli istifadə etməklə ölkəmiz sosial inkişafa, yeni istehsal və sənaye infrastrukturlarının qurulmasına nail olmuşdur. ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı kimi ölkələrin şirkətlərinin konsorsiumun tərkibinə daxil olması sayəsində ölkəmizin elmi və mədəni əlaqələri genişlənmişdir. Dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına cəlb edilməsi bir tərəfdən ölkəmizin iqtisadi gücünü artırmış, digər tərəfdən də onların siyasi dəstəyini təmin etmişdir.

Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi region dövlətləri arasında iqtisadi inkişaf tempinin disproporsional şəkildə gedəcəyini göstərir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası Azərbaycanın iqtisadi baxımdan inkişafına öz müsbət töhfələrini verməkdədir və Ermənistanın qlobal iqtisadi layihələrdən kənarda qalması fonunda Azərbaycanın sürətlə irəli çıxması Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin həlli prosesinə də öz müsbət təsirini göstərəcəkdir. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri Zbiqnev Bjezinskinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin Cənubi Qafqazda münaqişələrin həlli prosesində əsaslı rol oynayacağını qeyd etdiyini xatırlatmaq yerinə düşər. Belə olan təqdirdə Xəzərin karbohidrogen ehtiyatları kimi ciddi iqtisadi resurslara və Şərq-Qərb enerji dəhlizinin yaradılmasında son dərəcə əhəmiyyətli strateji mövqeyə malik olan Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində bu üstünlüklərdən istifadə etmək imkanı daha çoxdur.

Ümummilli lider Heydər Əliyevin enerji diplomatiyasının başlıca istiqamətlərindən birini Xəzər dənizinin hüquqi statusu məsələsi təşkil etmişdir. Heydər Əliyevin siyasi uzaqgörənliyi və iradəsi olmasaydı, Xəzər dənizinin hüquqi statusu üzrə mövqelərin beş sahilyanı dövlət arasında razılaşdırılması məsələsi intəhasız davam edərdi. Məhz onun şəxsi səyləri sayəsində bu problemi ilişib qaldığı nöqtədən çıxarmaq mümkün olmuşdur. Prezident Heydər Əliyevin apardığı siyasətin uzaqgörənliyi bunda idi ki, o, Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ətrafında uzun sürən mübahisələrin nəticələrini gözləməyərək, Xəzərin Azərbaycan sektorundakı yataqların xarici şirkətlərlə birgə işlənilməsi haqqında sənəd imzalamışdır.

Xəzər regionunun coğrafi-siyasi mövqeyinin xüsusiyyəti onun Avropadan Asiyaya gedən ənənəvi ticarət yollarının qovuşuğunda yerləşməsindədir. Sovet İttifaqının süqutundan sonra Xəzər təkcə beş sahilyanı ölkənin deyil, həm də Qərbi Avropanın bir çox aparıcı dövlətlərinin, ABŞ-ın və Rusiyanın, habelə Cənubi Qafqaz və Yaxın Şərq dövlətlərinin mənafelərinin kəsişdiyi məkana çevrilmişdir. Xəzər hövzəsində coğrafi-siyasi mənafelər həm zəngin ehtiyatlara görə, həm də Azərbaycana və Mərkəzi Asiya ölkələrinə ayrılan rola görə kəsişir. Məhz belə bir şəraitdə Azərbaycan Prezident Heydər Əliyevin enerji diplomatiyası sayəsində regionda böyük təsir imkanlarına malik olan Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə nail olmuşdur ki, bu da ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, Xəzəryanı bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması, eləcə də Xəzərin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Rusiya Prezidenti Vladimir Putinin 2001-ci il yanvarın ayında Bakıya səfəri zamanı "Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında" Azərbaycan Respublikasının və Rusiya Federasiyasının birgə bəyanatının imzalanması Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında mühüm məqam olmuşdur. Tərəflər Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığına dair məsələləri müzakirə edərək, bu cür əməkdaşlığı mehriban qonşuluq, qarşılıqlı anlaşma və hörmət

ruhunda genişləndirməyə çalışaraq, sahilyanı dövlətlərin iqtisadi inkişafı üçün Xəzər dənizinin böyük əhəmiyyətini vurğulayaraq, Xəzər dənizindən ancaq dinc məqsədlərlə istifadə olunması barədə öz mövqelərini bir daha bəyan etmişlər. Bu sənəd təsdiq etmişdir ki, Xəzərin yeni hüquqi statusunun hazırlanması sahilyanı dövlətlərin öz işidir və dənizin statusu yalnız onların ümumi razılığı əsasında hazırlana bilər. Tərəflər Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyaya dair beştərəfli danışıqlar prosesinin fəallaşdırılmasına birgə kömək göstərməyə hazır olduqlarını elan etmişlər. Səfər zamanı prezidentlər qarşılıqlı razılığa doğru mərhələ-mərhələ irəliləməyə tərəfdar olduqlarını bildirərək, hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərini və yaranmış praktikanı nəzərə almaqla, birinci mərhələdə Xəzər dənizinin dibini müvafiq həmsərhəd dövlətlər arasında sektorlara bölməyi təklif etmişlər. Tərəflər razılığa gəlmişlər ki, belə bölgü nəticəsində yaranan sektorda sahilboyu dövlətlərin hər birinin mineral ehtiyatlar və digər təsərrüfat-iqtisadi fəaliyyət barəsində müstəsna hüquqları olacaqdır. Xəzərdə ekoloji vəziyyətin pisləşdiyi nəzərə alınaraq, dənizin ətraf mühitinin mühafizəsi məsələlərinin müzakirəsini sürətləndirmək niyyəti ifadə edilmişdir. Rusiya dənizdəki iqtisadi sərhədlərini müəyyənləşdirərək, bu istiqamətdə Azərbaycanla əməkdaşlığını genişləndirərək, Xəzərin özünə aid şelfində mineral ehtiyatların axtarışına və işlənilməsinə fəal surətdə qoşulmuşdur. Söz yox ki, Xəzəryanı dövlətlərin şirkətləri tərəfindən neft-qaz əməliyyatları aparılmasına inteqrasiya mövqeyindən yanaşmaq niyyəti zamanın hökmüdür.

Rusiya ilə Azərbaycan arasında, habelə Rusiya ilə Qazaxıstan, Azərbaycan ilə Qazaxıstan arasında dəniz sektorları sərhədlərinin müəyyənləşdirilməsi Xəzərin statusu məsələsinin həllində digər dövlətlərin – Türkmənistan və İranın da mövqelərini dəyişdirmək zərurətini irəli sürmüşdür. Xəzərin statusu ilə bağlı birgə Azərbaycan-Rusiya sənədləri paketinin imzalanması bu nadir sututarın bioloji və enerji ehtiyatlarından daha səmərəli istifadə etməyə, Xəzəryanı dövlətlərin milli sektorlarını ayıran orta xətlərin müəyyənləşdirilməsi, habelə neft və qazın nəqli üçün Xəzəryanı sistemlərin layihələşdirilməsi və tikintisi məsələlərində xoşagəlməz halları, mübahisələri aradan qaldırmağa imkan verəcəkdir.

Xəzərin formalaşan yeni statusu Azərbaycana öz sektorunda neftin sahibi olmaq hüququ versə belə, enerji resurslarının nəqli üçün optimal marşrutları uğurla seçmədən hansısa səmərəyə və üstünlüyə nail olmaq çətin idi. Ona görə də bu problem ötən əsrin 90-cı illərinin ortalarında strateji xarakter aldı (özü də təkcə Xəzəryanı dövlətlər üçün yox, həm də Qərb və Asiya ölkələri üçün), ərazisindən transmilli boru kəmərlərinin keçməsi nəzərdə tutulan ölkələr arasında rəqabətin güclənməsinə səbəb oldu.

Tarazlaşdırılmış xarici siyasət yeridən Heydər Əliyev regionla bağlı

olan bütün ölkələrin maraqlarını nəzərə alırdı. Bu baxımdan 1996-cı ilin yanvar ayında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası sazişin imzalanması son dərəcə müdrik siyasi qərar idi. Həmin xətt 1997-ci ilin oktyabr ayında istifadəyə verildi. İxrac boru kəmərlərinin çoxvariantlılığının böyük əhəmiyyəti olduğu nəzərə alınaraq, 1997-ci ilin martında yenə də Qara dənizə çıxmaq şərtilə, neftin Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqli haqqında Azərbaycan ilə Gürcüstan arasında da saziş imzalandı. İki ildən sonra Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan bu boru kəmərinin və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalının açılış mərasimi keçirildi. Bakı-Supsa marşrutu Xəzər neftinin Avropaya yolunu açdı.

Lakin Azərbaycanda çıxarılan neftin həcminin kəskin surətdə artması ilə əlaqədar daha güclü boru kəməri yaratmaq lazım idi. Əsas ixrac kəməri kimi Bakı-Tbilisi-Ceyhan marşrutu ideyası beləcə yarandı. Təklif ötən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq geniş müzakirə edildi və onu həm Azərbaycan rəhbərliyi, həm də bütün maraqlı tərəflər - konsorsiumun iştirakçıları, habelə ABŞ, Türkiyə, Qazaxıstan və Gürcüstan liderləri dəstəklədilər.

Yalnız Heydər Əliyevin yüksək nüfuzu, Azərbaycanın maraqlarını qoruyub saxlaması və mütəmadi olaraq müxtəlif dövlət başçıları ilə danışıqları sayəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması məsələləri qısa müddət ərzində həll olundu və bununla bağlı çox mühüm dövlətlərarası sazişlər imzalandı.

1998-ci il oktyabrın 29-da ümummilli liderimizin təşəbbüsü ilə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi ilə bağlı Ankara Bəyannaməsi imzalandı. 1999-cu ilin noyabrın 18-də isə ATƏT-in İstanbul zirvə toplantısında «Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair» razılaşma əldə olundu. Həmin razılaşmaya ABŞ və Qazaxıstanın dövlət başçıları da imza atmaqla üzərlərinə müəyyən hüquqi və siyasi təəhhüdlər götürdülər. BTC-nin reallaşması «Əsrin müqaviləsi»nin imzalanmasından sonra Azərbaycan üçün ikinci mühüm tarixi əhəmiyyət kəsb edən hadisə olmuşdur. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin təməlqoyma mərasimi keçirildi. Kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrildi, 2003-cü

ildə kəmərin tikintisinə başlanıldı.

Ümummilli liderimiz hər zaman bəyan etmişdir ki, neft Azərbaycanın ən böyük sərvətidir və ondan son dərəcə qənaətlə istifadə olunmalıdır. Bu sərvət Azərbaycanın bütün nəsilləri arasında ədalətli şəkildə bölünməlidir. Böyük strateq neftdən əldə olunan gəlirlərin düzgün və səmərəli istifadəsi məsələsini daim diqqətdə saxlamış, 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Dövlət Neft Fondunu yaratmışdır. Fondun yaradılması neft sazişlərinin həyata keçirilməsi ilə əlaqədar əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsi mexanizmi kimi nəzərdən keçirilmişdir. Burada neft-qaz ehtiyatlarının işlənməsindən əldə olunan gəlirlərdən düzgün istifadə edilməsi, eləcə də şəffaflığın tam təmin edilməsi ön plana çəkilmişdir. Prezident Heydər Əliyevin fərmanı ilə Dövlət Neft Fondundan ilk maliyyə vəsaiti Azərbaycanın ən ağrılı probleminin həlli - qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, çadır düşərgələrinin ləğvi məqsədilə ayrılmışdır.

Ölkəmizin dinamik sosial-iqtisadi inkişafına təkan verən yeni neft strategiyası 2003-cü ilin oktyabrından ulu öndərimizin layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Prezident İlham Əliyevin son üç il ərzində həyata keçirdiyi çoxşaxəli islahatlar kursu respublikamızın yeni sosial-iqtisadi təmayüllərini təkmil şəkildə müəyyənləşdirməklə yanaşı, həm də böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. 2003-cü ilin oktyabrında prezident səlahiyyətlərinin icrasına başlayan cənab İlham Əliyev qısa zaman kəsiyində Heydər Əliyev siyasi kursunu qətiyyətlə davam etdirəcəyinə xalqda tam əminlik yaratmış, eyni zamanda, əsası ümummilli liderimiz tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsinə əsaslı zəmin formalaşdırmışdır.

Neftdən qazanılan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin hökumət qarşısında müəyyənləşdirdiyi mühüm vəzifələrdəndir. Dövlət başçısının çevik və işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial-iqtisadi inkişafın nəticəsi olaraq bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadiyyatın inkişafının sürətləndirilməsi strategiyası ölkə iqtisadiyyatının yüksələn xətlə artımını təmin etmişdir. 2004-cü ildə ümumi daxili məhsulun həcmi 10.2 faiz, 2005-ci ildə 26.4 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Son üç ildə dövlət büdcəsinin xərcləri 3.3 dəfə artmış, ölkədə 500

mindən çox yeni iş yeri açılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyasının reallaşdırılması baxımından son üç ili kifayət qədər uğurlu hesab etmək olar. Belə ki, 2004-cü ilin fevralında BTC-nin maliyyələşdirilməsi məsələsi tam həllini tapmış, 2005-ci il fevralın 18-də «Əsrin müqaviləsi» çərçivəsində «Mərkəzi Azəri» platforması istismara verilmiş, mayın 25-də BTC-nin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirilmişdir. Cənab İlham Əliyev BTC-nin Gürcüstan hissəsinin istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirdə bu strateji layihənin iştirakçı dövlətlərə daha böyük uğurlar gətirəcəyini bəyan etmişdir: «Bakı-Tbilisi-Ceyhan transmilli layihədir. Dünyanın ən böyük enerji layihəsidir və onun uğurla başa çatması bütün bölgəyə yeni nəfəs gətirəcək, burada yeni imkanlar yaradacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Çünki bundan əldə olunan gəlir, şübhə etmirəm ki, bölgəmizin iqtisadi potensialına, rifah halının yaxşılaşmasına xidmət edəcəkdir».

Nəhayət, 2006-cı il iyulun 13-də mühüm tarixi hadisə baş verdi - əfsanə reallığa çevrildi. İqtisadi qüdrətinə, mühəndis-texniki qurğu kimi əzəmətinə və geosiyasi dəyərinə görə çağdaş dünyanın ən nəhəng enerji ixrac layihəsi olan Bakı-Tbilisi-Ceyhan kəmərinin istifadəyə verilməsi dünya tarixində yeni bir səhifə açdı. Həmin gün bütün dünyanın nəzərləri BTC-nin açılış mərasiminin keçirildiyi Türkiyənin Ceyhan limanına yönəldi. Bütün dünya enerji təhlükəsizliyi məsələsini özünün bir nömrəli probleminə çevirmiş müasir dünyamızın enerji təchizatı sistemi üçün yeni və olduqca önəmli bir arteriyanın istifadəyə verilməsi anını izlədi. Azərbaycanın çağdaş tarixinin ulu öndər Heydər Əliyevin müəllifliyi ilə yaradılmış az qala yarım əsrlik dövründə qazandığımız bir çox nailiyyətlər kimi, bu açılış mərasimi də müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin irəli sürdüyü strateji inkişaf kursunun təntənəsi idi.

Bu hadisə təkcə Azərbaycanda hasil edilmiş neftin dünya bazarına çıxışını təmin edəcək yeni bir kəmərin istifadəyə verilməsi baxımından önəmli deyil. BTC-nin reallığa çevrilməsi beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun güclənməsi, ölkəmizin regionda əsas söz sahibinə çevrilməsi, ümumilikdə Avropanın enerji təhlükəsizliyi kimi əhəmiyyətli məsələlərdə Azərbaycanın mövqeyinin önə çıxması baxımından böyük imkanlar açır.

İqtisadi-kommersiya baxımından səmərəliliyi, ekoloji təhlükəsizliyi ilə seçilən və yeni iştirakçı dövlətlər hesabına getdikcə daha da güclənən Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin işə düşməsi ölkəmiz üçün parlaq perspektivlər açaraq, qeyri-neft sektorunun inkişafına, yoxsulluğun azaldılmasına və əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına mühüm

imkanlar yaradır. Transmilli layihə kimi Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qısa zaman çərçivəsində bütün regionun simasını dəyişəcək, bölgədə tərəqqiyə, əməkdaşlığa, sülhə və təhlükəsizliyə xidmət edəcəkdir.

BTC faktiki olaraq bu gün regionda sülhün və sabitliyin, enerji təhlükəsizliyinin başlıca təminatçısına çevrilmişdir. Qazaxıstanın hasil etdiyi neftin bir hissəsini dünya bazarına çıxarmaq üçün bu layihəyə qoşulması, Rusiyanın, həmçinin digər neft ixrac edən dövlətlərin də eyni məqsədlə müxtəlif səviyyələrdə gündəmə gətirdikləri əməkdaşlıq təklifləri bu gün BTC-nin dünyanın enerji təhlükəsizliyi sistemində oynadığı böyük rolun, dünyada sülhün təminatına, fövqəldövlətlərin geostrateji maraqları arasında ortaq məqamların əldə olunmasına verdiyi böyük töhfələrin ifadəsidir.

Bu kəmər, eyni zamanda Azərbaycanın tranzit ölkə kimi malik olduğu imkanları genişləndirmiş, neftin cəmiyyətimiz üçün məqsəd deyil, vasitəyə çevrilməsinə, regionda həyata keçirilən digər qlobal enerji və kommunikasiya layihələrinin icrası prosesinə də təkan vermişdir. Neftdən əldə edilən gəlirlərin milli iqtisadiyyatımızın digər sferalarına yönəldilməsi bu gün Azərbaycanın dövlət rəhbərliyinin qarşıya qoyduğu ən əsas prioritetlərdən biridir. «Əsrin müqaviləsi»nin ölkəmizə gətirdiyi iqtisadi dividentlər hazırda sosial-iqtisadi inkişaf tempinə görə bütün dünyada liderə çevrilmiş Azərbaycanın iqtisadi tərəqqisinin nüvəsini təşkil edir. Neft vəsaitləri üzərində şəffaflığın təmin olunması məqsədi ilə Dövlət Neft Fondunu təsis edən Azərbaycanın bu sahədə əldə etdiyi təcrübə indi bütün dünyada mükəmməl nümunə kimi öyrənilir. Neft hasilatından qazanılan vəsaitlərin səmərəli istifadəsi məqsədilə ölkəmizdə ardıcıl dövlət proqramları həyata keçirilir. Regionların, qeyri-neft sektorunun inkişafına diqqət getdikcə daha da gücləndirilir. Yeni-yeni istehsal-emal müəssisələri açılır, mövcud infrastruktur müasir dünya standartları çərçivəsində yenidən qurulur. Ölkəmizdə işsizliyin, yoxsulluğun ümumi faizi minimuma yaxınlaşır. Bu gün Azərbaycan hökumətinin həyata keçirdiyi siyasətin başlıca qayəsi dövlətimizin başçısının da vurğuladığı kimi, mövcud iqtisadi potensialı insan kapitalına çevirməkdən ibarətdir. Azərbaycanda elmə, təhsilə, səhiyyəyə, informasiya texnologiyalarının inkişafına və insan amilinə xidmət göstərən digər bu kimi sahələrə yönəlmiş böyük diqqət bunun bariz göstəricisidir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, «Biz müxtəlif ölkələrin təcrübəsini öyrənmişik. Əfsuslar olsun ki, bəzi hallarda neft ölkəyə, xalqlara rifah deyil, çətinliklər gətirir, sosial ədalətsizlik, problemlər, gərginlik gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, inkişaf gətirsin, əməkdaşlıq gətirsin, xalqımızın rifah halı yaxşılaşsın və bütün görülən işlər bu məqsədi güdür». Əsrin müqaviləsinin imzalanmasından bəri keçən 12 ilin hər günü Azərbaycan

hakimiyyətinin bu aydın niyyətə, saf amala sadiqliyinin tarixi şahididir.

Ümummilli lider Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi ilə yeni neft strategiyasının həyata keçirilməsində yeni mərhələ başlanmış və üç dənizin əfsanəsi reallığa çevrilmişdir. Bu hadisə Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu bir daha təsdiqləmişdir.

Xəzər neftinin Avropa bazarlarına nəqlində müstəsna rol oynayacaq qlobal enerji layihəsinin icrası prosesinin uğurla başa çatdırılması - Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tam istismara verilməsi müstəqil Azərbaycanın çağdaş tarixinin əlamətdar hadisələrindən biri olmaqla, ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə irəli sürdüyü yeni neft strategiyasının praktik olaraq gerçəkləşdiyinin əyani təsdiqinə çevrilmişdir. BTC üçüncü minilliyin ən nəhəng mühəndis qurğularındandır. O, Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. Öz marşrutu boyu kəmər 1500-dən çox çayla kəsişir. Bir çox torpaq sahələrindən, avtomobil və dəmir yollarından, yüksəkliklərdən və düzənliklərdən keçir. Borular dağlarda 2800 metr yüksəkliyə qədər qalxıb və sonra Ceyhana doğru irəliləyərək yenidən dəniz səviyyəsinə enir. Məhz keçdiyi ərazilərin coğrafi şəraitindən asılı olaraq BTC-nin boruları müxtəlif ölçülü - 46, 42, 34 (əsasən 42) düymdür. BTC kəməri bütün marşrutu boyu istifadə üçün tam yoxlanılmış və istismar sınaqlarından keçirilmişdir. BTC dünya bazarlarına Xəzərin Azərbaycan sektorundakı «Azəri-Çıraq-Günəşli» (AÇG) yataqlarının neftini daşıyacaq. Hazırda bu layihə çərçivəsində «Çıraq», «Mərkəzi Azəri» və «Qərbi Azəri» platformalarından neft hasil edilir. 2007-ci ildə «Şərqi Azəri» və 2008-ci ildə dərinsulu «Günəşli» yataqlarından da neft alınacaq. BTC-yə ilk dəfə keçən ilin fevral ayından çıxarılmağa başlayan «Azəri» nefti vurulmuşdur. Ümumiyyətlə, kəmərin doldurulması üçün 10 milyon barrel neft tələb olunurdu. Xatırladaq ki, onun gündəlik ötürücülük qabiliyyəti 1 milyon barreldir. Lakin hələlik kəmərə gündə orta hesabla 300 min barrel neft vurulacaq. Bu həcm getdikcə artacaq. Yaxın gələcəkdə BTC ildə 50 milyon ton neft nəql edəcək. Kəmərə AÇG neftindən əlavə, Qazaxıstanın dəniz yataqlarından çıxarılan neft də axıdılacaq.

BTC kəmərinin bir sıra yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Onun baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Kəmərin bütün fəaliyyətinə nəzarət Səngəçaldan həyata keçirilir. Kəmərin marşrutunun son nöqtəsi olan Ceyhan terminalı isə 7 neft çənindən və eyni vaxtda 300 min dedveyt tonluq iki tankeri neftlə doldurmaq imkanına malik iki kilometr uzunluğunda yanalma körpüsündən

ibarətdir. 600 min barrel xam neftlə yüklənmiş ilk tanker də dünya bazarlarına məhz buradan yola salınıb. Məlum olduğu kimi, müasir dövrdə karbohidrogen ehtiyatlarının nəqli üçün ən etibarlı vasitə torpağa basdırılan boru kəmərləridir. BTC məhz belə bir kəmərdir. Onun boruları bütün marşrut boyu torpağa basdırılıb və indi ətraf mühitə öz əvvəlki görkəmi qaytarılıb. Üstəlik, kəmər Türkiyə boğazlarını nəqliyyatın tıxacından da xilas edir.

BTC təkcə Azərbaycana deyil, bütün regiona fayda və müsbət dəyişikliklər gətirəcək bir layihədir. O, tranzit ölkələr üçün sanballı gəlir imkanı yaratmaqla bərabər, həm də Azərbaycan, Gürcüstan və Türkiyə ilə Qərb arasında iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsinə yeni bir təkan verəcək. Bu gün dünya səviyyəli layihənin tərəfdaşlarının adlarını bir daha xatırlatmağa dəyər. Bunlar bp (o, həm də əməliyyatçıdır, Böyük Britaniya), Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, «Şevron» (ABŞ), «Statoyl» (Norveç), TPAO (Türkiyə), «Eni» (İtaliya), «Total» (Fransa), «İtoçu» (Yaponiya), «İnpeks» (ABŞ), «KonokoFilips» (ABŞ) və «Amerada Hess» (Səudiyyə Ərəbistanı) şirkətləridir. Kəmərin tam işə düşməsi münasibətilə bp şirkətinin Azərbaycandakı baş təmsilçi prezidenti Deyvid Vudvord demişdir: «İlk «Azəri-Çıraq-Günəşli» neftinin Ceyhandan ixrac olunması hər üç ölkədən olan minlərlə insanın - işçi qüvvəsinin, əhalinin, şirkətlərin, regionun və digər ölkələrin hökumətlərinin, tərəfdaşların və bizim öz işçi heyətimizin illərlə çəkdiyi zəhmətin sonucudur. Bakı-Tbilisi-Ceyhan hər cəhətdən həqiqətən də dünya səviyyəli bir layihədir, biz birlikdə əldə etdiklərimizlə fəxr edirik».

BTC-nin işə düşməsi ölkəmizin iqtisadi potensialının ildən-ilə güclənməsinə imkan verəcəkdir. Kəmərin istismara verilməsi Cənubi Qafqaza milyardlarla dollar həcmində investisiyanın cəlb olunmasına, uğurlu iqtisadi inkişaf modelinin tətbiqinə xidmət edəcəkdir. Ulu öndərimizin «şah əsəri» olan BTC artıq real həyat hadisəsinə çevrilmişdir və bu unikal layihənin Azərbaycanın və regionun digər xalqlarının həyatında mühüm rol oynayacağı heç kimdə şübhə doğurmur. Artıq BTC Azərbaycanın regionda *siyasi mövqelərinin daha da gücləndirilməsinə və dünyada gedən siyasi proseslərə daha böyük təsir imkanları* əldə etməsinə şərait yaratmaqdadır.

Avrasiya nəqliyyat dəhlizinin ən mühüm qollarından sayılan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması Prezident Heydər Əliyevin təkcə öz xalqı qarşısında deyil, həm də beynəlxalq miqyasda ən böyük xidmətlərindən biridir. Artıq regionda, eləcə də Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində marağı olan ölkələrdə bu amil məhz belə qiymətləndirilir.

Bütün iqtisadi hesablamalar Xəzər neftinin Aralıq dənizi limanlarına çıxışının kommersiya və sabitlik baxımından çox sərfəli olduğunu göstərir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin sərmayəçiləri və sahibləri bu layihəni ən yüksək beynəlxalq standartlar əsasında həyata keçirmiş, bütün tikinti işlərində tranzit ölkələrin hökumətləri ilə açıq və şəffaf şəkildə əməkdaşlıq etmişlər.

Azərbaycan neftinin dünya bazarlarına çıxması karbohidrogenlərin dünya bazarlarına nəqlinin inkişafında yeni istiqamət meydana gətirmişdir. Ölkəmizin əsas tərəf kimi iştirak etdiyi qlobal enerji və kommunikasiya layihələri dünya üçün Azərbaycanın əhəmiyyətini daha da artırmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal layihələrin istifadəyə verilməsi Azərbaycanın Avropa İttifaqı üçün daşıdığı önəmi son dərəcə gücləndirmişdir. Enerji təhlükəsizliyi probleminin müasir dünya üçün nə demək olduğunu geniş şərh etməyə lüzum yoxdur. Avropa İttifaqının Azərbaycana Avropa regionunun enerji təhlükəsizliyinin başlıca təminatçısı kimi baxması faktını isə Avropa İttifaqı rəsmiləri də gizlətmirlər. Təsadüfi deyil ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramının aparıcı qollarından birini də məhz respublikamızla birgə iqtisadi layihələrin reallaşdırılması təşkil edir. Azərbaycan təşkilata üzvlük şansı yüksək qiymətləndirilən 10 dövlətdən biri hesab olunur və bu fakt Avropa İttifaqına uzanan yolun respublikamız üçün müəyyən mənada qısaldığını göstərir. Azərbaycan Prezidentinin Brüsselə son səfəri zamanı baş verən yeniliklər də bunun təzahürü oldu. Səfər zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində tərəfdaşlığa dair memorandum imzalanmış, səmərəli əməkdaşlıq əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsinə dair müzakirələr aparılmışdır.

Bütün bunlar respublikamızın təbii karbohidrogen ehtiyatlarının işlənilməsi və ixracı sahəsində regionda yeni beynəlxalq mərkəzə çevrilməsinə, Qara dəniz-Xəzər hövzəsində ümdə mövqe tutmasına, başlıcası isə, möhkəm hüquqi baza əsasında çox böyük Şərq-Qərb enerji dəhlizi yaradılmasına doğru yol açmasına imkan vermişdir.

Bakı-Tbilisi-Ceyhan kimi qlobal enerji layihəsini reallaşdırmaqla dünya neft bazarına öz imzasını qoyan Azərbaycanla artıq Cənubi Qafqazın sıradan bir dövləti kimi deyil, strateji tərəfdaş kimi münasibətlər qurulur. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası da uğurla başa çatdırıldıqdan sonra Azərbaycan bölgədə və dünyada əsas söz sahibi olan dövlətə çevriləcəkdir. Artıq Azərbaycan iqtisadi inkişafın elə bir mərhələsindədir ki, hətta beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin reallaşdırılmasında xarici dəstəyə və ya maliyyə yardımına ehtiyac duymur. Məlum olduğu kimi, çəkilişinə yaxın vaxtlarda başlanacaq və çox böyük beynəlxalq əhəmiyyət daşıyacaq Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu xəttinin maliyyələşməsi məsələsinə də heç bir xarici kredit cəlb edilməyəcək. Ölkəmizin iqtisadi

cəhətdən qüdrətlənməsi isə bütün problemlərin həllinə təkan verir, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, dövlətlərin ərazi bütövlüyü prinsipi ilə həllinə yol açır.

Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir. Ötən illərdə uğurla həyata keçirilmiş Heydər Əliyevin neft strategiyası bundan sonra uzun illər Azərbaycan dövlətinin və xalqının rifahına xidmət edəcəkdir.

"Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində"
Bakı, 2007-ci il, s.385 – 398

Heydər Əliyevin xarici siyasət konsepsiyasında Xəzərin statusu məsələsi

SSRİ-nin dağılması və sosializm sisteminin süqutu planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni paradiqma və imperativlərini formalaşdırdı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnir, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdusa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qızışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə gətirib çıxarırdı.

Bu proseslərin gedişində öz dövlət müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında duran ən mühüm vəzifələrdən biri ümummilli maraqları ehtiva edən xarici siyasət kursunun müəyyənləşdirilərək həyata keçirilməsi idi. Lakin müstəqilliyimizin ilk illərində respublikada siyasi hakimiyyətdə olan dairələr dövlətin qarşısında dayanan ümdə vəzifələri nəinki müəyyən edə bilmədilər, hətta yol verdikləri kobud səhvlər nəticəsində, digər sahələr kimi, xarici siyasəti də bərbad vəziyyətə saldılar.

Yalnız Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışından sonra bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsası qoyuldu. 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Prezident Heydər Əliyev bütün amilləri nəzərə alaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi.

Prezident Heydər Əliyevin xarici siyasət kursunun başlıca istiqamətlərindən biri Xəzər dənizinin hüquqi statusu məsələsidir.

Ümumiyyətlə, tarixən Xəzər dənizi dövlətlər arasında nüfuz bölgüsü məsələsi olmuşdur. Hələ XIX əsrdə Rusiya İran müharibələri nəticəsində Rusiya bütün Xəzəryanı dövlətləri işğal etməyə nail olduğu üçün Xəzər iki dövlət arasında şərti olaraq iki hissəyə bölünmüşdü və hər bir hissə müvafiq dövlətin ərazisinə daxil edilmişdi. Başqa sözlə desək, Xəzər məhz göl kimi qəbul olunmuşdu. Sonradan 1921-ci ilin fevralında və 1940-cı ilin martında SSRİ ilə İran arasında ticarət və dənizçilik haqqında müqavilə imzalandı:

İranla olan su sərhədi və bu dövlətin Xəzərdə hərbi donanma saxlamaq hüququnun olmaması rəsmi formada təsdiq edildi. Bu müqavilələrdən əlavə 1924, 1925, 1927, 1957, 1963, 1972, 1980-ci illərdə Xəzər barədə bir neçə Sovet – İran sənədləri imzalanmışdır ki, bunlar da ticarət, gəmiçilik və əməkdaşlıq məsələlərini əhatə edirdi. Sovet İttifaqı dağıldıqdan sonra Rusiya və yeni Xəzəryanı dövlətlər – Azərbaycan, Qazaxıstan, Türkmənistan keçmiş SSRİ-nin daxili su sərhədləri çərçivəsində mövcud praktikaya uyğun olaraq, Xəzərin öz sektorlarına aid olan hissələrinə nəzarət etməyə başladılar.

1921-ci və 1940-cı illərdə bağlanmış Sovet – İran müqavilələrində Xəzər hüquqi cəhətdən göl hesab edilmişdi və bu rejimə uyğun olaraq bölunmuşdü. Göl öz hüquqi rejiminə görə onu əhatə edən dövlətlər arasında bölünür və bu ölkələrin hər biri öz sektoruna aid olan hissədə tam suveren hüquqlara malik olur. Xəzərin statusu keçmişdə yalnız Rusiya ilə İran arasında müəyyənləşib. Rusiya ilə İran arasında Xəzər Astara – Həsənqulu xətti üzrə bölünüb. Bu müqavilələr Xəzərin ortasında ümumi istifadə üçün heç bir neytral zona nəzərdə tutmamışdır.

Xəzər SSRİ dövründə onun tərkibində olan respublikalar arasında sektorlara ayrılmışdı. Bu bölgü 1976-cı ildə baş verib. 1978-ci ildə qəbul edilmiş «Hüquq varisliyi haqqında konvensiya» ya görə, keçmiş sovet respublikalarının əsasında yaranan yeni müstəqil dövlətlər bütün keçmiş quru və dəniz sərhədlərinin varisləridirlər.

Xəzərin beynəlxalq hüquqi statusu məsələsi 1992-ci ilin əvvəlində meydana çıxdı. O vaxt İran Xəzəryanı dövlətlərin regional əməkdaşlıq təşkilatının yaradılması təşəbbüsü ilə çıxış etdi. Bundan sonra Xəzərdə neft-qaz yataqlarının işlənməsinə dair beynəlxalq layihələr praktik cizgilər kəsb etdikcə məsələ daha da aktuallaşdı, çünki dənizin dibində yerləşən təbii ehtiyatlar, hər şeydən əvvəl enerji resursları üzərində mülkiyyət problemi ilə birbaşa bağlı idi.

Bəs bu siyasi mübahisələr hüquqi müstəvidə necə görünür?

Bizim dövrə qədər gəlib çatmış tarixi mənbələrdən məlum olur ki, hələ antik dövrün alim və səyyahları Xəzər dənizini öyrənməklə məşğul olmuş, onu səciyyələndirərək belə fərziyyələr söyləmişlər ki, Homerin əfsanəvi qəhrəmanları olan arqonavtlar Manıç körfəzi vasitəsilə Qara dənizdən Xəzərə keçmişlər. Nisbətən sonrakı dövrdə yaşamış alimlərin – Miletli Hekateyin, Herodotun, Eratosfenin əsərlərində Xəzər dənizi qapalı dəniz, yaxud okean körfəzi hesab edilirdi. Strabon isə Xəzəri paralel boyunca qərbdən şərqə doğru uzanıb gedən bir hövzə kimi təsvir edirdi.

Özünün çoxəsrlik tarixi ərzində Xəzərin qırxa qədər müxtəlif adı olmuşdur. Adətən, dənizin bu adları ya onun sahillərində məskunlaşmış əhalinin adına görə, ya da sahilyanı zolaqda yerləşən şəhər, vilayət və

ölkələrin adlarına görə verilirdi.

Lakin istər bu adlar, istərsə də tarixçilərin və coğrafiyaçıların bu məsələ ilə əlaqədar müxtəlif fikirdə olmaları Xəzərin beynəlxalq hüquqi statusunun formalaşmasına ciddi təsir göstərmədi. Və ümumiyyətlə, bu məsələ hər hansı elmi araşdırmaların mövzusuna çevrilmədi. Yalnız XIX əsrin axırlarına yaxın Xəzər barədə müvafiq müddəalar irəli sürən elmi mülahizələr meydana çıxdı. Xəzər dənizini beynəlxalq hüquq baxımından ilk səciyyələndirənlərdən biri – məşhur rus hüquqşünası F.F.Martens yazırdı: «Eyni bir dövlətin əraziləri ilə əhatə edilmiş və bundan əlavə, okeanla heç bir əlaqəsi olmayan dənizlər açıq dənizlərlə müqayisədə tamamilə başqa vəziyyətdədir. Bunlar qapalı dənizlər olub, hansı dövlətlərin hüdudları daxilindədirlərsə, həmin dövlətin tabeliyindədir.

Buna əsasən... Xəzər də qapalı dənizdir. Doğrudur, onun suları həm Rusiyanın, həm də İranın sahillərini yuyur, lakin o, rus dənizi sayılmalıdır».

L.A.Kamarovski və V.A.Ulyanitski də buna oxşar mövqe tuturdu. 1908-ci ildə bu müəlliflər yazırdılar: «Açıq dənizlərdən fərqli olaraq, okeanla əlaqəsi olmayan, lakin öz statusuna görə göl deyil, dəniz hesab edilən sututarlar qapalı, yaxud daxili dəniz sayılır... Xəzər dənizi belə dənizdir».

Lakin bir sıra ciddi araşdırmalara, eləcə də XIX əsrdə və XX əsrin əvvəllərində Rusiya ilə İran arasında cüzi hüquqi müqavilə praktikasına baxmayaraq, Xəzər dənizinin beynəlxalq hüquqi statusu 1917-ci il Oktyabr hadisələrinə kimi hüquqi cəhətdən sənədləşdirilməmişdi.

Məlumdur ki, Oktyabr hadisələrindən dərhal sonra Sovet Rusiyası o vaxtadək İranla Rusiya arasında bağlanmış və hüquq bərabərliyinə əsaslanmayan bütün əvvəlki müqavilə və sazişləri birtərəfli qaydada və könüllü surətdə ləğv etdi.

28 fevral 1928-ci il tarixli Sovet – İran müqaviləsi çərçivəsində Xəzər dənizinin beynəlxalq hüquqi vəziyyətini müəyyən etmək üçün cəhd göstərildi. Həmin müqavilədə bilavasitə Xəzər dənizinə aid olan və əslində, sovet dönəmində Xəzərin beynəlxalq hüquqi statusunun və müvafiq rejimin təməlini qoymuş müddəaların sayı çox deyildi. Lakin bu sənədin müəlliflərinin Xəzəri dəniz, yoxsa göl hesab etdiklərini müqavilənin məzmununa əsasən qəti olaraq söyləmək çətindir. Mütəxəssislər müqavilə bağlanandan sonrakı iyirmi ildə Sovet – İran hüquqi müqavilə təcrübəsinə əsaslanaraq belə güman edirlər ki, adı çəkilən sənəddə Xəzər qapalı dəniz sayılmışdır.

1927-ci il oktyabrın 1-də SSRİ və İran hökumətləri Pəhləvi limanı barədə rəsmi nota mübadiləsi həyata keçirdilər. Artıq həmin notaların mətnində vurğulanırdı ki, Xəzər Sovet – İran dənizidir.

Sonradan 1935-ci ildə «Ticarət, dənizçilik və məskunlaşma haqqında» və 1940-cı ildə «Ticarət və dənizçilik haqqında» müqavilə bağlanarkən, eləcə də müvafiq nota mübadiləsi zamanı Xəzərin beynəlxalq hüquqi statusu məsələsi barədə sahilyanı dövlətlərin mövqeləri daha dəqiq ifadə edilmişdi. Məsələn, 1940-cı il martın 25-də, müqavilə imzalanan gün SSRİ və İran nümayəndələrinin bir-birinə təqdim etdikləri məktublarda qeyd edilirdi ki, «Müqavilə bağlayanların hər ikisi tərəfindən Sovet və İran dənizi sayılan Xəzər dənizi müqavilə iştirakçıları üçün müstəsna dərəcədə maraqlıdır...».

Qəribə də olsa, sovet hüquq elmi sonrakı dövrdə nəşr edilmiş çoxsaylı sorğu kitablarında, beynəlxalq hüquq dərsliklərində və müvafiq kurslarda bu məsələ barədə müqavilə-hüquqi mövqeyini qiymətləndirməyə tələsmiş və nəticədə Xəzərin qapalı dəniz hesab edilməsi konsepsiyası əslində, üstünlük təşkil edən bir ehkama çevrilmişdi. Məsələn, elə həmin il nəşr edilmiş «Beynəlxalq hərbi dəniz hüququna dair sorğu» kitabında qeyd edilirdi ki, «Coğrafi baxımdan qapalı olan və iki dövlətin – SSRİ-nin və İranın ərazisi ilə əhatə olunmuş Xəzər dənizi Sovet – İran dənizi hesab edilir». 1957-ci ildə nəşr edilmiş «Beynəlxalq hüquq» dərsliyində Xəzər qapalı dəniz kimi qəbul edilirdi, çünki onun sularının açıq dənizlə əlaqəsi yox idi.

Xəzərin beynəlxalq hüquqi statusu barədə ən ziddiyyətli nöqteyi-nəzərlərə 1966-cı ildə işıq üzü görmüş «Beynəlxalq hərbi dəniz hüququna dair sorğu» kitabında rast gəlmək olar. Həmin sorğu kitabının müəlliflərinin fikrincə, sahilyanı ölkələrin dövlət sərhədləri hüdudunda onların daxili milli suları olan dəniz-göllər özlərinin hüquqi vəziyyətinə və gəmiçilik rejiminə görə qapalı dənizlərə aiddir və Xəzər dənizi də bu qəbildəndir.

Bu konsepsiya və təlimlərin bilavasitə təsiri altında belə bir fikir formalaşmışdı ki, qapalı dəniz-göl olan Xəzər, bu barədə imzalanmış sazişlərə müvafiq olaraq, Sovet – İran dənizi hesab edilməlidir.

Xəzərin qapalı Sovet – İran dənizi kimi qəbul edilməsi fikrinə bir sıra başqa alimlərin, o cümlədən xarici ölkə alimlərinin əsərlərində də rast gəlmək mümkündür.

Bu məsələdə İranın rəsmi mövqeyi də demək olar ki, yuxarıda göstərilənlərlə eyniyyət təşkil edir. Bu mövqe hətta İranın milli qanunvericiliyində də öz əksini tapmışdır. V.Y.Şestopolov bu barədə yazır: «1959-cu il 12 aprel tarixli (ərazi suları haqqında qanuna düzəlişlər edilməsi barədə) qanunda xüsusi qeyd-şərt olmasa da, İranın əvvəllər qəbul edilmiş qanunlarına və müqavilə-hüquq praktikasına əsasən, bu qənaətə gəlmək olar ki, həmin qanunun müddəaları qapalı dəniz sayılan Xəzər dənizinin hövzəsinə şamil edilə bilməz. Bu aşkar fakt hələ ötən əsrin 50-ci illərinin ortalarında İranın qanunvericilik praktikasında qəbul edilmiş və «Kontinental şelf haqqında» 1955-ci il 19 iyul tarixli qanunun 2-ci maddəsinə qeyddə

öz əksini tapmışdır. Həmin maddəyə qeyddə göstərilir ki. «beynəlxalq hüququn qapalı dənizlər barədə müddəaları Xəzər dənizinə tətbiq edilir»».

Göründüyü kimi, Sovet – İran müqavilə-hüquq praktikasına, sonradan isə əslində, yalnız artıq qəbul edilmiş müqavilə normalarını və prinsiplərin izah etməklə məşğul olan sovet və beynəlxalq hüquq doktrinalarına müvafiq olaraq, Xəzər dənizinin qapalı dəniz beynəlxalq hüquqi statusu tətbiq edilmiş, nəticədə Xəzərdə delimitasiya xətti, yəni dövlət sərhədi müəyyən edilməmiş, hər iki sahilyanı dövlət bütün Xəzərdə dənizçiliyini və balıq ovunun bütün növlərini sərbəst həyata keçirmək imkanı əldə etmiş, başqa sözlə desək, beynəlxalq dəniz hüququnun bir sıra normaları Xəzərə tətbiq edilmişdir. Görünür, bu da onunla əlaqədardır ki, sahilyanı dövlətlərin fəaliyyət qaydasını müəyyən edən bir sıra təkliflər əməli surətdə həyata keçirilməyib, sonradan isə hətta bu sərhəd gölünə tətbiq olunan bir sıra normaların təkmilləşdirilməsi vəə əsaslandırılması yolunda maneəyə çevrilmişdi.

Xəzərin göl, yaxud dəniz olmasından asılı olmayaraq o, orta xətt prinsipi ilə bölünməyə məhkumdur. Bu amil iki əsas məqamı üzə çıxarır:

~ coğrafi baxımdan Xəzər göldür, çünki okeana heç bir çıxışı yoxdur. 1921-ci və 1940-cı illərdə imzalanmış Sovet – İran müqavilələrində də Xəzər hüquqi cəhətdən göl hesab edilmişdi və bu rejimə uyğun olaraq orta xətt prinsipi üzrə bölünmüşdü. Göl öz hüquqi rejiminə görə orta xətt üzrə onu əhatə edən dövlətlər arasında bölünür və bu ölkələrin hər biri öz sektoruna aid olan hissədə tam suveren hüquqlara malik olur;

~ dəniz olduqda belə, sahil dövlətlərinin suveren hüquqa malik olduqları daxili suları, 12 millik ərazi sularını, 24 millik ərazi sularına yaxın zonanı, 200 millik xüsusi iqtisadi zonaları üst-üstə toplasaq görərik ki, Xəzər belə bölgü üçün çox kiçikdir. Belə münaqişə halını nəzərdə tutan "Dənizin statusu, ərazi suları və ona yaxın zona haqqındakı" 1958-ci il Cenevrə konvensiyasının 12-ci maddəsində deyilir: "Bir neçə dövlətin zonaları toqquşduqda heç bir dövlət öz ərazilərini orta xətdən o tərəfə keçirə bilməz".

Dənizin statusu ərazi suları və ona yaxın zona haqqındakı 1958-ci il Cenevrə konvensiyası və 1982-ci ildə qəbul edilmiş dəniz hüququ üzrə BMT konvensiyası ilə müəyyənləşir. Dəniz öz hüquqi rejiminə görə açıq və qapalı ola bilir. Qapalı dəniz statusunun açıq dənizdən fərqi odur ki, bu rejimdə dənizin okeana olan çox məhdud saylı çıxışı müəyyən dövlətlərin nəzarətində olur (məsələn, Qara dəniz və Baltik dənizlərindəki boğazlar kimi) ki, onlar da başqa sahil dövlətlərinin də okeana çıxışını təmin etməyə borcludurlar.

Dövlətin tam nəzarət etdiyi zona daxili sulardır ki, bu status da 1958-ci il Cenevrə konvensiyasının 5-ci, 1982-ci il BMT konvensiyasının 8-ci maddələrində öz əksini tapmışdır. Bundan başqa dövlət çıxış xəttindən hesablanan 12 millik ərazi sularına malikdir (BMT-nin 1982-ci il dəniz

hüququ konvensiyasının 5-ci maddəsi), lakin artıq bu ərazidən üçüncü dövlətlərin yol kimi azad istifadə etmək hüququ var. Daha sonra sahil dövlətin sərhəd-gömrük nəzarəti təşkil etdiyi çıxış xəttindən 24 dəniz mili uzunluğunda ərazi sularına yaxın zona saxlamaq hüququ var (BMT konvensiyasının 33-cü maddəsi). Xəzərdə isə orta dərinlik elə 200 – 250 metr olduğundan təkcə kontinental şelf hüququ ilə sahilyanı dövlətlər xeyli əraziyə nəzarət edə bilərlər.

BMT-nin beynəlxalq dəniz hüququ haqqında 1982-ci ildə qəbul etdiyi konvensiya sahilyanı dövlətlər üçün 200 mil uzunluğunda xüsusi iqtisadi zona nəzərdə tutur. Və konvensiyanın 456-cı maddəsində deyilir: " Xüsusi iqtisadi zonada sahil dövləti sulardakı canlı və cansız ehtiyatların istifadəsi, dənizin dibi və onun təkindəki ehtiyatların işlənməsində suveren hüquqlara malikdir".

Bundan başqa minimum 200 metr dərinliyədək sular kontinental şelf adlanır.Beynəlxalq hüquqa görə, bu hissə quru ərazilərinin davamı hesab olunur və bu suyun canlı və cansız ehtiyatları, yerin təkindəki təbii resurslardan istifadə hüququ yalnız sahil dövlətə məxsusdur, üçüncü dövlətlər isə azad gəmiçilik hüququ, bu ərazi üzərindən təyyarə uçuşları azadlığı və sualtı kabel və borular çəkmək hüququna malikdirlər (BMT-nin 1982-ci il konvensiyasının 79-cu maddəsi).

Və bütün bunlar onu deməyə əsas verir ki, dəniz adlansa belə, Xəzər göl kimi orta xətt prinsipi üzrə bölünməlidir.

Xəzərin statusu kesmişdə yalnız SSRİ və İran arasında, Sovet – İran müqavilələri ilə müəyyənləşib. 1969-cu il və 1982-ci ildə imzalanmış beynəlxalq müqavilə hüququ haqqındakı konvensiyalarda təsbit olunan prinsipə görə, iki tərəf arasında bağlanmış müqavilə üçüncü dövlətlər üçün heç bir hüquqi öhdəliklər müəyyən edə bilməz (Konvensiyaların 34-cü və 35-ci maddələri). Azərbaycan, Qazaxıstan, Türkmənistan isə Sovet – İran müqavilələri imzalananda müstəqil tərəf kimi çıxış etməyiblər. Digər tərəfdən, Xəzər keçmiş SSRİ-nin mirası kimi respublikalar arasında keçmiş dəniz sərhədləri bölgüsünə əsasən milli sektorlara ayrılıb. Belə bölgü 1976-cı ildə baş verib və bir halda ki, keçmiş Sovet respublikaları quru sərhədlərini olduğu kimi qəbul ediblər, dəniz sərhədlərini də qəbul etməlidirlər. 1978-ci ildə yaradılmış " Hüquq varisliyi haqqında konvensiya" bu sahədə ən tutarlı arqumentdir.

1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» Xəzərin beynəlxalq hüquqi statusu məsələsinin nəzərdən keçirilməsini sürətləndirən amil oldu. Bu müqavilə imzalananadək Rusiya və İran yeni status formalaşanadək Xəzərin mineral və canlı ehtiyatlarının işlənməsi məsələsini nəzərdən keçirmək belə istəmirdilər.

Bundan sonra Xəzəryanı dövlətlər ciddi dözüm sınağından keçməli

oldular. Xəzər dənizinin yeni beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsinə münasibətdə mövqelər dəyişməsə də, bu dövrdə çoxsaylı beynəlxalq görüş və konfranslar keçirildi, problemin müxtəlif aspektləri müzakirə mövzusu oldu. Əslində isə Xəzərin statusunun müəyyənləşdirilməsi prosesi hüquqi yox, daha çox siyasi-iqtisadi xarakter daşımağa başladı. Xəzəryanı ölkələrin əməkdaşlığı, yaxud əməkdaşlıq cəhdləri əyani surətdə göstərdi ki, Xəzərin hüquqi statusu problemi hüquqi qərar qəbul edilməsi yolu ilə deyil, sahilyanı dövlətlərin razılaşdırılmış siyasi iradəsi ilə öz əksini tapacaqdır.

Bu dövrdə Xəzəryanı dövlətlər arasında əməkdaşlığın başlıca yekunu Xəzər dənizinin yeni beynəlxalq hüquqi statusunun təşəkkülündə qarşılıqlı münasibətlərin ilk şərtlərinin və prinsiplərinin formalaşması oldu. Bütün bu proseslərin, təqdim olunmuş saziş layihələrinin, habelə qəbul olunmuş beynəlxalq sənədlərin təhlili belə hesab etməyə əsas verir ki, əsaslandırılmış mövqelərin və razılaşdırılmış beynəlxalq sazişlərin olmamasına baxmayaraq, Xəzərin statusunun müəyyənləşdirilməsi sahəsində çoxtərəfli əməkdaşlığın qurulması fakt idi. Sahilyanı dövlətlər Xəzərdə yeni vəziyyətin formalaşmasının zəruriliyini dərk edirdilər. Lakin yeni hüquqi statusun formalaşması prosesi gözlənilmədən başladı. Get-gedə pisləşən iqtisadi vəziyyətin fonunda neft sindromunun meydana çıxması sahilyanı dövlətlərin Xəzərdən və onun imkanlarından asılılığını gücləndirdi. Ona görə də Xəzər dənizinin ehtiyatlarından istifadəyə dair milli, yaxud fərdi proqramlar meydana gəldi. Və bu proqramlar heç də həmişə bir-birinə bənzəmirdi, daha çox bir-biri ilə ziddiyyət təşkil edirdi. Məhz bu səbəbdən danışıqlar prosesində tərəflər razılaşma əldə edə bilmirdi. Digər tərəfdən, əməkdaşlığın birinci mərhələsi Xəzərin gələcək statusunun müəyyənləşdirilməsinə münasibətdə üç mövqeyin mövcudluğunu nümayiş etdirdi. Rusiyanın mövqeyi Xəzərin mənsubiyyəti məsələlərində postimperiya yanaşmasında ifadə olunurdu. Rusiyada daxili siyasi sabitsizlik və müxtəlif dairələrdə mövcud olan hərc-mərclik tamamilə qeyri-konstruktiv nöqteyi-nəzər doğurdu. İranın mövqeyinə gəlincə, bu dövrdə Xəzər onun iqtisadi planlarına daxil deyildi. Siyasi baxımdan isə İran Qərb şirkətlərinin Xəzər hövzəsinə gəlişi faktını öz milli təhlükəsizliyinə qorxu hesab edirdi. Bu amil beynəlxalq hüquqi status məsələsində Xəzəryanı ölkələrin mövqelərinin yaxınlaşmasına mane olurdu. Azərbaycan, Qazaxıstan və Türkmənistan isə iqtisadi firavanlığa nail olmağın yeni yollarını və üsullarını axtarırdılar. Onları ideyaların hazırlanması və reallaşdırılmasının, həmçinin şimal və cənub qonşularla münasibətlərin müxtəlif səviyyəsi fərqləndirirdi. Bu dövrdə Xəzərə dəqiq coğrafi ad (dəniz, yaxud göl) tapmaq mümkün olmadı. Xəzəryanı dövlətlərin Həştərxan konfransında (14 oktyabr 1994-cü il) Rusiyanın o zamankı baş naziri Viktor Çernomırdin öz ölkəsinin

bu məsələyə münasibətini əyani şəkildə nümayiş etdirdi: «Nə fərqi var – Xəzər dənizdir, yoxsa göl, yaxşısı budur əməkdaşlıq edək». Bununla ona işarə edilirdi ki, Xəzəri ümumi məkan və mülkiyyət kimi nəzərdən keçirmək lazımdır. Başqa sözlə, sahilyanı dövlətlərə daha ciddi təsir rıçaqlarına malik olan Rusiya Xəzər məsələlərində həlledici rola iddialı idi.

İran da Rusiyanı dəstəkləyir və hüquqi statusla bağlı bütün məsələlərdə tez-tez 1921 – 1940-cı il müqavilələrinə istinad edirdi. Qazaxıstan qapalı dəniz variantını təklif edirdi. Türkmənistan regionda cərəyan edən bütün prosesləri müşahidə etməklə kifayətlənir və hansısa mövqe nümayiş etdirmirdi. Hərçənd bu dövrdə Türkmənistan dövlət sərhədi haqqında qanun (1993-cü il) qəbul etmiş və bu qanunda Xəzərdə 12 millik məhəlli sularını ayırmışdı. Bununla bu dövlət bəlkə heç özü də istəmədən Xəzərə dəniz kimi baxmağa başlamışdı. Doğrudur, növbəti danışıqlarda rəsmi Aşqabad bu mövqeyindən imtina etdi. Azərbaycan Xəzərin coğrafi vəziyyətini nəzərə alaraq onu göl hesab etməyi və nəticə etibarilə sututarın beynəlxalq hüquqi statusunu göl variantında müəyyənləşdirməyi təklif etdi.

1998-ci il iyulun 6-da Rusiya ilə Qazaxıstan arasında Xəzərin şimal hissəsində dənizin dibinin bölünməsi haqqında saziş imzalandı. Rusiya və Qazaxıstanın qərarını Azərbaycan müsbət qarşıladı. Çünki Azərbaycan Xəzərin statusuna dair danışıqların getdiyi illər ərzində Xəzərin təkcə dibinin yox, həm də suyun qalınlığının bölünməsinin zəruriliyi mövqeyindən çıxış edirdi. Bu dövrdə Xəzəryanı dövlətlər sututarın statusu və ondan istifadənin formaları ilə bağlı əsas hüquqi problemləri həll etdilər. Onlar Xəzərin dəniz, yaxud göl olduğunu göstərmədən onun sektoral bölgüsü prinsipini tanıdılar. Balıqçılıq və bioresursların mühafizəsi ilə bağlı kvota prinsipi razılaşdırıldı.

2002-ci ilin yanvarından başlayaraq, Xəzər hövzəsində sahilyanı ölkələrin çoxtərəfli münasibətlərində yeni mərhələ başlayır. Bu mərhələ regiona münasibətdə Rusiyanın siyasətinin dəyişməsi ilə bağlı idi. Xəzərin beynəlxalq hüquqi statusuna dair Rusiyanın yeni konsepsiyasının əsas və prinsipcə yeni müddəaları aşağıdakılardan ibarətdir:

~Rusiya Xəzər problemlərinin (gəmiçilik, ekologiya, bioloji resurslardan istifadə, sahil xəttinin koordinatlarının müəyyən edilməsi və s. daxil olmaqla) mərhələli həlli yolunu təklif edir;

~sahilyanı dövlətlərin diqqəti mübahisəli neft yataqları üzərində cəmləşdirməsi zəruridir. Belə yataqların işlənməsi zamanı 50/50 prinsipindən istifadə etmək təklif olunur;

~Xəzərin dibi milli sektorlara bölünür, suyun səthi isə ümumi istifadədə qalır;

~Xəzərin gələcək beynəlxalq hüquqi statusu məsələlərinə dair MDB-

nin sahilyanı ölkələrinin hansısa vahid platformasının yaradılması;

~mənzil-qərargahı Bakıda olmaqla Xəzər problemlərinə dair strateji mərkəzin təsis edilməsi. Mərkəzin vəzifələrinə Xəzər hövzəsinin monitorinqi, geoinformasiyanın təhlili, çirklənmə mənbələrinin üzə çıxarılması, təbiəti mühafizə fəaliyyətinin, gəmiçiliyin və balıqçılığın əlaqələndirilməsi daxildir. Bu qurumun Xəzəryanı dövlətlərin üzvlük haqlarından formalaşan öz büdcəsi olmalı və o, beş Xəzəryanı ölkənin rəhbərləri ilə təmasda fəaliyyət göstərməlidir;

~əgər hansısa dövlət Xəzərin statusuna dair danışıqlara mane olursa, yəni məhz onun ucbatından problemin həlli uzanırsa, bu halda qalan ölkələr özləri razılığa gəlməlidir.

Xəzəryanı dövlətlərin çoxtərəfli əməkdaşlığının 2002-ci ildən sonra başlamış yeni mərhələsində sahilyanı ölkələr, danışıqlar prosesinin bütün çətinliklərinə baxmayaraq, dialoqun inkişafında mühüm irəliləyiş edirlər. Bu dövrün ən mühüm nailiyyəti 2003-cü il mayın 15-də Rusiya, Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizi sərhədlərinin orta xəttinin müəyyənləşdirilməsi ilə bağlı sazişin imzalanması olur.

Prezident Heydər Əliyevin apardığı siyasətin uzaqgörənliyi bundadır ki, o, Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ətrafında uzun sürən mübahisələrin nəticələrini gözləməyərək, Xəzərin Azərbaycan sektorundakı yataqların xarici şirkətlərlə birgə işlənilməsi haqqında sənəd imzalamışdır.

Rusiya ilə Azərbaycan arasında, habelə Rusiya ilə Qazaxıstan, Azərbaycan ilə Qazaxıstan arasında dəniz sektorları sərhədlərinin müəyyənləşdirilməsi Xəzərin statusu məsələsinin həllində digər dövlətlərin – Türkmənistan və İranın da mövqelərini dəyişdirmək zərurətini irəli sürmüşdür. Xəzərin statusu ilə bağlı birgə Azərbaycan – Rusiya sənədləri paketinin imzalanması bu nadir sututarın bioloji və enerji ehtiyatlarından daha səmərəli istifadə etməyə, Xəzəryanı dövlətlərin milli sektorlarını ayıran orta xətlərin müəyyənləşdirilməsi, habelə neft və qazın nəqli üçün Xəzəryanı sistemlərin layihələşdirilməsi və tikintisi məsələlərində xoşagəlməz halları, mübahisələri aradan qaldırmağa imkan verəcəkdir.

Etiraf etmək lazımdır ki, Vladimir Putin Rusiya Federasiyasının prezidenti seçildikdən sonra bu ölkənin Xəzər siyasətində praqmatizm üstünlük təşkil edir. Prezident V.Putinin 2001-ci il yanvarın 9 – 10-da Bakıya səfəri zamanı Azərbaycanla Rusiya arasında əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qalxmışdır. Səfər zamanı «Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında» Azərbaycan Respublikasının və Rusiya Federasiyasının birgə bəyanatı»nın imzalanması ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında mühüm məqam olmuşdur. Tərəflər Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığına dair məsələləri

müzakirə edərək, bu cür əməkdaşlığı mehriban qonşuluq, qarşılıqlı anlaşma və hörmət ruhunda genişləndirməyə çalışaraq, sahilyanı dövlətlərin iqtisadi inkişafı üçün Xəzər dənizinin böyük əhəmiyyətini vurğulayaraq, Xəzər dənizindən ancaq dinc məqsədlərlə istifadə olunması barədə öz mövqelərini təsdiqlədilər. Bu sənəd bir daha təsdiq etdi ki, Xəzərin yeni hüquqi statusunun hazırlanması sahilyanı dövlətlərin öz işidir və dənizin statusu yalnız onların ümumi razılığı əsasında hazırlana bilər. Tərəflər Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyaya dair beştərəfli danışıqlar prosesinin fəallaşdırılmasına birgə kömək göstərməyə hazır olduqlarını bəyan etmişlər. Səfər zamanı prezidentlər qarşılıqlı razılığa doğru mərhələ-mərhələ irəliləməyə tərəfdar olduqlarını bildirərək, hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərini və yaranmış praktikanı nəzərə almaqla, birinci mərhələdə Xəzər dənizinin dibini müvafiq həmsərhəd dövlətlər arasında sektorlara bölməyi təklif etmişlər. Tərəflər razılığa gəlmişlər ki, belə bölgü nəticəsində yaranan sektorda sahilyanı dövlətlərin hər birinin mineral ehtiyatlar və digər təsərrüfat-iqtisadi fəaliyyət barəsində müstəsna hüquqları olacaqdır. Xəzərdə ekoloji vəziyyətin pisləşdiyi nəzərə alınaraq, dənizin ətraf mühitinin mühafizəsi məsələlərinin müzakirəsini sürətləndirmək niyyəti ifadə edilmişdir. Rusiya dənizdəki iqtisadi sərhədlərini müəyyənləşdirərək, bu istiqamətdə Azərbaycanla əməkdaşlığını genişləndirərək, Xəzərin özünə aid şelfində mineral ehtiyatların axtarışına və işlənilməsinə fəal surətdə qoşulmuşdur. Heç şübhəsiz, Xəzəryanı dövlətlərin şirkətləri tərəfindən neft-qaz əməliyyatları aprılmasına inteqrasiya mövqeyindən yanaşmaq niyyəti zamanın hökmüdür.

Rusiya və Azərbaycan rəhbərlərinin siyasi uzaqgörənliyi və xoş məramı olmasaydı, Xəzər dənizinin hüquqi statusu üzrə mövqelərin beş sahilyanı dövlət arasında razılaşdırılması məsələsi intəhasız davam edərdi. Məhz Heydər Əliyevin və Vladimir Putinin şəxsi səyləri və onların aralarında əldə edilmiş qarşılıqlı anlaşma sayəsində bu problemi ilişib qaldığı nöqtədən çıxarmaq mümkün olmuşdur.

Beləliklə, Prezident Heydər Əliyevin həyata keçirdiyi tarazlaşdırılmış, Aərbaycanın stateji maraqlarının müdafiəsinə yönəldilmiş realist və paraqmatik xarici siyasət kursunun məntiqi yekunu olaraq ölkəmiz bu gün Avrasiyanın mühüm geosiyasi mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması və Avrasiya nəqliyyat dəhlizinin gerçəkləşməsi xeyli dərəcədə Azərbaycanın qətiyyətli mövqeyindən asılıdır. Geosiyasi baxımdan Azərbaycan regionda xüsusi yer tutur və bu, ona qlobal qüvvələr – geopolitik vektorlar arasında mühüm tarazlaşdırıcı rol oynamağa imkan verir. Prezident Heydər Əliyevin realist və ölcülüb-bicilmiş siyasəti, onun unikal siyasi və dövlət xadimi

təcrübəsi dövlətlərarası münasibətlərin nizamlanması sahəsində bütün tərəfləri təmin edən mühitin bərqərar olması istiqamətində müstəsna rol oynamışdır. Bu amil Xəzərin statusu probleminin nizamlanmasına da öz təsirini göstərmiş və əslində, Azərbaycanın neft siyasəti və diplomatiyası bu prosesin hərəkətverici qüvvəsinə çevrilmişdir. Hazırda Rusiya və Azərbaycan, həmçinin Qazaxıstan Xəzər dənizinin beş ölkə arasında bölünməsində vahid mövqe nümayiş etdirir. Təbiidir ki, bu üç ölkənin Xəzərin hüquqi statusuna münasibətdə eyni mövqedən çıxış etməsi, dənizin orta zolaqla sektorlara bölünməsi prinsipini birmənalı şəkildə dəstəkləmələri, İranla Türkmənistanın etirazlarına baxmayaraq, Xəzərdə ümumi razılığın əldə olunması məsələsini həll etmiş olur.

"Heydər Əliyev – ümummilli lider" Bakı, 2004-cü il, s. 397-408

Xəzərə sülh, dostluq və əməkdaşlıq statusu

Ətrafında müəyyən dövlətlərin yarandığı dövrdən əvvəllər belə dünyanın ən böyük qapalı su hövzəsi olan Xəzər dənizi və onunla bağlı məsələlər daim diqqət mərkəzində olmuş, onun bioloji və geoloji ehtiyatları diqqəti çəkmiş, kommunikasiya imkanları regionun inkişafına mühüm təsir göstərmişdir. XXI əsrin astanasında SSRİ-nin dağılması ilə baş verən dəyişikliklər, yeni müstəqil dövlətlərin yaranması bölgədə geopolitik vəziyyəti əsaslı dəyişdiyindən Xəzər dənizi yenidən güclü maraq dairəsinə çevrilmiş və bununla bağlı yeni beynəlxalq əməkdaşlıq prinsiplərinin müəyyənləşməsi zərurəti ortaya çıxmışdır.

SSRİ ilə İran arasında mövcud olmuş prinsiplər artıq müasir geostrateji, siyasi, iqtisadi, ekoloji və s. tələblərə cavab verə bilmir, yeni yaranmış situasiyanın və Xəzəryanı dövlətlərin maraqlarını adekvat, ədalətli təmin etmir. Bu səbəbdən də Xəzərin statusu ilə bağlı yeni prinsiplərin və razılaşmanın aktuallığı bu gün Xəzəryanı dövlətlərin heç birində şübhə doğurmur. Aydındır ki, Xəzəryanı dövlətlərin bir yerə toplaşaraq danışıqlar zəminində bütün maraqları təmin edən beynəlxalq əməkdaşlıq mexanizminin hazırlanması vacib vəzifələrdən biri kimi qarşıya çıxmışdır.

Şübhəsiz ki, Xəzər əməkdaşlığının çoxsaylı aspektləri vardır. Bunların içərisində naviqasiya, balıqçılıq, ekoloji təhlükəsizlik, və əlbəttə, zəngin hidrokarbogen ehtiyatlarının kəşfi, çıxarılması və istismarı və s. bu kimi məsələləri qeyd etmək lazımdır. Bütün bu məsələlərin uğurlu həlli Xəzərin statusunun ədalətli hüquqi təyin olunmasından asılıdır. Belə bir nizamlama Xəzər bölgəsində uzunömürlü və qarşılıqlı faydalı əməkdaşlığın çiçəklənməsinin təməlini qoya bilər.

Xəzərdən istifadə məsələləri ilk dəfə 1921-ci il fevralın 26-da Sovet Rusiyası və İran arasında bağlanılan razılaşmada, daha sonra isə 1940-cı martın 25-də SSRİ və İran arasında imzalanan Ticarət və Naviqasiya haqqında sənəddə öz əksini tapmışdır. Maraqlıdır ki, bu tarixdən əvvəlki bir neçə yüzillikdə olduğu kimi, Rusiya və İran Xəzərdən istifadə məsələlərində, onu bir növ torpaqlarla eyniləşdirərək yalnız iki ölkə arasında bölmə prinsipi üzrə hərəkət etmişlər. Söz yox ki, həmin dövrlərin siyasi mənzərəsi də bu prinsipə kəsərli əks-təsir göstərə bilməmişdir.

SSRİ-nin dağılması ilə başqa yerlərdə olduğu kimi, Xəzər bölgəsində də siyasi xəritənin mühüm dəyişikliklərə uğraması yeni geosiyasi və strateji mənzərənin formalaşmasının Xəzərin statusunun yeni prinsiplər üzərində zəmin tapmasını zamanın tələbinə çevirir. Bunun üçün ən azı iki səbəb əsasdır:

1. 1921-ci və 1940-cı illərdə razılaşma əldə edilərdə Rusiya, SSRİ və İran beynəlxalq hüququn subyektləri olduğu halda, yeni yaranmış müstəqil

dövlətlər bu hüququn subyektləri deyildilər. Xəzəryanı müstəqil dövlətlər yarandıqdan sonra bölgədə əməkdaşlığın inkişafı çoxtərəfli xarakter aldı. Müasir şəraitdə Xəzərin statusunun müəyyən edilməsi üçün bütün tərəflərin maraqları nəzərə alınmalıdır. Artıq SSRİ yoxdur və onunla bağlı bütün saziş, konvensiyalar və razılaşmalar qüvvədən düşmüşlər.

2. Əvvəlki razılaşmaları diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, onlar yalnız ticarət, naviqasiya, balıqçılıq sahələrini əhatə edirlər, lakin Xəzərin hüquqi statusu anlayışı müəyyənləşməmiş qalır. Orada Xəzərin statusunun fundamental məsələləri – Xəzərin dibinin istismarı mexanizmi, ekoloji rejim, səmadan istifadə prinsipləri və söz həllini tapmır.

Ötən bir neçə ildə Xəzərin statusu ilə bağlı sahilyanı dövlətlərin müxtəlif variantlar irəli sürərək əsaslandırmaq cəhdlərinə baxmayaraq, Azərbaycanın mövqeyi beynəlxalq praktikada vəsiqə almaq üçün bütün maraqları ədalətlə təmin edən real variant hesab olunmaqdadır. Bu variantın əsas mahiyyətini qısaca aşağıdakı kimi ifadə etmək olar: Xəzər sahilyanı dövlətlər arasında göl kimi qəbul edilməlidir və onun səmasından tutmuş dibinədək bütün sahəsi bu dövlətlər arasında sektorlara bölünməlidir. Hər sektor müvafiq dövlətin tam yurisdiksiyasına verilməlidir.

Nəzərə alsaq ki, Xəzər böyük su ehtiyatına malik yeganə qapalı hövzədir, baseyndir, onun bir çox xüsusiyyətləri mövcud praktikada olan beynəlxalq normalarla tənzimlənə bilmir. Yəni Xəzərin statusunun müəyyən olunmasında dənizlərə aid mövcud beynəlxalq qaydaların tətbiqi bölgənin reallığına cavab vermir. Buna görə də Xəzərin spesifikliyini əsas tutaraq ənənəvi praktikadan əl çəkmək və bütün tərəflərin razılığı ilə yeni yollar axtarmaq lazımdır. İndiyədək tərəflər, çox zaman, sahilyanı dövlətlərin əksəriyyəti üçün vacib olan bir sıra mühüm strateji məsələlərin üstündən sükutla keçərək Xəzərin statusunu birtərəfli, öz iqtisadi və geopolitik maraqlarına uyğun müəyyənləşdirmək istəyirdilər. Bununla əlaqədar olaraq, biz məsələnin bir neçə çox vacib aspektini şərh etmək istəyirik. Qeyd etdiyimiz kimi, Xəzərin qapalı su hövzəsi olması və beş dövlətin ərazisi əhatəsində yerləşməsi onun hüquqi statusunun müəyyənləşməsində dənizlərə tətbiq edilən prinsiplərin qəbul edilməsini qeyri-mümkün edir. Ümumiyyətlə, açıq dəniz konsepsiyası baxımından müxtəlif səbəblərdən müasir praktikada *Xəzərin analogiyası yoxdur.*

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, beş dövlətin əhatəsində yerləşdiyinə və qapalı su hövzəsi olduğuna görə Xəzərin hüquqi statusu ərazi məsələsi kimi ortaya çıxaraq sahilyanı dövlətlərin milli təhlükəsizlik problemlərinə bağlanır. Belə halda isə hər bir sahilyanı dövlətin ərazi sərhədlərinin müəyyənləşməsi zəruriliyi qarşıya çıxır, yəni milli yurisdiksiya altında sektorların müəyyənləşməsi zəruriliyi qarşıya çıxır. Hər bir dövlətin

təkcə quru sərhədləri yox, su sərhədləri də dəqiq müəyyənləşməlidir. Hər şeydən əvvəl bu, dövlətlər arasında müəyyən mübahisə və konfliktlərin yaranması və milli təhlükəsizlik baxımından onların normal qonşuluq münasibətlərini təmin edən su ərazisinin müəyyənləşməsi vacibliyidir. Buna görə də quruda olduğu kimi, su üzərində də sahilyanı dövlətlər arasında sərhədlər konkretləşməlidir. Elə bu baxımdan da, respublika prezidenti Heydər Əliyevin aşağıdakı fikirləri həyati məna daşıyır: "Xəzərdə hərbi donanma saxlamağa lüzum yoxdur. Xəzəryanı ölkələr bir-birinə sülh etdikləri halda Xəzərdə hərbi dəniz donanması saxlanılmasına və onun artırılmasına vəsait xərcləməyə nə ehtiyac var... Xəzər dənizi dostluq dənizi, bizi birləşdirən və bizim burada əməkdaşlıq edə biləcəyimiz dəniz olmalıdır. Buna görə də təkrar edirəm, Xəzər sülh, dostluq və səmərəli əməkdaşlıq dənizi olmalıdır və bu məsələ ilə əlaqədar onun hərbisizləşdirilməsi praktik səciyyə daşıyır".

Hazırda Xəzəryanı dövlətlərdə müxtəlif fikirlərin hələ də olmasına baxmayaraq, onların ümumi razılığı, konsensusa gəlmələri hamının mənafeyini ədalətli təmin etməklə bərabər ən müdrik və uzaqgörən siyasi addım olar, bölgədə sabitlik və müştərək əməkdaşlıq üçün gözəl zəmin yaratmış olar. Obyektiv reallıq bunu tələb edir.

Əlbəttə, Xəzərin hidrokarbogen və başqa ehtiyatları barədə ayrıca danışmaq məqsədəuyğundur. Bu sahədə, bu gün sahilyanı dövlətlərin iqtisadi maraqlarını ziddiyyətlər törətmək üçün yox, birgə əməkdaşlıq zəminində səyləri birləşdirmək hər bir dövlətin mənafeyinə uyğun olardı. Xəzər yeni geosiyasi və geostrateji situasiyada yalnız sabitlik, təhlükəsizlik və əməkdaşlıq zonası olmaqla – Avrasiya dəhlizinin – İpək yolunun bərpasında da ümdə rol oynayaraq bir tərəfdən də beynəlxalq əhəmiyyətini təsbit etməlidir. Elə bu yönümdə onun bioloji ehtiyatlarının mühafizəsi və istismarı da keyfiyyətcə yeni mərhələyə keçə bilər.

Bütün yuxarıda qeyd etdiklərimizin həyata keçməsi üçün artıq mühüm addımlar atılmışdır. Sahilyanı dövlət rəhbərlərinin, xarici işlər nazirlərinin müxtəlif məqamlarda görüşlərində bu yolda irəli sürülən təkliflər Qazaxıstan və Türkmənistan rəhbərlərinin fikir birliyini təmin etmişdir. Rusiya Federasiyasının mövqeyində mühüm dəyişikliklər müşahidə edilməkdədir.

Xəzərin hüquqi statusunun müəyyən edilməsi, öncə, siyasi məsələ kimi ortaya çıxır, yəni xəzəryanı dövlətlərin regiona münasibətdə apardıqları siyasi xətdən asılıdır. Bu baxımdan Rusiya Federasiyasının mövqeyindəki dəyişiklik Rusiyanın öz bölgə siyasətinə korrektivlər etməkdə olduğunu göstərir.

Xəzərin hüquqi statusunun müəyyənləşməsi, Xəzəryanı dövlətlər arasında sektorlara bölünməsi yönümündə mühüm addım hələ 1970-ci ildə atılmışdır. Belə ki, elə o ildə SSRİ-yə aid zona Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistan arasında bölünmüşdür, beynəlxalq praktika əsas

götürülərək orta xətt qəbul edilmişdir. O vaxtdan bəri, 30 ilə yaxın müddətdə, Xəzərdə aparılan bütün işlər bu prinsiplərə uyğun görülmüşdür. İndi isə həmin prinsiplərin daha da təkmilləşdirilib beynəlxalq sənədə çevrilməsi prosesi vəzifə kimi qarşıda durur.

İki və çoxtərəfli danışıqlar və məsləhətləşmələr sayəsində son vaxtlar əldə edilmiş müsbət irəliləyiş, heç şübhəsiz ki, Xəzərin hüquqi statusunun həlli istiqamətində Azərbaycan prezidenti Heydər Əliyevin dərindən düşünülmüş və əsaslandırılmış, sahilyanı dövlətlərin hamısının maraqlarının ədalətli təmin edən konsepsiyasının gərgin səylər nəticəsində addım-addım və ardıcıl həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu danışıq və məsləhətləşmələrin xronologiyası fikir versək, bir neçə il əvvəl bu məsələ ilə bağlı qütbləşmiş mövqelərin bu gün nə qədər yaxınlaşdığını və üst-üstə düşdüyünü görməyə bilmərik. Siyasətdə müdriklik və uzaqgörənliklə iradə və əzm birləşdikdə ən çətin məsələlərin həllinə nail olmaq mümkündür. Çətin situasiyalar parlaq çıxış yolu tələb edir. Amma çıxış yolunu tapmaq hamıya nəsib olmur. Respublika prezidenti Heydər Əliyevin fəaliyyəti bu xarakterli nümunələr silsiləsidir. Onları sadalamağa, əlbəttə, ehtiyac yoxdur. Təkcə 1994-cü ildə imzalanan əsrin kontraktını, yaxud Lissabon sammitinin bəyanatını qeyd etmək kifayətdir. Xəzərin hüquqi statusunun təyin edilməsi yolunda Azərbaycan prezidenti Heydər Əliyevin rəhbərliyi və gərgin səyləri nəticəsində əldə edilmiş bu nəticə ümummilli mənafe baxımından son dərəcə vacib və əhəmiyyətlidir. Lakin əfsuslar olsun ki, müxalifət nümayəndələri yenə də, həmişə olduğu kimi, qısqanclıq və paxıllıq hisslərindən xilas ola bilmir, heç olmasa, ədalət naminə obyektiv fikir söyləmir və susurlar, bu haqda gedən yazılar isə konkret faktların sadəcə təsdiqindən uzağa getmir.

Şübhəsiz ki, yuxarıdakı fikir başqa bir yazının mövzusudur. Bugünkü reallıq isə ondan ibarətdir ki, Xəzərin hüquqi statusunun həllində mühüm addım atılmışdır və bu addımın atılmasında əsas və aparıcı rol Azərbaycan Respublikasına və onun prezidentinə məxsusdur. Əminik ki, Xəzərin hüquqi statusu ilə bağlı Azərbaycan prezidentinin konsepsiyası ən ədalətli və düzgün konsepsiyadır. Onun həyata keçməsi nəticəsində bir tərəfdən sahilyanı dövlətlərin müstəqilliyi möhkəmlənəcək, digər tərəfdən bərabərhüquqlu iqtisadi inteqrasiya proseslərinə güclü təkan veriləcək. XXI əsrin astanasında bu inkişaf istiqamətinin alternativi yoxdur.

"Respublika" qəzeti, 15 aprel 1998-ci il

Bir daha Xəzərin statusu haqqında

Yaşadığımız dövr - XX əsrin son onilliyi xalqımız və vətənimiz üçün nə qədər ağır və çətin olsa da, tariximizin ən şərəfli dövrüdür. Planetimizin mühüm geosiyasi və geoiqtisadi burulğanlarından birinin fəaliyyət məkanında yerləşdiyimiz üçün müstəqillik və özünütəsdiq baxımından heç bir xalqın qarşısında bizimki qədər çətin vəzifə durmayıb. Böyük yox, adi, kiçik səhvlər belə fatal nəticələrə gətirib çıxara bilər. Qarşılaşdığımız və dəf etdiyimiz çətinliklərə baxmayaraq, mən indiki nəsilləri ən xoşbəxt nəsillər hesab edirəm. Ona görə ki, müstəqilliyimizi əldə etdiyimiz ilk günlərdən indiyə kimi baş verən hadisələr, gedən proseslər dövlətçiliyimizin möhkəmlənməsi , müstəqilliyimizin tanınması gözlərimiz önündə həyata keçir. Qürur hissi ilə deyə bilərəm ki, geriyə nəzər salmalı olsaq keçdiyimiz yolun yeganə düzgün yol olduğuna bir daha əmin olursan. Son 5 il ərzində Azərbaycanın daxili və xarici siyasətinin fundamental istiqamətlərindən hər hansını nəzərdən keçirməli olsaq fikirlərimiz təsdiq olunur. Elə Xəzərin statusu ilə bağlı gedən proseslər də bunu təsdiq edir.

Bu mövzuya həsr olunmuş ötən yazımızda ("Respublika" qəzeti, 15 aprel 1998-ci il) mövzu ilə bağlı bir sıra məsələlərlə bərabər mövqelərin evolyusiyasına da toxunmuşduq. Və qeyd etmişdik ki, Xəzərin statusu ətrafında dolaşan fikirlər, diplomatik mübarizə, son dərəcə gərgin səylər strateji görüm, səbir və müdriklik tələb edir. Azərbaycan ilk neft kontraktını - Əsrin kontraktını imzalayanda istehza ilə gülümsəyənlər, pessimist proqnozlarla çıxış edən siyasətçi və politoloqlar az olmasa da, bu gün dördillik bir zaman kəsiyində əldə edilmiş nailiyyətlər çoxlarında qısqanclıq hissləri doğurur. Müdrik siyasi addımlar ustası Heydər Əliyevin bütün həyat və fəaliyyəti belə nümunələr silsiləsindən ibarətdir.

Xəzərin statusunun müəyyənləşməsi zəruriliyi SSRİ dağılandan sonra yeni yaranmış siyasi və iqtisadi reallıqların məntiqi nəticəsi kimi, əsasən 1994-cü il sentyabrın 20-də Azərbaycanın paytaxtı Bakıda Əsrin müqaviləsinin imzalanması ilə bağlı ortalığa çıxdı və elə ilk vaxtlardan ciddi mübahisələrə, bəyanatlara səbəb oldu. Mübahisələrin kəskin və müxtəlif olmasına baxmayaraq, ilk mərhələdə məsələnin Azərbaycan rəhbəri tərəfindən qoyuluşu çoxları üçün gözlənilməz olsa da, bölgədəki yeni reallıqları səciyyələndirən ən uğurlu diplomatik addımlardan biri oldu. Xəzəri bütün imkan və sərvətləri ilə birlikdə, bu və ya digər yolla, tam inhisarında saxlayan Rusiya və İran, şübhəsiz ki, ən azı keçmiş əyyamların xiffətindən ona aid iddialar dolu etiraz və bəyanatlar verməyə başladılar. Buna səbəb bir tərəfdən Xəzərin zəngin karbohidrogen və bioloji ehtiyatları, digər tərəfdən isə mühüm geosiyasi və geoiqtisadi mövqedə yerləşməsi idi.

Kiçik bir zaman kəsiyində Xəzərin statusu kimi dünya təcrübəsində analoqu olmayan bir mürəkkəb məsələnin həllində mühüm irəliləyiş artıq əldə edilmişdir. Və bu irəliləyişin məhz Azərbaycan prezidenti Heydər Əliyevin xidməti olmasına heç kim şübhə ilə yanaşa bilməz. Hamıya məlumdur ki, Xəzərin statusunun müəyyənləşməsinə dair ilk fikirlər çox və müxtəlif idi. Bu gün isə Azərbaycan prezidentinin bir neçə il əvvəl güclü təzyiq və təsirlərə baxmayaraq cəsarətlə irəli sürdüyü variantın ilk mərhələsinin reallaşmasının şahidiyik. Artıq Xəzərin dibinin milli sektorlara bölünməsi barədə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası ilə Qazaxıstan arasında Xəzərin dibinin orta xətt boyu bölməsi barədə müqavilə imzalanmışdır. İranın "heç nəyi bölməməli" prinsipindən "hər şeyi bölməli" prinsipinə meylli olduğu hiss olunur, Türkmənistanın mövqeyi isə sektoral bölgü prinsipinə çox yaxındır.

İndiki şəraitdə Xəzərin hüquqi statusunun müəyyənləşməsi, onun milli sektorlara bölünməsi qarşısında əngəllər yaratmaq Xəzəryanı dövlətlərin bir-birinə olan qısqanclığının nəticəsi ola bilər. Xəzərin su qatlarının və səthinin ümumi istifadədə saxlanması Xəzəryanı dövlətlərin ümumi inkişafına mane olur. Axı, nə üçün də, hər bir dövlət öz coğrafi şəraiti, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq imkanları çərçivəsində hərəkət etməsin. Bununla bağlı Xəzəryanı dövlətlərin mövqeyi onların bir-birinə qarşı məramlarının mahiyyətindən xəbər verir, qonşusunun siyasi, iqtisadi, ərazi müstəqilliyinə və milli təhlükəsizliyinə mövqeyini nümayiş etdirir. Təəssüflər olsun ki, iddialara meyllilik dövlətçilikdə, diplomatiyada böyük təcrübəsi və zəngin ənənələri olan tərəflərdə daha tez-tez müşahidə olunur.

Xəzər dənizinin milli sektorlara bölünməsinin vacibliyini əsaslandıran səbəblər, əlbəttə, müxtəlifdir.

Məlumdur ki, Xəzər hövzəsinin təkcə Azərbaycan sektorunda deyil, digər Xəzəryanı dövlətlərə aid sektorlarda da zəngin neft ehtiyatları vardır. Məsələ burasındadır ki, neft və qaz hasilatlarına dair layihələrin həyata keçirilməsində Xəzəryanı dövlətlər arasında birincilik Azərbaycana məxsusdur və respublikamız dünyanın bir çox aparıcı şirkətləri ilə bu sahədə səmərəli əməkdaşlıq edir. Qonşu dövlətlərin hər biri bu prosesə istədiyi zaman başlaya bilər. Xəzərin dibinin milli sektorlara bölünməsində əldə edilmiş razılıq bu məsələni həll edir. Oxşar vəziyyət Xəzərin su qatları və səthi ilə bağlı yenidən ortaya çıxır. Yəni Xəzərin su qatlarının və səthinin ümumi nəzarətdə qalması bərabər əməkdaşlığı təmin edə bilmir. Xəzəryanı dövlətlərin hər birinin gəmiçilik sahəsində, elmi-texniki, maliyyə və avadanlıq və s. baxımından imkanları eyni və ya yaxın səviyyədə deyil ki, Xəzərdən ümumi istifadə sahəsində də bərabər əməkdaşlığı təmin etsin.

Son vaxtlar transxəzər boru kəmərinin çəkilməsi məsələsinin gündəliyə

çıxması müəyyən dövlətlərdə narahatlığa səbəb olmuşdur. Öz geoiqtisadi maraqlarını hər şeydən üstün tutan şimal və cənub qonşularımız bu layihənin həyata keçməsini istəməsələr də bu sahədə əməkdaşlıq meyllərinin güclü təzyiqinə məruz qalmışlar. Elə bu səbəbdən də Xəzərin hüquqi statusunun müəyyənləşməsi məsələsi daha da aktuallaşmışdır. Bir tərəfdən Rusiyanın Qazaxıstan, İran və Azərbaycanla, digər tərəfdən İranın Türkmənistanla apardığı danışıqlarda, eləcə də İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazinin Azərbaycana, Türkmənistana və Qazaxıstana etdiyi son səfərlərdə əsas məqsəd hər iki dövlətin Xəzərin statusu məsələsində diplomatiyalarını fəallaşdırmaq və mövqelərini müdafiə etməyə çalışmaqdır. Xəzərin dibi ilə boru kəmərlərinin çəkilməsi bu gün Rusiya və İran tərəfindən arzuolunmaz hesab edilsə də, onlar başa düşürlər ki, bu layihə Böyük İpək yolunun bərpasında maraqlı olan bütün ölkələri, eləcə də Xəzərin hər iki tayında yerləşən Yeni Müstəqil Dövlətləri nəinki ciddi maraqlandırır, hətta sonuncuların həyati maraqlarını təşkil edir. Yeni yaranmış geoiqtisadi məkanda Moskvanın, ya Tehranın özlərinin inhisarçı tranzit ölkəsi statusunu saxlamaq cəhdləri bugünkü reallıqların sərt müqavimətinə rast gəlir. Bu isə təbii və qanunauyğundur. Hamıya məlumdur ki, dünya iqtisadiyyatının ən önəmli prinsipi səmərəlilik prinsipidir. Elə Böyük İpək Yolunun bərpasını da bu prinsip diktə edir və artıq Azərbaycanın aparıcı yolu sayəsində dünyanın ən qüdrətli dövlətləri bu əməkdaşlıqda iştirak edirlər. Bu prosesi dayandırmaq güclü axına qarşı dayanmaq deməkdir ki, o da real deyil. Elə buna görə də, Rusiya və İranın həmin prosesə fəal qoşulmaları, konstruktiv razılaşdırılmış prinsiplər əsasında bərabərhüquqlu əməkdaşlığı zamanın tələbidir.

Digər tərəfdən bu proses Yeni Müstəqil Dövlətlərin, o cümlədən Azərbaycanın suverenliyini və müstəqilliyini möhkəmləndirməyə, əhalisini maddi rifahını yüksəltməyə xidmət edəcəkdir. Bu səbəbdən də ona qarşı çıxmaq hər tərəfi zəiflədən və itirməyə məcbur edən proseslərə qoşulmaq deməkdir. Buna da sağlam düşüncə yol verməməlidir.

Qarşımıza gələn XXI yüzillikdə Xəzər bölgəsi həm Avropa, həm Asiya, həm də bütün dünya üçün xüsusi əhəmiyyət kəsb edən bir region olacaqdır. Dünyanın ən böyük neft və digər şirkətlərinin bu bölgədə əməkdaşlığa qoşulması dediklərimizin reallığa çevriləcəyinə şübhə doğurmur. Üstəlik, tarixi İpək Yolunun bərpası və yenidən fəaliyyət göstərməsi Xəzər bölgəsini bir daha dostluq, sülh və əməkdaşlıq bölgəsinə çevrilməyə məhkum edir. Lakin dostluq, sülh və əməkdaşlığın möhkəm və uzunömürlü olması üçün region dövlətlərinin reallıqlarla razılaşmaları və xoşməramlı münasibətlər yaratmaq istəkləri mühüm əhəmiyyət kəsb edir. Bu vacib mərhələdə Xəzəryanı dövlətlərin mövqelərinə irəliləyiş nəzərə çarpsa da, hələlik nöqtə qoyulmamışdır. Nöqtə isə Xəzərin hüquqi statusunun tam və

hərtərəfli müəyyənləşməsi ilə qoyula bilər. Bir şey aydındır: Xəzərin hüquqi statusunun müəyyənləşməsi region dövlətləri arasında gündəlikdə duran ən vacib məsələlərdən biridir.

Son beş il ərzində Xəzərin hüquqi statusunun müəyyənləşməsi ilə bağlı gedən proseslərin, aparılan danışıqların, keçirilən görüşlərin mahiyyətini araşdırsaq, onları təhlil etməli olsaq müsbət irəliləyişlə səciyyələnən dinamikanı görməmək mümkün deyil. Mübaliğəsiz qeyd etmək lazımdır ki, çətin, lakin səmərəli yol keçilmişdir.

Məsələ burasındadır ki, artıq SSRİ ilə İran arasında mövcud olmuş prinsiplər müasir geostrateji, siyasi, iqtisadi, ekoloji, təhlükəsizlik və s. tələblərə cavab vermir, yeni yaranmış durumu və Xəzəryanı dövlətlərin hamısının maraqlarını ədalətli və adekvat təmin etmir. Bu da tamamilə təbiidir, burada qeyri-adi heç nə yoxdur. 1921 və 1940-cı illərdə razılaşma əldə ediləndə Rusiya, SSRİ və İran beynəlxalq hüququn tam subyektləri olduğu halda, indi daha üç dövlət beynəlxalq hüququn subyekti olaraq Xəzəryanı bölgənin durumunu dəyişmişlər. Həm bu səbəbdən, həm də artıq SSRİ-nin olmadığı üçün həmin razılaşmalar beynəlxalq hüquq normalarına görə qüvvədən düşmüş hesab edilməlidir. Üç yeni dövlətin olduğu halda, olmayan dövlətlə bağlanmış müqavilələrə istinad etmək məntiqsizlik deyilmi?

Digər tərəfdən, əvvəlki müqavilələri nəzərdən keçirdikdə aydın olur ki, onlar yalnız ticarət, naviqasiya və balıqçılıq sahələrini əhatə edir. Xəzərin hüquqi statusu isə müəyyənləşməmiş qalır.

Ötən bir neçə ildə Xəzərin statusu ilə bağlı sahilyanı dövlətlərin müxtəlif variantlar irəli sürərək onları əsaslandırmaq cəhdlərinə baxmayaraq, Azərbaycanın mövqeyi bütün tərəflərin maraqlarını ədalətlə təmin edən variant kimi beynəlxalq praktikada vəsiqə almağa yaxındır. Bu mövqe həm də tarixi ədalət anlayışının bəraət qazanmasına xidmət edir. Bu səbəbdən də, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Rusiya Federasiyasının bu yaxınlarda ölkəmizə səfərə gəlmiş nümayəndə heyətinə başçılıq edən xarici işlər nazirinin birinci müavini Boris Pastuxovla görüşündə bu sahədə aparılan danışıqları, keçirilən görüşləri və əldə edilmiş nəticələri yüksək qiymətləndirmişdir. "Bu, artıq onu göstərir ki, biz irəliləyirik. Amma şübhəsiz ki, man burada, Bakıda, Azərbaycanda Rusiya ilə Azərbaycan arasında imzalanmış birgə bəyanatı - Xəzərin dibini milli sektorlara bölmək haqqında razılığa gəldiyimiz bəyanatı bütün bu prosesdə çox mühüm hesab edirəm. Bu, həmin məsələdə, qarşılıqlı münasibətlərimizdə çox mühüm dönüş idi". Xəzərin statusu, onunla bağlı məsələləri incəliyi ilə təhlil edərək və proseslərin istiqamətini müəyyənləşdirərək prezident xüsusilə qeyd edir ki, Xəzər dənizi nadir, mürəkkəb dənizdir. Xəzərin problemlərini birdənbirə həll etmək mümkün deyildir... Lakin başlıcası budur ki, düzgün xətt

götürmüşük, düzgün istiqamətdə gedirik.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi ilə əlaqədar daha bir təklif yenə də Azərbaycan Respublikası prezidentinin təklifi artıq aktuallığı və mühümlüyü ilə seçilir və Xəzəryanı dövlətlərin rəğbətini qazanır. Belə ki, Xəzərin sülh, dostluq və əməkdaşlıq dənizinə çevrilməsinə çalışan Heydər Əliyev onun hərbsizləşdirilməsi təklifi ilə çıxış etmişdir. Axı, doğrudan da, hərbi dəniz donanmalarının mövcudluğu gələcəkdə bu və ya digər məsələlərlə bağlı münaqişələrə səbəb ola bilər. Məntiqə söykənməli olsaq, əgər Xəzəryanı dövlətlərin bir-birinə qarşı ərazi və ya digər iddiası yoxdursa, ağır xərclərə qatlaşaraq çox da böyük olmayan bu qapalı dənizi silah cəbhəxanasına çevirməyin nə mənası var? Xəzərin hərbsizləşdirilməsi - bir mövqe, diplomatik addım, nəhayət, dövlətçiliyimizin və milli maraqlarımızın gələcəyi üçün tarixi əhəmiyyətli məsələ kimi öz qiymətini bütövlükdə məhz iqtisadi, elmi, mədəni və s. əlaqələrin inkişafında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzərində və ətrafında yerləşən ölkələrin inkişafı və onların arasında hərtərəfli əlaqələrin genişləndirilməsi, xüsusilə də Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının güclənməsi sahəsində Böyük İpək Yolunun bərpası tarixi rol oynayacaqdır. Bugünkü tariximiz belədir ki, eramızdan əvvəl Çin hökmdarlarının təşəbbüsü ilə fəaliyyət göstərmiş Böyük İpək Yoluna uzun fasilədən sonra yeni nəfəs verənlərin önündə Azərbaycan və onun prezidenti Heydər Əliyev durur. Qətiyyətlə demək olar ki, bu günlərdə Azərbaycanın paytaxtı Bakıda keçiriləcək beynəlxalq konfrans həm forma, həm də məzmun etibarilə Azərbaycanın yeni tarixində ən mühüm hadisələrdən biri olacaq, beynəlxalq əməkdaşlığa öz bəhrəsini verməklə bərabər Xəzərlə bağlı bəzi məsələlərə də öz təsirini göstərəcəkdir.

Xəzər dənizi bu gün beş dövlətin maraqlarının birbaşa qovuşduğu mühüm geostrateji məkan olduğundan onun hüquqi statusunun müəyyənləşməsi regional və beynəlxalq siyasət, milli təhlükəsizlik və stabillik, regional və beynəlxalq əməkdaşlıq baxımından müasir tariximizin ən mühüm məsələlərindən biridir. Əgər hər bir dövlətin ərazisi, yeni milli sektoru konkret müəyyənləşməzsə, bu hal gərginlik yaratmaq üçün bəhanə və səbəblər mənbəyi ola bilər. Belə bir gərginlik mənbəyini aradan qaldırmaq üçün Xəzərlə bağlı məsələləri iki mərhələdə həll etmək-birinci mərhələdə Xəzərin milli sektorlara bölünməsi barədə əsas sənədi-sazişi (bu yolda mühüm addım 1970-ci ildə atılmışdır, Xəzərin SSRİ-yə aid hissəsi Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan arasında sektorlara bölünmüşdür) ikinci mərhələdə isə naviqasiya, kommunikasiya, balıqçılıq, ekologiya, elmi əməkdaşlıq və s. Sahələrlə bağlı müqavilələr imzalamaq məqsədəuyğun olardı.

Əsrlərdən bəri Azərbaycan planetin "həsrəti çəkilən ölkələrindən biridir. Amma bu "həsrəti çəkilən torpağın" zəngin nemət və sərvətləri onun sahibi – Azərbaycan xalqından başqa kimlərə desən qismət olub. Müstəqilliyimizi qazandıqdan sonra qarşımızda duran vəzifələrin elə həlli tələb olunur ki, xalq, sərvətlərinin tam sahibi olaraq onlardan öz maraqları çərçivəsində istədiyi kimi istifadə etmək hüquqlarını əlində saxlasın. Gənc dövlətimizin taleyi ilə bağlı bir neçə çox təhlükəli mərhələni dəf edən ölkə prezidenti Heydər Əliyev vaxt və səhhətini əsirgəmədən, bütün bacarıq və talantını bu məqsədlərə həsr edir. Onun müdrik rəhbərliyi altında müqəddəs yolla inamla addımladığımız üçün fəxr etməyə haqqımız var, çünki dövlətimizin başçısının qeyd etdiyi kimi, Xəzərin enerji ehtiyatlarının aşkar olunmasında və XX əsrin sonunda dünyaya açılmasında oynadığı xüsusi rol Azərbaycanın yalnız xalqımız qarşısında yox, həm də bəşəriyyət qarşısında ən böyük xidmətlərindən biridir.

"Respublika" qəzeti, 8 sentyabr 1998-ci il

DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSI VƏ REGIONAL TƏHLÜKƏSIZLIK MƏSƏLƏLƏRI

Dağlıq Qarabağ münaqişəsi: konseptual baxış cəhdi

Dağlıq Qarabağ problemi Azərbaycanın son onillikdə ən ağrılı yarası olmaqla, eyni zamanda ən gözlənilən və gözlənilməyən bəlası olub. XX yüzilliyin sonunda SSRİ-nin dağılması nəticəsində Qarbaçovun iqtisadi məsələlər üzrə köməkçisi Aqanbekyan tərəfindən üz qabığı açılan bu yara – bütün mahiyyəti və ondan doğan ciddiliyi ilə Azərbaycan xalqının, ola bilsin ki, çox zaman təfərrüatına varmadığı, lakin məkrli qonşuları tərəfindən onilliklər boyu bu saxta və qondarma ideyanın tarxin yaddaşının qatlarına yeridilməsi, oradan "saxla samanı, gələr zamanı" prinsipinə uyğun olaraq araya çıxarılması dünya ictimaiyyətinə (biz özümüz intuitiv olaraq hər şeyi duyuruq) bir çox gizli mətləblər aşkarlandı.

Qədim romalıların "hər kitabın öz taleyi var" hikmətini, sadəcə müqayisə xatirinə "hər xalqın öz taleyi var" kimi ifadə etsək, Azərbaycan xalqının çətin, lakin şərəfli tarixi boyu baş vermiş hadisələri əsaslandırmağa istinad nöqtəsi tapmaq daha asan görünür. Doğrudan da, taleyimizin səhifələrinə, keçmişimizə yalnız quru tədqiqatçı, faktları təsdiq edən tarixçi kimi yox, adi bir müşahidəçi kimi nəzər saldıqda hər şeydən öncə iki faktor, şübhəsiz, həlledici məna kəsb edir. Paradoksal olsa da bu faktorların hər ikisi, yəni həm cəmiyyət inkişafının ilk dövrlərindən məskunlaşdığımız torpağımızın – Azərbaycanın planetimizin həsrət çəkiləsi zəngin və dilbər guşələrindən biri olması, həm də Azərbaycanının və dünya dövlətlərinin geosiyasi, geoiqtisadi, ticarət, kommunikasiya maraqları baxımından ölkəmizin tarixən mövcud olmuş və indiki üstünlükləri qəribədir ki, taleyimizdə fatal rol oynamış və bu müstəvidə oyun hələ davam etməkdədir. Elə bu səbəblərdən Azərbaycanın taleyi simruq quşunun taleyini xatırladır. Nə qədər məhv etməyə, başqa dövlətlərin ərazisində əridilməyə cəhd göstərilsə də, o öz gülü üzərində yenidən canlanmış və özünü təsdiq uğrunda mübarizəyə atılmışdır. Yeni dövrdə, son üç yüzillikdə Azərbaycanın müqəddəratı iki böyük dövlətin maraq burulğanında əsir olmuşdur. İran və Rusiya, hərəsi bir tərəfdən imperiya iddialarını "parçala və hökm sür" prinsipi ilə çulğalayaraq Azərbaycan torpaqları uğrunda dəfələrlə ölüm-dirim mübarizəsinə girişərək taleyimizi onilliklər boyu silinmə təhlükəsi qarşısında qoymuşlar.

Qəribədir ki, XX əsrin ortalarında mövcud müstəmləkələrin dağılması prosesində canfəşanlıqla fəallıq göstərən Rusiya – SSRİ-nin ən azad və müstəqil respublikalar birliyi mifi üzərində qərar tapmaq əsrlər boyu yaşayacağına əmin idi. Lakin üzdə belə olsa da, mahiyyət etibarilə Rusiyanın XX əsrdəki siyasəti keçmiş çarların siyasətinin məntiqi davamı olmuşdur, yəni imperiyanı əbədi etmək və onu daha da genişləndirmək üçün bütün vasitələr yaradılır prinsipinə söykənmişdir. Bu yolda nələr olmayıb? Özü də imperiyanın

sərhədləri boyu görülən tədbirlər daha qərəzli xarakter daşımışdır. Dərindən düşünülmüş məkrli siyasətin nəticəsi olaraq imperiya sərhədlərindən "gec partlayan mina zolaqları" və "forpostlar" yaradılmışdır. Nəzərdə tutulduğu kimi lazım gələn məqamda həmin "obyektlər" fəaliyyətə başlamalı idilər, yeri gələrsə lap yeni torpaqların ələ keçirilməsi üçün dayaq nöqtələri olmalı idilər.

İmperiyanın yaratdığı ilk dövlətlərdən başlayaraq onun sərhədlərində potensial qaynar nöqtələrin təməlinin qoyulması prosesi başlamış və bu proses onilliklər boyu davam etmişdir. Müxtəlif dövrlərdə imperiyanın möhkəmlənməsindən, qüdrətinin və təsir dairəsinin genişlənməsində, təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış bu qərəzli siyasətin "meyvələri", onun coğrafiyası Pribaltikadan tutmuş Orta Asiyayadək göz qabağındadır. Onların ən qovğalısı və ən mürəkkəbi isə, şübhəsiz ki, qondarma DQ məsələsidir. Qondarmadır, çünki nə hüquqi, nə də tarixi baxımdan bu əraziyə erməni iddialarının heç bir əsası yoxdur. Sadəcə olaraq, "Böyük ermənistan", "Soyqırım" və s. bu kimi miflərin tarixi müəllifləri (bu qondarma nəzəriyyələr, əslində, başqa dövlətin dəftərxanasında hazırlanaraq ermənilərə ötürülmüşdür) və müasir ideoloqları çox yaxşı bilirlər ki, onların iddiaları yalan, uydurma, saxtalaşdırılmış fakt və sənədlər üzərində quraşdırılmışdır. Tarixi məxəzlər, mənbələr və tədqiqatlar, ümumiyyətlə, mifik "Böyük Ermənistan" dövlətinin eramızdan əvvəl, hətta bir neçə onillik ərzində belə mövcudluğunun təsdiqi erməni təxəyyülünün quramasından başqa bir şey deyildir. Bu bir tərəfə, son dövrlərdə aparılan tədqiqatlar "erməni soyqırımı" məsələsində də hadisələrin və faktların tamamilə saxtalaşdırdığını göstərir. Əksinə, bütün dövrlərdə əsl soyqırımına məruz qalan azərbaycanlılar olmuşlar (Erix Feyql). Yalnız XX əsrdə, müxtəlif vaxtlarda, yüz minlərlə azərbaycanlı soyqırımın və deportasiyaya məruz qalmışdır. Əsrin əvvəllərində, ortalarında, sonlarında baş verən hadisələr bu qəbildəndir. Azərbaycanlıların yüz illərlə məskunlaşdığı İrəvan vilayətində mərhələ-mərhələ deportasiyaya uğramaları, DQ və onun ətraf rayonlarından didərgin salınmaları dərindən düşünülmüş və həyata keçirilən mənfur siyasətin nəticəsi deyilmi? Başlıcası odur ki, bu hadisələr ermənilərin istək və niyyətləri ilə üst-üstə düşsə də imperiya dəst-xəttinin zəncirləri olmuşdur. Məlumdur ki, "gec partlayan mina zolaqları" içərisində ən təhlükəlisi DQ olmuşdur. Rus tədqiqatçıları, diplomatları və rəsmi dairələrin keçən əsrdən indiyədək saxlanılan sənədlərdən DQ-da yaşayan ermənilərin bu ərazidə məskunlaşmsının tarixini və səbəblərini açıq-aydın göstərilir. O dövrdəki əhalinin hərəkəti haqqında sənədlərdə diplomat və tədqiqatçıların hesabatlarında dəqiqi rəqəmlər vardır. İran və başqa yerlərdən DQ ərazisinə köçürülən ermənilərn sayı da məlumdur. Bircə mənbəni nəzərinizə çatdıramq kifayətdir. 1911-ci ildə Şavrov yazırdı ki, Zaqafqaziyada yaşayan bir milyon üç yüz min ermənin bir milyonu gəlmə ermənilərdir. Və bu köçürülmə Rusiya tərəfdn təşkil edilib. Bu fikrin

doğruluğunu təkcə Qriboyedov, Veliçko, Şopen, Mayevski, Qlinka kimi müəlliflər yox, elə Korkodyan, Parsamyan, İşxanyan və s. bunun kimi əksər erməni tədqiqatçıları da təsdiq edir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 250 il ərzində ermənilər xain niyyətlərinin əsl quluna çevrilərək özlərinimə'lum dövlətin "sədaqətli və etibarlı dostu" kimi qəbul etdirərək onun havadarlığı sayəsində azərbaycanlıları min illərdən bəri yaşadıqları indiki Ermənistan ərazisindən qovaraq didərgin salmış, qaçqın, köçkün etmişlər. Beləliklə, yalnız son yüzillikdə yarım milyondan çox azərbaycanlı əsrin əvvəlində 150 mindən çox əsrin ortasında, 200 mindən çox azərbaycanlı isə əsrin sonlarında öz ata-baba torpaqlarını zorla tərk etməyə məcbur olmuş, deportasiyaya məruz qalmışlar. Bizlərə qarşı həyata keçirilən bu səlib yürüşləri ermənilər üçün bir tərəfdən qondarma "Böyük Ermənistan" iddiasını həyata keçirmək yolunda addımlar, o biri tərəfdən etnik təmizləmə siyasətinin zəncirləri, Rusiya üçün isə imperiyanı əbədiləşdirməyə qarant hesab edilən forpostlar və gec açılan mina zolaqları olmuşdur. Təbii ki, mənfur və mürtəce mahiyyətli bu niyyətlər əsrlər boyu üst-üstə düşmüş və elə indinin özündə də mənafe birliyi davam etməkdədir.

Bu gün DQ-la bağlı Azərbaycan xalqının, dövlətinin və onun rəhbərliyinin qarşısında duran məsələnin 1988-ci ildən başlayıb 1993-cü iladək yükunlaşan bir münaqişənin həllindən ibarət olduğunu təsdiqləmək sadəlövhlük olardı. Düzdür, münaqişənin indiki səviyyədə vüsət almasında həmin dövrdəki Azərbaycan rəhbərliyinin məsuliyyəti çox böyükdür. Heç şübhəsiz ki, 1988-ci ildən Azərbaycanın başında qondarma rəhbər yox, xalqını, millətini, torpağını sədaqətlə sevən şəxs dayansaydı, o öz kürsüsünə millətin, respublikanın maraqlarını qurban verməsəydi, münaqişə indiki şəkli almazdı. Yazıqlar olsun ki, belə olmadı. Bu bir neçə il ərzində yalnız hakimiyyət kürsüsündə oturmaq xatirinə hər şeyə razı olan rəhbərlər xalqı, torpağı unutdular, əksinə hadisələrin gedişində ermənilərə çox sərfəli olan addımlar atdılar. Vəzirovun Ermənistandan didərgin düşmüşləri Moskvanın göstərişi ilə Sumqayıt və Bakıya yönəltməsi, Mütəllibov və cəbhə hakimiyyəti dövründə rayonların, kənd və şəhərlərin kürsü yolunda siyasi oyunlara qurban verilməsi, bəzi rəhbərlərin məqsədyönlü, bəzilərinin səriştəsizliyi ucbatından DQ əhalisinin qırılması və didərgin düşməsi, nəticədə DQ və ətraf rayonların işğalına səbəb oldu. Məqsəd isə qarşıya hələ keçən əsrdən qoyulmuşdu, lakin reallaşdırmaq imkanı ələ düşmürdü. Buna baxmayaraq, dünyanın bütün ermənləri bu məqsədin həyata keçməsi üçün artıq sistemli, fasiləsiz, zaman kateqoriyasını nəzərə almadan çalışırdılar, özü də bütün sahələrdə, hətta azyaşlı məktəblilərdən tutmuş dünyanın bütün ölkələrində olan ermənilər də daxil olmaqla bütün millət mifik "Böyük Ermənistan" və "soyqırım" kimi saxtakarlıqla formalaşdırılmış nəzəriyyələrin əsirinə çevrilmişlər.

Ərazi iddiaları haqqında söhbət düşəndə ermənilər "tarixi torpaq-

lardan" çox dəm vururlar. Amma bu "tarixi torpaqlar" anlayışı nə deməkdir, onun zaman və məkan tutumu hansı həddir, heç kimə aydın deyil, heç ermənilərin özünə də. Sadəcə olaraq, sözdə "tarixən bu torpaqlar ermənilərin olub" iddiası sərsəm olduğu qədər də gülünc görünür. Digər tərəfdən, dünyada müasir siyasi durum və beynəlxalq hüququ baxımından heç sabun köpüyü üzərində də dayaq tapa bilməyən "tarixilik" – pataloji xəstəliyə bənzəyir. Baxmayaraq ki, ermənilərin tarixən hansı ərazidə mövcud olmaları hələ də mübahisəlidir (çünki Kiçik Asiyadan tutmuş Qərb mənşəyinədək müxtəlif fikirlər elm aləmini dolaşmaqdadır), hətta bu mülahizə elmi fakta çevrilsə belə "tarixi torpaqlara" iddia fikrinə azacıq da olsa ciddi yanaşılsa onda gərək nəticədən Allah özü qorusun, dünya təzədən qurulsun, sərhədlər təzədən biçilsin, bir sıra dövlətlər müasir tarixdən silinsin, başqaları isə keçmişdən bu günə köçürülsün. Maraqlıdır ki, ermənilərin "tarixilik" prinsipi keçən əsirdən bu yana tətbiq edilsə belə planetimizdə müasir siyasi durum tam yararsız hesab edilməlidir. Bu həqiqətlər indi hamıya yaxşı məlumdur, ermənilərin özləri də hər şeyi əla bilirlər. Lakin, bəla burasındadır ki, ermənilər həqiqəti bilə-bilə saxtalaşdırmaq prinsipini üstün tutmağı qərara almışlar və bu yolda tarix boyu "uğurlar" qazanmağa adət etmişlər. Belə "uğurlardan" biri də "soyqırım" kompaniyasıdır.

Təkcə bir mənbəyə, özü də neytral mənbəyə istinad etməli olsaq belə "soyqırım" konsepsiyasının ermənilər tərəfindən necə yarandığının şahidi ola bilərik. Məşhur tarixçi, sənədli filmlər müəllifi, Şərq ölkələrinin mahir tədqiqatçılarından biri avstriyalı professor Erix Feyqlin "Terror haqqında mif: erməni ekstremizmi, mənşəyi və mənbəyi" adlı fundamental əsəri dolğun, zəngin tarixi və arxiv materiallarına, məxfi diplomatik yazışmalara və fotosənədlərə əsaslanaraq erməni iddialarının, ekstremizminin anatomiyasını çılpaqlığı ilə ifşa edir və başdan-ayağa qurma olduğunu sübut edir. Aram Andonyan adlı bir erməni müəllifinin saxta, uydurma, böhtan xarakterli yazısı əsasında ermənilər tərəfindən bütün dünyaya yayılan "soyqırımı" hadisəsinin tamamilə yalan üzərində qurulduğuna Erix Feyqlin kitabı ilə tanış olan hər kəs əmin olur. Yalnız təəssüflə bir məsələni etiraf etməliyik. Biz azərbaycanlılar ermənilərin əsrlər boyu həyata keçirmək istədikləri mənfur niyyətlərinə qarşı, ən azı, unutqan və laqeyd olmuşuq. Nə indiki Ermənistandan etnik təmizləmə yolu ilə azərbaycanlıların qədimdən məskunlaşdıqları torpaqdan kütləvi şəkildə qovulduğu və deportasiyaya uğradığı zaman, nə Azərbaycan torpaqlarında ermənilərin müxtəlif dövrlərdə məskunlaşdırıldığı zaman, nə ermənilərin özlərinin "soyqırımı" konsepsiyasını quraşdırdığı zaman, nə də Qarabağ və onun ətrafındakı rayonlar işğal olunduğu zaman hadisələrin əvvəlindən Azərbaycan rəhbərləri xalqla birləşib lazimi müqavimət göstərə bilməmişlər. Beləliklə imperiya siyasətinin əsas istiqamətlərindən biri azərbaycanlıların öz doğma torpaqlarından köçürülüb,

yerlərində ermənilərin məskunlaşdırılması idi ki, bu da iki yüz əlli ilə yaxın bir müddətdə Rusiya tərəfindən uğurla həyata keçirildi. Ümumiyyətlə, Azərbaycanın əhatəsində olduğu nəhənglər tərəfindən bölüşdürülməsi və tarixdən silinməsi planı yüzilliklər ərzində sistemli həyata keçirilmiş və demək olar ki, başa çatmaqda idi. (Xatırlatmaq yerinə düşər ki, bu prosesə qarşı davamlı müqavimət, kəsərli əks fəaliyyət yenə də Heydər Əliyevin Azərbaycana Sovet dövründən rəhbərlik etdiyi vaxt mümkün olmuşdur. Hədisələrin və proseslərin gedişini, istiqamətini qabaqlamağı, gələcəyi görməyi bacaran rəhbər o vaxt milli ruhumuzun, mədəniyyətimizin, ədəbiyyatımızın, dilimizin, iqtisadiyyatımızın oyanışı və möhkəmlənməsi üçün nələr etmədi. Bircə onu qeyd etmək kifayətdir ki, məhz Heydər Əliyevin müdrik siyasəti nəticəsində kosmopolit Bakı milli paytaxta çevrildi). Təəssüflər olsun ki, böyük bir xalqa qarşı yürüdülən soyqırım siyasətindən dünya ictimaiyyəti, məlum səbəblər üzündən, tam xəbərsiz qalmışdı. Azərbaycanın məhvinə yönəldilmiş siyasətin son akkordlarını isə biz Surət, Əlikram, Rövşən kimilərinin törətdikləri hadisələrdə, etdikləri cəhdlərdə yaşadıq, DQ münaqişəsində sınağa düşdük.

Azərbaycan xalqı sözün əsl mənasında beynəlmiləlçi, ürəyi açıq və geniş , duz-çörək, qonşuluq, dostluq anlayışlarını müqəddəs sayan, dosta, qonşuya və qonağa inanan, etibar edən bir xalqdır və tarix boyu bu sadaladığım keyfiyyət və dəyərləri dəfələrlə yüksək səviyyədə nümayiş etdirib. Daha bir xüsusiyyəti ayrıca qeyd etmək vacibdir: bu xalq kin saxlamağı, düşmənçilik hissləri ilə yaşamağı da bacarmır. Hətta xain məqsədlərini maskalayaraq bəzən özünü üzdə dost, yaxın kimi qələmə verən bədniyyət düşmənin riyakarlığına əmin olsa belə hər şeyi bağışlamağı bacarır, olub-keçənləri unudur, özünü onun düz yola qayıtmasına inandırmağa çalışır və bu inamla yaşayır. Şübhəsiz ki, bu xüsusiyyətlər Azərbaycan xalqını tam səciyyələndirmir. Bizim belə bir məqsədimiz də yoxdur. Bir də onu qeyd etmək kifayətdir ki, yuxarıdakı fikirlərin əsl müəllifi bu sətrləri yazan yox, Azərbaycanda olmuş, yaşamış, bu xalqı öyrənmiş saysız-hesabsız alim, diplomat, tarixçilərdir. Onlardan Puşkin, Qriboyedov, Veliçko, Şavrov, Alfred Karte, Adam Mets, Düma və başqalarını nəzərə çatdırmaq kifayətdir. Ən maraqlısı isə budur ki, bu şəxslər erməniləri səciyyələndirərkən isə əsas epitetlər hiyləgər, riyakar, xain, məkrli və bu kimi anlayışlar üstünlük təşkil etmişlər. Tarix bunları da dəfələrlə nümayiş etdirib. Sadəcə olaraq vaxtında hadisələr və faktlar dünya ictimaiyyətinə çatdırılmayıb, yayılmayıb. Bunu da müxtəlif səbəblərlə izah etmək olar. Məsələn, rəsmi sənədlərdə, gizli diplomatik yazışmalarda ermənilərin ərazisində yaşadığı dövlətə qarşı başqa dövlətlərlə xəyanət əlaqəsində olması barədə çoxlu faktlar var. Sanki belə hallar ermənilərdə ədadların çağırışı xarakteri daşıyır. Son dünya müharibəsi zamanı müxtəlif erməni qurumlarının Hitlerlə alyans yaratmaq cəhdləri çoxlarına məlumdur. Ən dəhşətlisi isə

budur ki, niyyət və xəyanət baş tutmadıqda heç nə olmayıbmış kimi fəaliyyət əvvəlki rejimdə davam edir. Türkiyənin ərazisində yaşayan ermənilərin yüz il ərzində törətdikləri xəyanətləri isə sistemləşdirmək üçün xüsusi tədqiqat aparmaq lazımdır. Ermənilərin ikinci qeyd olunmalı xüsusiyyəti onların riyakarlığıdır. Bu söz onların xislətini bəlkə də tam əhatə etmir. Qısa olaraq mahiyyət ondan ibarətdir ki, ermənilər olmayan şeyi, yalanı, saxtanı uydurub tarixi həqiqət kimi gözə soxmağın dünyada ən mahir ustadırlar. Vəziyyət çox zaman o dərəcəyə çatır ki, onlar qondarma, yalan ideya və fikrin quluna və qurbanına çevrilirlər, bu riyakarlığı əzizləyərək nəsil-nəsil yaşatmaq üçün ən çirkin üsullardan istifadə edir, qədim peşədən tutmuş terrora qədər, heç nədən çəkinmirlər. Ermənilər, elə bil, Makiavelli postulatlarının ən çirkinlərini mənimsəyən şagirdlərdir. Bu xüsusiyyətlər də yuxarıda adları çəkilən və başqa şəxsiyyətlərin müxtəlif yazılarında xüsusi qeyd olunur. Qonşusunu hamıdan yaxşı tanıyan Azərbaycan xalqı, sanki həmişə bu "məzlumların" gipnozuna məruz qalıb.

Lakin son bir neçə il ərzində qlobal mənzərə tamam dəyişdi. Yüz illiklərin fövqündə formalaşan qondarma iddiaların mahiyyəti dünya ictimaiyyətinə açılmağa başladı. Xalqımızın tarixində ermənilər birinci dəfədir ki, total və effektli müqavimətə rast gəldilər. 1988-1993-cü illərdə Azərbaycan rəhbərlərinin xəyanət, maymaqlıq və səriştəsizliyi üzündən itirilən torpaqların geri qaytarılması üçün ilk dəfə əsaslı, ardıcıl, hərtərəfli siyasi və diplomatik fəaliyyət başladı. Bu prosesə rəhbərliyi zəmanəmizin ən görkəmli dövlət və siyasi xadimlərindən biri, respublika Prezidenti Heydər Əliyev etdi. Nəticədə atəşkəs rejimi əldə edildi, gərgin və çoxşaxəli iş sayəsində Lissabon prinsipləri qəbul edildi, Azərbaycanda sabitlik və iqtisadi inkişaf təmin olundu, dünya ölkələri birliyi Azərbaycanı müstəqil, demokratik, hüquqi dövlət kimi öz sıralarına qəbul etdi və Azərbaycanın haqq işi hamı tərəfindən dəstəkləndi. Beləliklə də, erməni iddialarının əsl mahiyyəti açılaraq onların dünya birliyi qarşısında təklənməsi prosesinin birinci mərhələsi, demək olar ki, başa çatmış oldu. Əminəm ki, bu prosesin ikinci mərhələsi də torpaqlarımız qaytarılandan sonra uğurla başa çatdırılacaq və nəhayət, kimin kim olması barədə heç kimdə şübhə qalmayacaqdır.

DQ məsələsi əsrlər ərzində formalaşdırıldığından, onun həlli həddindən artıq mürəkkəbdir və şübhəsiz ki, advekat proses tələb edir. Lakin Azərbaycan bu yolu ən qısa müddətdə keçməyə məcburdur və şərəflə keçəcəkdir. Bu çətin missiyanın öhdəsindən gəlmək isə məhz Prezident Heydər Əliyevin düşünülmüş, əsaslandırılmış müdrik siyasəti nəticəsində mümkün olacaqdır. Azərbaycanın müstəqilliyinin 1993-cü ilə qədər və ondan sonrakı mərhələsinə nəzər saldıqda, ikinci mərhələni sabitliyə, mədəni və iqtisadi tərəqqiyə, milli dirçəlişə, milli şüur və təfəkkürün formalaşma-

sına dönüş mərhələsi adlandırmaq lazımdır. Fikrimizcə, Azərbaycan xalqının tarixində bu dövr, ən vacib məqamlardan biri hesab edilməlidir. Ona görə ki, məhz indi və məhz Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının, müstəqil Azərbaycanın tarixi keçmişində baş verən bütün hadisələr dərindən təhlil edilərək obyektiv hüquqi qiymətini alır və beləliklə də, *yaxın və uzaq tariximizdə baş vermiş mənfi hadisələrin, milli təfəkkürümüzün* imperiyalar tərəfindən təzyiqlərə məruz qaldığından buraxdığımız səhvlərin bir dahah təkrara olunmaması üçün möhkəm zəmin, yəni milli təfəkkür tərzi formalaşdırılır. Əminəm ki, gələcək tariximiz baxımından bundna daha vacib bir vəzifə yoxdur və ola da bilməz. Kim nə deyir desin, bu gün Prezident Heydər Əliyev öz qarşısında dövlət başçısı kimi daha bir müqəddəs vəzifə müəyyənləşdirmişdir. Prezident bütün çıxış, nitq və söhbətlərinin ana xəttini Azərbaycan xalqına, müstəqil Azərbaycan vətəndaşlarına keçmişimizin dərindən və hərtərəfli öyrənməyə, bu günümüzdə və sabahımızda qarşımızda duran müqəddəs vəzifələri dərk etməyə və onları həyata keçirmək üçün fədakarcasına və sədaqətlə çalışmağa, yeni səhvlərə yol verməməyə, Azərbaycanın müstəqilliyinin, bütövlüyünün, dövlətçiliyinin, xoşbəxt gələcəyinin əbədi və dönməzliyini təmin etməyi bacaran müstəqil vətəndaşların milli təfəkkür tərzini formalaşdırmağa yönəlmiş çağırış təşkil edir. Gələcəyimiz üçün əvəzi olmayan bu müqəddəs missiyanın həyata keçməsində - bir tərəfdən vətənə, torpağa məhəbbət hisslərinin aşılanması, digər tərəfdən unutqanlıq, laqeyidlik hisslərindən xilas olmaq üçün yaradılmış milli auditoriyanın rəhbərinin əvəzsiz xidmətinə qiymətı zaman və xalq özü verəcəkdir.

Rəhbərlə xalq arasında zəmin tapmış bu nadi fəaliyyət forması keçmişimiz, bu günümüz və gələcəyimiz baxımından zamanın tələbidir. Nə qədər çətin və əziyyətli olsa da, şərəflidir ki, məhz Yeni Azərbaycan qurucusu, xalq ilə daim, birbaşa ünsiyyət saxlayaraq, alimlərin, müəllimlərin, ziyalıların vəzifələrinin ağrılığını da çiyinlərinə alır, heç nəyi və heç kimi gözləmədən, millətimizin və dövlətimizin qarşısında duran təxirəsalınmaz vəzifələri dönə-dönə inam və təkidlə müəyyənləşdirir. Beləliklə, bu gün tarixin bizə öyrətdiyi ibrət dərslərindən nəticə çıxararaq, keçmişimizi, itkilərimizi və səhvlərimizi hərtərəfli araşdıraraq, gələcəyimizi konkretləşdiririk. Və elə bu proses xalqla onun şəriksiz rəhbərinin bir amal, bir məqsəd müstəqil, qüdrətli, çiçəklənən Azərbaycan fövqündə daha möhkəm birləşməsini təmin edir. DQ məsələsinin həlli açarlarından biri də bu birlikdədir.

"Respublika" qəzeti, 4 fevral 1998-ci il

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarix və geosiyasət müstəvisində

SSRİ-nin dağılması və sosializm sisteminin süqutu planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni imperativlərini formalaşdırdı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnir, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdusa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qızışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə gətirib çıxarırdı.

Bu proseslərin gedişində öz dövlət müstəqilliyini bərpa edən Azərbaycanın həm də Ermənistanın getdikcə genişlənən hərbi təcavüzünə məruz qalması onu münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması sahəsində böyük çətinliklər və təzyiqlərlə üz-üzə qoydu. Əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın ölkəmizə əsassız ərazi iddialan nəticəsində yaranmış bu münaqişənin özünəməxsus tarixi kökləri vardır.

Qədim dövrdə və erkən orta əsrlərdə Qarabağ Qafqaz Albaniyasına daxil idi. Burada alban tayfaları (utilər və qarqarlar) yaşayırdılar. Qarabağ uzun müddət Sasani əsarətinə qarşı mübarizə mərkəzlərindən biri olmuşdur. Ərəb işğalından sonra (VII əsr) bu diyarın düzənlik hissəsində və şəhərlərdə yaşayan əhali islam dinini qəbul etdi. Qarabağ X əsrdən Şəddadilərin, XI əsrin ortalarından isə Səlcuqilərin hakimiyyətinə keçdi. XII əsrin ikinci yarısından etibarən Qarabağ Eldəgəzlər dövlətinin tərkibində idi.

XIII əsrin 30-cu illərində monqollar Qarabağı işğal etdilər. 60-cı illərdə Qarabağda monqol əsarətinə qarşı baş vermiş üsyan amansızlıqla yatırıldı. XIV əsrin sonlarından Qarabağ Teymurilərin hakimiyyətinə keçdi. Teymurun ölümündən (1405) sonra xalq kütlələrinin Teymurilərə qarşı çıxışlarından istifadə edən Şirvanşah I İbrahim Qarabağın düzənlik hissəsini Şirvana birləşdirdi. Lakin Qaraqoyunlularla Kür sahilində baş vermiş vuruşmadan (1412) sonra Qarabağ tamamilə Qaraqoyunlu dövlətinə qatıldı. XV əsrin ikinci yarısından isə Qarabağ Ağqoyunlu dövlətinin tərkibində idi. XVI əsrdə Qarabağ Səfəvilərin hakimiyyətinə keçdi. Səfəvilər dövlətinin inzibati vahidlərindən biri də Qarabağ bəylərbəyliyi idi. Səfəvi-Osmanlı müharibələri zamanı dəfələrlə əldən-ələ keçən Qarabağ dağıntılara məruz qaldı. XVII əsrin əvvəllərində Qarabağda kəndli hərəkatı genişləndi. Səfəvilər dövründə Qarabağı Qacar tayfasından olan Ziyadoğullan nəsli idarə edirdi.

XVIII əsrin birinci yarısında Səfəvilər sülaləsinin dağılması və tayfalararası ziddiyyətlərin kəskinləşməsi nəticəsində Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı. Tərtər, Kür və Araz çayları arasındakı ərazidə yaranan Dağlıq Qarabağın daxil olduğu müstəqil Qarabağ xanlığının hökmdarı onun əsasını qoyan Pənahəli xan oldu. O, 1750-ci ildə Şuşakənddən bir qədər aralı, əlçatmaz dağ zirvəsində Pənahabad qala-şəhərini saldı. Bu qala-şəhər sonralar Şuşa adlandırıldı. Pənahəli xanın dövründə Şuşa ("Şuşa qalası") Azərbaycanın inzibati. ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi.

XVIII əsrdən başlayaraq Rusiya Qafqaz regionunda öz strateji mənafelərini həyata keçirmək üçün fəal geosiyasi addımlar atmağa başladı. Belə ki, çar rejimi feodal çəkişmələrindən məharətlə istifadə edərək sosial-siyasi proseslərə müdaxilə edir, antifeodal hərəkatların yatırılmasında jandarm siyasəti yeridirdi. Həmin dövrdə Rusiyanın sənayesinin Qafqazda. xüsusilə Azərbaycanda istehsal edilən xammala ehtiyacı vardı. Digər tərəfdən isə Rusiya Türkiyənin Qafqazda və Xəzər sahillərində möhkəmlənmək cəhdlərinin qarşısını almağa çalışırdı.

1722-1724-cü illərdə rus qoşunlarının Xəzərsahili vilayətləri ələ keçirməsi Qafqazda və Xəzər dənizi hövzəsində Rusiyanın nüfuzunun bərqərar olmasında mühüm mərhələ idi. Bununla Rusiya Dərbənd keçidi və Xəzərin mühüm limanlarına nəzarət etməyə. Osmanlı türklərinin və onların vassalları olan Krım tatarlarının Xəzər sahillərinə təcavüzünün qarşısını almağa imkan tapmış oldu.

Lakin 1735-ci ildə rus qoşunları Qafqazdan getməyə məcbur oldu. Bu uğursuzluğa baxmayaraq, Rusiyanın hakim dairələri Cənubi Qafqazdakı hadisələri izləməkdə davam edirdilər. XVIII əsrin sonunda II Yekaterinanın dövründə yenidən güclənən Rusiya yüz ildən çox İranın təsiri altında olan regionun işğalının ikinci mərhələsinə başladı.

İranlıların Şuşaya hücuma keçmələrindən və onu mühasirəyə almalarından dərhal sonra, 1796-cı ildə İbrahimxəlil xan öz oğlunu rusların yanına göndərdi. Onun apardığı məktubda Qarabağ xanlığının Rusiyaya itaətə hazır olduğu bildirilirdi. Lakin rus ordusu II Yekaterinanın ölümü ilə bağlı təcili Rusiyaya qayıtdı, İran ordusu isə dərhal hücuma keçərək Şuşanı qarət etdi. Artıq o vaxtlar Rusiya öz siyasətində yerli xristianlarla, ilk növbədə isə onun dəstəyi ilə erməni dövlətini bərpa etməyə ümid bəsləyən ermənilərlə fəal əməkdaşlığa başladı.

Gürcüstanın Rusiya tərəfindən tam işğalı çarizmin təkcə iqtisadi deyil, həm də hərbi cəhətdən böyük strateji əhəmiyyəti olan Qafqazda geosiyasi niyyətlərinin həyata keçirilməsində ciddi hadisə oldu və regionda müstəmləkəçilik proseslərinə yeni təkan verdi. Rus əsilzadələri və tacirlərinin mənafeyi keşiyində duran çar Rusiyası yeni torpaqlar zəbt etməyə, tutduğu yerləri Rusiya sənayesi üçün xammal mənbələrinə, satış bazarlarına çevirməyə can atırdı.

1801-ci ildə Rusiya Gürcüstanın işğalını başa çatdıraraq Azərbaycanın sərhədlərinə çatdı. 1803-cü ilin yazında rus qoşunları Alazan (Qanıq) çayı keçidində və Balakən yaxınlığında Car-Balakən müdafiəçilərini məğlubiyyətə uğradıb Balakəni viran etdilər. Balakənin başına gətirilmiş fəlakəti eşidən Car camaatı isə ruslara müqavimətsiz təslim oldu. Ağır məğlubiyyətdən sonra Car-Balakən camaatı öz nümayəndələrini Tiflisə göndərib Rusiyanın ali hakimiyyəti altına keçmələri barədə müqavilə imzaladılar.

1803-cü ilin martında Qafqazdakı rus qoşunlarının komandanı general Sisianov o dövrdə Azərbaycanın ən iri şəhəri olan Gəncəni mühasirəyə aldı. Cavad xanın başçılığı ilə əhalinin ciddi müqavimətinə baxmayaraq, rus qoşunları 1804-cü il yanvar ayının 3-də Gəncəni zəbt etdilər. Gəncənin tutulması rus qoşunlarının Azərbaycanın içərilərinə doğru irəliləməsini asanlaşdırdı. Lakin Azərbaycan üzərində tam hökmranlığa nail olmaq üçün Sisianova Rusiyanın təsirini hansı yolla olursa-olsun, Qafqazın ən qüdrətli xanlıqları olan Qarabağa, Şirvana və Şəkiyə yaymaq lazım idi.

Həmin xanlıqlarla uzun-uzadı danışıqlara başlanıldı, onlara Gəncənin alınmasından və əhalinin kütləvi qırğınından ibrət götürərək müqavimət göstərmədən Rusiyanın hərbi üstünlüyünü etiraf etmək və bu ölkənin protektoratına keçmək təklif olundu. Bununla belə, hadisələrin İranın regionda-kı mənafelərinə toxunacağını və danışıqlar aparılan xanlıqların yetərli hərbi potensiala malik olmalarını yaxşı başa düşən Sisianov çox da tələsmirdi.

1805-ci il mayın 14-də Qarabağ xanı Rusiyanın himayəsinə keçmək haqqında müqavilə imzaladı. Saziş Kürəkçay hərbi düşərgəsində imzalandığına görə Kürəkçay müqaviləsi adlandırıldı. 11 maddədən ibarət olan həmin müqavilə açıq-aydın Rusiyaya birtərəfli üstünlük verirdi. Sazişə görə, Qarabağ xanlığı Rusiyanın protektoratına keçir və onun xeyrinə olaraq hər hansı üçüncü ölkə ilə müstəqil beynəlxalq münasibətlərdən imtina edirdi. Müqavilədə ayrıca qeyd olunurdu ki, Qarabağ xanlığı qonşu xanlıqlarla da müstəqil münasibətlərə girməkdən məhrum edilir. Bundan başqa, xan hər il Rusiya xəzinəsinə o dövr üçün çox böyük məbləğ - 8 min onluq qızıl və üstəgəl baş komandanın Tiflisdəki qərargahında girov qalan nəvəsinin saxlanma xərclərini ödəməyi öhdəyə alırdı. Sənədin ən ağır şərtlərindən biri ondan ibarət idi ki, Rusiya artilleriya ilə birlikdə 500 nəfərlik hərbi

kontingentini xanlığın mərkəzində - Şuşa qalasında yerləşdirmək hüququ qazanırdı. Kürəkçay müqaviləsində İbrahimxəlil xanın hüquqlarını əks etdirən yeganə maddə Qarabağın daxili işləri idi. Sənəd imzalandıqdan dərhal sonra İbrahimxəlil xana general rütbəsi verildi və bununla da o, hərbçi kimi Qafqazdakı rus qoşunlarının komandanlığına birbaşa tabe etdirildi.

Yeznəsi İbrahimxəlil xandan bir həftə sonra Şəki xanı Səlim xan da Sisianovun iqamətgahına gəldi və 1805-ci il mayın 21-də Şəki xanlığı da Rusiyanın hakimiyyəti altına keçmək barədə müqaviləni imzaladı. Bu müqavilənin də şərtləri demək olar ki, Qarabağ xanlığı ilə bağlanan sazişin şərtləri ilə eyni idi.

Rusların regiondakı hərbi-siyasi müvəffəqiyyətlərindən və İranın içərilərinə doğru irəliləməsindən təşvişə düşən şah sülh bağlamağa məcbur oldu. 1812-ci il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Gülüstan sülhünün şərtlərinə görə Qarabağ xanlığı Rusiyanın tərkibinə qatıldı.

Bu dövrdə Rusiyanın Şərq siyasəti daha da fəallaşdı. 1816-cı ildə Qafqaz qubernatoru təyin edilən general A.Yermolov lap əvvəldən Azərbaycan xanlarına şübhə ilə yanaşır, onlara potensial düşmən kimi baxırdı. Məhz buna görə də o, müstəqillik uğrunda hərəkatın özəyinə çevrilə biləcək xanlıqların formal ləğvi üçün daim imkan axtarırdı. Bu işdə ona Şimali Azərbaycandakı canişini, milliyyətcə erməni olan general Mədətov yaxından kömək edirdi. 1819-cu ildə Şəki xanlığı ləğv edildi. 1822-ci ildə Qarabağ xanlığı Rusiyanın quberniyası elan olundu. İki il əvvəl isə sonuncu Şirvan xanı İrana qaçdı. Beləliklə də, xanlıqların ləğvi prosesi başa çatdı.

1826-cı ildə Rusiya-İran müharibəsi başladı. Yenə də əsas hadisələr Qarabağda cərəyan edirdi. İran ordusu 48 gün Şuşanı mühasirədə saxlasa da, onu ala bilmədi. 1828-ci il fevralın 22-də Təbriz şəhəri yaxınlığında, Türkmənçayda tərəflər yeni sülh müqaviləsi imzaladılar. Həmin gündən Şimali Azərbaycanın digər xanlıqları kimi Qarabağın da ərazisi, habelə İrəvan və Naxçıvan xanlıqları tamamilə Rusiyanın ərazisinə qatıldı və elə o saatdan da Kürəkçay razılaşması özünün hüquqi qüvvəsini və əhəmiyyətini həmişəlik itirdi. Xanlıqların statusunun itirilməsi Azərbaycanın müstəmləkəyə çevrilməsinin başlanğıcı oldu. Bu müddət ərzində Qafqazın inzibati bölgüsü bir neçə dəfə dəyişdirildi və yalnız XIX əsrin ikinci yarısında tam başa çatdı.

Lakin bu bölgülər yerli əhalinin həqiqi etnoqrafik, tarixi, dini və məişət xüsusiyyətləri ilə uzlaşmırdı. Amma istənilən halda bu proses təsadüfi deyildi və ilk növbədə Qafqazın hər hansı bir bölgəsində əhalinin bir hissəsinin digərinin zərərinə olaraq üstünlüyünün zəifləldilməsinə yönəldilmişdi. Bunu Qarabağ öz üzərində daha ağrılı hiss edirdi. Demoqrafiya getdikcə daha çox siyasət alətinə çevrilirdi.

XIX əsrin əvvəllərindən etibarən ermənilərin bəzi xarici dövlətlər tərəfindən məqsədyönlü şəkildə Azərbaycan torpaqlarına köçürülməsi, soydaşlarımızın həmin ərazilərdən sıxışdırılıb çıxarılması prosesi başlandı. azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da gücləndi.

1828-ci ildə keçmiş İrəvan xanlığının ərazisində "erməni muxtariyyəti" formalaşdırılanda bütün əhalinin 74-75 faizini Azərbaycan türkləri təşkil edirdi. Lakin 1828-ci ildə Türkmənçay, 1829-cu ildə isə Ədirnə müqavilələri imzalandıqdan sonra Rusiyanın təşəbbüsü ilə İrandan və Türkiyədən ermənilər Qarabağa köçürüldü və regionda demoqrafik vəziyyət kəskin surətdə dəyişməyə başladı. Artıq 1832-ci ildə Qarabağda ermənilərin sayı 34,8 faiz, azərbaycanlıların sayı isə 64,8 faiz oldu. Onu da yada salmaq lazımdır ki, ermənilərin köçürülməsinə hələ 1805-ci ildə başlanmışdı. 1819-cu ildə Qarabağın şimalına hətta bir neçə yüz alman ailəsi də köçürülmüşdü. Lakin şəraitin yeniləşməsi rus hakimiyyətini ehtiyatlı davranmağa vadar edirdi. Qeyd etmək lazımdır ki. 1840-cı il aprel ayının 10-dək Qarabağı Qafqaz müsəlmanları əyaləti hərbi dairəsinin rəisi idarə edirdi. Onun qərargahı Şuşada yerləşirdi. Başqa sözlə desək, Qarabağ xanlığı və Şuşa Rusiya imperiyası tərkibinə müsəlman torpağı və müsəlman xanlığı kimi daxil olmuşdu. Lakin. görünür. artıq ermənilərə üstünlük verilmişdi. Azərbaycanda ermənilərin sayı 1832-ci ildəki 80 mindən 1871-ci ildə 193 minə çatdı və əhalinin 15 faizini təşkil etdi. Buna baxmayaraq, Qarabağda azərbaycanlılar əvvəlki kimi yenə də əhalinin böyük əksəriyyətini təşkil edirdi.

Ermənilərin Qafqaza köçürülməsinin növbəti dalğası 1877-1879-cu illər rus-türk müharibəsi dövrünə və 1893-1894-cü illərdə Türkiyədə qanlı hadisələrə təsadüf edir. Bu köçürülmələr məqsədyönlü dövlət siyasəti şəklini alırdı.

Rusiya demoqrafik prosesləri süni surətdə sürətləndirirdi. Türkiyə və İran tərəfdən xüsusi qorxu artıq yox idi və XIX əsrin 40-cı illərində diyarın müstəmləkələşdirilməsi və ruslaşdırılması məsələsi meydana çıxanda aydın oldu ki, xristian əhalinin ermənilərin hesabına artırılması siyasətinin arzuolunmaz tərəfi də var. Rusiyadan bura köçürülənlərə artıq az torpaq qalmışdı, dövlət torpaq fondunun böyük, həm də gəlirli hissəsi ermənilərin inhisarında idi. Ermənilər azərbaycanlıların on minlərlə kəndli torpaq payını su qiymətinə alırdılar. hətta Azərbaycanda dövlət qulluğundakı yerlərin çoxu da rusların yox, ermənilərin əlində idi. Bu işdə azərbaycanlıları barmaqla saymaq olardı.

XIX əsrin 90-cı illərində rus-erməni münasibətlərində soyuqluq yarandı. 1896-cı ildə Qafqazda general-qubernator təyin olunan knyaz Q.Qolitsın ermənilərin təsirinin zəifləməsinə və azərbaycanlılarla münasibətin yaxşılaşmasına yönəldilmiş bir sıra tədbirlər gördü. O, dövlət qulluğunda ermənilərin sayını seziləcək dərəcədə ixtisar etdi. onların yerinə azərbaycanlıları götürdü. 1903-cü ildə isə erməni kilsəsinin əmlakını müsadirə etdi. Buna cavab olaraq ermənilər Rusiya imperiyasının ərazisində çar çinovniklərinə qarşı xeyli terror aktı təşkil etdilər. Nəticədə yaralanmış Qolitsın 1903-cü ildə Qafqazı tərk etməli oldu.

1905-ci ilin mayında Qafqaz üzrə canişin təyin olunmuş İ.Vorontsov-Daşkov özünün ermənilərə rəğbətini gizlətmir və belə hesab edirdi ki, ermənilərlə dostluq Rusiyanın Qafqazdakı hökmranlığının əsasıdır. Artıq 1905-ci ilin mayında rus qoşunları millətlərarası münaqişədə açıq-aydın ermənipərəst mövqe tutur və çox vaxt Azərbaycan rayonlarında müsəlmanlara hücumlarda ermənilərlə birgə iştirak edirdilər. 1905-ci ilin avqustunda isə erməni kilsəsinin əmlakının özünə qaytarılması və erməni məktəbləri açılmasına icazə verilməsi haqda çar fərmanı imzalandı. 1905-ci ildə inqilabi təlatümlər dövründə Bakıda ilk dəfə erməni-azərbaycanlı toqquşması baş verdi. Bu da çox tez bir müddətdə bütün Azərbaycanı, xüsusilə Qarabağı, həmçinin İrəvan və Tiflisi əhatə etdi.

Birinci erməni-azərbaycanlı münaqişəsi hər iki tərəfdən 10 min nəfər insanın həyatına son qoydu və iki xalqın münasibətində keyfiyyətcə yeni mərhələ oldu. Daha mütəşəkkil və xeyli yaxşı silahlanmış ermənilər sonralar da tez-tez terror aktları törədir, habelə "yandırılmış torpaq" və gözlənilməz hücum taktikası tətbiq edir, azərbaycanlıları ehtimal olunan erməni dövlətinin ərazisindən, ilk növbədə isə İrəvan quberniyası və Qarabağdan zorla didərgin salırdılar. Bu dövrdə 35 minədək erməni silahlısı və onlara qoşulmuş rus əsgər və zabitləri azərbaycanlılara qarşı döyüşürdü. Üstəlik də, ermənilər Rusiyaya sədaqətləri sayəsində Qafqazda bolşevizmin də etibarlı dayağına çevrilmişdilər.

1917-ci ildə Bakıda S.Şaumyanın başçılığı ilə sovet hakimiyyəti qurulduqda ən mühüm vəzifələri məhz ermənilər tuturdular. Tezliklə erməni hərbi birləşmələri Qarabağda 12 kəndi viran etmiş, Bakıda, Şamaxıda və Qubada 9 minə qədər azərbaycanlını qətlə yetirmiş, İrəvan quberniyasında isə ağlasığmaz vəhşiliklər törətmişdilər. 1918-ci ilin yayında Andronikin komandanlığı altında erməni ordusu Zəngəzura soxularaq əsl genosid törətmiş və oktyabrın əvvəlləri üçün 115 kəndi məhv etmişdi. Həmin hücumda 7700 azərbaycanlı qətlə yetirilmiş və 50000 nəfər azərbaycanlı öz doğma yerlərini tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycanlıların məhv edilməsinin qarşısının müvəqqəti alınması sentyabrın sonunda türk ordu dəstələrinin Şuşaya döyüşsüz daxil olmasından sonra mümkün oldu. Daşnak dəstələri Qarabağın Dağlıq ərazilərinə çəkildilər və burada "Dağlıq Qarabağ Respublikası" yaradıldığını elan etdilər. Problemin siyasiləşdirilməsi prinsip etibarilə yeni mərhələyə keçdi.

Həmin vaxtadək yenidən "dirilmiş" Zaqafqaziya seymi öz mövcudluğuna son qoydu: 1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də

isə Azərbaycan və Ermənistan öz müstəqilliklərini bəyan etdilər. Bakı hələ də bolşeviklərin və daşnakların nəzarəti altında idi. Ona görə də Gəncə Azərbaycanın müvəqqəti paytaxtı oldu.

Azərbaycanın müstəqilliyinin elan olunması xəbəri Bakıda son dərəcə hiddətlə qarşılandı. Şaumyanın əmri ilə Qırmızı Ordu və daşnak dəstələri iyunun 12-də Gəncəyə hücuma keçdilər. Hücuma keçən qoşunların xeyli hissəsinin erməni olması hadisəyə çox aydın nəzərə çarpan milli xarakter verdi. İnqilab yaradıcıları öz bolşevik məqsədlərinə artıq sınaqdan keçirtdikləri milli kart vasitəsilə çatmağa, millətçilərsə öz problemlərini bolşevizmin köməyilə həll etməyə çalışırdılar. Mahiyyətinə görə bunlar qarşılıqlı maraq idi. 1918-ci ilin yayında Türkiyə və Azərbaycan qoşunları bir sıra qələbələr çaldıqdan sonra nəhayət, Azərbaycanın paytaxtına yaxınlaşanda Bakıdakı daşnak liderləri Türkiyə və Almaniyanın əleyhinə İngiltərə və Fransa ilə əlaqə yaratmağı qərara aldılar. Məhz onlar menşevik və eserlərlə ittifaqa girərək iyulun 25-də Bakıda sovet hakimiyyətini devirdilər, "Sentrokaspi diktaturası" yaradaraq ingilisləri dəvət etdilər. İlk baxışdan elə görünürdü ki, ermənilər Rusiyadan üz döndərirlər, lakin bu yalnız illüziya idi.

Noyabrda Birinci Dünya müharibəsi başa çatdı. Almaniya və onun müttəfiqləri məğlub oldular. Türkiyə qoşunları Zaqafqaziyaya çəkildilər. Almaniyaya ümid bəsləyən ermənilərsə onun tələbi ilə Qarabağa hücumu dayandırdılar.

Lakin Ermənistanın ərazisini genişləndirməyə can atan və Paris konfransına qədər ərazi mübahisələri qaldırmamaq haqda öhdəliyi pozan daşnaklar öz oyunlarını davam etdirirdilər: demək olar ki, eyni vaxtda, dekabrın əvvəlində Gürcüstana və Azərbaycana hücuma keçdilər. Zəngəzurda 40-a qədər müsəlman kəndi məhv edildi. Yalnız ingilislərin qəti etirazından sonra döyüş əməliyyatları dayandırıldı. 1919-cu ilin yanvar ayının əvvəlində regiondakı müttəfiq qoşunların komandanı ingilis general-mayoru V.Tomson Azərbaycan hökumətinin nümayəndəsi X.Soltanovu general-qubernator sifətilə Qarabağ və Zəngəzura göndərdi. Üç erməni, üç azərbaycanlı və müttəfiq missiyanın üzvü olan bir ingilisdən ibarət şura X.Soltanova və onun erməni köməkçisinə tabe etdirildi. Lakin Qarabağın daşnak liderləri bu kompromis qərar layihəsini rədd etdilər, Daşnakların təsiri altında olan Qarabağ erməni milli şurasının belə mövqeyindən qəzəblənən ingilislər daşnakları bu yerlərdən uzaqlaşdırmağa söz verdilər. Müttəfiqlərin sərt mövqeyi öz bəhrəsini verdi: ermənilər müəyyən düzəlişlə olsa da Azərbaycan general-qubernatorunun hakimiyyətini tanıdılar və hər iki tərəf əməkdaşlıq formasını axtarmağa başladı. Azərbaycan hökuməti 1919-cu il iyunun 25-də mübahisəli məsələlərin həlli üçün hər iki tərəfin nümayəndələ-

rindən ibarət və müttəfiq dövlətlərin nümayəndələrinin iştirakı ilə hökumət-parlament komissiyası yaratmağı Ermənistan rəhbərliyinə təklif etdi. Qarabağ ermənilərinin iyulun əvvəlində keçirilən 6-cı qurultayında artıq Azərbaycan parlamentinin üzvü M.Rüstəmbəyov hökumət nümayəndəsi sifəti ilə iştirak edirdi. Nəhayət, avqustun 15-də Dağlıq Qarabağ ermənilərı Azərbaycanla saziş haqqında qərar qəbul etdilər.

Həmin qərara görə, Dağlıq Qarabağın ermənilər yaşayan hissəsi Parisdə keçiriləcək sülh konfransında məsələnin qəti həllinə qədər bütün Qarabağ ərazi muxtariyyəti və onun erməni əhalisinin milli-mədəni muxtariyyəti əsasında Azərbaycanın tərkibinə daxil olurdu.

1920-ci il martın 23-də isə müttəfiq dövlətlərin Ali Şurası lord C.Kerzonun təklifi ilə Azərbaycanın, habelə Ermənistan və Gürcüstanın müstəqilliyini de-fakto tanımaq haqqında qərar qəbul etdi. Bununla eyni vaxtda Parisdə keçirilən sülh konfransı Azərbaycanın Qarabağ üzərində hüququnu təsdiq etdi. Lakin bu vəziyyət uzun sürmədi. Diplomatik sövdələşmə baş verdi: İngiltərə ona verilmiş beynəlxalq mandata baxmayaraq, çox asanlıqla, müqavimət göstərmədən Qafqazı tərk etdi. Xüsusən ona görə ki, Türkiyə bolşeviklərlə artıq ümumi dil tapmağa müvəffəq olmuşdu.

Qırmızı Ordunun cənuba doğru irəlilədiyini görən ermənilər 1920-ci il martın 23-nə keçən gecə Şuşada və Qarabağın digər yaşayış məntəqələrində azərbaycanlılar üzərinə hücuma keçdilər. Bu, Azərbaycan hökumətini özünün bütün silahlı qüvvələrini Qarabağa yönəltməyə vadar etdi. Qarabağda və ölkənin digər rayonlarında gedən ağır döyüşlər Azərbaycan kommunistlərinin kömək üçün Rusiyaya müraciət etməsinə səbəb oldu.

XI Qırmızı Ordu Azərbaycanı işğal edəndə Qarabağ Azərbaycan Demokratik Respublikasının (ADR) tərkib hissəsi idi. Həmin dövrdə Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanı aradan qaldırmaq üçün Azərbaycan tərəfi sülhməramlı əməkdaşlıq təklifləri ilə çıxış edirdi. Müasir Ermənistanın paytaxtı olan Yerevan şəhəri isə 1918-ci il iyunun 1-də ADR Milli Şurasının qərarı ilə Ermənistana verilmiş və bu məsələ üzrə iki dövlət arasında saziş imzalanmışdır. Qarabağ ermənilərinin ADR-ə qarşı qaldırdığı qiyamı isə hələ sovet qoşunları Bakını tutmamışdan əvvəl Azərbaycan qoşunları yatırtmışdı (elə Bakının işğalı məhz ona görə mümkün oldu ki, rus qoşunları şəhərə yaxınlaşarkən Azərbaycan ordusunun əsas hissələri Əsgəran yaxınlığında erməni hərbi qüvvələrini məğlub etməklə məşğul idilər).

Qarabağ Azərbaycanın tam nəzarətində idi. Söhbət ermənilərin Dağlıq Qarabağı elə keçirmək cəhdlərindən gedə bilərdi ki, bu da baş verdi. Əvvəlcə 1920-ci il noyabrın 1-də Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə Azərbaycan K(b)P MK Siyasi Bürosunun və

Təşkilat Bürosunun birgə yığıncağında qəbul edilmiş birgə qərar ilə Zəngəzur Ermənistana verildi. 1920-ci ilin noyabr ayında bir qrup erməni kommunistinin özünü inqilab komitəsi adlandırması, Ermənistanda sovet hakimiyyətinin elan olunması və XI ordunun regiona "köməyə" gəlməsi ilə Qarabağ probleminin tənzimlənməsi prosesi daha da mürəkkəbləşdi. Belə ki, erməni daşnak dəstələri respublikanın ərazisinə soxularaq, həm sovet işğalçı qoşunlarını, həm də erməni millətçiliyini pisləyən inqilab komitəsini ölkədən qovdular. 1921-ci il iyunun 12-də Ermənistan hökumətinin qəbul etdiyi dekretdə Dağlıq Qarabağ Ermənistan SSR-in tərkib hissəsi elan edildi və diyara bu respublikanın fövqəladə komissarı təyin olundu. Lakin iyunda daşnakların Zəngəzurdan Yerevana hücumu "sovet" ermənilərinin siyasi ambisiyalarını bir qədər səngitdi. Erməni kommunistləri kompromisə gedərək dekreti ləğv etdilər. lakın Dağlıq Qarabağ və digər mübahisəli ərazilər üzrə komissiya çağırılmasını irəli sürdülər.

1921-ci il iyulun 4-5-də Rusiya K(b)P MK-nın Qafqaz Bürosunun iclasında Stalinin iştirakı ilə Qarabağ məsələsi müzakirəyə çıxarıldı və bir səs çoxluğu ilə Qarabağın Azərbaycanın tərkibində qalması əleyhinə olan qərar qəbul edildi. Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının lehinə N.Nərimanov, F.Maxaradze,A.Nazaretyan, əleyhinə S.Orconikidze, A.Myasnikov, S.Kirov, Y.Fiqatner səs verdilər. Lakin məsələnin vacibliyi nəzərə alınaraq RK(b)P MK bu məsələni öz yurisdiksiyasına keçirdi. Ertəsi gün iyulun 5-də hər şeydən əli üzülən RK(b)P MK Qafqaz Bürosu Dağlıq Qarabağa geniş muxtariyyət verməyi Azərbaycana tapşırdı. Lakin Azərbaycan düz iki il bu qərarı yerinə yetirməyi ləngitdi. 1923-cü il iyunun 27-28-də ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsi Azərbaycan K(B)P MK-ya ultimativ formada tapşırıq verdi ki, bir aylıq müddət ərzində Dağlıq Qarabağa vilayət muxtariyyətinin verilməsini təmin etsin. Nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret verdi.

Sovet hakimiyyəti illərində də ermənilər Dağlıq Qarabağı ələ keçirmək niyyətlərindən əl çəkmədilər. 1987-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifələrdən uzaqlaşdırılması onlarda niyyətlərinə çatmaq ümidini artırdı. Erməni millətçilərinin tələbi ilə Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahəsi Ermənistana "bağışlandı". Bu, xalqın böyük narazılığına səbəb oldu.

Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə M.Qorbaçovun əshabələrindən olan A.Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Avantürist erməni jurnalisti Z.Balayanın Azərbaycan xalqını təhqir edən, tarixi saxtalaşdıran "Ocaq" kitabı da iki xalq arasında nifaq salmaqda

müstəsna rol oynadı. Hərəkata yenə də bir qrup millətçi erməni ziyalıları arxasından kommunist-daşnaklar, Ermənistan KP liderləri, DTK agentləri rəhbərlik edirdilər. Moskvada ermənilərin "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsində bu istiqamət də fəal iş aparırdılar.

İki xalq arasında milli ədavətin ilk qurbanları bu dəfə də Ermənistanda öz dədə-baba yurdunda yaşayan azərbaycanlılar oldular. Nəticədə 200 min azərbaycanlı Ermənistandakı əsrlərlə yaşadığı tarixi-etnik torpaqlarından qovuldu. Dağlıq Qarabağdakı erməni millətçiləri bundan ruhlanaraq daha dəhşətli zorakılıqlar və siyasi aksiyalar təşkil etdilər.

1987-ci ilin oktyabrında Yerevanda "Qarabağ komitəsi" deyilən təşkilatın ilk açıq mitinqi keçirildi. Mitinqdə o zaman üçün ağlasığmaz görünən təklif - Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi - irəli sürülürdü. Mərkəzin və respublika rəhbərliyinin gözləmə mövqeyi tutması ermənilərin daha da fəallaşmasına rəvac verdi. 1988-ci ilin yanvarından başlayaraq Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulması prosesinə start verildi. Bakıda və Sumqayıtda "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir" şüarları ilə başlanan mitinqlər respublikanın münaqişəyə cəlb olunmasının başlanğıcı oldu. Ermənilərin təxribatçı fəaliyyəti nəticəsində münaqişə sürətlə kök atmağa başladı; əvvəlcə Əsgəranda iki azərbaycanlı erməni terrorçuları tərəfindən qətlə yetirildi, daha sonra Azərbaycanın tərkibindən çıxmaq tələbilə Stepanakertdə (Xankəndi) mitinqlər keçirildi. Azərbaycanı proseslərə daha aktiv cəlb etmək məqsədilə erməni terrorçuları Sumqayıtda xüsusi plan əsasında öz soydaşlarına qarşı qarət və qətllər həyata keçirdilər. Sumqayıt hadisələri Azərbaycana qarşı informasiya müharibəsində uğurla istifadə olundu. Bu hadisələrdən iki həftə sonra Dağlıq Qarabağın yerli partiya komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşməsi barədə qərar qəbul etdi. Azərbaycanın kor rəhbərliyi bu qərara da reaksiya vermədi və cinayətkar laqeydliyi ilə Moskvanın proseslərə müdaxiləsinə zəmin yaratdı. Həmin ilin martında Sov.İKP MK və SSRİ Nazirlər Soveti "1998-1995-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafı" haqqında qərar qəbul etdi və bununla da baş verən proseslərin etnik deyil, sosial əsaslara söykənməsi barədə rəy formalaşdırmağa çalışdı. Lakin Moskvanın dəstəyinə arxalanan ermənilər növbəti addım atdılar. İyulun 12-də DQMV Xalq Deputatları Soveti muxtar qurumun Azərbaycanın tərkibindən çıxması haqqında qərar qəbul etdi. Erməni məkrinin emosional inciklik ovqatından çıxıb dəqiq konturları görünən siyasi-etnik separatizm doktrinasına çevrildiyi bir məqamda Azərbaycan Ali Soveti separatçı siyasətə qarşı yalnız həmin qərarı ləğv etməklə reaksiya verdi. Erməni terrorçularının Stepanakertdə dinc

azərbaycanlıları qətlə yetirməsi, ayrı-ayrı kəndlərdə törətdiyi qırğınlar, nəhayət ki, münaqişənin ictimailəşməsilə nəticələndi. Azərbaycanlıların Dağlıq Qarabağ və Ermənistandan kütləvi surətdə qovulmasına etiraz edən yüz minlərlə insan Bakıda mitinqlərə başladı.

1988-ci ildə hələ SSRİ-nin tərkibində ikən Ermənistanın Azərbaycana ərazi iddiaları irəli sürməsi və torpaqlarımızı işğal etməyə başlaması, keçmiş Sovet İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz və qərəzli mövqeyi, problemin vaxtında qarşısını almaq istəməməsi iki ölkə arasında münaqişənin genişlənməsinə və bütövlükdə Cənubi Qafqaz regionunda təhlükəli müharibə ocağının yaranmasına səbəb oldu. 1991 -1992-ci illərdə hərbi əməliyyatlar geniş vüsət almağa başladı. Tezliklə Dağlıq Qarabağ Ermənistan hərbi qüvvələri tərəfindən tam işğal olundu və müharibə alovları sürətlə ətraf rayonlara doğru yayılmağa başladı. 1992-ci ilin fevralında yüzlərlə azərbaycanlının qətlə yetirilməsi və yaralanması ilə nəticələnən Xocalı soyqırımı törədildi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının süqutu ilə nəticələndi. Beləliklə, Ermənistan ordusu Dağlıq Qarabağın ətrafındakı rayonların da işğalına başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı qüvvələri Azərbaycan rayonlarını işğal etməkdə davam etdi. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilan rayonları işğal olundu. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən pisləns də, Ermənistan faktiki olaraq, heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistanın işğalçı dövlət olduğu bəyan edildi. Amma nəzərə almaq lazımdır ki, İKT və ona üzv olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik vasitələrlə həlli prosesinə təsiretmə imkanları son dərəcə azdır və yaxud bu təsirlər, demək olar ki, yoxdur.

Bu dövrdə münaqişənin həlli prosesinə beynəlxalq təşkilatların cəlb olunması da nisbi xarakter daşıyırdı. SSRİ süquta uğrayan dövrə kimi münaqişənin "həlli" missiyasını Moskva həyata keçirmiş, müstəqillik dönəmi isə beynəlxalq təşkilatların prosesə zəif müdaxiləsi ilə yadda qalmışdır. Münaqişənin həlli prosesinə kənar qüvvələrin cəlb olunması formal baxımdan ilk dəfə 1991-ci il sentyabrın 23-də baş verdi. Azərbaycan və Ermənistan rəhbərləri Rusiya və Qazaxıstandan olan həmkarlarının təşəbbüsü ilə Jeleznovodskda görüş keçirərək münaqişənin sülh yolu ilə həlli barədə razılığa gəldilər.

Beynəlxalq birliyin münaqişənin həlli prosesinə fəal cəlb olunması isə 1992-ci ilin yanvarında ATƏM-in Nazirlər Şurasının toplantısında baş verdi. Azərbaycan və Ermənistan quruma tamhüquqlu üzv qəbul olundu, təşkilat rəhbərliyi münaqişə bölgəsinə məruzəçi göndərmək barədə qərar qəbul etdi. Avropalı məruzəçinin regiona ilk səfəri 12-18 fevral tarixlərində baş tutdu. Qurumun martın 24-də Helsinkidə keçirilən növbədənkənar toplantısında Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq konfransın keçirilməsi barədə qərar qəbul olundu, münaqişənin həlli ATƏT-in Minsk qrupuna həvalə edildi. Mario Rafaelli Minsk qrupunun sədri seçildi. Sonrakı dövrdə qonşu Rusiya və İranın problemin həllində tərəflər arasında vasitəçilik etmək cəhdləri intensivləşdi, Ermənistan və Azərbaycan rəhbərləri Tehran görüşündə münaqişənin sülh yolu ilə həlli barədə danışıqlar aparmaq barədə razılığa gəldilər. ATƏT-in problemə həsr olunmuş konfransının baş tutmamasını isə Laçının erməni terrorçuları tərəfindən işğalı səbəbləndirdi. 1992-ci ilin iyun-sentyabr aylarında Minsk qrupu çərçivəsində hərbi əməliyyatların dayandırılması barədə müzakirələr aparıldı, sentyabrın 19-da isə Ermənistan və Azərbaycan müdafiə nazirləri iki aylıq atəşkəs barədə saziş imzaladılar. 1992-ci ilin sonlarında Azərbaycan, Ermənistan, Rusiya, ABŞ və Türkiyə rəhbərlərinin Cenevrədə qeyri-rəsmi görüşü keçirildi. Danışıqların yeni formatı çərçivəsində növbəti görüş 1993-cü ilin martına təsadüf edir. Aprelin əvvəllərində Ermənistan Kəlbəcər rayonunu işğal etməsinə etiraz əlaməti olaraq ABŞ təmsilçisi Cenevrə danışıqlarında iştirakdan rəsmən imtina etdi. Ən nəhayət, Dağlıq Qarabağ münaqişəsinin ilk mərhələsində beynəlxalq birliyin iştirakı BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi ilə yekunlaşdı. Təhlükəsizlik Şurası Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın Kəlbəcər rayonunu işğal etməsi faktını pisləyərək qoşunların qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasını tələb etdi.

Ümumilikdə isə münaqişənin ilkin mərhələsində beynəlxalq təşkilatların problemin həllinə cəlb olunması heç bir effekt vermədi. Əksinə, problemin həllinə xarici diplomatik (buna xoşməramlı da demək olar) müdaxilə daha çox münaqişənin şaquli xətlə dərinləşməsilə yadda qaldı. 1992-ci ilin sentyabrında imzalanan Jeleznovodsk sazişindən bir həftə sonra Azərbaycanın Martuni və Hadrut rayonları işğal olundu, noyabrın 20-də isə Qarakənd səmasi üzərində "Mİ-8" vertolyotunun vurulması nəticəsində Azərbaycanın bir sıra rəhbər şəxsləri həlak oldular. Bu təzadlı və hər dəfə haqqında düşündükcə təsadüf, yaxud zərurət olması ilə bağlı şübhələrə bolluca qida verən hadisələrin sayını az qala həndəsi silsilə ilə sıralamaq olar. Məsələn, XX əsrin ən qanlı faciələrindən sayılan Xocalı soyqırımı məhz ATƏT məruzəçisinin münaqişə zonasına bir həftəlik səfərindən sonra

baş verdi. Ermənistan və Azərbaycan rəhbərlərinin Tehran görüşü isə Şuşa və Laçının işğalı ilə nəticələndi. Laçının işğalı həmin ərəfədə Minsk qrupunun rəhbərliyi ilə münaqişənin həllinə dair beynəlxalq konfransın baş tutmasına imkan vermədi. Atəşkəs haqqında Soçi razılaşması isə Ermənistan Silahlı Qüvvələrinin Zəngilan rayonunun səkkiz kəndini işğal etməsi ilə əhəmiyyətsiz sənədə çevrildi. Münaqişənin beynəlxalq təşkilatların vasitəçiliyi ilə həllinə dair Cenevrə toplantısı isə Kəlbəcərin işğalı ilə iflasa uğradı.

Problemin beynəlxalq təşkilatların köməyilə həllinə cəhdlər xaotik xarakter daşıyırdı. Bunun bir sadə səbəbi o vaxtkı Azərbaycan rəhbərliyinin xarici siyasət barədə təsəvvürlərinin kasad olmasından qaynaqlanırdı. Qısa müddət ərzində münaqişənin həlli prosesinə BMT və ATƏT-in cəlb olunması, paralel olaraq Türkiyə. İran, Rusiya. ABŞ kimi fərqli maraqlara və təsir imkanlarına sahib ölkələrin vasitəçilik xidmətlərindən yararlanma rasionallıq baxımından konstruktiv səciyyə daşısa da, münaqişənin ilkin mərhələsində hadisələrin ermənilərin lehinə inkişafı ilə nəticələndi.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, siyasi dərəbəyiliyin məntiqi nəticəsi olaraq ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə böyük siyasətçi və təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu, ümummilli hərəkata çevrildi. Dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş müdrik siyasətçinin - xalqımızın yeganə ümid çırağı və misilsiz təəssübkeşinin hakimiyyətə tarixi qayıdışı baş verdi. Azərbaycan labüd fəlakətdən xilas oldu. Müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizədə ciddi nəticələr əldə edildi. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması istiqamətində uğurlu addımlar atıldı. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox diqqətəlayiq tədbirlər həyata keçirildi.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yönümündə ümummilli lider Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin substansiyasını konfliktin beynəlxalq normalara uyğun və dünya

ictimaiyyətinin dəstəyi ilə nizama salınması təşkil edir. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə diskriminasiyaya məruz qalan Azərbaycan yalnız Prezident Heydər Əliyevin Fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. Dağlıq Qarabağ probleminin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il iyunun 27-də atəşkəs rejiminin münaqişənin siyasi həllinə nail olana kimi davam etdirilməsi barədə saziş imzalandı, danışıqların Minsk qrupu çərçivəsində davam etdirilməsinə dair razılıq əldə olundu. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt. Lissabon və İstanbul zirvə toplantılarında qabarıq şəkildə büruzə verdi. ATƏT-in Budapeşt sammitində münaqişənin həlli prosesində Minsk qrupunun fəaliyyətini genişləndirmək üçün həmsədrlər institutu təsis edildi, bununla da münaqişənin nizamlanması prosesinin ikimərhələli strukturlaşması planı uğurla başa çatdı.

Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atdığı uğurlu addımların bu prosesdən narazı olan daxili və xarici qüvvələrin aktivləşməsinə səbəb oldu. Məhz destruktiv qüvvələrin fəaliyyəti sayəsində 1994-cü və 1995-ci illərdə ölkədə sabitliyi pozmaq üçün silahlı cəhdlər edildi. Ölkə başçısının qətiyyəti və "Heydər Əliyev-xalq" birliyinin sarsılmazlığı həmin çevriliş cəhdlərini tərksilah etdi. Azərbaycanın öz müstəqilliyini və qazanılmış sabitliyi qorumaq əzmi bütün dünyaya nümayiş etdirildi. 1995-ci il münaqişənin həlli tarixində ATƏT-in Minsk qrupu çərçivəsində silahlı münaqişənin başa çatması sazişinin hazırlanmasına cəhdlərlə yadda qaldı. Proses 1996-cı ildə davam etdirildi və həmin il Dağlıq Qarabağ probleminin həlli istiqamətində ən mühüm hadisələrdən birinin baş verməsi ilə başa çatdı. 1996-cı il dekabrın 3-də ATƏT-in Lissabon şəhərində keçirilən zirvə toplantısında Heydər Əliyevin xarici siyasət kursunun düzgün əsaslara söykəndiyini təsdiqləyən sənəd qəbul olundu. Lissabon sammitinin qərarları

münaqişənin həlli prosesində Azərbaycanın mövqelərinin möhkəmlənməsi baxımından ən zəruri sənədlərdən biri sayılmalıdır. Hakimiyyətə qayıdışından sonra ölkədə sabitliyi bərpa edən, dövlət quruculuğu və milli ordunun formalaşması istiqamətində mühüm addımlar atan Heydər Əliyev beynəlxalq aləmdə Azərbaycana yönələn ictimai rəyin dəyişməsinə nail oldu. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, Azərbaycanın cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi. Sammitdə qəbul olunan sənədin tarixi əhəmiyyəti beynəlxalq birliyin münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həllinə tərəfdar çıxması ilə ölçülür. Dövlət başçısı Heydər Əliyev sammitdəki çıxışı zamanı Azərbaycanın mövqeyini qəti şəkildə ortaya qoydu: *"Münaqişənin nizama salınması üçün təklif etdiyimiz kompromis üsulu aşağıdakı tərkib hissələrdən ibarətdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın yüksək muxtariyyət statusu, Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı. Bu üsul beynəlxalq vasitəçilər tərəfindən dəstəklənir, ATƏT-in indiki sədrinin 1996-cı ilin fevral ayında münaqişə regionunda olarkən təklif etdiyi prinsiplərə bir çox cəhətdən uyğun gəlir. Lakin çox təəssüf ki, Ermənistan Respublikası BMT nizamnaməsinə, ATƏT-in prinsiplərinə, beynəlxalq hüquqa əsaslanan hər hansı bir qərarın qəbul edilməsindən boyun qaçırmaqda davam edir".* Heydər Əliyev qarşı tərəfin iddialarının heç zaman qəbul edilməyəcəyini, münaqişənin yalnız və yalnız beynəlxalq hüququn prinsipləri çərçivəsində həll olunacağını yüksək tribunadan bir daha bəyan etdi: *"Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç zaman razılaşmayacağıq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik. Erməni tərəfi, nəhayət, başa düşməlidir ki, onun başladığı və səkkiz ildir davam edən münaqişə Azərbaycan xalqını çox böyük fəlakətlərə və iztirablara məruz qoyduğu kimi, erməni xalqını da ağır vəziyyətə salmışdır".* Bu çıxışı Heydər Əliyevin uzaqgörən siyasətçi olmasını bir daha təsdiqlədi. Münaqişənin mövcud durumu Ermənistanın ağır sosial-iqtisadi böhrana sürüklənməsi ilə xarakterizə olunurdu ki, bu prosesdə Dağlıq Qarabağ problemi heç də axırıncı rolu oynamırdı. Lissabon sammitində münaqişənin həllinə məhz Ermənistanın maneçilik törətməsi barədə Heydər Əliyevin ittihamları qısa zaman kəsiyində növbəti dəfə təsdiqləndi. 1997-ci ilin aprelində ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların növbəti raundu keçirildi, lakin erməni tərəfi problemin Lissabon

sammitinin qərarları əsasında həllinə etiraz edərək müzakirələrin sonrakı mərhələsində iştirakdan rəsmən imtina etdi. Həmin ilin iyununda ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ probleminin Lissabon sammitinin qərarları çərçivəsində həllini dəstəkləyən Denver bəyanatına imza atdılar. Heydər Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uğurlu həlli strategiyası beynəlxalq aləmdə Ermənistana və separatçı rejimə qarşı münasibəti dəyişdirdi və bunun bariz təzahürü kimi ilk dəfə olaraq 1997-ci ilin sentyabrında dünya dövlətləri işğal zonasında keçirilən "prezident seçkiləri"ni yekdilliklə pisləldilər. ATƏT-in Minsk qrupunun həmsədrləri Bakı və İrəvanda aparılan danışıqlar zamanı münaqişənin mərhələli şəkildə həlli variantını müzakirəyə çıxardılar. Oktyabrın 10-da Strasburqda görüşən Azərbaycan və Ermənistan prezidentləri problemin mərhələli həll planına uyğun aradan qaldırılması variantını dəstəkləyən bəyanatla çıxış etdilər. Lakin Ermənistan növbəti dəfə münaqişənin nizamlanmasında maraqlı olmadığını göstərdi və 1998-ci ilin aprelində mərhələli həll planından rəsmən imtina etdi. Ermənistanda qanlı terrorla müşayiət olunan hakimiyyət dəyişikliyindən sonra iqtidara gələn qüvvələr eks-prezident Levon Ter-Petrosyanın mərhələli həll planını qəbul etməsi barədə qərarının qüvvədən düşdüyünü bəyan etdi və problemin heç bir ilkin şərt irəli sürülmədən paket həllinə tərəfdar çıxdığını bildirdi. Lakin bu plan Azərbaycanın maraqlarına cavab verdiyi üçün dövlət başçısı Heydər Əliyev münaqişənin paket həlli formuluna uyğun nizamlanması təklifini rədd etdi. Minsk qrupu mövqeləri yaxınlaşdırmaq üçün müzakirəyə üçüncü həll variantını - "ümumdövlət prinsipi" formulunu çıxardı. Lakin bu formulda Ermənistanın maraqları daha çox təsbit olunduğuna görə Prezident Heydər Əliyev təklifi növbəti dəfə rədd etdi. Minsk qrupu həmsədrlərini beynəlxalq hüquq normalarından deyil, Ermənistanın maraqlarından çıxış etməkdə suçlandıran Heydər Əliyev münaqişənin beynəlxalq hüquq normaları əsasında, BMT-nin müvafiq qətnamələri yerinə yetirilməklə, ATƏT-in Lissabon Sammitində qəbul olunan sənəd çərçivəsində həll olunmasını tələb etdi.

Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasət ermənipərəst dairələrin köklü maraqlarına zərbə olduğundan erməni lobbisi Azərbaycana qarşı təzyiqləri gücləndirməyə başladı. 1999-cu ilin martında Avropa Parlamentinin plenar sessiyasında "Qafqazda sülh prosesinə dəstək" adlı sənəd qəbul edildi və Minsk qrupunun fəaliyyəti dəstəkləndi. Prezident Heydər Əliyev bu təzyiqlərə boyun əyməyərək Avropa Parlamentinin qəbul etdiyi sənədi rədd edərək öz mövqeyini bir daha açıqladı: *"Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında, BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələri yerinə yetirilməklə, ATƏT-in Lissabon sammitində qəbul olunan sənəd çərçivəsində həll olunmasından kənar heç bir prinsipi*

qəbul etməyəcək". Məhz bu bəyanatdan sonra ATƏT-in Minsk qrupunun münaqişənin həlli prosesində iştirakı zəifləməyə başladı. vasitəçilər Ermənistanı konsensusa məcbur etmək əvəzinə, qarşılıqlı razılaşmanın ikitərəfli danışıqlar əsasında həll olunmasını təklif etdilər. Heydər Əliyevlə Robert Koçaryan arasında ilk ikitərəfli görüş 1999-cu ilin aprelində Vaşinqtonda. növbəti görüş isə Ermənistan-Naxçıvan sərhədində keçirildi. Münaqişənin nizamlanmasına dair ABŞ-ın Ki-Uest şəhərində, Fransa paytaxtında, Cenevrədə keçirilən danışıqlar da Ermənistanın nizamlanma prosesində maraqlı olmaması səbəbilə uğursuzluqla nəticələndi. 2000-ci ilin fevralında Vaşinqtonda təşkil olunan rəsmi qəbulda Azərbaycan Prezidenti Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli məsələsində ölkənin dəyişməz mövqeyinin bir daha açıqladı: *"Mən sizi amin edirəm ki, müxtəlif tərəflərdən bizə edilən təzyiqlərə baxmayaraq, Azərbaycan xalqı, Azərbaycan Prezidenti dövlət müstəqilliyini qoruyub saxlamaq əzmindədir və biz bu müstəqilliyimizi heç zaman əldən verməyəcəyik. Bəyan edirəm ki, əgər biz Ermənistanla Azərbaycan arasında sülh yarada bilsək, Azərbaycanın işğal olunmuş torpaqlan işğaldan azad olunsa, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsə və bir milyondan artıq qaçqın öz yurdlarına qayıtsa, Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün böyük zamin yaranacaqdır".* Bu, həm də ümummilli liderimiz Heydər Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli strategiyasının əsas tezislərini təşkil edirdi. Sonrakı dövrlərdə aparılan fəaliyyət məhz bu əsaslarda davam etdirildi. Prezident Heydər Əliyev münaqişənin həlli prosesinin möhkəm iqtisadi, sosial. hərbi və siyasi təməlini formalaşdırmaq kimi çətin bir işin öhdəsindən uğurla gələrək, Azərbaycanın iqtisadi. siyasi, intellektual və insan resurslarını münaqişənin aradan qaldırılması prosesinə cəlb etdi. 2001-ci ilin fevralında ATƏT-in Minsk qrupunun təklif etdiyi həll variantları ilə bağlı Milli Məclisdə müzakirələr keçirən dövlət başçısı bu addımı ilə münaqişənin xalqın iştirakı. mövqeyi və rəyi olmadan həll olunmayacağını açıq şəkildə bəyan etdi.

Ümummilli liderimiz Heydər Əliyev bütün dövrlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi ədalət və beynəlxalq hüququn prinsiplərinə əməl olunması şərti ilə. Dünya ictimaiyyətinin dəstəyi ilə həll edilməsini ön plana çəkmiş. bu məsələdə ikili standartlara yol verilməsini tənqid etmiş. beynəlxalq birliyi qətiyyətsizlikdə qınamışdır.

Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı çıxışında həmin mövqeyini birmənalı şəkildə ortaya qoymuşdur: *"Bu gün qanunun və insan hüquqlarının aliliyi prinsipləri ilə yaşayan vahid Avropada münaqişələr baş verir, suveren dövlətlərin əraziləri işğal olunur, etnik təmizləmə aparılır, dinc əhali doğma yurd-*

yuvalarından qovulur. Təcavüzlə razılaşmaq, hüquqazidd hərəkətlərin nəticələrini tanımaq, beynəlxalq birliyin vaxtında lazımi tədbirlər görməməsi faciələrə gətirib çıxarır, suveren dövlətlərin dayaqlarını sarsıdır, humanitar fəlakətlərə səbəb olur.

Vahid Avropada ikili standartlara yol verilməməlidir. Bizim məkanımız bölünməzdir və bütün münaqişələrə eyni dərəcədə ciddi və prinsipial münasibət göstərilməlidir.

Dünyanın heç bir yerində belə dəhşətli vəziyyət yoxdur. Amma təəssüflər olsun ki, dünya birliyi bu faciəyə biganədir".

Həqiqətən də, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz və dərhal azad olunması barədə qəbul etdiyi dörd qətnaməyə Ermənistan məhəl qoymur. Yaradıldığı andan ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, ümumilikdə onun bütün sonrakı fəaliyyəti istənilən nəticəni vermir. ATƏT-in Minsk qrupunun fəaliyyəti ətalət nöqtəsindən tərpənmir, həmsədrlərin regiona səfərləri turne xarakteri daşıyır. Həmsədrlər, əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq bu günədək danışıqlar prosesinə beynəlxalq hüquq normaları çərçivəsində lazımi təsir göstərə bilmirlər. Məsələn, 1997-ci ilin iyun və oktyabrında Minsk qrupunun irəli sürdüyü təkliflərin bəzi müddəalarının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmasına baxmayaraq, Azərbaycan Prezidenti həmsədrlərin birinci və ikinci təkliflərinin danışıqlar prosesinin konstruktiv istiqamətdə davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq verdi. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təkliflərlə razılaşmayaraq açıq-aşkar qeyri-konstruktiv mövqe tutdu. 1998-ci ilin noyabrında həmsədrlər heç bir beynəlxalq-hüquqi bazası olmayan, Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutan, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verən. Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edən və faktiki olaraq. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirən "ümumi dövlət" prinsipi ilə çıxış etdikdə isə. təbii ki, Azərbaycan bu təklifi rədd etməli oldu. Nəticə etibarilə Ermənistanın danışıqlar prosesindəki cığallığı normal, Azərbaycanın ədalətli mövqeyi isə qeyri-konstruktiv hesab edildi. Prezident Heydər Əliyev məsələnin bu cür qoyuluşundan narahatlığını gizlətmirdi: *"Ona görə mən hesab edirəm ki, Minsk qrupunun fəaliyyəti 1997-ci ildən sonra çox zəifdir. 1998-ci ilin noyabr ayında "ümumi dövlət" formulunu bizə təklif edəndən və biz ondan imtina edəndən sonra isə Minsk qrupu Azərbaycana qarşı qeyri-obyektiv mövqe tutur. Bunlar isə bizi narahat edir".*

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan münaqi-

şənin həll strategiyasını bu gün dövlət başçısı İlham Əliyev uğurla davam etdirir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə, Azərbaycan xalqının tarixi mənafelərinə uyğun, eləcə də yeganə ədalətli həlli strategiyasının işlənib hazırlanması və həyata keçirilməsində dövlət başçısı İlham Əliyevin müstəsna xidmətləri vardır. Münaqişənin həllinə zəmin hazırlamaq, Dağlıq Qarabağ probleminə beynəlxalq birliyin baxışlarını dəyişmək İlham Əliyevin uğurlu və uzaqgörən diplomatik fəaliyyətinin nəticəsi hesab olunmalıdır. Unutmaq lazım deyil ki, İlham Əliyev Avropa məkanında Ermənistanın mövqelərinə qarşı aparılan aktiv informasiya müharibəsinə bilavasitə rəhbərlik edir və bu mübarizənin taktiki və strateji hədəflərinin müəyyənləşməsi məhz onun adı ilə bağlıdır. Bu barədə bəzi məqamlara toxunmaq istərdik.

1994-cü ilin mayında atəşkəs haqqında razılıq əldə edilsə də, Qarabağ amili iki ölkə arasında siyasi təbliğatın və informasiya savaşının əsas obyekti olaraq qalıb. Bu proses hazırda BMT, ATƏT, MDB və digər beynəlxalq və regional təşkilatlar müstəvisində davam edir. Amma nəzərə almaq lazımdır ki, bu qurumlar indiyə kimi bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyünü tanımaq barədə qərar qəbul etsələr də, "işğal faktoru" heç zaman etiraf edilməyib. Hətta 1992-1993-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələbi qoyulsa da, bu mühüm sənəddə erməni işğalının adı çəkilməyib. Azərbaycan üçün əsas məqsəd isə odur ki, məhz onun ərazi bütövlüyünə Ermənistan tərəfindən qəsd edilməsi bir reallıq kimi dünya birliyi tərəfindən qəbul edilsin. İlk dəfə olaraq bu barədə qərar bir neçə il əvvəl İslam Konfransı Təşkilatı tərəfindən qəbul edilmişdi. Həmin sənəddə Ermənistan birmənalı olaraq işğalçı ölkə kimi ittiham olunurdu. Amma nəzərə almaq lazımdır ki, İKT və ona üzv olan ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik vasitələrlə həlli prosesinə təsiretmə imkanları son dərəcə azdır. Bu mənada, Avropada erməni işğalının tanınması məhz cənab İlham Əliyevin adı ilə bağlıdır.

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə incəliklərinə qədər bələddir və öz mövqeyini qlobal miqyasda cərəyan edən proseslərə uyğunlaşdırmağı bacarır. Ona görə də onun bəyanatlarında müxalifətin bəzi nüanslar axtarmaq cəhdləri yalnız çirkin siyasi texnologiyanın elementlərindən biridir. Siyasi qısqanclıq, ifrat radikalizm imkan vermir ki, müxalifət real həqiqətləri həzm edə bilsin. Bu antimilli siyasət təkcə İlham Əliyevə deyil, həm də ölkənin strateji mənafelərinə qarşı yönəlib. Hər halda bu müqayisə müxalifətin İlham Əliyevə qarşı apardığı total kampaniyanın mahiyyətini nümayiş etdirir.

Digər tərəfdən isə hakimiyyəti və İlham Əliyevi Dağlıq Qarabağ mü-

naqişəsinin həlli ilə bağlı əsassız olaraq "yumşaq mövqe" tutmaqda günahlandıran müxalifət dairələri nədənsə unudurlar ki, onların problemin həlli yolları ilə bağlı mövqeyi səmimi deyil, belə ki, bu siyasət şəxsi ambisiyalardan asılı olaraq tez-tez dəyişə bilir. Nə vaxtsa müxalifət "sülh carçısına" çevrilərsə buna da təəccüblənmək lazım deyil. Çünki onların iradəsi öz əllərində deyil. Nəhayət, necə olur ki, vaxtaşırı olaraq münaqişədən iqtidara qarşı pressinq vasitəsi kimi istifadə etməyə çalışan müxalif dairələr keçirdikləri mitinqlərdə problemə "dilucu" da olsa belə yanaşmırlar və digər siyasi şüarların yanında problemin aktuallığı, demək olar ki, nəzərə çarpmır?

Öz opponentlərindən fərqli olaraq, İlham Əliyevin Qarabağ probleminə dair mövqeyi ardıcıllığı və prinsipiallığı ilə seçilir. İstər beynəlxalq təşkilatlarda, istər dünyanın aparıcı dövlətlərinin təmsilçiləri ilə görüşlərdə, istərsə də ölkə daxilində o, eyni prinsipi əsas tutur: işğal olunmuş Azərbaycan torpaqları azad edilməyincə rəsmi Bakı heç kimə heç nəyi güzəştə getməyəcək.

Hələ 1997-ci ilin fevralında ABŞ-Azərbaycan Ticarət Palatasının "Azərbaycan: Kommunizmdən demokratiyaya keçid yolunda neft problemləri" mövzusunda keçirdiyi konfransda çıxış edən ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev regional enerji layihələrini Dağlıq Qarabağ münaqişəsi həll olunmadan gerçəkləşdirməyin mümkün olmadığını bəyan edib. Beynəlxalq birliyi münaqişənin həll prosesində fəal iştiraka dəvət edən İlham Əliyev Azərbaycanın bu sahədə Qərb dövlətləriylə əməkdaşlıq etməyə hazır olduğunu deyib. 1998-ci ildə Vaşinqtonda səfərdə olan İlham Əliyev analoji mövqeni ABŞ Prezidentinin və Dövlət katibinin Xəzər dənizinin enerji resurslarının inkişafı üzrə xüsusi müşaviri Riçard Morninqstar, konqresmenlər Royabeyker, Kalitski, Kasinç və Kalaxan, Qerpkardt, Qrems və Braunberq, keçmiş Dövlət katibi İqlberqerlə görüşü zamanı açıqlayıb. Vaşinqtondakı İslam Mərkəzində ABŞ-ın müsəlman icmasının rəhbərləri ilə görüşən İlham Əliyev "Azadlığa dəstək haqqında pakt"a 907-ci düzəlişi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olan amil kimi dəyərləndirib və bu əlavənin ləğv olunmasını tələb edib.

2001-ci ilin əvvəllərində - Milli Məclisdə Qarabağ probleminin nizamlanması mövzusunda müzakirələr keçirilməsindən az sonra, cəmiyyətdə müəyyən gərginliyin hələ də qaldığı bir vaxtda ölkə müxalifəti guya iqtidarın təslimçi sazişə imza atmağa hazırlaşması ilə bağlı bəyanatlar yayanda İlham Əliyev aydın və birmənalı şəkildə açıqlama verərək opponentlərinin "narahatçılığına" son qoydu. O, açıq şəkildə bildirdi ki, iqtidar sülh danışıqlarının tərəfdarı olsa da, müharibəni istisna etmir. Qarabağ probleminin müharibə yolu ilə həlli variantına müsbət yanaşan və gənclərin müharibə aparmaq istəyini alqışlayan millət vəkili sülh yolu ilə alınmayan torpaqların mütləq müharibə vasitəsilə geri qaytarılmasının qaçılmaz

olduğunu bəyan etdi. Etiraf etmək lazımdır ki, hakimiyyətdə təmsil olunan şəxsin bu cür sərt mövqe nümayiş etdirməsi adi məsələ deyil. İqtidarda olmayan və təbii ki, açıqlamaları beynəlxalq aləmdə ciddi rezonans doğurmayan, məhz bu səbəbdən də öz siyasi fəaliyyətini məsuliyyətsiz və pafoslu bəyanatlar üzərində quran bir çox müxalifət liderlərindən fərqli olaraq, İlham Əliyev dövlətdə yüksək postlardan birin tuturdu və onun hər cümləsi rəsmi Bakının mövqeyi kimi geniş müzakirələrə səbəb olurdu. Bu baxımdan hakim partiyanın sədr müavininin məsələyə belə sərt yanaşaraq müharibə variantını mümkün sayması kifayət qədər cəsarətli addım idi.

İlham Əliyevin münaqişənin həlli prosesinin ilkin mərhələsində oynadığı önəmli mövqe beynəlxalq aləmdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında gerçək təsəvvür yaratmağa hesablanmışdır. Cənab İlham Əliyevin Dağlıq Qarabağ probleminin həlli istiqamətində əldə etdiyi konkret nəticələr Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi apardığı səmərəli və əməli fəaliyyətlə bağlıdır.

Ümumiyyətlə, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin fəaliyyətini münaqişənin həll prosesində ən uğurlu mərhələlərdən biri hesab etmək olar. İlham Əliyevin Strasburqda keçirilən toplantılarda fəaliyyəti Dağlıq Qarabağ münaqişəsinin həll strategiyasına hər cür illüziyadan uzaq, konfliktlərin həlli sahəsində beynəlxalq təcrübədən qidalanan, dəqiq, konkret faktlara əsaslanan və mövcud nəzəri-təcrübi fikrə söykənən tezislərlə yanaşması ilə xarakterizə olunur. 0, ilk dəfə olaraq Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini fərqli rakurslardan işıqlandırmış, beynəlxalq ictimai rəyə tamamilə yeni formul təklif etmişdir - Dağlıq Qarabağ problemi təkcə lokal münaqişə deyil, mövcud qlobal problemlərlə sıx şəkildə uzlaşmış konflikt formasıdır. Danılmaz faktdır ki. mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotik və silah qaçaqmalçılığı dünyanın üzləşdiyi və birgə mübarizəni zəruri edən qlobal problemlərə çevrilib. Münaqişə tarixində ilk dəfə məhz cənab İlham Əliyev məsələyə qlobal problemlər konteksində yanaşmış, Avropa Şurası Parlament Assambleyasının toplantısında adı çəkilən qlobal problemlərin aradan qaldırılması üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini önə çəkmişdir. Məsələnin bu şəkildə ortaya çıxarılması Parlament Assambleyasında böyük rezonansa səbəb olmuş. Avropa Şurası üzvlərinin diqqəti bir daha bu məsələyə yönəlmişdir. İlham Əliyev həmin təşkilatın sessiyalarında antiterror kampaniyasının aktuallaşdığı bir dövrdə Avropa və dünya ictimaiyyətinin diqqətini Dağlıq Qarabağ və erməni terroruna yönəldə bilmişdir. Avropada mütəşəkkil cinayətkarlığın əsas mərkəzlərindən birinin Azərbaycanda olmasından narahatlığını bildirən cənab İlham Əliyev işğal olunmuş ərazilərin

beynəlxalq nəzarətdən kənarda qalması faktını ön plana çəkmişdir: *"Mütəşəkkil cinayətkarlığın artmasının mühüm səbəblərindən biri müvafiq dövlət strukturlarının bu sahəyə az nəzarət etməsidir. Azərbaycan bu məsələdən xüsusilə narahatdır. Çünki Avropada mütəşəkkil cinayətkarlığın mərkəzlərindən biri də məhz bizim ərazidədir. "Dağlıq Qarabağ Respublikası" deyilən ərazidə nəinki Azərbaycanın hakimiyyət orqanlarının, bu cinayətkarlıqla mübarizəyə məsul olan beynəlxalq təsisatların da heç bir nəzarəti yoxdur. Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimiz, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır".*

Prezident İlham Əliyevin seçdiyi uğurlu taktika yüksək diplomatik keyfiyyətlərin nəticəsi sayılmalıdır. Terrorizm, narkotik məhsullar və silah qaçaqmalçılığının qlobal problem səviyyəsinə qalxması beynəlxalq birliyi ciddi narahat edir. Son illər bu problemlərin həllinə dair çoxsaylı konfranslar, simpoziumlar keçirilib, terrorizmə qarşı mübarizə BMT, ATƏT, Avropa Şurası kimi nüfuzlu təşkilatların auditoriya və kürsülərində əsas müzakirə predmetinə çevrilmişdir. Yüksək analitik təfəkkürə və diplomatik dəyərləndirmə qabiliyyətinə malik olan İlham Əliyev bu tendensiyanı lazımınca qiymətləndirmiş, Dağlıq Qarabağ münaqişəsini mütəşəkkil cinayətkarlıq kimi qlobal problemin tərkib hissəsi, törəməsi, təzahürü kimi təqdim etmişdir. *""Dağlıq Qarabağ Respublikası" deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Bu fakt ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində beynəlxalq nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz əksini tapmışdır. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər. Onları "Dağlıq Qarabağ Respublikası"nın bədnam rəhbərləri müdafiə edir. Həmin rəhbərlər narkotiklərin satışından gələn pulları Azərbaycanın işğal olunmuş ərazisini əldə saxlamaq və muzdlulara haqq ödəmək üçün istifadə edirlər. Yaxşı məlumdur ki, Rusiyanın keçmiş rəhbərləri özlərinin müvafiq strukturlarına Ermənistana qanunsuz yolla bir milyard dollarlıq silah ötürməsinə icazə vermişdilər.*

Həmin silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş digər ərazilərində yerləşdirilmişdir. Mən sual edirəm - Ermənistan və Dağlıq Qarabağ bu silahları almaq üçün bu qədər pulu haradan tapdı? - Bu, regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsas etibarilə xarici yardımlar hesabına yaşayır.

Daimi iqtisadi tənəzzül uçbatından yüz minlərlə adam Ermənistanı tərk etmişdir. Cavab aydındır. Ya onlar həmin silahları pulsuz alıblar, - buna güman cızdır - ya da narkotiklərin satışından əldə olunan pullarla alıblar".

Beynəlxalq nəzarətdən kənarda qalan ərazilərin həm də çirkli pulların yuyulması mərkəzinə çevrilməsi faktı da ilk dəfə İlham Əliyev tərəfindən açıqlanmışdır. Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsini beynəlxalq ictimai rəyə tamamilə "yeni qiyafədə" təqdim etməsi mövcud reallıqlara əsaslanır. Dövlətimizin başçısı Azərbaycan torpaqlarının Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalını təkcə beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasına deyil, həm də mütəşəkkil cinayətkar qruplaşmaların fəaliyyətinin genişlənməsinə təsir göstərən amil kimi təqdim edir. *"Dağlıq Qarabağda mövcud olan, qanunsuz iqtisadi fəaliyyət göstərən bu qondarma "respublika" "çirkli pulların yuyulması" əməliyyatları sahəsində məşhurlaşmışdır. Ermənilər Dağlıq Qarabağın ərazisində silahlı birləşmələrə təlim keçirlər, bu birləşmələr terrorizmə qarşı mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən tamamilə kənardadır.*

Biz bütün Avropa strukturlarından xahiş edirik ki, erməni təcavüzkarlarının, işğalçıların torpaqlarımızdan çıxarılması üçün, bir milyon insanın insani hüquqlarını pozmağa və torpaqlarımızdan öz cinayətkar əməllərindən ötrü istifadə etməyə son qoymaları üçün ciddi əməli tədbirlər görsünlər".

Beləliklə, İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə tamamilə yeni olan baxışları konkret tezisə əsaslanır - münaqişə təkcə regional inkişafa maneçilik törədən proses xarakteri daşımır, həm də qlobal problemlərin inkişafı zəncirində mühüm həlqəyə çevrilmişdir. Beynəlxalq birlik Dalıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş cəhdləri intensivləşdirməklə paralel olaraq mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotik məhsullar və silah qaçaqmalçılığı, çirkli pulların yuyulması kimi problemlərin həlli istiqamətində önəmli addım atmış olacaq.

Təsadüfi deyil ki, İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının toplantısında etdiyi çıxış beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinə yanaşmasını kökündən dəyişmişdir. Prezident İlham Əliyevin uğurlu diplomatik gedişlərindən sonra beynəlxalq aləmdə münaqişənin həllinə yönəlik cəhdlər daha dinamik xarakter almağa başlamışdır.

İlham Əliyevin işğal faktorunu təkcə Azərbaycanın deyil, bütünlükdə Avropa qitəsinin problemi kimi təqdim etməsi də Dağlıq Qarabağ münaqişənin həlli strategiyasına edilən yenilik kimi dəyərləndirilməlidir. Problemin həllində Avropanın tarixi təcrübəsindən yararlanmaq təklifi beynəlxalq birliyin münaqişəyə baxışlarının dəyişməsi istiqamətində İlham Əliyevin uğurlu diplomatik gedişlərindən sayıla bilər. İlham Əliyev beynəlxalq konfransın iştirakçılarına İkinci Dünya müharibəsi dövründə işğaldan əzab çəkmiş

ölkələrin nümayəndələri olduqlarını xatırlatmaqdan çəkinməyib: *"Siz çoxunuz İkinci Dünya müharibəsi zamanı işğala məruz qalmış ölkələri təmsil edirsiniz. Lakin o zaman Avropa bütün qüvvələrini, səylərini bir araya gətirərək işğala, təcavüzə son qoymağa nail oldu. Bu gün də Avropanın bir hissəsi olan Azərbaycanın torpaqları işğal olunubdur. Bu işğal beynəlxalq ictimaiyyət tərəfindən, həmçinin torpaqlarımızı işğal edən Ermənistan rəhbərləri tərəfindən də qəbul olunubdur. Mən əminəm ki əgər Avropa 50 il bundan öncə olduğu kimi səylərini, qüvvələrini yenidən bir araya gətirərsə, onda bizim qitədə qaçqın problemi qalmayacaqdır ".*

Avropa Şurası Parlament Assambleyasının Nazirlər Komitəsi 2001-ci ilin 24 sentyabrında Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında tarixi qərar qəbul etmiş, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunması faktını rəsmən tanımışdır. Qərarın altıncı bəndində qeyd olunur ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaq şərtilə həll olunmalıdır. Nazirlər Komitəsinin qərarını şərh edən İlham Əliyev qəbul olunan sənədi münaqişənin həlli istiqamətində aparılan danışıqların uğurla davam etdirilməsi üçün gözəl zəmin adlandırmışdır. Bununla da İlham Əliyevin AŞ PA müstəvisində Ermənistana qarşı apardığı mübarizə Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistanın işğalçı dövlət olması faktının təsdiqlənməsi ilə nəticələnmişdir. Nazirlər Komitəsinin qərarından dərhal sonra İlham Əliyev mahir diplomat olduğunu bir daha təsdiqləyən açıqlama vermişdir. Qərardan iki həftə əvvəl Vaşinqton və Nyu-Yorkda törədilən terror aktlarını kəskin şəkildə pisləyən İlham Əliyev belə bir təkliflə çıxış edib: *"Amerika Birləşmiş Ştatlarında baş vermiş terror aktları bizim hamımızı sarsıtdı. Bu hamımız üçün gözlənilməz oldu və Azərbaycan hökuməti terror aktını qətiyyətlə pisləyib, Amerika hökumətinə öz dəstəyini göstəribdir. Azərbaycan bütün mütərəqqi ölkələrlə birlikdə terror əleyhinə mübarizə aparmağa hazırdır. Biz terrordan zərər çəkmiş dövlətik. Ermənistanın işğalçı qüvvələri 10 ildən artıqdır ki, Azərbaycana qarşı terror siyasəti aparırlar. Məhz bu terror siyasəti nəticəsində bizim torpaqlarımız işğal altındadır, bir milyondan çox qaçqınımız var. Ona görə də terrordan zərər çəkmiş dövlət kimi Azərbaycan bu barədə öz mövqeyini açıq şəkildə ortaya qoyur. Hesab edirəm ki, anti-terror əməliyyatı təkcə Amerikada törədilmiş terrorun təşkilatçılarına qarşı aparılmamalıdır, eyni zamanda dünyadakı bütün terrorçu qruplaşmalara və təşkilatlara qarşı ciddi tədbirlər görülməlidir".*

Avropa Şurası Parlament Assambleyasının sentyabrın 25-də keçirilən toplantısında çıxış edən İlham Əliyev öz mövqeyini daha konkretləşdirmiş, Ermənistanın terrorçu dövlət olmasını faktlarla sübuta yetirmişdir. Ermənistan nümayəndə heyətinin rəhbərinin "Ermənistan heç bir terror

aktını dəstəkləmir və terrorizmə qarşı birgə mübarizə aparır" tezisini darmadağın edən İlham Əliyev AŞ PA üzvlərinin diqqətini erməni terrorçularının Azərbaycanda törətdiyi terror aktlarına cəlb etmişdir: *"Ermənistanın təcavüzü başlanan andan erməni terrorçuları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2000 adam öldürülmüş, on minlərlə adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, metrolarda törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı Öldürülmüş, bir milyon insan qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı "ASALA" Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırım siyasətində çox fəal rol oynamışdır. Hazırda qondarma "Dağlıq Qarabağ Respublikası"nın ərazisi və Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların da hazırlanması üçün düşərgələr yaradıblar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalı, daşınmasında əldə edilən küllü-miqdarda gəlir terror məqsədləri üçün xərclənir ".*

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının ümumi iradəsi ilə prezident seçilmiş İlham Əliyev ötən illər ərzində Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məqsədyönlü və səmərəli işlər görmüşdür. Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət münaqişənin subyekti kimi Ermənistanın bütün parametrlər üzrə zəiflədilməsinə və bu prosesin fonunda Azərbaycanın siyasi, iqtisadi, hərbi, beynəlxalq dəstək müstəvilərində daha ön sıralara çıxmasına hesablanıb. Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ probleminin həlli məsələsinə yuxarıda qeyd olunan prizmadan yanaşılması artıq özünün real nəticələrini verməkdədir. Uzun illərdən bəri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyası Ermənistanın bölgədə təklənməsi, qlobal iqtisadi layihələrdən kənarda qalması ilə nəticələnib və iqtisadi resurslar amilini münaqişənin həlli prosesinə dolayı yolla cəlb etməklə Azərbaycan problemin sülh yolu ilə həlli məsələsində əlavə samballı təzyiq vasitəsi əldə edib.

Artıq qeyd etdiyimiz kimi. Dağlıq Qarabağ münaqişəsi Ermənistanın bölgənin qlobal enerji layihələrindən kənarda qalması ilə nəticələnib ki. bu da ölkənin iqtisadi inkişaf tempinin xeyli ləngiməsinə səbəb olub. Atəşkəs dövründə Azərbaycanın dövlət büdcəsi üç dəfə artdığı halda. Ermənistanda bu rəqəm 0,5 faiz təşkil edib. İnkişaf potensialında kəskin fərqin

yaranmasına insan resurslarının artıb-azalması faktoru da təsir göstərir. Konfliktlər bir qayda olaraq münaqişə ocağında insan resurslarının azalmasına və miqrasiya proseslərinin güclənməsinə səbəb olur. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) bir neçə il öncə münaqişə subyektlərində insan resurslarının durumuna dair apardığı araşdırma Dağlıq Qarabağ probleminin Ermənistana daha pis təsir etdiyini təsdiqləyir. Ermənistandan xarici ölkələrə axının səviyyəsi həddən artıq yüksəkdir. Atəşkəs dövründə Ermənistanı 1.8 milyon nəfər tərk edib ki, bu da respublika əhalisinin 54 faizi deməkdir. Hazırda Ermənistanda 1.68 milyon nəfər qalıb ki, bunların da əksəriyyətini 16-21 və 50-75 yaş qrupuna daxil olan vətəndaşlar təşkil edir. Ermənilərin kütləvi şəkildə köç etməsi səbəbləri sırasında ilk yerləri respublikada sosial-iqtisadi durumun pisləşməsi və müharibənin yenidən başlaması təhlükəsi tutur. Bundan başqa, ölkədə keçirilən sorğu zamanı məlum olub ki, 16-21 yaş qrupuna daxil olan vətəndaşların 80 faizi yaxın beş il ərzində Ermənistanı birdəfəlik tərk etməyə hazırlaşır. Bu o deməkdir ki, yaxın beş il ərzində ölkədə iqtisadi inkişaf nəzərə çarpmasa və Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyiş əldə olunmasa ölkədə yalnız yaşı 55-dən yuxarı olan vətəndaşlar qalacaq. Ölkədən xaricə axın indiki ahənglə davam etsə, 2015-ci ildə Ermənistanda ümumiyyətlə, əhalinin qalması sual altındadır. Münaqişə zonasında insan resurslarının azalması işğal olunmuş Azərbaycan torpaqlarında da nəzərə çarpır. Ermənistan işğal olunmuş əraziləri məskunlaşdırmaq üçün bir çox stimullaşdırıcı tədbirlərə əl atsa da, Dağlıq Qarabağın erməni əhalisi bölgəni tərk etməkdədir. Bu, münaqişənin həll prosesində Azərbaycanın lehinə işləyən əsas amillərdən biridir. Son iki ildə Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsinin həlli Prezident İlham Əliyevin xarici siyasət fəaliyyətinin prioritet istiqamətinə çevrilmişdir. Dövlət başçısının şəxsi təşəbbüslərinin nəticəsi olaraq danışıqlar prosesi aktivləşmiş. beynəlxalq birliyin münaqişənin nizama salınması istiqamətində səyləri güclənmişdir. Prezident İlham Əliyevin Fransa, Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, Ukrayna, Gürcüstan, Yunanıstan, Almaniya, İran, Səudiyyə Ərəbistanı, Çin, Polşa, İtaliya, Pakistan, Xorvatiya, Bolqarıstan və digər ölkələrə səfərləri zamanı ayrı-ayrı dövlət başçılarının Ermənistanı işğalçı dövlət adlandırması, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmasını tələb etməsi İlham Əliyev diplomatiyasının böyük uğuru sayıla bilər. Bu bəyanatlar Ermənistanda təşvişlə qarşılanmış, erməni kütləvi informasiya vasitələri Azərbaycan əleyhinə informasiya müharibəsini gücləndirsələr də, əsas məqsədlərinə - İlham Əliyevin diplomatik uğurları üzərinə kölgə salmağa çata bilməmişlər. Xarici ölkələrə səfərlər zamanı artırılan dəstək arsenalı münaqişənin həll prosesində nisbi qüvvələr balansını Azərbaycanın xeyrinə dəyişməyə nail olmuşdur.

Ermənistanın təbii müttəfiqləri sayılan Yunanıstan və İran dövlətlərinin də Azərbaycanın ərazi bütövlüyünü tanıması faktı diplomatiya müharibəsində İrəvanın mövqeyinə endirilən ən ağır zərbələrdən sayılır. Təsadüfi deyil ki, Yunanıstan Prezidenti Stefanos Konstantinopulos və onun iranlı həmkarı Məhəmməd Xatəminin Bakıda verdiyi bəyanatlar İrəvanda ciddi narahatlıqla qarşılanmışdır. Hər iki prezident işğal faktını pisləyərək münaqişənin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həllini məqbul saymışdır. Bu nəticələr əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin davam etdirdiyi Dağlıq Qarabağ münaqişəsinin uğurlu həll strategiyasının təzahürüdür.

Son illər ərzində Ermənistan münaqişənin həll prosesində Azərbaycanın lehinə dəyişən qüvvələr balansını öz xeyrinə təshih etməyə cəhd göstərsə də. buna nail ola bilməyib. Ermənistanın mövcud reallıqlarla qismən də olsa barışması, dövlət başçılarının görüşündə özünü bariz şəkildə göstərib. Cenevrə görüşündən fərqli olaraq, Varşavada münaqişənin həllinə dair konkret təkliflərin müzakirə olunması İrəvanın mövcud reallıqları olduğu kimi qəbul etməsinə canlı misaldır. Əvvəllər danışıqların "ölü nöqtədən" davam etdirilməsini tələb edən ermənilər İlham Əliyevin problemin həllinə sıfırdan başlamaq niyyətini boykot etməyə çalışsalar da, bu cəhdlər iflasa uğrayıb. Dövlət başçısının danışıqlararası dövrdə ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi istiqamətində gördüyü işlər öz bəhrəsini verib.

Azərbaycanın münaqişənin həlli prosesində qarşı tərəfin tələb etdiyi minimal güzəştlərə belə razı olmayacağı, öz haqları uğrunda sonadək mübarizə aparacağı fikrini dövlət başçısının BMT Baş Assambleyasının 59-cu toplantısında çıxışı bir daha təsdiqlədi. Prezident İlham Əliyev öz çıxışında Dağlıq Qarabağ münaqişəsinin həlli strategiyasının ümumi prinsiplərini bir daha ortaya qoydu. Prezident beynəlxalq təşkilatların münaqişənin həllinə "ikili standartlar" prinsipindən yanaşmasını qəti şəkildə pisləmiş, bu mövqeni problemin dondurulmasına yönəlik xətt kimi dəyərləndirmişdir: *"Ölkəmiz BMT-dən təcavüzkarı işğal olunmuş torpaqlardan çəkilməyə məcbur edəcəyini və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkan yaradılacağını gözləyirdi. Suveren Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına cavab olaraq BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 saylı dörd qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir"*. Azərbaycan Prezidenti öz çıxışında BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçılıq siyasətini pisləyən qətnamələrin yerinə yetirilməsi üçün heç bir iş görmədiyini sərt şəkildə tənqid etmiş və münaqişənin neqativ nəticələrini açıq şəkildə ortaya qoymuşdur: *"Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir. Bu, beynəlxalq hüququn, xüsusilə, Müharibə Zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə pozulmasıdır"*. Dövlət başçısının çıxışının əsasını təşkil edən tezislər beynəlxalq aləmdə Ermənistan əleyhinə aparılan informasiya müharibəsinin əsas elementləri rolunu oynaya bilər. İşğal olunmuş ərazilərin beynəlxalq nəzarətdən kənarda qalmasının qlobal problemlərin inkişafına təsirini vurğulayan dövlət başçısı konkret misallara istinad etmişdir: *"Həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, çirkli pulların yuyulması, qaçaqmalçılıq məqsədilə istifadə edilməsi, Dağlıq Qarabağ ərazisinin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir. Öz-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan "Dağlıq Qarabağ Respublikası" bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir"*. Xarici şirkətlərin işğal olunmuş Azərbaycan torpaqlarında təbii sərvətlərin qeyri-qanuni mənimsənilməsində iştirakına diqqət çəkərək. həmin şirkətlərin məsuliyyətə cəlb olunması üçün hüquqi və praktik tədbirlərin həyata keçirilməsini tələb etmişdir.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 59-cu sessiyasındakı çıxışında diqqəti cəlb edən önəmli məqamlarından biri Ermənistanın beynəlxalq aləmə təkcə işğalçı deyil, həm də barbar dövlət şəklində təqdim olunmasıdır: *"Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir. Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özünükləşdirilmiş və talanıb aparılmışdır"*. Beynəlxalq təşkilatların problemə baxışlarını ciddi tənqid edən cənab İlham Əliyev hesab edir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun problemə passiv və biganə yanaşdığı, beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və

destruktiv mövqeyindən əl çəkməyəcəkdir. Problemə hərtərəfli, düşünülmüş, əhatəli, analitik baxışlara sahib olan dövlət başçısı İlham Əliyev Ermənistanın tutduğu neqativ mövqeyə baxmayaraq, Azərbaycanın münaqişənin siyasi yolla tənzimlənməsi prinsipinə hələ də sadiq qaldığına diqqət yetirmişdir. O bəyan etmişdir ki, münaqişə etnik təmizləmə və suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilməlidir. Bununla da dövlət başçısı Azərbaycan və Ermənistan rəhbərlərinin Astana danışıqlarından çıxan nəticənin virtual xarakter daşımadığını, problemin sülh yolu ilə həlli perspektivinin hələ mövcud olması fikrini təsdiqləyib. İlham Əliyevin BMT Baş Assambleyasının son sessiyasındakı çıxışı Dağlıq Qarabağ münaqişəsinin həlli strategiyasının uğurlu və məntiqi davamı hesab olunmalıdır.

Dövlət başçısının münaqişənin həlli prosesində gördüyü işlər təkcə beynəlxalq aləmdə gərgin diplomatik mübarizənin aparılması ilə məhdudlaşmır. Cənab İlham Əliyev münaqişənin mənfi təzahürlərinin aradan qaldırılması istiqamətində də uğurlu işlər görüb. Məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız üçün yeni yaşayış qəsəbələrinin salınması dövlət başçısının fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmış məcburi köçkünlərin sosial vəziyyəti ilə yaxından tanış olmaq üçün bölgələrə mütəmadi səfərlər edən Prezident İlham Əliyev problemlərin həlli üçün daxili və xarici resursları uzlaşdırmağı vacib sayır. Son iki il ərzində Azərbaycanın müxtəlif bölgələrində Dağlıq Qarabağ münaqişəsinin qurbanı olan milyona yaxın soydaşımız üçün yeni qəsəbələr inşa olunub və bu qəsəbələrin açılış mərasimlərində dövlət başçısı şəxsən iştirak edib. İyunun əvvəllərində Mingəçevirdə məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində dövlət başçısının çıxışı hökumətin qaçqınlar və məcburi köçkünlərlə bağlı siyasətinin əsas tezislərini ortaya qoyub. "Bu gün bu qəsəbə sizin ixtiyarınıza verilir. Mən ümid edirəm ki, siz burada xoşbəxt yaşayacaqsınız. Amma onu da hamılıqla bilməliyik ki, bu, müvəqqəti yaşayış məntəqəsidir. Bu, bizim siyasətimizin bariz nümunəsidir. Qaçqınların, köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq mənim bəyan etdiyim siyasətin əsas istiqamətləridir. Bu, o demək deyildir ki, siz burada daimi yaşayacaqsınız. Siz burada müvəqqəti məskunlaşmışsınız. Torpaqlarımız azad olunduqdan sonra mən buraya, sizə bir də qonaq gələrəm və bir yerdə Qarabağa gedərik. Azərbaycan heç vaxt torpaqlarının itirilməsilə barışmayacaq, bu məsələdə güzəştə getməyəcəkdir".

Dünyada gedən qloballaşma prosesinin sivilizasiyalararası dialoqu zərurətə çevirdiyi bir vaxtda Ermənistan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə etinasızlıq göstərməkdə davam edir, öz silahlı

qüvvələrini işğal edilmiş Azərbaycan ərazilərindən çıxarmaq istəmir. Təcavüzkarın aqressiv separatizmi dəstəkləməsi və davakar millətçilik siyasətindən əl çəkməməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması yolunda başlıca maneədir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü böyük insan tələfatı, ağır maddi və mənəvi itkilərə səbəb olmuşdur. Ermənistan ərazisində yığcam yaşayan 250 min azərbaycanlı 1988-ci ildən başlanmış etnik təmizləmələr və zorakılıq hərəkətləri nəticəsində deportasiya edilmiş, onların yaşadıqları bölgələrdə toponimlər süni şəkildə ermənilşdirilmiş, maddi mədəniyyət abidələri məhv edilmişdir. Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisinin 20 faizini işğal etməsi həmin torpaqlarda yaşayan 700 minədək azərbaycanlının məcburi köçkün vəziyyətinə düşməsinə, 20 mindən çox insanın həlak olmasına, 50 min nəfərin xəsarət almasına səbəb olmuşdur. Erməni əsirliyində saxlanılan 783 azərbaycanlının taleyi haqqında isə hələ də heç bir məlumat verilmir. 1992-ci ilin fevralında azərbaycanlıların ən qədim tarixi məskənlərindən biri olan Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən amansızlıqla dağıdılmış, qocalar, qadınlar və uşaqlar da daxil olmaqla, 600 nəfərdən çox insan işgəncələrlə qətlə yetirilmişdir. Xocalı soyqırımı daim özlərini dünya ictimaiyyətinə məzlum göstərməyə çalışan erməni millətçilərinin riyakarlığını, insanlıq və bəşəriyyət əleyhinə cinayətlərini bir daha açıb göstərmişdir.

Hərbi təcavüz zamanı 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min inzibati bina, 693 məktəb, 855 uşaq bağçası, 695 sağlamlıq mərkəzi, 44 məbəd, 9 məscid, 9 tarixi yer, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 2300 km su kəməri, 2000 km qaz kəməri, 15 min km elektrik xətti, 280 min hektar meşə, 1 milyon hektar əkin sahəsi, 1200 km irriqasiya sistemi dağıdılaraq məhv edilmişdir. Dağlıq Qarabağ və onun ətrafındakı işğal olunmuş ərazilər nəzarətsiz zonaya və transmilli cinayətkar qruplar üçün əlverişli dayaq nöqtəsinə çevrilmişdir.

Ermənistan terroru dövlət siyasəti səviyyəsinə qaldıraraq, xüsusi xidmət orqanları vasitəsilə hərbi əməliyyatların keçirilmədiyi Azərbaycan şəhərlərində də böyük insan tələfatı ilə nəticələnən terror aktları törətmişdir.

Təcavüzün Azərbaycan xalqına vurduğu ən ağır zərbələrdən biri də onun zəngin mədəni irsinə dəymişdir. Xalqımızın qədim tarixi izlərinin məhvinə yönəlmiş məqsədli vandalizm aksiyaları nəticəsində işğal olunmuş ərazilərdə bəşər sivilizasiyasının tərkib hissəsi olan memarlıq abidələri, o cümlədən Kəlbəcər, Şuşa və Ağdam rayonlarının tarix-diyarşünaslıq muzeyləri, Zəngilandakı daş abidələr muzeyi dağıdılmış, Şuşadakı XVIII əsrə aid ikiminarəli "Gövhər ağa" məscidi zədələnmiş, digər məscidlər isə yandı-

rılaraq yerlə-yeksan edilmişdir. Xocalıda tunc dövrünə aid 100-dən çox abidə yer üzündən silinmiş, qiymətli kitablar və əlyazmalar oğurlanmışdır. Ümumilikdə, işğal altında olan rayonlarda 442 tarixi memarlıq abidəsi, 22 muzey, 927 kitabxana, 85 uşaq musiqi məktəbi, 4 teatr, 4 incəsənət qalereyası, 2 konsert salonu, 1852 mədəniyyət və incəsənət mərkəzi və başqa mədəniyyət ocaqları dağıdılmışdır. Muzeylərdəki 40 minədək eksponatın bir hissəsi məhv edilmiş, digər hissəsi isə oğurlanaraq, qanunsuz yollarla xarici ölkələrə daşınmışdır. Nadir incəsənət nümunələri olan eksponatlar hazırda müxtəlif ölkələrin, o cümlədən Ermənistanın muzeylərində "erməni xalqına məxsus sənət inciləri" kimi nümayiş etdirilməkdədir. Ermənilərin Dağlıq Qarabağın tarixini saxtalaşdırmaq, özlərinin guya Qarabağın yerli əhalisi olduğunu əsaslandırmaq məqsədi ilə işğal etdikləri Şuşa şəhəri ətrafında qanunsuz arxeoloji qazıntılar aparmaq planları böyük narahatlıq doğurur.

Ermənistan Respublikasının ölkəmizə qarşı işğalçılıq müharibəsinin vurduğu yaraları sağaltmaq, müstəqil dövlətini yaşadıb inkişaf etdirmək üçün Azərbaycan xalqına sülh lazımdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Nizamnaməsi, ATƏT-in prinsipləri və beynəlxalq hüquq əsasında aradan qaldırılması, işğalçı qoşunların ölkəmizin ərazisindən çıxarılması, dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa edilməsi, qaçqın və köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması Ermənistanla Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaratmağa, erməni və Azərbaycan xalqlarının normal qonşuluq münasibətlərini bərpa etməyə imkan verərdi.

15 ildən çoxdur davam edən münaqişə, təbii ki, bölgədə demokratik inkişaf prosesini ləngidir və təkcə Azərbaycana və Ermənistana deyil, həm də bütün Cənubi Qafqaza mənfi təsir göstərir. Münaqişənin həlli məsələsində ölkəmizin tutduğu mövqe tamamilə ədalətli olub hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslanır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Beynəlxalq hüquq isə tamamilə Azərbaycanın tərəfindədir.

Qeyd etmək lazımdır ki, millətlərin öz müqəddəratını təyin etmək hüququ var, ərazilərin isə belə bir hüququ yoxdur. Dağlıq Qarabağ milləti yoxdur, erməni milləti mövcuddur. Onlar da öz müqəddəratını təyinetmə hüququndan çoxdan istifadə edib öz dövlətlərini qurublar. Digər tərəfdən, milli müqəddəratı təyinetmə hüququ 1918-ci ildən meydana çıxıb, dekolonizasiya dövründə işlənib. Bu hüquqa əsasən, Qərb dövlətlərinin müstəmləkəsi olan Asiya və Afrika dövlətləri ötən əsrin 70-ci illərinədək həmin hüquqdan istifadə edib öz müstəqilliklərinə nail olublar. Qarabağ isə heç vaxt Azərbaycanın müstəmləkəsi olmayıb, heç vaxt azərbaycanlıların işğalına məruz qalmayıb və hətta Rusiya 1805-ci ildə Qarabağı işğal edərkən oranın xanı azərbaycanlı İbrahimxəlil xanla Kürəkçay müqaviləsini imzalayıb. Ermənilər bu ərazidə daim milli azlıq olublar. Qərb dövlətləri isə heç vaxt müstəmləkə xalqlarının müstəsna hüququ olan öz müqəddəratını təyinetmə hüququnu milli azlıqlara aid etməyiblər. Dekolonizasiya dövrü başa çatdıqdan sonra bu hüquqi termin Qərbin leksikonunda öz vətəndaşlıq hüququnu itirib. Təsadüfi deyil ki, SSRİ-nin dağılması ərəfəsi və ondan sonrakı dövrdə öz müqəddəratını təyinetmə hüququ barədə bir konvensiya belə imzalanmayıb. Çünki söhbət dekolonizasiyadan deyil, sərhədləri dəqiq bəlli olan respublikaların öz hüquqlarını müharibəsiz bərpa etməsindən gedirdi. Bu dövlətlərdəki milli azlıqların hüququ isə ərazi toxunulmazlığı çərçivəsində həll oluna bilərdi. Məhz buna görə bu dövrdə milli azlıqların hüquqlarının müdafiəsi barədə xeyli sənəd qəbul edilir: Kopenhagen deklorasiyası (1990-cı il, iyun), Paris Xartiyası (1990-cı il, noyabr), Avropa Şurası ölkələrinin qəbul etdiyi milli azlıqların hüquqlarının qorunması barədə Avropa Konvensiyası (1991-ci il, fevral) və s. Bütün bu sənədlərdə söhbət milli azlıqların hüquqlarının ərazi toxunulmazlığı çərçivəsində qorunmasından gedir.

Ermənistan dövlətinin sülh danışıqları prosesində tutduğu qeyri-konstruktiv mövqe, Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi, öz ərazisində xarici hərbi bazalar yerləşdirməsi, ordusunu ən müasir dağıdıcı hücum silahları ilə təmin etməsi, atəşkəs rejimini tez-tez, son vaxtlar isə, demək olar, hər gün pozması nizamasalma prosesini ləngitməyə və mürəkkəbləşdirməyə yönəldilmişdir. ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə apardığı yoxlama nəticəsində müəyyən edilmişdir ki, həmin ərazilərdə 15 mindən çox erməni qeyri-qanuni məskunlaşdırılmışdır.

Eyni zamanda, işğal edilmiş ərazidə yaradılmış separatçı-terrorçu rejimə qanuni don geydirməyə cəhdlər göstərilir, oyuncaq qurumun "hakimiyyət orqanlarına" vaxtaşırı "seçkilər" keçirilir. Təcavüzkarın həyasızlığı o həddə çatıb ki, "Dağlıq Qarabağ respublikasının prezidenti" adlı vəzifə təsis edib onu leqallaşdırmağa çalışır.

Dağlıq Qarabağ bölgəsində və işğal edilmiş digər ərazilərdə qanunsuz əməliyyatlar keçirilir. Burada xüsusən silah və insan alveri aparılması, radioaktiv tullantıların basdırılması, təbii sərvətlərin vəhşicəsinə talanması, narkotik bitkilərin becərilməsi, emalı və nəqli, habelə narkotik vasitələrin istehsalından əldə edilən gəlir hesabına terrorçu dəstələrin və qanunsuz silahlı birləşmələrin hazırlanması ciddi narahatlıq doğurur. Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon indi müxtəlif beynəlxalq terror təşkilatlarının fəaliyyət zonasına çevrilmişdir.

Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdən biri də

Ermənistan cəmiyyətində zorakılıq xofunun hökm sürməsi, yad fikirlərə, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi barəsində rəsmi mövqedən fərqlənən baxışlara dözümsüzlük əhval-ruhiyyəsinin mövcud olmasıdır. 1999-cu ildə ATƏT-in İstanbul sammiti ərəfəsində Ermənistanda müasir dünya tarixində rast gəlinməyən, hətta qatı irticaçı rejimlərin hakimiyyətdə olduğu ölkələrdə belə baş verməyən hadisə - silahlı şəxslərin parlamentin iclas salonuna daxil olaraq parlamentin və hökumətin bir sıra rəhbər vəzifəli şəxslərini güllələməsi çox mətləblərdən xəbər verir.

Son bir ildə bəzi nüfuzlu beynəlxalq təşkilatlar münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində müəyyən qərarlar qəbul etmişlər. 2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının iclasında AŞ PA-nın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini əks etdirən 1416 nömrəli qətnamənin qəbul edilməsi münaqişənin tənzimlənməsi üçün göstərilən beynəlxalq səylərə sanballı töhfə olmuşdur. Qətnamədə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və həmin ərazilərdə etnik təmizləmə aparılması faktları öz əksini tapmışdır. Digər tərəfdən, Avropa Şurasının üzvü olan dövlət tərəfindən xarici ərazilərin işğalının həmin dövlətin təşkilat qarşısında götürdüyü öhdəlikləri ciddi surətdə pozduğu bəyan edilmiş, güc vasitəsilə ilhaq cəhdi rədd olunmuş, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinad edilmiş, silahlı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması zərurəti göstərilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir. Bu tələblər AŞ PA-nın 2005-ci il 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır. ATƏT-in faktaraşdırıcı missiyası nümayəndələrinin 2005-ci ilin martında Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı orada ermənilərin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırıldığı təsdiq olunmuş və bu fakt təşkilatın yekun hesabatında özünə yer almışdır.

Təəssüf ki, münaqişənin nizamlanması üçün xeyli səylər göstərilməsinə baxmayaraq, indiyədək bu sahədə əsaslı irəliləyişə nail olunmamışdır. Münaqişənin aradan qaldırılması üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən səmərə verməmiş, Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərində prinsipial məsələlər üzrə razılıq əldə etmək mümkün olmamışdır. Beynəlxalq təşkilatların, vasitəçi dövlətlərin siyasi iradə nümayiş etdirməməsi, qətiyyətsiz mövqe tutması, bəzən də ikili standartlardan çıxış edib işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri münaqişənin tezliklə və dinc yolla nizamlanmasını çətinləşdirmişdir.

Ərazisinin 20 faizinin işğal altında olmasına, 1 milyondan çox azərbaycanlının qaçqın və köçkün vəziyyətində yaşamasına baxmayaraq, Azərbaycan Respublikası Ermənistanın ölkəmizə təcavüzünün nəticələrinin dinc vasitələrin köməyi ilə aradan qaldırılmasına çalışır. Dövlətimiz beynəlxalq təşkilatlar qarşısında götürdüyü müvafiq öhdəliyə sadiq qalaraq, bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak edir. Münaqişənin həlli məsələsində ölkəmizin tutduğu mövqe tamamilə ədalətlidir və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına əsaslanır. Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizin ərazisindən çıxarılması, işğal olunmuş torpaqların azad edilməsi, dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa edilməsi, qaçqın və köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması barədə Azərbaycanın tələbləri BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Budapeşt, Lissabon və İstanbul sammitləri qərarlarının, Avropa Şurasının sənədlərinin ruhuna və mətninə tam uyğundur. Eyni zamanda Azərbaycan Praqa görüşləri zamanı əldə edilmiş irəliləyişləri pozmaq üçün Ermənistan tərəfinin göstərdiyi aşkar cəhdlərdən narahat olduğunu bildirmişdir. Bu cəhdlər baş verən hadisələrin mahiyyətini və qiymətləndirilməsini ənənəvi olaraq saxtalaşdıran və təhrif edən Ermənistan rəhbərliyinin bəyanatlarında aydın görünür. Lakin unutmaq olmaz ki, uzunmüddətli sülh özbaşınalıq və tarixi saxtalaşdırmaq əsasında deyil, ancaq hüquq və ədalət prinsiplərinin sağlam bünövrəsi üzərində yaradıla bilər.

"Ümummilli lider Heydər Əliyev və milli dövlətçiliyimizin inkişafı məsələləri"
Bakı, 2006-cı il s. 7-44

Bir daha "907-ci düzəliş" haqqında

Ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenidən qazanmış Azərbaycan birdən-birə mürəkkəb beynəlxalq münasibətlər sisteminə atıldı. Çoxəsrlik tələtümlü tarixi boyu dəfələrlə dövlətini yaratmış, lakin onun dönməzliyini təmin edə bilməyən xalqımız XX əsrin son onilliyində bir daha sınağa çəkildi. Lakin bu sınaq əvvəlkilərdən, şübhəsiz ki, daha çətin idi. Sınaqdan çıxmaq üçün Azərbaycan bütün imkanlarını cəmləşdirib onlardan maksimum istifadə etməli, ən optimal yolu seçərək özünütəsdiqə nail olmalı idi.

Müstəqilliyini əldə edəndən sonra Azərbaycan Respublikasını ilk tanıyan, ona əlini uzadan dövlətlərdən biri ABŞ oldu. 1992-ci ilin fevral ayında Bakıya səfər edən ABŞ Dövlət katibi C.Beykerin əsas məqsədi öz ölkəsinin Azərbaycanda gedən proseslərlə maraqlandığını bildirmək, onun daxili və xarici siyasət xətti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat almaq və Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin gələcək inkişafı üçün ilk addım atmaq idi. Bu addımın davamı olaraq az sonra iki dövlət arasında diplomatik münasibətlər yaradıldı, onun ardınca da ABŞ Konqresinin nümayəndə heyəti Bakıya səfər etdi.

Güclü və məkrli düşmənlə üzləşmiş, torpaqları işğal olunmuş, əhalisi doğma yurdunda qaçqına və didərginə çevrilmiş Azərbaycanın düşdüyü vəziyyəti bütün dünyaya, ilk növbədə isə müasir dünya üsul-idarəsinin formalaşmasında mühüm rol oynayan ABŞ-a çatdırması son dərəcə vacib və zəruri idi. Elə buna görə də Azərbaycan ABŞ üçün özünün prinsipial, ardıcıl, düşünülmüş müstəqil xarici siyasətini, strateji tərəfdaş olmaq əhəmiyyətini bəyan etməli, demokratiyaya, sülhə, insan hüquq və azadlıqlarının qorunması prinsipinə əsaslanan hüquqi, dünyəvi dövlət qurmaq əzmini və istəyini sübut etməli idi. Məhz bu zamandan Azərbaycan ABŞ-ı maraqlandıran, onun müdafiə etdiyi dövlətlər sırasına çıxmağa can atmalı və çalışmalı idi.

Artıq məlum idi ki, ABŞ Azərbaycanda Cənubi Qafqazda mühüm geosiyasi mövqeyi, bölgənin ən zəngin və perspektiv inkişaf imkanları olan ölkə kimi baxır, onun gələcək müttəfiq və tərəfdaş olmaq imkanlarını nəzərdən keçirirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycana erməni təcavüzü də ABŞ-ın diqqətindən kənarda qalmamışdı. Dövlət Departamentinin rəsmi nümayəndəsi 1992-ci ilin mayında bildirmişdi ki, onun ölkəsi Azərbaycan ərazilərində döyüş əməliyyatlarının gücləndirilməsini qətiyyətlə pisləyir və hər hansı ərazi statusunun zor prinsipi ilə dəyişdirilməsi ilə razılaşmayacaq.

Beləliklə də münaqişənin aradan qaldırılmasının beynəlxalq normalar

əsasında, danışıqlar vasitəsilə həll edilməsinə işarə edən Vaşinqton Azərbaycanın o zamankı rəhbərlərin öz xarici siyasətinin əsas prioritet və istiqamətlərini müəyyənləşdirməyin, ardıcıl və prinsipial mövqe tutmağın məqamı olduğunu anlatmağa çalışırdı. Lakin təəssüflər olsun ki, o zaman müstəqil xarici siyasət xətti olmayan Mütəllibov hakimiyyəti bu münasibətdən heç bir nəticə çıxarmadı. Nəticədə isə ABŞ-ın bölgədəki iqtisadi və siyasi maraqları ilə əlaqələndirilməli, Azərbaycanın müstəqil dövlətçilik və təhlükəsizlik problemlərinin həllini ABŞ və Avropa dövlətlərinin bu mühüm geostrateji məkanda təmsil olunan maraqları ilə uzlaşdırılmalı olan xarici siyasət əvəzinə, Mütəllibov hakimiyyəti, sonra isə AXC-Müsavat iqtidarı Azərbaycanın tam təklənməsinə və beynəlxalq rəyin sürətlə onun əleyhinə çevrilməsinə şərait yaradan siyasət yeritdi.

1992-ci ilin may ayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyindən – AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlişindən sonra ABŞ-ın rəsmi dairələri bir daha geostrateji əhəmiyyəti olan Azərbaycanla geniş əlaqələr yaratmağa, bölgədə gedən ictimai-siyasi və hərbi proseslərə fəal müdaxilə etməyə cəhd göstərdilər. Bu məqsədlə 1992-ci ilin iyul ayında ATƏM-in Helsinki sammiti ərəfəsində ABŞ Prezidenti Corc Buş Azərbaycan Prezidentinə məktubla müraciət etdi və öz ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələr yaratmağa və münasibətləri inkişaf etdirməyə hazır olduğunu bildirdi. Təəssüflər olsun ki, həmin vaxt hakimiyyətdə olan cəbhə-müsavat rəhbərləri də öz sələflərindən uzağa gedə bilmədilər və ABŞ-ın bu təşəbbüsünə lazımi qiymət vermədilər.

Özündən razı cəbhə "diplomat"ları hesab edirdilər ki, guya Azərbaycanın müstəqil dövlətçilik maraqları və Rusiyanın bölgədəki təsirini zəiflətmək istəyi elə bir əhəmiyyət kəsb edir ki, Azərbaycanın bütün problemlərini ABŞ və Avropa dövlətləri özləri həll edəcək. Onlar sadəcə olaraq Rusiyanı qəbul etməməklə öz işlərini bitmiş, qalan məsələlərin, o cümlədən də Ermənistanın təcavüzünün və Dağlıq Qarabağ probleminin həllini isə ABŞ-ın, Avropa dövlətlərinin və beynəlxalq təşkilatların borcu hesab edirdilər. Odur ki, cəbhə-müsavat hakimiyyəti 1992-ci ilin iyulunda keçirilən ATƏM-in Helsinki sammitində ABŞ-ın dəstəyindən istifadə edə bilmədilər, Dağlıq Qarabağ problemini və Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü məsələsini sammitin gündəliyinə salmağa belə cəhd göstərmədilər.

Bu azmış kimi, onlar avantürist bir addım ataraq, guya Ermənistanı blokada yolu ilə Azərbaycana qarşı təcavüzdən çəkindirmək məqsədilə Bakı-Yerevan dəmir yolunu bağladılar. Bütün bu proseslər ilk addımlarını atan Azərbaycan dövlətini nəinki çıxılmaz vəziyyətə saldı, eyni zamanda vəziyyət o yerə çatdı ki, cəbhə-müsavat hakimiyyətinin yarıtmaz xarici

siyasət fəaliyyəti ABŞ-da Azərbaycana qarşı olub qalan marağı, Azərbaycanın Qafqazda və bütövlükdə regionda kəsb etdiyi əhəmiyyəti də heçə endirdi. Hətta rəsmi Vaşinqtonda Azərbaycana qarşı cəza tətbiq etməyə imkan verdi. Beləliklə bu yarıtmaz siyasətin nəticəsi olaraq 1992-ci ilin oktyabr ayının 24-də ABŞ Konqresi Azərbaycan hər cür hökumət yardımının göstərilməsini qadağan edən "907-ci düzəlişi" qəbul etdi. Xalq Cəbhəsi hakimiyyətinin günahı nəticəsində yaranmış bu vəziyyət onun tərəfindən Azərbaycana qarşı törədilmiş böyük cinayət idi.

Düzəlişdə deyilirdi ki, Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı blokadanı aradan qaldırmaq sahəsində nümayişkaranə addımlar atıldığı müəyyən edilməyincə və müvafiq surətdə Konqresə məlumat verilməyincə bu akta və ya digər akta görə ABŞ hökumətinin Azərbaycan hökumətinə hər cür yardımı qadağan edilir. Müstəqil dövlətçilik yolunda ilk addımlarını atan və zorla müharibəyə cəlb olunmuş gənc Azərbaycan dövləti üçün bundan ağır zərbə təsəvvür etmək çətin idi.

Beləliklə, bir tərəfdən cəbhə-müsavat iqtidarının Azərbaycanın ABŞ üçün kəsb etdiyi əhəmiyyəti düzgün qiymətləndirməməsi, Azərbaycanın maraqlarının ABŞ üçün hələlik adi mülahizədən başqa bir şey olmaması, digər tərəfdən isə ABŞ-da etibarlı dayaq və güclü təsir mexanizmlərinə və təşkilati strukturlara malik erməni lobbisinin fəaliyyətinə lazımi qiymət verməməsi Azərbaycanı 1992-ci ilin sonunda çox ağır vəziyyətə saldı. Hərtərəfli iqtisadi və siyasi yardıma ehtiyacı olan Azərbaycan yarıtmaz xarici siyasət nəticəsində təkcə ABŞ-ın deyil, eyni zamanda Vaşinqton ilə bağlı olan və bütün beynəlxalq məsələlərdə onunla hesablaşan digər ölkələrin də dəstəyindən məhrum oldu. Bununla da Azərbaycan nəinki təkcə bölgədə, eyni zamanda beynəlxalq aləmdə təkləndi, haqq işi uğrunda apardığı mübarizədə ölkəmiz dünya dövlətlərinin dəstəyini qazanmış erməni irticası ilə üz-üzə qaldı.

Eyni zamanda cəbhə-müsavat hakimiyyətinin nümayəndələri məsuliyyətsiz bəyanat və sərsəm şüarlarla çıxış edərək ölkəni görünməmiş təzyiq və təxribatlar məngənəsinə saldığından, daxildə baş alıb gedən özbaşınalıq və hərc-mərcliyə nəzarət edə bilmədiyindən Azərbaycan yenidən məhv olmaq təhlükəsi ilə üzləşdi. Dünya siyasi səhnəsində mövcud meyllərdən xəbəri olmayan, beynəlxalq prosesləri və onların mahiyyətini düzgün başa düşə bilməyən bu lovğa, sərişdəsiz, bəzən lap primitiv təfəkkürlü siyasətbazlar qısa bir zaman kəsiyində Azərbaycanı elə bir uçuruma yuvarladılar ki, oradan çıxmaq üçün uzun illər lazım idi.

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra həm coğrafi baxımdan ən əlverişli bölgədə yerləşdiyinə, həm zəngin yeraltı sərvətlərə malik, üstəlik də Avrasiya kommunikasiya arteriyalarının keçdiyi ölkə

olduğundan, dünyanın, demək olar ki, bütün böyük dövlətlərinin geosiyasi və strateji maraqlarının kəsişdiyi bir məkan idi. Lakin düşdüyü vəziyyət onun ayağa qalxması, özünü təsdiq etməsi üçün təsəvvürə gəlməz maneələri dəf etməyi tələb edirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini siyasi hakimiyyəti qəsb etmək üçün vasitəyə çevirən cəbhə-müsavat hakimiyyəti özlərindən sonra elə bir miras qoyub getdi ki, onun ağrılarını xalq bu gün də çəkməkdədir.

"907-ci düzəliş"in Konqres tərəfindən qəbul edilməsi müstəqilliyini yenicə elan etmiş Azərbaycana ABŞ-ın maliyyə və humanitar yardıma qadağa qoyması ilə yanaşı, ölkəmizi onun siyasi dəstəyindən də məhrum etdi. Xalq Cəbhəsi hakimiyyətindən sonra isə Azərbaycanda gedən dövlət quruculuğu, demokratik proseslər və iqtisadi islahatların həyata keçirilməsinə öz mənfi təsirini göstərdi. "907-ci düzəliş"in qəbul olunması elə bir situasiya yaratdı ki, torpaqlarımızı işğal etməklə bərabər erməni tərəfi həm də diplomatik dəstək aldı. Beləliklə, Heydər Əliyev hakimiyyətə xalq tərəfindən çağırılan dövr ərəfəsində vəzirov - mütəllibovların qul xisləti nəticəsində itirdiklərimizə cəbhə-müsavat iqtidarının səriştəsizliyi, vəzifəsi hərisliyi üzündən yeni ağır problemlər əlavə edildi. Düzəliş qəbul edilən vaxtdan bəri Ermənistan və ABŞ-da fəaliyyət göstərən erməni lobbisi onların tərəfdarları bu maddədən Azərbaycana qarşı bütün sahələrdə əsas təzyiq vasitəsi kimi istifadə edirlər.

İndi özlərini milli və siyasi lider mantiyasında görmək üçün dəridən-qabıqdan çıxan, ümummilli və dövlətçilik mənafelərini kürsü xiffətinə qurban verən bu siyasətbazlar o vaxt "907-ci düzəliş"in qarşısını almaq üçün heç nə etmədilər. Qeyd edildiyi kimi, ATƏM-in 1992-ci ilin iyulunda keçiriləcək Helsinki sammiti ərəfəsində ABŞ prezidenti C.Buş Əbülfəz Elçibəyə məktubla müraciət edərək öz ölkəsinin Azərbaycanla bütün sahələrdə sıx əməkdaşlığa və qarşılıqlı münasibətlərin hər tərəfli inkişafına hazır olduğunu bildirmişdi. Düşünmək olardı ki, özlərini görkəmli siyasi xadimlər sayan bu adamlar əllərinə düşən tarixi imkandan istifadə edəcək və Ağ Evin diqqətini heç olmasa Dağlıq Qarabağ məsələsində yol verilən ədalətsizliyə yönəldəcəklər. Lakin bəslənilən ümidlər özünü doğrultmadı. Həm yüksək və mötəbər tribunadan Azərbaycanı xeyrinə istifadə etmək imkanı əldən buraxıldı, həm də ABŞ prezidentinə regiondakı mürəkkəb vəziyyət haqqında dəqiq və hərtərəfli məlumat vermək fürsəti qaçırıldı.

Nəticədə isə cəbhə-müsavat iqtidarının Azərbaycan dövləti qarşısında "tarixi xidmət"lərindən biridə bədnam "907-ci düzəliş" oldu. Bu düzəliş, əslində, o zaman yürüdülən məntiqsiz, qeyri-ardıcıl, populist və prinsipsiz siyasətin "meyvəsi" idi. Acı təəssüflə qeyd etmək lazımdır ki, gənc Azərbaycan dövlətinə belə "töhfə"lər çox olub. Elə indinin özündə də Azərbay-

can Prezidenti Heydər Əliyevin titanik səyləri onların bir hissəsi aradan qaldırılsa da, hələ belə mirasların nəticələrindən canımızı qurtarmaq üçün çox vaxt lazımdır.

1993-cü ilin yanvarında Bill Klintonun ABŞ-da yeni seçilmiş prezident kimi vəzifəsinə başladığı dövrdə Azərbaycan-ABŞ münasibətləri kifayət qədər gərgin idi. Artıq Azərbaycana, islam fanatizminə yuvarlanan, erməni və digər xristianları soyqırımına məruz qoyan insan hüquqlarını pozan, rəsmi dövlət adamlarının hansı siyasət yürütdükləri bəlli olmayan, qonşu dövlətlərə qarşı düşünülməmiş bir addım atan bir dövlət kimi baxır, onun sülh və demokratiyaya can atmasına şübhə ilə yanaşırdılar. Belə bir münasibət Azərbaycan dövləti üçün məhvə məhkum olmağa bərabər idi. Buna isə heç cür imkan vermək olmazdı.

Həmin vaxt Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin başını alan təhlükəni gözəl anlayan Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev ABŞ prezidenti B.Klintona məktub göndərdi. Məktubda B.Klintonu təbrik edən Heydər Əliyev ümidvar olduğunu bildirdi ki, o, müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək bölgədə münaqişənin həllinə nail olmaq üçün ABŞ dövlətinin bütün imkanlarından istifadə edəcəkdir. Heydər Əliyevin məktubuna Ağ Ev tezliklə reaksiya verdi. 1993-cü ilin yanvarında ABŞ və Rusiya prezidentləri Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bəyanat verərək münaqişəni nizama salmaq üçün tezliklə ATƏM-in Minsk konfransının çağırılmasına tərəfdar olduqlarını bildirdilər.

Bunun ardınca ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls Naxçıvanda Heydər Əliyevlə görüş zamanı B.Klintonun bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığını çatdırmaqla yanaşı Naxçıvana təcili humanitar yardım göstərilməsi haqqında qərarını da bəyan etdi. Az keçmədən Azərbaycana hər cür yardımı qadağan edən "907-ci düzəliş"ə baxmayaraq ABŞ-ın humanitar yardımla yüklənmiş təyyarəsi Naxçıvana endi. Bu hadisə Azərbaycan-ABŞ əlaqələrində gərginliyin yumşadılmasına və aradan qaldırılmasına yönələn ilk addım kimi gələcək münasibətlərə də öz müsbət təsirini göstərdi.

1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlanan Azərbaycan-ABŞ dialoqu və Azərbaycanın düşünülmüş, əsaslandırılmış, müdrik xarici siyasət xətti isə iki ölkə arasındakı münasibətlərə yeni nəfəs verdi.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev 1993-cü ilin sentyabr ayında ABŞ prezidenti B.Klintona, vitse-prezidenti A.Qora və Konqresin spikeri T.Foliyə məktub göndərərək ABŞ Konqresi tərəfindən qəbul edilmiş "907-ci düzəliş"in ədalətsiz olduğunu əsaslandırmış və Azərbaycan barəsində ayrıseçkilik ləğv olunması üçün tədbirlərin görülməsini xahiş etmişdir.

Prezident Klintonun cavab məktubunu Heydər Əliyevə ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri S.Talbott təqdim etmişdir. Məktubda B.Klinton Azərbaycan torpaqlarının işğalını qətiyyətlə pisləyərək münaqişə ilə bağlı narahatlığını bildirməklə bərabər, "907-ci düzəliş"in qüvvədə olmasına baxmayaraq Azərbaycana qeyri-hökumət təşkilatları xətti ilə ciddi kömək göstəriləcəyinə söz verildi. Həmin ilin oktyabrında ABŞ Dövlət Departamentinin bəyanatında isə işğal olunmuş bütün ərazilərdə hərbi qüvvələrin çıxarılması tələbi, Azərbaycan müvafiq yardım göstərilməsi çağırışı ilə bütün dünya dövlətlərinə müraciətdə öz əksini tapmışdır.

Bütün bunlar göstərir ki, ermənilərin ötən illər ərzindən Azərbaycana qarşı məqsədyönlü şəkildə apardıqları xarici siyasət kampaniyasının respublikamız üçün törətdiyi ağır nəticələri Heydər Əliyevin uzaqgörən və çevik diplomatik fəaliyyəti nəticəsində artıq aradan qalxmağa başladı. Onun geniş miqyaslı səyləri ilə Azərbaycan az bir müddət ərzində dünyanın ən nüfuzlu dövlətləri ilə ikitərəfli münasibətlər yarada bildi, ABŞ-la münasibətləri isə xarici siyasətimizin əsas istiqamətlərindən birinə çevrildi.

Qeyd etmək lazımdır ki, 1993-cü ilin oktyabr ayında prezident seçildikdən sonra Heydər Əliyevin qarşısında başqa yeni yaranmış dövlətlərdən fərqli olaraq daha mürəkkəb, daha çətin vəzifələr durdu. Elə bu imtahanın sınağından uğurlu çıxmağın özü də, problematik olaraq zaman tələb edirdi. Azərbaycanda Heydər Əliyev üçün miras qalmış Ermənistan-Azərbaycan münaqişəsi, "907-ci düzəliş" və bunlar qədər də mühüm başqa problemlər ölkəni tamamilə çıxılmaz vəziyyətə salmışdı. Ümumiyyətlə, vurğulamaq lazımdır ki, müstəqilliyinin elan olunması ərəfəsində və ondan iki il sonrakı dövrdə Azərbaycanda üzdəniraq rəhbərlərin səriştəsiz və xəyanətkar əməlləri olmasaydı haqqında söhbət açdığımız və bu sıradan olan taleyüklü problemlər əmələ gəlməzdi. Azərbaycan onsuzda axırı çətin müstəqillik yolunu nisbətən asan və daha uğurla keçərdi. Elə bu səbəbdən də bu illər ərzində Azərbaycan Prezidenti Heydər Əliyevin yorulmaz və gərgin fəaliyyətinin əsas hissəsini "907-ci düzəliş" və bu cür ağır problemlərin aradan qaldırılmasına yönəlmiş səyləri təşkil etmişdir.

Bu yönümdə görülən işlər, aparılan fəaliyyət ayrıca mövzunun obyekti olsa da respublika əhalisinin bu barədə geniş məlumatı var. Sadəcə olaraq qeyd etmək lazımdır ki, Prezident Heydər Əliyevin çoxsaylı səfərləri, bu səfərlər zamanı və eləcə də ölkəmizdə onlarla dövlət başçıları, siyasi xadimlər, konqresmenlər, senatorlar, iş adamları və başqaları ilə keçirilən görüşlərdə "907-ci düzəliş"in aradan götürülməsi istiqamətində həyata keçirdiyi səylər öz nəticəsini verməyə bilməzdi. Azərbaycan Prezidenti nəhayət, həm Ağ Ev administrasiyasını, həm də ABŞ ictimaiyyətini inandıra bildi ki, bu maddə ABŞ demokratiyasına, ədalət, insanpərvərlik və huma-

nizm prinsiplərinə, nəhayət isə strateji əməkdaşlıq münasibətləri quran dövlətlərimizin ümummilli maraqlarına ziddir.

Belə bir məqsədyönlü fəaliyyətin nəticəsidir ki, 1992-ci ilin oktyabrında heç bir maneə, əks təsir görmədən ABŞ Konqresi tərəfindən yekdilliklə qəbul edilmiş "907-ci düzəliş"in 1998-1999-cu illərdə ki, müzakirələrində Nümayəndələr Palatasında onun götürülməsi üçün səsvermə zamanı cəmi 28 səs, Senatda isə "İpək Yolu Strategiyası" layihəsinin yenə bu maddənin götürülməsi məqsədi ilə aparılan müzakirələrdə cəmi 5 səs çatmadı. Bütün bunlar göstərir ki, ABŞ-da "907-ci düzəliş"in saxlanması istiqamətində var qüvvəsi ilə canfəşanlıq edən erməni lobbisi və diasporunun, eləcə də onları dəstəkləyənlərin səylərinə baxmayaraq Azərbaycanın tərəfdarlarının sayı günbəgün artmaqda idi.

Bununla belə, ötən illər ərzində Azərbaycanda fəaliyyət göstərən müxalif qüvvələrin və onların kütləvi informasiya vasitələrinin "907-ci düzəliş"in qüvvədə qalması haqqında tez-tez yanlış, əsassız materiallar vermələri, sanki bundan patoloji həzz almaları heç bir məntiqə sığmır və acı təəssüf doğururdu. İş o yerə çatmışdı ki, "907-ci düzəliş"in qüvvədə qalmasını əsaslandırmaq üçün, yəni Azərbaycanın guya Ermənistanı blokadada saxlaması kimi cəfəng fikri müdafiə etmək məqsədi ilə Nümayəndələr Palatası və Senatda toplaşan ermənipərəst konqresmen və senatorlar Azərbaycandakı bir sıra müxalif qrup və partiyaların ölkə haqqında onlara çatdırılmış böhtan xarakterli məlumatlarına tez-tez istinad edirdilər. "İpək Yolu Strategiyası" layihəsinin Senatdakı müzakirəsi belə bir acınacaqlı halın bariz nümunəsi oldu. Deyilənlər bir daha göstərir ki, müxalifət liderləri vaxtilə özlərinin yaratdığı problemlərdən Dağlıq Qarabağ münaqişəsi, "907-ci düzəliş", qaçqınların vəziyyəti və s-dən bu gün də siyasi kart kimi hakimiyyət kürsüsünə qalxmaq üçün istifadə edir və belə iyrənc üsullardan çəkinmək istəmirlər.

Bir sıra qrup və partiyaların korporativ maraqlardan çıxış etməsinə, Azərbaycanda baş verən hadisələrə, buradan gedən proseslərə qara gözlükdən baxaraq yalnız hakimiyyət kürsüsünə çatmaq niyyətləri çərçivəsində şərh edərək əsaslandırmaq cəhdlərinə baxmayaraq bu gün xalq ölkə Prezidenti Heydər Əliyevə inanır, ona etibar edir və bilir ki, Azərbaycanın müstəqilliyi, dövlətçiliyinin möhkəmlənməsi və bu nailiyyətlərin dönməz və sarsılmaz olması onun bütün həyat və fəaliyyətinə hakim olmuş ideyadır. Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti bir daha sübut etdi ki, Azərbaycanın ABŞ-ın dövlət yardımları olmadan da yaşamaq, islahatlar aparmaq, demokratik prosesləri inkişaf etdirmək, beynəlxalq və Avropa strukturlarına, inteqrasiya olmaq, bir sözlə, irəliləmək imkanları onunla müqayisə ediləcək ölkələrdən heç də az deyil.

Həyat özü bunu sübut edir.

Ötən il sentyabr ayının 11-də ABŞ-da törədilən dəhşətli terror aktları beynəlxalq münasibətlər sistemində yeni bir mərhələnin başlanğıcı oldu. Hadisədən dərhal sonra Azərbaycan Prezidenti tərəddüd etmədən, qətiyyətlə ABŞ-ı müdafiə etdi və terror aktlarını birmənalı şəkildə pisləyərək terrora qarşı beynəlxalq alyansın apardığı mübarizədə bütün imkanlarını ortaya qoymaq qətiyyətini nümayiş etdirdi. Dünyanın bir sıra dövlətlərindən fərqli olaraq bir müddət susan, heç bir mövqe nümayiş etdirməyən Ermənistan bu gün riyakarlıqla prosesləri saxtalaşdırır, bu ölkənin tutduğu mövqe haqqında gen-bol bəyanatlar verərək, guya elə hamıdan tez reaksiya verdiklərini vurğulayırlar. Gör riyakarlıq nə dərəcəyə çatıb ki, bugünkü tarixi də saxtalaşdırmaq cəhdi Ermənistan rəsmilərinə adi şey görünür. Azərbaycanın hadisələrə operativ və qəti mövqe bildirməsi onun həyata keçirdiyi yetkin, ölçülüb-biçilmiş və əsaslandırılmış xarici siyasət xəttinin nümayişidir. Bəlkə də çoxları Azərbaycanın müsəlman ölkəsi olduğunu nəzərə alaraq belə qəti və düzgün münasibət gözləmirdilər.

Bu sətirləri yazdığım zaman "907-ci düzəliş" artıq götürülmüşdür. ABŞ prezidenti C.Buş son sənədi imzalayaraq Konqresi məlumatlandırmış və beləliklə, düzəliş 2002-ci il üçün qüvvəsini itirmişdir. Düzəlişin götürülməsi ilə bağlı aparılan fəaliyyət və keçdiyimiz mərhələlər hamıya məlumdur. Lakin bu hadisə ilə bağlı bir neçə məqamı qeyd etməyi vacib hesab edirəm.

Birincisi, ABŞ Konqresinin bu xarakterli məsələlərlə bağlı mühafizəkarlığı sanki adi hala çevrilmişdir. Doğurdan da, çox asan qəbul edilən bir qərarın götürülməsi, bir qayda olaraq, Konqresdə uzun proseduraların həyata keçirilməsini tələb edir. Cəmi bir neçə konqresmen və ya senatorun qəbul etdiyi qərar qüvvəyə mindikdən sonra, onu aradan götürmək üçün uzun illər lazım gəlir. Adi bir misal. Cekson-Veninq düzəlişi 1974-cü ildə qəbul edilib, özü də bu düzəliş SSRİ-yə qarşı olub. Lakin SSRİ-nin dağılmasından 11 il keçməsinə baxmayaraq bu Düzəlişin götürülməsi üçün səylər yalnız indi nəticə verir. Özü də bu Düzəlişin götürülməsinə qarşı kimsə çıxmır. 907-ci düzəlişin qüvvədə qalması üçün isə Ermənistan dövləti, erməni diasporları, erməni lobbisi, dünyada və ABŞ-dakı erməni təşkilatları və Konqresdəki ermənipərəst nümayəndələr əllərindən gələni etdilər. Bütün bunlara baxmayaraq 907-nin ömrü 9 il oldu. Əslində, bunu rekord qısa müddət hesab etmək olar.

İkincisi, 907-ci düzəlişin qəbul edilməsi üçün səbəb, o dövrdə guya Azərbaycanın Ermənistanı blokadada saxlaması idi. Bütün başqa hadisələr Ermənistanın Azərbaycan ərazilərinə təcavüzü, torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın və s. – sanki baş verməmişdi. 907-nin aradan gö-

türülməsinin ən diqqətçəkən və maraqlı cəhəti ondan ibarət oldu ki, bu proseslə bağlı sənədlərin heç birində blokada anlayışına rast gəlmədik. Bu, çox vacib məqamdır və əgər başa düşmək iqtidarında olsalar, ermənilərin özlərinə mənəvi və siyasi zərbədir.

Nəhayət, üçüncü məqam isə 907-ci düzəlişin qüvvədə qalması müddətidir. Təəssüflər olsun ki, bu məqamla bağlı Azərbaycanın müxalif media nümayəndələrinin bəzilərinin mövqeyi ilə üst-üstə düşür. Yəni 907-ci düzəliş yalnız bu illiyə götürülür. İlk baxışdan belə təəssürat yaranır. Lakin dünyada və regionda gedən prosesləri və Azərbaycan-ABŞ münasibətlərinin inkişaf xarakterini nəzərə alıb düzgün təhlil edə bilən siyasətçi, icmalçı, ekspert və s. yaxşı bilir ki, bundan sonra 907-nin hər il götürülməsi formal xarakter daşıyacaq. 907-ci düzəlişin qüvvədən düşməsi ilə bağlı sənəddə ABŞ-ın milli maraqlarına uyğun olduğu üçün götürülməsi ABŞ ilə Azərbaycan arasında strateji əməkdaşlıq perspektivləri ilə bağlıdır. Strateji əməkdaşlıq isə bir illə ölçülmür. Bundan nəticə çıxarmaq o qədər də çətin deyil.

Zaman özü ən böyük sınaqdır. İllər keçəcək, xalq, gələcək nəsillər bir daha əmin olacaqlar ki, indiki şəraitdə, beynəlxalq proseslərin, fövqəlqüvvələr nisbətinin indiki vəziyyətində Azərbaycan Prezidenti Heydər Əliyevin tutduğu yol, həyata keçirdiyi siyasət yeganə düzgün Yol və Siyasətdir. Bu siyasət Azərbaycanın dövlətçilik və milli maraqlarına, Azərbaycan xalqının firavan və xoşbəxt gələcəyini təmin etməyə xidmət edir.

"Respublika" qəzeti, 29 yanvar 2002-ci il

Qafqazda və Balkanlarda mövcud münaqişələrin oxşar və fərqli cəhətləri haqqında

Haqqında söhbət açdığımız mövzu, heç şübhəsiz ki, aktual və vacib olmaqla bərabər müasir dünya düzəninin ən ağrılı məsələlərindən biridir. Artıq ideoloji təməl üzərində qarşı-qarşıya duran blokların olmadığı bir dövrdə dünya ictimaiyyətini və dünya dövlətlərini ən çox narahat edən, indiki sabitliyə və təhlükəsizliyə ən böyük təhlükə mənbəyi - münaqişələr və terrorizmdir. Bu gün müqayisə müstəvisinə çıxarılmış iki münaqişəli region - Qafqaz və Balkanlar haqqında danışmaqdan əvvəl qeyd etmək lazımdır ki, Balkanlarda münaqişələrin nizamlanması istiqamətində həlledici addımlar artıq atılmış və proseslər yekunlaşmaqdadır. Lakin Qafqaz haqqında, əfsuslar olsun ki, eyni fikri söyləmək, hələlik, mümkün deyil. Elə buna görə də uzun zaman münaqişə məkanı olmuş bu iki bölgəyə nəzər salmaq çox əhəmiyyətlidir.

SSRİ dağıldıqdan sonra ermənilərin, daha doğrusu erməni millətçi və daşnak rəhbərlərinin avantürist ərazi iddiaları Qafqazda bir növ üstü örtülmüş, pöhrələnmiş yaralan yenidən açdı. Təəssüflər olsun ki, ermənilər bu dövrə qədər Avropada, dünyanın bu inkişaf etmiş hissəsində gedən prosesləri düzgün dərk edib qiymətləndirə bilmədilər. Elə kor kimi tutduqlarından yapışaraq buraxmaq istəmədilər. Və nəticədə düşünürəm ki, özləri üçün, gələcəkdə böyük problemlər yaratdılar. Əgər ermənilər Avropada II Dünya müharibəsindən sonra gedən prosesləri, dövlətlərarası münasibətləri nəzərə alsaydılar, onda indi Cənub Qafqaz həm öz təbii və insan resursları, həm kommunikasiya imkanları, həm də Qərbin köməyi sayəsində çiçəklənən, dinamik inkişafda olan bölgə olardı. Ermənistan da bu bu bölgənin bir hissəsi kimi inkişaf edərdi. Amma elə ermənilərin faciəsi də bundadır ki, onlar tarixən tez-tez kor olur, dünyada və regionda gedən proseslərin gələcəyini görə bilmirlər, düzgün nəticə çıxara bilmirlər.

Hər iki bölgədə yaranmış münaqişələrin tarixi kökləri keçmişə, əvvəlki dövrlərə gedir. Hər iki bölgədə mövcud münaqişələr bu yerlərin xalqlarını əsarət altına alaraq özünə birləşdirən və hökmranlıq edən imperiyaların yeritdiyi siyasətin nəticəsidir.

Bu gün siyasi leksikada özünə yer almış balkanizasiya termini Balkanların uzun dövr ərzində ərazi və milli-etnik iddiaların toqquşduğu arenaya çevrilməsindən xəbər verir. Burada əsrlər boyu müxtəlif xalqlar və etnik qruplar birlikdə yaşamış və bir-birinə qarışmışdır. Müxtəlif dövrlərdə bu xalqların bir-biri ilə rəqabət aparan imperiya və dövlətlərin tərkibinə daxil olması münaqişələri daim arxa plana çəkmişdir. Bəzən də münaqişə

tərəfləri tez-tez situasiyadan asılı olaraq müttəfiqlərini dəyişməli olmuşlar. Onların arxasında dayanan dövlətlər isə SSRİ sonra isə Rusiya, ABŞ, Almaniya, Fransa olmuşlar.

Münaqişələr

Balkanlarda və Qafqazda baş verən münaqişələri təhlil edərkən onların demək olar ki, yaranma səbəbləri, kökləri, təzahür formaları ilə bir-birinə çox yaxın olması müşahidə olunur. Lakin, eyni zamanda hər bir münaqişə, yarandığı yer, tarixi şərait, orada iştirak edən və maraqlı olan qüvvələr nəzərə alınarsa özünəməxsus xüsusiyyətləri ilə fərqlənir ki, bu da təbiidir.

Oxşar cəhətlər

- Ərazi iddialan (Serbiyanın Bosniya və Xorvatiyaya, Albaniyanın Serbiya və Makedoniyaya, Ermənistanın Azərbaycan və Gürcüstana qarşı)
- Xarici dövlətlərin köməyi (Rusiyanın Serbiyanı, Ermənistanı, Abxaziya və Osetiyanı, Almaniya və Fransanın Xorvatiyanı, bəzi müsəlman dövlətlərinin Bosniyanı, ABŞ-ın Albaniyanı müdafiə etməsi)
- İddia olunan ərazilərdə iddiaçı dövlətlərin xalqının nümayəndələrinin yaşaması (Bosniyada serb və xorvat azlıqları, Serbiya və Makedoniyada alban azlıqları, Azərbaycan və Gürcüstan erməni azlıqları)
- İddiaçı dövlətin iddia olunan ərazilərdə yaşayan milli azlıqlardan istifadə etməsi (yuxarıya bax)
- Etnik təmizləmədən istifadə edilməsi (serblərin bosniyalılara və albanlara, xorvatların serblərə, albanların Kosovoda yaşayan serblərə, ermənilərin azərbaycanlılara, abxazların gürcülərə qarşı)
- Genosid (serblərin bosniyalılara və ermənilərin azərbaycanlılara qarşı)

Fərqli cəhətlər

- Balkanlarda iddia olunan ərazilər (Kosovonu çıxmaq şərti ilə) əvvəllər muxtar statusa malik deyildirlər. Qafqazda münaqişəyə qatılmış iddia olunan ərazilər əvvəllər muxtar statusa malik olublar.(Azərbaycanın Dağlıq Qarabağ regionu, Gürcüstanın Abxaziya və Osetiya regionu, Rusiyanın Çeçenistan regionu)

- Qafqazda yaşayan bəzi milli azlıqların yaşadıqları ölkələrdən kənarda öz "ana dövlətinin" olmaması və onların müstəqillik əldə etmək niyyətləri (Gürcüstanda yaşayan abxazlar, acarlar, Rusiyada yaşayan çeçenlər)
- Xarici dövlətlərin hərbi əməliyyatlarda bilavasitə iştirakı (Rusiyalı hərbiçilərinin Ermənistanın, Abxaziya və Osetiya tərəfində vuruşması)

Beynəlxalq vasitəçilik

Beynəlxalq ictimaiyyət Balkanlarda qətiyyət göstərdi. Belə ki, Bosniyada gedən müharibə və Serbiyanın Kosovoda apardığı etnik təmizləmə ABŞ-ın təzyiqi ilə NATO təyyarələrinin serbləri bombardman etməsindən sonra dayandırıldı. Beynəlxalq ictimaiyyət müharibənin son fazasında, etnik təmizləmə baş verdikdən sonra işə qarışdı.

SSRİ dağıldıqdan sonra ikiqütblü dünya düzəninə son qoyulması Qərbin həyati maraqlarına cavab versə də, dünyada mövcud münaqişələrə bir neçəsi də əlavə edildi. Amma, əvvəlkindən fərqli olaraq bu münaqişələr Avropada idi. Balkanlarda və Qafqazda Qərb və Avropa inteqrasiya proseslərini, ABŞ isə qlobalizasiyanı uğurla aparmaq üçün ilk növbədə Avropada prioritet vəzifə hesab edilən təhlükəsizliyi və sabitliyi təmin etməli idi.

Qafqazda baş verən münaqişələrin gedişinə beynəlxalq ictimaiyyət qarışmamışdır və indi mövcud olan etnik və ərazi reallıqları hərbi yolla yaradılmışdır. Beynəlxalq ictimaiyyət münaqişənin başa çatmış hərbi fazasından sonra Dağlıq Qarabağ və Gürcüstanda baş verən münaqişələrin həlli üçün siyasi vasitəçiliyə başlamışdır. Çeçenistan məsələsində isə beynəlxalq vasitəçilik çox məhdud çərçivə və ancaq birinci çeçen müharibəsindən sonra həyata keçirilmişdi.

Oxşar cəhətlər

- Beynəlxalq ictimaiyyətin Balkanlarda və Qafqazdakı münaqişələri həlli üçün vasitəçiliyi

Fərqli cəhətlər

- Beynəlxalq ictimaiyyətin Balkanlarda müharibələrə son qoymaq üçün hərbi müdaxiləsi və ciddi diplomatik fəaliyyəti (NATO-nun Bosniyada və Serbiyada serblərə qarşı hərbi əməliyyatı, Rambuye danışıqları, Deyton razılaşması və sairə)

• Beynəlxalq ictimaiyyət, bir tərəfdən, Balkanlardan fərqli olaraq Qafqazda münaqişələrin həlli üçün qətiyyət nümayiş etdirmir, təcavüzkar tərəfə qarşı hərbi, siyasi və ya iqtisadi təzyiq göstərmir, digər tərəfdən isə, Bosniyada olduğu kimi müharibə nəticəsində yaranmış reallıqları qəbul etdirərək "qanuniləşdirməyə" hərbi yolla məcbur etmir. Eyni zamanda beynəlxalq birlik müharibəyə qədərki vəziyyəti bərpa etmək üçün hərbi təzyiq də göstərmir, siyasi və diplomatik səylər isə hələlik münaqişələri həll etmək üçün kifayət deyil.

Nəticə

Şübhəsiz ki, Qafqazda və Balkanlarda yaranmış münaqişələrin başqa oxşar və fərqli cəhətləri də vardır, biz sadəcə olaraq ümumiləşdirərək əsaslarını göstərdik.

Beləliklə, Balkanlarda və Qafqazda baş verən münaqişələrin səbəbi, gedişi və nəticələrində oxşar cəhətlər fərqli cəhətlərdən daha çoxdur, müəyyən məqamları çıxmaq şərti ilə demək olar ki, eynidir. Ancaq bu məqamların ciddiliyi onları xüsusi qeyd etməyə məcbur edir.

Balkanlarda və Qafqazdakı münaqişələrin arasındakı əsas fərq beynəlxalq ictimaiyyətin vasitəçilik səylərindədir. Balkanlarda qətiyyət nümayiş etdirildi. Münaqişələrin həllində beynəlxalq vasitəçiliyin nəticəsi oldu. Qafqazda isə hələlik yoxdur.

Uzun illər ərzində Balkanlar dünyada gedən proseslərə, dövlətlərarası münasibətlərə, beynəlxalq münasibətlərə təsir baxımından, təhlükəsizlik və sabitlik məsələlərinin davamlılığı baxımından Avropa üçün mühüm əhəmiyyət daşıyan bölgə olmuşdur. Balkanların proseslərə təsiri XIX-XX əsrlərdə xüsusi əhəmiyyət daşımışdır. Bu əsrləri isə Avropanın dünya siyasətini müəyyənləşdirdiyi əsrlər hesab etmək lazımdır. Daha doğrusu bu əsrlərdə Avropa dövlətləri arasındakı münasibətlər, ümumiyyətlə, dünyada gedən beynəlxalq münaqişələrin xarakterini, durumunu və istiqamətini müəyyənləşdirirdi.

İndi artıq Avropada dövlətlərarası münasibətlərdə sabitlik dövrünün başlandığını zənn etmək olar. Bu proses Avropada məhz Balkanlarda yekunlaşmaq üzrədir. Müəyyən mənada Avropa dövlətləri arasındakı münasibətlərdə ərazi iddiaları (Belə potensial iddialar kifayət qədərdir) bir növ arxaizmə çevrilmişdir.

Bu baxımdan Balkanların Avropada oynadığı rolu müəyyən mənada indi Qafqaz Avrasiya münasibətlərində oynamalıdır.

Həssaslıq, mövqe və s. amillərlə xarakterizə edilən və oxşarlığı olan

bu bölgələr əsrlər boyu, xüsusilə XIX-XX əsrlərdə çoxlu müharibələrə səbəb olmuşlar. Lakin iddia etmək olar ki, yeni dünya düzəninin tələbləri bu bölgələrdən başqa missiyaya xidmət etməyi tələb edir. Beynəlxalq münasibətlərin xarakteri də dəyişdiyi üçün daha çox inteqrasiya, qlobalizasiya, beynəlxalq əməkdaşlıq bu münasibətləri formalaşdırdığı üçün yeni missiya, müharibə və münaqişələrə səbəb olmaq yox, təhlükəsizlik və sabitliyin saxlanmasına və möhkəmlənməsinə, beynəlxalq əməkdaşlığın daha da güclənməsinə, beynəlxalq münasibətlər arxitekturasının hamının maraqlarını təmin edəcək dərəcədə formalaşmasına xidmət etməkdir. Bu sahədə Azərbaycan xarici siyasətinin, Azərbaycan Prezidentinin fəaliyyəti nümunəvi model olaraq son on il ərzində müstəsna rol oynamışdır, oynayır və oynayacaqdır.

«Balkanlar və Qafqazlar - oxşarlıqlar və müxtəliflikləri» elmi-praktik konfransının materialları, Bakı, 30 İyun 2003-cü il

Türkiye-Ermenistan ilişkilerinde kazanan ve kaybeden

Türkiye-Ermenistan ilişkilerindeki son gelişmeler ve bu bağlamda Azerbaycan'ın rolü ile ilgili Türkiye medyasında birçok yazı yazıldı.

Bu yazıların çoğu Ermenistan'la ilişkilerin onarılmasını Türk dış politikasının global bir vizyona kavuşması için bir şart ve Türkiye'nin demokrasi yolunda aşması gereken büyük bir sınav gibi göstermekte, Azerbaycan'ı ise bu sürece mani olmakla itham etmektedir. Bazıları hatta Azerbaycan'ın Türk dış politikasını rehin almasından bahsediyor. Bir çoğu Ermenistan tarafından dile getirilen iddialara binaen yazılan bu makaleler gerçeği yansıtmıyor.

Türkiye-Ermenistan ilişkilerini engelleyen esas mesele Ermenistan'ın yurtdışında Ermeni diasporası ile birlikte soykırım kampanyası yürütmesi ve Türkiye sınırlarını tanıdığını açıkça söylemeye yanaşmaması olmuştur. İlişkileri şekillendiren diğer bir faktör ise Türkiye'nin Ermenistan'ın Dağlık - Karabağ ve etrafındaki Azerbaycan topraklarını işgal etmesine tepki olarak 1993 yılından beri bu ülke ile sınırını kapalı tutmasıdır. Ermenistan ile ilgili konulardaki tutumlarını kendi ülkelerindeki Ermeni lobisinin etkisiyle belirleyen Amerikalı ve Avrupalı yetkililer işgalci bir politika yürütmesine rağmen Ermenistan'ın durumunun iyileştirilmesi için büyük çaba sarf etmişlerdir. Son dönemde özellikle Amerika, soykırım iddialarının tanınabileceğini ileri sürerek Türkiye'ye Azerbaycan topraklarındaki Ermeni işgalini göz ardı etmesi ve hiçbir ön şart koşmadan Ermenistan ile sınırı açması için baskı yapmaktadır.

Hem Türkiye hem de Azerbaycan'ı sadece Ermenistan'ın işine yarayacak bu planı kabul etmeye sevk etmek için ileri sürülen başlıca argümanlar şunlar: Birincisi, Türk-Ermeni sorununun Karabağ'la bir ilgisi yoktur ve bu yüzden bu iki konu ayrı ele alınmalıdır. İkincisi, Türkiye-Ermenistan sınırının açılması Amerika'da her yıl gündeme gelen ve Türkiye için büyük baş ağrısı olan Ermeni soykırımı meselesini bertaraf edecektir. Üçüncüsü, sınırın açılması hem Türkiye hem de Azerbaycan'ın çıkarınadır, çünkü bu Ermenistan siyasetinde bir yumuşamaya yol açacak ve dolayısıyla Karabağ sorununun çözümüne katkı sağlayacaktır.

Öncelikle, biz aynı milletin iki devleti olan Türkiye ve Azerbaycan'ın karşılıklı olarak birbirinin çıkarlarını korumasını manevi bir yükümlülük olarak görüyoruz. Türkiye'nin Karabağ sorununu göz ardı etmesini isteyenler Karabağ'daki Ermeni savaşçıların, kendi anlattıklarına binaen, Türklerle hesaplaşma güdüsü ile hareket ettiğini, bir milyona yakın insanı topraklarından sürdüklerini görmemezlikten geliyorlar. Türk oldukları için etnik temizlemeye maruz kalan insanların Türkiye'den destek beklemeleri

doğal değil midir? Nüfusunun yüzde birinden daha azını oluşturan Ermenileri memnun etmek için soykırım tasarıları hazırlayan ve okyanus ötesi ülkelere baskı yapan ABD yetkilileri, Türkiye'nin kardeş Azerbaycan halkının önemli bir derdini göz önünde bulundurma isteğini iyi anlamalı.

Bunun dışında, Ermenistan'la sınırın açılmasının soykırım sorununu bertaraf ederek Türkiye'yi büyük bir dertten kurtaracağı hiç inandırıcı bir argüman değil. Ermeni diasporası soykırım meselesini kendisi için hayat kaynağı olarak görmektedir ve bulunduğu her ülkede bu konuyu siyasi bir alete çevirmiştir. Ermenistan yetkilileri de soykırımın tanınmasının milli bir dava olduğunu ve bu yöndeki çalışmalarından vazgeçmeyeceklerini belirtmektedirler. Soykırım meselesi ister Amerika'nın iç siyasetinde, isterse de Türkiye ile olan ilişkilerde hep bir siyasi araç olarak kullanılmıştır. Bugün sınırı açması için Türkiye'ye karşı soykırım kartını baskı unsuru olarak kullananların, normalleşme sürecinden sonra soykırım meselesi bertaraf olacak, demesi akla hakaret niteliğindedir. Asıl düşünmemiz gereken soykırım iddialarının tanınmasından sonraki senaryo, çünkü Ermeni davasının diğer iki ayağının tazminat ve toprak talebi olduğunu biliyoruz.

Sınırın açılmasının Ermenistan'ı yumuşatarak Karabağ sorunun çözümüne katkı sağlayabileceğini veya benzer mantıkla Türkiye'nin Karabağ meselesini önşart olarak koşmakla Azerbaycan'ı yüreklendirdiğini ve bizi sorunun çözümünde uzlaşmaz tavır izlemeye ittiğini yazanlar anlaşılan bu konudan pek haberdar değiller. Ermenistan, Azerbaycan topraklarının yüzde yirmisini işgal etmiş ve bir milyona yakın insanı mülteci durumuna düşürmüştür. Bu soruna barışçıl bir çözüm bulabilmek için Azerbaycan AGİT Minsk Grubu çerçevesinde Ermenistan'la sık müzakereler yürütse de karşı tarafın uzlaşmaz tutumu yüzünden bugüne kadar bir sonuç elde edilememiştir. Ermenistan'ın taviz vermez tutumu işgali devamlı sürdürmeye niyetli olduğu kanısını pekiştiriyor. Bu durumda taviz olarak Azerbaycan'dan beklenen işgali kabul etmemizse, bu mümkün değildir. Türkiye ve Azerbaycan'la sınırının kapalı olması, Ermenistan'ı sorunun barışçıl çözümü için adım atmaya itebilecek en önemli faktörlerden biridir. Ermenistan böyle bir adım atmadan sınırların açılması, barış ihtimaline ve Azerbaycan'a büyük bir darbe olacaktır.

Son olarak, Azerbaycan'ın Türkiye'yi yeteri kadar desteklemediği doğru değildir. Azerbaycan'ın Nükleer Güvenlik Zirvesi'nde Türkiye'nin yanında olamamasının sebebi zirveye davet almamış olmasıdır ve bu da medyada Amerika yetkililerinin Azerbaycan'ı Türkiye-Ermenistan müzakerelerinden sıkıştırma çabalarının bir diğer işareti olarak yorumlanmıştır. Türkiye ve Azerbaycan'ın her yerde, sadece soykırım iddiaları konusunda değil, bütün konularda tek devlet gibi hareket ettikleri iyi bilinmektedir.

Başta Cumhurbaşkanı İlham Aliyev olmak üzere, Azerbaycan devlet adamları ve diplomatları olarak biz açık ve kapalı her forumda, başta AB üyeliği olmak üzere Türkiye'yi ilgilendiren meseleleri dile getirip müdafaa etmeyi bir borç olarak addediyoruz. Birkaç gün önce Gürcistan parlamentosunda soykırımı tanıma müracaatına karşı ilk tepki ve girişim Azerbaycan toplumundan geldi. Özellikle soykırım sorununu Azerbaycan hep kendi meselesi gibi ele almış ve bu iddiaların siyasi bir alet gibi kullanılmasına karşı mücadeleyi yurtdışındaki temel çalışmalarından biri yapmıştır. Hatta bazı dönemlerde Azerbaycan bu konuda Türkiye'den daha faal olmuştur. Çünkü soykırım iddialarından en çok zarar gören ülke Azerbaycan'dır. Bağımsızlığının ilk gününden komşu bir ülkeye saldıran Ermenistan, yapmış olduğu işgali ve etnik temizlemeyi, yürüttüğü soykırım kampanyası ile gölgelemeyi başarmıştır. Bu kampanyanın Türkiye'nin içinde bile başarılı olduğunu görmek bizim için acı verici.

Türkiye - Azerbaycan ilişkileri tarihî bir geleneğe, aynı milletten olmamıza ve bunun da ötesinde karşılıklı çıkarlara dayanmaktadır. Azerbaycan her zaman Türkiye'yi kardeş ülke olarak görmüştür. Son yirmi yıl içinde Türkiye, Azerbaycan'ın Batı'ya, Azerbaycan ise Türkiye'nin Orta Asya'ya açılan kapısı olmuştur. Büyük baskılara rağmen Azerbaycan, Türkiye odaklı bir enerji siyaseti benimsemiş, doğalgaz ve petrol rezervlerini dünya pazarına bu ülke üzerinden nakletmek için büyük bir çaba sarf etmiştir. Azerbaycan'ın zor günlerinde güçlü desteğiyle bizim yanımızda olan Türkiye devleti, Azerbaycan halkının saygı ve sevgisini kazanmıştır. Halklarımız arasındaki derin bağlara dayanan ilişkilerimizin güçlü baskılarla yüzleştiğimiz bu zorlu süreçten başarıyla ve daha da güçlenmiş olarak çıkacağına inanıyoruz.

ÜMUMİ MƏSƏLƏLƏR

Dünənin, bu günün və gələcəyin partiyası

Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranmışdır. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin məntiqi nəticəsi idi. Ötən əsrin 90-cı illərinin əvvəllərində, dövlət müstəqilliyi qazanıldıqdan sonra yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərində tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Partiyanın yaranması, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ona Sədr seçilməsi böyük tarixi hadisə idi. Heydər Əliyevin siyasi təcrübəsi, şəxsi nüfuzu və müstəqil, demokratik dövlətçilik yönündə gərgin fəaliyyəti milli istiqlalını yenicə qazanmış xalqımızın bu günkü və gələcək taleyi üçün mühüm faktora çevrildi. Eyni zamanda Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası kimi yaranması onun sosial bazasının və intellektual potensialının möhtəşəmliyini ifadə edirdi.

Heydər Əliyevin siyasi xəttinin mahiyyəti Yeni Azərbaycan Partiyasının Proqramında və onun çıxışlarında açıq və dolğun şəkildə ifadə olunurdu. Ruhən demokrat olan Heydər Əliyev vaxtilə müxalifətçilikdə də "milli demokratlara" böyük dərs keçməli oldu. Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı. Bu həqiqət məlumdur. Partiyanın nə Proqramında, nə qarşıya qoyduğu məsələlərdə hakimiyyətə, o vaxtkı iqtidara müxalif fikirləri olmamışdır. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, sadəcə, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirdilər".

Yeni Azərbaycan Partiyası Proqram sənədlərində əsas prinsiplərin müəyyənləşməsinə çox məsuliyyətlə yanaşırdı. Partiya təsis olunan zaman siyasi hakimiyyətə gəlməyi heç də əsas məqsəd hesab etmirdi. Yeni Azərbaycan Partiyasının ən böyük amalı Azərbaycanın müstəqil dövlətçiliyini qoruyub saxlamaq, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olmasını təmin etməkdən ibarət idi. Əslində bu fikir yalnız partiya sənədlərində deyil, kütləvi tədbirlərdə də dəfələrlə səsləndirilirdi. Məsələn, partiyanın təsis olunmasından bir qədər sonra Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyasına belə böyük maraq göstəriləcəyini əvvəlcədən təsəvvürümə gətirmirdim. Görünür partiyanın Nizamnamə və Proqramı xalqın ürəyindəndir və xalq Yeni Azərbaycan Partiyasında öz gələcəyini görür.

Yeni Azərbaycan Partiyasının əsas məqsədi Azərbaycanı düşdüyü axır vəziyyətdən çıxarmaqdır... Azərbaycanın müstəqil dövlət olması böyük tarixi hadisədir... Lakin müstəqillik əldə etmək nə qədər çətindirsə, onu saxlamaq daha da çətindir... Bu dövlətin müstəqilliyini qorumağa çalışmalıyıq. Yeni Azərbaycan Partiyasının başlıca məqsədi budur. Bizə qarşıdurma lazım deyil. Mən hər cür qarşıdurmanın əleyhinəyəm".

Bu prinsip Yeni Azərbaycan Partiyasının siyasi hakimiyyətdə təmsil olunmasından sonra da onun əsas məqsədlərindən biri idi. Heydər Əliyev qeyd edirdi: "Yeni Azərbaycan Partiyası yaranarkən... Azərbaycanı müstəqil etmək istəmişdir, qarşısına ancaq müstəqilliyi möhkəmləndirmək, inkişaf etdirmək... məqsədini qoymuşdur... Bunlar hamısı indi Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətinin əsasını təşkil edir".

Yeni Azərbaycan Partiyası ali məqsədlər uğrunda mübarizədə cəmiyyətin bütün vətənpərvər, demokratik qüvvələrinin birliyinin tərəfdarı idi. Bu məsələ partiyanın Proqramında öz əksini tapmışdır. Orada bildirilir: "Bütün bədbəxtlikləri və çatışmazlıqları xarici və daxili düşmənlərin hiyləsində axtarmaq kimi biabırçı adətlərdən, cəmiyyətdə intiqam almaq əhval-ruhiyyəsini qızışdırmaq kimi bəlalardan əl çəkmək lazımdır. ...Buna əsaslanaraq partiya... əsas mövqelər üzrə razılıq əldə olunan bütün ictimai

təşkilatlarla və partiyalarla fəal əməkdaşlıq etməkdən, partiyalararası bloklar yaratmaq və bütün səviyyələrdə ümumi mənafeləri razılaşdırmaqdan, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoqa hazır olmaqdan ibarətdir".

Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan başlayaraq həm Proqram sənədlərində, həm praktiki fəaliyyətində yeni tipli müxalifətçilik nümayiş etdirməyə başladı. Partiya digər siyasi qüvvələrdən fərqli olaraq hakimiyyətdə təmsil olunmağı yeganə məqsədi hesab etmirdi. Bu məsələ ilə bağlı Heydər Əliyev partiyanın I qurultayındakı nitqində deyirdi: "Nizamnamədə də var, bu partiya hakimiyyət uğrunda mübarizə aparan bir partiya kimi yaranmadı. Biz partiyanın Nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır, bu partiya parlament tipli partiyadır. Yəni biz tamamilə demokratiya yolu ilə gedirdik.

Partiyanı yaradarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik, - necə ki, ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya sağlam düşüncə, sağlam fikir - xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədi ilə yaranmışdır".

Təsadüfi deyil ki, Heydər Əliyevin konstruktiv müxalifətçiliyi yalnız Azərbaycan cəmiyyəti tərəfindən deyil, xarici dövlətlərin nüfuzlu siyasi dairələri tərəfindən də təqdir olunurdu. Tezliklə həyat Yeni Azərbaycan Partiyasının güclü bir siyasi təşkilat, onun lideri Heydər Əliyevin isə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi görkəmli şəxsiyyət olduğunu sübut etdi. Çox qısa bir müddətdən sonra Azərbaycan xalqı Heydər Əliyevin üzərinə tarixi bir missiya qoydu. Elə o vaxtdan da Yeni Azərbaycan Partiyasının həyatında tarixi bir səhifə açıldı.

1993-cü ilin oktyabr ayının 3-də Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkədəki xaos və anarxiyaya son qoymaqla yanaşı, bu təşkilatın inkişaf tarixində yeni dövrün başlanğıcını qoydu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, onun ölkənin siyasi həyatında tutduğu mövqeyi möhkəmləndi.

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının təşkilati və ideoloji baxımdan formalaşmasını və inkişafını daim diqqət mərkəzində saxlayırdı. O, hər cür şişirtmənin əleyhinə gedərək partiya sıralarının siyasi əqidə və könüllülük amilləri əsasında formalaşmasının tərəfdarı idi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: "Bizim partiya ancaq partiyanın hərəkət xəttini, prinsiplərini ürəkdən qəbul etmiş insanlardan ibarət olmalıdır. Məhz bu baxımdan demək istəyirəm ki, yerlərdə heç kim partiya üzvlərinin sayını

süni surətdə artırmağa çalışmasın. Partiyaya kim istəyirsə özü gəlsin.

...Siz yəqin şübhə etmirsiniz ki, partiyanın sədri eyni zamanda ölkənin prezidenti olduğuna görə istəsə, bu partiyanın üzvlərinin sayını qısa müddətdə beş dəfə artırar. Amma buna ehtiyac yoxdur. Mən buna heç vaxt yol verməræm".

Prezident bu cür prinsipial mövqe tutmaqla ilk növbədə vətəndaşların konstitusion hüquqlarının qorunmasını təmin edirdi. Təcrübəli dövlət xadimi Heydər Əliyev göstərir ki, hamını eyni cür düşünməyə məcbur etmək demokratiyanın pozulmasına, müstəqil dövlətimizin sivil yolla inkişafına xələl gətirmək deməkdir. O, bununla əlaqədar olaraq bildirirdi: "Mən bir daha qeyd etmək istəyirəm ki, partiyanın üzvlərinin sayını süni surətdə artırmaq lazım deyil. Hansısa bir nazir, yaxud da başqa icra orqanında işləyən adam düşünməməlidir ki, bəli "mənim ətrafımdakılar hamısı Yeni Azərbaycan Partiyasının üzvləri olmalıdır, əgər bu partiyadan deyildirlərsə, işdən çıxsınlar. Bu düzgün deyildir. Bu insanların hüquqlarına toxunmaq deməkdir. İnsan gərək sərbəst olsun, insan gərək öz fikri ilə azad olsun. Biz bu azadlıqların, sərbəstliklərin hamısını Konstitusiyada elan etmişik. Prezident kimi, mən bunları təmin edirəm. Ona görə də insanın hüququnu, şəxsi fikrini zorla dəyişdirmək olmaz".

Heydər Əliyev 1993-cü ildən başlayaraq Yeni Azərbaycan Partiyası ilə digər siyasi təşkilatların fəaliyyəti üçün eyni şərait yaratdı. O, deyirdi: "Əgər mən Yeni Azərbaycan Partiyasının Sədri kimi o Proqramı qəbul etmişdimsə və o Proqramı hazırlayıb təsis konfransına təqdim etmişdimsə, mən Prezident olandan sonra başqa bir Proqramla hərəkət edə bilməzdim, Azərbaycanın başqa bir yolla getməsinə heç vaxt yol verə bilməzdim. Ona görə də bizim o vaxtkı - Yeni Azərbaycan Partiyasını yaradarkən olan istəklərimiz, arzularımız indi dövlət tərəfindən, hökumət tərəfindən ardıcıl surətdə həyata keçirilir".

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən məsələ müstəqil dövlətimizin formalaşmasında çox ciddi və vacib məsəllərdən birinə çevrildi. Heydər Əliyev fikrini dərinləşdirərək deyirdi: "Yeni Azərbaycan Partiyasının Proqramı tamamilə Azərbaycan Respublikası Konstitusiyasının bütün müddəalarının əsasında qurulubdur, onunla üst-üstə düşür. Ona görə də Yeni Azərbaycan Partiyasının gördüyü işlər Azərbaycanı inkişaf etdirməyə, müstəqil Azərbaycanı irəli aparmağa yönəlibdir. Biz o vaxt da bu məqsədi daşıyırdıq və indi bu məqsədə çatmaq üçün tədbirlər həyata keçiririk".

Prezident Heydər Əliyevin: "Heydər Əliyev təkcə Yeni Azərbaycan Partiyasına aid deyil" mövqeyi Azərbaycanda həm dövlətçiliyin, həm də demokratik siyasi mədəniyyətin formalaşmasında çox böyük rol oynadı. Prezident bu mövqeyi ilə cəmiyyəti gənc, təcrübəsiz siyasi liderlərdən, Yeni

Azərbaycan Partiyasını isə vəzifəpərəstlərin axınından qorudu.

Yeni Azərbaycan Partiyasının mütəşəkkil siyasi qüvvəyə çevrilməsi üçün onu həyatın axarına buraxan Heydər Əliyev özünün bütün fəaliyyəti ilə sübut etdi ki, o, qəlbən Yeni Azərbaycan Partiyasına bağlıdır. Heydər Əliyev bununla bağlı olaraq partiyanın I qurultayında demişdir: "Yeni Azərbaycan Partiyası yaranandan az bir müddət sonra Yeni Azərbaycan Partiyası Sədrinin üzərinə partiya işindən əlavə yeni böyük bir məsuliyyət - Azərbaycanın ağır bir dövründə, 1993-cü ildə Azərbaycan Respublikasına, ölkəmizə, xalqımıza rəhbərlik etmək məsuliyyəti düşdü. Buna görə də o zamandan indiyə qədər dövlətin, hökumətin gördüyü işlər və Yeni Azərbaycan Partiyasının fəaliyyəti bir-biri ilə vəhdət təşkil edir, üzvi surətdə bağlıdır". Heydər Əliyev bildirir: "Bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası, bizim hamımız və təbiidir ki, Azərbaycan Prezidenti və Partiyanın Sədri müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub saxlanılmasının yox, Azərbaycanın müstəqil dövlət kimi ağır şəraitdə inkişaf etməsinin təminatçısıdır".

Heydər Əliyev milli, müstəqil dövlətçilik məsələləri ilə bağlı Yeni Azərbaycan Partiyasının siyasi-ideoloji fəaliyyət istiqamətlərini zərgər dəqiqliyi ilə müəyyənləşdirmişdir. Təhlillər göstərir ki, Yeni Azərbaycan Partiyasının üzvləri öz Sədrlərinin tövsiyələrini və göstərişlərini rəhbər tutaraq partiyanın güclənməsində yaxından iştirak etməyi əsas vəzifələrdən biri hesab etmişlər. Heydər Əliyev 1994-cü ilin sonunda Yeni Azərbaycan Partiyasının yubileyindəki çıxış zamanı daha çox milli dövlətçiliyimizin bərqərar olması, onun möhkəmləndirilməsi və ölkədə ictimai-siyasi stabilliyin təmin edilməsi istiqamətində görülən işlər haqqında geniş məlumat verir.

Həmin dövrdə milli dövlətçiliyimizi qorumaq xüsusi aktuallıq kəsb edərək siyasi hakimiyyətin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu baxımdan Prezident Heydər Əliyevin daim Azərbaycanın milli dövlətçiliyinin qorunub saxlanılması məsələsini ön plana çəkməsi təsadüfi deyildir. Bununla əlaqədar olaraq Heydər Əliyev deyir: "Bu vəziyyətdən çıxmaq üçün altı aydır ki, atəş dayandırılmışdır... Biz nə qədər ağır danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək, müharibə qurtarsın. Altı il gedən müharibədə ilk dəfədir ki, altı aydır qan tökülmür, şəhidlər gəlmir. İnsanlar ağır da olsa, çətin vəziyyətdə də olsa, heç olmasa sülh şəraitin-də yaşayırlar.

Ancaq biz hesab etmirik ki, vəzifəmiz bununla qurtarmışdır, yox. Biz torpaqları azad etməliyik. Qaçqınları öz yerinə qaytarmalıyıq. Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu asan məsələ deyildir. Ona görə asan məsələ deyildir ki, 1998-ci ildən başla-yaraq, bu problem meydana çıxan kimi dalbadal buraxılan səhvlər Azərbaycanı gətirib belə fəlakət vəziyyətinə çıxarmışdır... Ermənistanın hələ böyük dövlətlər tərəfin-

dən aldığı dəstəkdən savayı, nə qədər böyük diasporu var: Avropada, Amerikada, Rusiyada, Moskvanın özündə, Rusiyanın hər yerində.

Biz üz-üzə durmuşuq, amma eyni vəziyyətdə deyilik... Ona görə də indi bu vəziyyətdən çıxmaq üçün, işğal olunmuş rayonlarımızı geri qaytarmaq, yəni Ermənistan silahlı qüvvələrini oradan çıxarmaq üçün böyük siyasi işlər görülməlidir".

Məhz görülən işlər əyani şəkildə sübut edir ki, iqtidarın 1993-1996-cı illərdə əldə etdiyi nailiyyətlər 1996-cı ildən başlayaraq ölkənin ümummilli strateji məsələlərinin həllinin əsaslı bünövrəsini qoymuşdur. Bu uğurlar artıq Azərbaycanın gələcək inkişafı üçün geniş perspektivlər açmışdır. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının 1997-ci ildə keçirilən ümumrespublika toplantısında deyirdi: "Bir şeyi bilmək lazımdır, ...biz Azərbaycanda 1993-cü ilin iyun ayının 15-dən indiyə qədər, yəni mən Azərbaycanın dövlət başına gəldiyim zamandan bu günə qədər Azərbaycan xalqının milli azadlıq yolunda əvvəlki illərdə olan bütün arzu və istəklərinin hamısını həyata keçiririk. Necə deyərlər, bu bizim ən böyük nailiyyətimizdir.

Ancaq bu, prosesin başlanğıcıdır. Kim hesab edirsə ki, yenicə müstəqillik əldə etmiş ölkə, müstəqil dövlət dörd il, beş il içərisində bütün məsələlərin hamısını həll edə bilər, - o çox səhv edir. Ancaq ən əhəmiyyətli odur ki, biz qarşımıza qoyduğumuz bütün vəzifələrin hamısını ardıcıl surətdə həyata keçiririk. Biz heç bir yerdə əyintiliyə yol verməmişik. Biz tutduğumuz strateji yoldan çəkinməmişik. Müstəqilliyimizi günü-gündən möhkəmləndiririk. Azərbaycanın bir müstəqil dövlət kimi dünya birliyində mövqelərini möhkəmləndiririk və Azərbaycanın dövlət müstəqilliyinin pozulmasına, yaxud azalmasına, ləğv olunmasına yönəldilmiş hər bir xarici, yaxud da daxili təxribatın, hərəkətin qarşısını ala bilmişik. Bu, bizim ən böyük nailiyyətimizdir".

Prezident Heydər Əliyev eyni zamanda yuxarıda göstərilən məsələlərin həllində hər bir Azərbaycan vətəndaşının yaxından iştirakını arzu edir: "Bizim qarşımızda duran vəzifə ondan ibarətdir ki, Azərbaycanın hər bir vətəndaşı respublikamızın bu böyük məqsədlərinin həyata keçirilməsinə kömək etsin, öz payını versin, öz səylərini qoysun. Dövlət müstəqilliyi əldə etmək bizim üçün böyük nailiyyətdir. Amma onu qoruyub saxlamaq çox çətindir... Biz bunu qoruyub saxlamışıq.

Ancaq bu, o demək deyil ki, biz indi öz sayıqlığımızı itirməliyik, arxayınlaşmalıyıq və düşünməliyik ki, artıq hər şey rahatdır. Biz hər gün Azərbaycanın dövlət müstəqilliyini qorumaq üçün çalışmalıyıq, hər gün düşünməliyik ki, Azərbaycanın həm coğrafi, həm geosiyasi vəziyyəti, həm təbii sərvətləri, həm də bütün başqa xüsusiyyətləri ölkəmizə bir çox istiqamətlərdən böyük marağı artırmışdır.

Bizim apardığımız işlərin hamısı sizə məlumdur. Ancaq qarşımızda

duran ən əsas vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək və qaçqınları öz yerlərinə - yurd-larına qaytarmaqdır".

Prezident Heydər Əliyev dövlət müstəqilliyinin qorunması, genişmiqyaslı siyasi və iqtisadi islahatların aparılması üçün qarşıda hələ də mühüm vəzifələr durduğunu bəyan edir. O, Yeni Azərbaycan Partiyasının yaradılmasının 6-cı ildönümü münasibətilə keçirilən tədbirdə Azərbaycan cəmiyyətini maraqlandıran vacib bir məsələ - milli ideologiya barəsində öz fikirlərini bildirir: "Milli ideologiya nədən ibarətdir?

Birinci dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun.

...Milli ideologiyamızın ikinci hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Kərimdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm və mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir. Bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir.

...Nəhayət, bizim milli ideologiyamızın bir şaxəsi, bir qolu da ümumbəşəri dəyərlərdir. Ümumbəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən artıq çox onillərdir, əsrlərdir ki, qavranıbdır, qəbul olunubdur. Ümumbəşəri dəyərlər birinci növbədə bizim yaratdığımız Konstitusiyada əsas məqsəddir. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax, bu bir cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz əksini tapıbdır. Eyni zamanda, ümumbəşəri dəyərlərlə bərabər, Azərbaycanın milli-mənəvi dəyərlərinin vəhdəti öz əksini tapıbdır. Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir".

Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin xalqımızın taleyüklü məsələləri barəsində partiya qurultayındakı nitqi əslində ölkəmizdə fəaliyyət göstərən bütün ictimai-siyasi qüvvələr üçün dəyərli, proqram xarakterli çıxışdır. Onun çıxışından aydın olur ki, ümummilli strateji məsələlər ayrı-ayrılıqda həll edilmir və onlar bir-biri ilə sıx bağlıdır. Müstəqilliyini yenicə əldə etmiş ölkələrdə demokratiyanın inkişafının təmin edilməsi, balanslaşdırılmış daxili və xarici siyasətin müəyyənləşdirilməsi, sivil idarəetmə mexanizminin qurulması xüsusi önəm daşıyır. Məhz onların həlli digər mühüm əhəmiyyətli vəzifələrin müəyyənləşdirilməsi üçün vacibdir.

Prezident Heydər Əliyev ümummilli məsələlərin həllində böyük uğurlar qazanılmasını Yeni Azərbaycan Partiyasının I qurultayındakı nitqində geniş şəkildə şərh edir: "Bizim qarşımızda duran ən əsas vəzifə Ermənistan-Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ problemini həll etməkdir. Çox təşəkkür edirəm ki, siz Azərbaycan Prezidentinin, Azərbaycan dövlətinin apardığı həm daxili siyasəti, həm xarici siyasəti dəstəkləyir və bunu yüksək qiymətləndirirsiniz. Məhz sizin dəstəyinizə, xalqın dəstəyinə və etibarına arxalanaraq, Azərbaycan Prezidenti kimi belə cəsarətli addımlar atıram və cəsarətli siyasət həyata keçirirəm. ...Amma bilin və bütün xalqımız, bütün ölkəmiz bilsin - bu, heç də asan məsələ deyildir. Bunun səbəbləri məlumdur, ancaq bunlara baxmayaraq, biz bunu həll edəcəyik... Bu işdə marağı olan başqa ölkələri dəvət etmişəm ki, hamımız birlikdə birləşib Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişafı üçün pakt təsis edək. Bu mümkündür. Amma bunu həyata keçirmək üçün Ermənistan-Azərbaycan münaqişəsi həll olunmalı, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqları azad olunmalı, qaçqınlar öz yerlərinə qayıtmalı və Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır".

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çətinliklərin mövcud olduğunu da qeyd edir: "Təbiidir ki, bunlar hamısı bir ildə ola bilməz... Bilirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mən bu il də bir çox tədbirlər görmüşəm, bir çox görüşlər keçirmişəm. Bunların içərisində Ermənistan prezidenti ilə mənim təkbətək, birbaşa görüşlərim olubdur. Onu da deyə bilərəm ki, bu görüşlər nəticəsində biz sülhə yaxınlaşa, sülhə gedə bilərik. Ancaq biz reallığı dərk etməliyik və reallığı dərk edərək hər iki tərəf müəyyən kompromislərə getməlidir. Əgər bu mümkün olmasa, məsələni həll etmək çox çətin, ağır olacaqdır.

Ancaq çox təəssüflər olsun ki, bu problemləri dərindən bilməyən, bəlkə heç problemlərin həll olunmasını istəməyən adamlar, barışmaz müxalifətdə duran ayrı-ayrı siyasi qüvvələr, partiyalar məsələnin həll olunmasına yox, indi məsələnin həlli prosesində atılan addımlardan öz məqsədləri üçün istifadə etməyə çalışırlar... Ataşkəs rejimi yaranandan

indiyə qədər heç bir müxalifət partiyası, heç bir müxalifət hərəkatı, qüvvəsi bu problemin həll olunması üçün ağıllı, konkret, real bir təklif verməyibdir".

Prezident Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli ilə bağlı özünün tutduğu mövqeyini partiyanın II qurultayındakı çıxışında bildirir. O, bu məsələnin bütün ağırlığını və mürəkkəbliyini ictimaiyyətin diqqətinə yetirərək qeyd edir: "Biz hər sahədə nailiyyət əldə etmişik. Ancaq bir sahədə, ən ağır sahədə biz hələ istədiyimizə nail olmamışıq. O da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir, bunun nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması və bir milyondan artıq köçkünlərin ağır vəziyyətdə, çoxlarının çadırlarda yaşamasıdır. Bu, mənim qəlbimi daima incidir.

...Mən gecə-gündüz bu barədə düşünürəm. Təkcə düşünmürəm, müxtəlif tədbirlər həyata keçirirəm. Müxtəlif görüşlər keçirirəm. Aparıcı böyük dövlətlər ki var, onların başçıları ilə mən dəfələrlə görüşmüşəm. 1992-ci ildə yaranmış ATƏT-in Minsk qrupunun həmsədrlərinin - ABŞ, Fransa və Rusiyanın xahişi ilə mən Ermənistan prezidenti ilə bilavasitə görüşürəm. Ancaq məsələ həll olunmur. Bununla belə, məsələnin sülh yolu ilə həll olunmasına hələ ümidlər çoxdur.

...Doğrudur, bizim bu çətin vəziyyətimiz hər kəsi ağrıdır. Amma Ermənistan bundan daha da çox zərər çəkir. Yəqin ki, onu da bilirsiniz. Biz belə şəraitdə bu cür nailiyyətlər əldə etmişik. İndi təsəvvür edin, bu olmasaydı, bütün torpaqlarımız əlimizdə olsaydı, nə qədər böyük işlər görə bilərdik. Mən bunu ona görə bildirirəm ki, bu mənim qarşımda duran əsas bir nömrəli vəzifədir".

Prezident Heydər Əliyev yalnız Dağlıq Qarabağ məsələsinə deyil, digər taleyüklü problemlərə də toxunur və onların həllinə dair özünün konseptual baxışlarını ictimaiyyətin diqqətinə çatdırır. O, həmin məsələlərin içərisində xalqımızın birliyi və milli azlıqlar məsələsinə toxunaraq geniş nitq söyləyir. Əslində bu məsələnin gündəmə gəlməsi heç də təsadüfi deyildi. Məlumdur ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra daim müəyyən xarici və daxili qüvvələr milli dövlətçiliyimizə zərbə vurmağa çalışırdılar. Məlum "Talış-Muğan Respublikası" məsələsi, mütəmadi olaraq respublikamızın müəyyən bölgələrində millətçilik əhval-ruhiyyəsini qızışdırmağa cəhd göstərən təxribatçı ünsürlərin cinayətkar əməlləri xalqımızı narahat edirdi. Prezident Heydər Əliyevin apardığı milli siyasət nəticəsində Azərbaycanda milli birlik möhkəmlənmiş, milli nifaq salmaq cəhdləri uğursuzluğa düçar olmuşdur.

Bu məsələyə toxunan Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayındakı nitqində çox konkret və açıq danışmışdır: "Burada Qusar rayonundan çıxış edən nümayəndə çox gözəl sözlər danışdı. 1993-cü ildə

Heydər Əliyevin siyasi xəttinin mahiyyəti Yeni Azərbaycan Partiyasının Proqramında və onun çıxışlarında açıq və dolğun şəkildə ifadə olunurdu. Ruhən demokrat olan Heydər Əliyev vaxtilə müxalifətçilikdə də "milli demokratlara" böyük dərs keçməli oldu. Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı. Bu həqiqət məlumdur. Partiyanın nə Proqramında, nə qarşıya qoyduğu məsələlərdə hakimiyyətə, o vaxtkı iqtidara müxalif fikirləri olmamışdır. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, sadəcə, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirdilər".

Yeni Azərbaycan Partiyası Proqram sənədlərində əsas prinsiplərin müəyyənləşməsinə çox məsuliyyətlə yanaşırdı. Partiya təsis olunan zaman siyasi hakimiyyətə gəlməyi heç də əsas məqsəd hesab etmirdi. Yeni Azərbaycan Partiyasının ən böyük amalı Azərbaycanın müstəqil dövlətçiliyini qoruyub saxlamaq, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olmasını təmin etməkdən ibarət idi. Əslində bu fikir yalnız partiya sənədlərində deyil, kütləvi tədbirlərdə də dəfələrlə səsləndirilirdi. Məsələn, partiyanın təsis olunmasından bir qədər sonra Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyasına belə böyük maraq göstəriləcəyini əvvəlcədən təsəvvürümə gətirmirdim. Görünür partiyanın Nizamnamə və Proqramı xalqın ürəyindəndir və xalq Yeni Azərbaycan Partiyasında öz gələcəyini görür.

Yeni Azərbaycan Partiyasının əsas məqsədi Azərbaycanı düşdüyü axır vəziyyətdən çıxarmaqdır... Azərbaycanın müstəqil dövlət olması böyük tarixi hadisədir... Lakin müstəqillik əldə etmək nə qədər çətindirsə, onu saxlamaq daha da çətindir... Bu dövlətin müstəqilliyini qorumağa çalışmalıyıq. Yeni Azərbaycan Partiyasının başlıca məqsədi budur. Bizə qarşıdurma lazım deyil. Mən hər cür qarşıdurmanın əleyhinəyəm".

Bu prinsip Yeni Azərbaycan Partiyasının siyasi hakimiyyətdə təmsil olunmasından sonra da onun əsas məqsədlərindən biri idi. Heydər Əliyev qeyd edirdi: "Yeni Azərbaycan Partiyası yaranarkən... Azərbaycanı müstəqil etmək istəmişdir, qarşısına ancaq müstəqilliyi möhkəmləndirmək, inkişaf etdirmək... məqsədini qoymuşdur... Bunlar hamısı indi Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətinin əsasını təşkil edir".

Yeni Azərbaycan Partiyası ali məqsədlər uğrunda mübarizədə cəmiyyətin bütün vətənpərvər, demokratik qüvvələrinin birliyinin tərəfdarı idi. Bu məsələ partiyanın Proqramında öz əksini tapmışdır. Orada bildirilir: "Bütün bədbəxtlikləri və çatışmazlıqları xarici və daxili düşmənlərin hiyləsində axtarmaq kimi biabırçı adətlərdən, cəmiyyətdə intiqam almaq əhval-ruhiyyəsini qızışdırmaq kimi bəlalardan əl çəkmək lazımdır. ...Buna əsaslanaraq partiya... əsas mövqelər üzrə razılıq əldə olunan bütün ictimai

təşkilatlarla və partiyalarla fəal əməkdaşlıq etməkdən, partiyalararası bloklar yaratmaq və bütün səviyyələrdə ümumi mənafeləri razılaşdırmaqdan, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoqa hazır olmaqdan ibarətdir".

Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan başlayaraq həm Proqram sənədlərində, həm praktiki fəaliyyətində yeni tipli müxalifətçilik nümayiş etdirməyə başladı. Partiya digər siyasi qüvvələrdən fərqli olaraq hakimiyyətdə təmsil olunmağı yeganə məqsədi hesab etmirdi. Bu məsələ ilə bağlı Heydər Əliyev partiyanın I qurultayındakı nitqində deyirdi: "Nizamnamədə də var, bu partiya hakimiyyət uğrunda mübarizə aparan bir partiya kimi yaranmadı. Biz partiyanın Nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır, bu partiya parlament tipli partiyadır. Yəni biz tamamilə demokratiya yolu ilə gedirdik.

Partiyanı yaradarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik, - necə ki, ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya sağlam düşüncə, sağlam fikir - xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədi ilə yaranmışdır".

Təsadüfi deyil ki, Heydər Əliyevin konstruktiv müxalifətçiliyi yalnız Azərbaycan cəmiyyəti tərəfindən deyil, xarici dövlətlərin nüfuzlu siyasi dairələri tərəfindən də təqdir olunurdu. Tezliklə həyat Yeni Azərbaycan Partiyasının güclü bir siyasi təşkilat, onun lideri Heydər Əliyevin isə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi görkəmli şəxsiyyət olduğunu sübut etdi. Çox qısa bir müddətdən sonra Azərbaycan xalqı Heydər Əliyevin üzərinə tarixi bir missiya qoydu. Elə o vaxtdan da Yeni Azərbaycan Partiyasının həyatında tarixi bir səhifə açıldı.

1993-cü ilin oktyabr ayının 3-də Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkədəki xaos və anarxiyaya son qoymaqla yanaşı, bu təşkilatın inkişaf tarixində yeni dövrün başlanğıcını qoydu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, onun ölkənin siyasi həyatında tutduğu mövqeyi möhkəmləndi.

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının təşkilati və ideoloji baxımdan formalaşmasını və inkişafını daim diqqət mərkəzində saxlayırdı. O, hər cür şişirtmənin əleyhinə gedərək partiya sıralarının siyasi əqidə və könüllülük amilləri əsasında formalaşmasının tərəfdarı idi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: "Bizim partiya ancaq partiyanın hərəkət xəttini, prinsiplərini ürəkdən qəbul etmiş insanlardan ibarət olmalıdır. Məhz bu baxımdan demək istəyirəm ki, yerlərdə heç kim partiya üzvlərinin sayını

təşkilatlanması işinin sistemli şəkildə aparılmasını, bu siyasi təşkilata üzv olanların sağlam siyasi əqidəyə malik olmalarını tövsiyə edir. Həqiqətən də, sağlam siyasi əqidə partiyanın güclənməsində, onun monolitliyinin qorunub saxlanmasında mühüm faktordur. Bununla bağlı olaraq Heydər Əliyev öz çıxışlarının birində qeyd edir: "Ən əsası odur ki, partiya ideya, məslək üzərində qurulmalıdır, hər bir partiyaya şəxsi mənafe, şəxsi məqsəd arzusu ilə gələn adamlar bu partiyada daim qala bilmirlər. Partiyaya gələn, onda iştirak etmək istəyən, onun üzvü olan adamlar doğrudan da gərək ideya, məslək əsasında birləşsinlər".

Heydər Əliyev bildirir: "Mən əminəm ki, Yeni Azərbaycan Partiyasına yeni-yeni gənc üzvlər gələcəklər, bu partiyanın prinsiplərini günü-gündən yüksəklərə qaldıracaqlar və Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcəyinə xidmət edəcəkdir".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiyaya qəbul məsələsinə ciddi şəkildə yanaşmağın zəruri olduğunu qeyd edir: "Ən təhlükəlisi odur ki, Yeni Azərbaycan Partiyasına əqidəsi olmayan adamlar qatılmasın. Ötən dövr bu barədə bir çox nümunələr verdi. Ancaq bunu da dramatikləşdirmək lazım deyildir. Bu, təbii prosesdir. Cəmiyyətdə konyunktur məqsədlər güdən insanlar həmişə olubdur. Hər bir partiyada, hər bir yerdə olubdur - bundan xilas olmaq mümkün deyildir.

Ona görə də kim Yeni Azərbaycan Partiyasına hansısa şəxsi məqsəd, təmənna, hansısa konyunktur məqsədlər üçün gəlmişdisə, onlar partiyadan kənarlaşdılar. Əgər bu gün bələləri varsa, mən güman edirəm, dərk etməlidirlər ki, onların yolu partiyanın yolu ilə düz gəlmir. Partiyada əqidə adamları olmalıdır. Partiyada xidmət etmək, millətə xidmət etmək, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir. Ona görə də partiyamız məhz bu cür əqidəli insanlarla böyüməli, inkişaf etməli və genişlənməlidir".

Heydər Əliyev həmin tədbirdə partiya sıralarının saflığı məsələsinə və bu sahədə qarşıda duran vəzifələrə toxunaraq qeyd edir: "Bildirmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının üzvləri içərisindən dəyərli kadrlar yetişdirilməlidir, inkişaf etdirilməlidir, hakimiyyətin müxtəlif sahələrində, iqtisadiyyatda və başqa orqanlarda özlərinə yer tapmalıdır və fəaliyyət göstərməlidir. Ancaq onlar keyfiyyətcə buna cavab verən adamlar olmalıdırlar, yaxud da bu işi tezliklə qavraya bilən adamlar olmalıdırlar. Amma bunlarla bərabər, Azərbaycan vətəndaşlarının bütün təbəqələri Azərbaycanın həyatının bütün sahələrində iştirak edirlər və iştirak edəcəklər və mən Azərbaycan Prezidenti kimi Azərbaycan vətəndaşlarının hər birinə eyni gözlə baxıram və bundan sonra da eyni gözlə baxacağam".

Heydər Əliyev partiya sıralarına qəbul və siyasi əqidə məsələsinə Yeni Azərbaycan Partiyasının II qurultayında bir daha toxunaraq özünün

dəyərli təkliflərini verir. O, "partiyaya cəlb ediliblər" ifadəsinə kəskin reaksiya verərək bildirdi: "Burada kimsə dedi ki, bu müddətdə partiyaya filan qədər adam cəlb edibdir. Mən bu fikirlə razı deyiləm. Biz heç kəsi partiyaya cəlb etmirik və etməyəcəyik. Bizim partiyaya üzv olan adamlar, bizim partiyaya qoşulmaq istəyənlər, bizim partiyaya gələn adamlar ancaq və ancaq öz qəlbinin, öz zehninin hökmü ilə gəlməlidir, öz könlü ilə gəlməlidir. Bilməlidir ki, bu partiya onun bütün arzu və istəklərinə cavab verən partiyadır.

Biz partiyaya yeni-yeni üzvlər qəbul edirik, ancaq partiyaya gələnləri. Partiyaya heç kəsi cəlb etmirik. Bu bizə lazım deyil, qətiyyən lazım deyildir. Xahiş edirəm, mənim bu fikirlərimi həm partiyanın İdarə Heyəti, həm də partiyanın bütün yerli təşkilatları nəzərə alsınlar. Mən əminəm ki, bizim partiya getdikcə inkişaf etdiyinə görə və iqtidarın fəaliyyətindəki uğurlara görə insanlar bu partiyanın nə olduğunu daha yaxşı anlaya bilirlər və bələləri öz talelərini Yeni Azərbaycan Partiyası ilə bağlayırlar. Bizə belə sədaqətli, saf niyyətli və saf duyğularla gələn partiya üzvləri lazımdır".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının üzvlərinə daim yüksək siyasi tələbkarlıq, partiya işlərində fəallıq göstərməyi tövsiyə edərək, onlardan ölkəmizdə gedən proseslərə fəal vətəndaşlıq mövqeyindən yanaşmağı tələb edir. O, partiya üzvlərinə yüksək siyasi mədəniyyətə malik olmaqla cəmiyyətin müxtəlif sahələrində göstərdikləri fəaliyyətlərində məsuliyyətli olmalarını arzulayır.

Prezident Heydər Əliyev bu məsələ ilə bağlı 1998-ci ildə belə deyirdi: "Bizim Yeni Azərbaycan Partiyasının üzvlərinin əksəriyyəti hakimiyyət orqanlarındadırlar - parlamentdədirlər, nazirliklərdə, yerli hakimiyyət orqanlarında işləyirlər. Ona görə Yeni Azərbaycan Partiyasının üzərinə ikiqat vəzifə düşür, bu partiyanın işi mücərrəd xarakter daşıya bilməz. ...Bunlara nail olmaq üçün partiyanın təşkilatlarını daha da gücləndirmək, fəallaşdırmaq lazımdır. Partiya daha da geniş təşkilatlanmalıdır.

...Hər bir siyasi təşkilat gərək inkişafda olsun, hər bir siyasi təşkilat gərək daim gəncləşsin". Yerli partiya təşkilatlarının inkişafı, orada demokratik mühitin yaranması məsələsində Prezident sonrakı partiya tədbirlərində aşağıdakıları deyirdi: "Partiyada demokratik prinsiplər kök salmalı, əsas prinsiplər kimi olmalıdır. Amma eyni zamanda, elə etmək lazımdır ki, ayrı-ayrı adamlar demokratiyadan istifadə edərək öz şəxsi məqsədlərinə nail olmasınlar.

...Bizim partiya yüksək intellekt, biliyə malik bir partiya olmalıdır. Biz bunu nəzərə alaraq istərdik ki partiyanın təşkilatları, onun əsas rəhbər orqanları ziyalılardan, alimlərdən, yüksək biliyə, mütəxəssis keyfiyyətinə malik olan adamlardan təşkil edilsin. Bu tamamilə düzgün yoldur.

...Heç bir şey yerində durmamalıdır. Partiya inkişaf edir, cəmiyyət

inkişaf edir, nəsillər nəsilləri əvəz edir, yeni nəsil yaşlı nəslin yerinə gəlir. Bu, cəmiyyətin təbii inkişaf prosesidir. Biz partiyamızda bunu mütləq nəzərə almalıyıq.

...Konfranslarda, şübhəsiz, imkan vermək lazımdır ki, insanlar nöqsanlar və çatışmazlıqlar haqqında daha çox danışsınlar. Burada iki istiqamət olmalıdır. Birinci, partiyadaxili problemlər haqqında ki, partiyamız daha da möhkəmlənsin, daha da inkişaf etsin. İkinci də ümumiyyətlə respublikamızda, rayonda, şəhərdə gedən proseslər haqqında vəziyyət, nailiyyətlər haqqında, eyni zamanda qüsurlar, çatışmazlıqlar haqqında.

...Partiya təşkilatlarında sağlam əhval-ruhiyyə, səmimi yoldaşlıq əhval-ruhiyyəsi yaratmaq lazımdır. Kim ki, bu partiyaya daxil olubdur, demək partiyanın digər üzvləri ilə eyni fikirdə, eyni əqidədə olan, eyni yolla gedən adamdır. Münasibətlər səmimi olmalıdır... Münasibətlər eyni zamanda prinsipial olmalıdır".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında da partiyadaxili siyasi mədəniyyət məsələsinə toxunaraq deyir: "Partiya canlı orqanizmdir, heç kəs heç vaxt düşünməsin ki, bu partiyada hamı eynidir. Ola bilər, kimsə partiyaya öz şəxsi məqsədləri üçün, partiyadan istifadə etmək üçün gəlibdir. Ona görə partiya həmişə baxır, süzgəcdən keçirir, ələyir.

...Kimsə, haradasa bizim partiyaya mənsubiyyətindən sui-istifadə edirsə, yaxud da ki, partiya üzvü olaraq kimsə müəyyən dövlət orqanlarında vəzifədədirsə, onların səhvlərini heç vaxt bağışlamaq olmaz. Ona görə də partiyadaxili demokratiya, fikir azadlığı mütləq təmin olunmalıdır. Heç kəs, heç nədən qorxmamalıdır. İndi keçmişdəki vaxt deyildir ki, Kommunist Partiyasından kim çıxırdısa, hesab edirdilər o, artıq ölüb getdi. Yox. Yenə də deyirəm, bu partiya könüllülər partiyasıdır. Yeni Azərbaycan Partiyası qəlbən ona bağlı olanların partiyasıdır. Ona görə də gərək partiyadaxili demokratiya bərqərar olsun. Fikir mübadiləsi olsun, fikir azadlığı olsun. Yalnız bu yolla biz partiyamızı həmişə sağlamlaşdıra, daha da mətinləşdirə, daha da gücləndirə bilərik".

Heydər Əliyev Yeni Azərbaycan Partiyası üzvlərini cəmiyyətdə fəal və prinsipial mövqe tutmağa çağıraraq, ümummilli məsələlərin həllində yaxından iştirak etməyi tələb edir: "Partiyanın üzvləri, xüsusən rəhbər orqanlarda olan üzvlər fəal olmalıdırlar. Partiyanın parlamentdə olan üzvləri fəal olmalıdırlar. Ancaq təəssüf ki, mən bir qismində bu fəallığı görmürəm. İndi biz demokratiya şəraitində yaşayırıq. Azərbaycanda demokratik cəmiyyət mövcuddur və formalaşır. Demokratik, hüquqi dövlət qurulur. Geniş mətbuat azadlığı verilib. Azərbaycanda söz, fikir azadlığı, vicdan azadlığı, bütün insan azadlıqları təmin olunubdur. Təbiidir ki, belə bir şəraitdə iqtidara müxalif qüvvələr var. Təəssüf ki, Azərbaycanda bu müxalif qüvvə-

lərin əksəriyyəti sağlam müxalifət deyildir... Belə bir qeyri-sağlam müxalifət indi iqtidara qarşı yalanlar, böhtanlar, uydurmalar - nələr yazmır, hansı şayiələri buraxmır!

...Bizim iqtidar nümayəndələri, partiyanın üzvləri, xüsusən partiyada yüksək vəzifədə olanlar gərək fəal olsunlar. Amma mən belə görürəm ki, bəziləri deputat olub, vəzifə alıbdır, durub kənarda. Nə mübarizəyə qoşulub, nə müxalifətə cavab verib, nə onların yalanını, böhtanını ifşa edib, amma bəzən də onların dəyirmanına su tökür. Ona görə də hesab edirəm ki, hər bir partiya üzvü Azərbaycanın dövlət siyasətini, Azərbaycan Prezidentinin siyasətinin həyata keçirilməsində, müdafiə olunmasında, onun kütlə arasında, vətəndaşlar arasında düzgün təbliğ edilməsində mübariz insan, mübariz əsgər olmalıdır, kənarda durmamalıdır".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasında gənclərin intellektual qabiliyyətlərindən və yaradıcılıq enerjisindən səmərəli şəkildə istifadə etməyi partiyanın qarşısında duran əsas vəzifələrdən biri hesab edir. O, yeniləşən Azərbaycan cəmiyyətinin xoşbəxt gələcəyinin gənclərlə bağlı olduğunu bildirməklə bu sahədə mühüm addımlar atmışdır. Dövlət hakimiyyətinin apardığı dövlət gənclər siyasəti cəmiyyətimizdə gənclərin hərtərəfli şəkildə inkişafı üçün lazımi şərait yaratmışdır.

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının 6-cı ildönümü ilə bağlı keçirilən təntənəli yığıncaqda partiyanın gənclər siyasəti haqqında deyirdi: "Yeni Azərbaycan Partiyasında geniş fəaliyyət göstərmək üçün gənclərə daha da çox imkanlar vermək, şərait yaratmaq lazımdır. Mən bilirəm, hiss edirəm ki, partiyanın artıq çox sağlam əqidəli, çox iradəli gənclər təşkilatı vardır. Bu gənclər təşkilatı həmişə olmalıdır. Amma partiyanın strukturlarına və partiyanın əhatə etdiyi başqa yerlərə bu gənclər təşkilatından daha da cəsarətli gəncləri çəkmək lazımdır. İmkan vermək lazımdır ki, onlar işləsinlər. Bizim müstəqil Azərbaycanın gələcəyi və Yeni Azərbaycan Partiyasının gələcəyi gənclərə məxsusdur, gənclərin əlində olmalıdır".

Heydər Əliyev partiyanın I qurultayına hazırlıq üzrə təşkilat komitəsinin iclasında Azərbaycan gənclərinin qarşısında duran vəzifələr və onların partiya ilə əlaqələrinin gücləndirilməsi ilə bağlı dəyərli tövsiyələr verdi: "Bizim partiyada gənclərin daha da çox yer alması barədə burada məsələ qaldırıldı. ...Gənclərin çoxunda istedad var. Biz bu istedaddan istifadə etməliyik. Gənclərdə işləmək həvəsi, enerji var, ancaq təcrübə azdır. Bizə təcrübə də, yüksək elmi bilik də lazımdır. ...Gənclər və yaşlı nəsil problemi yeni bir problem deyildir. Hər bir cəmiyyətdə, o cümlədən keçmişdə bizim yaşadığımız cəmiyyətdə bu, ən aktual problemlərdən biri olubdur. Yəni, bu, təkcə bizim partiyaya xas olan bir şey deyildir... Gənclər Azərbaycanın gələcəyi olaraq bu gün təcrübələnməli, möhkəmlənməli və Azərbaycanı

gələcəkdə inkişaf etdirməlidirlər".

Heydər Əliyev partiyanın qurultaylarında da gənclər barəsində, onların ictimai-siyasi fəallığının gücləndirilməsi ilə bağlı dövlətin qarşısında duran vəzifələri şərh edir: "Burada çıxışlarda, məruzələrdə qeyd edildi ki, Yeni Azərbaycan Partiyasında gənclərə daha da çox imkan vermək lazımdır. Bu fikri mən keçən görüşlərimdə də demişəm, bu gün də deyirəm. Bu, təbii prosesdir. Mən artıq bəyan etdim ki, Yeni Azərbaycan Partiyası XXI əsrin və üçüncü minilliyin partiyasıdır. Buna görə də bizim gərək gənc kadrlarımız üzə çıxsın, özlərini müxtəlif sahələrdə sınaqdan keçirsin, təcrübə toplasın və XXI əsrdə onlar bizim gördüyümüz işlərin, yaratdığımız bu bünövrənin, ənənənin üzərində qalxan, ucalan və böyük bir dövlətə çevrilən Azərbaycanı irəliyə aparsınlar. ...Əsas məsələlərdən biri Yeni Azərbaycan Partiyasında gənclərin sayını artırmaq, Yeni Azərbaycan Partiyasında gənclərə daha da çox imkanlar vermək, onlara özlərini göstərmək, öz istedadlarını nümayiş etdirmək üçün şərait yaratmaq və Yeni Azərbaycan Partiyasının tərkibini gücləndirməkdən ibarətdir".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında da gənclər məsələsinə xüsusi olaraq toxunur: "Yeni Azərbaycan Partiyasında gənclərin tutduğu yer haqqında məlumatlar verildi. Bu, təbii bir şeydir. Həyat inkişaf edir, nəsillər nəsilləri əvəz edir... Əgər partiyaya sonra gələnlər olmasaydı, bizim partiyanın 230 min üzvü olmazdı... Gərək partiyada gənclərin sayı daha da artıq olsun. Çünki, gənclər bu partiyada birləşməlidirlər. ...Gənclər bizim partiyanın sıralarında xüsusi qayğıya malik olmalıdırlar. Onlara qayğı göstərmək lazımdır. İkincisi də, gənclər arasında geniş iş apararaq, partiyanın nizamnaməsini, məramnaməsini və partiyanın gördüyü işləri onlara anlatmaq lazımdır. Onda əlbəttə ki, gənclər bizim partiyanı yaxşı tanıyacaqlar. Əgər yaxşı tanıyacaqlarsa, doğrudan da bir gənc adam kimi bizim partiyaya məhəbbəti, könlü olacaqsa, onlar bizim partiyaya gələcəklər.

Hesab edirəm ki, bizim partiyanın bu barədə yaxşı gələcəyi vardır. Çünki, indi partiyada olan gənclər, bundan sonra da partiyaya gələcək gənclər bizim gələcək nəsillərimizdir. Onlar 1992-ci ildə Naxçıvanda əsası qoyulmuş və 1993-cü ildən iqtidarda olan partiyamızın gördüyü işlərin davamçısı olmalıdırlar. Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə və bizim partiyaya sədaqətli yol ilə getməlidirlər".

Heydər Əliyevin siyasətində Azərbaycan qadınlarının dövlət idarəetmə orqanlarında peşəkarlığından və intellektual qabiliyyətindən istifadə etmək mühüm yer tutur. Ölkəmizdə səmərəli şəkildə həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızın cəmiyyətin bütün sahələrində

yüksək səviyyədə təmsil olunması üçün geniş imkanlar yaradır. Ulu öndər Yeni Azərbaycan Partiyasının II qurultayında cəmiyyətdə qadınların rolu ilə bağlı bildirir: "Bizim partiyada qadınların xeyli yer tutması da sevindirici haldır. Qadınlar cəmiyyətdə çox həlledici təbəqədir... Qadın ailəni saxlayan bir insandır. Ona görə də bütün qadınlar bizim cəmiyyətdə çox əhəmiyyətli rol oynayırlar. Təkcə dövlət içərisində yox. ...Mən bunları deyərək, qadınların bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etmək istəyirəm. Ancaq eyni zamanda bizim partiyada olan qadınlar, əgər doğrudan könüldən bizim partiyadadırlarsa, onlar bizim üçün çox əzizdir. Çünki, siyasi işlərlə əksərən kişilər məşğul olur. Elə başqa partiyaların tərkibində də həmişə belə olubdur. Amma bizim partiyada qadınların burada deyilən qədər olması (ümumi sayın 38.2%-i) partiyamızın cəmiyyətin bütün təbəqələrini təmsil etməsini göstərir. Partiyamızda, yerli təşkilatlarda qadınlara xüsusi qayğı göstərmək lazımdır. Onların problemləri ola bilər, bunları mütləq həll etmək lazımdır. Onlara kömək etmək lazımdır. Təbiidir ki, bunlar hamısı bizim partiyanın üzvü olan qadınların partiyaya daha da sədaqətlə xidmət etməsinə yardım edəcəkdir".

Heydər Əliyev partiyadaxili vəziyyəti daim diqqət mərkəzində saxlayaraq bu təşkilatın formalaşması prosesində meydana çıxan problemləri aradan qaldırmış, partiyada sağlam mənəvi-psixoloji atmosfer yaratmışdır. O, partiyadaxili demokratiyanın fəal tərəfdarı olaraq Yeni Azərbaycan Partiyasının təşkilati və ideoloji fəaliyyət istiqamətlərinin müəyyənləşməsi üçün kollegial müzakirələrin aparılmasının zəruri olduğunu bildirmişdir. Heydər Əliyev daim partiya üzvlərinə ali dəyərlər uğrunda fəaliyyət göstərməyi tövsiyə etmişdir. O, 1999-cu ildə Yeni Azərbaycan Partiyasının I qurultayına hazırlıq üzrə təşkilat komitəsinin iclasında deyirdi: "Bizim partiya təşkilatlarında bütün danışıqlar, bütün müzakirələr tənqid, özünütənqid, eyni zamanda həmin nöqsanları tənqid prinsipləri əsasında getməlidir".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının mötəbər məclislərindəki çıxışlarında partiyanın göstərdiyi fəaliyyətin, iqtidarın apardığı siyasətin mahiyyəti haqqında ictimaiyyət qarşısında hesabat verməyi, perspektivdə duran məsələlərlə bağlı deyir: "Bizdə müxalifətdə olan qüvvələr hər şeyi görürlər, amma inkar edirlər, bütün mənfi cəhətləri qabardırlar, beş qat da artırırlar, bizim əleyhimizə təbliğat aparırlar. Ona görə də bizim partiyanın ideoloji işi, təbliğat işi çox güclü olmalıdır. Bugünkü iqtidarın gördüyü işləri kütləyə düzgün çatdırmaq, əldə etdiyi nailiyyətləri insanların bilməsi üçün onlara çatdırmaq, eyni zamanda çatışmazlıqları, naqis cəhətləri, qüsurları obyektiv təhlil etmək lazımdır".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya

üzvləri qarşısında dayanan vəzifələr haqqında bildirir: "Partiyanın üzvləri gərək partiya ilə daim bir yerdə olsunlar, partiyanın fəaliyyətini həyata keçirsinlər və partiyanın - Azərbaycan iqtidarının fəaliyyətini geniş təbliğ etsinlər. Bax bu, indiki fikir mübadiləsində və xüsusən, mətbuat vasitəsilə aparılan mübarizədə çox vacibdir, lazımdır. ...Cəmiyyət müxtəlifdir, insanların, vətəndaşların fikir müxtəlifliyi var, bu da təbiidir. Bunların hamısı Yeni Azərbaycan Partiyasından mübariz olmağı tələb edir".

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında partiya üzvləri qarşısında dayanan təbliğat məsələləri ilə bağlı deyir: "Partiyamız gərək təbliğat işləri ilə çox ciddi məşğul olsun. Azərbaycanda biz hakimiyyətə gələndən insanlar üçün tam azadlıq, sərbəstlik, o cümlədən söz azadlığı, mətbuat azadlığı Konstitusiya ilə təmin olunubdur. Biz də bunu əməli surətdə həyata keçiririk. ...Biz böyük partiyayıq, iqtidarda olan partiyayıq. Amma bizimlə mübarizə edənlər var... Bizim partiyamızın üzvlərinin hər biri, partiya təşkilatçıları daim partiyamızın və iqtidarın qorunması üçün öz payını verməlidir, öz xidmətini göstərməlidir".

Bütün mənalı ömrünü xalqına, dövlətinə, Vətəninə xidmətə sərf etmiş ümummilli liderimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının amalı onun ideyalarını yaşatmaq və həyata keçirmək, Azərbaycanın inkişafı, güclənməsi, müasirləşməsi, xalqımızın rifahının yüksəlməsi uğrunda mübarizə aparmaqdır. Hazırda bu müqəddəs vəzifələrin yerinə yetirilməsinə ümummilli liderimiz Heydər Əliyevin davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərlik edir. Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində Prezident İlham Əliyev deyirdi: "Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-cü ildə öz seçimini düzgün etdi. Heydər Əliyevin siyasətinə öz səsini verdi və beləliklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq onu davam etdiririk və çox uğurla davam etdiririk".

Həqiqətən də ölkəmiz sürətlə inkişaf edir, iqtisadiyyatı güclənir, islahatların miqyası durmadan genişlənir. İlham Əliyevin bilavasitə təşəbbüsü ilə qəbul edilən regionların sosial-iqtisadi inkişafı, işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması proqramları uğurla həyata keçirilir. Əsası Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası, Azərbaycanı regionun liderinə çevirmək siyasəti danılmaz reallığa çevrilir. Azərbaycanın regionun lideri olmasına artıq heç kəs şübhə etmir.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunacağı gün də uzaqda deyil. Xalqımız

son illərdə məsələyə dünyanın münasibətinin necə dəyişdiyini, Azərbaycan torpaqlarını işğal altında saxlamağın ermənilər üçün nə qədər çətin olduğunu aydın görməkdədir. Heç vaxt haqqında ağır söz deyilməyən Ermənistanı indi bir çox dövlətlər və mötəbər beynəlxalq təşkilatlar təcavüzkar adlandıraraq suçlayır. Bu, Azərbaycan diplomatiyasının, Heydər Əliyev siyasətinin böyük uğurudur.

"Yeni Azərbaycan Partiyası: 15 il yüksəliş yolunda", s. 516-540

Diplomat peşəsi

İkinci minilliyin sonu bəşəriyyət tarixinə soyuq müharibənin sonu, müstəqil dövlətlərin yaranması, planetin ən azı altıda bir hissəsində keyfiyyət dəyişmələri, yeni dünya üsul-idarəsinin formalaşması dövrü kimi daxil oldu. Beləliklə, Avropa Birliyi, eləcə də dünya birliyi çərçivəsində inteqrasiya prosesinə daha bir təkan vuruldu, dünya siyasi və iqtisadi üsul-idarəsinə müəyyən düzəlişlər edilməli oldu. Qayıdışdan bu yana Azərbaycan Respublikasının xarici siyasəti nəzəri və praktik cəhətdən düşünülmüş, əsaslandırılmış təməl üzərində quruldu, dünyanın bütün ölkələri ilə siyasi, iqtisadi, ticarət, mədəni, diplomatik və s. münasibətlər müəyyənləşdi, sabitləşdi. Bu gün dünyanın müxtəlif ölkələrində Azərbaycan Respublikasının üçrəngli bayrağı dalğalanır. Doğma bayrağımızın dalğalandığı yer isə müstəqilliyimizi, dövlətçiliyimizi təmsil edən səfirliklərdir. Şübhəsiz ki, səfirliklərin səmərəli və operativ fəaliyyət əmsalının maksimum yüksək olması və buna nail olan mexanizmin formalaşması bu gün başqa ölkələrdə olduğu kimi, gənc və müstəqil Azərbaycan Respublikası üçün də önəmli vəzifələrdən biri hesab edilir. Artıq bu fəaliyyət sayəsində qədim və zəngin ənənələri olmayan Azərbaycan elçiləri ildən-ilə təkmilləşərək peşə və təcrübə məktəbini uğurla keçir, ixtisaslaşır və yüksək səviyyəli diplomatlar kimi formalaşırlar. Bu baxımdan dünya təcrübəsinin bəzi məqamlarının araşdırılmasını faydalı hesab edirik. On doqquzuncu əsrin ortalarında Almaniyanın görkəmli dövlət xadimi Bismark Rusiya kansleri K.V.Neselroda Sankt-Peterburqda "parlaq diplomat gələcəyi" vəd edən, iyirmi dörd yaşlı gənc Fridrix Fon Holesteyini təqdim edəndə (1861) qoca kansler üz-gözünü turşudaraq demişdir: "Gələcəkdə nə diplomat olacaq, nə də diplomatiya". O vaxtdan 136 il keçir. Zaman göstərdi ki, Neselrod yanılırmış, əksinə, müasir dünyada diplomantları həm sayı, həm fəaliyyət dairəsi, həm də gördükləri işlərin əhəmiyyəti dəfələrlə artmışdır. Bəs diplomat kimdir? 20-ci yüzilliyin sonunda bu peşənin sahibini fərqləndirən cəhətlər, professionallıq, təhsil forması, xarici görünüşü və s. öz ifadəsini nədə tapır? Bu suallara tam dərinliklə cavab vermək mümkün olmasa da müəyyən ümumiləşdirmələr mümkündür. Diplomatiyaya gedən yollar müxtəlifdir. Elə ölkələr var ki, onların XİN-ləri bu sahədə mütəxəssisləri xüsusi hazırlamaqdan imtina edirlər. İşləri də pis getmir. Fransızlar üçün Milli İdarə Etmə məktəbində keçən yol əsas hesab olunur. İngiltərədə klassik təhsil formasına üstünlük verilir. Almaniyada diplomat peşəsində çalışmaq üçün hüquq və iqtisad sahəsində çalışan mütəxəssislərdən başqa həkim, psixoloq, riyaziyyatçı və başqa peşə nümayəndələri də cəlb olunur. Burada iki dildə danışan hər bir şəxs iki il xaricdə yaşadıqdan sonra diplomatiya məktəbində təhsil almaq

hüququna malik olur. Kanadada XİN-ə işə götürmə mexanizmi iki etapdan ibarətdir: əvvəl ölkə səviyyəsində nazirliyin təşkil etdiyi yazılı müsahibə keçirilir, sonra isə qaliblər şifahi söhbət və praktik testə məruz qalırlar. Bu işlə xüsusi komitələr məşğul olurlar. Bu sahədə vəziyyəti daha da yaxşılaşdırmaq məqsədi ilə 1990-cı ildən xüsusi institutda fəaliyyət göstərir. Bir çox ölkələrdə peşə palitrası daha rəngarəng olur. Beləliklə, professional təhsil baxımından diplomata dəqiq tərif vermək çətindir. Ser Henri Uotonun verdiyi tərif şübhəsiz ki, bəsit və ziddiyyətlidir. O yazırdı: "Səfir xaricdə öz ölkəsinin rifahı naminə yalan danışan vicdanlı adamdır". Təcrübə göstərir ki, diplomatlar heç də həqiqəti deməkdən çəkinmirlər, amma onlarda bunu xüsusi bir məharətlə etmək bacarığı var. Axı, diplomatın əsas xüsusiyyətləri nədən ibarət olmalıdır? Hələ vaxtilə Bismark qeyd edirdi ki, xarici dili bilmək diplomatın əsas keyfiyyətlərindən birir olsa da, bu kifayət deyildir. Əgər söhbət Harlod Nikolsonun müəyyənləşdirdiyi əsas (həqiqətə sadiqlik, dəqiqlik, mülayimlik, soyuqqanlılıq, səbirlilik, sadəlik, lovğalıq) və əlavə (ağıllılıq, biliklilik, cəlbedicilik, çalışqanlılıq, çəsarətlilik və nəzakətlilik) keyfiyyətlərindən gedirsə onlar təkcə diplomatiyada yox, elə idarəetmə, bank, təhsil, səhiyyə və digər sahələrdə də yüksək səviyyəli peşəkarların özündə topladığı keyfiyyətlərdir.

Son illər ərzində beynəlxalq fəallıq daha da artmış və insan fəaliyyətinin bütün sahələrində diplomatların rolu xüsusi əhəmiyyət kəsb etmişdir. Bir tərəfdən dövlətlərin müstəqillilik və suverenlik problemlərinin, digər tərəfdən siyasi, iqtisadi və texnoloji inteqrasiyanın təsiri altında müasir dünyada diplomatların fəaliyyəti müəyyən dəyişikliklərə uğrasa da, onların səmərəliliyi və vacibliyi heç bir şübhə doğurmur. Lakin bu fəaliyyətə, demək olar ki, bütün ölkələrdə mümkün qədər az vəsaitlə maksimum faydalılıq prizmasından baxılır.

Müxtəlif ölkələrdə xarici siyasət xəttinin, diplomatik siyasətin müəyyənləşməsi, formalaşması mexanizmi bir-birinə bənzəməsə də, bu sahədə iki yol daha xarakterikdir. Məsələn, Yaponiya, Kanada, Almaniya, İngiltərə və s. ölkələrdə bu vəzifəni əsasən baş nazirin rəhbərliyi ilə Nazirlər Kabineti həyata keçirir. Yəni xarici siyasət xəttini Nazirlər kabineti formalaşdırdır. Lakin müasir dünya ölkələrinin çoxunda, bu gün xarici siyasəti formalaşdırmaq, onun həyata keçməsinə rəhbərlik və nəzarət etmək vəzifəsi prezidentin üzərinə düşür. Burada heç bir ziddiyyət və anlaşılmazlıq yoxdur. Bu məsələ hər bir ölkədə onun Konstitusiyasına, qanunvericilik sisteminə uyğun olaraq aparılır. Şübhəsiz ki, qarışıq variantlar da var, müasir praktikada onlara da rast gəlinir. Fransa, Rusiya, Polşa, Rumıniya və bir çox respublikalarda xarici siyasət xəttini formalaşdıran şəxs prezidentdir. Azərbaycanda bu sahədə vəziyyət aydın və dəqiqdir. Respublika prezidenti

xarici siyasət xəttini formalaşdıran və aparan şəxsdir. Bu onun Konstitusiya hüququ olduğundan hamı tərəfindən bir mənalı qarşılanır və qəbul edilir. Hakimiyyətin müxtəlif qanadları arasında rəqabətdən söhbət gedə bilməz. Bu hal bildiyimiz kimi, ABŞ-da müşahidə olunur. Elə 907-ci düzəlişi götürək. Bizdə prezidentin səlahiyyətləri Fransa prezidentinin səlahiyyətlərinə nisbətən uyğun gəlir. Almaniyada isə xarici siyasət məsələlərində bəzən ictimai fikir mühüm rol oynayır. Almaniya kansleri Bundestaqın icazəsi olmadan hərbi sahədə mühüm qərarlar qəbul edə bilməz. Yeri gəlmişkən əlavə etmək lazımdır ki, Azərbaycanın indiki vəziyyətində (keçid mərhələsində müstəqilliyin möhkəmlənməsi, milli dövlət quruculuğu və müharibə vəziyyəti) bu variant yeganə, alternativsiz variant hesab edilməlidir.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək nəticə çıxarmalı olsaq üç mülahizəni qabarıq formalaşması göz qabağındadır:

1. Hələlik nəzəri müddəa kimi irəli sürülsə də, səfirlik və diplomatik nümayəndəliklərin maliyyə ehtiyaclarının təmin olunmasında bir sıra inkişaf etmiş ölkələrdə özəl sektorun da müəyyən rol oynaya biləcəyi nəzərdə tutulur. İndi belə bir praktikaya demək olar ki, əl atılmasa da, gələcəkdə həyata keçəcəyi istisna edilmir.

2. Fəaliyyət göstərdiyi dövrdə səfirlik və ya diplomatik nümayəndəlik faydalı və vacib olduğunu nümayiş etdirilməlidir.

3. Müxtəlif fəaliyyət formaları ilə məşğul olmalarına baxmayaraq, səfirliklər və diplomatik nümayəndəlik ən mühüm işi olduqları ölkənin siyasi olduqları ölkənin siyasi və iqtisadi fəaliyyətini izləmək, konfliktləri görmək, qarşısını almaq və onların həll yolunda vacib addımlar atıb təklifləri irəli sürmək bacarığıdır. Bu ənənəvi fəaliyyət forması indi də aktualdır. Ölkənin xarici siyasətlə bağlı qazandığı uğurlarda diplomatların payı mütləq görünməlidir.

Bəs bu gün diplomat kimdir? Bu gün hər hansı bir şəxsin XİN-ə, diplomatik nümayəndəliyə aid olmağından əlavə fəal diplomat daha nə edir? Yəqin ki, bu suala bir mənalı cavab gözləyənləri məyus etməli olacağıq. Çünki cəmiyyət inkişaf etdikcə, artıq diplomat ilə xariclə əlaqəsi olan başqa peşəli şəxslər arasında fərq azalır, beləliklə də diplomatlar tədricən öz monopoliyalarını itirirlər. Bu, ən azı, bir neçə səbəbdən baş verir:

1) Bir vaxtlar diplomatların tam səlahiyyətində olan bir çox məsələlər tədricən beynəlmiləlşir.

2) Müasir nəqliyyat və rabitə vasitələrinin inkişafı diplomatik nümayəndəliklərin və xidmətlərin fəaliyyətinə alternativ imkanlar əlavə edir. Nümayəndə heyətləri, beynəlxalq müşavirələr və s. diplomatiya və siyasətə daha bir çalarlıq gətirir.

3) Deputatların, müxtəlif siyasi partiyaların rəhbər və nümayəndələrinin xarici siyasətə müdaxiləsi də öz təsirini göstərir. Digər tərəfdən isə müxtəlif transnasional şirkətlərin əlaqələri də dövlətlər arasında iki və çoxtərəfli münasibətlərə öz təsirini göstərir. Bu da təbiidir, çünki, demək olar ki, heç bir ölkədə Xarici İşlər Nazirliyi beynəlxalq əlaqələrin tam inhisarçısı deyil və bu, əslində, heç vaxt belə olmayıb. Beynəlxalq əlaqələr indi o qədər mürəkkəb, çoxşaxəli və ixtisaslaşmış xarakter daşıyır ki, bir nazirlik bu böyük yükü təkbaşına daşıya bilməz.

Yuxarıda deyilənləri bu günün reallığı olduğunu nəzərə alsaq diplomat öz fəaliyyəti zamanı, ən azı, aşağıdakı funksiyaları həyata keçirməyə qabil olmalıdır:

a) Baş verən hadisə və prosesləri bütövlükdə ümumiləşdirərək xarici siyasət xəttinə təsir göstərə biləcək hər bir fəaliyyəti təhlil edərək öz ölkəsinin rəhbərliyinə düzgün xətt seçmək imkanı yaradan diplomatlar vəzifələrinin öhdəsindən uğurla gələ bilərlər. Yalnız geniş bilik diapazonuna malik və hadisələrin ümumi mənzərəsini dərindən təhlil etməyi bacaran bir diplomant siyasi rəngarənglikdən baş çıxararaq və onu dövlətlərin maraqlarına uyğunlaşdırmaq imkanı verə bilə qərarlar gətirə bilər. Belə bir şəxs diplomatik nümayəndəliyə rəhbərlik edə bilər. Taleyranın "yaxşı diplomat olmaq üçün təkcə qanmaz olmaq kifayət etmir, həm də nəzakətli olmaq gərəkdir" fikrinin əksinə, diplomat özünü daim ən müxtəlif vəzifələrə hazırlamalıdır. Beləliklə, müəyyən müddət fəaliyyət göstərən diplomat, ümumilikdə, dövlətin xarici və daxili siyasətinin maraq və aspektləri çərçivəsində hərtərəfli və dərin hazırlıq nümayiş etdirməli, xarici siyasət sahəsində hər zaman faydalı məsləhət və təkliflər verməlidir. Bu məsləhət və tədbirlər isə dövlət və hökumət orqanlarından tutmuş Parlamentədək, özəl sektordan tutmuş mədəniyyət təşkilatlarınadək geniş əhatə dairəsinə malik ola bilər

b) Dövlətin və hökumətin xarici siyasət xəttinin formalaşmasındakı rolundan əlavə, diplomatlar başqa qurum və sahələrdə də yararlı olduqlarını sübut etməlidirlər: müxtəlif nazirliklər, Parlament, təşkilatlarda, eləcə də iqtisadi sektorda onların təklif və məsləhətlərindən istifadə olunmalıdır.

c) Diplomatlar kiçik bir heyət ilə çoxşaxəli fəaliyyəti uğurla həyata keçirməyi, bir-birini tamamlamağı bacarmalıdır.

d) Diplomatlar, bir qayda olaraq öz ölkələrində baş verən hadisə və prosesləri dərindən bilməli, onları düzgün qiymətləndirməlidirlər ki, fəaliyyət göstərdiyi ölkənin maraq və ehtiyacları ilə uyğunlaşdırmaq imkanı əldə etmək asan olsun.

Müasir təcrübə göstərir ki, diplomatik nümayəndəliklərin əsas fəaliyyət istiqamətlərindən biri milli və mədəni dəyərlərin təbliğidir. Bu baxımdan

Azərbaycan diplomatları üzərinə daha böyük vəzifələr düşür. Azərbaycanın yeni, gənc müstəqil dövlət olduğunu nəzərə alsaq xalqımızın, millətimizin, zəngin və qədim tarixini, incəsənətini, mədəniyyətini, adət-ənənələrini dünyada tanıtmaq xüsusi aktuallıq kəsb edir. Buna böyük ehtiyac var və bu cəhətdən diplomatlarımızın xüsusi əməyi olmalıdır. Bir tərəfdən ona görə ki, dünya xalqlarının, dünya mədəniyyətinin Azərbaycan mədəniyyəti ilə zənginləşməsi, buna isə böyük ehtiyac var, onunla yaxından tanış olması və onu öyrənməsi təbii və zəruri proses olmalıdır, ikincisi isə dilimizin, incəsənətimizin, mədəniyyətimizin dünya ölkələrinə yol tapması, orada özünə layiq yer tutması xalqlar arasında əməli əməkdaşlıq və yaxınlıq faktoruna çevrilməlidir. Belə yaxınlıq və əməkdaşlıq isə siyasi dialoqa müsbət təsir göstərir. Azərbaycan təkcə Avropa ilə Asiyanı, şimalla cənubu, şərqlə qərbi birləşdirən ölkə, nəqliyyat dəhlizi, geosiyasi məkan yox, həm də mədəniyyət, mənəviyyat körpüsüdür.

Daha bir incə məqama toxunmamaq mümkün deyil. Qəbul mərasimlərini təşkili, onların müasir diplomatik etiketlərə uyğun keçirilməsi də bu gün diplomatların fəaliyyətində vacib məqamlardan hesab edilir. Bu zaman müxtəlif adi və qeyri-adi hadisə və yeniliklərlə bağlı məlumatları dinləyərək təhlil etmək, onları tərəflər arasında əlaqələri müəyyənləşdirmək, ümumiləşdirmək, siyasi intuisiya və mühakimələrdən istifadə etmək auditoriya qarşısında çıxışlar və ikilikdə aparılan söhbətlər zamanı, eləcə də danışıqlar prosesində ustalıq, uzaqgörənlik, yüksək ölçü hissi nümayiş etdirmək – bütün bunlar diplomat fəaliyyəti üçün əhəmiyyətli və vacibdir.

Müstəqilliyimizin və dövlətçiliyimizin indiki mərhələsində diplomatlarımızın qarşısında daha bir müqəddəs vəzifə durur ki, bu da Azərbaycanın son onillikdə erməni silahlı qüvvələri tərəfindən silahlı təcavüzə məruz qalması, ərazisinin 20 faizinin işğal olunması, əhalisinin beşdə birinin qaçqına çevrilməsi ilə bağlı həqiqətləri, Azərbaycanın öz haqq işi uğrunda gərgin mübarizəsinin mahiyyətini ən sivil üsullarla işlədikləri ölkələrin ictimaiyyətinə çatdırmaq və ictimai, siyasi fikir formalaşdırmaqdır. Təəssüf ki, titanik səylər tələb edən bu müqəddəs vəzifənin əsas ağırlığı möhtərəm prezidentin çiyinlərinə düşmüşdür və dünyanın böyüklü-kiçikli müxtəlif ölkə və beynəlxalq təşkilatlarında Azərbaycanın ədalətli mövqeyinin qəbul edilməsinə, müdafiə olunmasına təkbaşına, amma uğurla nail olur.

Kütləvi informasiya vasitələri ilə ünsiyyət və əlaqə onlardan səmərəli istifadə formaları da diplomatik fəaliyyətin ünsürlərindən biri hesab edilir. Müxtəlif ölkələrdə diplomatik kadrlar hazırlayan tədris müəssisələrinin proqramlarının bir bölməsi bu sahəyə həsr olunur.

Azərbaycanın müstəqilliyi tarixi nailiyyətimizdir. Bu müstəqilliyin dönməz və əbədi olması Azərbaycan xalqının öz iradəsi ilə təmin

olunmalıdır. Bu müqəddəs vəzifəni bu gün, müstəqilliyimizin xilaskarı, respublika prezidenti cənab Heydər Əliyev həyata keçirir. Bu çətin və şərəfli tarixi yolda gənc Azərbaycanın xarici ölkələrdəki diplomatlarının da öz payı olmalıdır.

Elə bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin martın 6-da Xarici İşlər Nazirliyinin kollektivi ilə görüş zamanı söylədiyi geniş nitq, şübhəsiz ki, dövlətimizin xarici siyasət xəttinin həyata keçirilməsi yolunda tarixi proqram sənədi olacaqdır. Möhtərəm prezidentimizin qeyd etdiyi kimi, Xarici İşlər Nazirliyinin əsas vəzifəsi prezident tərəfindən müəyyənləşdirən, formalaşdıran və istiqamətləndirilən xarici siyasəti onun bilavasitə rəhbərliyi və nəzarəti altında uğurla həyata keçirməkdən, bunun üçün də "vaxtlı vaxtında lazımı tədbirlər hazırlayıb təqdim etməkdən, təşəbbüskarlıq göstərmək, Azərbaycanın beynəlxalq aləmdə vəziyyətin, xarici siyasət sahəsində apardığı işlərin nəticələrini doğru-düzgün, obyektiv təhlil etməkdən, bunların əsasında təkliflər hazırlayıb dövlətə, prezidentə təqdim etməkdən ibarət olmalıdır". Qeyd etmək lazımdır ki, dövlətimiz və xalqımız qarşısında duran bu müqəddəs vəzifələrin həyata keçirilməsi üçün gözəl zəmin, düzgün qurulmuş xarici siyasət konsepsiyası, uğurlu strateji istiqamətlər artıq bir neçə ildir ki, möhtərəm prezidentimiz Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Bu nailiyyətin qazanılması prezident Heydər Əliyevin dövlətçiliyimizin, suverenliyimizin, müstəqilliyimizin qoruyub saxlanması və möhkəmlənməsi uğrunda bütünlükdə müdrik və uzaqgörən fəaliyyətin, daxili və xarici siyasətin uğurlu vəhdəti nəticəsində mümkün olmuşdur. Lakin prezident Heydər Əliyevin Xarici İşlər Nazirliyindəki toplantıda nitqi bizim siyasətimizin daha güclü, daha təsirli, daha müvəffəqiyyətli olmasını tələb edir. Bunun üçün işlək sistem yaradılması, XİN-in eləcə də respublikamızın kadr potensialında səmərəli istifadə edilməsi ən vacib vəzifələr kimi qarşıya qoyulmuşdur. Əmin olduğumuzu bildirmək istəyirik ki, respublikamızın xarici siyasət idarəsinin yeni rəhbəri bu vəzifələrin öhdəsindən şərəflə gələcəkdir.

"Respublika" qəzeti, 22 oktyabr 1998-ci il

Siyasət olimpinə doğru

Hər dəfə hər hansı iki dövlət arasında siyasi, iqtisadi, mədəni və s. əməkdaşlıq və əlaqələrdən söhbət gedəndə görkəmli dövlət xadimi U.Çörçillin məşhur "Böyük Britaniyanın daimi dostları yoxdur, daimi maraqları var" kəlamını istər-istəməz yada salıb, hadisələrə bu prizmadan baxaraq təhlil edib yekunlaşdırdıqda, ölkələr arasında olan mehriban dostluq münasibətlərinə əsla xələl gətirmədən olar. Amma qeyd etmək və düzgün nəticə çıxarmaq lazımdır ki, dövlət və siyasi xadimlərin əsl müdrikliyi və məharəti də elə bu maraqları müəyyənləşdirmək, üzə çıxarmaq və onların alternativi olmadığını sübut etməkdədir. Müasir dünyada müxtəlif geosiyasi situasiyalarda yerləşən dövlətlərin özlərinin mürəkkəb münasibətlər sistemində fəaliyyət göstərdiyini nəzərə almalı olsaq bir-birinə ən yaxın iki dövlətin maraqları belə tam üst-üstə düşmür və düşə də bilməz.

Şübhəsiz ki, ən müxtəlif – siyasi, iqtisadi, hərbi, ticarət, mədəni və s. sahələrdə başqa dövlətlərlə üst-üstə düşən maraqların optimal modellərinin yaradılması və onların uğurla həyata keçməsi dövlətin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə, onun mövcudluğunun, müstəqilliyinin və bütövlüyünün təmin olunmasına, sabitliyinə, inkişaf etməsinə və çiçəklənməsinə zəmin yaradan əsas faktordur. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü il qayıdışından bu günədək yorulmadan fəaliyyəti dövlətçiliyin sabitliyi, bütövlüyü və möhkəmləndirilməsi yolunda tarixi örnək və nümunədir.

Azərbaycan dövlətinin quruculuq prosesini səciyyələndirən iki ən mühüm amil, bir tərəfdən SSRİ-nin dağıldığı dövrdə, respublikamızda da sovet rejimindən qalan mexanizmin dağılması və başda oturanların idarəçilikdə tam naşılığı, ikinci tərəfdən isə, bu heç kimə sirr deyil, müstəqil dövlətçilik ənənələrinin, institutlarının olmaması qarşıda duran vəzifələri olduqca çətin və mürəkkəb edirdi. Müasir geosiyasi və geoiqtisadi faktorları nəzərə alsaq, dünyanın ən mühüm tərəflərinin birləşdirdiyi bir bölgədə, tarixən xarici siyasətində imperiya iddialarının müəyyənedici faktor kimi formalaşdığı dövlətlərlə əhatədə olan Azərbaycanı xilas etmək üçün yalnız qeyri-adi dövlətçilik təcrübəsi və müdrikliyi olan şəxsiyyət lazım idi ki, onu da sanki tale özü qoruyub saxlayıb. Məlumdur ki, yeninin qurulması prosesi, bir qayda olaraq, köhnə stereotiplərin dağılması, təzələrin formalaşması prosesi ilə müşayiət edilməlidir. Cəmiyyətdə isə stereotiplərin bir-birini əvəz etməsi həmişə çox vaxt aparır, özü də bir deyil iki deyil hər birimizin gündəlik fəaliyyət zamanı hərəkət və addımlarımızdan tutmuş, beynəlxalq aləmdə mövcud olan "parçala və hökm sür"ədək, yəni müxtəlif dövlətlərin münasibətində formalaşmış stereotiplərin hamısından söhbət getməlidir.

Cəmiyyətimiz daxilində mövcud stereotiplərin transformasiyasının da çox vacib və əhəmiyyəti olduğunu (hakimiyyət hərisliyi, burda mənəm Bağdadda kor xəlifə, məndən ötdü kimə dəyir dəysin, şəxsi mənafeyinin birinciliyi, bütün məsələlərin həllini birinci şəxsin üstünə atmaq və s. və i.a. sadalamaqla qurtarmaz) başa düşürük. Şübhəsiz ki, bu sahədə də gənc dövlətimiz qarşısında önəmli vəzifələr durur və əlaqədar institutlar, müəssisələr, qurumlar, eləcə də hər kəs köhnə stereotiplərin aradan qaldırılması üçün əlindən gələni etməlidirlər. Bir dəfəlik, hamı anlamlıdır ki, müstəqilliyi qazanmaq və onu qoruyub saxlamaq ən müqəddəs vəzifə olduğu qədər də çətindir. İndi sovet dövründəki kimi bütün ümidləri başqa tərəfə bağlamaqla və yaxud sakitcə oturub göydən bir alma düşməyini gözləməklə heç nəyə nail olmaq mümkün deyil. Əgər bir xalq, bir millət, bir dövlət kimi müstəqil firavan həyata layiq olmaq istəyiriksə, qarşımızda duran problemləri birlikdə həll etməliyik. Bu baxımdan tale bizə elə prezident bəxş edib ki, onun qurduğu konsepsiyadan, özünün zəngin nəzəri və praktik irsindən, gündəlik müdrik fikir, ideya və məsləhətlərdən, çıxış və söhbətlərindən bəhrələnmək günümüzün tələbi olaraq Yeni Azərbaycan dövlətçiliyinin prinsiplərinin xarici siyasət konsepsiyasının və diplomatiyasının formalaşmasında önəmli məktəbdir.

Keçdiyimiz dörd il ərzində addım-addım, etap-etap, dərindən düşünülmüş və hərtərəfli əsaslandırılmış xarici siyasət konsepsiyasının və diplomatiyanın strateji istiqamətlərinə istinad edərək onları ümumiləşdirsək bu sahədə indiyədək görülmüş işlərin bir-biri ilə üzvi surətdə sıx bağlılığı və bir məqsədə - Azərbaycanın dövlət müstəqilliyinin, bütövlüyünün və çiçəklənməsinin təmin olunmasına xidmət etdiyi gün kimi aydın olur. Bir neçə cümlə ilə, icmal şəklində nəzərdən keçirsək belə - Azərbaycan Respublikasının Prezidenti kimi ilk rəsmi xarici səfərini Fransa Respublikasından başlayaraq bu ölkə ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, qardaş Türkiyə Respublikası ilə ən yaxın dostluq və əməkdaşlıq münasibətlərinin tam qarşılıqlı anlaşma zəminində formalaşdırılması, neft yataqlarının işlənməsi, istehsalı, neft məhsullarının daşınması sahəsində maraqlı ölkələrlə bağlı zərgər dəqiqliyi ilə tarazlanmış optimal əməkdaşlıq modellərinin, eləcə də Orta Asiya neft və qazının dünya bazarına çıxarılması da tərəfdaşlıq layihəsinin yaradılması, Ukrayna, Gürcüstan, Türkiyə ilə bir tərəfdən, Orta Asiya ölkələri ilə digər tərəfdən uzunmüddətli strateji əməkdaşlıq platformasının işlənib hazırlanması, Avropa Birliyi, Şimali Atlantika İttifaqı və Avropa Şurası ilə sıx əməkdaşlığın qurulması, ATƏT çərçivəsində aparılan titanik fəaliyyət nəticəsində bir çox qərarların, xüsusilə Lissabon Sammitində ermənilərı mənəvi və hüquqi məğlubiyyətə uğradan tarixi bəyannamənin qəbul edilməsi, fövqəlqonşu Rusiya ilə münasibətlərdə yeni bir mərhələyə, mehriban qonşuluq və əməkdaşlıq mərhələsinə keçid, Minsk qrupuna Təh-

lükəsizlik Şurasının üzvü üç fövqəl dövlətinin həmsədrliyi və nəhayət siyasət Olimpinə - Vaşinqtona rəsmi səfər – bütün bunlara nail olmaq üçün nə qədər gərgin əmək, yuxusuz gecələr sərf olunduğunu təsəvvür etmək artıqdır. Bəzi günlərin şahidi olduğum üçün, qətiyyətlə deyirəm: günlər var aya, ilə bərabər olur. Lakin bu gün bütün bunlar bizim yaşadığımız reallıqdır, özü də onun sxematik şəkildə sadalanmasıdır. Çünki dərin şərh və təhlil vermək lazım gələrsə prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasının və diplomatiyasının prinsiplərinin göstərdiyimiz sahə və istiqamətlərin təkcə birində gerçəklənməsinə həm indi, həm də gələcəkdə fundamental tədqiqat əsərləri həsr ediləcək, bu yorulmaz, dönməz titanik fəaliyyətin əsl qiymətini zaman və tarix özü verəcəkdir.

Amma elə bu gün də hamıya aydındır ki, məlum səbəblər üzündən tam müstəqilliyə doğru irəlilədiyimiz dörd il ərzində keçdiyimiz yol ən çətin sınağa çevrilmişdir. Özü də müstəqilliyə nə qədər çox can atırıqsa qarşımızdakı maneələr bir o qədər böyük olur. Elə Dağlıq Qarabağ onların ən birincisi deyilmi? Əminəm ki, respublika əhalisinin böyük çoxluğu bu illər ərzində Azərbaycanın xarici siyasət platformasında Dağlıq Qarabağ münaqişəsinin hansı yeri tutduğunu, onun həlli yollarının araşdırılması prosesində həm daxili, həm də xarici siyasət konsepsiyasına müəyyən korrektivlərin əlavə olunmasını yaxşı başa düşürlər. Keçmiş SSRİ məkanında yaranan müstəqil dövlətlərin heç biri Dağlıq Qarabağ məsələsi kimi münaqişə ilə rastlaşmayıb, özü də bu münaqişə, möhtərəm prezidentimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Avropanın SSRİ dağılandan sonra yaranmış ən köhnə münaqişəsidir.

Bir tərəfdən münaqişəni törədən səbəblər, həyata keçirən qüvvələr haqqında ətraflı məlumatımız olduğu üçün, digər tərəfdən isə son illərədək dünya dövlətləri birliyində həm Azərbaycan haqqında olduqca az və bəsit, həm də Dağlıq Qarabağ və münaqişə barəsində isə ermənilər tərəfindən tamamilə yalan, böhtan və qondarma informasiyaların yayıldığı üçün Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya dövlətlərinə yaymaq, onların rəhbərlərinə kimin haqlı, kimin aqressor olduğunu çatdırmaq, respublikaların irticaya məruz qaldığına inandırmaq, heç də asan və hamar yolla getməyib. Nankor qonşularımızın beynəlxalq aləmdə özləri haqqında formalaşdırdığı "soyqırımının qurbanı" "müqəddərat mübarizəsi" kimi stereotiplərin də yalan, saxta zəmin üzərində quruculuğunu sübut etmək həmişə asan olmayıb.

Ata-babalardan gözəl məsəl qalıb: həqiqət nazilər, ancaq üzülməz. 3 ildən artıq davam edən atəşkəsə nail olmaqla möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının əsas məqsədi həyatda ən qiymətli nemət olan insan həyatını qorumaq idisə, o, bu vaxtdan həm də Azərbaycanın həqiqətlə-

rini, onun haqq mübarizəsini sammitlərdə, müxtəlif yüksək səviyyəli iki və çoxtərəfli görüşlərdə və s. və i. a. Yaymaq, sübut etmək üçün istifadə etdi və buna nail oldu da, bu isə Avropa və dünya dövlətlərinin Azərbaycanın mövqeyini müdafiə etməyə məcbur etdi və Ermənistan isə, bu da həmin fəaliyyətin məntiqi nəticəsidir, təkləndi, izolyasiyada qaldı.

Qədim yunanlardan bizə belə bir fikir qalıb: Allahlar kimsə pislik etmək istəyəndə, əvvəlcə onun ağlını alardılar. Ermənilərlə bağlı, bu fikir, deyəsən, elə bu gün də qüvvədədir. 15 iyun 1993-cü il - Qayıdış günündən bu günə qədər görülən bütün tədbirlər – xüsusilə Lissabon Sammitində ermənilərin mənəvi məğlubiyyətinə səbəb olan bütün Avropa dövlətlərinin qəbul etdiyi bəyanat – Dağlıq Qarabağ münaqişəsinin həlli prinsiplərini Minsk qrupunun həmsədrləri – üç fövqəldövlətin – ABŞ, Rusiya və Fransanın qətiyyətlə dəstəkləməsi münaqişənin bu prinsiplər əsasında elə bu ilin sonunadək həll etməyin zəruri olduğunu vurğulayır. Elə bu zərurəti başa düşərək son bir neçə ayda Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan rəhbərləri ilə bir neçə dəfə görüşmüş, danışıqlar aparmış, özləri məsləhətləşmişlər. Həmin ölkələrin prezidentləri həm öz aralarında, həm də möhtərəm prezidentimiz Heydər Əliyev cənabları ilə danışıqlarda münaqişəni həll etməyin vaxtı çatdığını bildirmişlər. Həmin fikir, iyulun əvvəllərində möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının Moskvaya rəsmi səfəri zamanı prezident Boris Yeltsinlə, ondan bir neçə gün sonra Madrid Sammitində Fransa prezidenti Jak Şirak və ABŞ prezidenti Bill Klintonla görüşlərdə də qətiyyətlə səslənmişdir. Möhtərəm prezidentimizin, nəhayət, siyasət olimpinə - Vaşinqtona rəsmi səfəri zamanı Ağ Evdə Prezident Bill Klinton ilə Azərbaycanı maraqlandıran bir sıra fundamental və vacib əməkdaşlıq məsələləri ilə yanaşı Dağlıq Qarabağ münaqişəsi və onun sülh yolu ilə ədalətli həlli haqqında da, bir daha ətraflı və geniş söhbət aparılacaqdır. Əminik ki, bu günlərdə üçrəngli Azərbaycan Bayrağı dalğalanan siyasət Olimpində - indiyədək addım-addım, etap-etap görülmüş işlərin, dərindən düşünülmüş və müdrikliklə qurulmuş xarici siyasət konsepsiyasının nəticəsi kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda – yeni mərhələyə - ilk mövqelərə qayıdış mərhələsinə daha vacib addım atılacaqdır.

"Səs" qəzeti, 2 avqust 1997-ci il

Gerçəkliyi qəbul etmək müdriklikdir

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının ABŞ-a dövlət səfərindən ötən iki ay ərzində bu mövzu ABŞ, Azərbaycan, eləcə də dünya kütləvi informasiya vasitələrində özünə geniş yer tapmış, ona müxtəlif məqalələr, təhlillər, münasibətlər həsr olunmuş və olunmaqdadır. Mübaliğəsiz demək olar ki, Amerika-Azərbaycan əlaqələrində XXI əsrə qapı açmış bu tarixi səfər – bir tərəfdən də qayıdışdan bu günə kimi müstəqil azərbaycan dövlətinin xarici siyasət kosepsiyasının yaradılması və tam formalaşması dövrünün yekunu hesab edilməlidir. Bu zirvəyə qədər olan dövrdə Azərbaycan Respublikası olduqca çətin bir vəzifini yerinə yetirərək özünü dünya ölkələri birliyi sırasında müstəqil, hüquqi, dünyəvi, demokratik, uğurlu islahatlar aparan gənc bir dövlət olduğunu təsdiq etdi, yeni yaranmış müstəqil dövlətlər arasında ən şərəfli və ləyaqətli yol tutduğunu, öz haqq işi uğrunda müdriklə, qətiyyətlə ardıcıl mübarizə apardığını nümayiş etdirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev cənablarının siyasət olimpinə səfəri respublikamız üçün özünü təsdiq zirvəsi ilə üst-üstə düşdü. Bu gün Azərbaycan Respublikasının demokratiya, bazar iqtisadiyyatı yolunda inamla addımladığı və bu yolda uğurlu islahatlar apardığı heç kimdə şübhə oyatmır.

Şübhəsiz ki, XX yüzilliyin sonu XXI əvvəllərində Qafqazda yeni geosiyasi və geoiqtisadi durumun formalaşması və başa çatması prosesi bir tərəfdən bölgə dövlətlərinin, digər tərəfdən dünya birliyi dövlətlərinin maraqları çərçivəsində yeni dünya üsul-idarəsinin yaranmasına güclü təsir etməlidir. Avropa ilə Asiya arasında Ukrayna, Gürcüstan, Azərbaycan, Orta Asiya respublikalarının fəal iştirakı nəticəsində tarixən mövcud olmuş və yenidən bərpa edilən İpək Yolunun – Avrasiya nəqliyyat dəhlizinin dünya inteqrasiya prosesinə təsir edən amillərdən biri olaraq əməkdaşlıq və təhlükəsizlik dəhlizinə çevrilməsinin zəruriliyi göz qabağında olsa da, bunun reallaşması, tam fəaliyyət göstərməsi üçün bütün tərəflərin xoş məramları və qəti addımları labüddür.

Dünya inteqrasiya prosesinin bu zəncirinə alternativin olmadığı şübhəsizdir, bu zamanın hökmüdür və reallaşmalıdır. Reallaşma prosesi isə qonşu dövlətlərin münasibətlərindən asılı olaraq tez və ya bir qədər gec həyata keçə bilər. Özünü bu əməkdaşlıq dəhlizindən bir qədər kənarda hesab edən və imperiya iddialarından hələ də xilas ola bilməyən Rusiya sözügedən bölgənin tədricən onun təsiri dairəsindən çıxmasından və Azərbaycanın burada özünə layiqli aparıcı mövqe qazanmasından narazı qalsa da, XXI əsrin reallıqları ilə razılaşmağın optimal və səmərəli yol olduğunu görməyə qabil olmalıdır. Yalnız tam inam və mehribanlıq zəminində qurulan əməkdaş-

lıqdan Rusiya özünü siyasi, iqtisadi, mədəni və s. maraqlarını bütövlükdə və qat-qat artıqlaması ilə təmin edə bilər.

Üstəlik indi də görmək heç də çətin deyil Şimalla Cənubu birləşdirən əməkdaşlıq dəhlizində də Azərbaycan mühüm rol oynaya bilər. Axı dünya inteqrasiya prosesləri dərinləşdikcə, bölgədə kommunikasiya vasitələri də artmalı və genişlənməli, dəmiryol xətləri çəkilməli, müxtəlif dəniz və hava limanları tikilməlidir.

Respublika Prezidentinin Amerika səfəri forma, məzmun, eləcə də əldə edilən nəticələrə görə gözlənildiyindən də daha uğurlu keçdiyindən, Azərbaycan və ABŞ arasında strateji əməkdaşlıq münasibətlərinin möhkəm təməlini qoyduğundan, şübhəsiz, bəzi ölkələr də qısqanclıq və həsəd hisslərini gücləndirməyə bilməzdi. Öz xarici siyasət doktrinasında bütün dünya ölkələri ilə maraqlar balansını həmişə gözləyən, bu tarazlığı daimi diqqət mərkəzində saxlayan Azərbaycan rəhbərinin gərgin əməyinin uğurlu nəticəsi yaxın qonşularımızdan bəzilərini, xüsusilə Rusiyanı ciddi narahat etdi və reaksiyanı çox gözləməli olmadıq. Arabir fəaliyyətini dayandıran təzyiqi və təsiri mexanizmi işə düşdü, böyük qonşumuzun ənənəvi ambisiyalarından əl çəkə bilmədiyi bir daha məlum oldu. Halbuki, iyul ayının əvvəllərində möhtərəm prezidentimizin Moskvaya rəsmi səfəri zamanı Rusiya rəhbərliyi tərəfindən verilən bəyanatlar və vədlər başqa idi. Rusiyada, sadəcə olaraq, başa düşmək istəmirdilər ki, Azərbaycanın müstəqillik konsepsiyasında Rus qoşunlarına yer verilməməsi və verilməyəcəyi ilə bağlı bəyanatlar onun suveren dövlət hüququdur, yaxud Azərbaycanla Rusiya arasındakı müxtəlif ikitərəfli münasibətlərin Rusiyanın istədiyi, daha doğrusu, qəbul etdirmək istədiyi müstəvidə qurulmasının səbəbini hər şeydən əvvəl, onun özünün bir qrup rəhbərlərinin və ya rəhbər dairələrinin Azərbaycana qarşı yeritdiyi qərəzli xarici siyasətdə axtarmaq lazımdır. Rusiyada çox tez unudulur ki, Azərbaycan bütün dövlətlərdə ona sadiq bastion və faydalı müttəfiq olmuşdur. Təkcə İkinci Dünya müharibəsini xatırlamaq kifayətdir. Əvəzində isə Azərbaycana öz müstəqilliyini qazandığı ərəfədə çoxdan hazırlanmış Qarabağ düyünü XX əsrin son iki onilliyin ən dəhşətli faciələrindən biri "bəxş" edildi. Tarix boyu imperiyaların heç biri əbədi olmayıb, ən yaxşı halda onlar elə 200-250 il mövcud olmuşlar. Lakin XX əsrin əvvəllərindən başlayan parçalanma prosesində Qərb metropoliyaları öz müstəmləkələrinə qarşı münasibətdə, təcrübə göstərir ki, bir qayda olaraq, sivil və səmimi əməkdaşlıq mövqeyinə daha üstünlük vermiş və bununla da həm özlərini, həm də dünya birliyinin inkişafında müsbət rol oynamışlar. Dünya dövlətlər birliyinin, bəşəriyyətin inkişaf istiqamətində reallıqla hesablaşmaq, ümumbəşəri maraqlara üstünlük vermək zamanın tələbinə çevrilməklə bütün dövlətlər tərəfindən dərk olunmaq zorunda olacaq.

Qafqaz bölgəsinin belə bir yeni keyfiyyət kəsb etməsi, Azərbaycanın buradakı rolu İran tərəfindən də birmənalı qarşılanmır, lakin tariximizi, adət-ənənələrimizi, din və mədəniyyətimizin bir-birinə bağlılığı, həddən artıq yaxınlığı, siyasi, iqtisadi, mədəni və başqa sahələrdə əməkdaşlıq zərurəti bu günün gerçəkliyi, Azərbaycanla İran arasında bütün münasibətlərin səmimi dostluq, mehriban qonşuluq zəminində qurulması isə zamanın tələbidir, XXI əsrin tələbidir, nəhayət, bəşər cəmiyyətin evolyosiyasının zəruri amilidir ki, bunu görmək, dərk etmək çətindir.

Yalnız XX əsrə nəzər salsaq, cəmiyyətin inkişafının ümumi istiqamətini aydın görərik və müxtəlif ölkələrin müxtəlif dövrlərdə bu axına qoşulmaları da göz qabağındadır. Müəyyən müddət ümumi inkişaf istiqamətindən kənarda qalmaq, ona müqavimət göstərmək və s. mümkündür, lakin bu əbədi ola bilməz. Buna görə də İran ümumi inkişaf prosesinə, hadisələrin inkişafına öz maraqlarına uyğun həlledici təsir göstərmək niyyətindən xilas olmalıdır. Əks halda, onun özündə gedən proseslər güclü əks təsirə məruz qala bilər. İran, XXI əsrdə, öz daxilində sabitlik və çiçəklənmə təmin etmək üçün bütün səylərini cəmləşdirməli, daha səmimi və mehriban qonşuluq təməlində əməkdaşlıq prinsiplərinə sadiq olmalıdır. Qafqaz bölgəsində sabitliyin və əmin-amanlığın bərpa olunması həm İran, həm də bütün yaxın Şərq üçün olduqca önəmlidir. Son vaxtlar Rusiyanın Azərbaycan siyasətində müəyyən dəyişikliklər baş versə də Rusiya hakimiyyət dairələrində müəyyən qüvvələr hələ də Azərbaycanı tam təsir dairəsində saxlamaq məqsədi ilə müxtəlif vasitə, imkan və bəhanələrdən belə istifadə etməkdən çəkinmirlər. Rusiyanın Ermənistan, İran, Türkmənistan hətta Gürcüstan ilə münasibətlərinin bəzi məqamlarında bu xətt aydın müşahidə olunur. Bir şey aydındır ki, bu siyasət ümumi inkişaf prosesini, yalnız və yalnız ləngidə bilər. Son bir neçə ildə aparılan müşahidələr göstərir ki, Rusiyanın Azərbaycan siyasəti, məhz iki əsas müstəvi üzərində qurulur. Rusiya bu regionu öz təsir dairəsində saxlamaq məqsədi ilə çoxsaylı təzyiqlər göstərməklə müstəqil inkişafımız yolunda maneələr yaradır və gələcəkdə həmin xətti həyata keçirmək imkanı verən, onu təmin edə bilən dayaq məntəqəsində Ermənistanda öz mövqelərini gücləndirir. Ümumiyyətlə, bu gün Rusiyanın Azərbaycana münasibətinin tarixinə nəzər saldıqda, bu konsepsiyanın, müəyyən mənada, korluğuna, qərəzliyinə, absurdluğuna heyrətlənməmək olmur. Rusiyanın bu regiona münasibətinin anatomiyası "parçala, hökm sür" instinkti üzərində kökləndiyi aydın görünür. Təəssüf ki, bu prinsipdən əl çəkmə hiss olunmur. Ən qədim dövrlərdən indiyədək aparılan tarixi araşdırmalar və onların təhlili göstərir ki, Rusiyanın Qafqaz siyasəti həmişə qərəzli iddialar üzərində kök salmış və bu iddiaların həyata keçməsi üçün Ruslar müxtəlif dövrlərdə dəyişməz

prinsiplərə sadiq qalaraq təkrar-təkrar xüsusi təzyiq və təsir üsulları nümayiş etdirmişlər. Elə bu səbəbdən də Rusiya heç vaxt Qafqaz üçün səmimi, xoş niyyətli tərəfdaş olmaq haqqında düşünməmişdir. Hətta son onillikdə hadisələrin ildırım sürətilə çözülməsi, SSRİ düyünün açılması və düyün açılan zaman iplərin qırıq-qırıq müxtəlif tərəflərə dağılması belə Rusiyanın müəyyən qüvvələrini bu zəmində düşünməyə məcbur edə bilməmişdir. Sual olunur, əgər iki yüz il ərzində indiki müstəqil dövlətlərin sağlam interqrasiyasına nail olmaq mümkün olmayıbsa, onlarda buna inam qalmayıbsa, indiki, özü də bu xarakterli cəhdlər əbəs deyilmi? Azərbaycan Rusiya ilə münasibətlərində əsrlər boyu səmimilik və mehribançılığa, sərfəli və uzunmüddətli əməkdaşlığa can atmışdır. MDB-nin əsas üzvlərindən biri MQ-nin həmsədri Rusiya iki qonşu ölkə arasındakı münaqişəni həll etmək, yoluna qoymaq əzmində olduğunu dəfələrlə vurğulasa da əməldə Azərbaycanla müharibə aparan, onun torpaqlarının iyirmi faizini işğal edən, 1 milyondan artıq vətəndaşını didərgin salan bir dövlətlə təhlükəsizlik haqqında müqavilə imzalayır, bir qədər əvvəl isə ora bir milyard dollar dəyərində silah göndərir. Rusiyanın Azərbaycanla bərabərhüquqlu, müstəqil münasibətlər qurması, planetin yeni siyasi reallığını qəbul etməsi, bu gerçəkliklə razılaşması tarixi zərurətdir, tarixi zərurəti qəbul etmək isə müdriklikdir. Bu gün artıq reallıqdır ki, Azərbaycan Respublikası müstəqil, hüquqi, dünyəvi və demokartik inkişaf yolu seçmişdir və bu yolda uğurla addımlayır. Bu gün artıq reallıqdır ki, mühüm geosiyasi və geoiqtisadi bölgədə yerləşən Azərbaycan Respublikasının üzərinə bir çox məsələlərdə koordinatorluq missiyasını yerinə yetirmək düşüb. Bu gün artıq reallıqdır ki, Azərbaycan Respublikasında xarici qoşunlar və islam təməlçiliyi yoxdur. Bölgədə maraqlar balansının tarazlığını təmin etməklə Azərbaycan möhkəm və uzunmüddətli sülh və təhlükəsizliyi təmin edə bilər. Bu gün artıq reallıqdır ki, Azərbaycanın əməkdaşlıq qapıları bütün ölkələr üçün açıqdır. Azərbaycanın coğrafi mövqeyi imkan verir ki, o, XXI əsrdə dünya iqtisadi əməkdaşlığında yeni və mühüm səhifə açsın. Azərbaycan buna hazır və qadirdir.

"Respublika" qəzeti, 18 sentyabr 1997-ci il

Cəmiyyət, iqtidar, müxalifət

Öncə etiraf etmək istəyirəm ki, oxuculara təqdim etdiyim mövzu haqqında fikirlərimi bölüşmək istəyi məni çoxdan narahat edirdi. Mövzunun müasir cəmiyyətimiz üçün son dərəcə aktual, vacib olması, əminəm ki, heç kimdə şübhə doğurmayacaq.

Əgər qeyd etsəm ki, müstəqil Azərbaycanımızın bugünkü durumunda həm formal, həm də qeyri-formal olaraq cəmiyyətin bütün zümrələrinin müxtəlif dövlət və hökümət strukturlarında təmsil olunduğu təkzibolunmaz faktdır, sensasiya yaratmış olmaram.Ola bilsin ki, mənim bu fikrimin opponentləri də ola bilər. Amma dediklərim həqiqətdir. Heç də sübut etməyə ehtiyac yoxdur ki, müxtəlif dövlət və hökümət strukturlarında, idarə və müəssisələrdə həm müxalifətin indiki qurum və partiyalarını dəstəkləyən, həm də Mütəllibov, Vəzirov, Surət və bu kimi keçmiş rəhbər və rəhbər kimilərin maraqlarına xidmət edən və rəğbət bəsləyən şəxslər vardır. Bunu həmin adamların özləri də, ictimaiyyət də yaxşı bilir. Bu, məsələnin bir tərəfidir. Məsələnin ikinci tərəfi ondan ibarətdir ki, haqqında söhbət gedən adamların müəyyən hissəsi bu gün əqidəsini, məsləkini dəyişib kifayət qədər maskalana bildiyini güman edir. Son illərdə Azərbaycanda hadisələrin və dünyagörüşlərinin sürətlə inkişaf etməsini və bir-birini əvəz etməsini nəzərə almalı olsaq yuxarıda qeyd etdiyim vəziyyəti, bəlkə də normal qəbul etmək olar. Fikir şəxsi əqidənin məhsulu olmasa da, real gerçəkliyin ifadəsidir. Gerçəkliyi isə qəbul etməliyik və edirik. Əlbəttə, mənimlə razılaşmayanlar da haqlıdırlar və bələləri də çoxdur. Elə bu çalarlıq bu gün demokratik, hüquqi və dünyəvi cəmiyyət quran müstəqil Azərbaycan Respublikasının ümumbəşəri dəyərlərə söykənərək inkişaf etməsini göstərən amildir. Lakin təkcə o yox.Bu həm də son bir neçə ildə qaynar və təbəddülatlı dövr keçmiş və qiymətli sərvət kimi müstəqilliyini və dövlətçiliyini qazanmış Azərbaycanın bu sərvətləri saxlamaq naminə onun rəhbərinin milli barışıq və milli zəminində müdrikliklə atdığı addımdır. Bu addım bu gün milliyətindən, əqidəsindən asılı olmayaraq respublikamızın bütün vətəndaşlarına müstəqilliyimiz, dövlətçiliyimiz, milli maraqlarımız ətrafında birləşmək imkanı yaradıb və bu yolda qapılar hamının üzünə-açıqdır. Səriştəsiz, burnunun ucundan, cibindən vəzifəsindən o tərəfi görə bilməyən əski rəhbərlərin xəyanətkar fəaliyyəti ucbatından torpaqlarımızın beşdə birinin erməni işğalı altına düşdüyün, bir milyon soydaşımızın qaçqın həyatı yaşadığını və bu problemlərin həll edilməsi yolunda son dərəcə gərgin əmək və fəaliyyət birliyinin zəruri olduğunu başa düşdüyümüz üçün yuxarıda qeyd etdiyimiz addımın nə qədər müdrik olduğunu və hamını müdrikliyə çağırdığını görməmək mümkün deyil. Hətta bunlar olmasaydı belə SSRİ dağılandan sonra,

onun xarabalıqları üzərində yeni infrastrukturlu, ümumbəşəri dəyərlərlə formalaşan və onlara sadiq vətəndaş cəmiyyəti qurmaq belə titanik fəaliyyət-hamının səylərinin birləşdirilməsini tələb edərdi. Əminəm ki, Yeni Azərbaycanın qurucusu bunların incəliklərinə qədər görmüş, təhlil etmiş, bu səbəbdən də ümumxalq səsvermə nəticəsində respublikaya, prezident seçiləndən sonra içdiyi anda sadiq qalaraq müqəddəs amallar uğrunda, müstəqilliyimizin,dövlətçiliyimizin əbədiliyi, onların ideoloji əsaslarının formalaşmasının ən vacib və birinci məsələlərdən saymış və bu yolda nümunə göstərmişdir. Nümunə isə milli birlik, milli anlaşma, çətin lakin müqəddəs vəzifələrin yerinə yetirilməsi üçün ümumi strateji mənafelərə xidmət etməkdir.

Bu sətirlər oxucuda elə təəssürat yarada bilər ki, müəllif onu yenidən hansısa totaritar təfəkkür tərzinə meyl etməyə çağırır. Bu başdan demək istəyirəm ki, əsla belə deyil və ola da bilməz. Çünki Azərbaycan Respublikasının müstəqilliyinin dönməz olduğu kimi,onun tutduğu demokratik inkişaf, plüralizm yolu da dönməzdir. Qarşımızı kəsən çətin, ağlagəlməz əngəl və maneələrə baxmayaraq, ən müxtəlif məqamlarda milli dövlətçiliyimizin,müstəqilliyimizin,demokratiyanın dönməzliyini dəfələrlə, daim qətiyyətlə söyləyən respublika prezidentinin əzmini milyonlarla soydaşımızın qürur və iftixar dolu göz yaşlarına səbəb olduğunu həyəcansız müşahidə etmək və bu müqəddəs yolda ona qoşulmamaq da mümkün deyil.Axı, möhtərəm prezidentimizin dediyi kimi, bizim ən böyük və müqəddəs sərvətimiz də müstəqilliyimizdir. Müstəqilliyin ən zəruri şərtləri isə milli dövlətçilik və ərazi bütövlüyüdür. Elə bu gün müstəqil Azərbaycanda bütün qüvvələri, dilindən,dinindən asılı olmayaraq bütün vətəndaşları birləşdirəcək ideoloji zəmin də milli müstəqillik, milli dövlətçilik və ərazi bütövlüyü prinsipləri və bu müqəddəs prinsiplərin həyata keçməsi, möhkəmlənməsi və dönməzliyi yolunda fəaliyyət birliyi olmasıdır. Təəssüflər olsun ki, belə bir fəaliyyət birliyini təmin edəcək siyasi yetkinlik hələlik əlçatmaz arzuya bənzəyir. Proqram və nizamnamələrində, söz və bəyanatlarında yuxarıda qeyd etdiyimiz prinsiplərə sədaqətdən dəm vuran bir sıra müxalifət partiyalarının nümayəndələri hələ də fasiləsiz olaraq ağa qara deməkdən yorulmur, iqtidarın ünvanına böhtan və cəfəngiyat yağdırmaqdan çəkinmir,əlinə düşən ən kiçik fürsətdən belə istifadə etməyi vacib sayaraq ona milli fəlakət donu geydirməyə çalışır, vətəndaşlarda çalışqanlıq yaratmağa əbəs səy göstərirlər.

Demokratiya heç zaman bitmiş vəzifə hesab edilə bilməz,bu elə bir yoldur ki, sonu yoxdur. Son dərəcə müdrik fəlsəfi ümumiləşdirmə olan bu fikir prezident Heydər Əliyevin çıxış söhbət və nitqlərində dəfələrlə,özü də müxtəlif çalarlıqlarla vurğulanmaqdadır. Doğrudan da, demokratiya birdənbirə həyata keçirilən radikal islahatlarla qət ediləsi səviyyə və mənzil deyil, onun yolu kifayət qədər uzun olan təkamül yoludur. Bu yolda cəmiyyətin

bütövlükdə, bütün sahələrinin tarazlı inkişafı və vətəndaşların dünyagörüşü və təfəkküründə müəyyən dəyişikliklərin baş verməsi zəruridir. Əks halda,təzəcə əkilmiş tingdən bar,məhsul istəməyə bənzəyər. Əslində, buna oxşar bir məqamı artıq yaşadıq: 1993-cü ildək qısa bir dövrdə demokratiya "libasına" bürünərək müxtəlif əbdürrəhmanlar,ayazlar, rəhimlər, surətlər, əlikramlar və s.və i. nələr gətirmədi millətin, xalqın başına. Bunların ağrısını hələ çox çəkəcəyik. Təəssüflər olsun ki, yalnız belə şəraitdə özünü təsdiq və tətbiq etmə imkanı tapan bəzi müxalifətçilər ümummilli, ümumdövlətçilik, müstəqillik, ərazi bütövlüyü mənafelərinə yox, şəxsi ammbisiyalara, bir də başqa ağalara xidmət etməyi üstün tuturlar.

Bir daha qeyd etməliyəm ki, demokratik cəmiyyətdə müxalifətin vacibliyi ona görə qəbul edilir ki, müxalifət ümummilli və ümumdövlət mənafelərinə xidmət edərək bu mənafelərin həyata keçməsində müsbət rol oynayır. Bu baxımdan Azərbaycanda bu gün mövcud partiyaların əksəriyyətinin strateji məqsədlərində oxşarlıq təbii və qanunauyğun hesab edilməlidir, baxmayaraq ki, müxtəlif cür maskalanmış kukla və muzdlu qurumlar da olmamış deyil. Sonuncular başqa söhbətin mövzusudur. Bizi maraqlandıran son illərin təlatüm və təbəddülatları zəminində rüşeymlənən və formalaşan,sözdə özlərinin xalqın və millətin sadiq əsgərləri kimi qələmə verən qurumlar və onların bir ovuc ideoloq rəhbərləridir.Ən acınacaqlısı budur ki, onlar Azərbaycanın xoşbəxt gələcəyi fövqündə özlərinə nəinki alternativ görmürlər, heç görmək qabiliyyətində də deyillər. Bu qurumların buraxdığı qəzetlərdə,onların rəhbərlərinin bəyanat və çıxışlarında Azərbaycan onunla bağlı və burada gedən bütün proseslər yalnız iki rəngdə görünür:qara və ağ.Bu gün Azərbaycanda çıxan "Azadlıq", "Yeni Müsavat", "Müxalifət", "Cümhuriyyət" və s. bu kimi qəzetlər və onlara qəyyumluq edən partiya və qurumların prinsipi ağ-qara prinsipidir. Təhlükə isə ondadır ki, bu adamlar özlərin məkrli iddia və məqsədlərini konyunktur, dəbdə olan fikir, ifadə və şüarlarla maskalayır, əməldə, işdə özlərinə bənzərlərə qoşularaq cəmiyyətimizin və dövlətçiliyimizin formalaşmasının indiki mərhələsində dövr və fəaliyyətindən miras qalmış, dərəbəylikdən tutmuş uydurduqları iftiralaradək hər şeyi iqtidarın üzərinə yıxmaqla məşğul olurlar və beləliklə, ictimai fikri azdırmağa can atırlar.

Bir daha vurğulamağı lazım bilirik, demokratiya yolunu seçmiş cəmiyyətdə müxalifətin olması qanunauyğun və təbiidir. Sivil cəmiyyətlərdə iqtidar-müxalifət münasibətləri inkişafın təkanverici qüvvələrindən hesab olunur. Elə bu baxımdan bizdə də müxalifətin olması demokratik inkişafın göstəricisidir. Və bu demokratik inkişaf yolunda qarşımızda əngəllər, maneələr, cəmiyyətimizdə nöqsanlar və çatışmazlıqlar da vardır.Gördüyümüz kimi,onların aradan qaldırılması üçün günlər, aylar, bəzən də illər kifayət

etmir. Bu da təbiidir. Onilliklər ərzində yaranmış problemlər, dünyagörüşü bir gündə həll oluna, dəyişə bilməz. Problemlərin, proseslərin mürəkkəbliyi, çətinliyi yeni yaranmış müstəqil dövlətlərin hamısında özünü göstərir. Azərbaycanın isə, əlavə olaraq Dağlıq Qarabağ problemi var, özü də iqtidara əvvəlkilərdən miras qalıb. Bu problemin ayrılıqda nə dərəcədə üzücü və düyünlü olduğunu izah etmək artıqdır. Belə bir şəraitdə müxalifətin tutduğu mövqe acı təəssüflər doğurur. Öncə ona görə ki, müxalifət ədalət anlayışını tamamilə unudub.Son bir neçə ildə, artıq iqtidarda olmuş müxalifət liderlərindən, torpaqlarımızın itirilməsi ilə bağlı, heç olmasa birinin ədalətli, obyektiv və səmimi etirafına rast gəlməmişəm. Axı, hamıya məlumdur ki, rayonlarımızın erməni qəsbkarları tərəfindən işğalına bir tərəfdən də o vaxtkı hakimiyyət uğrunda intriqalar imkan yaratdı,rayonların itirilməsi hakimiyyətə, vəzifələrə gəlmək yolunda, sadəcə olaraq, vasitə oldu.

Görəsən, kiminsə, nə vaxtsa bu hadisələrdə məsuliyyətin heç olmasa bir hissəsini öz üzərinə götürməyə cəsarəti çatacaqmı? (Şübhəsiz ki, o vaxt səmimi və fədakarlar da vardı). Əgər bu sual müsbət cavabını tapmazsa, onda müxalifətin indiki riyakarlığı və qeyri-səmimiliyi artıq siyasi mövqeyə, ideologiyaya çevrilir. Elə bir siyasi mövqeyə ki, xoş məramlı əməllə yox, qərəzlə yoğrulur. Nəticəsi isə göz qabağındadır. Artıq iş o yerə çatmışdır ki, müxtəlif ölkə, beynəlxalq təşkilat, maliyyə strukturları, beynəlxalq tədqiqatlar mərkəz və strukturların nümayəndələri, bir növ özləri də bilmədən, qiyabi şəkildə müxalifətin opponentlərinə çevrilmişlər.

Müxalifət nümayəndələrinin Azərbaycanda, ya ondan kənarda kiminləsə görüşü həftələrlə öz qəzetlərinin səhifələrindən düşməməsindən, oxucular, şübhəsiz ki, xəbərdardırlar. Amma Azərbaycan rəhbərliyinin müxtəlif sammitlərdə, rəsmi və işçi səfərlər zamanı apardığı son dərəcə gərgin fəaliyyət, tarazlaşdırılmış və müdrik siyasət nəticəsində qazandığı nailiyyətlər, yazıqlar olsun ki, çox zaman yuxarıda qeyd olunan müxalifət qurum və nümayəndələri tərəfindən qeyri-səmimi qarşılanıb. Seçildiyi gündən Azərbaycan prezidentinin apardığı xarici və daxili siyasət müasir politoloq, ekspert və mütəxəssislərin təhlilində öz obyektiv qiymətini alır, bu haqda dünya mətbuatında hər gün onlara məqalə, yazı, məlumat gedir, tədqiqatlar aparılır. Və bu materiallarla, artıq təkcə Azərbaycan neftindən yox, zəngin mədəniyyətə, adət-ənənəyə,incəsənətə, ədəbiyyata, musiqiyə, təbiqi sənətə və dilə malik bir ölkədən söhbət açılır və respublikamıza çoxşaxəli maraq getdikcə güclənir. Demək olar ki, əksər dövlət başçıları, Avropa Şurasının rəhbər və ekspertləri, Dünya Bankının nümayəndələri, müxtəlif maliyyə və tədqiqat mərkəzlərinin aparıcı analitikləri yekdildirlər: Azərbaycan tam daxili sabitliklə demokratiya, bazar iqtisadiyyatı, islahatlar yolunda inam və uğurla irəliləyir, onun müstəqilliyi dönməzdir.Onu da qeyd etmək lazımdır

ki, yeni müstəqil dövlətlər arasında Azərbaycan demokratik və iqtisadi islahatlar sahəsində göstəricilərinə görə irəlidə gedənlər içərisindədir. Bu da nüfuzlu beynəlxalq təşkilat, maliyyə strukturlarının gəldiyi nəticədir.

Müstəqil Azərbaycan artıq bütün çətinliklərə sinə gərərək demokratik cəmiyyət qurur. Mürəkkəb və uzun olan bu proses bütün vətəndaşların mənafelərinə uyğundur. Elə müxalifətin də strateji məqsədlərindən biri demokratik cəmiyyət qurmaqdır. Bu prosesə zəmanəmizin nüfuzlu şəxsiyyətlərindən biri Heydər Əliyev rəhbərlik edir. Cəmiyyətin nüfuzlu şəxsiyyətə ehtiyacını tarix həmişə sübut edib.Bunun üçün misallara əl atmağa lüzum görmürük. Cəmiyyətin, millətin, xalqın siyasi, iqtisadi, mənəvi, təhlükəsizlik istəklərinə cavab verəcək nüfuzu qazanmaq, nadir hallarda rəhbərlərə nəsib olur. Şübhəsiz ki, bu ən çətin vəzifələrdən biridir. Çünki nüfuz zor,güc vasitəsilə yox, əməli fəaliyyət və xidmətlə qazanılır. Azərbaycan üçün həm cəmiyyət daxilində, həm də beynəlxalq aləmdə alternativi olmayan rəhbərin ətrafında müqəddəs məqsədlərin həyata keçməsi naminə birləşmək hamının borcudur. Müxalifət də bu prosesdə öz müsbət rolunu oynamalıdır. Qurub-yaradana mane olmaqla yox, kömək etməklə özü də qərəzsiz, ambisiyasız, düzgün ədalətli mövqe ilə. Görülən işləri, qazanılan nailiyyətləri obyektiv təhlil etməklə, qiymətləndirməklə. Tənqidlə, fikir ayrılığı ilə yalan, iftira, qərəzli mövqe arasında yerlə göy qədər fərq var. Sükan xalqın dəstəyinə arxalanan etibarlı əllərdə olduğu üçün ikinci yol perspektivsiz və ziyanlıdır. Nə müxalifətin özünün, nə də cəmiyyətin əsl maraqlarına cavab vermir. Bu baxımdan bu gün müxalifətin bəzi qanadlarının öz fəaliyyət prinsiplərinə yenidən baxması, bir sıra düzəlişlər aparması və ən başlıcası, Azərbaycanın sabahını təmin edəcək ümummilli mənafelərə zərbə vuran addımlardan əl çəkməsi-dövrün tələbidir.

Dahi siyasətçilər isə günün durumu ilə yaşamırlar. Onların fikir, düşüncə və qərarları, ümumiyyətlə, əməlləri gələcəyə yenəlmiş strateji kateqoriyalar üzərində qurulur. Elə bu səbəbdən də onların əsl qiymətini ən ədalətli və güclü hakim-zaman bir daha verəcəkdir. Amma indinin özündə də bu xidmətləri görən və qiymətləndirən xalqı çaşdırmaq-xəyanətdir.

"Respublika" qəzeti, 13 dekabr 1997-ci il

Dünyada tək və real güc: İnsan

Hər bir hərəkət hərəkətsizlikdən yaxşıdır.
Aristotel

1990-cı ildən bu tərəfə hər il BMT-nin İnkişaf Proqramının (BMTİP) İnsan İnkişafı Hesabatı dərc olunur. Bu, BMTİP tərəfindən hazırlanan müstəqil hesabatdır. İnsan İnkişafına dair Hesabatlar (İİH) iqlim dəyişikliyindən tutmuş insan hüquqlarına qədər bəşəriyyətin ən çox üzləşdiyi mühüm problemlər üzrə müzakirələrin müəyyən çərçivəyə salınmasına kömək edir. Dərc olunan hesabatda İnsan inkişafı indeksinə (İİİ) görə ölkələrin reytinqləri müəyyənləşdirilir. 1990-cı ildən 2009-cu ilə qədər İnsan İnkişafı ölkələr üzrə 3 kateqoriyaya ayrılırdı: aşağı, orta, yuxarı. 2009-cu ildən etibarən bura yeni "çox yüksək" kateqoriyası əlavə edilmişdir.

2009-cu ildə "Maneələrin aradan qaldırılması: İnsan miqrasiyası və inkişafı" adlı hesabatda Azərbaycan 182 ölkə arasında 86-cı pillədə yer almışdır. Bununla da Azərbaycan bu göstəricilərlə orta inkişaf etmiş ölkələr sırasına düşmüşdür. 2009-cu il hesabatında sərhədlər daxilində və xaricində miqrasiya mövzusu yer almışdır. Miqrasiya əsasən regionda münaqişə, insanların daha yaxşı yaşamaq və təhsil almaq istəyi ilə metropoliya və meqapolislərə axını nəticəsində baş verir. Son vaxtlar əhalinin qlobal səviyyədə mobilliyi artmış və miqrasiya axınları ayrı-ayrı dövlətlərdə və regionlarda sosial vəziyyətə təsir edən ciddi faktorlardan birinə çevrilmişdir.

BMT səmərəli idarəçiliyin təkmilləşdirilməsi, yoxsulluğun azaldılması, insan hüquqlarına rəğbətin və gender bərabərliyinin təmin olunması, insanların sağlamlıq və təhsil sahələrindəki əsas ehtiyaclarının qarşılanması üçün əlverişli mühit yaratmaqla Azərbaycanın inkişafını dəstəkləmişdir.

2010-cu ilin "Millətlərin həqiqi sərvəti: İnsan İnkişafına hazırlıq" hesabatında Azərbaycan 67-ci pilləyə yüksəlmiş və inkişaf etmiş ölkələr sırasına qalxmışdır. İnsan inkişafı hesabatının dünyanın inkişaf siyasətinə böyük təsiri olmuşdur. Artıq 20-ci ilini qeyd edən Hesabat insan inkişafı düşüncələrinin sərhədlərinin genişləndirilməsinə təsir ənənəsini davam etdirir.

1989 - 1994-cü illər ərzində Azərbaycan və Ermənistan arasından baş vermiş münaqişə nəticəsində 1 milyona yaxın azərbaycanlı Ermənistan tərəfindən işğal olunmuş ərazilərdən qovulmuşdur. BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə çağıran 4 qətnamə qəbul etmişdir. Ermənistan bu günə kimi, bu qətnamələrə məhəl qoymur. Bu ölkənin bölgədə apardığı siyasət, qonşuları Türkiyə və Gürcüstana qarşı olan ərazi iddiaları, qardaş Türkiyənin bu ölkə ilə bütün münasibətlərini

kəsməsinə və sərhədlərini bağlamasına gətirib çıxarmışdır.

Dağlıq Qarabağ münaqişəsinin davam etməsi regionun iqtisadi cəhətdən inkişafına başlıca maneədir. Ermənistan qonşu ölkənin ərazisini işğal etməklə özünü təcrid vəziyyətinə salmış və inkişaf imkanlarını demək olar ki, sıfıra endirmişdir. Dünyanın müxtəlif ölkə və dairələrinin göstərdiyi yardım isə yalnız bir təhər yaşamasına çatır. Azərbaycan isə əldə olan imkanları maksimum dəyərləndirib insanların daha yaxşı yaşayışını təmin edərək insan faktorunun vacibliyini anlayır. Azərbaycan bütün yatırımlarını öz ölkəsindəki insanların rifahı üçün edir.

Beynəlxalq qurumlar və İnsan İnkişafı Hesabatını hazırlayan BMT-nin İP Ermənistana hələ də çəhrayı eynəklə baxmaqda davam edir və nəticə olaraq Ermənistan ötən ilin hesabatında tutduğu pillədə saxlanılıb. Ermənistanın hal-hazırkı vəziyyəti və işğalçılıq siyasətini davam etdirməsi onun inkişaf perspektivlərini sual altında qoyur.

21 oktyabr 2010-cu ildə Dünya Bankının İdarə Heyəti Qrupu 2011 - 2014-cü illər üçün Azərbaycanla yeni Ölkə Əməkdaşlığı Strategiyası üzrə danışıqlar aparmışdır. Yeni Strategiyanın iki mühüm sahə üzərində qurulması planlaşdırılır. Birinci sahə qeyri neft sektorunun, əsasən təkmilləşdirilmiş biznes mühitinin, daha yaxşı infrastruktur və kənd təsərrüfatının gücləndirilməsi istiqamətini, ikinci sahə səhiyyə, təhsil, sosial müdafiə və su təminatı da daxil olmaqla sosial və kommunal təminatların effektivliyinin təkmilləşdirilməsini əhatə edir.

İnsan İnkişafına dəstək olaraq 2009 - 2010-cu illərdə Azərbaycan prezidenti İlham Əliyev tərəfindən 20 - ə yaxın fərman və sərəncam imzalanmış və bunun nəticəsində 2010-cu ildə ölkədə 56 mindən çox yeni iş yeri açılmış, əhalinin rifah halının yaxşılaşdırılması, yoxsulluğun səviyyəsinin azaldılması, əmək bazarının təkmilləşdirilməsi, qeyri neft sektorunun inkişafı və digər sahələrdə tədbirlər həyata keçirilmişdir.

Bu gün Azərbaycan miqrasiyanın təyinatı olan ölkəyə çevrilmişdir. Azərbaycana müxtəlif ölkələrdən əsasən şərqdən miqrasiya güclənmişdir. Bu insanlar daha yaxşı yaşayış üçün Azərbaycana gəlirlər.

Keçən 20 illik müddət ərzində insan inkişafına aparan müxtəlif yollar göstərir ki, davamlı tərəqqi üçün vahid mexanizm yoxdur və uzun müddətli uğurun qazanılmasında iqtisadi nailiyyətin rolu böyükdür. Yəni, insan inkişafını təmin etmək üçün düzgün qurulmuş siyasətə, demokratik dövlətçiliyə və güclü idarəçiliyə nail olmaq lazımdır. Hazırlanmış hesabatda keçmişlə müqayisədə Azərbaycanın xeyli irəliləməsi deyilənlərə nail olduğunun göstəricisidir.

"Today`s Zaman", Türkiyə, 5 noyabr 2010-cu il

MÜNDƏRİCAT

Müəllifdən ... 3

Xarici siyasətdə Liderlər

Zirvədə dayanan Lider ... 7
Hər bir millətə şərəf gətirə biləcək insan ... 15
Böyük Yolun Yolçusu ... 27
Əfsanələri reallığa çevirən şəxsiyyət ... 42
Tarixi şərait və ümummilli lider ... 49
Azərbaycan Prezidenti sülhün carçısıdır ... 62
İlham Əliyev: siyasi portretin cizgiləri ... 63

Xarici siyasətin əsas istiqamətləri

Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli ... 81
Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri haqqında ... 99
Heydər Əliyevin xarici siyasət kursu Azərbaycanın təhlükəsiz, davamlı və dinamik inkişafının qarantıdır ... 126
Ümummilli lider Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir ... 140
Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamı Azərbaycanın uğurlu inkişafının təminatıdır ... 153
Qloballaşan dünyada Azərbaycanın hücum xarakterli praqmatik xarici siyasət kursu ... 212
Konseptual xarici siyasətin uğurlu nəticələri ... 225
Milli maraq və mənafeləri təmin edən effektiv xarici siyasət ... 234
Diaspora construction conception of Heydar Aliyev ... 249

Regional əməkdaşlıq məsələləri

Heydər Əliyevin xarici siyasət konsepsiyasında Avroatlantik strukturlarla əməkdaşlıq ... 263

Heydər Əliyevin xarici siyasət kursunda Avropa ilə qonşuluq 282
Relationship between Azerbaijan and NATO:
establishment, development and prospects 290
Azerbaijan's relations with the Islamic
World and the Countries of Asia 304

Xəzər hövzəsində enerji məsələləri

Heydər Əliyevin enerji diplomatiyası 325
Heydər Əliyevin xarici siyasət konsepsiyasında
Xəzərin statusu məsələsi 337
Xəzərə sülh, dostluq və əməkdaşlıq statusu 348
Bir daha Xəzərin statusu haqqında 352

Dağlıq Qarabağ münaqişəsi və regional təhlükəsizlik məsələləri

Dağlıq Qarabağ münaqişəsi: konseptual baxış cəhdi 361
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarix və geosiyasət
müstəvisində 368
Bir daha 907-ci düzəliş haqqında 402
Qafqazda və Balkanlarda mövcud münaqişələrin oxşar
və fərqli cəhətləri haqqında 411
Türkiye-Ermenistan ilişkilerinde kazanan ve kaybeden 416

Ümumi məsələlər

Dünənin, bu günün və gələcəyin partiyası 421
Diplomat peşəsi 440
Siyasət olimpinə doğru 446
Gerçəkliyi qəbul etmək müdriklikdir 450
Cəmiyyət, iqtidar, müxalifət 454
Dünyada tək və real güc: insan 459

Nəşriyyatın direktoru E.A.Əliyev
Mətbəənin direktoru S.O.Mustafayev
Texniki redaktor M.H.Xanbabayeva
Kompüter dizaynı E.M.Mikayılova

Çapa imzalanıb 15.03.2012. Formatı 70x100 $^{1}/_{16}$.
Ofset çapı. F.ç.v. 29. Tiraj 300.

"Çaşıoğlu" *mətbəəsi.*
Bakı şəhəri, M.Müşfiq küçəsi 2 E. Tel.: 447-49-71.